*Şubay Cavad oğlu Nuruzadə*

# *Asiya və Afrika ölkələrinin yeni tarixi*

## *(I cild)*

***Azərbaycan Respublikası Təhsil Nazirliyinin EMŞ-nin “tarix” bölməsinin 2 iyun 2016-cu il tarixli iclasının qərarına əsasən dərslik kimi çap edilir. (pr. №3)***

**Sumqayıt-2017**

***XVII əsrin I yarısı və XIX əsrin 70-ci illəri.***
***Universitetlərin tarix və şərqşünaslıq fakultələrinin tələbələri və magistlər üçün.***


***Redaktor: Yaqub Mahmudlu***
*AMEA-nın akademiki, tarix elmləri doktoru, professor.*

***Rəyçilər: X.S.Köçərli***
*Respublikanın əməkdar müəllimi, tarix elmləri doktoru, professor.*
***M.S.Həsənov***
*tarix elmləri doktoru, professor.*
***Qarayev Faiq Sarı oğlu.***
*AMEA-nın Fəlsəfə və hüquq institutunun dissertantı, filosof*
***Ə.X.Əhmədov***
*Tarix üzrə fəlsəfə doktoru, dosent.*
***N.S.Hacinskaya***
*Tarix üzrə fəlsəfə doktoru, dosent.*
***Ramilə Hüseynli***
*ADPU-nun baş müəllimi.*



***Nuruzadə Şubay Cavad oğlu.***
***Asiya və Afrika ölkələrinin yeni tarixi. (XVII əsrin I yarısı və XIX əsrin 70-ci illəri).***

***Sumqayıt, "Azəri" nəşriyyatı, 2017, 440 səhifə***



***Kitab Asiya və Afrika ölkələrinin yeni tarixindən bəhs edir. Burada hər bir ölkənin tarixinin ümumi və xüsusi cəhətləri, siyasi və sosial- iqtisadi həyatı, aqrar münasibətlər, Avropa dövlətlərinin ekspansiya, koloniyaçılıq və müstəmləkə siyasətləri, milli azadlıq hərəkatının formaları və mərhələləri öyrənilir. Həmçinin region ölkələrin inkişaf istiqamətlərini müəyyənləşdirən daxili və xarici amillərin rolu, beynəlxalq münasibətlər sistemində dövlətlər arasında ziddiyyətlər və onun mahiyyəti, maraqlar və maraq dairəsi tərəfsiz, qərəzsiz tarixçi baxımından obyektivcəsinə təhlil olunur.***

***Kitab Asiya və Afrika ölkələrinin yeni tarixini öyrənən universitet tələbələri, şərqşünaslar və magistrlər üçün əlverişli və məqsədəmüvafiq mənbə ola bilər.***



İSB№ 978-9952-453-11-9
655 (07) -2017

# MÜƏLLİFDƏN

Hörmətli oxucular! Asiya və Afrika ölkələrinin yeni tarixi kitabının I və II cildi birlikdə təxminən 50 il bundan əvvəl ruscadan doğma dilimizə tərcümə olunmuş və çap edilmişdir. Əlbəttə, həmin dövrün ictimai-siyasi mahiyyətinə görə tərtib edilmiş həmin dərslikdə çoxlu qüsurlar var idi. Hər iki qitənin xalqlarının milli dəyərləri, milli azadlıq hərəkatı təhrif edilir və müasir dövrün tələblərinə cavab vermirdi. Məlum olduğu kimi, XX əsrin 90-cı illərindən etibarən SSRİ adlı qüdrətli sistem süquta uğradılmış, dünyada geosiyasi vəziyyət dəyişmiş, dünya sistemində demokratik məqamlar tədricən reallaşmaqda idi. Eyni zamanda dünya tarixinin mühüm tərkib hissəsini təşkil edən Asiya və Afrika ölkələrində XX əsrin 60-cı illərindən başlanan milli oyanış yeni mərhələyə daxil olmuşdu. Bu baxımdan dərsliyin yeni tələblərə cavab verən, milli mənafelərimizə uyğun olaraq yazılması zərurəti meydana çıxanda bir çox məhdudiyyətlərlə rastlaşsaq da ulu tanrının köməyilə işə başladıq və kitabın I cildini çapa təqdim etdik. Odur ki, çətin mərhələlər keçilsə də hər halda uğurlara nail olduq. Kitabın ərsəyə gəlməsində öz xeyirxahlığı ilə bizə mənəvi dayaq olan ADPU-nun rektoru, tarixçi alim professor Cəfər Cəfərova, kitabın elmi redaktoru, qayğıkeş və əziz müəllim, akademik t.e.d. professor Yaqub Mahmudluya, ADPU-nun 1-ci prorektoru professor M.Cəbrayılova, ADPU-nun elmi işlər üzrə prorektoru professor Azəf Zamanova, professor X.S.Köçərliyə, professor M.Həsənova, dosent Ə.X.Əhmədova, F.S.Qarayevə, t.ü.f doktoru, dosent N.S.Hacinskaya, ADPU-nun baş müəllimi Ramilə Hüseynliyə, ən nəhayət "Azəri" poliqrafiyasının direktoru Mirfazil Əliyevə, həmçinin mətbəənin btün əməkdaşlarına, kompyuter xidmətləri ilə əlaqədar Cavid və Azadə Nuruxzadələrə təşəkkürümü bildirirəm.

Hörmətli oxucular! Sovet siyasi sisteminin süqutundan sonra Asiya və Afrika ölkələrinin tarixi haqqında dərsliyin yazılması ilk təşəbbüslərdən olduğuna görə təbii olaraq dərslikdə müəyyən qüsurlar da ola bilər. Ona görə də xoşməramlı iradlarını bildirən hər bir oxucuya əvvəlcədən səmimi təşəkkürümü bildirirəm.

***Hörmətlə: Şubay Cavad oğlu Nuruzadə***

# GİRİŞ

Asiya və Afrika ölkələrinin tarixi ümumdünya tarixinin ayrılmaz, onunla sıx bağlı olan mühüm tərkib hissəsidir və bütövlükdə ümumdünya tarixi proseslərinə xas olan ümumi qanunauyğunluq Asiya və Afrika ölkələri tarixinə də aiddir. Bununla bərabər Asiya və Afrika ölkələri tarixinin dövrlərə bölünməsi, xüsusilə orta əsrlər dövrünün axırları və yeni dövrün başlanğıcı zənnimizcə Qərbin qabaqcıl ölkələrinin tarixi üçün sovet tarixçiləri tərəfindən müəyyən edilmiş dövrlərdən fərqlidir. Misal üçün, Qərbi Avropa ölkələri XVI əsrin əvvəllərindən XVII əsrin ortalarınadək feodalizmin son mərhələsi dövrünü keçirirdilər ki, bu da feodalizm cəmiyyəti daxilində kapitalizm ukladının meydana gəlməsi, dünyanın ictimai-iqtisadi inkişafında yeni mərhələnin başlanması ilə xarakterik idi. Halbuki, bu zaman öz inkişafında xeyli geridə qalmış olan Şərq ölkələri hələ inkişaf etmiş feodalizm dövrünü keçirirdi. Qərb ölkələri isə ictimai-iqtisadi formasiyanın bu dövrünü artıq XI-XV əsrlərdə keçirmişdilər. Əlbəttə, bunun obyektiv və subyektiv səbəbləri vardır.

Odur ki, Şərq ölkələrinin əksəriyyətində feodal istehsal üsulunun sürətlə dağılması prosesi, kapitalizm ünsürlərinin az-çox əhəmiyyətli dərəcədə meydana gəlməsi artıq, XVIII əsrin ikinci yarısına təsadüf edir. Düzdür bu proses Qərbdə İngəltərə burjua inqlabı ilə əlaqədar daha erkən başlamışdı və bu zaman Şərq ölkələri Qərbin kapitalist istilaçı ölkələri tərəfindən geniş hücum obyektinə çevrilmişdi ki, bu da Şərq ölkələrinin daxili həyatında kapital ixracı və idxalında, ticarət münasibətlərinin qurulmasında olduqca böyük rol oynadı. Çox böyük əhəmiyyəti olan bu daxili və xarici amillər bizə Şərq ölkələrinin yeni tarixinin başlanğıcını XVIII əsrin axırları XIX əsrin əvvəllərindən hesab etməyə əsas verir.

Orta əsrlərin son dövründə Şərq ölkələrinin ictimai-iqtisadi inkişaf sürətinin ilkin feodalizm dövründəki inkişaf sürətinə nisbətən Qərbi Avropanın qabaqcıl ölkələrinin inkişafından geri qalmasının dərin səbəbləri var idi. Belə ki, bunlar feodalizm dövründə Şərq ölkələrində tarixi inkişafın bir sıra xüsusiyyətlərindən irəli gəlirdi və Şərq ölkələrində hakim

olan feodalizm münasibətlərinin inkişafına təsir göstərirdi. Bununla yanaşı xarici səbəblər, o cümlədən köçərilərin dağıdıcı basqınlarını da göstərmək lazımdır. Orta əsrlərdə Şərqin bir sıra ölkələrinə, o cümlədən Çin, Hindistan və İrana edilən bu basqınlar, bir çox nəsillərin gərgin yaradıcılığı nəticəsində əldə edilən nailiyyətlərin məhvinə səbəb oldu. Bununla yanaşı istila edilən ölkələrin kəndliləri ikiqat zülmə - "öz" və “özgə” feodalların zülmünə məruz qalırdı. Bundan başqa, istilaçı, köçəri qəbilələr, tayfalar içərisində patriarxal – feodal münasibətlərinin hakim olması Şərqin bir sıra ölkələrinin o cümlədən İran, Ərəb ölkələri, Monqolustanda ictimai-iqtisadi inkişafı və dövlətin mərkəzləşdirilməsini ləngidirdi. Amma qeyd olunması zəruridir ki, Şərqdə feodalizm cəmiyyəti daxilində yeni münasibətlərin formalaşmasına mane olan bu daxili və xarici səbəblərə baxmayaraq, Şərq ölkələrində məhsuldar qüvvələrin müəyyən dərəcədə artması nəzərə çarpırdı. Feodalizm quruluşu çərçivəsində kapitalizm ukladının meydana gəlməsi üçün ilkin şərtlər yetişməkdə idi. Qərblə Şərq arasında aparılan müqayisələrdən sonra bir daha aydınlaşır ki, Qərbdə kapitalizm dövrü hələ XVI əsrin əvvəllərində başlandığı halda, Şərqin ayrı-ayrı ölkələrində kapitalist istehsal münasibətlərinin ilk rüşeymləri XVI əsrin sonu və XVII əsrin birinci yarısında meydana gəlməyə başlamışdı. Sənətkarlıq getdikcə daha artıq dərəcədə xırda əmtəə istehsalçısına çevrilirdi. Daxili və xarici ticarət genişlənirdi, vahid daxili bazar yaranmağa, formalaşmağa başlamışdı. Daxili və xarici ticarətdən, gəmiçilik və sələmçilik əməliyyatından əldə edilən gəlirlər sayəsində şəhər tacirlərinin əlində çox asan yolla əldə edilən pul, qızıl, gümüş və zinət əşyaları toplanırdı. Müxtəlif maneələrə baxmayaraq, Şərq ölkələrində mütərəqqi mədəniyyət inkişaf edirdi ki, bunun da nailiyyətləri dünya mədəniyyətinə töhvə verməklə onun zənginləşməsində mühüm rol oynamışdı.

Xüsusilə XVIII əsrdə geniş vüsət almış bütün bu hadisələr, Şərqdə feodalizm cəmiyyətində başlanan tənəzzülün təzahürü olmaqla onun süqutunu tezləşdirən amil idi.

Əlbəttə, müasir tələblərdən biri də odur ki, Asiya və Afrika ölkələrinin yeni tarixi öyrənilərkən Avropa müstəmləkə-

çilərinin Asiya və Afrika ölkələrinə soxulmamışdan əvvəl bu ölkələrdə məhsuldar qüvvələrin ləng inkişafı, Şərqin daimi gerilik və durğunluğu haqqında, ingilis - sakson millətlərinin Şərq xalqlarından irqi üstünlüyü, Qərbin Şərqə qarşı qoyulması haqqında saxta "nəzəriyyələr" rədd edilməlidir. Təbii olaraq Şərqdə zəngin təbii sərvəti, ucuz işçi qüvvəsi ehtiyyatı kimi baxan imperializm paralel olaraq Şərq haqqında qeyri-obyektiv nəzəriyyələrini də hazırlayırdılar. Bu siyasətin də başlıca mahiyyəti istilaçılığa xidmət edirdi.

Böyük coğrafi kəşflər (XV əsrin axırları - XVI əsrin əvvəlləri), xüsusilə yeni dəniz yollarının açılması (XVII əsrin II yarısı) həm Qərbdə, həm də Şərqdə dünya tarixi inkişaf prosesinə olduqca böyük təsir göstərdi. Həmin kəşflər ilkin kapital yığımı haqqında təsəvvür yaratdı ki, bu da bəşəriyyət tarixinə obrazlı şəkildə desək "atəş və qılıncla" yazıldı. Amerikanın, Fransanın, Portuqaliyanın, Hollandiyanın timsalında Asiya və Afrika xalqlarını müstəmləkəçilik qaydaları əsasında qarət etmək sistemi formalaşdırıldı.

Portuqaliya və İspaniya müstəmləkəçilərinin ardınca onların niderlandlı, ingilis və fransız dostları da embarqo və ekspansiya mürtəce siyasətini aktivləşdirdilər. Şərq ölkələrini qarət etməklə hələ 1599-cu ildə 200 nəfər tacirin Londonda toplaşaraq təsis etdiyi inhisarçı Ost-Hind kompaniyaları, Niderlandın (1602-1798), İngiltərənin (1600-1858), Fransanın (1664-1770, 1785-1793) Ost-Hind kompaniyaları böyük rol oynadı. İngilis Ost-Hind kompaniyasının fəaliyyəti Hindistanı müstəmləkəyə çevirməyə kömək etdi. Digər kompaniyaların da fəaliyyəti eyni nəticə verdi. Avropa dövlətləri tərəfindən Şərq ölkələrinin müstəmləkə əsarətinə alınmasının başqa bir forması Yaxın Şərq üçün xarakterik olan kapitulyasiyalar rejimi idi.

Yeni dövrdə Şərq ölkələri xalqlarının iqtisadi və siyasi geriliyinin, onların inkişafının eybəcər şəkil almasının və Avropanın qabaqcıl ölkələrindən asılı qalmasının həlledici səbəblərindən biri də Avropa dövlətlərinin qarətçilik və müstəmləkəçilik siyasəti idi. Əlbəttə, Avropa dövlətlərinin Şərq ölkələrini müstəmləkə əsarətinə almaq siyasəti avropalılara

heç də asan başa gəlmirdi. Belə ki, illərlə formalaşan istibdada və istismara xarici zülmün də əlavə olması həmin ölkələrin xalqlarının müqavimət hərəkatına səbəb olmaqda idi. Bununla bərabər Şərq xalqları yadelli istilaçıların o cümlədən mancurların, monqolların, osmanlıların, əfqanların zülmünə qarşı özlərinin gizli müqavimət hərəkatı təşkilatlarını yaratmağa başladılar. Əlbəttə, müstəmləkə əsarətinə qarşı elmi əsası olmayan, nəticələri hesablanmayan, primitiv vasitə hesab edilən təcridolunma metodları da tərtib tdilirdi. Məsələn, Uzaq Şərq ölkələrində Çin, Yaponiya və Koreyada müqavimət vasitələrindən biri xarici aləmlə əlaqəni kəsib təklənmək siyasəti idi. Lakin bu təklənmə tam təklənmə ola bilməzdi. Nəticə etibarilə təklənmə siyasəti Uzaq Şərq ölkələrinin iqtisadi inkişafında mənfi rol oynayaraq onların geriləməyini daha da artırdı. Bu siyasət feodal münasibətlərinin mühafizəsinə kömək edərək kapitalizm ukladının təşəkkülünə mane olurdu. Mövcud vəziyyətlə əlaqədar K. Marks və digər Avropa klassikləri göstərirdilər ki, "Köhnə Çinin qalması üçün ilk şərt, onun tamamilə qapalı olması idi".

Əlbəttə, XVIII əsrin son mərhələsi dünya tarixində mühüm bir dövrü əhatə edir. ABŞ-da istiqlaliyyət uğrunda müharibə (1775-1783) və XVIII əsrin sonunda Fransa burjua inqilabı (1789) və digər mütərəqqi hadisələr Avropada feodal mütləqiyyət quruluşuna qarşı mübarizənin inkişafında həmçinin Qərb və Şərq xalqlarının azadlıq hərəkatına böyük təsir göstərdi.

Paralel olaraq XVIII əsrin axırlarından etibarən Asiya bazarlarına kapitalist dövlətlərin geniş hücumu başlanır və müstəmləkəyə düçar olmuş xalqların istismarı qüvvətlənir. Hindistanın istilası başa çatır və İngiltərənin hakimiyyəti altında birləşdirilərək "Britaniya Hindistanına" çevrilməsi ilə nəticələnir. Çinin və Yaponiyanın təklənməsinə zorakılıqla son qoyulur ki, bu da həmin ölkələrdə feodal münasibətlərinin dağılmasını sürətləndirirdi. K. Marks Çini nəzərdə tutaraq yazmışdır: "Tamamilə qapalı tabutda yaxşı saxlanılmış mumyanın, kənardan ona hava dəyəndə dərhal çürüməsi labüd olduğu kimi, bu qapalılığa da İngiltərənin iştirakı ilə zorla son qoyulduqda labüddən çürümə başlanmalı idi".

Bununla yanaşı Şərqə qarşı planlaşdırılan müstəmləkəçilik siyasətinin tərkib hissəsi olan qeyri-bərabərhüquqlu müqavilələrin bağlanması da Şərqin istilası üçün zəmin hazırladı. Nəticədə kapitalist dövlətləri, o cümlədən ABŞ, İngiltərə, Fransa, Hollandiya, Portuqaliya Şərq ölkələrini qeyri-bərabərhüquqlu müqavilələr bağlamağa məcbur etdilər ki, bunlar da həmin ölkələri yarımmüstəmləkələrə, müstəmləkəçilər üçün satış bazarı və xammal mənbəyinə çevirirdilər. Beləliklə XIX əsrin 30-60-cı illərində Şərqi Asiyaya qarşı Avropa qəsbkarları ilə yanaşı Amerika Birləşmiş Ştatlarının da təcavüzü genişləndi. Hələlik belə təcavüzlərin başlıca hədəfi Yaponiya, Koreya və Çin idi. Eyni zamanda ABŞ-ın hakim dairələri Amerika kapitalının inhisarçı nəzarəti altında olan "Sakit okean imperiyası" yaratmaq məqsədilə təcavüzkar planlar hazırlamağa başladı. Afrikanın Qvineya sahilləri boyunca İngiltərə və Fransanın dayaq bazaları genişləndirildi, Fransanın Hind-Çinə soxulması sürətləndi. Bununla bərabər müstəmləkəçilər keçmiş Niderland Ost-Hind kompaniyasının ərazilərini ələ keçirmək uğrunda rəqabəti daha da kəskinləşdirdilər. Cənub-Şərqi Asiyada müstəmləkələr uğrunda ingilis-holland mübarizəsi güclənərək yeni mərhələyə daxil oldu.

Qeyd edilməsi zəruri olardı ki, xarici kapitalın Şərq ölkələrinə soxulması, həmin ölkələrin sənayesinin inkişafına mənfi təsir göstərirdi, çünki onların sənayesi xarici mallarla rəqabət apara bilmirdi. K. Marks göstərirdi: "Xarici sənaye mallarının bu idxalatı, əvvəllər Kiçik Asiya, İran və Hindistan sənayesində olduğu kimi Çin sənayesinə də eyni təsir göstərmişdir. Çində əyiricilər və toxucular xarici rəqabət nəticəsində çox zərər çəkmişdir və bu da ictimai həyatın pozulmasına təsir göstərmişdir". Digər bir amil ondan ibarətdir ki, avropalılar istehsaldan çıxarılmış dəzgahları çox baha qiymətə Asiya və Afrika ölkələrinə satırdılar. Monopolyarlaşdırılmış ticarət sistemi mövcud idi. Amma təqdirə layiq idi ki, müstəmləkə təcavüzünə məruz qalan bütün Şərq ölkələri içərisində yalnız Yaponiya xarici kapitalist dövlətlərin nə müstəmləkəsinə, nə də yarımmüstəmləkəsinə çevrilmədi. Bu dövrdə Yaponiya sənaye üçün xammal mənbəyi və hazır sənaye malları üçün satış bazarı kimi Avropa və Amerika müstəmləkəçilərini bir o

qədər maraqlandırmırdı. Onların bütün diqqəti zəngin Çinə cəlb olunmuşdu. Çini zəbt etmək onların soyğunçuluğu və varlanmaları üçün daha geniş perspektivlər aça bilərdi. Beynəlxalq vəziyyətin gərgin olması ABŞ-da vətəndaş müharibəsi, Uzaq Şərq uğrundakı mübarizədə Avropa dövlətləri ilə ABŞ arasındakı ziddiyyətlərin kəskinləşməsi imperalistlərin çevikliyinin artmasına zəmin hazırladı. Amma imperialist dövlətlər Yaponiyanın da təsir dairəsinə salınmasını heç də unutmamışdılar. Sadəcə olaraq Yaponiyanın təsir dairəsinə salınması üçün məqam gözlənilirdi. Nəhayət, Yaponiyanın Qərb dövlətlərinin müstəmləkə və ya yarımmüstəmləkəsinə çevrilməsi çox çəkmədi və qısa müddət ərzində nisbi asılı ölkəyə çevrildi.

XIX əsrin ortalarında kapitalist dövlətlərin Asiyaya hücumunun ümumdünya miqyaslı əhəmiyyəti də var idi. Bunun ən mühüm nəticəsi dünya bazarının yaranması prosesinin başa çatmasından ibarət oldu. Marks 1858-ci ildə Engelsə məktubunda yazırdı ki, "Burjua cəmiyyətinin əsil vəzifəsi, ümumi cəhətlərdə olsa da, dünya bazarı və onun əsasında duran istehsal yaratmaqdan ibarətdir. Lakin yer dəyirmi olduğuna görə Kaliforniya və Avstraliyanın kolonizasiyasından, Çin və Yaponiya qapılarının açılmasından sonra bu işi sanki bitmiş hesab etmək olar. Ən başlıcası isə müstəmləkə ölkələri xalqları vahid dünya tarixi prosesinə qovuşur, bu xalqların tarixi ümumdünya tarixinin tərkib hissəsinə çevrilir".

Şərq ölkələrinə xarici müstəmləkəçilərin soxulduğu və bu ölkələrə zorla qeyri-bərabərhüquqlu müqavilələr bağlayaraq onu zorla qəbul etdirdiyi ağır bir şəraitdə Şərq ölkələrində kapitalist münasibətləri təşəkkül tapmaqda idi. Bu proses Şərqin müxtəlif ölkələrində bilavasitə bu ölkələr üçün xarakterik olan xüsusiyyətlərinə uyğun olaraq ayrıldığına görə Qərb dövlətlərində olduğundan fərqli idi. Amma Şərq ölkələrində kapitalist korporasiyası və manufakturaları ləng inkişaf edirdi, həm də bunlar Hindistan və bəzi digər ölkələr istisna olmaq şərtilə bir qayda olaraq xüsusi mülkiyyətçi kapitalist müəssisələri deyil, dövlət müəssisələri idi. Xarici kapitalın Şərq ölkələrinə soxulması nəticəsində bu ölkələrdə iqtisadi inkişafın geriliyi fabrik istehsalına keçilməsinə mane olur, milli sənaye burjuaziyasının və proletariatın təşəkkülü prosesini ləngidirdi.

Bununla yanaşı Avropanın kapitalist dövlətləri tərəfindən Şərq ölkələrinin müstəmləkələrə çevrilməsi və ekspansiya siyasəti nəticəsində bu ölkələrdə xalq təsərrüfatı primitiv və son dərəcə ləng inkişaf edirdi. Nəhayət, Şərq ölkələrinin dünya bazarına cəlb edilməsi həmin ölkələrdə əmtəə-pul münasibətlərinin inkişafına səbəb oldu. Lakin eyni zamanda bu ölkələr get-gedə daha artıq dərəcədə kapitalist dövlətlərinin aqrar-xammal mənbəyinə çevrilirdi. Bunun nəticəsi olaraq yerli sənaye getdikcə tənəzzül edirdi. İctimai sahədə isə bütün bunlar ona səbəb oldu ki, Şərq ölkələrində ticarət burjuaziyası getdikcə daha çox varlanır, həmin burjuaziyanın xeyli hissəsi isə müstəmləkəçilərin əlaltılarına çevrilirdi. O biri tərəfdən isə, Şərq ölkələrində sənaye burjuaziyasının təşəkkülü ləngiyirdi. Lakin müstəmləkəçilər öz mənafeyinə uyğun dərəcədə müstəmləkələrdə və yarımmüstəmləkə ölkələrində kapitalist münasibətlərinin müəyyən qədər inkişafına şərait yaratmağa məcbur oldular. Əlbəttə, bu inkişaf çox ləng və son dərərcə məhdud dairədə baş verirdi, həm də müstəmləkə və yarımmüstəmləkələrdə iri sənaye müəssisələri, banklar, dəmir yolları, metropoliya kapitalistlərinin əlində idi. Hər nəyin bahasına olursa olsun, mümkün qədər daha çox mənfəət götürməyə və əsarət altına almış olduqları xalqlar üzərində öz hegemonluğunu saxlamağa çalışan Avropa kapitalistləri Şərq ölkələrində mürtəce feodal qüvvələri ilə ittifaqa girirdilər. Belə təbəqələr öz xalqını istismar etməkdə, çirkli pullar qazanmaqda və xarici banklarda yatırmaqda maraqlı idilər. Bütün bunlar Avropa müstəmləkəçilərinin Şərq ölkələrində guya mütərəqqi rol oynadığını qəbul etməyə çalışan, elmə zidd və saxtakar burjua "nəzəriyyələrini" müasir tarix elmi dünya təcrübəsinə əsaslanaraq boş iftira olduğunu sübut edir.

XIX əsrin 30-60-cı illərində kapitalist dövlətlərin Şərq ölkələrini təsir dairəsinə salmaları və bu ölkələrin daxilində sinfi ziddiyyətlərin kəskinləşdirilməsi başlıca məqsədlərdən idi. Çində, Hindistanda, İranda və İndoneziyada antifeodal və milli-azadlıq hərəkatı, həm Qərbi, həm də Şərqi bürümüş iqtisadi, siyasi böhran yeni ictimai, iqtisadi formasiyanın üzləşdiyi böhranın ilk əlamətləri idi. Bunların bir vaxtda baş verməsi isə

müstəmləkəçilərin, başlıca olaraq İngiltərənin ağalığına qarşı Asiya xalqlarının ümumi narazılığının qanunauyğun təzahürü idi. Bu məqsədlə K.Marks yazırdı ki, "ingilis-hind ordusundakı üsyan (1857-1859-cu illərdə baş vermiş Sipahilər hərəkatı nəzərdə tutulur. Ş.N), İngiltərə hökmranlığına qarşı böyük Asiya xalqlarının ümumi narazılığının təzahürü ilə bir vaxta düşdü, zira Benqaliya ordusunun üsyanı, şübhəsiz, İran və Çin müharibələrilə sıx əlaqədardır".

Təbii olaraq XIX əsrin ortalarındakı xalq hərəkatlarının əsas hərəkətverici qüvvəsini kəndlilər və şəhər yoxsulları təşkil edirdi. Həmin hərəkatların xarakterik xüsusiyyətləri onların dini pərdə altında olmasında idi ki, bu da Marks göstərdiyi kimi bu da "Şərqdə olan bütün hərəkatlarda ümumi bir cəhət idi". Üsyan etmiş kəndlilərin başında bir sıra hallarda feodallar dururdu. Onlar bu və ya digər səbəbə görə üsyana qoşulur, lakin asanlıqla düşmən tərəfə keçirdilər. O zaman sənaye proletariatının demək olar ki, tamamilə olmaması nəticəsində kəndlilərin təcrübəli rəhbərləri yox idi, həmçinin onların üsyanlarının isə aydın məqsədi bilinmirdi. Antifeodal xarakterli hərəkatlar içərisində ən mütəşəkkili Taypinlər hərəkatı idi. Lakin bu hərəkatın rəhbərləri özlərinin ilk vaxtlar elan etmiş olduqları ideyaları həyata keçirə bilmədi və əslində bunu etmək üçün heç bir təşəbbüs göstərmədi. Şərq ölkələrinin əksəriyyətində isə mübarizə kortəbii, qeyri-mütəşəkkil, pərakəndə halında idi, hərəkat isə qisasçılıq xarakteri daşıyırdı ki, bunun da səbəblərindən biri həmin ölkələrin feodal pərakəndəliyi vəziyyətində olması idi. Bu səbəblər üzündən Şərq ölkələrində XIX əsrin ortalarındakı xalq üsyanları məğlubiyyətlə nəticələndi. İstismarçı sinfə və yadellilərə qarşı başlanmış hərəkatların məğlub olması isə milli birliyin olmamasında və daxili xəyanətdə idi. Bu haqda islam klassikləri haqlı olaraq göstərirdilər: "Millətimin içində xəyanət olmasa düşmən tab gətirə bilməz". Daxili feodal irticası qüvvələri ilə xarici müstəmləkəçi qüvvələrinin birləşməsi də həmin hərəkatların yatırılmasına kömək etdi. Mürtəce hökumətin xarici qəsbkarlarla milli xəyanətə əsaslanan ittifaqını xüsusilə Çində Taypin üsyanı və Hindistandakı 1857-1859-cu illərdə baş vermiş üsyan dövründə görmək olar. Hindistanda müstəmləkəçi höku-

mət orqanları hind cəmiyyətinin yuxarı feodal təbəqəsi ilə əlbir olub, öz mənafelərinə uyğun torpaq-vergi siyasətini həyata keçirirdilər. Bununla yanaşı Şərq xalqlarının azadlıq hərəkatlarını Avropadakı inqilabi hərəkatlarla əlaqəsinin zəif olmaması da xalq üsyanlarının və antiimperialist mübarizənin qələbəsinə imkan vermirdi.

Tarixin müxtəlif mərhələlərində baş vermiş milli-azadlıq hərəkatları, milli üsyanlar, despotik idarəçilik sistemlərinə qarşı mübarizələr məğlub olmalarına baxmayaraq Taypinlər, sipahilər, babilər üsyanları və başqa xalq üsyanları mütərəqqi və ədalətli cəmiyyət quruculuğu uğrunda mübarizə xarakteri daşıyırdı. Öz zamanında bu hərəkatlar bəzən soyuq qarşılansa da, bəzən çətinliklə dərk olunsa da hər halda Şərq xalqlarının azadlıq mübarizəsi üçün bunların çox böyük tarixi əhəmiyyəti var idi.

Dünyanın mütərəqqi fikirli tarixçiləri Şərq ölkələrində xalq üsyanlarının ilkin şərtləri, xarakteri, rolu və tarixi əhəmiyyəti haqqında, İngiltərənin Hindistanda, İran və Çində müstəmləkəçilik siyasəti, o cümlədən Cənubi Qafqazda, xüsusilə Azərbaycanın istilası uğrunda Osmanlı-Səfəvi ziddiyyətləri və bunun nəticələri haqqında bir sıra əsərlər yazmışlar. Öz tarixinin yaradıcısı, müstəmləkə və asılı ölkələrdə azadlıq hərəkatının həlledici qüvvəsi olan xalq kütlələrinin rolunu öyrənməyi, bəşəriyyətin yaddaşında əbədi olaraq həkk olunmuş tarixi hadisələri dərk etməyi özünün ən müqəddəs vəzifəsi hesab edir. Orta əsrlərin axırları, yeni dövrün əvvəllərində kəndlilərin protest hərəkatları və Çində olduğu kimi, Şərq ölkələrində fasilələrlə davam etmiş kəndli müharibələri son dərəcə mühüm rol oynamışdır. Mao Tsze-dunun fikrinə görə "Çindəki feodalizm cəmiyyətində kəndlilərin sinfi mübarizəsi, kəndli üsyanları və müharibələri tarixi inkişafın həqiqi hərəkətverici qüvvəsi olmuşdur".

Asiya və Afrika ölkələri xalqlarının daxili və xarici zülmkarlara qarşı mərhələli mübarizəsinin öyrənilməsində Azərbaycan tarixçiləri də dünyanın mütərəqqi fikrli tarixçilərinin obyektiv elmi təhlillərinə və qərəzsis mövqelərinə istinad edərək müasir dünyanın tələbləri baxımından mövcud problemlərə tarixi hadisələrin baş verməsi, gedişi və nəticələrinə obyektiv yanaşmanı özlərinin müqəddəs borcu hesab edirlər.

# ÇİN

Qədim dövlətçilik tarixinə malik olan, dünya elminin, mədəniyyətinin zənginləşdirilməsində mühüm rol oynayan Çin bəşər sivilizasiyasında özünəməxsus rola malikdir. Çin dünyanın ən nəhəng və ən qədim ölkələrindən biridir. Amurdan Himalay dağlarına və Pamirdən Sakit okeana qədər uzanan Çin ərazisi sabiq SSRİ və Kanadadan sonra ərazisinə görə dünyada 3-cü yeri tutur. Müasir Çinin ərazisi 9597 $km^2$-dir və Asiya qitəsinin xeyli hissəsini əhatə edir. Bu ərazinin Şərq hissəsində qədimdən əhali sıx yaşayır. Dünya mədəniyyətinə çox böyük və qiymətli incilər vermiş olan Çin xalqının tarixi çox qədimlərdən başlanır.

Qədim zamanlardan etibarən və orta əsrlərdə Çin yüz illər boyu dünyanın ən qabaqcıl və inkişaf etmiş dövlətlərindən biri olmuşdur.

Çində feodalizm iki min ildən artıq davam etmişdir. Yeni dövr ərzində Çində əvvəlki kimi feodalizmin primitiv əlamətləri qalmaqda idi.

Amma dağılmaqda olan feodalizm cəmiyyəti daxilində yeni, kapitalist istehsalı üsulunun rüşeymləri meydana gəlirdi. Lakin bu proses Çində hökmranlıq edən mancur Sin sülaləsinin (1644-1911) ağalığının tüğyan etdiyi mürəkkəb şəraitində baş verirdi.

## Çində despotik mancur ağalığı rejimi

XVII əsrin 20-ci illərində, yəni, 1622-ci ildə Çinin şimal hissəsində kəndli müharibəsi baş verdi ki, bu da demək olar iyirmi ilə yaxın davam etdi. 1644-cü ildə kəndli orduları paytaxt Pekin şəhərini tutub, 1368-ci ildən başlayaraq ölkədə hökmranlıq edən Min sülaləsinin imperator hakimiyyətini devirdilər. Kəndli müharibəsinin vüsətlə genişlənməsindən qorxan Çin feodallarının yuxarı təbəqəsi çoxdan bəri hakimiyyəti zəbt edərək Çini işğal etməyi qarşılarına məqsəd qoyan mancurları köməyə çağırdı. XVII əsrin əvvəllərində Çinin şimal-şərq sərhədlərindəki feodal mancur dövlətinin qoşunları Çinə soxuldu və 1644-cü ildə Pekini tutdu. Mancur-

ların və Çin feodallarının birgə səyi nəticəsində şimalda hələ 1622-ci ildə başlamış yoxsulların hərəkatı və üsyankar kəndli orduları darmadağın edildi. Güclü müqavimətə rast gəlməyən mancurlar Çinin qalan hissəsini də istila etməyə başladılar. Amma müstəsna hal idi ki, onlar Çin vətənpərvərlərinin inadlı müqavimətinə rast gəlirdilər. Mancurlar yalnız XVII əsrin 80-ci illərinin əvvəllərində Çin xalqının açıq silahlı müqavimətinin sonuncu ocaqlarını söndürə bildilər. Ölkənin hər yerində mancur qəsbkarlarının hakimiyyəti bərqərar edildi.

Beləliklə, antifeodal kəndli müharibəsinin məğlubiyyəti nəticəsində XVII əsrdə Çində feodalizm quruluşu əleyhinə qalxan mütərəqqi qüvvələri boğmaqda mancurların işğalı həlledici rol oynadı. Mancur ağalığının bərqərar edilməsi Çində feodalizm quruluşunu müvəqqəti olaraq möhkəmlətdi.

Mancur basqını ölkənin iqtisadiyyatına böyük ziyan vurdu. Ölkənin məhsuldar qüvvələri çox ciddi şəkildə zəiflədi. Həmçinin mancur basqını Çinin geriləməsinə səbəb oldu, onun inkişafını ləngitdi, xalq ikiqat zülüm altına düşdü.

Mancur istilaçılarının yaratdığı idarə üsulu və sistemi imperator başda olmaqla mancur feodallarının qeyri-məhdud hakimiyyət hüququna malik feodal monarxiyasından ibarət idi.

Həm sayca, həm də inkişaf səviyyəsinə görə istilaçılardan çox-çox yüksəkdə duran bir xalqın yaşadığı böyük bir ölkədə öz ağalığını saxlamaq üçün mancurlar Çin feodalları ilə sövdələşib sazişə girdilər. Çoxlu çinli məmurlar dövlət aparatında qulluq etməyə cəlb edildi. Məhz bu səbəbdən mancurlar uzun müddət hakimiyyəti əldə saxlaya bildilər.

Ölkənin əsas strateji məntəqələrdə hərbi qarnizonlar yerləşdirilmişdi. Onların əsas vəzifəsi mancurlara və hakim feodal təbəqəsinə qarşı çevrilən çıxışları qan ilə boğmaq idi. Mancur sülaləsinin əsas hərbi dayağı - "səkkiz bayraqlı qoşun" adlanan ordu idi ki, bu orduya mancurlar mühüm vəzifələrə mancur sülaləsinə öz sədaqətini sübut etmiş çinliləri qəbul edirdi. Əhali imtiyazlı qoşunun qarətkarlıq, zorakılıq və özbaşınalığından təngə gəlmişdi.

Mancur ağalığına qarşı Çin xalqının müqavimətini qırmağa və feodalizm quruluşunun əsas dayaqlarını olduğu kimi

qoruyub saxlamağa çalışan Sin sülaləsinin hökmdarları xalqın düşünən beyni olan ziyalılara ağır zərbələr endirərək Çin milli mədəniyyətinin inkişafını boğmağa, o zaman yayılmaqda olan qabaqcıl demokratik və maarifpərvərlik ideyalarının köklərini kəsməyə çalışırdılar.

Bu da bir fakt idi ki, Çin ziyalılarının əksəriyyəti aşağı təbəqələrin mancur hökmdarlarının pulu gücünə onların istilaçılara xidmət etmək səylərini qəzəblə rədd edir, xalqı yadelli düşmənə müqavimət göstərməyə çağırırdılar. Buna cavab olaraq mancurlar xalqı maarifləndirən, milli qurtuluşa çağıran ziyalıları kütləvi surətdə həbs etməyə, sürgünə göndərməyə və edam etməyə başladılar.

## XVIII əsrdə kənd təsərrüfatı

Mansur-Sin sülalə hakimiyyəti Çində inzibati idarəçilik sisteminin təkmilləşdirilməsi, xalqı hakimiyyətdən incik salmamaq məqsədilə öz ağalığının ilk vaxtlarında mütərəqqi tədbirlər də həyata keçirməyə başladılar. Belə ki, mancurlar ələ keçirmiş olduqları torpaqlarda feodal istismarını həyata keçirmək və terror vasitələrilə öz hakimiyyətini möhkəmləməklə bərabər, eyni zamanda kəndlilərin müqavimətini zəiflətmək üçün kənd təsərrüfatı məhsullarının istehsalının bərpasına kömək edəcək bir sıra tədbirlər də həyata keçirməli oldular. Boş qalmış dövlət torpaqları icarəyə verilirdi. Sahibsiz qalan və kəndlilər tərəfindən becərilən torpaqlar onların irsi sahibliyinə keçirdi. Xam torpaqları becərməyə başlayan kəndli təsərrüfatları 3 il müddətində vergilərdən azad edilirdi. 1368-ci ildən etibarən öz xalqına zülm edən, onu dilənçi kökünə salan Min sülaləsindən fərqli olaraq axır vaxtlarda qoyulmuş bəzi ən ağır vergi rüsumları ləğv olundu. Bu tədbirlərlə həvəsləndirilən kəndlilər tərk edib getdikləri kəndlərinə qayıtmağa, öz təsərrüfatlarını inkişaf etdirmək üçün var qüvvələrini sərf etməyə başladı. Kənd təsərrüfatı istehsalı tədricən bərpa edilməyə başlandı. Becərilən torpaqların sahəsi artaraq bəzi məlumata görə 1661-ci ildəki 5,5 milyon tsindən[1] 1766-cı ildə 7,5 milyon tsinədək artırıldı. Bu dövrdə əhalinin sayı da xeyli artdı və XVIII əsrin axırlarında əhalinin sayı 300 milyona çatdı.

[1]1 tsin – 6,144 hektara bərabərdir.

Çində feodalların gəliri artdıqca idarəçilik sistemində despotik üsul da gücləndirilməyə başladı.

Təbii olaraq çoxlu gəlir əldə etmək məqsədilə kəndlilər üzərindəki feodal istismarı və onların qarət edilməsi tədricən gücləndirilməkdə idi. XVIII əsrdə, xüsusilə XVIII əsrin ikinci yarısında torpaqların mancur və Çin feodalları əlində təmərküzləşməsi prosesi sürətlə inkişaf edirdi. İmperator, onun qohum-əqrəbası, imtiyazlı səkkizbayraqlı qoşun xüsusi mülkiyyətdə olan torpaqları və kəndlilərə icarəyə verilmiş dövlət torpaqlarını özbaşınalıqla ələ keçirir, kəndliləri torpağa təhkim edirdilər. Mancur ağalığının ilk dövrünə nisbətən, XIX əsrin əvvəllərində imperator ailəsinin və səkkizbayraqlı qoşunun, habelə zadəganların torpaqları iki dəfədən də çox artmışdı. Kəndlilər üzərinə getdikcə daha ağır vergilər qoyulurdu. Vergi və torpaq rentasının bir hissəsi pul şəklində alınırdı. Torpaq və can vergilərini, habelə müxtəlif əlavə və xüsusi vergiləri mancur sulaləsi öz xəzinəsinin gəlirlərini artırmaq məqsədi ilə getdikcə daha tez-tez belə vergi siyasətinə əl atırdı, nəticədə vergini ödəmək üçün kəndlilər sələmçilərə müraciət etməyə məcbur olur və çıxılmaz borca düşürdülər. Daima borc içərisində yaşayan kəndlilərin hakimiyyətin despotik siyasətinə qarşı etiraz etməyə fiziki cəhətdən taqəti qalmamışdı.

Torpaqların mancur feodallarının əlində təmərküzləşməsi və kəndlilərin qarət edilməsinin güclənməsi kənd təsərrüfatında məhsuldar qüvvələrin inkişafını ləngidirdi. Torpağı əlindən çıxan, məmurlar və sələmçilər tərəfindən təqib olunan kəndli kütlələri təsərrüfatını başlı-başına buraxaraq kəndi tərk edib gedir, səfillərə çevrilir və iş axtarmaq üçün şəhərlərə axışırdılar. Geniş kəndli kütlələrinin müflisləşməsi ölkədə muzdlu işçi qüvvəsi üçün böyük, həm də ucuz bazar yaradırdı. Torpaqdan əli üzülən kəndlilər şəhərlərə axışır, ölkəni məcburi qaydada tərk edir, muzdlu işçiyə və siyasi qüvvəyə çevrilirdi ki, bunu hələlik mancurlar dərk etmirdilər. Məcburi mühacirlər sırasında ziyalılar da var idi ki, onlar xalqın azadlıq proqramını yalnız mühacirətdə hazırlamaq imkanına malik idilər.

XVIII əsrdə Çində hələ də natural təsərrüfat üstünlük təşkil edirdi. Lakin əmtəə istehsalı da inkişaf etməkdə idi.

Kənd təsərrüfatının əmtəələşməsi prosesi getdikcə daha artıq nəzərə çarpırdı. Pambıq, tütün yarpağı və çay istehsalının artması bu bitkilərə bazarda tələbatın çoxalması ilə əlaqədar idi. Şəhər sənayesi və ticarət də nisbətən sürətlə inkişaf edirdi.

## Şəhər sənayesi və ticarət. Kapitalizmin ilk rüşeymlərinin meydana gəlməsi

Mancurların basqını dövründə tənəzzül etmiş şəhərlər artıq XVII əsrin 80-90-cı illərində bərpa edilməyə başlandı. Cənub-şərq sahillərində dörd yerdə dəniz gömrükxanaları təsis edildi. Məsələn, Nerçinskdə 1689-cu ildə və Kyaxtada 1727-ci ildə Rus-Çin müqavilələrinin bağlanması sayəsində Çin və Rusiya arasında quru yolla ticarət müntəzəm şəkil aldı. Xarici tacirlər Çinin ipək, çay, çini qab-qacaq və başqa mallarını külli miqdarda alırdılar. Bu da şəhər sənayesinin surətlə inkişafına kömək edirdi. XVII əsrdə Çinin müxtəlif şəhərlərində, xüsusilə cənub-şərqində ipəkçilik və toxuculuq sənayesi xeyli inkişaf etmişdi, bu sahədə yüz minlərlə adam çalışırdı. Keçmişdə çini qablar istehsalı ilə məşhur olan Tszindeçjen şəhəri və digər şəhərlər öz əvvəlki şöhrətini bərpa etməkdə idi. Tszindeçjenin dövlət manufakturalarında və xüsusi mülkiyyətdə olan manufakturalarında təqribən 200 min adam işləyirdi. Mədən sənayesi inkişaf edirdi. Misal üçün, Yunnanda 100 min fəhlə mədən-metallurgiya sahəsində çalışırdı. Çay sənayesi, duz çıxarılması, gön istehsalı, kitab nəşriyyatı, tikinti işləri inkişaf edirdi. Bir istehsal sahəsinin yüksəlişi, başqa sahənin də inkişafına kömək edirdi. Bir çox şəhərlər məsələn, Nankin, Uçan, Kanton, Süçjou və başqaları şəhər sənayesi və ticarətin iri mərkəzlərinə çevrilmişdi.

İpək və pambıq-parça istehsalında keçmişdəki kimi yenə də ev sənəti mühüm yer tuturdu və istehsal olunan məmulatın xeyli hissəsi bazara gedirdi. Şəhər sənayesində dövlətə məxsus sənət müəssisələri ilə yanaşı, xüsusi mülkiyyətdə olan manfakturalar da mühüm yer tuturdu ki, bunlar da kapitalist müəssisələrinin ilk rüşeymləri idi. Toxuculuq manufakturalarında, çay istehsalında, tikinti işlərində əmək bölgüsü tənzim-

lənir və xeyli inkişaf etmişdi. Çini qablar istehsalında əmək bölgüsü xüsusilə geniş yayılmışdı. Yalnız xüsusi mülkiyyətdə olan manufakturalarda deyil, dövlət manufakturalarında da muzdlu əməkdən getdikcə daha geniş istifadə olunurdu. Beləliklə, "Çin feodal cəmiyyəti daxilində inkişaf etməkdə olan əmtəə təsərrüfatında artıq kapitalizmin ilk rüşeymləri meydana gəlirdi. Buna görə də xarici kapitalizmin təsiri olmadan da Çin tədriclə inkişaf edərək kapitalist ölkəsinə çevrilməkdə idi"[1].

Lakin torpaq üzərində feodal mülkiyyətinin qalması və Mancur sülaləsinin zülmü kapitalizmin ilk rüşeymlərinin möhkəmlənib inkişaf etməsinə mane olurdu. Müxtəlif məhdudiyyətlər, ağır vergi və gömrük rüsumları xarici ticarəti zəiflədir, monopoliyalaşdırma siyasəti sənət və ticarətin inkişafını pozurdu. Mancur istilaçılıq siyasəti ilə əlaqədar olaraq xüsusilə XVIII əsrin ortalarında artmış maliyyə çətinliklərinin öhdəsindən gəlmək üçün mancur hakimləri ən mühüm yollardan birini şəhər sənayesi və ticarət üzərindəki vergiləri artırmaqda görürdülər. Çoxlu daxili gömrükxanalar müxtəlif rayonlar arasındakı iqtisadi əlaqələri çətinləşdirirdi. Duz və çay üzərindəki dövlət inhisarı əhalini qarət etmək üçün əlavə bir mənbə olmaqla yanaşı, dövlətin iqtisadi qüdrətinin artmasına mane olurdu.

XVIII əsrin ortalarından başlayaraq Mancur hakimiyyəti xarici ticarət üzərindəki məhdudiyyətləri yenidən qüvvətləndirməyə başladı. 1757-ci ildə verilmiş fərmana əsasən dənizlə xarici ticarət yalnız bir limandan aparıla bilərdi ki, bu liman da sülalə hakimiyyətinin yaxın qohumlarının əlində idi. 1759-cu ildə mancur hökuməti ipək parçalar ixracını da qadağan etdi. Mancur dövlət aparatı ilə sıx əlaqəsi olan yalnız bir neçə tacir dəstəsinin xaricilərlə inhisarlı ticarət hüququ var idi. Belə ki, bura şimalda quru sərhəd boyunca Şansi tacirlərinin təşkilatı, Kantonda "Qunxan" adlı tacirlər təşkilatı daxil idilər. Xarici ticarət üzərinə qoyulan yeni məhdudiyyətlər ipək toxuculuğu, çini qablar, çay istehsalına ağır zərbə vurdu, çünki bu sahələrin məmulatlarının xeyli hissəsi xarici bazara gedirdi.

---

[1] Mao Tsze-dun. Seçilmiş əsərləri, 3-cü cild, səh 142-143

Feodal qapalılığını saxlamaq siyasəti feodal iqtisadiyyatı üçün xarakterik olub onun mühafizə edilməsi şərtlərindən biri idi. Belə bir siyasət yeritməklə mancur imperatorları eyni zamanda ölkəyə yeni ideyaların nüfuz etməsinə mane olmağa çalışırdılar. Çünki bu ideyalar mancur ağalığına qarşı Çin xalqının müqavimətini gücləndirə bilərdi. Xarici aləmdən təcrid olmaq səyləri müəyyən mənada xarici dövlətlərin artmaqda olan təcavüzkar cəhdlərindən qorunmaq üçün də bir vasitə idi. Lakin, sonralar bir daha həyat sübut etdi ki, bu siyasət ölkə üçün tamamilə faydasız bir vasitə imiş.

## İctimai ziddiyyətlərin daha da kəskinləşməsi

Bir neçə onilliklər ərzində Çində nəzərə çarpan iqtisadi yüksəliş XVIII əsrin ortalarından etibarən tədriclə tənəzzüllə əvəz olundu. Kəndli üsyanları o zamankı həyatda adi bir hala çevrildi. Mancurların sənaye və ticarətin azad inkişafını məhdudlaşdırmaq siyasətinə və məmurların özbaşınalığına qarşı sənətkarların, manufaktura sahiblərinin, tacirlərin xeyli hissəsinin narazılığı artdı. Kəndlilərlə mancur və Çin feodalları arasındakı ziddiyyətlər o zamankı Çin cəmiyyətinin əsas ziddiyyəti olaraq qalmaqda idi. Lakin indi artmaqda olan yeni ziddiyyətlər – bir tərəfdən şəhərin, o biri tərəfdən isə yeni mütərəqqi rüşeymlərin inkişafına mane olan feodal ağalığı kəndlilərlə feodallar arasındakı ziddiyyətlərə əlavə olunurdu.

Mancur ağalığına qarşı ümumi narazılıq ifadəsi, həmçinin gizli cəmiyyətlərin fəaliyyəti daha da təkmilləşdirilmiş mübarizə formasını hazırlamaqda idi. XVIII əsrin ikinci yarısında Yantszı sahilləri boyunca "Böyük qardaşlar" cəmiyyətinin nüfuzu artmağa və yayılmağa başladı. Qədim "Ağ zambaq" cəmiyyəti və onun şöbələrindən biri olan "İlahi şüur təriqəti" də elə bu zaman öz fəaliyyətini genişləndirdi. Bu gizli cəmiyyətlər arasındakı müxtəlif fəaliyyət və taktira fərqlərinə baxmayaraq əsas məsələdə, yəni mancur ağalığına son qoymaq məqsədilə onlar birləşirdilər. Gizli cəmiyyət üzvlərinin aparıcı qüvvəsini vətənpərvər ziyalılar, təqibə məruz qalan milli məmurlar, kəndlilər və sənətkarlar təşkil edirdi. Mancur

hökuməti gizli cəmiyyətlərin fəaliyyətini terror tədbirləri ilə boğmağa çalışırdı. Lakin hökumətin bu səyləri lazımi nəticə vermirdi. Əksinə, XVIII əsrin axırlarında bu cəmiyyətlərin fəaliyyəti daha da gücləndi.

Mancur-Sin sülaləsi imperiyasının daxilindəki ziddiyyətlərin kəskinləşməsi Çinin məzlum kiçik xalqları içərisində də mancurlara qarşı çıxışların çoxalmasına şərait yaradırdı. Bu xalqlar əsas etibarilə ölkənin qərb və cənub-qərb əyalətlərində yaşayırdı.

Feodalizm buxovlarını möhkəmlədən, Çinin mütərəqqi inkişafına mane olan mancur ağalığı bu zaman bir də ona görə ölkə üçün fəlakətli idi ki, məhz XVII – XVIII əsrlərdə dünyanın ən qabaqcıl dövlətlərində kapitalist inkişafı prosesi sürətlə getdiyi halda Çinin geriliyi məhz bu əsrlərdə özünü büruzə verməyə başladı.

XVIII əsrin axırı və XIX əsrin əvvəllərində Mancur-Sin sülaləsinin mürtəce fəaliyyəti nəticəsində Çinin tənəzzülü daha da artır və feodalizm cəmiyyətinin dərin böhran keçirdiyini göstərirdi. Xarici kapitalizmin Çin üzərinə sürətlə hücumu da elə bu zaman başlanır. Xalqın nifrət etdiyi Mancur sülaləsi tərəfindən idarə olunan feodal Çini inkişaf etmiş kapitalist dövlətlərin təcavüzünə müqavimət göstərmək üçün hazır deyildi, ölkəni qarət etmək taktikası ilə idarə edən yadellilər Çin xalqının gələcəyini düşünmürdülər.

## Feodal Çinin böhranı

Dünyanın bu nəhəng dövləti dünya tarixinin yeni dövrünə  feodalizm cəmiyyətinin artmaqda olan böhranı ilə daxil oldu. Uzun müddət ərzində kənd təsərrüfatı məhsulları istehsalı eyni səviyyədə qalmışdı, əhalinin sayı artmırdı. Kəndlilər var-yoxdan çıxırdı. Çin kəndlərində aclıq və dilənçilik hökm sürürdü. Misal üçün, 1785-ci ildə Şimali və Mərkəzi Çində son dərəcə böyük ərazini aclıq və səfalət bürüdü ki, bunun da nəticəsində çoxlu adam tələf oldu. Xalqın fəlakətlərinin səbəbi onun amansızcasına istismar edilməsində və onun hüquqları-

nın pozulmasında, hakim sülalənin yalnız varlanmaq siyasəti güdməsində idi. Məhz bu səbəbdən ölkədə torpaqsızların, ev-siz-eşiksizlərin, acların sıraları artırdı.

Feodalizm cəmiyyətinin böhranı özünü bir də onda göstərirdi ki, natural təsərrüfatın hakim mövqe tutmasına baxmayaraq ölkədə kortəbii şəkildə kapitalizm rüşeymləri meydana gəlirdi. Bütün çətinlik və maneələrə baxmayaraq bu yeni münasibətlər tədricən özünə yol açmaqda idi.

Ölkənin iqtisadi geriliyinə müvafiq olaraq onun siyasi geriliyi də özünü göstərirdi. Bütün hakimiyyət quruluşu başdan-başa çürümüş, deformasiyalaşmış və korrupsiyalaşmışdı. Rüşvətxorluq, tayfabazlıq, proteksionizm adiləşmişdi. Dövlət aparatında satqınlıq və rüşvətxorluq hökm sürürdü.

Keçmişdə olduğu kimi yenə də hərbi sistem zəif idi. Qoşunlar ayrı-ayrı əyalət kontingentlərindən ibarət olub pis təlim görmüş və pis silahlanmışdı. Vaxtilə güclü səkkizbayraqlı qoşun indi tüfeyli bir soyğunçu dəstəyə çevrilmişdi. Keçmiş istehkamlar uçub-dağılmış, yeni istehkamlar isə pis tikilirdi. Elə qalalar var idi ki, bunları samandan tikib üstünü kərpic şəklində rəngləyirdilər, qılıncların tərkibi keyfiyyətsiz dəmirdən ibarət idi. Döyüş silahları primitiv olaraq qalmışdı, orduda təlimlər keçirilmirdi.

Xalqın misilsiz fəlakətlərə məruz qalması Mancur-Sin sülaləsini narahat etmirdi, elə bu səbəbdən imperator başda olmaqla hakim mancur təbəqəsinə və bütün feodal idarə üsuluna qarşı xalq içərisində nifrət və qəzəb qanunauyğun olaraq artmaqda idi.

1796-cı ildən 1820-ci ilədək Çinin imperatoru olmuş Yun Yan öz hakimiyyət illəri üçün Tszya Tsin ləqəbini götürmüşdü. Bu illərdə feodal hakimiyyətinə qarşı müntəzəm surətdə üsyanlar baş verirdi. XVIII əsrin axırları – XIX əsrin əvvəllərində mancur hakimiyyətinə və Çin feodallarına qarşı üsyanlardan ən böyüyü "Ağ zambaq" gizli cəmiyyətinin rəhbərliyi altında 1796-1804-cü illərdə baş verən üsyan idi. Tarixi sınaqlardan çıxmış bu  gizli cəmiyyət əcnəbi Sin sulaləsini hakimiyyətdən devirmək və Çində milli hakimiyyəti

bərpa etmək şüarı altında mübarizə aparırdı. Cəmiyyətə əhalinin müxtəlif təbəqələrinin nümayəndələri daxil olurdu və onları mövcud rejimə qarşı ümumi nifrət birləşdirirdi. Lakin cəmiyyətin əsas üzvlərini kəndlilər təşkil edirdi. Nəhayət, xalqın üzərinə həddindən artıq ağır vergilər qoyulması bəlkə də üsyan üçün bəhanə oldu. Üsyan Şensi, Sıçuan, Xunan, Qansu və Xubey əyalətlərini bürüdü. Üsyanda belə bir şüar irəli sürülmüşdü: "Hakimiyyət zülm edir – xalq isə üsyan".

Üsyanın başında Lü Çji-se dururdu. Üsyançılar mülkədarların və məmurların əmlakını müsadirə edərək yoxsullar arasında bölüşdürürdülər. Üsyançılar Uçan kimi iri şəhərlərə də hücum etdilər. Onlar partizan üsulu ilə hərəkət edir, böyük birləşmələr təşkil etməyərək bir neçə yüz adamdan ibarət dəstələr şəklində əməliyyat aparırdılar. Üsyançılar Mancur-Sin qoşunları üzərinə hücuma keçir və onları qaçmağa məcbur edirdilər. Üsyanı yatırmaq üçün hökumət çoxlu qoşun səfərbərliyə almışdı, lakin hökumət qoşunları da dəfələrlə məğlub oldu.

Nəhayət, üsyançılara qarşı mübarizədə hökumət 1799-cu ildən etibarən yerli mülkədarlardan və mülkədar polisindən geniş istifadə etməyə başladı. Hökumət qoşunu 1801-ci ildə Lü Çji-seni ələ keçirə bilsə də, üsyan yalnız 1804-cü ildə yatırıldı. Mancur-Sin hakimiyyəti üsyanı yatıran zaman bir neçə yüz min adamı məhv etdi. Bu üsyan göstərdi ki, ölkənin köhnə feodal qaydaları ilə və despotik üsulla idarə olunması ilə, mövcud ictimai-iqtisadi siyasətlə xalq barışmaq istəmir.

Üsyan yatırıldıqdan sonra bir neçə il ərzində, yəni 1800-1809-cu illərdə, ölkənin dəniz sahili əyalətlərində yəni Quandun, Futszyan, Çjetszyan əyalətlərində dəniz quldurluğu ilə (xaykou) məşğul olanlar mancurlara qarşı sistemli şəkildə hərbi əməliyyat aparırdı. Onlar gəmilərə hücum edirdilər. "Dəniz quldurları"nın əksəriyyəti müflisləşmiş kəndlilərdən və şəhər yoxsullarından ibarət idi. Onların bu hərəkatı quldurluq xarakteri daşısa da əzilən kütlələrin zalımlara qarşı mübarizə təzahürlərindən biri idi.

Bu dövrdə ölkənin hər yerində mancurlara qarşı gizli cəmiyyətlər iş aparırdı. "Ağ zambaq" cəmiyyəti şöbələrindən biri olan "İlahi şüur təriqəti"nin üzvləri 1813-cü ildə Pekini ələ keçirmək və imperator sarayını tutmaq təşəbbüsü etdilər, lakin onların hücumları məğlubiyyətlə nəticələndi.

Pekindəki bu çıxış Li Ven-çenin başçılıq etdiyi təriqət üzvlərinin Çjilidə, Şandunda və Xenanda üsyan qaldırması üçün siqnal oldu. Sinlər bu üsyanları yatırsalar da yeni-yeni çıxışlar gözlənilirdi.

Belə bir şəraitdə Çinə qarşı avropalıların istilaçı maraqları daima artmaqda idi. Klassik kapitalizmin vətəni olan İngiltərədə bu maraq daha güclü idi. Belə bir daxili gərginlik şəraitində nəhayət ki, Çin ingilis kapitalizminin uzun müddət hazırladığı fəal təcavüz hədəfi oldu.

## Çinə qarşı İngiltərənin təcavüzünün başlanması

İqtisadi cəhətdən ən çox inkişaf etmiş İngiltərə hökuməti özü ingilis burjuaziyasına yeni satış bazarları və zəngin sərvətlər ələ keçirmək üçün yeni mənbələr axtarmaqda çeviklik və ən çox fəallıq göstərirdi.

İngiltərə kapitalizmi Çini əsarət altına almaq uğrunda taktikasını tez-tez dəyişirdi. İngilis Ost-Hind kompaniyası bu siyasəti həyata keçirən ən fəal təşkilatçı və sistemli şəkildə fəaliyyət göstərən güc idi.

Britaniya hökuməti əvvəlcə özünün məkrli diplomatiyasını işə saldı. Mədrəs və Benqalın keçmiş qubernatoru lord Makkartneyin başçılığı altında 1792-ci ildə İngiltərədən Çinə səfirlik heyəti göndərildi. 1793-cü il avqustun 5-də Pekinə gəlib çıxan Makkartney öz hökuməti adından Çin qarşısında aşağıdakı tələbləri irəli sürdü: 1) İngiltərə ilə Çin arasında diplomatik əlaqə yaratmaq. 2) İngilislərin ticarəti üçün Kantondan başqa daha bir sıra limanlar (Ninbo, Tyantszin limanlarını və Çjouşan adalarını) açmaq. 3) "Qunxan" cəmiyyətinin ticarət inhisarını ləğv etmək. 4) İngilislərə Çində istədikləri yerdə məskən salmaq və sərbəst hərəkət etmək hüquqları vermək. İngilislərin bu təklifi Çində hiddətlə qarşılandı.

Tsyan Lun Makkartney vasitəsilə ingilis kralı III Georqa göndərdiyi cavab məktubunda suveren dövlətin ləyaqətinə zidd olan bu tələbləri haqlı olaraq rədd edib, məktubunu aşağıdakı sözlərlə bitirirdi: "şükürlə itaət edin və etinasızlıq göstərməyin". Bu cavab həmin dövr üçün olduqca kəsərli və cəsarətli cavab idi.

Makkartneyin səfirliyinin uğursuz diplomatik fəaliyyətinin nəticəsində onun müvəffəqiyyətsizliyi göstərdi ki, Sin hökuməti heç də ingilis tacirləri və diplomatları qarşısında itaətkarlıqla Çinin qapılarını xarici dövlətlərə açmaq niyyətində deyildir. Lakin Çinə gəlib-gedən missionerlər, tacirlər, səyyahlar Çinin siyasi və iqtisadi zəifliyini aydın surətdə müşahidə edirdilər. Bu isə İngiltərənin Çinə geniş iqtisadi və siyasi təcavüzünün mümkün olmasına inam yaradırdı.

Belə bir şəraitdə İngiltərə Çinə qarşı istilaçı siyasət yeridən yeganə dövlət deyildi. Odur ki, 1784-cü ildən Çin sahilləri yaxınlığında müntəzəm surətdə Amerika gəmiləri görünməyə başladı. Kantondakı xarici faktoriyalarda isə xarici tacirlərin Çində təşkil etdikləri ticarət məntəqələri var idi və burada da Amerika tacirləri görünməyə başladı. Xatırladaq ki, XIX əsrin əvvəllərində ABŞ Çinlə ticarətdə İngiltərədən sonra ikinci yeri tuturdu.

XIX əsrin əvvəllərində İngiltərə Çindən çay və ipək ixrac etməklə bu malların dəyərini gümüşlə ödəyirdi. Buna baxmayaraq ingilis malları Çin bazarında o qədər də mühüm yer tutmurdu və geniş nüfuz qazanmamışdı.

Lakin Ost-Hind kompaniyası Hindistanda geniş miqdarda tiryək istehsalını artırmağa və bunu Çinə ixrac etməyə başladıqdan sonra vəziyyət dəyişdi. Tiryək ticarətini genişləndirmək üçün atılan ilk addımlar çox da müvəffəqiyyətli olmadı, lakin ingilislərin Çinlə ticarətində tiryək getdikcə ən mühüm və gəlirli bir mənbəyə çevrildi. Tiryək ticarəti Ost-Hind kompaniyasına son dərəcə böyük gəlir gətirməyə başladı. "Ağ ölüm" adlandırılan narkotik maddələrin geniş ticarəti Çin xalqının mənəvi və bioloji zəhərlənməsi hesabına ingilis kapitalistlərinin xəzinələrinə Çindən çoxlu gümüş və valyuta daxil olmağa başladı. Onlar, yəni ingilis kapitalistləri heç bir zaman belə gəlirə malik olmadıqlarını, hətta özləri də etiraf edirdilər.

Bu dövrdə tiryək ticarətinin vurduğu ziyan ölkəni yalnız iqtisadi cəhətdən zəiflətməklə bitmirdi. Həmçinin tiryək insa-

nın səhhətinə hərtərəfli pozucu təsir göstərirdi. Eyni zamanda tiryək Çin xalqını mənəvi və fiziki cəhətdən zəiflətmək üçün bir vasitə idi. Bu haqda bir nəfər görkəmli Çin tarixçisi obrazlı şəkildə demişdir ki, "İngilislərin Çində tiryək alveri insanları qan tökmədən öldürən bir təcavüz idi".

İngiltərəyə bir ingilis tacirinin göndərdiyi məktubda isə göstərilirdi ki, bizə Çini tutmaq üçün daha top-tüfəng lazım deyil. Belə getsə biz yaxın vaxtlarda bütün Çinə sahib olacağıq.

İngiltərə ilə ənənəvi qohumluq və hərbi-siyasi yaxınlıq münasibətlərində olan Amerika Birləşmiş Ştatları da Çində tiryək ticarətində fəal iştirak edirdi. Amerika tacirlərinin Çinə gətirdiyi tiryək ildən-ilə artaraq Çinin bütün idxalının 10-20%-ə qədərini təşkil edirdi.

Mancur-Sin hökuməti rəsmən tiryək ticarətinin əleyhinə olsa da, əslində qeyri-rəsmi bu ticarətin tərəfdarlarından biri idi. Hələ, 1729-cu ildən başlayaraq Mancur-Sin hökuməti tiryək idxalını qadağan edən bir sıra fərmanlar vermişdi (o cümlədən 1796-cı ildə, 1822-ci ildə və s.), bütün bu fərmanlar tamamilə rəsmi xarakter daşıyırdı. Amma xarici dövlətlər tiryəklə ticarəti davam etdirir və Çin hökumətinin bu fərmanlarına məhəl qoyulmurdu. Odur ki, ingilis tacirləri tiryək ticarətini qadağan edən bu qanunlara əhəmiyyət verməyərək qeyri-qanuni surətdə tiryək ticarətini daha da geniş miqyasda davam etdirirdi. Mancur-Sin hökumətinin yalnız yerlərdəki məmurları deyil, həmçinin imperatorun özü də tiryək ticarətində maraqlı idi və o, bu sahəyə varlanmaq vasitəsi kimi baxırdı. Bu dövrdə tiryək ticarətinin əsas mərkəzi Kanton şəhəri idi.

Lakin ingilis tacirləri hökumətin mövcud ikili siyasətindən də razı deyildilər. Onlar öz hökumətinə göndərdikləri bir çox ərizələrində və məktublarında açıq tiryək ticarətinin qanuniləşdirilməsini və əcnəbilərlə ticarətdə "Qunxan" cəmiyyəti inhisarının ləğv olunmasını, xarici ticarət üçün ingilis sənaye mallarının Çinə qeyri-məhdud miqdarda idxalı üçün Çin limanlarının təcili açılmasını tələb edirdilər.

Bu məqsədlə 1816-cı ildə İngiltərə hökuməti Çinə yeni nümayəndəlik – Amxerstin səfirliyini göndərdi. Lakin bu səfirliyin işi də uğursuz oldu. İmperator Tszya Tsin hətta səfiri qəbul etmədi. Bu onunla əlaqədar idi ki, xarici nümayəndələrin Pekinə gəlməsi haqqında qadağa qoyulmuşdu.

## Rusiya və Çin münasibətləri

İngiltərə və ABŞ kapitalizminin maraqlı qüvvələrinin Çində artmaqda olan ekspansiya siyasətinin təsir dairəsi genişləndikcə bu təhlükə digər qonşu ölkələri də narahat etməkdə idi. Belə narahat ölkələrdən biri də Rusiya idi. Odur ki, Rusiya hökuməti 1805-ci ildə qraf Y.A.Qolovkinin başçılığı ilə Peterburqdan Pekinə nümayəndə heyəti göndərdi.

Səfirliyə tapşırıq verilmişdi ki, Çinlə rəsmi diplomatik əlaqə yaratsın, rus gəmilərinin Kantona getməsinə, Çinin daxili şəhərlərinə rus tacirlərinin karvan göndərməsinə icazə alsın və s. Bu tələblər içərisində Şimal-qərb sərhədlərində, Buxtarma çayında ticarətə icazə verilməsi tələbləri xüsusi əhəmiyyət kəsb edirdi.

Amma müəyyən mövcud beynəlxalq münasibətlərə görə Qolovkinin nümayəndəliyi tam müvəffəqiyyətsizliyə uğradı. Səfirlik Urqa şəhərindən (Xarici Monqolustandadır) o tərəfə keçə bilmədi. Çin sularına ilk dəfə olaraq rus gəmilərinin gəlməsi də 1805-ci ilə təsadüf edirdi. Nəhayət, həmin ilin noyabrında İ.F.Kruzeşternin komandası altında "Nadejda" adı altında üzən rus gəmisi Makao limanına gəldi və bir neçə gündən sonra isə Y.F.Lisyanskinin komandası altında "Neva" gəmisi də əraziyə daxil olaraq, hər iki gəmi Kantona getdi. Xatırladaq ki, rus gəmilərinin birinci dövr səyahəti zamanı "Nadejda" və "Neva" gəmiləri Çinə də gedib çıxmışdı.

İ.F.Kruzeştern özünün "1803, 1804, 1805 və 1806-cı illərdə "Nadejda" və "Neva" gəmilərində, dövr-aləm səyahəti" kitabında Çinə getməsindən ətraflı bəhs edir. İ.F.Kruzeşternin səyahəti rusların Çin haqqındakı məlumatının artmasına kömək etdi, Rusiya-Çin münasibətləri yeni mərhələyə daxil oldu.

## Mancurlara qarşı çıxışların yenidən sürətlənməsi

1820-ci ilin sentyabrında imperator Tszya Tszin vəfat etdi. Onun ikinci oğlu Myan Nin atasının yerinə keçərək öz hakimiyyəti illəri üçün Dao Quan ləqəbini götürdü. Dao Quanın

hakimiyyəti illərində (1820-1850) ölkədə ümumi siyasi vəziyyət pisləşməkdə davam etmişdi. Qərbi Çin əyalətlərində, xüsusilə Sintszyanda sin rejiminə qarşı mübarizə xüsusilə inadlı və geniş xarakter aldı.

Mancur-Sin hökumət orqanları Sintszyanda xalqa divan tutur, qarətkar siyasət yeridirdilər. Onlar xalqı amansızcasına istismar etməklə kifayətlənməyərək, buradakı dini və dünyəvi hakimiyyət dairələrinin, də mənafeyinə toxunurdular. Bu dövrdə maddi və siyasi məhrumiyyətlərə dözən xalq artıq mənəvi terroru qəbul etmirdi.

1820-ci ildə mənşəcə türk feodallarından olan Cahangir Mancur-Sin hökumətinə qarşı üsyan qaldırdı. Təşkilatlanma və təchizat mərhələsini adlayandan bir neçə il sonra üsyan geniş bir şəkil aldı. 1826-cı ildə üsyançılar Qaşqar, Yarkənd şəhərlərini və Sintszyanın bir sıra başqa mühüm məntəqələrini ələ keçirdilər. Üsyan müsəlmanların kafirlərə qarşı cihad müharibəsi şüarı altında gedirdi. Üsyanın gedişində üsyançılar sinlərin hakimiyyətinə qarşı mübarizədə ciddi müvəffəqiyyətlər qazandı. Lakin mancurlara qarşı çıxışlar antifeodal mübarizə formasına keçmədi, hakimiyyəti ələ alanlar xalqı sinlərin vaxtında olduğundan da geniş miqyasda qarət edir, yalan vədlər verir, hakimiyyətlərinin müddətini uzatmağa çalışırdılar. 1827-ci ildə sinlər Qaşqara yeni qoşun göndərib üsyanı yatırdılar. Xoca Cahangir əsir alındı və sinlər tərəfindən edam olundu.

XIX əsrin 30-cu illərində Xaynan və Tayvan adalarında, habelə Quandun, Quyçjou, Xunan və Sıçuan əyalətlərində mancur rejimi əleyhinə üsyanlar baş verdi.

Bu üsyanlar içərisində ən güclüsü Tayvan üsyanı idi. Üsyana "Tyandixuey" gizli cəmiyyəti rəhbərlik edirdi. Üsyançılar bir müddət adanın paytaxtını da ələ keçirə bilmişdi. Nəhayət, bu üsyan da 1833-cü ildə yatırıldı. Bu dövrdə hökumət məmurlarının məlumatlarında qeyd olunurdu ki, "hər yerdə, xüsusilə Xunan, Tszyansi, Xenan, Xubey əyalətlərində gizli cəmiyyətlərin üzvləri artır". Bu xüsusiyyət ölkədə milli oyanışla bağlı idi.

Beləliklə, Çində daxili siyasi vəziyyətin daha da gərginləşməsi İngiltərənin Çinə qarşı yeni istilaçı hücumu ilə bir vaxta düşdü.

## İngiltərə-Çin münasibətlərinin daha da kəskinləşməsi

1833-cü ildə Ost-Hind kompaniyasının ticarət inhisarının ləğv edilməsi, Çin bazarında çoxlu yeni ticarət kompaniyaları və şirkətlərinin fəaliyyətə başlamasına səbəb oldu. İngiltərə burjuaziyası öz sənaye mallarını Çin bazarına mümkün qədər daha çox idxal etməyə səy göstərirdi. İngilis-Çin ticarətinə rəhbərlik və nəzarət etmək üçün Çin hökumətinin razılığı olmadan 1834-cü ildə lord Nepir İngiltərədən Çinə xüsusi baş komissar vəzifəsinə göndərildi.

Nepirə tapşırıldı ki, ingilis ticarəti üçün Pekinin açılmasına, imtiyazlı ticarət şəraiti yaradılmasına müvəffəq olsun. İngiltərə hökumətinin Nepirə verdiyi yazılı tapşırıqda ondan tələb olunurdu ki, imperator sarayı ilə bilavasitə əlaqəyə girsin. Nəhayət, çox böyük ümidlərlə Çinə gələn Nepir Kantonda ilk müqavimətlə rastlaşdı. Kantonun general-qubernatoru Nepirlə görüşməkdən imtina etdi. Nepirin həyasız tələblərinə cavab olaraq ona təklif olundu ki, Kantonu təcili tərk etsin. Nepir isə inadkarlıq edərək öz tələblərindən əl çəkmək istəmirdi. O, hətta əhaliyə müraciət edərək camaatı yerli hökumətə qarşı qaldırır və təxribatla məşğul olurdu. Bütün bunlar ingilis-Çin münasibətlərinin ciddi surətdə pisləşməsinə, ticarətin müvəqqəti olaraq dayandırılmasına və sahil istehkamlarının ingilis gəmiləri tərəfindən atəşə tutulmasına səbəb oldu. 1834-cü il hadisələri göstərdi ki, Çini qarət etmək və əsarət altına almaq üçün İngiltərə kapitalistləri hətta silaha əl atmaqdan da çəkinmirdi. İngilislər Sinlərin idarəçilik sistemindən narazı olan xalqların mövcud vəziyyətindən istifadə edərək onları öz tərəflərinə çəkmək ümidində idilər. Bununla yanaşı Çinin hərbi-iqtisadi vəziyyətinə bələd olan ingilislər asanlıqla qələbə çalmaq ümidində idilər.

Çinin daxili və beynəlxalq ticarətinin istiqamətini dəyişdirən ingilislər tiryək ticarətini genişləndirmək üçün bütün vasitələrə əl atırdılar.

XVIII əsrin axırıncı illərində Çinə hər il 2000 qutu tiryək, XIX əsrin ilk illərində isə təxminən 4000 qutu və bundan

daha çox tiryək gətirilirdi. 1824-cü ildə tiryək idxalı ildə 12000 qutuya, 1837-ci ildə isə 39000 qutuya çatmışdı (xatırladaq ki, hər qutuda dörd puta qədər tiryək olurdu). Tiryək ticarəti nəticəsində Çinin əsas pul vəsaiti olan gümüş ölkədən axıb gedirdi, bu isə dövlətin onsuz da böhranlı maliyyə vəziyyətini daha da pisləşdirirdi. XIX əsrin 30-cu illərində Çindən aparılan gümüşün miqdarı ildə 10 milyon lyana[1] çatmışdı ki, bu da pulun dəyərinin kəskin surətdə aşağı düşməsinə, gümüşün bahalaşmasına və xalq kütlələrinin vəziyyətinin daha da pisləşməsinə səbəb olurdu. Bunun nəticəsi idi ki, iyirmi il ərzində, yəni 1830-cu ildən 1851-ciilədək gümüşün qiyməti əvvəlkinə nisbətən 4,7 dəfə bahalaşmışdı. Kəndli məişətində isə adətən mis pul işlədilirdi. Beləliklə, kəndli öz borclarını gümüşlə ödəmək üçün əvvəlkindən 4,7 dəfə çox pul verməli olurdu.

Tiryək ticarəti haqqındakı məsələ Pekin saray dairələrində uzun-uzadı müzakirə olunurdu. Tiryək ticarətindən varlanmaq üçün istifadə edən bəzi əyanlar bu alverin qanuniləşdirilməsinə tərəfdar idilər.

Tiryək problemi ilə əlaqədar ölkədə fərqli mövqelərdə duranlar var idi. Tiryəkin Çində açıq alveri Lin Tsze-syuy başda olmaqla zadəganların digər bir dəstəsi tərəfindən kəskin tənqid edilirdi. O zamankı əyanların şəhadətindən göründüyü kimi, Lin Tsze-syuy tiryək ticarətinin barışmaz düşməni olub, işgüzar və möhkəm iradəli bir adam idi. O, öz zəmanəsinin qabaqcıl adamlarından biri olub, özünün də mənsub olduğu mülkədarlar sinfinin hakimiyyətini möhkəmlətmək üçün Çində bir sıra islahatlar həyata keçirilməsini tələb edirdi. Lin Tsze-syuy tiryək ticarəti əleyhinə qətiyyətlə çıxış edirdi. O, imperatora göndərdiyi məlumatlarından birində yazırdı: "Tiryək bir zəhər kimi bütün Asiman altındakı imperiyaya dolmuşdur, tiryək olduqca ziyan vurur və bunu qanunla qadağan etmək lazımdır. Buna etinasız yanaşılsa, bir neçə ildən sonra Çində demək olar ki, nə ölkəni qoruyacaq əsgər qalacaq, nə də maaş vermək üçün gümüş".

[1] Lyan (tael) – Çində 1933-cü ilədək pul vahidi olmuşdur. 1 lyan 37,301 qram xalis gümüşə bərabər idi.

Mütərəqqi fikirli adamların mübarizəsi nəticəsində tiryək ticarətinə qarşı mübarizəni qüvvətləndirmək fikri imperator tərəfindən müdafiə edildi və imperator tiryək ticarətinin qəti surətdə təqib edilməsi haqqında fərman verdi. 1837-1838-ci illərdə Kanton ətrafında gizli tiryək alverçiləri ilə çoxlu toqquşmalar baş verirdi.

1839-cu ilin yanvarında imperator əcnəbilərə müraciətlə yeni bir fərman verdi. Bu fərmana görə tiryəklə dolu olan bütün gəmilər Çin sularından uzaqlaşdırılmalı idi. Lakin "mədəni dünyanın" Kantondakı nümayəndələri qazanc əldə etmək üçün tiryək ticarətini genişləndirməkdə davam edirdilər.

Yerli məmurlarda isə tamah milli menafedən üstün idi.

## Lin Tsze-syuyun missiyası

1839-cu ilin əvvəllərində imperatorun xüsusi səlahiyyətli komissarı Lin Tsze-syuy Kantona göndərildi.

O, martın 18-də Kantona gələrək Kantondakı əcnəbi tacirlərdən tələb etdi ki, əldə olan bütün tiryək ehtiyatlarını təhvil versinlər, tiryək idxalı və ticarəti ilə məşğul olmayacaqları haqqında iltizam imzalayaraq təqdim etsinlər. Çin xalqını "zəhərləyən" ingilis və amerikalılar isə bu tələbləri yerinə yetirməkdən boyun qaçırmağa çalışırdı. Onlar yalandan deyirdilər ki, onlarda tiryək yoxdur. Əcnəbilərin əsassız müqavimətinə baxmayaraq hökumət əcnəbilərlə hər cür ticarətin dayandırılması və xarici faktoriyaların tamamilə mühasirəyə alınması, britaniyalı və amerikalı tacirləri təslim olmağa məcbur etdi. Nəticədə Çin hökuməti xaricilərin gəmilərində axtarış apardı və gəmilərdə olan tiryək qutuları müsadirə edildi. İngilislər isə 20283 qutu tiryəki məcburiyyət qarşısında qalaraq hökumət orqanlarına təhvil verdi. 1839-cu ilin iyun ayında çinlilər tərəfindən ictimaiyyətin gözü qarşısında ingilislərdən müsadirə edilmiş narkotik maddələr məhv edildi.

Aparılan antitiryək tədbirləri, Lin Tsze-syuyun cəsarətli addımları tiryək alverçilərinin və onların mancur saray dairələrindəki yüksək vəzifəli himayədarlarının mənafeyinə ciddi

ziyan vururdu. Odur ki, bu dairələrin imperatora təsir göstərməsi nəticəsində imperator yeni bir fərman verdi və xaricilərin tiryək fəaliyyətindəki qadağalar qismən məhdudlaşdırıldı. Lakin qeyri-qanuni tiryək alveri davam edir və tiryəkin idxalı, ixracı məhdudlaşdırıldığına görə tiryəkin qara bazarda qiyməti daha da artırıldı.

Belə bir şəraitdə ingilis dairələri Çinlə münasibətləri qəsdən pisləşdirir, Çinə qarşı hərbi müdaxilə üçün bəhanələr axtarırdı. Tiryəkin məhv edilməsi ilə əlaqədar münaqişə ingilislərin Çinə qarşı müharibəyə başlaması üçün zəmin hazırladı. Nəhayət, hərbi ekspansiyaya üstünlük verərək İngiltərə hökuməti 1839-cu ilin sentyabrında Çinin Kanton əyalətinə qarşı hərbi müdaxilə etdi.

İngilislərin hərbi müdaxiləsi nəticəsində müqavimət mövqeyində duran Çin vətənpərvər qüvvələri ilə 1839-cu ilin noyabr ayında hərbi toqquşma baş verdi. Beləliklə, tarixdə birinci tiryək müharibəsi adı ilə məşhur olan və 1840-1842-ci illəri əhatə edən müharibə başlandı.

## Çinə qarşı hərbi əməliyyatın gedişi

1840-cı ilin iyun ayınadək hərbi əməliyyatlar əsasən dənizdə fasilələrlə aparılırdı. Bu əməliyyatlar Çin tərəfindən müdafiə, ingilislər tərəfindən isə hücum xarakteri daşıyırdı. Bu prosesdə milli vətənpərvər qüvvələr müdafiə mövqeyində dursalar da ingilislərin xeyli tələfat verməsinə nail oldular. Lakin İngiltərə yeni əməliyyat üçün yeni qüvvə toplamaqda idi. 1840-cı ildə Çin sularına ingilis eskadrası daxil oldu. Çinə göndərilən ingilis qoşunlarının ümumi sayı əvvəllər çox deyildi. Lakin ingilislər Çin qoşunlarından qat-qat yaxşı silahlanmışdı. Çin qoşunlarının o zaman üçün müasir silahı yox idi. Onlar hələ də ox, yay, nizə və fitilli tüfənglə silahlanmışdılar. Bu "silah" növləri Çində hələ 1-ci ingilis-Çin müharibəsindən sonra da yəni XIX əsrin axırlarınadək qalmışdı. Ən müxtəlif zamanlardan qalan müxtəlif sistemli topların nişan almaq üçün müvafiq cihazı da yox idi. Belə bir şəraitdə Çin donanması ingilis donanması ilə vuruşmaq iqtidarında deyildi.

Belə bir şəraitdə Lin Tsze-syuy müdafiəyə hazırlaşsa da amma, hakimiyyət orqanları ona qarşı müxtəlif təxribatlar törətmək fikrində idilər. O, hətta xalq qoşunu dəstələri təşkil etməyə çalışırdı, lakin saray dairələri və mürtəce əqidəli əyanlar daim onun fəaliyyətinə mane olurdu. Çin qoşunları-nın ayrı-ayrı müvəffəqiyyətli əməliyyatı, daxilən ruh düşgünlüyünə uğramış ümumçin silahlı birləşmələrinin vəziyyətini dəyişə bilmədi.

İyun ayında ingilis eskadrası Kantonu blokadaya aldı, sonra isə sahilboyu hərəkət edərək Çjouşan adalarını, paytaxt şəhəri Dinxayı tutdu, həmçinin Amoy, Ninbo şəhərlərini və Min, Yantszı çaylarının mənbəyində yerləşən yaşayış məskənlərini blokadaya aldı. İngilislər Çinin qədim şəhəri Dinxayı tutarkən burada qarətçilik və zorakılığa başladılar. Admiral Corc Elliotun komandanlığı altında əsas qüvvələr şimala tərəf Çjili körfəzinə yollandı və Bayxe çayında lövbər saldı.

Amerika hökuməti ingilislərin Çinə qarşı apardığı müharibədə ənənəsinə sadiq qalaraq həmişə olduğu kimi onlara fəal yardım göstərirdi. Nəhayət, 1840-cı ildə Çin sularına Amerika eskadrası da daxil oldu ki, bunun da komandanı Amerikanın Ost-Hind eskadrasının rəisi Kerni idi. Həmin eskadra qarşısında qoyulmuş vəzifə ingilis qüvvələrinə "mə-nəvi və maddi, həmçinin hərbi yardım" göstərmək idi. Lakin əslində bu eskadra ingilis təcavüzünün bilavasitə çevik köməkçisi idi.

İngilis gəmilərinin irəliləməsindən qorxuya düşən Mancur-Sin hökuməti ingilis komandanlığı ilə əvvəcə gizli danışıq aparmaq qərarına gəldi. İngiltərə hökuməti mancur hökuməti qarşısında ağır tələblər, o cümlədən Honkonqu ingilislərə vermək, ingilis-Çin ticarətini yenidən davam etdirmək, "təhqir" olunmuş ingilislərdən üzr istəmək, məhv edilmiş tiryəkin əvəzini ödəmək kimi bir sıra alçaldıcı tələblər qoydu.

İngilis nümayəndəsi Elliot və Mancur-Sin hökumətinin nümayəndəsi Çjili əyalətinin general-qubernatoru Si Şanın Daquda apardığı danışıqlar zamanı heç bir saziş imzalanmadı. Lakin 1840-cı ilin noyabrında tiryək ticarətinə icazə verildi, Si Şan isə Quandun və Quansi əyalətlərinin canişini təyin olundu. İngiltərə ilə Çin arasında bəzi razılaşmalara baxma-

yaraq 1841-ci ilin yanvarında ingilis qoşunları yenidən hərbi əməliyyata başladı. İngilislərin bu hücumu müdafiə işlərinə rəhbərlik edən Lin Tsze-syuy işdən kənar edildikdən və onun yerinə təslimçi Si Şan təyin edildikdən sonra başlanmışdı və təslimçilik siyasəti ingilislərin qələbəyə olan inamını daha da artırmışdı.

Odur ki, ingilislərlə yeni danışıqlar gedişində Si Şan 8 milyon lyan təzminat ödəməyə, Honkonqu ingilislərə verməyə, rəsmi əlaqələr yaradılmasına və ingilis-Çin ticarətini yenidən davam etdirməyə razılığını bildirdi. Lakin Si Şanın təslimçilik layihəsi imperator tərəfindən təsdiq edilmədi və Si Şanın özü isə həbs olundu. Əvəzində Sin hökuməti İngiltərə ilə müharibə vəziyyətində olduğunu bəyan etdi.

Təbii olaraq bu dövrdə hər iki dövlət öz iddiası ilə çıxış edirdi və maraq dairələrinin təmin olunması başlıca məqsəd idi. Hətta, İngiltərə kraliçası Viktoriya da bu sazişi imzalamamışdı. Çinin İngiltərəyə güzəştləri İngiltərəni təmin etmirdi. İngiltərə hökuməti Çində istila planlarının ləng həyata keçirilməsinə görə hətta, Elliotu cəzalandıraraq onu geri çağırdı və onu Puttingerlə əvəz etdi.

## İngilis təcavüzünə qarşı xalq müqaviməti

1841-ci ilin yazında ingilis komandanlığı yenidən hücum əməliyyatına başladı. 1841-ci ilin mayında ingilislər quruya çıxarılmış qoşunla Kantonu tutmağa hazırlaşırdı. Kanton hökumət orqanları ingilislərlə danışığa girib bildirdilər ki, ingilislər şəhərə hücum etməsələr, bunun əvəzində onlara böyük məbləğdə vəsait ödəyəcəklər. Bu məqsədlə ingilis komandanlığı 6 milyon lyan alaraq, əvəzində şəhərə hücum etməməyə razılıq verdi. Bu sövdələşmədən sonra 1841-ci il mayın 27-də Kanton yaxınlığında yerləşən ingilis qoşunları şəhər ətrafındakı yerləri qarət etməyə və zorakılıq göstərməyə başladı. Zinət əşyaları axtaran ingilislər hətta qəbirləri də qazmağa və qarət etməyə başlamışdı. İngilislərin belə qeyri-insani hərəkətləri xalq içərisində güclü qəzəb doğurdu və Quandun əyalətində partizan hərəkatının başlanması üçün zəmin hazırladı.

Kantondan şimalda yerləşən Sanyuanli kəndinin kəndliləri işğalçılara qarşı mübarizəyə qalxdılar. Onlar ingilisləri

itaətə gətirəcək dəstələr ("pinintuan") təşkil edərək ingilis quldurlarına mərdliklə müqavimət göstərirdilər. 1841-ci il mayın 30-dan başlayaraq onlar ingilis qoşunlarına bir sıra ciddi zərbələr endirdilər. Onlarla kənd düşmənə inadla müqavimət göstərirdi. Ölkədə pərakəndəlik mövcud olsa da, ingilislərə qarşı ümumi həmrəylik olmasa da, pinintuanlar uzun zaman düşmənlə vuruşdular.

Belə bir şəraitdə İngiltərənin Çindəki qoşunlarına kömək üçün yeni hissələr göndərildi. 1841-ci ilin avqustunda vuruşmalar yeni mərhələyə daxil oldu. Çində əməliyyat aparan ingilis qoşunları ölkənin cənub sahillərini blokadaya alıb, Amoy və Ninbo limanlarını işğal etdilər. 1842-ci ilin əvvəllərində isə Şanxay-Nankin rayonunda sürətli hücuma keçdilər. Hərbi əməliyyatın gedişi göstərdi ki, mancur komandanlığının heç bir müdafiə planı yox imiş. Vahid komandanlıq olmadığına görə hər bir qubernator və ya qala komandanı öz bildiyi kimi hərəkət edirdi. Bütün bunlar əslində heç bir mərkəziyyətçilik və əsil birlik olmadığını sübut edirdi. Bütün bunlara baxmayaraq ayrı-ayrı şəhərlərdə o cümlədən Çjanpu, Suntszyan şəhərlərində çinli qarnizonlar mərdliklə vuruşurdu, lakin bunlar müharibənin Çin üçün müvəffəqiyyətsiz gedişinə təsir göstərə bilməyən müstəsna hadisələr idi. Beləliklə, ingilis hərbi gəmiləri Yantszı çayı boyunca yuxarı, Nankinə tərəf irəliləməyə başladı. Çjentszyan yanında ingilislər vətənpərvər xalq qoşunlarının inadlı müqavimətinə rast gəldilər.

Çjentszyan yanında 1500 nəfərlik bir dəstə fədakarlıqla vuruşurdu. Bu vuruşmada son nəfərədək əsgər və zabitlərin hamısı məhv olsa da onlar ingilisləri böyük tələfat verməyə məcbur etdi. Dəstənin komandanı öz evini yandırmaq əmri vermiş və atəş içində həlak olmuşdu. Əsgərlər öz arvad və uşaqlarını düşmənin əlinə keçməmək üçün boğmuş və ya suda batırmışdılar, şəhər dağılmışdı.

Bu hadisə ilə əlaqədar F.Engels yazırdı ki, ”Əgər qəsbkarlar hər yerdə belə müqavimətə rast gəlsəydi, onlar heç bir vaxt Nankinə gedib çıxa bilməzdilər. Lakin təəsüf ki, hökumət düşmənə qarşı ümumxalq müqavimətini təşkil edə bilmədi.”

Çjentszyan iyulun 21-də süqut etdi. Bu şəhərin alınması Nankin üçün də təhlükə yaratdı. Avqustun 9-da ingilis gəmiləri Nankinə yaxınlaşdı. Bundan başqa, Çjentszyanın alınması Yantszı hövzəsini Şimali Çinlə, paytaxtla birləşdirən ən mühüm su yolu olan İmperator kanalı ilə əlaqəni kəsmiş oldu.

Çjentszyanın süqutundan sonra Pekinin hakim dairələri içərisində təslimçi dəstə tamamilə üstün gəldi. Qərara alındı ki, ingilislərdən sülh bağlamaq xahişi edilsin. Əyanlardan Tsi İn saziş bağlamaq üçün ingilislərin hərbi qərargahına göndərildi. İngilislər sülh müqaviləsinin şərtlərini çinlilərə "Kornvallis" adlı hərbi gəminin göyərtəsində qəbul etdirdilər. "Karnavalis"də əldə edilən razılaşmaya əsasən 1842-ci il avqustun 29-da müqavilə imzalandı. Bu müqavilə tarixə Nankin müqaviləsi adı ilə daxil olunmuşdur. Çin ziyalıları yadelli mancurların xalqa xəyanətini və alçaldıcı "Nankin müqaviləsini" milli biabırçılıq adlandırmışdı.

Xalqa tamamilə yabançı olan Sin hökuməti istilaçı İngiltərə qarşısında təslim aktını imzaladı. Lakin məğlubiyyətin bütün ağırlığı və əzabları Çin xalqının üzərinə düşdü. Xalq ikiqat zülm altına düşərək istismarçılarla istilaçıların zülmünə qatlaşmalı oldu.

## 1842-ci il Nankin müqaviləsi və başqa qeyri-bərabərhüquqlu müqavilələr

1842-ci il Nankin müqaviləsi Çinin xarici ölkə ilə bağladığı ilk qeyri-bərabərhüquqlu müqavilə idi. Nankin müqaviləsinə görə Çin İngiltərənin ticarəti üçün özünün 5 limanını, o cümlədən Kanton, Çjentszyan, Ninbo, Fuçjou, Şanxay limanlarını açmalı idi. Beləliklə, "açıq limanlar" adlı sistemin əsası qoyulmuş oldu ki, bununla da əcnəbi tacirlər qeyri-məhdud ticarət ixtiyarı, istədikləri yerlərdə məskən salmaq və s. hüquqlar və imtiyazlar aldılar.

Müqaviləyə görə Çin 21 milyon yuan[1] təzminat verməli idi. Çin ingilislərin zəbt etdiyi Honkonq adasını "əbədi mülkiyyət" şəklində İngiltərəyə verirdi. Sonralar bu ada ingilislə-

---

[1] Yuan – 0,72 lyana bərabərdir.

rin ən mühüm hərbi və ticarət bazası oldu və İngiltərə bu bazaya arxalanaraq Çinə qarşı yeni hücumunu təmin etmək üçün hərbi-strateji mövqeyini möhkəmləndirirdi. Həmçinin Çinin "Qunxan" ticarət şirkəti ləğv edildi.

Eyni zamanda Nankin müqaviləsinə görə yeni gömrük haqqı sahəsində müxtəlif dəyişiklik edilir və yeni tariflər müəyyənləşirdi. Bu normaya görə gömrük haqqı müqavilə bağlanan vaxt malın mövcud qiymətinin 5%-i məbləğində müəyyən edilirdi və Çin hökuməti bu təyin olunmuş məbləği artıra bilməzdi. Deməli, Çin öz iqtisadiyyatının mənafeyini nəzərə alaraq istədiyi kimi gömrük qoymaq hüququndan məhrum edilirdi. Ölkəyə xarici malların sərbəst axını nəticəsində Çin qapıları ABŞ və Avropa dövlətlərinin qarşısında açılmış olurdu.

Lakin ingilislər bütün bunlarla kifayətlənmədi. İngiltərə hökumətinin nümayəndəsi Puttinger Çin hökumətinin nümayəndəsi Tsi İni 1843-cü il oktyabrın 8-də yeni, əlavə protokol adlanan bir sənədi, yəni, Xumın müqaviləsini imzalamağa məcbur edildi. Bu protokola əsasən Çin əcnəbilərə eksterritoriallıq hüququ, yəni, əcnəbilərin Çin məhkəmələrinə tabe olmamaq hüququ və öz idarəsi, öz polisi və qoşununu saxlamağa ixtiyarı olan məhəllələr salmaq hüququ verirdi. Şanxay açıq limana çevrildikdən az sonra ilk beynəlxalq müstəqil idarə sistemi Şanxayda yaradıldı. Nəhayət, ingilislər özləri üçün "ən çox imkanlar" əldə etməklə ingilis diplomatiyasının çevik prinsipinə uyğun olaraq xeyli imtiyazlarla yanaşı hər hansı bir dövlətin Çində əldə edəcəyi imtiyaz avtomatik surətdə İngiltərəyə də şamil edilirdi.

İngiltərənin ardınca digər Qərb dövlətləri də öz nümayəndələrini Çinə göndərərək təzyiq yolu ilə müxtəlif üstünlük və imtiyazlar əldə etməyə başladılar. Xüsusilə ABŞ rəqiblərini sıxışdıraraq Çindən tələbləri və iddiaları daha da böyük idi.

Bu dövrdə ABŞ Çini müharibə ilə hədələyərək onu qeyri-bərabərhüquqlu müqavilə bağlamağa məcbur edirdi. Nəhayət, Amerika-Çin müqaviləsi 1844-cü il iyulun 3-də Vansiya şəhərində (Makao yaxınlığındadır) imzalandı. İngilis-Çin müqaviləsinə nisbətən, bu müqavilədə ABŞ üçün əlverişli bir sıra

yeni maddələr var idi. Bunlar içərisində ABŞ gəmilərinin əlverişli şərtlərlə Çin sahilləri boyunca nəqliyyat hüququ, yəni kabotaj dənizçilik hüququ və müqaviləni on iki ildən sonra dəyişdirmək imkanı haqqındakı maddələri göstərmək olar. Eksterritoriallıq hüququ da, ingilis-Çin müqaviləsindəkindən fərqli olaraq daha dürüst və geniş üstünlüklərə malik idi.

ABŞ və İngiltərədən sonra 1844-cü il oktyabrın 24-də qeyri-bərabərhüquqlu fransız-Çin müqaviləsi imzalandı.

Daha sonra yəni, 1851-ci ildə Rusiya ilə Çin arasında yeni bir müqavilə Kulca müqaviləsi imzalandı. Bu müqaviləyə görə Çin, Rusiya ticarəti üçün Qərbi Çində əlverişli şərait yaratmağı öhdəsinə götürürdü.

Beləliklə, Çinin ABŞ və Avropa dövlətlərinin təsiri altına düşməsi mərhələ-mərhələ davam edirdi.

## Çinin yarımmüstəmləkəyə çevrilməyə başlanması

İngiltərənin Çinə qarşı birinci "tiryək" müharibəsi Çinin yarımmüstəmləkə-yarımfeodal ölkəyə çevrilməsinin başlanğıcını qoydu. Müharibə mövcud quruluşun və idarə üsulunun çürüklüyünü, hökumətin acizliyini göstərdi, xarici malların ölkəyə geniş axını üçün qapıları açdı və Çinin daxili vəziyyətini pisləşdirdi. Bununla əlaqədar alman missioneri (xristian dini təbliğatçısı) Qutslaffın Çindıki vəziyyətə dair gətirdiyi materiallar əsasında K.Marks belə qənaətə gəlmişdir ki, "Əl əməyinə əsaslanan Çin sənayesi maşınla rəqabətə dözə bilmədi. Sarsılmaz Aralıq imperiyası ictimai böhran keçirməyə başladı. Vergilər daha xəzinəyə gəlib çatmır, dövlət tam müflisləşmək qarşısında qalmışdı, əhali kütləvi surətdə pauperləşir, narazılığa başlayır, itaətkarlıqdan boyun qaçırır, imperatorun xəbərçiləri və qoçuları buddist monarxları, insanları döyür və öldürürdü. Odur ki, ölkə tam fəlakət qarsısındadır və hətta inqilab təhlükəsi var"[1].

Avropa dövlətləri öz sənayelərini inkişaf etdirmək məqsədilə Çinə qarşı apardıqları siyasətin mahiyyətini qapalı

---

[1] K.Marks və F.Engels. Əsərləri, 7-ci cild, səh 233-234, Bakı, 1977.

saxlayır, hətta onu dövlət sirri kimi qoruyurdular. İngiltərə bu rəqabətdə öndə gedirdi. Məhz bu səbəbdən birinci "tiryək" müharibəsinin və qeyri-bərabərhüquqlu müqavilələrin Çin üçün bir sıra fərqli nəticələri oldu. 1833-cü ildən 1852-ci ilədək İngiltərənin Çinə idxalatı beş dəfə artdı. İdxalatda əsas yeri toxuculuq malları tuturdu. Xarici toxuma malların idxalatı Çinin toxuculuq sənətini sarsıtdı. Lakin acınacaqlı hal o idi ki, müharibədən sonra da ingilislərin ən çox gəlir gətirən ticarəti, yəni tiryək alveri hələ də qalmaqda idi. 1840-cı ildən 1850-ci ilədək Çinə gətirilən tiryəkin miqdarı azı 2,5 dəfə artmışdı. Gümüşün Çindən fasiləsiz aparılması davam edirdi və gümüşün qiyməti daha da bahalaşmaqda idi. Məmurlar xalqı daha şiddətlə soyurdular. Yadellilərlə əlbir olub xalqı soyan məmurların ən böyük amalı milyonları milyardlara çevirməkdən ibarət idi. Bu da əsaslı faktorlardan idi ki, xalqdan uzaq düşmüş məmurlar xalqın qəzəbindən qorxurdular.

Çin məxəzlərinin verdiyi məlumata görə bir çox əyalətlərdə natural vergilər 2,5-4 dəfə artırılmışdı, əlavə tədiyyələr isə əsas vergilərdən bir neçə dəfə çox idi. Bundan başqa məmurlar şəxsən varlanmaq üçün özbaşına müxtəlif vergi növü təyin edir və bunları "rəhm bilmədən və amansızlıqla" xalqa cəza verə-verə yığırdılar.

Torpaqların mülkədarlar əlində təmərküzləşməsi daha da artmışdı və becərilən torpaqların 80%-ə qədəri mülkədarların əlində idi. Kəndlilər var-yoxdan çıxırdı, onlardan çoxları muzdur olur və ya acların, səfillərin sıralarına qoşulurdular. Beləliklə, qeyri-bərabər müqavilələrin real nəticələri milyonlarla adamların müqəddəratını sual altında qoyur və mənafelərinə toxunurdu. Bunlar da ölkədə mövcud qanun-qaydalara qarşı ümumxalq qəzəbinin artmasına yeni təkan verirdi.

Bu dövrdə gizli kəndli cəmiyyətinin müraciətnamələrin birində deyilirdi: "Xalqın əzabları son həddə çatmışdır". Doğurdan da cənub və cənub-şərq dənizkənarı əyalətlərdə xalqın vəziyyəti xüsusilə ağır idi. Yeni kəndli müharibəsi məhz burada gözlənilirdi ki, o da baş verdi...

## İçğalçı ingilislərə və istismarçı mancurlara qarşı silahlı mübarizə

Xatırladaq ki, hələ tiryək müharibəsi dövründə Quandunda ingilislər əleyhinə başlanmış silahlı xalq mübarizəsi müharibədən sonra da davam edirdi. İngilislərə qarşı çıxışlar Quandun əyalətində xüsusilə geniş şəkil almışdı, çünki məhz bu əyalətin əhalisi işğalçıların silahlı təcavüzünə hələ xeyli əvvəllər məruz qalmışdı, təcavüzün digər formaları isə hələ də davam edirdi.

1842-ci ilin noyabrında Kantonda əcnəbilər əleyhinə müraciətnamələr buraxılırdı. Artıq 1842-ci ilin dekabr ayında xarici faktoriyalar dağıdılırdı. Belə iğtişaşlar 1844, 1846, 1847 və 1849-cu illərdə də fasilələrlə baş vermişdi.

Əlbəttə, xalq çıxışları təkcə ingilislərə və ya digər əcnəbilərə qarşı çevrilməmişdi. Bu çıxışlar, həmçinin əcnəbilərin təzyiqi qarşısında diz çöküb təslim olan mancur hakimiyyətinə qarşı da çevrilmişdi. O zamankı intibahnamələrdən birində deyilirdi: "Ali hakimiyyət nümayəndələri özlərini elə apaprır ki, guya heç bir vaxt bu hadisə haqqında (əcnəbilər tərəfindən çinlilərin öldürülməsini – müəllif) eşitməmişlər. Onlar əcnəbi şeytanları pak bir allah sayırlar, Çin xalqını isə heyvan hesab edirlər... Bütün xalq yığıncaqları qəzəb alovları içərisində əcnəbi şeytanlara qarşı nifrət hissilə birləşmişdir və başqa çıxış yolu olmadığı üçün onlar məcbur olacaqlar ki, müəyyən bir gün təyin etsinlər və həmin gün yığışıb zülmkarlara divan tutsunlar".

Bu dövrdə bütün bu mübarizənin təşkilatçısı xüsusi bir cəmiyyət idi. Həmin cəmiyyət ingilisləri "itaətə gətirməyi" öz qarşısında məqsəd qoyurdu (buna, "Şenpin" - "Sülh və səadət cəmiyyəti" deyilirdi". Digər bir cəmiyyət üzvləri pinintuanlar isə silahlı çıxışlar edirdilər.

Xalq kütlələrinin təzyiqi nəticəsində ingilis tacirlərinin Kantona buraxılması 1849-ci ilə qədər təxirə salınmışdı. 1849-cu ildə ingilislər onları şəhərə buraxmağı tələb etdikdə isə, əcnəbilərə müqavimət göstərmək üçün Kantonda yenidən

könüllü xalq dəstələri təşkil olundu ki, bu dəstələrin hər birində təxminən 100 minədək adam var idi. Xaricilərə qarşı hücum zamanı bir neçə xarici faktoriya məhv edildi. İngiltərə məcbur oldu ki, onların Kantona buraxılması tələbindən müvəqqəti əl çəksin. Bütün bunlar xalqda öz qüvvələrinə inamı möhkəmlədirir və Sin hökumətinin Çini müdafiə etməyə qadir olmadığını bir daha sübut edirdi.

Kantonun mübarizə nümunəsi xarici ticarət üçün açılmış digər limanlarda da ruh yüksəkliyilə qarşılandı. 1846-cı ildə Fuçjou və Amoyda ingilislər əleyhinə çıxışlar baş verdi. Honkonqda da xalq iğtişaşları oldu.

Bu çıxışlar mancur hakimiyyəti əleyhinə və feodal quruluşuna qarşı kəndli hərəkatının tədricən inkişaf etməsini göstərirdi.

Odur ki, Çində tədricən antifeodal kəndli müharibəsi üçün ilk şərait yetişməkdə idi. Gizli cəmiyyətlər fəallaşırdı, hakim quruluşa və idarə üsuluna zidd olan müxtəlif ideyalar yayılırdı. 40-cı illərdə bir neçə əyalətdə kəndli üsyanları baş vermişdi. Əvvəllər olduğu kimi, indi də qərb və cənub-qərb əyalətlərinin milli azlıqları, mərkəz və cənub əyalətlərinin, o cümlədən Xubey, Xunan, Quandun, Futszyan kəndliləri də üsyanlarda iştirak edirdilər.

Bu üsyanlar içərisində ən çox əks-sədaya səbəb olmuş və nəzərə çarpanı Xubey əyalətinin Çunyan qəzasında 1841-ci ildə baş verən üsyan, 1843-1849-cu illərdə Xunandakı bir sıra üsyanlar, 1844-cü ildə Tayvandakı üsyan, 1845-ci ildə Şandundakı üsyan, 1846-cı ildə Yunnandakı üsyan, 1847-1849-cu illərdə Quansi və Quyçjoudakı üsyanlar idi. Quansi əyalətindəki "Tyandixuey" gizli cəmiyyəti çox böyük nüfuza malik idi, bu cəmiyyətin rəhbərliyi altında bir sıra üsyanlar olmuşdu. Bu üsyanlar gedişində ən çox yayılmış şüarlar mancurlar əleyhinə çevrilmiş - "varlıları soyaq, yoxsullara kömək edək" şüarı geniş yayılmışdı. Çində əzəmətli xalq üsyanları haqqında "Dunxualu" xronikasında, doqquz il ərzində (1841-1849) 110 üsyan və iğtişaş baş verdiyi xüsusilə qeyd edilmişdi.

Bir sıra üsyanlar üçün xarakterik cəhət kəndlilərin mülkədar torpaqlarını kəndlilər arasında bərabər bölüşdürmək çağırışı idi.

Əlbəttə, Çində baş vermiş bu üsyanların hətta bir-birilə əlaqəsi olmasa da  bütün üsyanlar – XIX əsrin ortalarında baş vermiş böyük kəndli müharibəsinin, Taypinlər hərəkatının müjdəçiləri və ilk lokomotivləri idi. Çünki yadellilər bu ölkənin övladları olmağuna görə yerli xalqa yuxarıdan aşağı baxmaqla xalqın pataloji nifrətini qazanmışdılar. Xalq yadellilərə qarşı ayağa qalmağa hazır idi.

Beləliklə, XIX əsrin 40-50-ci illərindəki kütləvi milli-azadlıq hərəkatları Çin xalqının mübarizəsində yeni mərhələnin başlanğıcını qoydu. XIX əsrin 40-cı illərinədək xalq hərəkatları mancur hakimiyyətinə və istismarçı feodal mülkədarlara qarşı çevrilmişdi. 40-cı illərdən etibarən bu mübarizə xarici müstəmləkəçi zülmkarlara qarşı hərəkatla sıx birləşməyə başladı. Daxili irtica və xarici müstəmləkəçi qüvvələrə qarşı Çin xalqının yüz illik mübarizəsi davam edirdi. Ən başlıcası isə Çin xalqında əzəmətli qələbəyə böyük inam var idi.

## Çində Taypinlər hərəkatı

Ölkənin müxtəlif yerlərində kəndli üsyanları alovlanır, mübarizə yeni mərhələyə daxil olmaqda idi. Antifeodal hərəkatın və mancurlar əleyhinə mübarizənin əsas ağırlıq mərkəzi ölkənin cənub rayonlarının üzərinə düşürdü.

Salnaməçilərin yazdığına görə, Quandun və Quansi əyalətləri Çin tarixində ən qüdrətli üsyan mərkəzinə çevrilməkdə idi. Bu üsyanın təşəbbüsçüsü Çin xalqının öz zülmkarlarına qarşı mübarizəsinin ən görkəmli rəhbərlərindən və qəhrəmanlarından biri Xun Sü-tsüan idi. Xun Sü-tsüan 1814-ci ilin yanvarında Quandun əyalətində, Kanton şəhəri yaxınlığındakı Xua-syan kəndində kəndli ailəsində doğulmuşdu. Elmi ad almaq üçün imtahanlarda müvəffəqiyyətsizliyə uğradıqdan sonra o öz kəndində müəllim işləməyə başlamışdı.

Xün-Su-tsüanın imtahan vermək üçün Kantona etdiyi səfərlər ümumiyyətlə şəhər həyatı onun dünya görüşünü genişləndirdi, onu ölkədəki bütün dərin ziddiyyətlərlə tanış etdi. Elə həmin vaxt o, xristianlıq ədəbiyyatı ilə tanış oldu. Həssas, dünyanı dərk edən, asanlıqla gələcəyi görən Xun Sü-tsüan qısa zamanda xristianlığın bəzi ideyalarını mənimsədi. Bu

ideyalar, həmçinin Çin alimlərinin əsərləri, ədalət və bərabərlik haqqında xalqın arzuları Xun Sü-tsüanın görüşlərinin əsasını təşkil etdi. O, öz kəndində yeni nəzəriyyəni təbliğ etməyə başladı və özünə ilk ardıcıllar tapdı ki, bunların içərisində müəllim Fen Yun-şan, xüsusilə böyük rol oynadı. Xun Sü-tsüanın görüşləri himnlərdə, məsəllər formasında ifadə olunurdu. Xun Sü-tsüanın və Fen Yun-şanın təbliğ etdiyi ümumi bərabərlik və qardaşlıq haqqındakı ideyaları çoxlarını özünə cəlb etdi, insanları bir-birinə yaxınlaşdırdı.

Xun Sü-tsüan 1844-cü ildə Fen Yun-şanla birlikdə Quandundan Quansiyə gəldi və burada onun tərəfdarlarının və ardıcıllarının sıraları surətlə artmağa başladı.

Xun Sü-tsüan 1844-cü ildə "Bay Şandi xuey" ("ilahi ata cəmiyyəti") adlı cəmiyyəti yaratdı. Cəmiyyət ümumi bərabərlik və qardaşlıq ideyalarına əsaslanırdı. Bu ideya, ilahinin böyük səadət dövlətinin – Taypin Tyanqonun (bu nəzəriyyənin ardıcıllarına isə taypinlər deyirdilər) quruluşu haqqında nəzəriyyə şəklində ifadə olunurdu.

Hərəkatın dini forması bir çox kəndli üsyanları üçün xarakterik cəhət idi. Taypinlər hərəkatı feodalizmdən kapitalizmə keçid dövründə meydana gəlmişdi. Bu hərəkatda həmçinin kəndlilərin orta əsrlərdə apardığı mübarizənin xarakterik əlamətləri var idi. Lakin o biri tərəfdən də yeni şəraitdə baş vermiş bu hərəkat özünün proqramı, mütəşəkkilliyi və inadlı olması ilə əvvəlkilərə nisbətən daha qabaqcıl və dinamikliyi ilə fərqlənən hərəkat idi. Hərəkatda əsas məqam xristianlıq təbliğatı deyil, mülkədar zülmünə qarşı mübarizə ideyası dururdu.

Xun Sü-tsüanın və onun ardıcıllarının təbliğ etdiyi ideya – varlılar hesabına yoxsulları bərabərləşdirmək ideyası Quansi əhalisinin ən məzlum təbəqələri içərisində böyük rəğbət və ruh yüksəkliyi ilə qarşılandı. Kəndlilər, xüsusən bir parça çörək tapmaq üçün başqa yerlərdən cənuba köçüb gələn və əhalinin ən yoxsul təbəqəsini təşkil edən gəlmələr (getszya), mədən fəhlələri, ağac yandırıb kömür hazırlayan fəhlələr Xun Sü-tsüanın və onun ardıcıllarının çağrışlarına ən fəallıqla səs verən ictimai təbəqələr idi. Taypinlər hərəkatının rəhbərlərindən biri olan Li Sü-çen sonralar yazmışdı: "Varlılar onun ar-

dınca getmirdi, təkcə kəndlilər və dilənçi həyatı sürən adamlar ona qoşulmaq istəyirdi, beləleri isə daha çox idi".

Quansidə Xun Sü-tsüanın ilk ardıcıllarının biri hərəkatın müqəddəratında görkəmli rol oynamış olan, torpaqsız kəndli, kömürçü Yan Sü-tsin idi. Xun Sü-tsüanın fəal köməkçilərindən biri də yoxsul kəndli Syao Çao-quy oldu. Hərəkat özünün ən mühüm cəhəti olan bərabərlik ideyası ilə xalq kütlələrini öz ətrafında birləşdirirdi.

Üsyançıların ən mühüm siyasi şüarından biri də mancur ağalığına son qoymaqdan ibarət idi. Bu şüar Çin cəmiyyətinin ən müxtəlif təbəqələrini, o cümlədən istismarçı ünsürlərin, mülkədar – şenşi[1] dairələrinin bəzi nümayəndələrini də birləşdirirdi. Bu qrupların ən görkəmli nümayəndələri Vey Çanxuey, Şi Da-kay və başqaları idi. Üsyan etmiş ayrı-ayrı əsgər dəstələri, səfillər, müxtəlif gizli cəmiyyət üzvləri də hərəkata qoşulmuşdu. Beləliklə, 1850-ci ilin iyunundan etibarən hərəkatın ən fəal qüvvələri toplaşmağa başladılar, üsyana hazırlıq gedirdi, strateji və taktiki hazırlıq məsələsi hələlik məxfi saxlanılırdı və gizli yığıncaqlarda müzakirə edilirdi.

## Taypinlər üsyanının birinci mərhələsi (1850-1856)

Uzunmüddətli hazırlıq işlərindən sonra və Taypinlərin sistemli təbliğatı nəticəsində Quansi əyalətində hökumət əleyhinə çıxışlar getdikcə daha tez-tez baş verirdi və üsyan kütləviləşməkdə idi. Nəhayət, 1850-ci ilin axırlarında mancur hakimiyyətinə qarşı üsyançıların açıq silahlı mübarizəsi başlandı. 1851-ci il yanvarın 11-də Tszin-tyan kəndində Mancur-Sin sülaləsinə qarşı üsyana başlanması və "Taypin Tyanqonun" ("İlahinin böyük səadət dövləti") yaranması rəsmi surətdə elan olundu. Yürüşə başlamaq komandası verildikdən sonra hərəkat hərbi xarakter aldı.

Taypinlər Quansidən şimala doğru müvəffəqiyyətli yürüş etdilər. Yürüşə başlanarkən taypinlər öz ev və əmlakını yandıraraq bununla bildirmək istəyirdilər ki, onların hərəkata

[1] Şensi – fodal Çində "adlı-sanlı adamlar" silki idi. Bunlar – torpağa sahib olan, xüsusi dövlət imtahanlarında elmi ad almış olan kənd varlıları idi. Şenşinlər məmur vəzifələrini tutur və kəndin hakim təbəqəsini təşkil edirdilər.

qoşulması qətidir və onları azadlıqdan başqa heçnə maraqlandırmır. 1851-ci ildə onlar Yunan şəhərini (Quansi əyalətinin şimalında) tutdular. Xun Sü-tsüan burada Tyan van (asiman kralı) fəxri titulunu qəbul etdi. Onun silahdaşlarına da van (knyaz) adları verildi. Yan Sü-tsinə Dun van (şərqin knayzı), Vey Çan –xueyə - Bey van (şimal knyazı), Syao Çao-quya – Si van (qərb knyazı), Fen Yun-şana – Nan van (cənub knyazı), Şi Da-kaya – İ van (ayrıca knyaz) titulları verildi. Bütün "vanlar" Dun vana – Yan Sü-tsinə tabe edildilər.

Taypinlər bir neçə ay ərzində Yunanı əldə saxladılar. Tsinlərin ordusu şəhəri mühasirəyə alıb taypinlər ordusunu məhv etməyə çalışırdı, lakin taypinlərin komandanlığı düşmənin bu niyyətini düzgün başa düşdü. Taypinlər şəhəri tərk edərək, 1852-ci ilin aprelində manevr müharibəsi gedişində mancur qoşunlarına ağır zərbə endirdilər. Bundan sonra onlar Xunan əyalətinin paytaxt şəhəri Çanşa üzərinə hücuma başladılar. Şimala yürüşə başlamazdan əvvəl nəşr olunmuş bir müraciətnamədə deyilirdi: "Varlıların özbaşınalığının həddi yoxdur, kasıb və hüquqsuz yoxsullar isə heç kəsə şikayət də edə bilmirlər, kasıbların hüquqları hər yerdə tapdanır, onların şikayətinə baxılmır… Xalqın sərvətləri tükənmişdir. Xalqın iztirabları son həddə çatmışdır. Biz bütün rüşvətxorları və xəzinə oğrularını məhv etməliyik ki, xalqı ağır məşəqqətlərdən xilas edək… bütün cəsur və mərd adamlar bizim ədalət uğrundakı mübarizəmizə qoşulmalıdır".

Taypinlərin ədalət uğrunda inamlı mübarizəsi, o cümlədən Çanşanın mühasirəsi müsbət nəticə vermədi və şəhər alınmadı. Çanşa yanındakı vuruşmalarda taypinlər hərəkatının görkəmli xadimləri – Syao Çao-quy, ondan sonra Fen Yun-şan həlak oldular. Bundan sonra Yan Sü-tsinin məsuliyyəti daha da artdı.

"Tyandixuey" cəmiyyətinin görkəmli rəhbərlərindən biri olub, taypinlər hərəkatına qoşulan və üsyanın ilk illərində böyük rol oyanayan Xun Da-tsüan da elə bu zaman həlak oldu, mancurlar hərəkat rəhbərlərinin cəsədlərini yandırdılar..

Bəzi uğursuzluqlara baxmayaraq 1852-ci ilin axırlarında taypinlər Yantszı çayına çatdılar. Onların ordusu durmadan artırdı. Onlar XVII əsrdən qalmış böyük silah ehtiyatını ələ

keçirdi. 1853-cü il yanvarın 12-də taypinlər Uçan şəhərini, fevralda – Antsin şəhərini tutub, mart ayında Nankinə yaxınlaşdılar. Taypinlər ordusu yaxşı təşkil olunmuş intizamlı, onun döyüşçüləri isə cəsur idi. Ordu xalqın geniş yardımına arxalanırdı, çünki taypinlər ordusu yoxsullara kömək edir və xalqın ən çox nifrət bəslədiyi istismarçıları məhv edirdi. Artıq 1853-cü ilin əvvəllərində taypinlər ordusunun sıralarında bir milyona qədər döyüşçü var idi. Lakin taypinlər ordusu tutduğu rayonlarda mövqelərini möhkəmlətmədən və bu yerlərin müdafiəsini təşkil etmədən irəliləyirdilər. Kəndli üsyanlarına, o cümlədən taypin hərəkatı kimi çox yaxşı təşkil olunmuş üsyana xas olan cəhətlər özünü burada da göstərdi. Amma taypinlərin müqavimət hərəkatından sonra bir sıra çatışmazlıqlar da özünü büruzə verməkdə idi. Həmin zəif cəhətlər - silahlı mübarizə aparmaq üçün vahid, yaxşı düşünülmüş bütöv bir planın və mübarizənin son əməli məqsədinin olmaması idi.

Nəhayət, xalqın aramsız mübarizəsindən sonra, xalq ordusu mancurların müqavimətini qırdı və martın 19-da Nankin süqut etdi. Bu qələbədən sonra Taypinlər Nankini öz paytaxtı elan edərək bunu Tyantszin ("Asiman paytaxtı") adlandırdılar və bu xalq hərəkatının böyük qələbəsi idi.

## Taypin Tyanqo

Ölkənin əsas inzibat-siyasi mərkəzi, feodal hakimiyyətinin və Sin sülaləsinin əsas dayağı olan Pekin irticaçıların əlində qalmışdısa da, xalq hərəkatı zamanı Nankinin ələ keçirilməsi mühüm əhəmiyyət kəsb edən tarixi hadisə idi. Odur ki, əldə edilən müvəffəqiyyət Taypin dövlətinin möhkəm əsaslar üzərində qurulması və xalqın nümayəndələrinin təmsil olunduğu hakimiyyətin təşəkkülü və möhkəmlənməsinə kömək etdi. Məhz bu zaman Taypin dövlətinin ictimai xarakteri bir daha müəyyən oldu. Əfsuslar olsun ki, Taypin dövlətinin siyasi hakimiyyət quruluşu yenə də monarxiya üsul idarəsinə əsaslanırdı. Amma bu əvvəlkilərdən bir qədər fərqli monarxiya üsul idarəsi idi. Bu monarxiyanın xüsusiyyəti kəndli demokratiyasının böyük rol oynamasında, Taypin dövlətinin bütün fəaliyyət proqramında kəndli tələblərinin əks olunması başlıca şərt idi. O da xarakterik hal idi ki, həmin dövlətin

fəaliyyətinin birinci mərhələsində bu dövlətin əsil başçısı xalq içərisindən çıxmış və xalq ruhunda formalaşmış Yan Sütsin idi o, hökumət başçısı və ali baş komandan idi.

Taypinlər haqlı olaraq köhnə monarxiya hakimiyyət aparatını dağıdırdılar. Taypinlərin yaratdığı hakimiyyət orqanları xalqla məsləhətləşdikcə və sıx əlaqə saxladıqca kütlələr içərisində son dərəcə böyük müvəffəqiyyət qazanmaqda idi. 1850-1856-cı illər üsyanın birinci mərhələsi idisə, taypinlər hərəkatının yeni bir uğurlu mərhələsi 1856-cı ilin axırlarına təsadüf edir.

Ən başlıcası isə 1850-1856-cı illərdə Taypinlər üsyanının əsas müvəffəqiyyət səbəbləri bunda idi ki, taypinlər mülkədar istismarını qətiyyətlə məhdudlaşdırır, iri məmurların əmlakını müsadirə edir və varlıların əmlakını yoxsullar arasında bölüşdürürdülər. Bu, antifeodal kəndli üsyanı idi. Hərəkatın əhəmiyyəti və mənası da məhz bunda idi.

"Taypin Tyanqonun qeyri-rəsmi tarixində" göstərilir ki, taypinlər iri məmur və varlıların libas və əşyasını yoxsullara paylayaraq vəd verirdilər ki, qayda-qanun bərpa olunduqdan sonra üç il müddətinə hamını icarə haqqından və vergilərdən azad edəcəklər. Həmçinin "Taypin Tyanqonun qeyri-rəsmi tarixinin" müəllifi qeyd edirdi ki, "kəndlilər taypinləri tərifləyirdilər". Bu belə da olmalı idi, çünki onlar eyni təbəqəyə mənsub idi. Tarixin bütün mərhələlərində hökmdarların xalq üçün mütərəqqi və qeyri-mütərəqqi fəaliyyəti yaddaşlarda qalmışdır. Taypinlər hərəkatı da öz mütərəqqi xüsusiyyətlərinə görə milli-azadlıq hərəkatı tarixində qaldıqları kimi həm də sinfi mübarizə tarixində mütərəqqi hərəkat kimi qala bilmişdilər.

## Torpaq haqqında qanun

Taypinlərin belə mütərəqqi siyasətlərindən yadda qalanlardan biri də antifeodal siyasəti və "Asiman sülaləsinin torpaq qaydaları" adlı aqrar qanun idi. Qanun bütün torpaqların ümumi və bərabər surətdə bölüşdürülməsini nəzərdə tuturdu. Qanunda deyilirdi: "Asiman dövlətinin bütün torpaqları Asiman dövlətinin sakinləri tərəfindən becərilir. Hər hansı bir ərazidə kimə torpaq çatmazsa, onlar başqa yerə köçürülür.

Buna nail olmaq lazımdır ki, ilahinin, hər bir şeyin yaradıcısı olan allahın insanlara bəxş etdiyi böyük nemətlərdən Asiman dövlətinin bütün əhalisi istifadə etsin, hamı torpaqları birlikdə becərsin, birlikdə yeyib-içsin və geyinsin, birlikdə pulu xərcləsin, hər şey bərabər olsun və heç kim ac-yalavac qalmasın".

Torpaqdan bərabər istifadə edilməsi siyasəti, Çin şəraitində mütərəqqi siyasət idi. Əslində feodal istismar quruluşunu darmadağın edən taypinlər daha qabaqcıl quruluş, daha ədalətli cəmiyyət və quruluş üçün zəmin hazırlayırdılar.

Köhnəlmiş feodal münasibətlərini dağıdan taypinlərin bu siyasəti XIX əsrin ortalarında Çin şəraitində inqilabi və mütərəqqi xarakter daşıyırdı. Hamının bərabər olduğu bir səltənət yaratmaq haqqında taypin ideyaları öz-özlüyündə dövrünə görə utopik ideyalar olsa da, lakin onların əməli işləri feodalizm rejimini və qaydalarını dağıtması ölkənin mütərəqqi inkişafı üçün yol açırdı, inkişafa mane olan bürokratik feodal buxovlarını qırıb atırdı. Lakin arasıkəsilmədən müharibə vəziyyətində olduqlarından, taypinlər torpaqdan bərabər istifadə olunmasını ardıcıl surətdə həyata keçirmək üçün əslində əməli tədbir görə bilmədilər. Amma mütərəqqi hal o idi ki, mülkədar istismarı o qədər məhdudlaşdırılmışdı ki, taypinlərin hakim olduğu bir sıra rayonlarda kəndlilər əsil azad vətəndaşlar idi.

Bu dövrdə "Torpaq qaydaları" qanunu dövlətin təşkilat quruluşu prinsiplərini də müəyyən edirdi. Ən kiçik inzibati vahid – vızvod idi (25 ailədən ibarət icma). Ən iri inzibati vahid isə - 13156 ailədən ibarət olan ordu idi. Dövlətin belə bir quruluşunun səbəbi aydındır, çünki taypinlər fasiləsiz surətdə müharibə aparmalı olurdu. Həmçinin bu sistem geniş demokratizmə əsaslanırdı. Bütün vəzifələrə təyinat Nankində təsdiq edilməli və bütün komandirlər xalq tərəfindən seçilirdi.

Taypinlərin qoyduqları qaydalar ictimai quruluşun bir sıra sahələrində böyük ictimai dayağa söykənirdi. Taypinlər dövlətində qadın cəmiyyətin bərabərhüquqlu üzvü idi. Kişilərlə bərabər, xüsusi qadın dəstələri də irticaçılara qarşı vuruşurdu. Kiçik qızların ayağını sarımaq kimi vəhşi adət qadağan edilmişdi. Fahişəliyə qarşı ciddi mübarizə aparılırdı və belə əxlaqsızlığa görə qadınlara hətta ölüm cəzası verilə bilərdi.

Taypinlər hərəkat iştirakçılarının yüksək mənəvi səviyyədə olmasına böyük qayğı göstərirdi. Buna görə tiryək çəkmək, sərxoşluq və qumar oyunları ciddiyyətlə təqib edilirdi.

Bununla yanaşı Taypinlər dövlətinin idarəçilik sistemində halallıq, düzlük, vicdanlılıq və vətənpvərvərlik əsas meyarlardan idi. Rüşvət proteksionizm amilləri ən ağır cinayyət idi.

Bununla yanaşı, taypinlər istintaq zamanı işgəncə verilməsini ləğv etdi, açıq məhkəmələr yaratdı. Eyni zamanda onların qanunlarına əsasən quldurluq edənlərə ən şiddətli cəza verilirdi, qanunun aliliyi hamı tərəfindən qorunurdu və qanun müqəddəs idi.

Ən başlıcası isə xalqın mənafeyinə xidmət edən bu hərəkata hələ 1850-ci ilin yanvarında klassik tarixçilər, filosoflar müsbət qiymət vermişdilər. Bu hərəkatı Çin xalqını xoşbəxtliyə aparan yol adlandırmışdılar.

## Taypinlərin yeni yürüşləri

1853-cü ilin yazında taypinlərin şimala yeni yürüşləri başlandı. Li Kay-fanın və Lin Fınsyanın komandanlığı altında Pekin istiqamətinə kəşfiyyatçı kiçik bir dəstə göndərildi.

Taypinlərin bu hücumu saray dairələrini təşvişə saldı. Taypinlər Tyantszin şəhərinə yaxınlaşdı, lakin taypinlərin dəstəsinin kiçik olması üzündən onlar bu şəhəri ala bilmədilər. 1854-cü ilin fevralında taypinlər geri çəkilməyə məcbur oldu. Xuan Şen-tsyanın başçılığı altında köməyə göndərilmiş ikinci dəstə də 1854-1855-ci illərin yürüşü zamanı mübarizənin gedişini dəyişdirə bilmədi. Bu yürüşün müvəffəqiyyətsizliyi hərəkatın müqəddəratına olduqca mənfi təsir göstərdi. Şimala az qüvvə göndərməkdə Xun Sü-tsüan və Yan Sü-tsin ciddi səhvə yol vermişdilər. Onlar Pekinin ələ keçirilməsi və Tsin sülaləsinin hakimiyyətdən salınmasının mahiyyətini və əhəmiyyətini hələlik lazımınca qiymətləndirmirdilər.

Taypinlərin ən mühüm hərbi səhvi bunda idi ki, onlar 1851-1853-cü illər yürüşü zamanı tutduqları ərazidə özlərini möhkəmləndirmədilər, burada möhkəm dayaq məntəqələri yaratmadılar. Nəticədə böyük yürüş zamanı Yantszı çayı boyunca ələ keçirilmiş ərazinin çox hissəsi itirildi. Bu ərazini yenidən tutmaq üçün taypinlər 1854-cü ildə Yantszı çayı boyunca yenidən Nankinə doğru əks istiqamətdə, yəni qərbdən şərqə deyil, şərqdən qərbə yürüş təşkil etdilər.

1853-cü ilin oktyabrında taypinlər Xanyan-Uçan rayonunu ələ keçirdi. Lakin 1853-cü ilin noyabrında buranı tərk etməli oldular. Bu yürüş zamanı taypinlər təhlükəli bir düşmənlə, çinli əyan Tszen Qo-fanın ordusu ilə üz-üzə gəldilər.

Tszen Qo-fan Xunan ordusu adlanan bir ordu yaratmışdı ki, bu ordu da şenşi, mülkədar və tacir övladlarından təşkil olunmuşdu. Bu əslində varlılarla kasıbların müharibəsinə çevrilməkdə idi. Həmin ordunun xeyli hissəsini həmçinin, kəndlilərin geridə qalmış təbəqələrindən və lümpen proletarlardan olan muzdla tutulmuş əsgərlər təşkil edirdi. Bu ordunun yaradılması əvvəllər Tsin hökumət dairələrini narahat etmişdisə də, sonralar onlar taypinlərə qarşı mübarizlərində Tszenin ordusuna arxalanmağa başladı, yəni hökumət xalqı qarşı-qarşıya qoymaqla məkrli siyasətini reallaşdırmaq məqsədi güdürdü. 1854-cü ildə Tszen Qo-fanın ordusu ilk müvəffəqiyyətlər əldə edərək Uçan, Xanyan və Xankou şəhərlərini tutdu.

1855-ci ilin əvvəllərində Tszen Qo-fanın ordusu məğlubiyyətə uğradı. Anxuey əyalətindən Şi Da-kayın rəhbərliyi altında taypinlər ordusu Xubeydəki taypin dəstələrinin köməyinə gəldi. Xankou, Xanyan və Uçan yenə də taypinlərin əlinə keçdi. Əslində bu şəhərlər döyüş əməliyyatlarından asılı olaraq əldən-ələ keçən şəhərlər idi. Hökumətə satılmış əyanlardan olan Tszen Qo-fan bu şəhərləri yalnız 1856-cı ildə ikinci dəfə zəbt edə bildi.

## Ölkənin cənub əyalətlərində üsyanlar

Çində XIX əsrin ortalarında Taypinlər hərəkatı ilə bir vaxtda və onun təsiri altında bir sıra digər antifeodal və mancurlar əleyhinə üsyanlar da baş verdi ki, bunlar böyük əhəmiyyət kəsb edirdi.

Ölkənin cənub, cənub-şərq və sahil əyalətlərindəki üsyanlar, xüsusilə əhəmiyyətli olub, geniş vüsət almışdı. Dənizkənarı əyalətləri Quandun, Futszyan, Çjetszyanda qayıqçıların, liman işçilərinin, müxtəlif peşələrdən olan fəhlələrin hökumət orqanlarının özbaşınalığına qarşı çıxışları davam edirdi. Onların sıralarında gizli cəmiyyət üzvləri çox idi. Ən çox nüfuza

malik olan və əhatə dairəsi geniş olan "Tyandixuey" cəmiyyəti idi. Cəmiyyətin bir çox üzvləri taypinlərin də mübarizəsində iştirak edirdi. Bu cəmiyyət üzvləri içərisində yerli tacirlər hərəkatın maliyyələşdirilməsində mühüm rol oynayırdı. "Tyandixuey" cəmiyyətinin tərəfdarları 1853-cü ilin mayında Amoy şəhərini tutdu və "Tyandixueyin" rəhbərlərindən biri Xuan De-mey mancur sülaləsinin bu ərazidə hakimiyyətini devrilmiş elan etdi.

Lakin artıq iyul ayında Amoydakı üsyan yatırıldı. Bu onu sübut edir ki, kütləvi bazaya, mancurlara qarşı iki yüz illik mübarizə təcrübəsinə malik olan "Tyandixuey" cəmiyyəti taypinlər qədər mütəşəkkil və intizamlı deyildi. Öz növbəsində taypinlər də cənubda şəhər yoxsulları və tacirlərin üsyanı nəticəsində yaranmış əlverişli şəraitdən istifadə edə bilmədilər.

"Tyandixuey" cəmiyyətinin şöbələrindən biri olan "Kiçik qılınclılar" cəmiyyəti 1853-cü il sentyabrın 7-də Şanxayda üsyan qaldırıb şəhərin xeyli hissəsini ələ keçirdi. Bu hadisə taypinlərin hücumunu genişlənməsi üçün son dərəcə mühüm və əlverişli şərait yaradırdı. "Kiçik qılınclılar"ın özləri də taypinlərlə əlaqə yaratmaq təşəbbüsü etmişdi, lakin onların göndərdiyi qasidlər Tsin qoşunları tərəfindən əsir alınmışdı. Taypinlər "Kiçik qılınclılar"la əlaqə yaratmadı. Taypinlərin Şanxayı tutması, hərəkatın sonrakı müqəddəratına mənfi təsir göstərdi. Yəni hərəkat iştirakçılarının hərbi-strateji gücü parçalandı. Şanxaydakı üsyançılar isə çətinliklə olsa da əks hücumlara qarşı 1855-ci il fevralın 18-nə qədər davam gətirə bilmişdilər.

Tsin hökumət orqanları Şanxaydakı üsyanı hökumətin özünə məxsus cəza qüvvələri ilə yatıra bilmirdi. Onlar yardım üçün xarici dövlətlərə müraciət edərək, yalnız əcnəbilərin, əsasən fransız qoşunlarının köməyilə üsyanı yatıra bildilər.

## Çinə qarşı kapitalist dövlətlərin müəmmalı siyasəti

İngiltərə, ABŞ və Fransa Çindəki hadisələrə rəsmi olaraq "bitərəf" münasibət bəslədiklərini qeyri-səmimi olaraq bildirsələr də lakin, Şanxay hadisələri göstərdi ki, kapitalist dövlətləri Tsin rejimini müdafiə edir, İngiltərə, ABŞ və Fransa isə taypinlər üsyanından öz qəsbkarlıq məqsədləri üçün istifadə etməyə çalışır. Taypinlər üsyanı ilə əlaqədar olaraq İngiltərə Çini iki dövlətə parçalamaq planı hazırlayırdı ki, bu da, ingilislərin

Çində ağalığı üçün daha əlverişli imkanlar yaratmağa istiqamətləndirilmişdi. Bu planı həyata keçirmək məqsədilə ingilislər "Germes" gəmisində Nankinə Tyan vanın yanına Britaniya konsulluğunun nümayəndəsi Corc Bonxemin başçılığı ilə rəsmi diplomatik nümayəndə heyəti göndərdilər.

Britaniya hökumətinin Çinə göndərilmiş nümayəndə heyəti siyasi və diplomatik manevrlər edərək Çində özlərini "humanist" və "xeyirxah" kimi göstərirdilər. Bununla yanaşı onlar qarşı tərəfi şübhələndirməmək üçün ilk vaxtlar nisbətən məhdud tələblər irəli sürürdü. Bu tələblər hələlik Yantszı çayı boyunca gəmiçilik hüququndan və taypinlərin nüfuz dairəsinə daxil olan ərazilərdə ticarət azadlığı iddiasından ibarət idi.

İngilislər Taypin rəhbərlərinə azad, beynəlxalq ticarətə tərəfdar olduqlarını bildirdilər. Danışıqlar prosesində o da vurğulandı ki, onların qanunlarına ciddi riayət olunsun və qəti şəkildə bildirdilər ki, tiryək ticarətinə heç zaman yol verilməyəcəkdir.

Nəhayət, ingilislərin taypinlərlə danışıqları rəsmi sazişin imzalanması ilə nəticələndi ki, bu sazişə görə də İngiltərə taypinlərin ərazisində ticarət imkanı və bir sıra imtiyazlar əldə etmiş oldu. Lakin xarici müdaxiləçilər maraqlı tərəf olduqlarına görə sonralar İngiltərə, ABŞ və Fransa qüvvələri taypinlər hərəkatının yatırılmasında fəal iştirak etdilər.

Bu dövrdə Taypin Tyanqo adından danışıqları Lo Daqan aparırdı. O, taypinlərin xarici işlər naziri vəzifəsini icra edirdi. Artıq hərbi-iqtisadi qüdrətinin tükəndiyini dərk edən taypin diplomatları müdaxiləçi Qərb dövlətləri ilə açıq hərbi toqquşmaya yol verməməyə çalışırdılar. Onlar dərk edirdilər ki, ABŞ, İngiltərə, Fransa kimi imperialist dövlətlərlə üz-üzə gəlmək olduqca təhlükəlidir.

## Taypinlər hərəkatının böhranı

Taypinlərin hərbi müvəffəqiyyətsizlikləri və buraxılmış səhvləri Taypin dövlətini hərbi-strateji və iqtisadi cəhədən zəiflətmişdi. 1856-cı ildə hərəkatda başlanmış böhran bu səhvlərin nəticəsinin yalnız bir amili idi. Hərəkatın böhranı, bürokratik feodalizm münasibətlərinin hökm sürdüyü və antifeodal mübarizənin, inqilabı qələbəyədək başa çatdırmağa qadir olan yeganə qüvvənin hələ yetişmədiyi bir ölkədə bu uğur-

suzluq labüd idi və məğlubiyyət kəndli üsyanının təbiətinə xas olan dərin daxili səbəblərdən irəli gəlirdi.

Kəndli kütlələri öz mübarizəsində nəcib məqsədləri qarşıya qoyaraq, onlar ədalətsiz ictimai quruluşu məhv etmək, ictimai bərabərsizliyi aradan qaldırmaq və yeni ictimai quruluş yaratmaq istəsələr də lakin, hərəkat rəhbərlərinin özləri bu yeni quruluşun prinsiplərini aydın təsəvvür etməkdə çətinlik çəkirdilər.

Elə bu səbəbdən taypinlər ictimai-siyasi ideyalarını əməli surətdə hayata keçirə bilmədilər. Köhnə feodalların əvəzinə yeni taypin zadəganlarının nümayəndələri gəldi ki, onlar da köhnə feodal siyasətindən az fərqlənən siyasət yeritməyə başlamışdılar. Bu da ölkənin iqtisadi və siyasi böhranını daha da dərinləşdirdi.

Xalqın arzuları ilə bəzi rəhbərlərin xalqa yabançı siyasəti arasındakı ziddiyyət nəticəsində taypin hərəkatında böhran başlandı. 1856-cı ildə xalq kütlələrinin nümayəndəsi Yan Sü-tsin ilə üsyanda iştirak edən mülkədar – şenşi qüvvələri və Vey Çan-xuey arasında münaqişə baş verdi. Digərlərindən fərqli olaraq Yan Sü-tsin öz bildiyi kimi hərəkət edən adam idi. O, ətrafındakılara təkəbbürlə yanaşmağa başlamış, şəxsi eqoizmi hədsiz idi ki, bu da onun düşmənlərinin ona qarşı birləşməsinə şərait yaratdı.

Nəticədə Yan Sü-tsinə qarşı sui-qəsd təşkil olundu və sui-qəsd nəticəsində o öldürüldü. Yan Sü-tsinlə birlikdə onun çoxlu tərəfdarı da edam olundu. Bu hadisədən sonra Nankində yeni-yeni terror hadisələri baş verdi. Hadisələrdən istifadə edən Vey Çan-xuey açıq surətdə bütün hakimiyyəti öz əlinə keçirməyə çalışırdı. Hadisələrin fəal iştirakçılarından olan Şi Da-kay da Vey Çan-xueyin özbaşınalığından hiddətlənmişdi. Odur ki, Şi Da-kayın fəaliyyətinə özü üçün bir təhlükə kimi baxan Vey Çan-xuey onu edam etmək qərarına gəldi. Lakin Şi Da-kay Nankindən Antsinə qaçıb, öz qoşunu ilə buradan Nankin üzərinə yürüşə başlamaq qərarına gəldi. Taypin əsgərləri və komandirləri qəti surətdə Şi Da-kaya tərəfdar çıxdılar, həmin ərazilərdə strateji mövqe tutmağa cəhd göstərdilər. Bu dövrdə Çinin daxilində siyasi gərginlik yeni mərhələyə daxil oldu. Siyasi cəbhələşmə antoqonist xarakter aldı. Böyük

bir ordu Nankin üzərinə hərəkətə başladı. Şi Da-kayın ordusunun hücumundan qorxuya düşən Xun Sü-tsüan Vey Çanxueyi edam etmək əmri verdi. Lakin Xun Sü-tsüan bütün hakimiyyətin Şi Da-kayın əlində toplanmasına imkan vermədi. Üsyanın ilk illərinin inqilabi xarakterinə yabançı olan, heç bir sahədə əhəmiyyətli bir iş görməyən, Xun Sü-tsüanın yaxın qohumları olan adamlar rəhbərliyə irəli sürüldü. Bu adamlar, Xun Sü-tsüanın qardaşları – Xun Jen-da (Fu van), Xun Jen-fa (An van) və Xun Jen-qan (Qan van) idilər.

Hərəkat rəhbərlərinin özbaşınalığına etiraz edən Şi Dakay 1857-ci ilin iyununda Xun Sü-tsüanla əlaqəni kəsib, ölkənin qərb əyalətlərində müstəqil mübarizə aparmağa başladı. Şi Da-kayın hərəkatdan ayrılması taypinlərin hərbi qüvvəsini zəiflətdi və hərəkatın süqutu reallaşdı.

Taypin rəhbərləri içərisindəki sinfi ziddiyyətlər ona səbəb oldu ki, Taypin dövləti özünün istedadlı rəhbəri Yan Sütsini və onun ən yaxın silahdaşlarını, Şi Da-kayı və başqalarını itirmiş oldu ki, bu da mübarizə aparan bütün taypinlərin qüvvələrini pərakəndə halına saldı. Taypin hərəkatının son illərinin görkəmli xadimi Li Sü-çen hərəkat haqqında yazırdı: "... Əhalinin əhvali-ruhiyyəsi dəyişməyə başladı və dövlətin idarə olunmasında vəhdətlik itdi. Hər kəs özünün bildiyi kimi düşünürdü. Hökmdar heç kəsə inanıb vəzifə tapşırmırdı, çünki Dun vanın, Bey vanın və İ vanın bədxah əməllərindən gözü qorxmuşdu və o, kənar məmurlara daha inanmırdı. O, yalnız öz qohumlarına inanırdı".

1856-cı il hadisələri hərəkatın növbəti mərhələsinin, yəni onun yüksəliş mərhələsinin sonu və süqutu demək idi. Hərəkatın zəifləməsi ilə xarakterik olan ikinci mərhələdə taypinlər ordusu xarici müdaxiləçilərin, o cümlədən İngiltərə, Fransa və ABŞ istilaçılarına qarşı mübarizənin yeni mərhələsinə, nisbətən müdafiə xarakterli mərhələsinə daxil oldu.

## İngiltərə və Fransanın Çinə qarşı müharibəsi

Qərb dövlətlərinin taypinlərə qarşı silahlı müdaxiləyə başlaması üçün əsas ilkin şərt, İngiltərə və Fransanın Çinə qarşı apardığı ikinci müharibədə Tsinlərin idarə etdiyi Çinin məğlubiyyəti və kapitalizm aləmi qarşısında Mancur-Sin hökumətinin təslim olması idi.

İngiltərə sənaye kapitalı birinci "tiryək" müharibəsindən sonra Çində əldə etdiyi mövqeləri ilə daha kifayətlənmirdi. Əsas qazanc yenə də tiryək tacirlərinin öhdəsinə düşürdü. İngilis fabrik və zavod sahibləri yaranmış vəziyyətdən istifadə edib Çinə daha geniş dairədə, daxili əyalətlərə yol açmağa, Çinin daxili çay limanlarını ələ keçirməyə çalışırdılar ki, müharibənin əsas səbəblərindən biri də bu idi.

Həmin illərdə Çindən fəhlə qüvvəsinin xaricə aparılması geniş yayılmışdı. Onların da əksəriyyəti ABŞ-a aparılırdı. Bu fəhlə qüvvəsinin daşınıb aparılması öz üsullarına görə daha çox qul alverini, çinlilərlə rəftar nöqteyi-nəzərindən isə əsil quldarlığı xatırladırdı. Çin hökumət orqanları bu fakta qarşı çox qətiyyətsiz və biganə olsa da, bu özbaşınalığa qarşı müqavimət göstərməyə çalışırdı. Amerika və Avropa müstəmləkəçiləri isə, özlərinin müstəmləkəçilik siyasətinə bəraət qazandırmağa cəhd göstərirdi. Amma tərəflər arasında ziddiyyət müharibə zərurətini yetişdirmişdi və müharibə qaçılmaz idi.

Çinlə İngiltərə arasında müharibə başlayan zaman yenə də Quandun əyaləti hərbi əməliyyat meydanına çevrildi. Amma hərbi əməliyyatlar nəticəsində və uzun müddətli istilaçı yürüşlər Quandun vətənpərvər xalq qüvvələrinin sıralarını (pinintuanlar və başqaları) xeyli zəiflətmişdi. Bu da qaçılmaz fakt idi ki, Çin tarixində özünəməxsusluğu ilə seçilən taypinlər üsyanının vahiməli sədaları Quandunun hökumət orqanlarını lərzəyə salmışdı. Onlar qorxurdu ki, vətənpərvər təşkilatlar və bunların silahlı dəstələri mancur rejiminə qarşı mübarizədə qüdrətli bir qüvvəyə çevrilə bilər. Belə bir hal doğrudan da 1855-ci ildə Kanton ətrafındakı kəndlilərin çıxışlarında özünü göstərmişdi. Amma Quandun və Quansinin canişini E Min-şen bu üsyanı da qəddarlıqla yatırmışdı. Hakimiyyət qüvvələri xalqa divan tutmaq məqsədilə təkcə Kanton ətrafında 100 minədək, bütün əyalətdə isə daha çox adam məhv etmişdi.

Beləliklə, vətənpərvər qüvvələrin darmadağın edilməsi ingilislərin müharibəyə başlaması üçün daha əlverişli şərait yaratmış oldu. Müharibəyə bəhanə isə "Errou" ("ox") adlı ti-

carət gəmisilə əlaqədar idi. Təxribatçılar süni şəkildə Çinlə münaqişə layihəsi hazırladılar. Sonra İngiltərə hökuməti əvvəl Çinə ultimatum verdi, 1856-cı il oktyabrın sonunda isə vitse – admiral Seymorun komandası altında ingilis eskadrası Kanton istehkamlarını atəşə tutdu. Bu hadisədən sonra şəhərin özünü bombardman etməyə başladı. Kanton şəhərinin ətrafındakı 5 minədək ev ingilislər tərəfindən yandırıldı və xarabazarlığa çevrildi.

Odur ki, hələ 1856-cı ilin dekabrı və 1857-ci ilin əvvəllərində ingilislərin Kantona qarşı hərbi müdaxiləsi davam etməkdə idi. ABŞ rəsmi şəkildə öz bitərəfliyini bəyan etməsinə baxmayaraq, amerikalılar da gizli hərbi müdaxilədən, açıq istilaçı müdaxiləyə başlayaraq ingilislərə qoşuldu. ABŞ-ın Kanton sularında olan "Portsmut" hərbi gəmisi Kanton istehkamlarının topa tutulmasında iştirak etdi. Kanton istehkamlarını ələ keçirə bilməyən İngiltərə-Amerika qəsbkarları dinc əhaliyə divan tutmağa başladı. Rus hərbi tarixçisi Mertvaqov yazırdı ki, onlar "çinliləri körfəzlərdə təqib edir, Çin kəndlərinə od vurur, bacardıqca onlardan qisas alırdılar. Lakin bu əməliyyat nəticəsində nə ingilis silahı qarşısında çinlilərin qorxusu, nə də ingilis mədəniyyətinə hörməti artmırdı".

Müdaxiləçilərin istilaçılıq siyasəti Çin xalq kütlələri içərisində olduqca böyük qəzəbə səbəb oldu. Çinlilərin istilaçılara qarşı göstərdiyi müqavimət 1840-1842-ci illərdəkindən də müqayisəedilməz dərəcədə güclü idi. Çinlilər ingilis faktoriyalarını yandırır, ingilis tacirlərini qətlə yetirir, yadellilərdən əzilən xalqın intiqamını alırdılar. Paralel olaraq xaricilərin gəmilərində işləyən kulilər də üsyan qaldırır, hərəkat iştirakçılarına kömək edirdilər. Digər bir iğtişaş Honkonqda baş verdi. Eyni zamanda iğtişaş iştirakçıları mübarizənin digər bir növünə, partizan hərəkatına da ciddi fikir verirdilər. Təbii olaraq müstəmləkəçilərə qarşı mübarizə ümumxalq xarakteri almağa başlamışdı ki, bunun da obyektiv və subyektiv səbəbləri var idi.

1857-ci ilin ortalarında öz qəsbkarlıq məqsədlərini həyata keçirmək üçün Fransa da İngiltərənin Çinə qarşı apardığı ədalətsiz müharibəyə qoşuldu. Fransanın müharibəyə başla-

ması üçün rəsmi bəhanə - Şapdelen adlı bir missionerin edam edilməsinə görə intiqam almaq idi. Şapdelen əhalini Çin hökumətinə qarşı qaldırmaq üstündə edam olunmuşdu. Bu hadisə Fransanın Çinə qarşı müharibəyə başlaması üçün bəhanə oldu.

İngilislərin nümayəndəsi lord Elçon 1857-ci ilin dekabrında Çin hökumət orqanları qarşısında yeni tələblər qoydu. Bu tələblərdə keçmiş müqavilələrə yenidən baxılması, iri sahil şəhərlərinə yol açılması, Çin çaylarında ingilislərə gəmiçilik hüququ verilməsi və s. tələblər irəli sürülürdü. Mancur-Sin hökuməti bu tələbləri qəbul etmədi və bundan sonra ingilis-fransız eskadrası Kantonu toplardan atəşə tutaraq şəhəri işğal etdi. Qubernator E Min-şen əsir alındı. Kanton işğal edildəndən sonra qarət olundu, yandırıldı və şəhər tamamilə dağıdıldı.

Hökumət orqanlarının mürtəce, təslimçilik siyasətinə baxmayaraq Kanton ətrafındakı rayonların əhalisi yenə də mübarizəyə qalxıb düşmən arxasında partizan müharibəsini genişləndirdi.

1858-ci ilin əvvəllərində hərbi əməliyyatın mərkəzi şimala, Bayxe çayının dənizə töküldüyü yerə keçirildi. 1858-ci il mayın 20-də müdaxiləçilərin eskadrası Daqu dəniz qalasını və digər istehkamları tutdu. Yadelli istilaçılar sürətlə Tyantszinə yaxınlaşdılar. Bununla müdaxiləçilər dövlətin paytaxtı Pekini bilavasitə təhlükə altına almaq istəyirdilər.

Taypinlər əleyhinə mübarizə üçün qüvvə və maliyyə vəsaitini əsirgəməyən Mancur-Tsin hökuməti müdaxiləçilərə qarşı mübarizədə ölkənin müdafiəsini təşkil etməkdə etinadsızlıq göstərirdi. Çin xalqı üzərində yalnız öz hakimiyyətini saxlamaq məqsədi güdən mancur hakimləri təslim olmağa tələsərək İngiltərə və Fransa ilə sülh müqaviləsi bağlamağa razı olduqlarını bəyan etdilər.

1858-ci ilin iyununda ingilis-Çin və fransız-Çin müqavilələri imzalandı ki, bunlar da Tyanszin müqavilələri adlanır. Bu müqavilələrin məzmunu təxminən eyni idi. Nəticədə İngiltərə və Fransa Pekində diplomatik nümayəndəliklər açmaq, ölkədə sərbəst hərəkət etmək hüququ almağa nail oldu. İngilis

və fransız gəmilərinə Yantszı çayı boyunca gəmiçilik hüququ verildi. Əcnəbilərin ticarəti üçün daha beş liman açıldı. Xristian missionerlərinə qeyri-məhdud fəaliyyət hüququ verildi. Bağlanan müqavilələr əsasında hazırlanmış ticarət qaydaları tiryək ticarətini qanuniləşdirirdi.

Müqavilədə o da nəzərdə tutulmuşdu ki, ingilis ticarət gəmiləri Böyük çay (Yantszı) boyunca ticarət edə bilərlər, lakin burada hakimiyyət üçün və yadellilər üçün təhlükə mənbəyi hesab edilən xalq hərəkatı əvvəlcə yatırılmalıdır. İngilislər mancurların bu gizli sövdələşmələrini rəğbətlə qarşıldılar.

Beləliklə, Yantszı çayı boyunca xaricilərin gəmiçilik hüququndan istifadə etmələri taypinlər hərəkatının yatırılmasında müstəsna rol oynadı. Müqavilədəki məlum maddə mancurların ingilislərlə gizli müttəfiqliklərini sübut edir, hakimiyyətlərini yadellilərin hesabına qoruyub saxlamaq üçün onlar bu yolla "sığortalanırdılar". Odur ki, ingilislər gizli formada mancurlara müraciət edərək Yantszı çayından istifadə etmək müqabilində Taypin üsyanını yatırmaq funksiyasını öz üzərinə götürmək kimi mürtəce tədbiri həyata keçirmək təşəbbüsündə idilər.

1858-ci il iyunun 18-də, Çinin İngiltərə və Fransa ilə müqavilələr imzalanmasından hələ bir həftə əvvəl, Amerika daha çevik hərəkət edərək Çinlə müqavilə imzalamağa nail olmuşdu. Məhz bu səbəbdən amerikalılar Çinin məğlubiyyətindən səmərəli istifadə edərək hətta 1844-cü il müqaviləsindən də artıq Çindən yeni imtiyazlar qopardılar.

## Rusiya-Çin münasibətləri

ABŞ və Avropa dövlətləri Çinə qarşı ekspansiya siyasətinin bütün növlərindən istifadə etdiyi bir şəraitdə Rusiya da Çinə qarşı istilaçılıq siyasətini gücləndirdi. Nəhayət, Amur vilayəti məsələsi 1858-ci ildə tamamilə həll olundu. Xatırladaq ki, Rusiya 1689-cu il Nerçinsk müqaviləsinə görə Amur vilayətini Çinə güzəştə getmişdi. Bununla bərabər mancur hökuməti özu də orada məskən salınmayacağını öhdəsinə gö-

türmüşdü. Əslində Amurun sol sahili bitərəf zona idi. Rusiya-Çin sərhədləri də hələlik tamlığı ilə dəqiqləşdirilməmişdi, yəni hələ də mübahisəli ərazilər var idi. XIX əsrin ortalarında Uzaq Şərqdə beynəlxalq vəziyyət dəyişməyə başlamışdı. Öz qəsbkarlıq siyasətini həyata keçirən İngiltərə və ABŞ Uzaq Şərqdə Rusiya ilə Çin arasında sərhədlərin müəyyən edilməmiş yerlərini tutmaq məqsədi güdən tədbirlər görürdü. Bu da Rusiya tərəfindən əks tədbirlərin görülməsinə səbəb olmaya bilməzdi. Belə münaqişəli vəziyyətdə Uzaq Şərqin öyrənilməsi və tədqiq edilməsində kapitan Q.İ.Nevelskinin ekspedisiyası böyük rol oyandı. 1849-cu ildə Q.İ.Nevelskinin ekspedisiyası Tatar boğazını tədqiq etdi, Saxalinin ada olduğu ilk dəfə müəyyənləşdirildi. Həm Amur çayının dənizə töküldüyü yeri öyrənməkdə, həm də orada Rusiyanın mövqeyini möhkəmlətməkdə bu ekspedisiyanın əhəmiyyəti böyük idi. Bütün bunlar xüsusilə ona görə vaxtında edilmişdi ki, bu zaman İngiltərə açıqdan-açığa həmin rayonu işğal etməyə hazırlaşırdı. Bu tədbir Rusiya tərəfindən İngiltərəyə qarşı görülən profilaktik tədbir hesab olunurdu.

1850-ci ildə Rusiya tərəfindən Amurun aşağı axınında Nikolayevsk limanı (Nikolayevsk-na-Amure) tikilib istifadəyə verildi. 1851-ci ildə Rusiya hökuməti Çinə bildirdi ki, Amurun dənizə töküldüyü yerinin və Saxalinin başqa dövlətlər tərəfindən tutulmasına yol verməmək üçün, habelə Amur çayı rayonunda rus-Çin sərhəddinin hələ də müəyyən edilmədiyini nəzərə alaraq, buranı möhkəmləndirmək qərarına gəlmişdir ki, bu yerlər Rusiyaya və Çinə düşmən olan dövlətlərin əlinə keçməsin.

Bu tədbirlər Krım müharibəsi dövründə özünü tamamilə doğrultdu. Belə ki, o zaman ingilis-fransız hərbi-dəniz qüvvələri Kamçatkanı və Amurun dənizə töküldüyü yeri tutmaq təşəbbüsü etmişdi. Amma 1854-cü ildə onlar Petropavlovsk-na-Kamçatke rayonunda məğlubiyyətə uğradılar, buraya qoşun çıxarmaq təşəbbüsü boşa çıxıdı. 1855-ci ildə ingilis-fransız gəmiləri De-Kastri körfəzinə soxuldu, Tatar boğazı sahillərini blokadaya aldı, lakin rus gəmilərini tapa bilmədi və in-

gilis-fransız ekspedisiyası uğursuzluqla nəticələndi. Bu hadisələr Amur vilayətində Rusiyanın mövqelərinin daha da möhkəmlənməsinə səbəb oldu.

Rusların Amur vilayətini tədqiq etmək sahəsindəki müvəffəqiyyətləri 1858-ci il mayın 28-də bağlanan Ayqun müqaviləsində öz əksini tapdı. Bu müqaviləyə görə Amur çayının sol sahili Arqun çayından Amurun dənizə töküldüyü yerədək Rusiyanın mülkiyyəti elan olunurdu. Ussuri çayının Amura töküldüyü yerdən dənizədək olan sahədə Ussuri vilayəti "hər iki dövlət arasında sərhəd müəyyən edilənədək" ümumi mülkiyyətdə qalırdı.

1858-ci il iyunun 13-də Ruiya-Çin Tyanszin müqaviləsi imzalandı. Çin üçün qeyri-bərabərhüquqlu olan bu müqaviləyə görə Rusiya Çinin açıq limanlarında dəniz ticarəti etmək hüququ, Çində konsul məhkəmə hüququ, səfirliklər mübadiləsi etmək, konsulluqlar təsis etmək hüququ və s. hüquqlar əldə edirdi.

### İngilis və fransız qoşunları tərəfindən Pekinin işğalı (1860)

İngiltərə və Fransa Çinə qarşı apardıqları müharibənin nəticələrindən o qədər də razı qalmamışdılar. Onlar Tsin hökumətini tamamilə özlərinə tabe etməyi qarşılarında məqsəd qoymuşdular. Bununla əlaqədar olaraq ingilis və fransız nümayəndələri yenidən fitnəkarlığa əl atdılar. Tyanszin sazişlərinin təsdiq edilməsi qaydalarının qismən pozulması bunun üçün bəhanə kimi istifadə olundu.

Təsdiq edilmiş müqavilələr əldə olunmuş razılığa görə tərəflər arasında 1859-cu ilin iyununda Pekin şəhərində mübadilə edilməli idi.

Bununla əlaqədar olaraq İngiltərə və Fransanın səlahiyyətli nümayəndələri Bryus və Burbulon təsdiq edilmiş müqavilələri mübadilə üçün hərbi eskadra ilə Bayxe çayı vasitəsilə ilə Tyanszinə üzmək, sonra isə quru yolla Pekinə getməli idilər. Lakin Çin-mancur qoşunlarının komandanlığı xaricilərin

hərbi eskadrasının buradan keçməsinə qarşı müqavimət göstərdi. 1859-cu il iyunun 26-da müttəfiqlər Daqu istehkamlarına atəş açdı. Başlanan vuruşmada ABŞ-ın eskadrası da fəal istirak edirdi. Bu hadisə ilə əlaqədar olaraq müdaxiləçilər istehkamları tuta bilmədi, lakin İngiltərə-Fransa və Amerika fitnəsi hərbi əməliyyatın yenidən davam etdirilməsi üçün əsassız səbəb oldu. 1860-cı ilin avqustunda ingilis-fransız desantı Daqunun istehkamlarını və Tyanszini tutub Pekinə tərəf hərəkət etməyə başladı. 1860-cı il sentyabrın 21-də Pekinin bir neçə kilometrliyində Balitsyao körpüsü yanında 60 minlik mancur-monqol atlıları ilə ingilis-fransız qoşunları arasında vuruşma baş verdi. Bu vuruşma mancurların məğlubiyyəti ilə nəticələndi.

Bir çox əyanlar imperator Syan Fenə müraciət edərək qoşunun başında durmasını və Pekini, ölkəni müdafiə etməsini məsləhət görürdülər. Lakin imperator və onun saray adamları ölkəni düşmənin hücumuna məruz qoyaraq Jexe əyalətinə qaçdılar. Ölkənin idarəçilik mərkəzi müdafiəsiz qaldı.

İngilis-fransız qoşunu Pekinin yanından keçərək imperatorun yay sarayını (Yuanminyuan) tutdu. Bu saray Çin memarlığının gözəl bir abidəsi idi. Həmin saray bir neçə binadan ibarət olub qiymətli incəsənət, mədəniyyət və tarixi əsər və incəsənət nümunələri ilə dolu idi. Eyni zamanda bu saray Asiya xalqları mədəniyyətinin ən qiymətli nümunələrinin bir muzeyi idi. İngilis-fransız qoşunları sarayı tutaraq onu qarət etdilər.

Öz biabırçı hərəkətlərini ört-basdır etmək məqsədi ilə ingilis-fransız qoşununun komandanlığı sarayın yandırılmasına əmr verdi və saray yandırıldı.

Mancur hökuməti Pekini müdafiəyə cəsarət etmədi və 1860-cı il oktyabrın 13-də şəhərin qapılarını düşmənin üzünə açdılar və ingilis-fransız qoşunu şəhərə daxil oldu.

Mancur hökuməti hər şeydən əvvəl Taypin üsyanını mümkün qədər tez yatırmaq fikrində olduğuna görə müdaxiləçilərə ciddi müqavimət göstərmək niyyətində deyildi. Təslimçilik ideyaları ilə yaşayan mancur hökuməti İngiltərə və Fransa nümayəndələri ilə danışıq aparmaq qərarına gəldi.

Tsin hökumətinin nümayəndəsi knyaz Qun Çin nəhayət yeni əsarətli bir müqavilə imzaladı ki, bu da Pekin konvensiyaları adı ilə tarixə daxil oldu.

İngilis-Çin və Fransa-Çin Pekin müqavilələri Tyanszin müqavilələrinin bütün şərtlərini bir daha təsdiq etdi. Bundan başqa, Çin İngiltərə və Fransaya, hərəsinə 8 milyon lyan təzminat verməyi öhdəsinə götürdü. Koulun yarımadasının (Honkonqla üzbəüzdə yerləşmişdir) bir hissəsi İngiltərənin mülkiyyətinə keçirdi. Çin ölkədən qiymətli daş-qaşların, zinət əşyalarının daşınıb aparılmasına razılıq verir və Tyanszin şəhəri də sərbəst ticarət üçün açılırdı.

Əlverişli şəraitdən istifadə edən Rusiya özünün səfiri İqnatyev vasitəsilə 1860-cı ildə Rusiya ilə Çin arasında Pekin müqaviləsinin imzalanmasına müvəffəq oldu. Müqaviləyə görə İngiltərə Fransanın əldə etdiyi əlavə imtiyazlar Rusiyaya da şamil edirdi. Ən başlıcası isə müqavilə əslində Rusiyanın nəzarəti altına keçmiş Ussuriya vilayəti üzərində Rusiyanın hüququnu möhkəmləndirdi.

1861-ci ilin yanvarında Pekində xarici işlər üzrə baş idarə təsis olundu ki, buna Tsunliyamin deyirdilər. Tsunliyaminə rəhbərlik knyaz Quna həvalə edildi. Əvvəllər o, Qərb dövlətləri ilə hər hansı bir əlaqə saxlamanın ən qatı düşməni olsa da, son illərdə o xaricilərin sadiq tərəfdaşına çevrilmişdi. Çin-mancur irticaçıları Qərb dövlətlərinə Çin xalqının inqilabi mübarizəsinin qarşısını almaq üçün möhkəm bir dayaq kimi baxırdılar.

Beləliklə, İkinci "tiryək" müharibəsi (1857-1860) Çini yarımmüstəmləkəyə çevirməkdə ABŞ, və Avropa dövlətləri üçün yeni bir uğurlu addım idi. Bağlanmış müqavilələr ölkənin daxilində xarici kapital üçün geniş imkanlar açırdı.

Qərb dövlətləri tərəfindən Tsin hökumətinin təslim olması Taypin üsyanına qarşı onlarda münasibəti tamailə dəyişdi. Onlar ölkəni tamamilə əsarət altına almaq yolunda Taypin üsyanına əsas maneə kimi baxdığına görə mancurlara fəal yardım göstərməyə başladılar.

## Taypin hərəkatının tənəzzülünün başlanması

Xarici müdaxilə və daxili irticanın gücləndiyi bir şəraitdə taypinlər içərisində vəziyyət xeyli pisləşmişdi. Taypinlərin Nankində toplanmış rəhbər dairələri xalqdan ayrılmışdı. Vanlardan ibarət yeni feodal silki formalaşmaqda idi. Ordunun da siması dəyişmişdi, bəzi qoşun hissələrində əvvəlki ciddi intizam intizamsızlıq və özbaşınalıqla əvəz edilmiş, daxili çəkişmələr həddini aşmışdı. Xunlar ailəsi hərbi sərkərdələrə inanmırdı. Li Sü-çenin dediyi kimi, "camaat itaətdən çıxmışdı, hər kəs özü birinci olmağa çalışırdı, adamlar bir-birinin xeyir və şərinə şərik olmurdu, məğlubiyyət zamanı bir-birinin köməyinə gəlmirdi".

Taypin Tyanqonun rəhbər xadimlərindən biri, Xunlar ailəsinin üzvü Xun Jen-qan 1859-cu ildə "Ölkəni idarə etmək haqqında yeni əsərini" Tyan vana təqdim etdi. Bu sənədlərdə dəmir yolları çəkmək, od, buxar və küləyin gücündən təsərrüfat ehtiyacları üçün istifadə etmək, faydalı qazıntılar aparmaq və hətta vətəndaşların həyat və əmlakını sığortaya almaq haqqında geniş təkliflər var idi. Lakin bu sənəddə aqrar islahat proqramından bəhs edən heçnə yox idi. Xun Jen-qanın özü üsyana qədər xristian missionerləri ilə əlaqə saxlamışdı. Ona görə də onun təklifində Qərbin liberal ideyaları əks olunmuşdu və bunlar Taypin hərəkatının inqilabi ruhuna yabançı idi. İrəli sürülən təkliflərdə Qərb təsiri aydın şəkildə gorunürdü. Bu sənəd Taypin rəhbərləri üçün inqilabdan islahatçılığa doğru geriyə addım idi. Odur ki, təqdim edilən "Yeni sənədin" heç bir əməli əhəmiyyəti olmadı və ola da bilməzdi. Əsaslı aqrar islahat keçirmədən ölkənin iqtisadi həyatında ciddi dəyişiklik etmək haqqında düşünmək əlbəttə utopiya idi.

XIX əsr 50-ci illərin axırlarında və 60-cı illərin əvvəllərində taypinlər düşmənə daha bir sıra güclü zərbələr endirsələr də, faktiki olaraq cəbhələrdə vəziyyət o qədər də yaxşı deyildi. Taypinlərin görkəmli sərkərdəsi Li Sü-çenin (1859-cu ildə ona Çjun van, yəni "sadiq knyaz" adı verilmişdi) qoşunları Yantszı çayından cənubda, Çen Yuy-çenin qoşunları

isə şimalda – Antsin rayonunda vuruşurdu. Döyüşlər fasilərlə aparılır və orduda ruh düşgünlüyü mövcud idi.

Düzdür, düşmən qoşunları bir neçə dəfə (1858-ci ildən başlayaraq) Nankinə yaxınlaşmışdı. Ancaq Li Sü-çenin və Çen Yuy-çenin qoşunlarının fədakar mübarizəsi nəticəsində irticaçı qüvvələr geri çəkilməyə məcbur olmuşdu. Amma 1860-cı ildən başlayaraq Li Sü-çenin və Çen Yuy-çenin qoşunları ayrılıqda vuruşmağa başlamışdı ki, bu da taypinlərin hərbi vəziyyətinə mənfi təsir göstərir və pərakəndliyə şərait yaradırdı.

1859-1861-ci illərdə Antsin uğrunda inadlı vuruşmalar gedirdi. Nəhayət, 1861-ci ilin sentyabrında Antsin süqut etdi, bir il sonra isə Taypin ordusunun görkəmli qəhrəmanı, 26 yaşlı Çen Yuy-çen həlak oldu. Antsinin süqutu Nankinin vəziyyətini xeyli ağırlaşdırdı. Antsin uğrunda vuruşmalar zamanı Li Sü-çenin qoşunları isə Yantszıdan cənubda əməliyyat apararaq, bir sıra parlaq hərbi yürüşlər keçirdi. 1860-cı ilin martında Li Sü-çen Xançjounu tutdu, may ayında isə Çançjou, Suçjou, Tszyaosini tutaraq Şanxay üzərinə hücuma başladı. Tszyansu və Çjetszyan əyalətləri, demək olar ki, tamamilə azad edildi. Müharibənin birinci mərhələsinə nisbətən, indi Li Sü-çenin mübarizə aparmalı olduğu şərait xeyli mürəkkəbləşmişdi. Taypinlərin qüvvələri xeyli zəifləmiş, irticaçıların qoşunlarının sayı artmışdı. Taypinlər hakim irticaçı qüvvələrlə yanaşı əcnəbi qoşunlarla da bilavasitə silahlı mübarizə aparmağa məcbur olmuşdu.

Li Sü-çenin qoşunlarının yaxınlaşmasından qorxuya düşən Şanxay tacirləri və sələmçilər amerikalı avantürist Frederik Uorda müraciət etdi. O, hökumətlə razılığa gələrək muzdlu ordu yaratdı. O, gəmilərdən qaçmış xarici dənizçilərdən ibarət böyük quldur dəstəsi təşkil edərək gurultulu bir adla "Həmişə qalib gələn ordu" adlandı. Uordun əməliyyatına Amerika hökumət dairələri rəsmi icazə vermişdi, Amerikanın Pekindəki səfiri Berlinqhemin bu prosesdə olduqca fəallıq göstərirdi. Eyni zamanda Berlinqhem Qərb dövlətləri tərəfindən Taypinlərə qarşı silahlı müdaxilə təşkil edilməsi tərəfdarı idi.

Amerika-Avropa irticasının birləşmiş qüvvələri asanlıqla Şanxayı öz təsir dairəsində saxlaya bildi. Li Sü-çen geri çəkildi. O, bir də ona görə geri çəkilməli oldu ki, başqa istiqamətlərdə də irticaçılar hücuma keçmişdi, xüsusilə Tszyaosin üçün təhlükə yaranmışdı.

1861-ci ildə Antsin rayonunda vəziyyətin pisləşməsi Li Sü-çeni Tszyansudan və Çjetszyandan geri çəkilməyə məcbur etdi, lakin o, Antsin rayonunda Çen Yuy-çenə əməli yardım göstərmədi. 1861-ci ilin ikinci yarısında Li Sü-çen yenidən Çjetszyana daxil oldu. Li Sü-çen 1861-ci ilin dekabrında Çjetszyan əyalətinin mərkəz şəhəri Xançjounu, habelə Ninbo limanını tutaraq Şanxay üzərinə yeni hücuma başladı. Şanxay rayonunda şərait 1860-cı ildəkinə nisbətən o qədər də əlverişli deyildi. 1860-cı ildən bəri sayca artmış və Suntszyan şəhərini taypinlərdən almış Uordun quldur dəstəsindən başqa, burada 1862-ci ildə ingilis və fransızların nizami qoşun hissələri də əməliyyata başlamışdılar. Xaricilərin bir neçə həmləsindən sonra Ninbo taypinlərin əlindən alındı. Əcnəbilərlə bərabər Tszen Qo-fanın "Xunan cəsurları" adlı ordusu və Li Xun-çjanın Xuay ordusu (Xuay çayı hövzəsi əhalisindən toplanmış ordu) da taypinlərə qarşı vuruşurdu. İngilis admiralı Hop və fransız admiralı Protenin komandası altında ingilis və fransız nizami qoşunları 1862-ci ilin fevralında taypin qoşunlarına qarşı əməliyyata başladılar. 1862-ci və 1863-cü illər gərgin mübarizədə keçdi. Nankinin mühasirə dairəsi getdikcə daralırdı. Xarici dövlətlər mancurlara bolluca silah verir, taypinlər hərəkatının məğlubiyyətini gözləyirdilər.

Li Sü-çen ordularının müdaxiləçilərə - Uord və Qordon ("Həmişə qalib gələn ordunun" komandanı vəzifəsində Uordu əvəz edən şəxsdir), Hop və Prote əleyhinə mübarizəsi tam mənada milli xarakter daşıyırdı. Bu mübarizə xalqın yaddaşında unudulmaz bir iz qoymuşdu.

Taypin üsyanı Çin xalqında milli şüurun inkişafına kömək etdi, çünki bu üsyan mancur istilaçılarına və əcnəbi qəsbkarlara qarşı mübarizədə böyük bir nəslin formalaşmasına təsir etmişdi.

## Taypin Tyanqonun süqutu

1864-cü ilin əvvəllərində Taypin Tyanqo hərəkatının hərbi-strateji vəziyyəti pisləşməkdə davam edirdi. General Tszo Tszun-tan fransız qoşunlarının yardımı ilə Çjetszyan əyalətində Xançjou şəhərini tutdu. Belə bir vəziyyətdə taypin rəhbərləri həmişəkindən daha artıq cəsarətlə hərəkət etməli idi. Lakin Nankində vəziyyət heç də yaxşı deyildi. Xun Sü-tsüanın özü tamamilə xalqdan ayrılmışdı. Xalq aclıq çəkirdi. Taypin dövlət başçısının qardaşları xalqın fəlakətli vəziyyətindən şəxsən varlanmaq üçün istifadə edirdilər. Taypin hakimiyyət aparatında hələ bundan əvvəl başlanmış feodallaşma və şəxsi varlanma daha da sürətlənmişdi.

Li Sü-çen Xun Sü-tsüana təklif etdi ki, mübarizəni davam etdirmək üçün Nankini tərk edib qərbə, Sıçuan və ya Yunnan əyalətinə çəkilsinlər. Real vəziyyətdən xəbəri olmayan Xun Sü-tsüan yeganə məqsədəuyğun hesab edilən bu təklifi rədd etdi.

1864-cü ilin yazında taypinlərin perspektiv imkanları ümidsiz idi. Tszen Qo-fanın qardaşı Tszen Qo-tsüanın qoşunları taypinlərin paytaxtını mühasirəyə almağa başlamışdı. Belə bir şəraitdə taypinlərin rəsmi başçısı Xun Sü-tsüan 1864-cü il iyunun 30-da intihar etdi. Xun Sü-tsüanın böyük oğlu, 16 yaşlı Xun Fu, Tyan van elan olundu. Paytaxtın müdafiəsi taypinlər hərəkatına axıradək sadiq olan Li Sü-çenin üzərinə düşdü. İnadlı vuruşmalar bir neçə gün davam etsə də, düşmən iyulun 19-da gecə qala divarını partlatdı və şəhərin küçələrində şiddətli vuruşmalar başlandı. Taypinlər şəhərin içərisində də vuruşmanı davam etdirirdilər. Nankin şəhərinin küçələri meyitlərlə dolmuşdu, küçələrdə qan su yerinə axırdı. Deyirlər ki, üç gün davam edən qırğın nəticəsində Nankində 100 min nəfər həlak oldu.

Li Sü-çen, Xun Sü-tsüanın oğlu və qocaman əsgərlər şəhərdən kənara çıxa bildi. Gənc Tyan vanın həyatını xilas etmək üçün Li Sü-çen öz atını ona verdi, özü isə tezliklə Tsin əsgərlərinin əlinə keçdi. Həbsdə olduğu zaman Li Sü-çen

Taypin üsyanı haqqında xatirələrini yazmışdır ki, bu da Taypin üsyanının tarixini öyrənmək üçün ən mühüm sənəddir.

1864-cü il avqustun 7-də Li Sü-çenin boynunu vurdular, orta əsr feodal qaydalarına uyğun olaraq cəsədini şaqqaladılar. Xun Sü-tsüanın oğlu Xun Fu da tezliklə düşmənin əlinə keçdi və onu da qətlə yetirdilər.

Nankinin süqutundan sonra da ayrı-ayrı taypin dəstələrinin mübarizəsi bir çox aylar davam etdi. Taypinlər hələ də Futszyanda, Xubeydə, Quandunda, Tszyansində vuruşurdular. Taypinlərin cəsur dəstələri ümidlərini üzmədən hələ də vuruşsalar da, onlar 1866-cı ildə darmadağın edildi. Taypin qoşunlarının bir hissəsi isə Nyantszyunun dəstələri ilə birləşərək 1868-ci ilə qədər mübarizəni davam etdirdilər.

Şi Da-kay öz dəstəsi ilə Çin ərazisində uzun müddət vuruşaraq məcburi mühacirət haqqında düşünürdü. Şi Da-kayın əməliyyat apardığı son əyalət Sıçuan oldu. Şi Da-kay 1863-cü ildə burada qəhrəmancasına həlak oldu. Bir qədər sonra onun digər vətənpərvər dəstələri də dağıdıldı. Beləliklə, Çin xalqının milli-azadlıq hərəkatı tarixinə daxil olmuş Taypinlər hərəkatı süquta uğradı.

## Taypinlər üsyanının tarixi əhəmiyyəti

Çin xalqının milli-azadlıq hərəkatı tarixində mühüm yer tutan və uzun müddət davam edən Taypinlər üsyanı yatırıldı. Bu üsyan istismara qarşı kütləvi etirazları özündə əks etdirirdi və Çin xalqının böyük inqilabi mübarizələrindən biri hesab olunurdu.

Taypin üsyanının və bir çox digər kəndli hərəkatlarının təcrübəsindən biz aydın görürük ki, bütün kəndli üsyanları nə qədər mütəşəkkil olsa da, mütərəqqi, ədalətli, siyasi və ictimai quruluş yaratmağa qadir deyildi. Üsyanın məğlubiyyətinin digər obyektiv səbəblərindən biri də yeni məhsuldar qüvvələrin inkişafının lazımi səviyyəyə çatmaması idi.

1856-cı il hadisələrindən sonra hərəkat rəhbərliyin öz mövqeyini dəyişib feodallaşması güclənmişdi. Taypinlərin yaratdığı dövlət tez bir zamanda özünün ilkin, xüsusi demokratizmini itirdi. Dəstəbazlıq, yerlibazlıq və varlanmaq meylləri artdı. Rəhbərlərin ideologiya və siyasət sahəsindəki sektantçılığı bir sıra ciddi səhvlərə gətirib çıxardı.

Üsyanın rəhbər sıralarına mülkədar ünsürlərin soxulması, torpaq haqqında qanunun həyata keçirilməsində taypin hökumətinin ardıcıl və sistemli şəkildə hərəkət etməməsi, həmçinin taypinlərin hərbi rəhbərlərinin səhvləri kəndli müharibəsinin məğlubiyyətini bir qədər də tezləşdirdi. Taypin üsyanı ABŞ, İngiltərə, Fransa, eləcə də mancur-Sin irticasının birləşmiş qüvvələri qarşısında davam gətirə bilmədi. Bu hərəkat feodal-mülkədar rejimini məhv edə bilmədiyi kimi böyük tarixi vəzifələri də yerinə yetirə bilmədi. Düzdür, Taypin üsyanı feodalizmin dayaqlarını sarsıtdı, Sin rejiminə sarsıdıcı zərbə endirdi, amma taypinlər başladıqları müqəddəs işi sona çatdıra bilmədi. Əlbəttə, bütün bunlarla bərabər bu xalq hərəkatı böyük tarixi əhəmiyyətə malik idi.

Belə ki, bu üsyan milyonlarla kəndliləri feodalizm quruluşuna qarşı fəal mübarizəyə cəlb etdi. Üsyanın gedişi prosesində Sin rejimi əleyhinə, feodalizm zülmünün təcəssümü olan bu quruluşa qarşı xalqın nifrəti parlaq surətdə özünü göstərdi. Hərəkatın ən mühüm cəhətləri, onun kütləviliyində, olduqca geniş ərazini əhatə etməsində, uzun müddətli olmasında idi. Üsyanın əhəmiyyəti həm də Çin xalqının feodalizm quruluşuna qarşı mübarizədə yalnız mancur-Çin irticasının qüvvələri ilə deyil, həmçinin beynəlxalq imperializmin müstəmləkəçiləri ilə də toqquşması hərəkatın qloballığından xəbər verirdi. Taypin hərəkatı 1839-1842-ci illər müharibəsinin oyatdığı milli şüurun daha da inkişafında mühüm rol oynadı.

Taypin üsyanının tarixi əhəmiyyəti təkcə Çin üçün deyil, hətta Cənub-Şərqi Asiya regionunda müstəmləkə əsarətinə düçar olmuş xalqlar üçün də nümunə idi. Sonrakı nəsillər milli-azadlıq mübarizəsini sona çatdırmaq üçün bu hərəkatdan dərs aldılar. Ən başlıcası gənclər gec də olsa azadlığın və bunu əldə etməyin mahiyyətini dərk etdilər. Odur ki, Taypin üsyanının dərsləri sayəsində Çində yeni nəsillər təcrübə əldə edərək yeni şəraitdə, keyfiyyətcə yeni üsullarla ölkədə əsrlərlə ağalıq edən zülmkarları məhv etmək əzmində olduqlarını nümayiş etdirdilər.

Taypin üsyanı, feodalizm və imperializm əleyhinə Çin xalqının azadlıq mübarizəsinin mühüm bir mərhələsi kimi əbədi olaraq tarixdə qaldı.

## Nyantszyunlar üsyanı

Taypin üsyanı dövründə paralel olaraq Şimali Çin əyalətlərini də kütləvi kəndli hərəkatları bürümüşdü. Bunlar içərisində ən mühümü Nyantszyunlar (məşəlçilər ordusu) üsyanı idi. Nyan (nyanda) gizli cəmiyyəti mülkədarlar əleyhinə olan bir təşkilat kimi xeyli əvvəl meydana gəlmişdi.

Şandun, Anxuey, Xenan, Tszyansu əyalətlərində nyan dəstələrinin çıxışları Çin məxəzlərində dəfələrlə qeyd olunmuşdur. Hərəkatın yeni yüksəlişi 1853-cü ildə başlandı. Bu zaman Anxuey əyalətində Çjan Lo-sinin rəhbərliyi altında yeni üsyan baş verdi. Bu üsyan uğurlu təbliğat işinin müvəffəqiyyətlərinin bilavasitə nəticəsi idi. Pekin üzərinə müvəffəqiyyətsiz yürüş zamanı məğlub edilən taypin dəstələri də nyantszyunlara qoşuldu və nyantszyunların sayı artdı. Nyantszyunlar öz növbəsində taypinlərə də yardım göstərirdi. Yəni iki hərəkat iştirakçıları birləşmişdilər.

Amma, nyantszyunların hər hansı bir konkret pozitiv proqramı, hərəkatı təşkil edən möhkəm mərkəzi yox idi. Bu üsyan kortəbii antifeodal kəndli hərəkatı idi. Onun zəifliyi də məhz kortəbiiliyində idi. Bununla belə, nyantszyun dəstələrinin çeviklik1ə bir yerdən başqa yerə keçib fəaliyyət göstərmək qabiliyyəti ona səbəb olurdu ki, nyantszyunlar çox çətin ələ keçə bilirdi. Hökumət tərəfindən göndərilən çoxlu cəza dəstələri də üsyançıları məhv etməkdə aciz idi. Bu xüsusiyyət onlarda qələbəyə inam yaradırdı.

Eyni zamanda əhali nyantszyunlara yardım göstərirdi. Çünki, onların dəstələri yoxsullara kömək edir, xalqa qarşı təcavüzkarlıq edən, aşağı təbəqəni istismar edən, yadelliləri ölkədə məsgunlaşdıran və milli sərvəti talayanlara qarşı barışmayaraq sanki cihad elan etmişdilər. Odur ki, nyantszyunlara qarşı mübarizədə hökumət qoşunlarının müvəffəqiyyətsizliyinin əsas səbəbi də bu idi.

Taypin üsyanı məğlubiyyətə uğradıqdan sonra Lay Venquan və Çen De-tsayın taypin dəstələrinin qalıqları nyantszyunlarla birləşdirdi. Hərəkatın yeni yüksəlişi başlandı, nyantszyunlar ordusu artıb bir neçə yüz min nəfərə çatdı. Bu ordu Tszyansu, Anxuey, Xubey, Şandun, Xenan, Şan, Çjili əyalətləri ərazisində əməliyyat aparırdı. Bu ordunun başçısı Lay Ven-quan idi.

Nəhayət, 1866-cı ildə nyantszyunlar şərq və qərb dəstələrinə bölündü. Amma 1868-ci ildə Lay Ven-quanın şərq dəstəsi məğlub edildi. Qərb dəstəsi isə Çjili üzərinə yeriyərək paytaxtı təhlükə altına aldı. Lakin Sin hakimlərinin topladığı böyük qüvvələr nyantszyunları əzdi. Çin xalqının azadlıq mübarizəsinin tərkib hissəsini təşkil edən bu üsyan da yatırıldı.

## Çinin qərb rayonlarında kiçik xalqların üsyanları

Çinin qərb əyalətlərində yaşayan və dini cəhətdən müsəlman olan kiçik xalqlar hələ XVII əsrin axırlarında öz zülmkarlarına qarşı mübarizəyə qalxmışdı. Taypin üsyanı dövründə Mancur imperiyasının müsəlmanların da hakimiyyətə qarşı çıxması üçün əlverişli şərait yaratmışdı.

1855-ci ildə Yunnan əyalətində mədən qazmaçılarının iğtişaşları mancurlar əleyhinə yeni çıxışların başlanmasına təkan verdi. Üsyanda ən fəal rolu xuey əhalisi (dini etiqadına görə müsəlmanlar) oynayırdı. Tsin məmurları hər vasitə ilə çalışırdılar ki, çinlilərlə müsəlmanlar arasında toqquşma salsınlar. Onlar hətta qismən buna müvəffəq oldular. Bəzi müsəlman din xadimləri üsyanı bütün "kafirlər" əleyhinə, yəni çinlilər əleyhinə ancaq müsəlmanların apardığı mübarizəyə çevirməyə çalışırdılar. Lakin hərəkatın ən görkəmli xadimi Du Ven-syu özünün bir sıra müraciətlərində bütün müsəlmanları və çinliləri mancur hakimiyyətinə qarşı mübarizədə birləşməyə çağırırdı.

Üsyançılar 1860-cı ilədək zəif hökumət qoşunu üzərində bir neçə mühüm hərbi qələbə qazanmışdı və Du Ven-syunun rəhbərliyi altında dövlət də yaradılmışdı. Bu dövlətin paytaxtı Dali şəhəri idi (Yunnan əyalətində). Du Ven-syu özünə sultan Süleyman ləqəbini götürmüşdü.

Yunnandakı hadisələr İngiltərənin diqqətini xüsusilə cəlb etmişdi. İngiltərə Süleymanın dövlətini özündən asılı olan bir ölkəyə çevirməyə çalışırdı. 1868-ci ildə ingilislər Bamo (Birma) ərazisindən Yunnana mayor Sleydenin ekspedisiyasını göndərdi. Lakin ekspedisiya yalnız Dan-yueyə qədər gedib çatdı. Öz növbəsində Süleyman da İngiltərə ilə əlaqəyə girməyə çalışırdı. Lakin bu müttəfiqlik tədbirləri və cəhdləri ciddi əməli nəticə vermədi.

Yunnandakı üsyan öz əhatəliliyi cəhətdən Taypin üsyanından xeyli dərəcədə zəif idi. Bu uğursuzluğun başqa bir cəhəti də ondan ibarət idi ki, üsyan geniş antifeodal üsyana çevrilmədi, üsyana ruhanilər rəhbərlik edirdi. Beləliklə, üsyan dar dini milli çərçivədə baş vermişdi. Odur ki, müxtəlif sədalara səbəb olan və Çin xalqının mübarizəsindən ayrı düşmüş bu üsyan da təbii olaraq məğlubiyyətə uğradı.

Ölkənin Qərb əyalətlərində yaşayan xalqların çıxışları içərisində ən mühümü və ən məşhuru olan Şensi, Qansu, Sintszyan əyalətlərində xueylərin (dunqanların) üsyanı idi ki, bu üsyan 1862-1877-ci illərdə qeydə alınmışdı. 1862-1865-ci illərdə üsyanın əsas mərkəzi Şensi əyaləti olmuşdu. Sonra mübarizə Qansu və Tsinxaya da keçdi. Əvvəllərdə baş vermiş üsyanlar kimi bu üsyan da dini xarakter daşıyırdı. Üsyanı yatırmaq üçün əməliyyat aparan hökumət qoşunlarının komandanı Tszo Tszun-tan çinlilərlə müsəlmanlar arasında münaqişəni və nifaqı daha da qızışdıraraq, bu yolla minlərlə adamın ölümünə bais oldu.

60-cı illərin axırlarında kandli Biyanxu hərəkatda rəhbər rol oynamağa başladı. Hərəkat daha kəskin surətdə antifeodal xarakteri aldı. Qansu da məğlub edildikdən sonra, Biyanxu Sintszyan əyaləti ərazisində mübarizəni davam etdirirdi.

Sintszyanda dunqanların yeni bir üsyanı 1864-cü ildə başlandı. Buranın əsas əhalisi olan uyqurlar da üsyana qoşuldu və hərəkat üsyançıların öz müstəqil dövlətini yaratmaq uğrunda mübarizə şəklini aldı. Bir neçə sultanlıq - Qaşqar (Cətişər), Urumçi (və ya Dunqan) və Külçin-Tərənçin sultanlıqları meydana gəldi. Bunların içərisində ən güclüsü Qaşqar sultanlığı idi.

Qaşqarda hakimiyyəti Qoqand xanlığının zabiti, tacik Yaqub bəy ələ keçirdi. 1872-ci ildə Yaqub bəy Urumçi xanlığını da özünə tabe etdi.

Amma, yeni və köhnə feodal zadəganlarının mənafeyini müdafiə edən Yaqub bəy xalqa zidd siyasət yeridirdi. Yeni hakimlər və müsəlman feodalları xalqı mancur hakimiyyəti dövründə olduğu kimi istismar edirdi. Beləliklə, xalqın rəğbətini qazanmayan kiçik dövlətlər və yeni dövlətin dayaqları sarsıdılmış oldu. Ən başlıcası isə onların hərbi-iqtisadi bazası yox idi.

Bununla yanaşı Avropa dövlətləri, xüsusilə İngiltərə Yaqub bəydən öz məqsədləri üçün istifadə etməyə çalışırdı (həm bilavasitə, həm də Türkiyə vasitəsilə). Britaniya hökumətinin istila layihəsinə görə aralıq bir dövlət yaradılması nəzərdə tutulurdu ki, bu da Orta Asiyada Rusiyanın nüfuzuna qarşı ingilis xarici siyasətinin aləti kimi istifadə oluna bilərdi. Öz növbəsində Rusiya da Külçənin Yaqub bəy tərəfindən tutulmasına yol verməmək üçün 1871-ci ildə onu oranı işğal etdi və ingilisləri qabaqlayaraq bu ərazidə bufer zona yaratdı.

Taypin üsyanının məğlubiyyətindən sonra bir qədər özünə gələn Tsin hökuməti dunqan hərəkatını da yatırmağa başladı. General Tszo Tszun-tanın qoşunları Şensidə və Qansuda hərəkat mərkəzlərini darmadağın etdi. Biyanxu bir neçə yüz nəfər çinli müsəlmanla xueydən Rusiyaya qaçdı. Tszo Tszun-tan onun təslim edilməsini Rusiyadan tələb etsə də Rusiya Çinin tələblərini nəzərə almadı.

Beləliklə, Yaqub bəyin müstəbid feodal siyasəti Sintszyanda kütləvi müqavimət imkanlarını zəiflədirdi. Xalq Yaqub bəyin hakimiyyətini qorumaq və müdafiə etmək üçün bir əsas görmürdü. Odur ki, 1876-cı ildə Yaqub bəylə xueylər arasında daxili ziddiyyətlər daha da kəskinləşdi. Zadəganlar mancurlarla sazişə gəlmək istəyirdi. 1877-ci ildə Yaqub bəy döyüşdə həlak oldu. Elə o zaman Cətişər də süqut etdi. 1877-ci ildə Sintszyanda Mancur-Sin hakimiyyəti bərpa edildi.

Rusiyanın işğal etdiyi Külçə vilayəti 1881-ci ildə Sankt-Peterburq müqaviləsinə əsasən Çinə qaytarıldı. Bu vilayətin əhalisi qırğız və qazaxlardan ibarət idi və ancaq bu əyalətin qərb hissəsində kiçik bir zolaq Rusiyanın əlində qaldı. Rusiya Külçə vilayətində ticarət imtiyazları da almış oldu.

Çinin qərb vilayətindəki xalqların üsyanları göstərdi ki, Çində tədricən daha çox əhali antimancur və antifeodal hərəkat axınına qoşulur.

Qərb rayonları əhalisinin 50-70-ci illərdəki hərəkatının tarixi təcrübəsi bunu da sübut edirdi ki, yerli dini və siyasi dairələr bu üsyanlardan öz məhdud sinfi məqsədləri üçün istifadə etməyə çalışır və bəzən buna müvəffəq də oldular. Onlar mancur-Sin feodallarının rejimi əvəzinə xalqa yabançı

olan öz idarə rejimini yaradırdılar. Xarici dövlətlər o cümlədən Türkiyə və İngiltərə Çinin qərbində Yunnan və Qaşqarda meydana gələn dövlətlərdən öz qəsbkarlıq məqsədləri üçün istifadə etməyə çalışırdılar. Birinci növbədə məhz bu cəhətlər həmin üsyanların məğlubiyyətinə səbəb oldu.

Çinin qərbindəki xalqların yeganə azadlıq yolu var idi ki, bu da Çin xalqı ilə birlikdə, Mancur-Sin hakimiyyətinə qarşı, həmçinin öz dini və dünyəvi istismarçı feodallarına qarşı mübarizə aparmaqdan ibarət idi.

## Çinin hakim dairələri və Qərb dövlətləri ilə münasibətlər

XIX əsrin 60-cı illərinin əvvəllərindən etibarən Çinin hakim dairələri Qərb dövlətlərinə münasibətini dəyişməyə başladılar. Birinci ingilis-Çin müharibəsindən sonra Tsin imperyasının Qərb dövlətlərindən qüdrətli olmasına dair mancur hakim dairələrində hələ də boş xülyalar var idisə müdaxiləçilərin qoşunları Pekinə soxulduqdan sonra bu xülyalar tezliklə aradan qalxmağa başladı. Böyük kəndli müharibəsi zamanı imperator ordularının zəifliyi bir daha nəzərə çarpdı. Çinin hakim dairələri hətta dərin nifrət bəslədikləri əcnəbilərdən də kömək istəməyə məcbur oldu. Çin əyanlarının bir hissəsi və birinci növbədə Taypin üsyanını yatıran baş cəllad Tszen Qofan, onların ardınca bəzi mancur əyanları da belə bir əqidədə idilər ki, müəyyən məsələlərdə əcnəbilərin yolu ilə getmək, xüsusilə hərbi işdə onları təqlid etmək lazımdır.

XIX əsrin 60-cı illərinin əvvəllərində, yəni Taypin üsyanının son mərhələsində Çin xalqı əleyhinə əlbir mübarizədə mancur-Sin və Avropa-Amerika irticasının vahid cəbhəsi yarandı. Ölkənin hakim dairələrindəki bəzi dəyişikliklər də buna kömək etdi.

Syan Fın adı ilə hökmranlıq edən imperator İ Çju 1861-ci ilin avqustunda Jexedə vəfat etdi. Syan Fının yerinə onun siğə etdiyi qadınlardan birinin oğlu, azyaşlı Tszay Çun keçdi və o, 1861-1875-ci illərdə Tun Çji adı ilə imperator oldu. Ölkəni idarə etmək üçün qəyyumlar şurası təsis olundu ki,

bunun da tərkibinə sədrəzəm Su Şun başda olmaqla yüksək rütbəli mancur zadəgan nümayəndələri daxil idi. Lakin sədrəzəmə düşmən olan saray güruhunun başçısı, imperatorun anası Nalaşi (Tsısi) 1861-ci ilin noyabrında knyaz Qunla birlikdə saray çevrilişi təşkil etdi. Su Şun edam olundu. Tsısi ölkənin imperatriçası, knyaz Qun isə sədrəzəm və dövlət şurasının sədri oldular.

Su Şunu və onunla birlikdə edam edilən digər qəyyumları bunda ittiham etmişdilər ki, guya ikinci "tiryək" müharibəsi dövründə onlar özlərinin barışmazlığı, "dinc yol" axtarmaq arzusunda olmamaları ilə müharibənin uzanmasına, əcnəbilərin Pekinə gəlməsinə və imperator sarayının yandırılmasında səbəbkar olmuşlar. Su Şunun edam edilməsi əcnəbilərə göstərir ki, yeni hökumət onlarla əməkdaşlıq etməyə hazırdır.

O zamandan etibarən Çinin hakim dairələrində iki qrup ən çox nüfuza malik idi. Bunlardan birincisi, Tsısinin başçılıq etdiyi və mancurların yuxarı təbəqəsinin, əyanların, iri feodalların mənafeyini təmsil edən hakim güruh idi. Bu dəstə "qalınqafalılar" dəstəsi adlanırdılar. Onlar ölkəni yenidən təcridçilik dövrünə döndərmək istəyirdi. Onlar əslində əcnəbilər qarşısında yaltaqlıq etməklə və onların köməyi ilə hakimiyyəti əldə saxlamağa çalışırdılar.

İkinci dəstə əcnəbipərəstlər idi. Bunlar köhnə feodallar içərisindən çıxıb Qərb dövlətlərinin köməyi ilə möhkəmlənmiş yeni hərbi dairələrdən olan məmurların bir hissəsi idi və komprador burjuaziyanı təmsil edirdilər. Bu dəstə Qərbin elminə, onun hərbi biliklərinə, maarif sistemi sahəsindəki nailiyyətlərinə yiyələnmək tərəfdarı idilər. Bu məsələ ilə əlaqədar olaraq əcnəbipərəstlərlə "qalınqafalılar" arasında fikir ayrılıqları və ziddiyyətlər yaransa da, bu ixtilaflar hakim mancur təbəqələri arasında ziddiyyətin kluminasiya zirvəsinə çatmırdı və güruh çərçivəsindən kənara çıxmırdı. Nəticə etibarilə onlar əsas məsələdə, yəni xalqa zülm etmək və onu boğmaq siyasətində, xarici təcavüzkarlara xidmət göstərmək siyasətində həmfikir idilər. Beləliklə, mancur və Çin feodalları ittifaqının genişlənməsinə arxalanan mürtəce qüvvələr öz məqsədinə çatdılar və Taypin üsyanının məğlubiyyəti nəticəsində daha sıx birləşdilər.

Əcnəbipərəst qrupun bir sıra görkəmli xadimləri Taypin üsyanının və başqa xalq üsyanlarının yatırılmasında fəal istirak edirdilər. Onların bəzi islahatçılıq tədbirləri, xalq inqilabının yenidən alovlanmasının qarşısını almaq məqsədini güdürdü. Əcnəbipərəstlər dəstəsinin rəhbəri Tszen Qo-fan, o öldükdən sonra (1872) isə - Li Xun-çjan idi. Bu hərbi başçılar irəli çıxandan sonra, ölkənin idarə olunmasında militaristlərin rolu daha da artdı. Li Xun-çjan 1870-ci ildə paytaxt əyalətinin canişini təyin edildi və hökumət tərkibində ən nüfuzlu bir simaya çevrildi. Onun irəli çıxması, mancur zadəganları ilə Çin şenşilərinin xalqa qarşı ittifaqının möhkəmlənməsi demək idi. Li Xun-çjan feodal-mülkədarlar sinfinin nümayəndəsi idi. O, mülkədarların hakimiyyətinin saxlanılması, mancur-Sin sulaləsinin ənənələrinin saxlanılması tərəfdarı idi. Li Xun-çjanın həyata keçirdiyi məhdud yeniliklər də bu məqsədə xidmət edirdi. Eyni zamanda o, gənclərin təhsil almaq üçün xaricə göndərilməsini təşkil etdi, Tyantszində ali politexnik məktəbi, əyalətlərdə xarici elmləri öyrənən məktəblər açdırdı. Li Xun-çjan xaricdən hərbi gəmilər satın aldı və istehkamlar, tərsanələr tikintisinə başlandı. Paytaxt Çjili əyalətində hərbi idarəçilik sisteminin yenidən qurulmasına başlandı. Bir qədər sonra, Li Xun-çjan əsasən silah istehsal edən bir sıra sənaye müəssisələri tikintisinin təşəbbüsçüsü oldu, ölkənin hərbi qüdrətinin artırılmasına səy göstərdi.

Ən başlıcası isə öz siyasi fəaliyyətində Li Xun-çjan, komprador burjuaziya[1] ilə yaxınlaşmağa başladı və mülkədarların tərəfdarı hakim sinfin nümayəndəsi olaraq qalırdı.

1875-ci ildə imperator Tun Çji vəfat etdi. Onun vəfatından sonra Tsısi özünün kiçikyaşlı qohumu Tszay Tyanı imperator elan etməyə müvəffəq oldu və 1875-1908-ci illərdə Quan Süy adı ilə rəmzi olaraq imperator taxtında əyləşdi. Ölkənin əsil hakimləri isə Tsısi və onun yaxın adamları idi.

Xarici kapitaldan asılı və onunla sıx bağlı olan komprador burjuaziya antiimperialist mübarizəyə tamamilə düşmən idi və əcnəbi kapitalın mədaxil və məxaricinin vasitəçisi rolunu oynayırdı.

---

[1] Komprador burjuaziya – xarici kapitalla yerli bazar arasında vasitəçilik (komprador) vəzifəsini yerinə yetirən ticarət burjuaziyasının bir hissəsinə deyilir.

## Çinin dünya kapitalist dövlətlərindən asılılığının daha da artması

Mancur-Sin sülaləsi, kapitalizm aləminə və beynəlxalq imperializm qüvvələrinə özünün çürüməkdə olan idarə üsulu üçün bir dayaq kimi baxırdı. Buna görə Taypin üsyanının yatırılmasından sonra 1894-1895-ci illərdəki Yaponiya-Çin müharibəsinə qədər keçən otuz illik bir dövr, xarici dövlətlərin təzyiqi altında Tsin hökumətinin daha da geri çəkilməsi dövrü idi. Çinin bütün iqtisadi və siyasi həyat sahələrində əcnəbilərin nüfuzu sürətlə artırdı. Əcnəbilər hakimiyyət strukturlarını rüşvətlə ələ alaraq çox böyük imtiyaz sahiblərinə çevrilmişdilər. Harada qazanc var idisə orada əcnəbilər işləyirdilər. 1863-cü ildən başlayaraq Çinin gömrükxanalarına ingilis Pobert Hart başçılıq edirdi. O, 35 ildən artıq bir müddət ərzində Çində bütün əcnəbi məşvərətçilər içərisində birinci aparıcı rol oynamışdır. Çevik əməliyyatlar nəticəsində külli miqdarda gəlir əldə etmək üçün 1865-ci ildə Honkonq-Şanxay bankı təsis olundu ki, bu da ölkədə ingilislərin mövqelərini möhkəmləndirmək yolunda çox iş gördü. 1867-ci ildə fransız zabitlərinin rəhbərliyi altında Fuçjouda cəbhəxana təşkil edildi. Həmin il Çində ingilis gəmiçilik şirkəti açıldı.

XIX əsin 60-cı illərində Çin bir sıra xarici dövlətlərlə, o cümlədən 1861-ci ildə Prussiya ilə müqavilə imzalandı və bu müqaviülə yalnız 1863-cü ildə təsdiq olunmuşdu. Eyni zamanda 1863-cü ildə Danimarka və Hollandiya ilə, 1864-cü ildə İspaniya ilə, 1865-ci ildə Belçika ilə, 1866-cı ildə İtaliya ilə, 1869-cu ildə Avstriya ilə yeni qeyri-bərabər hüquqlu müqavilələr imzaladı ki, bununla da Çin kapitalist dövlətlərdən asılı vəziyyətə düşdü.

Çinin xalq kütlələri Çində öz nüfuzunu qüvvətləndirmək üçün hər bir bəhanədən istifadə edən əcnəbilərin ağalığına qarşı qəzəblə yanaşırdı. Tyantszindəki narazılıqlar 1870-ci il iyunun 21-də xalq çıxışına səbəb oldu. Fransız konsulu öldürüldü, missionerlərin idarələri dağıdıldı.

Çinin beynəlxalq vəziyyətinin mürəkkəbliyi bunda idi ki, Avropa elm və texnikasının nailiyyətlərinə yiyələnmə, beynəlxalq əlaqələri genişləndirməyə yönəldilmiş hər bir təşəbbüs nəticəsində xarici dövlətlər Çində öz ağalıqlarını qüvvətləndirmək üçün istifadə edirdilər. Ölkənin iqtisadi, siyasi və hərbi geri-liyinin mahiyyəti daxili və xarici amillərlə sıx bağlı idi.

## Mədəniyyət, ictimai fikir

Mancur-Sin hökumətinin dünyada ən mükəmməl quruluşa malik olması, ətraf mühitdə yaşayanların isə "barbar" olmaları haqqında mancurların hakim təbəqələri tərəfindən geniş təbliğ edilən təsəvvürlərin İngiltərə ilə birinci müharibədən sonra utopiya olduğu bir daha özünü göstərdi.

Lakin müstəsna hal olaraq Çinin qabaqcıl adamları ətraf mühit haqqında özləri çox şey öyrənməyə və öz biliklərini həmvətənlərinə verməyə çalışırdılar. Yeni dövrdə bu kimi biliklərin Çində yayılmasına kömək edən ilk müəlliflər şenşi ziyalılarının nümayəndələri Lin Tsze-syuy və Vey Yuan olmuşdur. Lin Tsze-syuy "Sıçjou çji" ("Dörd qitə haqqında") kitabının müəllifidir. Vey Yuan "Şen u tszi" – Tsin sülaləsinin döyüşləri tarixi əsərinin müəllifi 1845-ci ildə Avropa ölkələrini təsvir edən - "Xayqo tuçji" ("Xarici ölkələrin mənzərələri və təsviri") adlı kitabını çap etdirdi. Qərb ölkələri haqqında bir neçə başqa əsərlər də işıq üzü gördü.

Taypinlərin ictimai arzularını şərh edən və onların özləri, o cümlədən Xun Sü-tsüan, Yan Sü-tsin, Li Sü-çen və başqaları tərəfindən yazılan əsər və sənədləri Çinin ictimai fikrinin inkişafında xüsusi bir yer tutur. Xun Jen-qanın "Ölkənin idarə edilməsi haqqında yeni əsəri" Avropa mədəniyyəti nailiyyətlərinin Çin şəraitində tətbiq edilməsi arzusunda olan avropalaşmış bir çinlinin ideyalarını əks etdirirdi.

Tszen Qo-fan və Li Xun-çjanın rəsmi təkliflərində və şəxsi məktublarında "avropalaşdırma" üsulları ilə Çini qüvvətləndirmək üçün müxtəlif yollar göstərirdilər. Bütün bu layihələr hakim sinfin avropalıları təqlid etmək yolu ilə feodalizm rejiminin əsaslarını möhkəmlətməyə çalışan hissəsinin ideologiyasını əks etdirirdi.

Bir qədər sonra, XIX əsrin 70-ci illərindən bir sıra əsərlər meydana çıxır ki, bunlarda da Çində islahat keçirilməsi ideyaları şərh olunur və əcnəbipərəstlər dəstəsi tənqid edilirdi. İslahatçılıq ideyaları XIX əsrin 80-90-cı illərində daha geniş yayılmağa başlamışdı.

## Ədəbiyyat

XVIII əsrin ikinci yarısında mancur feodal rejimi Çində öz hökmranlığını möhkəmlətmək vasitələrindən biri olmaq etibarilə xüsusi komissiyalar yaratmış və bunların köməyi ilə Çin bədii və elmi ədəbiyyatında olan bütün vətənpərvərlik, azadfikirlilik nümayəndələrini təqib və məhv etməyə başlamışdı.

Beləliklə, Çinin milli mədəniyyəti mürəkkəb və çətin bir şəraitdə yaşayır və inkişaf edirdi. Lakin Tsinlər qabaqcıl Çin ədəbiyyatının demokratik və tənqidi ruhunu boğa bilmədilər. XVIII əsrdə U Tszin-tszinin "Julin vayşi" ("Konfutsiaçıların qeyri-rəsmi tarixi") və Tsao Süe-tsinin "Xunloumen" ("Qırmızı sarayda yuxu")[1] kimi romanları yarandı ki, bunlarda da hakim ictimai və siyasi sistem ifşa olunurdu. Bu romanlardan birincisi hakim sinifləri kəskin satira atəşinə tutur, konfutsiançı məmurların yalançılıq və riyakarlığını ifşa edirdi. İkinci roman feodal cəmiyyətinin özbaşınalıq və qanunsuzluqlarını, feodal aristokratiyasının mənəvi pozğunluğunu göstərən böyük bir əsərdir. Romanın böyük ictimai əhəmiyyəti üzvi surətdə onun yüksək bədii keyfiyyəti, zəngin və canlı dili ilə bağlıdır. "Xunloumen" haqlı olaraq Çin klassik realist ədəbiyyatının zirvəsi hesab olunur. Li Ju-çjenin "Tszin Xuayuan" romanı da ictimai satira janrına yaxın olan bir əsərdir.

Bədii ədəbiyyatda ən böyük əsərlər yarandığı sahə ictimai satira idi. XVIII əsrin axırları XIX əsrin birinci yarısında bədii ədəbiyyatın xeyli hissəsi üçün xarakter cəhət – real varlıqdan uzaqlaşmaq idi. Bəzi əsərlərdə, hakim siniflər içərisindən "nəcib" qəhrəmanlar çıxacağı və Çində mövcud ictimai müsibətlərin aradan qaldırılmasına kömək edəcəyi kimi boş ümidlər öz əksini tapmışdı.

XIX əsrin ortalarında Çin ədəbiyyatında yeni təmayüllər zühur edir. Bu təmayüllər bilavasitə Taypin üsyanı ilə əlaqədar idi. Taypin üsyanının görkəmli xadimi Yan Sü-tsin köhnə arxaik ədəbi dildən (venyan) əl çəkməyə və bütün yazılı sənədlərdə canlı danışıq dilini, xalq dilini (bayxua) işlətməyə çağırırdı. Taypinlər xeyli şer və mahnı (xüsusilə Şi Da-kay və başqaları) yaratmışdılar. Bu əsərlərdə, bəzən dini şəkildə olsa da, onlarda demokratik ideyalar öz əksini tapmışdır.

---

[1] Roman yarımçıq qaldığına görə başqa müəllif – Qao-e tərəfindən tamamlanmışdır.

"Syuannan" ədəbi cəmiyyətinin yaradılması Çinin ədəbi həyatının inkişafında mühüm mərhələ oldu. Bu cəmiyyət XIX əsrin 30-40-cı illərinin bir sıra qabaqcıl xadimlərini, o cümlədən eyni zamanda yazıçı kimi məşhur olan Lin Tsze-syuy, Xuan Tszyu-tszı və başqalarını birləşdirirdi.

Lakin ədəbiyyatda demokratik və antiimperialist meyllərin daha tam şəkildə inkişafı, bir qədər sonrakı dövrə yəni XIX əsrin axırıncı onilliklərindəki dövrə təsadüf edirdi.

## İncəsənət

XIX əsr incəsənət sahəsində Çində müəyyən durğunluq dövrü hesab edilir. Bu durğunluq birinci növbədə rəssamlıq, memarlıq və heykəltəraşlıqda özünü göstərirdi.

Mənşə etibarilə xalq yaradıcılığından doğan klassik opera öz inkişafından xeyli geridə qalmışdı. Arxaik dil onu xalq üçün az anlaşıqlı etmişdi.

Lakin rəsmi dairələr tərəfindən təbliğ olunan incəsənət növləri ilə yanaşı xalq yaradıcılığı da inkişaf etməkdə idi. Qabaqcıl rəssamlar, memarlar, bədii sənət ustaları milli incəsənətin ən yaxşı ənənələrini inkişaf etdirmək üçün cəhd göstərirdilər.

Klassik opera kütlələr içərisində xeyli dərəcədə şöhrətdən düşdüyü halda, müxtəlif əyalətlərdə məsələn, Xubey, Anxuey və digər əyalətlərdə teatr sənətinin xalq içərisində çox yayılmış olan yeni formaları ("pixuan") ön plana keçir və sürətlə inkişaf edirdi.

Çin həmişə bədii xalq sənəti ilə məşhur olmuşdur. Həmişə yaşayan və solmaq bilməyən bədii sənət XIX əsrdə də təkmilləşməkdə davam edirdi. Çini qablar, saxsı əşyalar, daş, sümük, ağac, mina, lakdan düzəldilən məmulatlar, bədii tikiş özünün ən yaxşı nümunələri ilə Çin incəsətinin ən şanlı ənənələrini davam etdirirdi. Bu əsərlərin xeyli hissəsi xaricə daşınırdı. Fil sümüyündən düzəldilən bəzi əşyalar Avropada xüsusilə şöhrət qazanmışdı.

Xarici və daxili irtica qüvvələri Çin incəsənətinin özünə xas olan orijinal ruhunu qıra bilməmişdi. Ən başlıcası istilalar, müstəmləkəçilik, məhdudiyyətlər xalqın yaratdıqlarını talan edirdilər, amma qədim dövlətçilik ənənələrinə malik olan Çində xalqın yaradıcılıq əzmi tükənmirdi, əksinə daha da zəngiləşirdi.

# HİNDİSTAN

Hələ XVI əsrin axırı və XVII əsrin əvvəllərində Hindistan dünyanın ən böyük ölkələrindən biri idi. Hindistanın Cənub əyalətlərindən başqa demək olar bütün ərazisi feodal monarxiyası olan Böyük Moğollar imperiyasının[1] (1526-1761) tərkibinə daxil idi.

Bu dövrdə Hindistanın təqribən 100 milyonluq əhalisi öz etnik tərkibinə görə çox müxtəlif idi. Sayca və inkişaf səviyyəsi etibarilə ən iri xalqlardan maratxalılar, benqaliyalılar, teluqular (andxra), tamillər, oriya, kannara, malayalı, racəstanlılar, sindliləri və bir sıra başqa xalqları göstərmək olar.

Bu dövrdə Hindistanda hindu və islam dinləri geniş yayılmışdı. Əhalinin, təqribən 75 faizi hindu dini icmasına, 20 faizi isə müsəlman dini icmasına daxil idi. Amma müsəlmanların çoxu islamı qəbul etmiş hindulardan olmaqla dil və ənənələri hindularla eyni saxlanılmışdı. Müsəlmanlar başlıca olaraq Hindistanın şimal və qərb vilayətlərində, bir də Şərqi Benqaliyada yaşayırdılar. Hindularla müsəlmanlar əsrlər boyu dinc şəraitdə yanaşı yaşamışlar və qarşılıqlı əlaqələr olduqca zəngin idi. XVI əsrin əvvəllərindən, yəni avropalıların buraya gəlişindən sonra vəziyyət dəyişdi, ölkə yadellilərin tapdağı altına düşməklə yanaşı milli münaqişələr ocağına çevrildi. Xatırladaq ki, hələ 1511-ci ildə Holland və Portuqaliyalılar Hindistanın Aud və Sınaz əyalətlərində ilr koloniyalarını yaratmışdılar. L.B.Şastrinin təbirincə deyilsə "İngilislər özləri ilə Hindistana aclıq, səfalət, hiyləgərlik və qardaş qırğınına səbəb olan bəlalar gətirmişdilər". Təəssüf ki, xalq bunu gec başa düşdü.

## Hindistanın aqrar quruluşu

Moğollar imperiyasında aqrar quruluşun ən mühüm xüsusiyyətlərindən biri torpaq üzərində feodal dövlət mülkiyyətinin olması idi. Buna müvafiq olaraq kəndlilərdən natura şəklində alınan renta və digər vergilər xəzinəyə çox böyük vəsaitin və sərvətin axıb gəlməsini təmin edirdi.

---

[1] O zaman "Moğolustanın" əhalisinə "moğollar" deyirdilər. "Moğolustana" Mərkəzi və Orta Asiyanın cənub hissəsinin və Şimali Hindistanın rayonları daxil idi. "Böyük Moğollar imperiyası" onun banisi – Orta Asiyalı Bəbir ilə əlaqədardır.

Torpaq üzərində feodal mülkiyyəti ayrı-ayrı feodalların və icma-kəndlisinin torpağa sahib olmaq hüququnu inkar etməyərək bunun üzərində qurulurdu.

Ölkədə feodal torpaq sahibliyinin hakim forması şərti len sahibliyi (cagir) idi. Ən böyük cagirlər moğollar idi və başlıca olaraq torpaq müsəlman zadəganlarının əlində idi. Cagirdarlar onlara verilmiş torpaqlarda kəndlilərdən renta – vergi toplamaq hüququna malik olub, Moğol ordusunda hərbi mükəlləfiyyəti yerinə yetirməli idilər. Bir qayda olaraq cagirdarlar öz mülklərində təsərrüfatla məşğul olmurdular, yəni torpağı icarəyə verməklə dolanır, tədricən özləri də hakim qüvvəyə çevrirdilər.

Dağlıq və ucqar yerlərdə kiçik və orta feodallar əsas etibarilə hindu feodalları yəni zəmindarlar torpaq üzərində nəsli hüquqlarını saxlamışdılar. Onlar tədricən moğol hakimlərinin vassallarına çevrilirdilər. Hindistanda aqrar quruluşun digər ən mühüm xüsusiyyəti feodalizmdən əvvəlki dövrdən qalan kənd icması idi. İcma həmişə sənətkarlıqla əkinçiliyin birliyinə əsaslanırdı. Əkinçilik isə ən bəsit texnikaya, bir qayda olaraq ağacdan düzəldilmiş alətlərə əsaslanırdı. Lakin əkinçiliyin səviyyəsi, nisbətən yüksək idi. Məhsuldarlıq, müxtəlif bitki növlərinin çoxluğu buna şərait yaradırdı. Əkin tarlaları icmalar arasında bölünmüşdü, yalnız xam yerlər və heyvandarlıq üçün otlaqlar ümumi istifadədə idi. Amma tədricən icmada mülki və ictimai bərabərsizlik artmaqla icmalar arasında ziddiyyətlər meydana çıxırdı. İcmada müxtəlif mövqe tutan dörd qrup birləşmişdi ki, bunlar istismarçılara çevrilmiş imtiyazlı vəzifəli şəxslər, tamhüquqlu sıravi icma üzvləri, icma sənətkarları və hüquqsuz torpaq sahibləri olan "gəlmələr"dən ibarət idi. "Gəlmələr" yarımtəhkimli, yarımkölə vəziyyətində istismar olunurdu. Töycü verən kəndlilər təqribən məhsulun üçdə birini feodala verir və bir sıra feodal mükəlləfiyyətlərini də yerinə yetirirdilər.

Hind icmasının ən mühüm xüsusiyyəti kasta quruluşunun təsbit etdiyi möhkəm əmək bölgüsündən ibarət idi. Kastalar (cati) əhalini bir-birindən təcrid edilmiş qruplara bölürdü. Daxili kasta nigahları, nəsildən-nəslə keçən peşə, ənənə, dini etiqad ümumiliyi, kastaların üzvlərini bir-birinə sıx bağlayırdı. "Toxunulmaz" kastaların ictimai həqarəti və dözülməz hüquqsuzluğu əslində quldarlığın qalığı idi. İcmanın bu

xüsusiyyətləri onun müstəbid xarakterini gücləndirir, təsərrüfatın natural formalarını daha da sabitləşdirir, sənətkarlığın kənd təsərrüfatından ayrılması prosesini, yəni, yeni cəmiyyət quruculuğu prosesini ləngidirdi.

Moğol hakimləri icmadan və kasta quruluşundan, kəndliləri və sənətkarları istismar etmək və zəhmətkeş kütlələrin birləşməsinə yol verməmək üçün onları istismara məruz qoyaraq ədalətsiz qanunlardan istifadə edirdilər.

Düzdür, Moğol imperiyasının sürətlə inkişaf edən dövrləri də olmuşdur. İmperiyanın mövcudluğunun ilk dövrlərində, xüsusilə XVI əsrin axırı və XVII əsrin əvvəllərində Moğol imperiyası iqtisadi və mədəni yüksəliş dövrü keçirirdi. Ərazinin çox hissəsində daxili feodal müharibələrinin müvəqqəti olaraq dayandırılması və renta-verginin toplanmasının bir qədər qaydaya salınması kənd təsərrüfatına, sənətkarlığa və ticarətə müsbət təsir göstərmişdi. Dəmir, parça, istehsalı artmış, gəmiqayırma sahəsində ciddi müvəffəqiyyətlər əldə edilmişdi. Əmək bölgüsü qanuniləşməklə, həm də mürəkkəbləşirdi. İqtisadi, ticarət və sənətkarlıq mərkəzi olmaq etibarilə şəhərin əhəmiyyəti artmışdı.

Kənd təsərrüfatının inkişafında mütərəqqi dəyişikliklər baş verirdi. Eyni zamanda pambıq, indiqo, xamna kimi texniki bitkilərin sahəsi genişləndi, ayrı-ayrı kənd təsərrüfatı rayonlarının ixtisaslaşması prosesinə başlanmışdı. Bununla yanaşı yerli vilayət bazarları yaranır və ayrı-ayrı əyalətlər arasında ticarət əlaqələri genişlənirdi. Amma, imperiyanın tərəqqi etməsi uzun sürmədi. Çünki zülüm, istibdada əsaslanan idarəçilik sistemi mövcud idi. Eyni zamanda ölkədə separatçılıq amilləri güclənir, mərkəzi hakimiyyətin deformasiyası daha da dərinləşirdi.

## Böyük Moğollar imperiyasının tənəzzülünün başlanması, Panipat vuruşması

XVII əsrin axırlarında, xüsusilə Övrəngzəbin hakimiyyəti dövründə (1658-1707) Moğol dövləti tənəzzül etməyə başladı. Bunun əsas səbəbi feodal istismarının qüvvətlənməsi nəticəsində kəndli təsərrüfatının inkişafdan qalması və despotik idarəçilik sisteminin tədricən mürtəce xarakter alması idi.

Hindistanın geoloji və iqlim xüsusiyyətləri ölkənin çox hissəsində suvarma işləri aparılmadan kənd təsərrüfatının inkişafına imkan vermirdi. Suvarma şəbəkələrinin qayğısına qalmaq mərkəzi hökumətin işi olsa da, hökumət bu zəruri funksiyanı yerinə yetirmirdi. Həmçinin zinət içərisində yaşayaraq gələcək faciəni dərk edə bilməyən məmurlar və saray intriqaları ilə məşğul olan hakim dairələr öz vəzifəsinə etinasız yanaşırdılar. Suvarma sistemlərinin dağılması qıtlığa, aclığa, kəndlilərin kütləvi surətdə müflisləşməsinə səbəb olurdu. Renta-verginin məbləği isə əksinə, artmaqda davam edirdi.

Mərkəzi vilayətlərdə natural rentanın pul rentası ilə əvəz edilməsi əmtəə-pul münasibətlərinin kəndə soxulmasını sürətləndirdi. Bu da kəndlilərin və sənətkarların ticarət-sələmçi kapitalı tərəfindən əsarət altına alınmasına, icmanın dağılmasına, torpaq üzərində dövlət-feodal mülkiyyətinin sarsılmasına səbəb oldu. Şərti feodal torpaq sahibliyi xüsusi feodal mülkiyyətinə çevrilirdi. Feodal istismarı artdıqca hakimiyyət nüfuzdan düşürdü.

XVII əsrin axırı və XVIII əsrin əvvəllərində sinfi mübarizənin olduqca kəskinləşməsi kütləvi antifeodal hərəkatlarında öz ifadəsini tapdı. Maratxa kəndlilərinin 1674-cü ildə çıxışı 1630-1680-ci illərdə Şivacinin rəhbərliyi altında gedən mübarizə nəticəsində müstəqil Maratxa dövləti yaradıldı. Şivaci, moğol hakimlərinə və iri cagirdarlara qarşı çıxan xırda və orta maratxa feodallarını təmsil edirdi. Siqxlərin[1] dini icmasının rəhbərliyi altında Pəncabda kəndli müharibəsi, habelə yoxsulların mübarizəsi xüsusilə davamlı olaraq hakimiyyət qarşısında təkcə iqtisadi tələblər qoymaqla kifayətlənməyərək mübarizənin kütləviləşməsinə nail olmuşdular. Siqxlərin haqlı mübarizəsini təhlil edən naməlum müəllif yazmışdır ki, "Siqxlər çox ustalıqla xalqa azadlıq yolunu nişan verdilər".

Bu dövrdə hakimiyyət xalq üsyanlarından qorxurdu, çünki xalq üsyanları feodal münasibətlərinin əsaslarını sarsıdırdı. Böyük Moğollar sülaləsinin bu üsyanları yatırmaq sahəsindəki müvəffəqiyyətsiz səyləri nəticəsində onun qüvvəsi tükənirdi və hakimiyyət xalq qarşısında nüfuzdan düşürdü.

---

[1] Siqxlər (şagirdlər) onlar xalq kütlələrinin antifeodal məfkurəsini ifa edən dini cərəyanın tərəfdarları idilər. "Adi Qrantx" müqəddəs kitabı siqxizmin ən qədim ədəbi məxəzidir.

XVIII əsrin birinci yarısında Böyük Moğol dövlətinin iqtisadi tənəzzülü dərinləşdi və siyasi cəhətdən parçalanması tədricən genişləndi. Feodal rentasını yenidən bölüşdürmək üstündə hakim sinif içərisində mübarizə kəskinləşirdi. Ölkədə mövcud iqtisadi böhran, xalqın ağır istismara məruz qalması siyasi böhran üçün zəmin hazırladı. Moğollar sülaləsinin zəifliyi, xalq üsyanlarını yatıra bilməməsi separatizm əhvali-ruhiyyəsində olan feodalların mərkəzi hakimiyyətin nəzarətindən yaxa qurtarmaq səylərini qüvvətləndirirdi. Onlardan bəziləri bu məqsəd üçün kortəbii kəndli üsyanlarından istifadə edirdi. Moğolların ən iri əyalətlərinin canişinləri o cümlədən Heydərabad, Aud, Benqaliya və digər əyalətlərdə özlərini tədricən müstəqil hökmdar elan etdirdilər.

Bu yarımknyazlıq, yarımdövlətlərin hakimləri öz qonşunlarının ərazisi hesabına varlanmağa çalışırdılar. Onlar öz qüvvələrini daxili feodal müharibələrinə və kəndli üsyanlarını yatırmağa istiqamətləndirsələr də nəticədə, daha güclü yadelli düşmənlər qarşısında aciz qalırdılar.

XVIII əsrin ikinci rübündə maratxaların dövləti Hindistanda ən böyük siyasi qüvvəyə çevrilmişdi. Geniş hərbi len torpaqlarına yiyələnmiş olan iri feodallar matarxa dövlətində hakim mövqe tuturdular. Onlar baş nazirin (peşvənin) ətrafında birləşirdilər. Peşvələr irsən keçən hakimlərə çevrilmişdi. Maratxa xalqının keçmişdə apardığı azadlıq müharibəsi, sonralar maratxa feodal zadəganlarının işğalçı yürüşləri ilə əvəz olundu. Maratxa qoşunları Böyük Moğolların və onların müstəqil olmuş canişinlərinin torpaqlarına soxulur, soyğunçuluq edir, varlanırdılar. Yəni, dövlət içərisində dövlət fəaliyyəti açıqca müşahidə edilirdi.

XVIII əsrin 40-cı və 50-ci illərindəki müharibələr nəticəsində maratxlar Böyük Moğolların ərazisinin çox hissəsini işğal edib, öz məqsədlərinə nail olmaq ərəfəsində idilər. Maratxa feodallarının ümumhindistan miqyasında hegemonluğunu yaratmaq məqsədilə hərbi imkanlar artırılırdı və qısa müddətdə buna nail oldular.

Eyni zamanda gözlənilmədən regionda hərbi-siyasi vəziyyət dəyişdi və Nadir şahın Xabuşanda 1747-ci ildə öldürülməsi

nəticəsində elə həmin il, yəni, 1747-ci ildə müstəqil Əfqan dövləti yarandı. Əfqanıstanın hakim dairələri Hindistana qarşı dərhal bir sıra hərbi yürüşlərə başladılar. Nəticədə XVIII əsrin 50-ci illərində əfqanlar Pəncabı, Dehliyə qədər olan yerləri tutaraq əslində Böyük Moğolu hakimiyyətdən məhrum etdilər. Belə bir şəraitdə Siqxlər əfqan işğalçılarına qarşı inadlı mübarizəyə başladı. Pəncabdan kənar yerlərdə əfqan qoşunlarına qarşı duran başlıca qüvvə maratxalar idi. Hindistan uğrunda əfqan-maratxa müharibəsi gedişində həlledici vuruşma 1761-ci il yanvarın 14-də Panipat düzənliyində baş verdi. Maratxalular ağır məğlubiyyətə uğradılar. Onlar Malvanı Camna və Qanq çayları ətrafındakı yerləri və Racputan üzərində hakimiyyəti itirdilər. Dəkəndə də onların mövqeyi zəiflədi. Maratxa qoşunları ona görə məğlub oldu ki, sinfi ziddiyyətlər və sülalələr arasında hakimlik uğrunda mübarizə nəticəsində hərbi intizamı pozulmuş maratxa dövləti daxilən zəif idi.

Panipat vuruşması Moğollar imperiyasının süqutu və Hindistanın ayrı-ayrı xırda dövlətlərə parçalanması üçün Hindistan tarixində dönüş nöqtəsi oldu. Böyük Moğol imperiyası qəti surətdə dağıldı. Zəifləmiş maratxa dövləti, ona vurulmuş zərbədən bir daha heç vaxt özünə gələ bilmədi. Lakin əfqan işğalçıları da əldə etdiyi qələbəni möhkəmlədə bilmədilər. Onlar XVIII əsrin 60-cı illərində Hindistana daha bir neçə yürüş təşkil etdi, lakin nəticə etibarilə Hindistanı tərk etməyə məcbur oldular. Əfqanıstana gedən əsas yollar üzərində yerləşən Pəncabda 1763-cü ildə üsyan baş verməsi də bu işdə mühüm rol oynadı.

Bununla yanaşı uzun müddət müşahidə aparan və Panipat vuruşmasının nəticəsini gözləyən ingilis müstəmləkəçiləri bundan dərhal istifadə etdilər. Döyüşən tərəfləri silahlandırmaqda daha da fəallaşdılar.

Moğollar dövlətinin daxilində mövcud olan qeyri-insani münasibətləri və dövlətin süqutunun səbəblərini araşdıran Marks yazırdı: "Böyük moğolun qeyri-məhdud hakimiyyətini canişinləri devirmişdilər. Canişinlərin qüdrətini maratxalılar qırmışlar. Maratxaların hökmranlığına əsasən əfqanlar son qoymuşdular. Burada hamı-hamıya qarşı vuruşduğu bir zamanda qəfildən britaniyalı ortaya çıxdı və hamını itaətə gətirə

bildi". Marksın ətraflı təhlili ilə yanaşı qeyd etmək yerinə düşərdi ki, ingilislər öz məqsədlərinə çatmaq üçün Hindistan hakimiyyət orqanlarının zəifliyindən, xalqın milli şüurunun hələ tam formalaşmamasından çox ustalıqla istifadə etdi.

Beləliklə, vahid dövlətin dağılması, daxili feodal müharibələri və xarici işğalçıların ölkəyə soxulması məhsuldar qüvvələrin son dərəcə zəifləməsinə, yaranmaqda olan ticarət əlaqələrinin pozulmasına, zəhmətkeş kütlələrin vəziyyətinin daha da pisləşməsinə səbəb oldu.

Odur ki, müstəmləkəçilərin istilaçılıq planlarının həyata keçirilməsi üçün Hindistanda əlverişli hərbi-siyasi vəziyyət yaranmışdı və buna cəsarətsiz, xalqdan uzaq düşmüş hakimiyyət özü rəvac vermişdi.

## 1756-1757-ci illərdə ingilis-benqal müharibəsi

Bütün Avropa müstəmləkəçiləri sırasında o zaman Hindistanda ən güclü müstəmləkəçi mövqe tutan fransızlar və ingilislər idi. Onlar hindliləri amansızcasına qarət edib, tədricən öz mövqelərini möhkəmləndirir, Hindistanı zəiflətmək məqsədilə daxili feodal müharibələrini qızışdırırdılar. XVIII əsrin 40-50-ci illərində ingilislərlə fransızlar arasında silahlı mübarizə başlandı. 1761-ci ildə ingilislər fransızlar üzərində tam qələbə çaldı. Bununla da ingilislər Hindistanda öz təkbaşına hökmranlığını yaratmaq üçün müstəmləkəçiliyə geniş yol açdılar.

Ost-Hind kompaniyası[1] İngiltərə tərəfindən Hindistanı işğal etmək alətinə çevrildi. Ost-Hind kompaniyası Şərqlə ticarət inhisarına malik olan xüsusi ticarət kompaniyası idi. İngiltərənin hakim dairələri ilə sıx bağlı olan Ost-Hind kompaniyası iri tacirlərin, bank sahiblərinin və siyasi işbazların mənafeyini təmsil edir, Hindistanı və başqa Şərq ölkələrini amansızcasına qarət hesabına kapitalın xüsusi əllərdə təmərküzləşməsi işinə xidmət edirdi. Bu kompaniya müstəmləkələr əldə etməkdə və qarətçilikdə mahir idi.

İngilislər Hindistanın istilasına ən zəngin və iqtisadi cəhətdən inkişaf etmiş vilayətlərdən biri olan Benqaliyadan

---

[1] İngilis Ost-Hind kompaniyasının təsis konfransı 1599-cu ildə Londonda olmuş və kompaniya 1600-cü ildə yaradılmışdı.

başladılar. XVIII əsrin ortalarında məhsuldar qüvvələrin inkişafı, ictimai əmək bölgüsü və sadə əmtəə təsərrüfatının artması nəticəsində icmanın dağılması və torpaq üzərində feodal dövlət mülkiyyətinin əhəmiyyətinin azalması prosesi xeyli sürətlənmişdi. Xüsusi feodal mülkiyyəti əsasında senyor təsərrüfatı tipli mülkədar təsərrüfatı inkişaf etdirilirdi, kəndlilərin əmlak bərabərsizliyini isə artırırdı. Nəticədə kəndlilərin üzərindəki feodal istismarı və borc əsarəti getdikcə güclənirdi. Təbii olaraq kəndlilərin istismara qarşı müqaviməti artıq silahlı mübarizəyə çevrilməkdə idi.

İstilanın və istismarın mərhələ-mərhələ artdığı o dövrdə ingilis Ost-Hind kompaniyasının Benqaliyada, o cümlədən ən mühüm sənət mərkəzləri Dəkkədə, Qasımbazarda və başqa yerlərdə 15 faktoriyası, 150 anbarı var idi. Kompaniyanın ən böyük ticarət, inzibati və strateji mərkəzi Kəlküttə şəhəri hesab olunurdu.

Ost-Hind kompaniyası öz yerli agentlərinin və komprador tacirlərin köməyilə Benqaliyanın minlərlə sənətkar və kəndlisini amansızcasına soyub talayırdı. Zəhmətkeş kütlələrin qarət edilməsinin əsas forması və İngiltərənin Hindistandakı ilkin yığımının başlıca mənbəyi o zaman ekvivalentsiz mübadilə xarakteri daşıyan müəmmalı ticarət idi.

XVIII əsrin 50-ci illərinin ortalarında Benqaliyada hakim sinif içərisində münaqişələr baş verirdi və bu səbəbdən sahibkarlar arasında mübarizə olduqca kəskinləşmişdi. Tərəflər arasında ingilis müstəmləkəçilərinə qarşı münasibət birinci dərəcəli məsələlərdən biri olmuşdu. Mübarizə gedişində Ost-Hind kompaniyası hakim sülalə daxilindəki mübarizədən istifadə edib, nəvab vəzifəsinə öz əlaltısını keçirməyə çalışırdı. Yəni, ingilislərin siyasi hakimiyyətə müdaxilə etməkdə maraqları vardı. İngiltərə Hindistanda öz maraqlarına ön plana keçirdiyində görə bütün variantlardan istifadə edirdi.

Nəhayət, 1756-cı ilin aprelində Siracəddövlə taxta çıxdı. O, zadəganların ingilislərə zidd əhval-ruhiyyəli qruplarla həmfikir idi. Odur ki, gənc nəvab dərhal ingilis Ost-Hind kompaniyasının yardımına arxalanan feodal qrupunun silahlı müqavimətinə rast gəldi və bu hadisə müharibəyə səbəb oldu.

Benqaliya qoşunları təcili surətdə ingilis müstəmləkəçilərinə qarşı çıxış etdi və 1756-cı il iyulun axırlarında ingilisləri Benqaliyadan tamamilə qovdular.

İngilislərin bir sıra cəhdləri, o cümlədən Kəlküttəni yerli əhalinin əli ilə müdafiə etmək təşəbbüsü boşa çıxdı.

Benqaliyadakı hadisələr ingilis müstəmləkəçiləri arasında, xüsusən ona görə təşviş salmışdı ki, məhz bu zaman ingilis-fransız müharibəsi başlanmışdı. Siracəddövlə də bilavasitə fransız Ost-Hind kompaniyasının yardımına arxalanırdı. Odur ki, ingilis hökuməti vəziyyətin gərginliyini məzərə alaraq Ost-Hind kompaniyasının sərəncamına hərbi-dəniz eskadrası verdi. Kompaniyanın məmuru, Marksın dediyi kimi, "istedadlı quldur" Robert Klayv bu döyüşlərdə quru və dəniz qüvvələrinə komandan təyin edildi.

Hərbi qüvvələrinin üstünlüyünə və Benqaliyanın nüfuzlu ticarət-sələmçi dairələrinin və satqın feodalların yardımına arxalanaraq Robet Klayv qələbə çaldı və Siracəddövlə 1757-ci ilin fevralında qeyri-bərabərhüquqlu müqavilə imzalamağa məcbur edildi.

## İngiltərənin Benqaliyanı zəbt etməsi. Mirqasımın rəhbərliyi altında üsyan

Britaniya imperializmi Hindistanı öz müstəmləkəsinə çevirmək üçün bütün mürtəce vasitələrindən istifadə edirdi. Embarqo siyasətindən başlamış hərbi ekspansiya da istisna edilmirdi. Odur ki, 1757-ci il müqaviləsi imzalandıqdan dər-hal sonra Ost-Hind kompaniyasının hərbi hissələri burada yerləşdirilməyə başlandı. Nəvabı devirmək məqsədilə Klayv qəsd təşkil etdi. Qəsdin əsas iştirakçıları Benqaliya taxt-tacına göz tikən hərbi nazir və Benqaliya ordusunun baş komandanı Mircəfər, Benqaliyanın iri bankirləri Setxlər və başqaları idilər. Ölkədə siyasi hakimiyyətə təsir göstərə bilən bütün vasitələrə əl atılırdı. Bu məqsədlə Benqaliyada hakimiyyət dəyişikliyi üçün lazımi hazırlıq işləri görüldü, nəticədə Ost-Hind kompaniyası süni şəkildə əvvəlcə təxribatlar və münaqişələr törətdi, sonra isə 1757-ci il iyunun 23-də Plessi yaxınlığında həlledici vuruşma da Sayca ingilislərdən təxminən iyirmi dəfə çox olmasına baxma-

yaraq Benqaliya ordusunu məğlubiyyətə uğratdı. İngilis qoşunlarının hərbi-texniki cəhətdən üstün olması, Klayvın və onun köməkçilərinin fırıldaq və rüşvətlə iş görmək siyasəti, Benqaliyanın yuxarı hakim dairələri içərisindəki xəyanət, Siracəddövlə və onun ətrafındakı adamların işğalçılara qarşı mübarizədə xalq kütlələrinə arxalanmaq istəməməsi, bütün bunlar Plessi vuruşmasının müqəddəratını həll etdi.

Plessi vuruşmasından sonra ingilislər Benqaliyada Mircəfərdən külli miqdarda rüşvət alaraq onu hakimiyyətə gətirdilər. Benqaliyanın əsil ağası isə Ost-Hind kompaniyasının Kəlküttə şurası və bunun sədri beynəlxalq miqyasda mahir dələduz kimi tanınmış Robert Klayv oldu. Ölkənin bu vaxtadək görünməmiş qarət olunmasına başlandı. Ost-Hind kompaniyası zabitlərinə və məmurlarına Mircəfərin verdiyi və təkcə hesaba alınmış "bəxşişlər" 1,25 milyon funt sterlinq təşkil edirdi. Rəsmi mənbələrdə göstərilirdi ki, bu rüşvətin 234 minini R.Klayv şəxsən özü almışdı. Ölkədə yadellilərin hakim mövqe tutması narazılığı artırdı. Benqaliya feodalı Mirqasım 1762-ci ildə ingilis müstəmləkəçilərinə qarşı üsyan qaldırdı. Bir sıra qonşu knyazlıqların hakimləri də ona qoşuldular. 1764-cü ildə Buksar yanındakı döyüşdə ingilislər qəti qələbə nəticəsində Ost-Hind kompaniyası Benqaliyada, Biharda və Orissada tamamilə möhkəmləndi. 1765-ci ildə Ost-Hind kompaniyası Şərqi Hindistanın ən böyük knyazlığı Audu da öz vassalına çevirdi. Ost-Hind kompaniyasının təqaüdçüsünə çevrilən rəsmi moğol imperatoru həmin il şirkətin işğal etdiyi yerlərdə torpaq vergisi toplamağı kompaniyaya "həvalə" etdi. Əslində ingilislər Qanq çayının orta və aşağı axını ətrafındakı yerlərin tam ağası oldu. Bu isə ingilis Ost-Hind kompaniyasının cənubda rəqibi olan fransızlar üzərindəki qələbəsini sürətləndirdi. Ost-Hind kompaniyası Hindistanı tamamilə işğal etmək üçün geniş imkanlar əldə edərək yeni işğalçılıq yürüşlərinə başladı.

Antimüstəmləkəçilik mübarizəsi Benqaliyada tarixi perspektivlik nöqteyi-nəzərindən dönüş xarakterli hadisələr olsa da Britaniya imperializminə qalib gəlmək qeyri-mümkün idi. Amma bu da qeyri-mütərəqqi fakt idi ki, Hindistanın müstəqil inkişafına faktiki olaraq son qoyuldu. Ost-hind kompani-

yası ticarət inhisarını saxlamaqla bərabər, eyni zamanda müstəmləkə hakimiyyətinin hərbi-polis aparatına çevrilməsinə nail oldu. Bununla yanaşı Ost-Hind kompaniyasının ərazi işğallarına başlaması və hərbi-siyasi qüvvəyə çevrilməsi ona yeni ilkin yığım mənbələri tapmasına şərait yaratdı. Belə mənbələr içərisində ən mühümləri renta-vergi almaq yolu ilə milyonlarla kəndliləri qarət və istismar etmək, həmçinin tiryək, ipək, duz və s. ticarətini inhisara almaq, hərbi qənimət ələ keçirmək və müstəmləkə bac-xəracını tənzimləmək başlıca mənbələrdən idi. Məhz bu səbəbdən Hindistandan İngiltərəyə axan qızıl "seli" sənaye çevrilişini, ingilis kapitalizminin maddi-texniki bazasının yaradılması prosesini qüvvətləndirərək İngiltərənin Avropada ən varlı dövlətə çevrilməsində göstərilən amillər mühüm rol oynadı.

Ost-Hind kompaniyası ağalığının əvvəllərindən aqrar siyasəti əslində torpaq üzərində feodal dövlət mülkiyyətini möhkəmlətməyə və beləliklə, vergi gəlirlərini hər vasitə ilə artırmağa yönəldilmişdi. Hələ özünün xüsusi vergi aparatı olmadığından, kompaniya vergi toplanmasını qısamüddətli iltizama vermək siyasəti yürüdürdü. Torpaq vergisinin miqdarı 1764-1765-ci illərdə 818 min funt sterlinq, 1765-1766-cı illərdə 1 milyon 470 min, 1771-1772-ci illərdə isə 2 milyon 341 min funt sterlinq təşkil etmişdi. Suvarma şəbəkələrinə qayğı göstərilməməsi, kəndlilərin ağır vergilərlə cəlb edilərək qarət olunması məhsuldar qüvvələrin sürətlə pərakəndə hala düşməsi, inkişaf ehtimalı, ümidverici vilayətlərin viranə qalmasına səbəb oldu. 1770-ci ildəki aclıq nəticəsində təqribən 9 milyon adam, yəni Benqaliya əhalisinin üçdə biri həlak oldu. Ölkədəki təbii fəlakətə və aclığa baxmayaraq həmin il toplanan torpaq vergisinin miqdarı xeyli artırılmışdı.

Ost-Hind kompaniyasının ağalığı xalq kütlələrində hədsiz qəzəb hissi oyadırdı. Məhz bu səbəbdən 70-ci illərin əvvəllərində Kəlküttə rayonunda kortəbii çıxışlar baş verdi və bunlar çox qəddarlıqla yatırıldı.

İşğal edilmiş Hindistan torpaqlarının idarə edilməsi məsələsi haqqında ingilis parlamenti 1774-cü ildə ilk qanun

("tənzimedici akt" deyilən qanun) qəbul etdi. Nəticədə inzibati-siyasi idarəçilik tamamilə Ost-Hind kompaniyasının əlinə keçdi. Bu qanuna əsasən kortəbii üsyanlar qəti surətdə boğulmalı, müntəzəm surətdə müstəmləkə bac-xəracı alınmasını təmin etməli idi. Eyni zamanda Hindistanın işğalını başa çatdırmalı olan müstəmləkə hakimiyyətinin hərbi-siyasi aparatı Ost-Hind kompaniyasının daha da möhkəmlənməsinə kömək etməli idi. Bu qanun həmçinin Ost-Hind kompaniyası üzərində hökumətin nəzarətini yalnız kağız üzərində göstərirdi. Real vəziyyət isə tamamilə başqa idi, yəni ölkəni yerli xalqın nümayəndələri deyil, yadellilər idarə edirdilər.

## XVIII əsrin 60-90-cı illərində Hindistanda müstəqil dövlətlər

Panipat döyüşünün məğlubiyyətindən sonra Maratxa dövlətinin hərbi-iqtisadi qüdrəti sarsılsa da, maratxaların dövləti XVIII əsrin axırlarında Hindistanda ən böyük müstəqil dövlət olaraq qalırdı və dövlətçilik ənənələri daha da möhkəmləndirilirdi. Bu məqsədlə 60-70-ci illərdə hökumət bir sıra müvəffəqiyyətli müharibələr apardı, lakin Maratxa dövləti əvvəlki qüdrətini bərpa edə bilmədi. Tədricən kəskinləşən daxili ziddiyyətlər onu gücdən salırdı. Bu ziddiyyətlər maratxaların işğal etdiyi yerlərdə xüsusilə açıq şəkildə nəzərə çarpırdı. Buradakı, yəni işğal ərazisindəki zəhmətkeşlər isə yerli və maratxa feodallarının ikiqat zülmü altına düşmüşdü. Bu dövlətin hərbi, siyasi, iqtisadi vəziyyəti təhli edilərkən bir daha demək olar ki, Maratxa dövləti bir-biri ilə fasiləsiz mübarizə aparan knyazların qeyri-sabit ittifaqı idi. Bunlardan ən güclüləri (Qvaliorda– Sindxiya sülasəsi, İndorda – Xolkara, Barodada – Qaekvarlar) peşvəyə tabe olmayıb, özləri dövlətdə hakim mövqe tutmaq iddiasında idilər.

XVIII əsrə qədər Cənubi Hindistan ərazisində ən qüdrətli dövlətlərdən biri də Maysur idi. Amma XVIII əsrin ortalarınadək Maysur öz ərazisi, hərbi-iqtisadi qüdrəti və siyasi nüfuzu cəhətdən güclü dövlət deyildi. Odur ki, 1761-ci ildə kəndlilərin təşəbbüsü ilə qoşunun qaldırdığı üsyan gedişində hakim hindu sülaləsi devrildi və köhnə feodal zadəganları darmadağın edildi. Mübarizəyə başçılıq edən və çevrilişə nail

olan kiçik hərbi sərkərdə Heydərəli (1702-1782) yeni sülalənin əsasını qoydu.

Xatırlatmaq olduqca vacibdir ki, Heydərəli XVIII əsrdə Hindistanda ən görkəmli siyasi xadimlərdən biri olmuşdur. O, aqrar islahat keçirərək zəmindarlığı, torpaq üzərində şərtsiz nəsli sahiblik sistemini ləğv etdi. Müsadirə edilən torpaqların bir qismi müvəqqəti istifadə şərtilə Maysur ordusunun hərbi sərkərdələrinə, yəni amildarlara paylandı. Vahid vergi aparatı yaradıldı. İnzibati və maliyyə idarəsi mərkəzləşdirildi. Kəndlilər üzərindəki ağır vergi yükü bir qədər yüngülləşdirildi. Sənətkarlıq və ticarətin inkişafına hər cəhətdən kömək göstərildi[1].

Beləliklə, Maysurda tədricən iqtisadi yüksəliş başlandı və bu dövrdə Banqalur, Valur və başqa şəhərlər pambıq parça və iplik mallar hazırlayan ən iri mərkəzlərə çevrilirdi. Maysurun şərq hissəsi dəmirəritmə və digər emal sahələrinin mərkəzi idi. Bununla yanaşı rəng və boyaq istehsalı sürətlə inkişaf etməkdə idi. Xarici və daxili ticarətdə irəliləyiş müşahidə olunurdu. Daxili və xarici ticarətin inkişafı xüsusilə nəzərə çarpırdı ki, bu da beynəlxalq miqyasda ölkənin nüfuzunu artırırdı.

Amma təəsüf ki, ölkədə əmək alətləri və istehsalın təşkili orta əsrlərdə olduğu kimi qalmışdı. Lakin feodal iqtisadiyyatı daxilində, xaricilərin heç bir müdaxiləsi olmadan, sadə kapitalist kooperasiyası və ilkin kapitalist manufakturası inkişaf etməyə başlamışdı. Eyni zamanda başqa xalqların, o cümlədən o zamankı Hindistanın ən qədim və qabaqcıl xalqlarından biri olan kannara xalqının mədəni səviyyəsi və emal bacarığı dünya görüşünün fəallaşması prosesi başlanmışdı.

Bunlarla yanaşı Heydərəli fransız zabitlərininköməyi ilə ordunu yenidən təşkil etdi, güclü süvari dəstələri yaratdı, donanmanın inkişafına böyük qayğı göstərdi, sahil adalarında gəmi tərsanələri yaratdı.

Əlbəttə, hökumətin bu xarici siyasəti təbii olaraq Maysurun istiqlaliyyətini qoruyub saxlamağa yönəldilmişdi və buna görə də xalq kütləri hökumətin siyasətini müdafiə edirdilər. Lakin

---

[1] Hindşünas V.İ.Pavlov və başqaları hesab edirdilər ki, Maysurda artıq kapitalist kooperasiyası və ilk manufaktura rüşeymləri yaranmışdı. K.A.Antonov isə bu fikri rədd edirdi.

belə bir siyasət ingilislərin xoşuna gəlmirdi və nəticə etibarilə bu Maysurla Britaniya istilaçıları arasında hərbi toqquşmaya səbəb olmalı idi. Çünki Hindistanın inkişafı imperialist İngiltərə hökumətinin istilaçı maraqlarına tamamilə zidd idi.

Nəhayət, Britaniya müstəmləkəçilərinin Hindistana dair qapalı və məkrli siyasəti tezliklə özünü biruzə verdi və 1767-1769-cu illərdə İngiltərə ilə Maysur arasında birinci İngiltərə-Maysur müharibəsi baş verdi. Maysurun süvari dəstələri ingilis qoşunlarını məğlub edərək, Mədrəsə qədər gedib çıxdılar və Ost-Hind kompaniyası sülh müqaviləsi bağlamağa məcbur oldu.

Müstəqil Maysur dövləti Cənubi Hindistanda ingilis işğalçılarına qarşı inadlı müqavimət göstərən ən böyük qüvvəyə çevrildi.

1764-cü ildə Pəncab ərazisində müstəqil Siqx dövləti təşkil edildi. Bu dövlət, feodal istismarçılarına qarşı xalq kütlələrinin yüz ildən bəri apardığı mübarizənin İran, sonra da əfqan işğalçılarına qarşı təqribən 25 illik azadlıq mübarizəsinin nəticəsində yaradılmışdı. Bunun nəticəsi olaraq siqx icması (xəlsə) mülki və hərbi işlər sahəsində ali hakimiyyət orqanı elan edildi. Hakimiyyətdən devrilmiş feodal zadəganların torpaqları müsadirə edilib icma mülkiyyəti elan olundu. Kəndlilərin vəziyyəti müvəqqəti olaraq yüngülləşdirildi.

Xarici işğalçılara qarşı müvəffəqiyyətli ümumxalq mübarizəsi kütlələrin vətənpərvərlik şüurunun artmasına kömək etdi. Əfqan ordularının 1764-cü və 1767-ci illərdə Hindistana yenidən soxulmaq cəhdləri Pəncabın xalq kütlələri tərəfindən qəti surətdə dəf edildi. Bu hadisə Əhməd şahın öz qoşunlarını Hindistandan çıxarmağa məcbur olmasında həlledici rol oynadı.

Lakin XVIII əsrin 70-90-cı illərində Britaniya müstəmləkəçilərinə qarşı Hindistanın apardığı şiddətli mübarizədə Pəncab ciddi rol oynaya bilmədi, çünki döyüş meydanı Pəncabdan xeyli uzaqda idi.

XIX əsrin 70-ci illərində Siqx dövlətinin özündə də daxili ictimai-siyasi vəziyyət dəyişmişdi. Siqxlərin hərbi sərkərdələri (sərdarlar) ən yaxşı və çoxlu münbit torpaqlar ələ keçirmişdilər. Onlar Pəncab əhalisinin əksəriyyətini təşkil edən, siqx olmayan kəndliləri istismar etməyə başlamışdılar. Zəif siqx

hökuməti cəmi bir neçə il fəaliyyət göstərdi. Nəticədə Pəncab on iki xanədana (misala) parçalandı ki, bunların da hakimləri arasında fasiləsiz mübarizə başlandı. Bu mübarizə XIX əsrin əvvəllərinədək davam etdi.

## Ost-Hind kompaniyasının qəsbkarlıq müharibələri

Hindistanda Ost-Hind kompaniyasının zəbt etdiyi yerlərdə müstəmləkə zülmü ildən-ilə güclənirdi və kəndlilərdən alınan torpaq vergisinin həcmi süni şəkildə çoxaldılırdı.

Ost-Hind kompaniyasının xəzinəsinə torpaq vergisindən daxil olan gəlirin ümumi miqdarı dönmədən artırdı. Kənd təsərrüfatı tənəzzül etdiyindən və kəndlilər müflisləşdiyindən vergilərin yığılması məmurlar üçün yeni-yeni problemlər yaradırdı. Vəziyyətdən çıxmaq üçün Ost-Hind kompaniyası torpaq vergisi toplamaq məqsədi ilə daha sərt üsullara, zorakılıq və işğalçı müharibələrə əl atırdı.

Kompaniyanın ən böyük gəlir mənbələrindən biri də zəif qonşu knyazlıqları qarət etmək, onları münaqişəyə cəlb etmək idi. Qastinqs 1774-cü ildə Ost-Hind kompaniyasının vassalı Aud nəvabını qonşu Roxilkxand knyazlığı üzərinə müharibəyə təhrik edirdi. Ost-Hind kompaniyasının qoşunları Aud ordusu ilə birlikdə ölkəyə soxuldu və yerli əhalini qarət etdi, hətta 7 milyon rupilik qənimətin böyük bir hissəsini Ost-Hind kompaniyası mənimsədi. Şəxsən Qastinqs özü bir neçə yüz min rupini ələ keçirmişdi.

İngilis müstəmləkəçiləri 1775-ci ildə maratxaların hakim dairələri arasında gedən mübarizəyə öz maraqları naminə müdaxilə etdi. Bu dövrdə ingilislər peşvə taxtına öz əlaltısını keçirməyə çalışırdılar. İngilislərin bu hərəkəti Ost-Hind kompaniyasının agentlərinə qarşı maratxaların hiddətinə səbəb oldu və 1775-1782-ci illərdə ingilis-maratxa müharibəsi ilə nəticələndi. Fasilələrlə gedən bu döyüşdə, xüsusilə 1778-ci ildə maratxa ordusu ingilis qoşunlarına ağır zərbə endirmişdi.

Təəccüblü olsa da ölkə xaricilər tərəfindən işğala məruz qalandan sonra nəhayət ki, 70-ci illərin axırı və 80-ci illərin

əvvəllərində Maysurun və maratxa knyazlıqlarının hökmdarları "Hindlilərin Böyük ittifaqı" adlı təşkilat yaratdılar. Əslində bu təşkilat işğal ərəfəsində yaradılmalı idi. Amma bu tədbir gec də olsa ingilis işğalçılarına qarşı mübarizə aparan Hindistan əyalətlərinin hakimlərinin ittifaqı idi. Onlar Heydərabad hakimini də öz tərəfinə çəkməyə müvəffəq oldular. Çünki ingilislərin himayəçilik etdiyi Heydərabad hakimi onun torpaqlarını işğal edən ingilislərdən narazı idi. İngilisləri Hindistandan qovmaq məqsədilə müttəfiqlər birgə hücum planı hazırladılar. Bu olduqca mütərəqqi hadisə idi.

Beləliklə, uzunmüddətli hazırlıqdan sonra 1780-ci ildə ikinci ingilis-Maysur müharibəsi başlandı. Maysur ordusu ingilis işğalçılarına dərhal ciddi zərbələr endirdi. Maysur ordusu ingilislərin vassalı olan Karnatik nəvabının paytaxtı Arkotu tutdu. Qələbədən ruhlanan Heydərəli bildirdi ki, “Karnatikdə ingilislərin kökünü mütləq kəsəcəkdir”.

Bu hadisədən sonra Hindistnada Ost-Hind kompaniyası üçün təhlükəli vəziyyət yarandı. Beynəlxalq vəziyyət də ingilislər üçün əlverişli deyildi. Belə ki, Şimali Amerika müstəmləkələrində ingilis ağalığına qarşı milli-azadlıq müharibəsi, Fransa və Avropadakı bir sıra başqa dövlətlərlə müharibə Britaniya ağalığına qarşı yönəlmişdi. Hindistanda öz mövqeyini bərpa etməyə çalışan Fransanın hakim dairələri Heydərəliyə yardım üçün Hindistana hərbi eskadra göndərdi. Bu eskadra ingilis donanmasına ciddi zərbələr endirdi. Lakin hindlilər əlverişli beynəlxalq vəziyyətdən istifadə etməyə macal tapmamış, beynəlxalq vəziyyət dəyişdi. Şimali Amerikadakı müstəmləkələrin İngiltərənin əlindən çıxması İngiltərə hakim dairələrinin Hindistandakı torpaqlarını qoruyub saxlamaq və genişlətmək məqsədli mövqeyini daha da möhkəmlətdi.

İngiltərə-Fransa müharibəsi Fransanın məğlubiyyəti ilə nəticələndi, 1783-cü ildə və Fransa neytrallıq nümayiş etdirəcəyini, Maysura hərbi yardım göstərməyəcəyini öhdəsinə götürdü.

Amma mütərəqqi hal idi ki, uzun müddətli müstəmləkə rejimi Hindistanın özündə istiqlaliyyət uğrunda fədakar mü-

barizə aparmağa qadir qüvvələr yetişdirmişdi. Lakin təəssüflər olsun ki, milli xəyanət hələ də qaldığına görə bu qüvvələr birləşməmişdi. Müttəfiqlər cəbhəsində sinfi və sülalə mənafeyi üstün yer tuturdu. Bu isə Britaniya müstəmləkəçilərinin "parçala hökmranlıq et" siyasətinin həyata keçirilməsini asanlaşdırırdı. Bununla yanaşı feodal hakimlər istilaçılara qarşı mübarizədə xalq kütlələrinə arxalanmaq istəmirdilər və xalqdan qorxurdular.

Nəhayət, 1782-ci ildə birinci ingilis-maratxa müharibəsi də qurtardı. Salbay müqaviləsi nəticəsində Salsett adası Ost-Hind kompaniyasına verildi. Peşvə taxt-tacına iddia edən bacarıqsız əlaltılar isə böyük təqaüdlə təmin edildi. Maratxa knyazlıqları öz ərazilərində fransız faktoriyalarının təşkilinə yol verməməyi öhdələrinə götürdülər.

Maysur knyazlığı mübarizəni davam etdirməyə cəhd göstərsə də, ingilislərin köməyi ilə daxili irticanın planlı şəkildə təşkil etdiyi qəsd boşa çıxdı. Maysurun istiqlaliyyətinin düşmənləri Heydərəlinin oğlunu xələfi və vəlihədi Sultan titulu ilə taxta əyləşdirdilər. 1782-1799-cu illərdə xarici siyasət sahəsində köhnə xətt davam etdirildi. Lakin ingilislər Hindistan ərazisində heç bir məğlubiyyətlə barışmır, müstəmləkə siyasətini daha da fəallaşdırırdılar. Odur ki, Britaniya qoşunları Maysur ərazisinə yenidən hücum etdi və bu dəfə də onlar xalqın müqavimətini qıra bilmədilər, ingilislər güman etdikləri hərbi uğur əldə edə bilmədi. Mövcud vəziyyətin olduğu kimi saxlanılması razılaşma əsasında 1784-cü ildə Manqalor sülh müqaviləsi ilə nəticələndi. Qastinqs isə bu müqaviləni "ingilislər üçün həqarətli sülh" adlandırmışdı.

## İngilis zülmkarlarına qarşı Hindistan xalqlarının müqavimət hərəkatının güclənməsi

XIX əsrin 70-80-ci illərindəki müharibələr göstərdi ki, Ost-Hind kompaniyasının istilaçılıq planları tədricən məhdudlaşır və getdikcə müqavimət hərəkatı isə yeni mərhələyə daxil olmaqdadır. Hindlilərin düşmənə göstərdiyi şiddətli müqa-

vimət nəticəsində Ost-Hind kompaniyası sürətli qələbə və zəngin qənimət əvəzinə böyük tələfata səbəb olan uzun sürən müharibələr aparmalı oldu. Kompaniyanın başçıları Hindistanda yeni qarət mənbələri axtarırdılar. Ost-Hind kompaniyasının təxribatları və feodal istismarının güclənməsi Benaresdə xalq üsyanına səbəb oldu. Üsyanda kəndlilər, əsgərlər, Benares əhalisinin böyük əksəriyyəti, o cümlədən yerli feodal-zadəganların bir hissəsi də iştirak edirdi. Ost-Hind kompaniyasının qoşunları üsyanı çox böyük qəddarlıqla yatıra bildi. Yalnız bundan sonra Benares knyazlığı Ost-Hind kompaniyasının müstəmləkə torpaqlarına qatıldı. Tədricən ölkədə "ikili idarə" sistemi daha da fəallaşdı.

Xalq narazılıqlarının ifadəsi olaraq 1775-1785-ci illərdə Benqaliyada çoxlu kəndli üsyanları baş verdi. Əlbəttə, bu üsyanlar güclənməkdə olan müstəmləkə və feodal əsarətinə qarşı kəndlilərin kortəbii çıxışları idi. Mübarizə dini şüarlar altında gedirdi. Mübarizəyə Saniyasi[1] dini təriqəti başçılıq edirdi. Bütün bunlara baxmayaraq xalqın yadellilərə qarşı birləşə bilməməsi səbəbindən ingilis müstəmləkəçiləri başlanmış bu milli-azadlıq hərəkatını da qəddarlıqla yatırdılar.

## 1784-cü il Pitti qanununun layihəsi

Ost-Hind kompaniyasının Hindistanda törətdiyi cinayətlər haqqındakı həqiqətlər bəzi maneələrə baxmayaraq hətta İngiltərəyə də gedib çatırdı və bunlar da İngiltərə ictimaiyyətinin müxtəlif dairələrində pislənirdi. Humanizm mövqeyində duran demokratik fikirli ziyalılar, jurnaslistlər qarətkarlıq və zülm siyasətini rüsvayçılıq adlandırır və öz yanlarında onu damğalayırdılar. Ost-Hind kompaniyası ilə əlaqəsi olmayan gənc sənaye burjuaziyası və tacirlər Hindistan ticarətində kompaniyanın inhisarına qarşı mübarizə aparırdılar. Lakin 80-ci illərin ortalarında həm Ost-Hind kompaniyasının ağaları, həm də onlarla əlaqədar olan siyasi və maliyyə oliqarxiyası Qas-

---

[1] Saniyasinin mübarizəsi "Ananda Matx" ("Şənlik iqamətgahı") tarixi romanında təsvir edilmişdir. Romanın müəllifi XIX əsrin ikinci yarısında Benqaliyanın ən böyük yazışısı Çondro Çotopadxyayadır. Üsyan rəhbərinin Ana vətən – "Banda Mataram" şərəfinə mahnısının mətni sonralar Hindistanın istiqlaliyyəti uğrunda mübarizə himni oldu.

tinqsə artıq himayədarlıq etməkdən imtina etdilər. Həmin dairələr Hindistanda Ost-Hind kompaniyasının düşdüyü mürəkkəb vəziyyətdən qorxurdular. Geniş ərazi və zəngin qənimət ələ keçirmək ümidlərini doğrultmayan müharibələrin nəticələri onları məyus etmişdi. Bundan əlavə, Qastinqs başda olmaqla Ost-Hind kompaniyası məmurlarının fırıldaq və qarətləri haqqında müxalifətin ittihamları qətiyyən inkaredilməz idi və bu məlumatlar real faktlara əsaslanırdı. Bütün bunlar Ost-Hind kompaniyası ilə əlaqədar İngiltərənin hakim dairələri içərisində kəskin mübarizə və ixtilaflara səbəb olmuşdu. İngiltərə parlamentində də Hindistanın idarəçilik sistemi ilə əlaqədar ciddi narahatçılıq var idi.

Məhz bu səbəbdən burjua müxalifətinin rəhbəri Foks Nort 1783-cü ildə parlamentə yeni bir qanun layihəsi təqdim etdi. Həmin qanun layihəsi Ost-Hind kompaniyasının işlərini parlament tərəfindən təyin edilən yeddi müvəkkilə, ticarətə rəhbərliyi isə onların doqquz köməkçisinə tapşırmağı təklif edirdi. İcmalar palatası həmin qanun layihəsini təsdiq etsə də, lakin təklif lordlar palatasından keçmədi. Foks-Nortın koalision kabinəsinin istefa verməsinin mühüm səbəbi də bunda idi. Pitt (kiçik) başda olmaqla hakimiyyətə gələn yeni kabinə 1784-cü ildə parlamentdən "Birləşmiş kompaniyanın və Hindistanda olan Britaniya ərazilərinin daha yaxşı idarə edilməsi haqqında" adlı yeni bir layihə təqdim etdi və bu layihə parlamentdən keçirdi.

Pitt qanunu kral tərəfindən təyin olunan altı nəfərdən ibarət Müvəkkillər şurası (yaxud Nəzarət şurası) yaradılmasını nəzərdə tuturdu. Bu qanunda Ost-Hind kompaniyasının Hindistan və Çinlə ticarət inhisarı saxlanılırdı. Kompaniyanın cari işlərini aparmaq və qulluqçular təyin etmək kimi funksiya, bir hüquq Kompaniyasının direktorlar şurasının sərəncamında saxlanılırdı. Qanunun bir sıra maddələri Hindistanda hərbi-polis qüvvəsi olmaq etibarilə Kompaniyanın səlahiyyətlərinin daha da artırılmasına yönəldilmişdi. Nəzarət şurasının sədri, Marksın təbirincə desək, "Hindistanın əsil hökmdarı" nazirlər kabinəsi heyətinə daxil idi, əslində o, Hindistan işləri üzrə nazir idi. Beləliklə, həm Ost-Hind kompaniyası, həm də

Nəzarət şurası vasitəsilə "Hindistanın ikili idarəsi"[1] adlanan bir sistem yaradıldı. Əslində Ost-Hind kompaniyasının fəaliyyəti Nəzarət şurası pərdəsi adı altında iş görən ingilis hökumətinin ixtiyarına verildi.

Foksun qanun layihəsinin tərəfdarı olan müxalifət, layihə müəllifini razı salmaq üçün Qastinqsi general-qubernator vəzifəsindən kənarlaşdırıb məhkəməyə verilməsini tələb etdi və buna nail oldular.

Qastinqsin müəmmalı məhkəmə prosesi 7 il davam etdi. Nəhayət, inkaredilməz dəlillər olmasına baxmayaraq, Qastinqsə bəraət qazandırıldı. Bir qədər sonra Qastinqs ingilis hökumətinin müstəmləkə işləri üzrə ömürlük məsləhətçisi təyin olundu. Oksford universiteti isə Britaniya müstəmləkə sistemini Hindistanda möhkəmləndirdiyinə görə onu rəğbətləndirdi və Qastinqisə hüquq doktoru fəxri adı verdi.

## Hindistanda İngiltərənin irticaçı müstəmləkə siyasəti

Hindistanda İngiltərənin mövqeyini möhkəmlətmək üçün ingilis hökuməti XVIII əsrin 80-ci illərinin axırı və 90-cı illərinin əvvəllərində bir sıra qanunlar qəbul etdi. İnzibati və məhkəmə islahatı keçirildi. Məhkəmə islahatı əsasında yeni məhkəmələr yaradıldı və yeni mühakimə qaydaları qoyuldu ki, bunlar da tamamilə Britaniya ağalığının Hindistanda daha da möhkəmləndirilməsi məqsədi güdürdü. Bu haqda obrazlı şəkildə benqaliyalılar deyirdilər ki, "ingilis məhkəməsi Benqaliya pələngindən də dəhşətlidir". Britaniya müstəmləkəçilərinin zülmkarlığına və qarətçiliyinə qarşı xalq arasında bayatılar qoşurdular, müstəmləkə zülmündən xilas yolunu isə ulu tanrıdan gözləyirdilər. Bununla da onlar ingilis məhkəmələrinə və mülkiyyətlərinə öz mənfi münasibətlərini ifadə etmiş olurdular.

Hindistanda xalqın kütləvi etirazlarına baxmayaraq 1793-cü ildə ingilis hökumət orqanları "Daimi vergi haqqında" və yaxud "Daimi zəmindarlıq haqqında" aqrar qanun qəbul etdi.

[1] Hindistanın "İkili idarə" sistemi 1858-ci ildə Ost-Hind kompaniyası ləğv olunanadək davam etmişdi.

Bu qanun köhnə zadəgan torpaqlarının müsadirə edilməsini və Benqaliya, Bixar və Orissa kəndlilərinin torpaq sahibliyi hüququnun ləğv edilməsini hüquqi cəhətdən rəsmiləşdirdi. Torpaq xüsusi mülkiyyət hüququ əsasında yerli tacirlərə, iltizamçılara və sələmçilərə verilirdi. 1793-cü il qanunu Hindistanda torpağın alver obyektinə çevrilməsini ilk dəfə olaraq rəsmiləşdirdi. Eyni zamanda həmin tədbir orta əsr feodal mülkiyyəti sisteminə zərbə vurmuş oldu. Torpaq alan mülkədar-zəmindarlar Ost-Hind kompaniyasına əvvəlcədən birdəfəlik vergi verməli idilər. İngilislər bunu vegi adlandırsalar da, əslində bu rüşvətin açıq forması idi. Bu tədbir kompaniyanı müntəzəm gəlirlərlə təmin edirdi. Həmçinin bu vergi məbləği çox yüksək idi. Bu məbləğ 1794-cü ildə toplanan verginin 90 faizi həcmində müəyyən edilmişdi. Zəmindarlar öz malikanələrində təsərrüfatla məşğul olmurdular. Onlar torpağı əsarətli şərtlərlə kəndlilərə yardarlığa becərməyə verirdilər. İcarədarlar da öz şərtlərini kəndlilərə qəbul etdirməklə torpağı icarəyə verirdilər. Bundan başqa, çoxlu vergi və mükəlləfiyyət formaları mövcud idi. Odur ki, daimi vergi sistemi yarımfeodal mülkiyyət formalarını və kəndlilərin istismarının yarımfeodal formalarının ağalığını mühafizə edib saxlayırdı. Əslində torpaqların baş mülkiyyətçisi yadellilər, o cümlədən Ost-Hind kompaniyası idi və feodallar onların həmçinin yerli köməkçiləri idi.

K.Marks yazırdı ki, "Biz Benqaliyada ingilis lendlordizmi, İrlandiyada vasitəçilik sistemi, mülkədarı töycü toplayana çevirən Avstriya sistemi və dövləti torpağın əsil mülkiyyətçisi edən Asiya sisteminin digər sistemlərlə qovuşduğunu görürük".

O zamankı aqrar qanunvericiliyin başlıca məqsədi - həmin dövrdə Hindistan xalqının istismarının əsas forması olan torpaq vergisindən maksimum gəlir götürülməsini təmin etmək və daimi zəmindarların simasında Britaniya müstəmləkəçilərinin möhkəm ictimai dayağını yaratmaq idi.

1793-cü ildə qəbul olunmuş qanuna əsasən Hindistanda olan ingilis tacirlərinə Hindistana mal idxal və ixrac etmək icazəsi verildi. Bu qanun bir çox məhdudiyyətlərinə baxmayaraq Hindistandakı az sayda köhnə ingilis ticarət müəssisələrinin möhkəmlənməsinə və yenilərinin yaranmasına səbəb oldu.

## Cənubi Hindistanda Britaniya ağalığının bərqərar edilməsi və İngilis-Maysur müharibələri

Britaniya hökuməti Hindistanın digər əyalətlərində olduğu kimi ölkənin cənub əyalətlərində də ağalıq sistemini gücləndirməyə başladı.

1784-cü ildə qəbul edilmiş Pitti qanununun maddələrindən birində deyilirdi ki, "Hindistanda yeni ərazilər zəbt etmək və bunları genişləndirmək planlarının həyata keçirilməsi ingilis millətinin arzusuna, şərəfinə və siyasətinə ziddir". Amma əslində belə deyildi, torpaq zəbt etmək ingilislərin ən böyük amalı idi. Bununla yanaşı öz siyasətləri, vədləri ilə əməlləri arasında daima uçrum olan, sözləri ilə əməlləri uyğun gəlməyən siyasətləri qılıncdan da iti olan ingilislərin bu qanunu yeni qəsbkarlıq müharibələrinə hazırlıq işini yalnız pərdələmək üçün bir "bəyannamə" idi. İngilislərin sözü ilə əməlləri arasında çoxlu uyğunsuzluq var idi. Odur ki, 90-cı illərdə Britaniya hökumətinin müstəmləkəçilik planlarının reallaşdırılmasında müharibə əsas vasitə olaraq qalırdı. Bu müharibələrdən ən dəhşətlisi Maysura qarşı aparılan müharibə idi.

Belə bir şəraitdə Maysura qəti zərbə vurmağa hazırlaşan Ost-Hind kompaniyası cənubi maratxa knyazlıqları və Heydərabad ilə "müdafiə hücumu" haqqında müqavilə imzaladı və xalqları qarşı-qarşıya qoydu.

Bu dövrdə paralel olaraq 1790-1792-ci illəri əhatə edən üçüncü ingilis-Maysur müharibəsi gedirdi. Müharibənin əvvəllərində ağır zərbələr altında ingilis ordusu geri çəkilməyə məcbur olmuşdu. Lakin, maratxaların 10 minlik ordusunun müharibəyə qoşulması, Ost-Hind kompaniyasının qüvvələrinin üstünlüyünü ingilislərin xeyrinə dəyişdirdi. Xatırladaq ki, maratxalılar Ost-Hind kompaniyası ilə müttəfiq idi. İngilis ordusu Maysurun paytaxtı Serinqapatam şəhərini mühasirəyə alaraq və Tipu-Sultanı sülh müqaviləsi bağlamağa məcbur etdi. 1792-ci il müqaviləsinə görə Maysur öz ərazisinin yarısını itirdi və 33 milyon rupi məbləğində təzminat verməyə məcbur oldu. Lakin bu məğlubiyyətə baxmayaraq, bu dəfə də təzminat ödəmək yolu ilə Maysur öz istiqlaliyyətini qoruyub saxlaya bildi.

Ən başlıcası isə Maysur Cənubi Hindistanda xarici işğalçılara və onların əlaltılarına qarşı mübarizə aparan qüvvələri

özünə cəlb edən mərkəzə çevrildi. Qələbə uğrunda vuruşmaya hazırlaşan Maysur Sultanı həmçinin ingilislərlə ittifaq yaratmağa çalışırdı və ikili siyasət yeridirdi. Bu məqsədlə o, 1796-1798-ci illərdə Heydərabad, Maratxa knyazlıqlarına və Əfqanıstana bir sıra nümayəndəliklər göndərdi. O, Napoleonla əlaqəyə girdi və Napoleon ona hərbi yardım göstərməyi vəd etdi, amma Fransa öz vədinə əməl etmədi.

İlhaq siyasətinin qızğın tərəfdarı olan Fransa inqilabı ideyalarının qəddar düşməni Uelsli 1798-ci ildə Hindistana general-qubernator təyin edildi. O, Maysura qarşı yeni müharibə planı hazırlamağa başladı. Amma daha çevik siyasət yenidən Ost-Hind kompaniyası 1798-ci ildə Heydərabad hakimi ilə yeni müqavilə bağladı. Fransız zabitləri knyazlıqdan qovuldu, qoşunlar isə tərksilah edildi. İngilis zabitlərinin rəhbərliyi altında saxlanılan qoşunun təminatı üçün əyalət haki-mi hər il Ost-Hind kompaniyasına 2,5 milyon rupiyə qədər xərac ödəməyi və xarici siyasətdə ingilislərin məsləhətlərini rəhbər tutmağı öhdəsinə götürdü.

Nəhayət, dördüncü ingilis-Maysur müharibəsi də törədildi ki, bu müharibə 1799-cu ilin fevralından mayınadək davam etdi. Şiddətli küçə vuruşmalarından sonra paytaxt Serinqapatam 1799-cu il mayın 4-də süqut etdi. Maysur-Sultanı döyüşdə həlak oldu.

Ost-Hind kompaniyasının qoşunları paytaxtı darmadağın edib, əhaliyə şiddətli divan tutdular. Heç də tam olmayan məlumata görə, ingilislərin əldə etdiyi qənimət bir milyon funt sterlinqdən çox idi. 1799-cu ilin yayında Ost-Hind kompaniyası Maysur ərazisinin bölüşdürülməsi haqqında müqavilə imzaladı.

Bu məğlubiyyətə baxmayaraq xalq kütlələri hələ də düşmənə qarşı silahı yerə qoymamışdı. Nəhayət, Maysurda Dundia Vaqxın rəhbərliyi altında yeni bir üsyan baş verdi. Üsyan əsasən xarici işğalçılara qarşı çevrilmişdi. İngilis müstəmləkəçiləri bu üsyanı çətinliklə yatırdılar. XIX əsrin əvvəllərində mübarizə yeni mərhələyə daxil oldu. Xalq kütlələrindən qorxan Ost-Hind kompaniyası Maysuru vassal knyazlıq vəziyyətində saxlamağa məcbur olsa da Maysurun əsil ağaları yenə də ingilislər idi.

Müstəqil Maysur dövlətinin məğlub edilməsinin ingilislər üçün böyük əhəmiyyəti var idi. Belə ki, Ost-Hind kompaniyası Hindistanın bütün cənub əraziləri üzərində ağalığını bərpa etmişdi. Hind okeanı sahillərində ən mühüm strateji mövqelər ələ keçirilmişdi. Nəticədə ingilislərlə rəqabət aparan fransızların itirmiş olduğu mövqelərini bərpa etmək planlarına qəti zərbə duruldu.

## XIX əsrin əvvəllərində Hindistanda müstəqil dövlətlər

Aparılan müharibə nəticəsində İngiltərə Maysuru məğlub etməklə hələlik yalnız bir güclü rəqibini və yerli düşmənini mübarizə meydanından çıxarmış oldu. Bu hadisədən sonra müstəmləkəçilərə qarşı mübarizə aparmaq siqx monarxiyası və maratxa konfederasiyasının üzərinə düşürdü. XVIII əsrin axırı və XIX əsrin əvvəllərində siqx feodallarının daxili mübarizəsi Pəncabın birləşdirilməsi və Siqx dövlətinin yaranması ilə nəticələndi. Siqx dövlətinin yaradıcısı, o dövrdə Hindistanın görkəmli dövlət xadimlərindən biri olan Rəncit Sinq regionda liderə çevrildi. Amma Rəncit Sinqin, Sətləc çayının o biri tərəfindəki yerləri birləşdirmək səyləri ingilis hökumət orqanlarının müqaviməti nəticəsində baş tutmadı. Sağ sahildəki feodalların separatçı çıxışlarından ehtiyat edən Pəncab hökmdarı 1809-cu ilin aprelində ingilislərlə Amritsar müqaviləsi imzalamağa məcbur oldu. Bu müqaviləyə görə Sətləc çayı Ost-Hind kompaniyası torpaqları arasında sərhəd müəyyən edildi.

XIX əsrin 20-ci illərində Siqx dövlətinin şimalda və şimal-qərbdə apardığı müharibələr nəticəsində Kəşmir, Peşavər və başqa vilayətlər Siqx dövlətinə birləşdirildi.

Birləşmiş Pəncab ərazisində mühüm islahatlar keçirildi. Kəndlilərdən vergi yığılması işi qaydaya salındı, yerli feodalların özbaşınalığına son qoyuldu. Mərkəzi hökumətin əsas silahlı qüvvəsinin sayı qırx min nəfərlik döyüşkən ordudan ibarət oldu.

Əlbəttə, müstəmləkəçilər gənc dövlətin gücünü və xalqın müstəmləkəçilərə qarşı barışmazlığını bilirdilər. Onlar Rəncit Sinqin ordusu ilə silahlı toqquşmaya girməyi hələlik əlverişli hesab etməyərək, Pəncabı işğal etmək planını hələlik təxirə salırdılar.

Ost-Hind kompaniyası öz hərbi qüvvələrini pərakəndə halına salmamaq üçün hələlik yalnız qərbdə maratxa konfederasiyası ilə döyüş aparırdı. Belə bir şəraitdə ölkədə üzücü vergi siyasəti nəticəsində Maxaraştrada feodal knyazlıqlarının iqtisadiyyatı zəifləmişdi. Kənddə sələmçilərin soyğunçuluğu artmışdı. Minlərlə müflisləşmiş kəndli öz doğma yurdunu tərk edib səfillərə çevrilirdi. Bunlar pindari adlanan silahlı dəstələrin sıralarına daxil olurdular. Pindarilərin öz rəhbərləri var idi və çox zaman onlar Maratxa feodallarının qoşunlarının hərbi yürüşlərində iştirak edirdilər.

Zəifləməsinə və pərakəndəliyinə baxmayaraq, Maratxa knyazlıqları konfederasiyası Hindistanda hələ də ingilislərin möhkəmlənməsinə qarşı müqavimət mərkəzi idi.

## İngilis-maratxa müharibələri

XIX əsrin əvvəllərində Ost-Hind kompaniyasının işğalçılıq siyasəti olduqca fəallaşdırıldı. Feodal knyazlıqlarını tabe etmək alətlərindən biri subsidiar sistem idi. Kompaniya, feodal knyazları bir sıra müqavilələr bağlamağa məcbur etdi. Bu müqavilələrə əsasən həmin knyazlıqların ərazisində ingilis zabitlərinin komandanlığı altında hərbi dəstələr yaradılması və hərbi xərcləri həmin knyazlıqların büdcəsi hesabına ödəmək nəzərdə tutulurdu. Knyazlıqlar bir sıra hüquqlardan məhrum edilir və Ost-Hind kompaniyasının vassalına çevrilirdilər. Heydərabad knyazlığı ilə 1800-cü ildə, Audla 1801-ci ildə və başqa knyazlıqlarla bağlanan müqavilələr bilavasitə bu məkrli siyasətə xidmət edirdi.

Hindistanda vətəndaş həmrəyliyini pozan Ost-Hind kompaniyası maratxalar arasında nifaq salır, milli qırğınlar törədirdi. Nəhayət, Peşvə ilə bağlanan müqaviləyə əsasən Kompaniya maratxaların xarici siyasətini öz nəzarətinə aldı. Bu müqaviləyə əsasən ingilislərin böyük bir hərbi dəstəsi Peşvənin ərazisinin keşiyini çəkməli idi. Bunun müqabilində ümumi vergi məbləği 2 milyon 600 min rupi təşkil edir və mahallar Kompaniyanın ixtiyarına keçirdi. Eyni zamanda maratxaların hərəkat birliyini zəiflətməyə çalışan müstəmləkəçi-

lər həmin müqaviləyə konfederasiyanın ləğv edilməsi haqqında maddə daxil etməyə müvəffq oldular.

1802-ci ildə bağlanmış müqavilənin qeyri-bərabər xarakterdə olması ən iri maratxa knyazlıqlarının, o cümlədən İndorun və Qvaliorun müqavimətinə səbəb oldu. Beləliklə, uzun sürən ingilis-maratxa müharibələri başlandı. 1802-1805-ci illərdə ikinci ingilis-maratxa müharibəsində ingilis qoşunları maratxa knyazlarını xalqdan və müttəfiqlərdən təcrid etməklə təkbətək məğlub etməyə müvəffəq oldular.

Bağlanmış müqavilələrə əsasən Qərbi, Mərkəzi və Şimali Hindistanda bir çox yerlər Kompaniyanın ixtiyarına keçdi. Moğol imperiyasının paytaxtı Dehli şəhəri də işğal edildi. Kompaniyanın ağalığını qanuniləşdirmək üçün ingilislər Böyük Moğol sülaləsini qeyri-səmimim bərpa edib bildirdilər ki, Ost-Hind kompaniyası ölkəni bu sülalənin tapşırığı ilə idarə edir. Bununla da ingilislər işğala bəraət qazandırırdılar.

Lakin darmadağın edilmiş maratxa knyazlıqları hələ də müqavimət göstərməkdə davam edirdi. Mübarizənin sonrakı mərhələsi əhalinin daha geniş təbəqələrinin mübarizəyə qoşulması ilə nəticələndi. Bir növ azad kəndli dəstələri olan pindarilər müstəmləkəçilərə qarşı barışmaz idilər. Onlar kompaniyanın və onun vassallarının ərazisinə basqınlar edirdi. Bu basqınlar 1816-1817-ci illərdə geniş vüsət almışdı. Pindarilər partizan mübarizə üsullarından geniş istifadə edirdilər. Bu zaman İngilis komandanlığının sərəncamında olan qoşunların sayı 120 min nəfərə çatırdı. 1817-1818-ci illərdəki hərbi əməliyyatların gedişində ingilis qoşunları pindarilərin əsas dəstələrini məğlub edə bildilər. 1818-ci ildə bağlanan müqaviləyə əsasən maratxa knyazlıqları Kompaniyadan tam asılı vəziyyətə düşdü. Hətta bir sıra inzibati mərkəzlər, o cümlədən tarixi əhəmiyyət kəsb edən strateji mərkəz rolunu oynayan bir sıra inzibati ərazilər ləğv edildi.

Maratxa konfederasiyası tamamilə dağıldı və yalnız ingilislərin tabeliyində olan zəif vassal knyazlıqlar qalmışdı. Müstəmləkəçilərin qələbəsi Maxaraştranın müstəqil iqtisadi, siyasi və ictimai inkişafını pozdu və maratxaların birləşib müstəqil millət halında təşəkkülünü xeyli ləngitdi. Nəticədə Hindistan əsas etibarilə işğal edilərək müstəmləkə əyalətinə çevrildi.

## XIX əsrin I yarısında Hindistanın iqtisadi vəziyyəti

Müstəmləkəçilərin işğal etdikləri ərazilərdə XIX əsrin əvvəllərində müstəmləkəçilərin qarətçiliyi sürətlə artır, bu isə iqtisadi tənəzzülə səbəb olurdu. Suvarma işlərinə Ost-Hind kompaniyasının tamamilə etinasız yanaşması nəticəsində kəndlərdə məhsuldar qüvvələr sıradan çıxırdı. Proteksiya qaydasında idarəçilik sistemi milli ədavətin baş qaldırmasına zəmin hazırlayırdı. Yerli xalqda müstəmləkəçilərlə, istismarçılara qarşı qəzəb və nifrət artırdı.

Əmtəə-pul münasibətlərinin sürətlə kəndə yayılması natural təsərrüfatı pozur və iflic vəziyyətinə salırdı. Bununla yanaşı kəndlilər üzərindəki feodal istismarı və sələmçilik əsarəti qüvvətlənirdi. İcmalar və sənətkarlıq birlikləri sürətlə dağılırdı. Hindistan sənət və ev əşyaları malları ixrac edən bir ölkədən, sürətlə ingilis malları üçün satış bazarına çevrilirdi. İngiltərə 1814-cü ildə Hindistana 818 min yard (1yard = 0,91 metrə bərabərdir) pambıq parça gətirmişdisə, 1835-ci ildə bunun həcmi 51777 min yarda çatmışdı. Həmin dövr ərzində Hindistandan ixrac olunan parçanın miqdarı isə 1 milyon 266 min yarddan 306 min yarda enmişdi.

Həmçinin İngiltərədə sənaye çevrilişinin başa çatması Britaniya müstəmləkələrində, o cümlədən Hindistanda da istismarın yeni forma və üsullarını müəyyən etdi. Hindistan ingilis sənaye burjuaziyasının mənafeyinə uyğun olaraq ingilis mallarının satış bazarına, metropoliyanın xammal və ərzaq bazasına çevrilməyə başladı. Beləliklə, müstəmləkə şəraitində olan bu ölkədə iqtisadi tənəzzül daha da dərinləşdi.

## Ost-Hind kompaniyasının aqrar siyasəti. Bentinkin islahatları

XIX əsrin birinci rübündə işğal edilmiş yerlərdə ingilis hökumət orqanları daimi zəmindarlıqdan fərqlənən torpaq-vergi sistemi tətbiq etdilər. Bombey və Mədrəs əyalətlərinin şimal hissəsində, birləşmiş və mərkəzi əyalətlərin əksər regionlarında Ost-Hind kompaniyası müvəqqəti zəmindarlıq sistemi yaratdı. Eyni zamanda bu yerlərdə iri mülkədar torpaq

sahibliyi də saxlanıldı. Zəmindarın verdiyi verginin məbləğinə hər 30 ildən bir yenidən baxılmalı idi. Amma faktiki olaraq vergi məbləğinə tez-tez və həm də ən çox məhsul götürülən illərdə yenidən baxılırdı. Torpaqdan götürülən gəlirin çox hissəsi müstəmləkəçilərin əlinə keçirdi və onlar varlandıqca istismarı gücləndirirdilər, gücləndikcə daha da qəddarlaşırdılar.

Bu dövrdə Mədrəs və Bombey əyalətləri ərazisinin çox hissəsində rəiyyətvari sistemi tətbiq edildi. Rəiyyətvari sisteminə əsasən Ost-Hind kompaniyası öz vergi aparatı vasitəsilə torpağı kiçik sahələrlə müddətsiz icarə hüququ şəklində kəndlilərə icarəyə verirdi. Hər il bir dəfə vergi günü təyin olunurdu. Torpaqdan məhsulun 50 faizi miqdarında, suvarılan torpaqlardan isə 75 faizi miqdarında vergi alınırdı. Yeni aqrar sistemin tətbiq edilməsi onunla əlaqədar idi ki, cənub kəndlilərinə daimi vergi sistemini qəbul etdirmək təşəbbüsü müqavimətə rast gəlir və bəzi yerlərdə məsəslən, Koimbaturda bu müqavimət kortəbii kəndli çıxışlarına çevrilirdi. Zəmindarlıq sistemində kəndlilər əslində torpağa təhkim edilir və yarımtəhkimli asılılığa düşürdülər ki, bu da onlarda qəzəb oyadır, milli-azadlıq hərəkatını gündən-günə sürətləndirməkdə idi.

XIX əsrin 20-ci illərində Ost-Hind kompaniyası öz mövqeyini o qədər möhkəmlətmiş və o dərəcədə geniş inzibati idarə aparatı yaratmışdı ki, ingilislər zəmindarın vasitəçiliyi olmadan da vergi toplamaq işini öz əlinə ala bilərdi. Eyni zamanda zəmindar vasitəçinin aradan çıxarılması ingilislərə böyük mənfəət gətirirdi. Yeni sistem bilavasitə istehsalçını metropoliyaya lazım olan kənd təsərrüfatı bitkiləri becərtməyi asanlaşdıran daha hiyləgər bir sistem idi. Rəiyyətvari sistem kənddə feodal əlaqələrini ləğv etmirdi. Aydın məsələ idi ki, Ost-Hind kompaniyası həmin rayonlarda torpağın bir növ yarımfeodal mülkiyyətçisinə çevrilirdi.

Hindistanda Britaniya müstəmləkə sistemi möhkəmləndiriləndən sonra ingilislər aqrar sahədə, o cümlədən vergi sistemində öz maraqlarına uyğun dəyişiklik etdilər. Yeni torpaq-vergi sistemi tətbiq edilməsi nəticəsində Britaniya Hindistanın sahələrinin 50 faizi rəiyyətvari sistemi, 30 faizi müvəqqəti zəmindarlıq və yalnız 19 faizi daimi zəmindarlıq sistemi rayonlarına çevrilmiş oldu. Bu haqda K.Marks ingilislərin aq-

rar siyasətinin xarakterini təhlil edərək yazırdı ki, "Hər hansı xalqın bir sıra müvəffəqiyyətsiz, həqiqətən mənasız və işdə biabırçı iqtisadi eksperimentlərdən ibarət bir tarixi varsa, o da məhz ingilislərin Hindistanda ağalığından ibarətdir. Benqaliyada onlar ingilis iri torpaq sahibliyinin karikaturasını, Cənub-Şərqi Hindistanda parsel mülkiyyətinin karikaturasını yaratmışlar. Şimal-qərbdə onlar icma torpaq sahibliyi ilə birlikdə hind iqtisadi icmasını özlərindən asılı olduğu dərəcədə onun karikaturasına çevirmişlər"[1].

Hindistanı ingilis mallarının satış bazarına çevirməyi asanlaşdırmaq üçün Ost-Hind kompaniyası Bentinkin general-qubernatorluğu dövründə (1828-1835) vahid ölçü və çəki sistemi, vahid pul sistemi tətbiq etdi, Kəlküttə-Dehli şosse yolunu çəkməyə başladı. Hindistanın şimal-qərb torpaqlarının işğal edilməsinə hazırlıq planı ilə əlaqədar ölkənin iqtisadi rayonlarına və müxtəlif əyalətlərə yollar çəkilməsinə başlanıldı. İqtisadi cəhətdən isə bu tədbir ölkənin daxili rayonlarına ingilis mallarının daşınmasını asanlaşdırmaq və xammal ixracına kömək etmək məqsədi güdürdü. Eyni zamanda XIX əsrin 30-cu illərində ingilislər ilk dəfə olaraq şəkər qamışı, pambıq plantasiyaları yaratmağa başladı. Bunun nəticəsində kənd təsərrüfatı xammalının ixracı xeyli artdı. Beləliklə, bunun nəticəsi olaraq 1833-cü ildə, 14,5 min ton, 1844-cü il-də isə 40 min ton pambıq ixrac edilmişdi. Britaniya hökuməti bütün gəlir mənbələrini öz əlinə almaq üçün 1833-cü il qanunu ilə Ost-Hind kompaniyasının ticarət hüququnu tamamilə ləğv etdi. Lakin yenidən taktika dəyişdi və müstəmləkə hakimiyyətinin inzibati-siyasi və hərbi-polis aparatı olmaq etibarilə Kompaniyanı gücləndirən bir sıra qanunlar həyata keçirildi.

## XIX əsrin 20-30-cu illərində ümumxalq hərəkatı və maarifpərvərlik

Britaniya imperalistləri tərəfindən Hindistanın istilasının gücləndirilməsi və istismarının artması, müstəmləkə zülmünün yeni formaları xalq kütlələrinin kortəbii müqavimətinə səbəb olurdu. Ən güclü çıxışlardan biri də Hindistanda vəliullahilərin-vahabilərin hərəkatı idi. Onların mübarizəsinin əsas

[1] K.Marks. Kapital, III cild, birinci hissə, Bakı, 1960, səh 343, qeyd.

istiqaməti feodal zülmünə və eyni zamanda ingilis əsarətinə qarşı yönəlmişdi. Digər vilayətlərlə yanaşı Benqaliyada vahabilərin rəhbərliyi altında kəndlilərin və sənətkarların mübarizəsi 1831-ci ildə silahlı üsyana çevrildi. Kəlküttənin şimal və şərqində olan vilayətləri bürüyən bu hərəkata Titu Miyyan başçılıq edirdi. Üsyançılar bu regionda ingilis ağalığının ləğv edildiyini və "ədalətli dövlət" yaradıldığını elan etdilər, əmlak birliyi qaydası müəyyənləşdirildi. Üsyanın antifeodal mahiyyəti istismarçı müsəlmanlara və qismən hindulara qarşı mübarizədə özünü göstərdi. Yerli hökumət orqanları üsyançıların öhdəsindən gələ bilmirdilər. Yalnız ingilis-hind nizami qoşunlarından ibarət və üçüncü dəfə göndərilən cəza dəstələri üsyançıların müqavimətini qıra bildi. Vahabilər hərəkatının nisbətən fəal cərəyanının mərkəzi Pətnə şəhəri idi. Buradakı hərəkatın rəhbərləri Hindistanın bir sıra əyalətlərində və feodal knyazlıqlarında olan öz həmfikirləri ilə əlaqə yaratmışdılar.

Hindistanın Maysur əyalətində xalq narazılığı hələ XIX əsrin birinci yarısında başlanmışdı. Bununla əlaqədar 1830-cu ildə Maysurda kəndlilərin üsyanı başlanmışdı. Kəndlilər silahlanaraq ingilislərin əlaltısı olan Maysur knyazına qarşı çıxış etdilər və bir çox əyalətlərdən buradakı idarə məmurlarını qovdular. Silahlı mübarizə 1831-ci ilin ortalarına qədər davam etdi. Üsyan ingilis qoşunlarının yardımı və yerli əlaltıların satqınlığı nəticəsində yatırıldı. Nəticədə Maysur knyazlığı Ost-Hind kompaniyasının idarəsi altına keçdi.

Üsyançılara qarşı növbəti hücum zamanı ingilislərə Malabar sahilində mopla kəndliləri də müqavimət göstərdilər. Onlar ərəbistanlıların sələflərindən, habelə islamı qəbul etmiş yerli əhalidən ibarət idi. Bu rayonda mülkədarlar və istismarçı təbəqə əsasən hindulardan ibarət idi. Bir müddətdən sonra antifeodal xarakterli üsyan siyasi mahiyyətini dəyişdi və dini xarakter aldı, mübarizə gedişində üsyan ingilislərə qarşı çevrildi. Müstəmləkəçilər çox çətinliklə bu üsyanı da müvəqqəti olaraq yatıra bildilər.

Əlbəttə, XIX əsrin əvvəllərindəki bu üsyanlar kortəbii və pərakəndə xalq çıxışları idi. Amma təəsüf ki, irtica güclü, vətəndaş həmrəyliyi isə zəif idi. Bu amil isə Ost-Hind kompaniyasının üsyanları yatırmasına kömək edirdi.

Lakin ümidverici hal ondan ibarət idi ki, nəhəng ölkə olan Hindistanda əzilən xalqın ziyalı təbəqələri də antiinqilab mövqeyində formalaşmaqda yetişməkdə idi. Beləliklə, ölkənin iqtisadiyyatındakı dəyişikliklər mülkədar və kompradortacirlər içərisindən ziyalı kadrlarının yetişməsinə səbəb oldu. Öz ictimai vəziyyəti və qulluğuna görə ingilislərlə əlaqədar olan bu ziyalı kadrlar əcnəbi ağaların köməyi ilə Avropa mədəniyyətini Hindistana yaymaq ümidində idilər. Öz dövrünün qabaqcıl adamları olan bu ziyalılar ən vəhşi orta əsr qalıqlarına qarşı çıxır, maarifi yaymağa çalışırdılar. Bu qrupun ən görkəmli nümayəndələrindən və maarifçiliyin təşəbbüsçülərindən biri Ram Moxan Roy idi (1772-1833). O, özünün ideologiyasını yaratmaqla, davamçılarını da hazırladı.

Xalqın, xüsusilə gənclərin maariflənməsi olduqca zəruri idi. Ona görə ki, bu şüurlu mübarizəyə gəncləri cəlb etmədən müstəmləkəçilərə qalib gəlmək mümkün deyildi.

## Hindistanın istilasının başa çatdırılması, İngilis-siqx müharibələri

XIX əsrin 40-cı illərində Hindistanın müstəqil dövlətlərinə, yəni knyazlıqlarına qarşı ingilis işğalçılarının yeni hücumu başlandı. Əsas zərbə Pəncaba qarşı yönəldilmişdi. Rəncit Sinqin vəfatından sonra (1839) ölkədə siyasi vəziyyət daha da gərginləşdi. Bu hadisədən istifadə edən iri feodallar mərkəzi hakimiyyətdən ayrılmağa çalışırdılar. Taxt-tac uğrunda mübarizə yeni mərhələyə daxil oldu. İngilislər bu hadisədən, yəni siyasi pərakəndlikdən istifadə etmək üçün məqam gözləyirdilər. Bu dövrdə Pəncabda istiqlaliyyət arzularının əsas ifadəçisi siqx ordusu idi. Siqx ordusunun əsgərləri 1841-ci ildə ən mənfur komandirlərə və feodallara divan tutaraq, əslində hakimiyyəti öz əllərinə aldılar. Hər bir hərbi hissədə əsgər şuraları (pəncayatlar) yaradılmışdı. Bu işdə Lahor şurası xüsusilə böyük rol oyna-yırdı. İri feodallardan ibarət olan hökumət tamamilə ordudan asılı idi. Geniş xalq kütləsi pəncayatların tərəfinə keçirdilər.

Əfqanıstanla həmsərhəd olan Pəncabda müstəmləkəçilər ciddi surətdə narahat idilər. Onlar bəzi iri feodallarla əlaqəyə

girir, başlanmış hərəkatı zəiflətməyə çalışırdılar. Feodallar isə ordunun iştirak etdiyi xalq hərəkatının inkişafından qorxur və ingilislərin yardımı ilə üsyançılara divan tutmağa çalışırdı. Beləliklə, müstəmləkəçilərlə iri feodalların xalqa qarşı mürtəce fəaliyyət birliyi yarandı.

1845-1846-cı illərdə baş vermiş birinci ingilis-siqx müharibəsi dövründə Pəncab ordusunun son dərəcə qəhrəmanlığı və mətanətli olduğu bir daha nümayiş etdirildi. Döyüşlərin ilk mərhələsində öz baş komandirlərinin xəyanətinə baxmayaraq əsgərlər müstəmləkəçilərin ordusunu dəhşətli məğlubiyyətə uğratdılar. 1846-cı ilin fevralında Sobraun yaxınlığında qəti vuruşma oldu. Nəticə etibarilə bu vuruşmanın müqəddəratını yenə də xəyanət həll etmiş oldu. İngilislərin baş komandanı əməliyyat planı hazırlayarkən siqx qoşunlarının yerləşdiyini göstərən xəritə onun əlinə keçdi. Bəzi məxfi məlumatları isə casuslar ingilislərə çatdırmışdılar. Az sonra Pəncabın paytaxtı Lahor şəhəri tamamilə işğal edildi. 1846- cı ilin mart ayında bağlanan Lahor sülh müqaviləsinə görə ingilislər 1,5 milyon funt sterlinq təzminat aldılar və siqx ordusu xeyli azaldıldı. Eyni zamanda hərbi cəhətdən böyük strateji əhəmiyyəti olan Beynəlnəhr və Calandharın zəngin ərazisi Ost-Hind kompaniyasının ixtiyarına keçdi. Kompaniya alacağı təzminat əvəzinə Kəşmir torpaqlarını ilhaq etməyə "razı oldu". Tezliklə bu geniş knyazlıq bir milyon funt sterlinqə Camma knyazlığının hakimi Qulyab Sinqə satıldı.

Lahor müqaviləsinin əsarətli şərtləri, habelə Ost-Hind kompaniyasına yerli feodallar tərəfindən yardım göstərilməsi, qəddar müstəmləkəçilik siyasəti, Pəncab əhalisinin haqlı narazılığına səbəb oldu. Əcnəbilərin əsarətinə və talançılıq siyasətinə qarşı hər yerdə müqavimət hərəkatı qüvvətlənirdi. 1848-ci ilin əvvəllərində Multanda ingilislərə qarşı üsyan baş verdi. Bu üsyan dərhal bütün Pəncabda rəğbətlə qarşılandı. Azaldılmış, lakin heç də öz döyüş qabiliyyətini itirməmiş siqx ordusu yenidən silahlı mübarizəyə başladı. Lakin 1848-ci ilin fevralında Hücərat yaxınlığındakı vuruşmada ingilis qoşunları siqxləri qəti məğlubiyyətə uğrada bildi. 1849-cu ilin martında Ost-Hind kompaniyası Pəncabın ilhaq olunduğunu elan etdi.

Yeni xalq çıxışlarından qorxan və Pəncabın Əfqanıstana yaxın olmasını nəzərə alan müstəmləkəçilər Pəncabda ehtiyatlı siyasət yeritməli oldular. Xatırladaq ki, Britaniya hökumətinin vergi siyasəti xalqı acınacaqlı vəziyyətə salmışdı. Odur ki, xalq hərəkatı bir-birini əvəz edirdi. Yeni xalq çıxışlarından ehtiyat edən müstəmləkəçilər burada kəndlilər üzərinə Hindistanın digər yerlərində olduğu qədər yüksək vergi qoymurdular. İngilislər maliyyə-vergi siyasətinin təşkilatçısı olan kənd icmasını saxlayırdı. Çəmənliklər və otlaq yerləri icmanın ixtiyarında qalırdı. Bununla bərabər, yeni çıxışlardan qorxan Ost-Hind kompaniyası öz şimal-qərb sərhədlərini möhkəmlədərək, burada çoxlu qoşun yerləşdirməyə başlamışdı. Ost-Hind kompaniyası Pəncabı ilhaq etməklə demək olar ki, bəzi istisnalar nəzərə alınmazsa Hindistan ərazisinin işğalını başa çatdırmış oldu.

## 1857-1859-cu illərdəki xalq azadlıq hərəkatı

Artıq XIX əsrin 50-ci illərində Hindistan sürətlə metropoliyanın aqrar-xammal əlavəsinə çevrilməkdə idi. Bu siyasəti hər vasitəsilə həyata keçirən general-qubernator lord Dalxuz idi.

İngilis müstəmləkəçiləri Hindistanda çevik idarəçiliyə nail olmaq üçün 1853-cü ildə dəmiryol çəkilməsinə başladı. 1854-cü ildə ilk cüt fabriki açıldı. Bu dövrdən etibarən Hindistanda sənaye tədriclə inkişaf etməyə başladı. Britaniya hökumət orqanları yarımasılı hind knyazlıqlarını tamamilə özlərinə tabe etmək üçün tədbirlər görürdü. 1853-cü ildə Cxansi və Berar knyazlıqları Kompaniyanın torpaqlarına birləşdirildi və 1856-cı ildə Aud ilhaq olundu, bu regionlarda qəddar ingilis idarəçilik sistemi tətbiq edildi.

Digər ərazilərlə yanaşı Pəncabın ilhaqı ilə 1849-cu ildə Kompaniya Hindistanın bütün müstəqil dövlətlərini özünə tabe etdi. Bu vaxtdan etibarən Britaniya hökumətinin Hindistanda böyük ordu saxlamağa ehtiyac qalmadı. İngilis-hind birləşmiş ordusunun hərbi hissələri Hindistandan kənar yerlərə, Birmaya, Əfqanıstana yürüşə göndərildi, hindli sipahi-əsgərlərin müxtəlif imtiyazları ləğv edildi. Ordu müstəmləkəçilərin hərbi güc vasitələrindən ingilislərə xidmət göstərən işçi qüvvəsinə çevrilirdi. Ölkədə ağır müstəmləkə şərtləri,

yerli əhali üzərindəki istismarın qüvvətlənməsi əhalini işğalçılara qarşı silahlı mübarizəyə sövq edirdi. Kəndlilər və xırda sənətkarlarla yanaşı bəzi knyazlar və feodalların da mənafelərinə toxunulduğuna görə onlar mövcud idarəçilikdən, ümumiyyətlə ölkədəki vəziyyətdən narazı idilər.

Hələ 1857-1859-cu illərdəki milli-azadlıq üsyanı ərəfəsində baş verən bir sıra xalq çıxışları böyük bir üsyanın yaxınlaşmasından xəbər verirdi. Belə çıxışlardan biri də santalların üsyanı idi. 1855-ci ilin ortalarında baş verən bu üsyan həm ingilislərin əlaltısı olan yerli zəmindarlara, həm də müstəmləkəçilərin özünə qarşı çevrilmişdi. Santal-kəndlilər Benqaliya ərazisinin bir hissəsindən əcnəbi ağaları qovdular və Kəlküttənin özünə də təhlükə yaratdılar. Bu mübarizəyə əsasən yoxsul kəndlilər, sənətkarlar və Benqaliyanın məzlum əhalisinin başqa təbəqələri də qoşulmuşdular. Onlar partizan müharibəsi üsullarından müvəffəqiyyətlə istifadə edirdilər. Nəhayət, ingilislər yalnız çoxlu yeni qüvvə işə salmaqla xalq müqavimətinə divan tuta bildilər. 1857-ci ildə hərəkat yatırıldı. Mopla kəndliləri və vahabilər müqavimət göstərməkdə davam edirdi. Bununla yanaşı 1857-1859-cu illərdəki böyük xalq üsyanı təsadüfi bir hadisə deyildi, bu üsyan xalq kütlələrinin əvvəlki mübarizəsi və illərlə toplanan nifrətin qəzəbi nəticəsində hazırlanmışdı.

Sipahi alaylarında açıq, narazılıq 1857-ci ilin yanvar-fevral aylarında başlandı. Sipahilər yeni patron işlədilməsinə etiraz etdilər. Onlar güman edirdi ki, bu patronların büküldüyü qabıq inək və ya donuz piyi ilə yağlanmışdır. Bu patronlar işlədilərkən, patronların qabığını dişlə qoparmaq lazım gəlirdi. Xatırladaq ki, indus mənşəli əsgərlər inək piyini, müsəlman mənşəli əsgərlər isə donuz piyini haram bilirdilər. Patron məsələsi narazılığın aşkara çıxması üçün yalnız bir bəhanə oldu. Çox incə məsələ olan dini etiqad olduqca məsuliyyətli iş idi. Əsgərlər köhnə patronları da qəbul etməkdən boyun qaçırırdılar. Paralel olaraq müxtəlif alaylarda ingilislərə qarşı gizli çıxış hazırlanırdı. Çıxışa hazırlıqda şəhər əhalisinin də iştirak etdiyinə dair məlumatlar var idi. Bəzi feodallar, o cümlədən, Nana Sahib, moğol imperatorlarının son

nümayəndəsi II Bahadır şahın yaxın adamları, Cxansi knyazının dul qadını və başqaları da yaranmış vəziyyətdən çıxış yolu axtarırdılar və Britaniya müstəmləkəçilərinə nifrət bəsləyir, gələcəkdə baş verəcək milli-azadlıq mübarizəsinə hazırlaşırdılar.

Üsyanın ilk "təkanı" və kütləvi hal alması 1857-ci il mayın 10-da Mirutda yerləşən sipahi alaylarında başladı. Yerli əhali əsgərlərə kömək edir, gənc əsgərləri döyüşə ruhlandırırdılar. Milli üsyan nəticəsində Mirut rayonunda ingilis ağalığı dərhal ləğv edildi. Mirutdan üsyançılar Hindistanın qədim paytaxtı Dehliyə yürüş etdilər. İngilislər burada guya bu yaxınlarda qayda-qanunu möhkəmlətmişdilər. Keçmişdə qüdrətli Böyük Moğol sülaləsinin Kompaniyadan təqaüd alan xələfi II Bahadır şah burada yaşayırdı. Nəticədə Dehli qarnizonunun alayları və yerli əhali də üsyançılara qoşuldu. Bahadır şah da üsyana qoşulanlar sırasında idi və Hindistanın imperatoru elan edildi. Dehli müstəmləkəçilərdən təmizləndi. İngilislərə qarşı çıxışın başlanması xəbəri tezliklə ölkənin geniş ərazisinə, müxtəlif əyalətlərə yayıldı. Tezliklə üsyan bütün Şimali Hindistanı bürüdü. Üsyanı yatırmaq üçün ingilis komandanlığı dərhal bir sıra tədbirlər gördü, ən mühüm strateji məntəqələrə qoşun toplandı, Çinə göndərilən polklar Hindistana qaytarıldı, bəzi hind feodallarının üsyançılar tərəfinə keçməsinin qarşısını almaq üçün tədbirlər görüldü.

Hindistanda üsyançıların əsas mərkəzləri hələlik Dehli, Aud, Mirut, Chansi və Kanpur rayonları idi. Üsyançıların ən böyük hərbi birləşmələri bu yerlərdə toplaşmışdı. Üsyançılar dərhal bu rayonlarda yerli dövlət özünüidarə orqanlarının özəyini yaratmağa çalışırdılar və buna tədricən nail olurdular.

Dehli şəhərinin müdafiə mövqeyini möhkəmlətmək və yaxın rayonların əhalisi ilə əlaqə yaratmaq üçün tədbirlər görüldü. Üsyançıların əsas idarəçilik orqanı Şura idi. Şura əsasən sipahi polklarının zabitlərindən ibarət idi. İngilis qoşunlarının sabiq zabiti, vahabilərdən olan Baxtı Xan Şurada son dərəcə fəal rol oynayırdı. Şuranın nöqsanı bunda idi ki, mülki əhali ilə kifayət qədər əlaqəsi yox idi. Şura həm hərbi əməliyyata, həm də ingilislərdən azad edilmiş yerlərdə mülki işlərə

rəhbərlik edirdi. Şura geniş izahlı müraciətləri, müstəmləkəçilərə qarşı mübarizə aparmağa çağıran intibahnamələri ölkənin müxtəlif regionlarına, xüsusilə yoxsul regionlara göndərirdi. Hindlilərlə müsəlmanlar arasında hərəkət birliyi yaradılmasına böyük diqqət verilirdi. Şahın və onun yaxın adamlarının tərəddüd göstərdiyini görən Şura bütün hakimiyyəti öz əlində təmərküzləşdirdi. Şahın 9 avqust tarixli fərmanına əsasən kəndlilərdən və yerli şəhər əhalisindən vergi toplanması Şuranın ixtiyarına keçdi. Lakin üsyançılar cəbhəsində mühüm nöqsanlar da var idi. Belə ki, qoşun içərisində lazımi intizam yox idi. Ölkənin başqa rayonları ilə kifayət qədər əlaqə yaradılmamışdı. Bahadır şahın özü kimi, onu əhatə edən feodallar da, əslində milli azadlıq hərəkatının müqəddəs işinə xəyanət edirdilər. Britaniya hökuməti Sipahilər hərəkatı daxilində nifaq salmaq üçün muzdlu casusları orada yerləşdirməyə nail olmuşdu. İngilislər üsyanın yatırılması üçün yeni qüvvələr gələnə qədər vaxt qazanmağa çalışırdılar.

Odur ki, sentyabra qədər ingilis komandanlığı Dehli ətrafında xeyli qüvvə toplaya bildi. Dehli istehkamlarına hücum başlandı. Üsyan rəhbərləri mühasirəyə alınmış şəhəri müdafiə etməyin mümkün olmadığını görərək qoşunun bir hissəsini qaladan çıxardı və ölkənin başqa rayonlarında müqaviməti davam etdirdilər. Azadlıq mübarizəsinin ən mühüm mərkəzi Dehli, şiddətli vuruşmalardan sonra, 1857-ci il sentyabrın 11-də süqut etdi. Şəhər alınarkən ingilis ordusu ağılagəlməz vəhşiliklər törətdilər.

Xalq azadlıq mübarizəsinin ikinci əsas mərkəzi Aud və paytaxt şəhəri Laknau idi. Auddakı üsyanda kəndlilər fəal iştirak edirdi. Keçmiş knyazlığın şimal-qərb rayonlarında üsyanı məhz kəndlilər başlamışdı.

Laknauda isə sipahi alaylarının çıxışı Mirutdan 10 gün sonra, mayın 20-də başlandı. İngilislər bütün Aud ərazisindən qovuldu və ingilis komissarının iqamətgahı da mühasirəyə alındı. 1856-cı ildən knyazlıq hüququndan məhrum edilmiş Aud nəvabın ailəsi və digər nümayəndələri də Hindistanın bu hissəsində üsyana qoşuldular. Ən fəal hərəkat rəhbərlərindən biri də dini təbliğatçı Əhmədşah idi. Dehlinin süqutundan

sonra Audun strateji əhəmiyyəti xüsusilə artdı. Dehli uğrunda vuruşma qələbə ilə başa çatdıqdan sonra Dehli əməliyyatında iştirak edən ingilis qoşunları digər vilayətlərə göndərildi. Əyalətlərdə xalq müqaviməti o qədər güclü idi ki, yeni göndərilmiş ingilis qoşunları da üsyanı yatıra bilmirdi və partizan dəstələri 1859-cu ilin axırlarınadək müstəmləkəçilərə qarşı mübarizəni davam etdirdilər.

Üsyançıların böyük birləşmələrinin toplaşdığı üçüncü mərkəz olan Kanpurda sipahi alayları 1857-ci il iyunun 4-də üsyana başladılar. Üsyanda sipahilərlə yanaşı kəndlilər, sənətkarlar və maratxaların axırıncı peşvəsi II Baci Raonun vərəsəsi Nana Sahib başda olmaqla bir qrup feodal da iştirak edirdi. İngilislər Kanpurdan qovulan kimi burada üsyançılar başda Nana Sahib olmaqla mərkəzi idarə yaratdılar. Hindu Nana Sahib müsəlman imperatoru Bahadır şahın ali hakimiyyətini tanıdı. Yerli məhkəmələr yaradıldı. Yeni hökumətin adı ilə pul kəsilirdi. İdarə işlərinin təşkilini və ingilislərə qarşı mübarizə işlərini əməli surətdə Əzimulla xan, Tika Sinq, Tantiya Topi yerinə yetirirdilər.

Əvvəlki dövrlərdə olduğu kimi üsyanın əsas mərkəzləri Dehli, Aud və Kanpur idi. Bütün Şimali Hindistanda xüsusilə, Aqrada, Allahabadda, Cxansidə silahlı çıxışlar davam edirdi. Keçmiş Cxansi knyazlığında Cxansi knyazının dul qadını Lakşmi Bayın başçılığı altında ingilislərə qarşı mübarizə son dərəcə şiddətli idi. Knyaz arvadı Lakşmi Bayın Hindistanın milli-azadlıq hərəkatı tarixində çox böyük qəhrəmanlıqları olmuşdu. Bu qadın kəndir pilləkənlərlə ingilislərin silah anbarına enmiş və orada ingilislərlə əlbəyaxa döyüşlərdə xeyli düşməni məhv etmişdir. Əməliyyatı uğurla başa çatdırdıqdan sonra ingilislərin silah-sursat anbarını partlatmağa nail olmuşdu. Hindistanda bu qadın "xalqın milli iftixarı" adlandırılmışdı.

Dehli, Aud və Kanpurdan fərqli olaraq təəssüf ki, Pəncabda və Hindistanın cənubunda kütləvi çıxışlar baş vermədi, onlar döyüşləri yalnız müşahidə edirdilər.

Üsyanın birinci mərhələsi çoxlu hərbi birləşmələrin iştirakı ilə fərqləndiyi halda, 1858-ci ilin martında Laknau süqut

etdikdən sonra üsyan partizan dəstələrinin əməliyyatı ilə məhdudlaşmağa başladı. Ən güclü partizan dəstələrindən biri Tantiya Topinin komandası altında olan dəstə idi. Bu dəstə yalnız 1859-cu ilin əvvəllərində məğlub edildi. Müstəmləkəçilər kiçik partizan dəstələrini yalnız 1859-cu ilin axırlarında özü də çox çətinliklə dağıda bilmişdilər.

Beləliklə, Britaniya müstəmləkə sisteminə zərbə vurulması baxımından üsyan hind xalqlarının tarixinin şanlı səhifələrindən birini təşkil edir. Bu üsyan əhatə dairəsinə görə Hindistanda Britaniya hökmranlığı ərzində ən qüdrətli üsyan idi. Üsyanda Hindistan əhalisinin geniş təbəqələri, kəndlilər, sənətkarlar, sipahilər, feodalların bir hissəsi iştirak edirdi. Ümumi düşmənə qarşı mübarizə gedişində hindularla müsəlmanlar arasındakı dini ziddiyyətlər aradan qalxmışdı. Üsyan ölkənin bir çox böyük vilayətlərini bürümüşdü.

Üsyan nəticəsində İngiltərə hökuməti xalqın coşan qəzəbindən vahiməyə düşərək Ost-Hind kompaniyasını ləğv etməyə məcbur oldu. Amma ingilislər siyasi hakimiyyətlərini və strateji mövqelərini daha da möhkəmlətməyə nail oldular. Kraliça Viktoriyanın intibahnaməsi ilə 1858-ci il noyabrın 1-də Hindistanda hakimiyyəti Britaniya taxt-tacına verdi. Əlbəttə, Ost-Hind kompaniyasından idarəçiliyin alınıb Britaniya krallığına verilməsi o qədər də mütərəqqi hadisə deyildi.

Sipahilər hərəkatı haqqında K.Marks 1857-1859-cu illərdəki böyük üsyanı təhlil edərək yazırdı: "Hind ordusunda əvvəllər də üsyanlar baş vermişdir, lakin indiki üsyan öz xüsusiyyətləri və qorxunc əlamətləri ilə fərqlənir. Bu ilk dəfədir ki, sipahi alayları öz avropalı zabitlərini qırmış, müsəlmanlar və hindular aralarındakı qərəzi unudaraq öz ümumi ağalarına qarşı birləşmiş, hindular içərisində başlanan iğtişaşlar doğrudan da Dehlidə müsəlman imperatorunun taxta çıxarılmasına səbəb olmuşdu. Üsyan bir neçə yerlə məhdud qalmamışdır və nəhayət, ingilis-hind ordusundakı üsyan İngiltərə hökmranlığına qarşı böyük Asiya xalqlarının ümumi narazılığının təzahürü ilə bir vaxta təsadüf etmişdir, zira, Benqaliya ordusunun üsyanı şübhəsiz İran və Çin müharibələri ilə sıx əlaqədardır".

Əlbəttə, 1857-1859-cu illərdəki milli-azadlıq müharibəsinin bir sıra çatışmayan cəhətləri də var idi. Belə ki, üsyançılar ölkənin müxtəlif yerlərində birgə əməliyyat aparmağa müvəffəq olmadılar. Pəncabın, Cənubi Hindistanın xalq kütlələri mübarizəyə cəlb edilmədi. Sipahi alayları ümumi plan olmadan vuruşurdular, onların əməliyyatı yalnız bölük həcmində hərbi qüvvədən ibarət idi. Üsyançılar daxilindəki ziddiyyətlər də məğlubiyyətə zəmin yaratdı. İngilslərin Hindistanı ikinci dəfə işğal etməsi hələ onun tabe edilməsi demək deyildi. İngilis müstəmləkəçilərini yetişməkdə olan yeni döyüşlər və Hindistan xalqlarının milli-azadlıq və milli-müqavimət hərəkatı gözləyirdi.

## Mədəniyyət

Böyük Moğol dövlətinin yaranması ilə Hindistanın mədəniyyəti yüksəliş dövrünə qədəm qoydu. Bu yüksəlişin əsasını ölkənin iqtisadiyyatındakı müəyyən tərəqqi və onun müvəqqəti olaraq siyasi cəhətdən birləşməsi təşkil edirdi. Moğol hakimlərinin, xüsusilə Əkbərin və Şah Cahanın elmə, ədəbiyyata və incəsənətə qayğı göstərməsi, Hindistanın beynəlxalq əlaqələrinin, Asiya və Avropa ölkələri ilə mədəni mübadilənin genişlənməsi də mədəniyyətin yüksəlişinə kömək etdi.

Orta əsrlərin son dövrünün ən böyük hind şairi, məşhur "Ramayana" poemasının müəllifi Tulsi Das 1532-1623-cü illərdə yaşayıb yaradaraq dünya mədəniyyətinə, poeziyasına nadir incilər bəxş etmişdir.

Bu dövrdə memarlıq da yüksək səviyyəyə çatmışdı. Ən görkəmli binalar moğol imperatorlarının Dehlidə, Aqrada və Fəthpur Siqridəki sarayları, Dehli və Aqradakı məscidlər, Tacmahal məqbərəsi dünyanın ən gözəl memarlıq abidələri sırasında durur.

Tacmahal türbəsi 1630-1652-ci illərdə Moğol hökmdarı cahan şah tarafindən həyat yoldaşı Mümtaz Mahal Banu Bəyimin qəbri üstündə tikdirilmişdi. Təbrizin azəri mənşəli ustaları əsas işi görənlərdən idilər.

Hindistanın istedadlı xalqları öz mədəniyyətini min illərdən gələn ənənələr əsasında inkişaf etdirib zənginləşdirirdi. Əcnəbilərin saysız-hesabsız basqınlarına baxmayaraq, başqa ölkələrdən, xüsusilə İrandan və Orta Asiyadan gətirilən

mədəniyyətin ən yaxşı nailiyyətlərini özündə birləşdirən hind mədəniyyəti həm də öz orijinallığını saxlamışdı.

Böyük Moğol imperiyasının iqtisadi və siyasi böhranının dərinləşməsi hind mədəniyyətinin də tənəzzülünə səbəb oldu. Mürtəce və mütərəqqi qüvvələr arasında gedən kəskin mübarizə ideologiya sahəsini də bürüdü. Fəlsəfədəki idealist cərəyanlar azad fikri boğmaqda, sxolastika və teologiyanı yaymaqda hakim siniflərə xidmət edirdi. Bütün bu məhrumiyyətlərə baxmayaraq təbiət elmlərinin nailiyyətlərindən bəhrələnən materialst ideyalar inkişaf etməkdə idi.

O dövrün qabaqcıl mütəfəkkirləri, xalq kütlələrini amansızcasına soyan feodal zadəganların israfçılığını və tüfeyliliyini pisləyirdilər. XVIII əsrin ortalarının görkəmli humanist alimi dehlili Vəliullah müsəlman İntibahı adlanan cərəyanın məfkurəçisi olmuşdur. O, "Hiccətül Allahəl-Baliğan" ("Qadir allahın müdafiəçisi") adlı əsərində küt siyasətlər ilə dövlətin qüdrətini sarsıdan feodal hakimləri kəskin tənqid atəşinə tutaraq ədalət və insaniyyət qanunlarına əsaslanan ictimai quruluş haqqındakı idealını təsvir etmişdir. Vəliullahın görkəmli ardıcılı, Hindistanda ingilislərə qarşı vahabilər (vəliullahilər) hərəkatının təşkilatçısı və rəhbəri 1786-1831-ci illərdə Səid Əhməd olmuşdu.

XVIII əsrin birinci yarısında Rəcputanda qabaqcıl adamlar dövlət xadimi, çox qüdrətli alim Savay Cay Sinqin ətrafına toplaşmışdılar. O, riyaziyyatçı, astronom və şəhərsalma mütəxəssisi idi. Caypur şəhərinin əsasının qoyulması onun adı ilə bağlıdır. O, Hindistanın beş şəhərində, o cümlədən Caypur, Dehli, Benares, Udcayan və Məthurda rəsədxana tikmişdir.

İngilis istilasının başlanması ilə Hindistanın mədəni həyatının tənəzzülü son dərəcə dərinləşdi. XVIII əsrin axırları və XIX əsrin əvvəllərində ölkədə mədəniyyətin heç bir sahəsində əvvəlki qərinələrin istedadlı əsərləri ilə bir sıraya qoyula biləcək görkəmli əsər yaradılmamışdı.

Yalnız xalq yaradıcılığı hind folklorunun mahnı, rəqs pantomima (mimika və hərəkətlərlə ifa olunan teatr tamaşaları) teatrının köhnə ənənlərini davam etdirirdi. Bunların süjeti başlıca olaraq dinlə, əməklə və xalq kütlələrinin azadlıq mübarizəsi ilə əlaqədar idi.

Əl əməyinə əsaslanan toxuculuq sənətinin tənəzzülünə baxmayaraq, istedadlı xalq ustaları tətbiqi-bəzək sənətinin,

yəni fil sümüyü və ağac üzərində naxış, üzərində zərlə nəfis işlənmiş metal məmulatı, naxışlı saxsı şeylər istehsalı, naxışlı yun parçalar istehsalının ənənələrini davam etdirirdilər.

Eyni zamanda Avropa ilə daha sıx əlaqə yaradılması artıq XVIII əsrin axırlarından Hindistanın mədəni həyatına, birinci növbədə isə onun ən qabaqcıl xalqlarına getdikcə mütərəqqi təsir göstərirdi. Mütərəqqi hal ondan ibarət idi ki, 1789-cu il inqilabi Fransanın təsiri müəyyən dərəcədə Maysurun mütərəqqi dairələrinin fəaliyyətində, Serinqapatamda yakobin klubunun açılmasında, elmi və siyasi müzakirələrin təşkilində və s. öz ifadəsini tapdı.

Hələ 1784-cü ildə Uilyam Cons Benqal-Asiya cəmiyyəti təşkil etmişdi. Sonralar bu cəmiyyət krallıq cəmiyyəti adlandırıldı. Hindistanın zəngin qədim mədəniyyəti ilə Qərbin tanış olmasında həmin cəmiyyət müsbət rol oynamışdı.

XVIII əsrin axırlarında yeni tipli teatr yaratmaq üçün ilk təşəbbüslər göstərildi. Bu təşəbbüslər 1785-ci ildən 1797-ci ilədək Hindistanda yaşamış rus hindşünası Gerasim Stepanoviç Lebedevin fəaliyyəti ilə əlaqədar idi. G.S.Lebedevin Benqal dilinə tərcümə etdiyi "Riyakarlıq" adlı ingilis pyesinin 1795-ci il noyabrın 27-də ilk tamaşası oldu. Teatrın müvəffəqiyyətinə və Benqaliya ictimaiyyətinin qabaqcıl dairələrinin yardımına baxmayaraq, ingilis işbazlarının müqaviməti nəticəsində teatr iki illik fəaliyyətdən sonra bağlandı.

1804-cü ildə Bombeydə Krallıq Asiya cəmiyyəti açıldı. Müstəmləkəçi məmurlardan fərqli olaraq ayrı-ayrı ingilis alimləri və yazarları Hindistanın mədəni inkişafına kömək etməyə səy göstərirdilər. Lakin ingilis hökumət orqanları xalq kütlələrini cəhalətdə saxlamağa çalışır, onların mədəni mədəni tanımaq istəmirdilər.

Qərblə mədəni əlaqələrin gücləndiyi bir şəraitdə Hindistanın ictimai-iqtisadi həyatında orta əsr qaydalarının yenisi ilə əvəz edilməsi ictimai həyatda yeni hadislərə səbəb oldu və ictimai fikrin yeni cərəyanları formalaşdı.

Ram Moxan Roy başda olmaqla ilk hind maarifpərvərləri ictimai səhnəyə çıxdılar. Görkəmli alim və filosof Ram Moxan Roy eyni zamanda islahatçı idi. İnduizm prinsiplərinə sadiq qalmaqla bərabər, Ram Moxan Roy bu dini islah etməyə, bunun ən mürtəce cəhətlərini aradan qaldırmağa çalışırdı.

Cəhalətin hökm sürdüyü bir zamanda dində islahat aparmağın özü də çox böyük cəsarət tələb edirdi. O, dul qadınların yandırılması adətinə (sati) qarşı qətiyyətlə mübarizə aparırdı. Onun bu mübarizəsi, ingilis hökumət dairələri tərəfindən həmin adətin qanunla qadağan edilməsində mühüm rol oynadı. Görkəmli hind maarifpərvəri təhsilin müasirləşdirilməsi uğrunda, "riyaziyyatın, tarixin, naturfəlsəfənin, kimyanın, anatomiyanın və digər dünyəvi elmlərin" tədris edilməsi uğrunda fəal mübarizə aparırdı. O, Benqal dilində yazılmış qrammatika, coğrafiya, astronomiya və həndəsə dərsliklərinin müəllifi idi. Onun təşəbbüsü ilə 1817-ci ildə Kəlküttədə hindlilər üçün Qərbi Avropada olan kolleclər tipli kollec yaradıldı ki, bu da böyük tarixi hadisə idi.

Ram Moxan Roy həmçinin, hind mətbuatının banilərindən biri olmuşdur. O, 1812-ci ildə Hindistanda Benqal dilində ilk jurnal nəşr etməyə başlamışdı.

Ram Moxan Roy və onun ən yaxın ardıcılı Dvarkanatx Taqor XIX əsrin əvvəllərində "Brahmo-samac" adlı dini-islahatçılıq cəmiyyəti yaratdılar. Bu cəmiyyət görkəmli maarifpərvərin ideallarını həyata keçirməyə, ölkəni mədəni tərəqqi yoluna çıxarmağa çalışırdı.

Ram Moxan Royun fəaliyyəti sonralar qabaqcıl mülkədar-burjua ziyalılarına böyük təsir göstərdi və burjua-milli hərəkatının ideoloji cəhətdən hazırlanmasında mühüm bir mərhələ oldu.

İlk hind maarifpərvərinin fəaliyyəti Britaniya hökumət orqanlarını Hindistanda Avropa təhsili nümunələrini həyata keçirməyə məcbur etdi. Yeni qanuna görə 1835-ci ildə Hindistanda klassik gimnaziya tipli məktəblər açılmasına icazə verilirdi. Həmin məktəblərdə dərslər ingilis dilində keçilirdi. Amma tədris planlarında, Hindistan tarixi və ədəbiyyatının tədrisi nəzərdə tutulmurdu. Hindistanın qədim və orijinal mədəniyyətinə ingilislərin əsil münasibəti islahat müəlliflərindən biri olan, ingilis burjua-liberal tarixçisi Makoleyin öz məkrli siyasətini aşağıdakı sözlərlə açıq ifadə etmişdir: "Avropa kitabxanasındakı bir rəf kitab bütün Hindistanın və Ərəbistanın yerli ədəbiyyatına dəyər".

Hindistanda təhsil islahatı zəruriliyi bir də ondan irəli gəlirdi ki, 1836-cı ildə ingilis dili rəsmi dil elan edildikdən

sonra, ingilislər azacıq savadı olan, azmaaşlı hindli məmurlara ehtiyac hiss edirdi. Müstəmləkəçilərin fikrincə, avropalaşmış hind ziyalılarından ibarət olan kiçik bir təbəqə onların ideoloji təsiri üçün bir alət olmalı idi. 1857-ci ildə Kəlküttə universitetinin açılması, Bombey və Mədrəs universitetlərinin təsis edilməsi də məhz eyni məqsədi güdürdü. İngilis müstəmləkəçilərinin düşündüklərinin əksinə olaraq, həmin məktəblər sonralar milli mədəniyyətin iri mərkəzlərinə çevirildi.

XIX əsrin birinci yarısında Hindistan xalqlarının ədəbiyyatında yeni proses nəzərə çarpmağa başlayır. İlahiyyatı mədh və dini-əxlaqı təbliğ edən orta əsr süjetlərinin təsiri zəifləməyə başlayır. Hindistan xalqlarının ədəbiyyatında ictimai ahənglər qüvvətlənir. Bunlardan bəzisində humanizm, ümumi qardaşlıq (şair M.A. Qalib, 1797-1869), vətənpərvərlik (Benqaliyanın ən görkəmli vətənpərvər şairi, publisist və satiriki İşşorçondro Qupto, 1811-1859) və başqalarının zamanla səsləşən əsərlərində yeni mövzuları meydana çıxır. Vətənpərvərlik ideyası və Britaniya müstəmləkəçilərinə qızğın nifrət xalq yaradıcılığında, xüsusilə 1857-1859-cu illərdəki azadlıq üsyanı haqqında xalq içərisində doğan şeir və mahnılarda daha parlaq bir surətdə özünü göstərirdi.

Mütərəqqi hadisələrdən biri də o idi ki, hind xalqları içərisindən çıxmış ziyalılar heç bir mənfəət güdmədən xalqı cəhalətdən qurtarmaq üçün fədailərə çevrildilər. Onlar müstəmləkə boyunduruğundan xilas olmağın yolunu göstərməklə istiqlaliyyət proqramını hazırlamağa başladılar. Gələcək istiqlal mübarizəsini cəhalət içərisində qalmışlara dərk etdirənə qədər çoxlu məhrumiyyətlərə dözməli oldular. Xalq ziyalıları onların ideyalarının yaxın zamanlarda reallaşmasına və ədalətin zəfər çalmasına inanırdılar.

Hind mədəniyyətinin Şərq ölkələri ilə əlaqəsinin yaradılmasında ziyalılar böyük rol oynamışlar. Dünya poeziyasının korifeyi N.Gəncəvi, Məhsəti, M.P.Vaqif, S.Ə.Şirvani, M.F. Axundzadə, M.Ə.Sabir kimi Azərbaycan klassikləri Hindistanda tanınırdılar. Azərbaycan mütəfəkkirlərinin humanizmə əsaslanan əsərləri Hindistan xalqlarının dillərinə tərcümə edilmişdi və Hindistanda Azərbaycan mütüfəkkirlərinin əsərlərindən bəhrələnirdilər.

# MONQOLUSTAN

Mərkəzi Asiyada yerləşən Monqolustanın orta əsrlər və yeni dövr tarixi keçmişi ilə, eləcə də müasir ardıcıllıq dövr arasında müəyyən ziddiyyətlər mövcud olsa da, Monqolustan ərazisində Aşağı paleolit dövrünə təsadüf edən məsgunlaşma prosesinin baş verməsi haqqında tarixi məlumatlar çoxdur.

Yuxarı paleolit dövründə isə artıq matriarxal qəbilə quruluşu təşəkkül tapmışdı. Monqolustanda e.ə IV-III əsrlərdə xüsusi mülkiyyət meydana gəlir və mübadilə yaranır, tayfa ittifaqları meydana çxmaqla ibtidai icma quruluşu dağılmağa başlayır. Bununla da Monqolustanda feodalizm münasibətləri formalaşır, təşəkkül tapır.

X-XII əsrlərdə Kidanlar dövləti mövcud olsa da, sonralar Monqolustanda mərkəzləşdirilmiş feodal dövlətinin yaranması zərurəti meydana çıxdı. 1206-cı ildə monqol xanlarının Onon çayının sahilində çağırılmış Onon qurultayında Temuçin Çingiz xan adı ilə böyük xan elan edildi. XIII əsrin birinci onilliyində başlanan qəsbkarlıq yürüşləri nəticəsində XIII əsrin ortalarında Şimali Çin və Tanqut dövləti, Orta Asiya, Zaqafqaziya, İran, Rusiya monqolların əsarəti altına düşdü və nəhəng Monqol imperiyası yarandı. XIII əsrin 70-ci illərində Xubilay Çinin işğalını başa çatdıraraq Yuan sülaləsinin hakimiyyətinin əsasını qoydu. Amma 1368-ci ildə monqollar Çindən qovuldu və Çində Min sülaləsinin hökmranlığı dövrü başlandı. Rusiya isə 1380-ci ildə Kulikovo vuruşmasından sonra monqol əsarətindən qismən xilas oldu. XIV əsrin ikinci yarısında isə İranda, Zaqafqaziyada monqol istilası süquta uğradı və Monqolustanda feodal pərakəndəliyi dövrü başlandı. 1440-1455-ci illərdə Esen xan və 1453-1479-cu illərdə Dayan xan Monqolustanın pərakəndəliyinə son qoymaq və mərkəzləşdirilmiş dövlət yaratmağa cəhd göstərsələr də, bu cəhd baş tutmadı. Əksinə, XVI əsrdə Monqolustan üç hissəyə bölündü və üç hissədə 200-dən artıq xanlıq və knyazlıq yaradılmışdı. XVI əsrin son rübündə Monqolustanda yaranan buddizm dininin lamaizm təriqəti XVII əsrin əvvəllərində bütün Monqolustanda dövlət dininə çevrildi.

Monqolustanın daxili pərakəndəliyindən istifadə edən mancurlar Çinin istilasından sonra Monqolustanı da işğal etmək niyyətində idi. Nəhayət, 1636-cı ildə mancurlar Cənubi Monqolustanı işğal etdi. Bu dövrdən etibarən mancurların işğal etdiyi Cənubi Monqolustan Daxili Monqolustan adlandırıldı. Mancurlar tezliklə öz hakimiyyətini Şimali Monqolustanda da bərqərar etdilər. XVIII əsrin ortalarında yalnız Oyrat xanlığı müstəqilliyini saxlamışdı. 1758-ci ildə mancurlar daha bir qətl törədərək Oyrat xanlığının 500 min nəfərdən artıq əhalisini qıraraq bu dövlətin müstəqilliyinə son qoydular. Beləliklə, Monqol xalqı Mancur-Sin sülaləsinin hökmranlıq etdiyi Çinin hakimiyyəti altına düşdü. Çinin hakimiyyəti altına düşən Monqolustan ərazisində çox da inkişaf etməyən knyazlıqlar var idi. Bu knyazlıqlar coğrafi şəraitinə görə bir-birindən fərqlənirdilər. Hətta, idarəçilik sistemində də müxtəliflik mövcud idi. Yaşayış məsgənləri bir-birindən çox uzaq olduğuna görə qarşılıqlı mübadilə, həm də ictimai münasibətlər zəif idi.

XVII əsrin əvvəllərində Monqolustan bir sıra müstəqil, bəzi hallarda bir-birilə düşmənçilik edən knyazlıqlardan ibarət idi. Əhalinin son dərəcə seyrək olduğu bir şəraitdə monqolların yerləşdiyi ərazi çox böyük idi. Bu ərazi Şərqdə Baykaldan və Xinqan dağ ətəklərindən, Qərbdə Tyan-Şan, Şimalda İrtışın və Yeniseyin yuxarı axarındakı yerlərdən, Cənubda Böyük Çin səddinə qədər uzanırdı. Ölkə şimali, cənubi və qərbi monqollara bölünmüşdü. Şimali monqollar içərisində xalxalılar, cənubi monqollar içərisində çaxarlar, qərbi monqollar içərisində isə oyratlar əsas rol oynayırdılar. Şimali monqollar Qobi səhrasından şimalda, cənubi monqollar bundan cənubda köçəri həyat tərzi keçirir, qərbi monqollar isə Cunqarda (Sintszyanda) yaşayırdılar.

Əhalinin (aratların) əsas məşğuliyyəti maldarlıq idi. Monqollar demək olar əkinçiliklə məşğul olmurdular. Sənətkarlıq da zəif inkişaf etmişdi. Torpaq və otlaqlar tamamilə feodal təbəqəsinin mülkiyyətində idi. Monqolustanın iqtisadi quruluşunun əsasını təhkimli aratların əməyinin istismar edilməsi təşkil edirdi. Monqolustanda geniş yayılmış hakim din lamaizm dini idi ki, bu da Monqolustana XVI əsrin ikinci ya-

rısında Tibetdən keçmişdi. Bu din də insanda mütilik tərbiyə edir və feodalların hökmranlığına bəraət qazandırırdı.

Artıq XVII əsrdə monqolların Asiyada mancur işğallarına qarşı çıxış cəhdləri və mübarizəyə başlaması tədricən müşahidə olunmaqda idi. Mancurlar ən əvvəl cənubi monqollara hücum etdikdən sonra Çaxarın xanı Liqdan xarici işğalçılara qarşı özünün rəhbərliyi altında mübarizə təşkil etmək təşəbbüsü göstərdi. Lakin onun qoşunları darmadağın edildi. Nəticədə 1636-ci ildə cənubi monqol knyazlarının qurultayı oldu ki, burada da mancur hökmdarı Monqolustanın xanı elan edildi. Bu zamandan etibarən cənubi monqollar və daxili monqollar, onların yaşadığı rayonlar isə, Daxili Monqolustan adlanması rəsmiləşdirildi.

Digər əraziləri də zəbt etmək üçün Mancur hökumət dairələri Xalxa və Oyrat knyazları arasında feodal münaqişələri salır və bunlardan məharətlə istifadə edirdilər. Onlar Cunqariya və Xalxa arasındakı münaqişəni nəhayət ki, müharibəyə çevirdilər. Cunqar xanı Qaldanın rəhbərliyi altında qərbi monqollar 1688-ci ildə Şimali Monqolustana soxulub Xalxanı tutdular. Lama ruhanilərinin mancurlara satılmış başçısının təkidi ilə Xalxa knyazları 1691-ci ildə Dolonor qurultayında "könüllü" olaraq mancur təbəəliyini qəbul etdilər. Cənubi Monqolustanın işğal edilməsi mancurların strateji mövqeyini daha da qüvvətləndirdi və onlar Qərbi monqollara qarşı hücuma keçdilər.1696-cı ildə Kerulen çayı yanında həlledici vuruşma oldu. Oyratlar məğlub olub, Şimali Monqolustandan Cunqar köçərilərinə tərəf çıxıb getdilər. Lakin Monqolustan xalqının istiqlaliyyəti uğrunda qərbi monqolların mancurlara qarşı mübarizəsi davam edirdi. Qərbi monqolların mancurlara qarşı azadlıq mübarizəsinin axırıncı, ən parlaq qəhrəmanlıq mərhələsi oyrat knyazı Amursananın başçılığı altında 1754-1758-ci illərdə baş verən üsyan oldu. Amursana bütün antimancur qüvvələri öz ətrafında birləşdirmişdi. Zəhmətkeş aratlar Amursanaya kömək edirdilər və üsyan bütün Cunqar və Xalxa ərazisini bürüdü. Oyratların qəhrəmancasına müqavimət göstərməsinə baxmayaraq, onlar sayca özlərindən xeyli üstün

olan, topla silahlanmış mancur ordusunun qarşısında dayana bilmədilər. Qat-qat güclü və üstün olan xarici işğalçılara qarşı bu mübarizə dörd il davam etdi və oyratların tamamilə darma-dağın və başdan-başa məhv edilməsi ilə nəticələndi.

Bu milli-azadlıq hərəkatı hadisələrindən bir qədər sonra mancurlar inzibati-ərazi islahatı keçirdilər. Onlar Cunqariyanın şimal hissəsində Kobdo mahalı təşkil edib buranı xüsusi nəzarət altına aldılar. Sonralar yeni yaradılmış Kobdo mahalı Uryanxay və Xalxa ilə birlikdə Xarici Monqolustan adlandırılmağa başlandı. Xarici Monqolustan dedikdə, bunun da ərazisi Monqolustan Xalq Respublikasının indiki sərhədləri ilə əsasən uyğun gəlir.

## Mancurların Monqolustandakı iqtisadi siyasəti və bunun nəticələri

Mancurlara qarşı mübarizədə monqolların məğlubiyyəti ölkənin öz siyasi müstəqilliyini itirməsi ilə nəticələndi. Mancurlar öz hökmranlığını möhkəmlətməyə çalışır və buna görə Monqolustanı Rusiyadan və Çindən təcrid etmək siyasəti yeridirdilər. Olduqca maraqlıdır ki, mancurlar Monqolustanı işğal etdikdən sonra buradakı ictimai quruluşu dəyişdirmədilər. Onlar geridə qalmış təsərrüfat formalarını mühafizə etdilər və feodalların aratlar üzərindəki iqtisadi hüquqlarını saxladılar. Keçmişdə olduğu kimi, yenə də Monqolustanın əsas sinifləri feodallardan (dünyəvi və dini feodallar) və əhalinin əksəriyyətini təşkil edib, bütün feodal vergi və mükəlləfiyyətlərinin ağırlığını öz çiyinlərində daşıyan təhkimli aratlardan ibarət idi. Çində hökmranlıq edən mancur (Tsin) sülaləsi Monqolustanda öz mövqeyini möhkəmlətmək üçün hər cür tədbirlərə əl atırdı. Mancurlar xanədanların (xoşunların) xırdalanmasına nail oldular. Təkcə Xalxada xanədanların sayı 1655-ci ildə 8-dən 1815-ci ildə 105-ə çatdırılmışdı. Mancurlar xanların və adi xoşun knyazlarının hüquqlarını bərabərləşdirərək, onlara xüsusi maaş müəyyən etdilər, onlar üçün rütbə, mükafat və fərqlənmə nişanları verdilər, knyazlar silkinin

bütün görkəmli nümayəndələrini müntəzəm surətdə şirnikləndirib öz tərəflərinə çəkməyə başladılar.

Monqol knyazları və feodalları get-gedə hakim mancur dairələrinin itaətkar alətinə çevrilirdi. Bununla bərabər Monqolustanda mancur qanunvericiliyi, Çin xarici işlər palatasının qanunlar külliyatı olan "Qanunnamə" (1789-1815) tətbiq edilməyə başlandı. Mancur imperatoru Monqolustanı Ulyasutayda olan xüsusi general-qubernator (tszyan-tszun) və Urqa ilə Kobdoda əyləşən iki nəfər köməkçisi vasitəsilə idarə edirdi.

Mancurların Monqolustandakı siyasətinin tərəfdarı və təbliğatçısı həmçinin lama kilsəsi idi. Mancurlar digər dinlərdə olduğu kimi lamaizmi öz işğalçılıq siyasətinin və hökmranlıq aparatının alətinə çevirdilər. Bütün ölkə çoxlu monastır şəbəkəsi ilə əhatə olunmuşdu və ölkənin kişi əhalisinin yarıdan çoxunu lamaizm dininə sitayiş edənlər təşkil edirdilər. Öz ictimai mənşəyi etibarilə lamalar yekcins deyildi. Ali lamalar feodal sinfinə, sıravi lamalar isə arat sinfinə mənsub idi. Monastır təsərrüfatları (casa) əllərinə çoxlu sərvət, o cümlədən saysız-hesabsız mal-qara keçirmişdilər. Monastırlar ticarəti də öz əllərində təmərküzləşdirmiş və böyük sələmçilərə çevrilmişdilər. Mancurların hakimiyyəti dövründə lama kilsəsi həmçinin monqol feodalizminin ideologiyasını təmsil edirdi. Lama kilsəsi aratların əsarət altına alınmasında böyük rol oynadı və bununla da ölkənin təsərrüfat və mədəni inkişafını ləngitdi, insan hüquqlarının tapdanmasına bəraət qazandırdı, yəni, din zülm aparatının ideoloqu idi.

Mancurlar sələmçi-ticarət kapitalının yardımı ilə sıravi monqol xalqını iqtisadi cəhətdən əsarət altına alırdılar. Mancur hökuməti ilk vaxtlar Xalxanın kolonizasiyası prosesini məhdudlaşdırmağa çalışırdı. Lakin buna baxmayaraq Çin, sonra isə rus ticarət-sələmçi kapitalı XIX əsrdə ölkəyə soxularaq Monqolustanın iqtisadi həyatını müsbət mənada dəyişdirdilər.

Xarici sələmçi-ticarət kapitalı Monqolustanda maldarlıq təsərrüfatının yaxşılaşdırılması, kustar istehsalı və sənətkarlığın yeni sahələrinin yaradılması və ya faydalı qazıntılar çıxarılması işinin təşkil edilməsinə laqeydlik göstərirdi. Onun

məqsədi başqa idi, yəni dəyər-dəyməzinə mümkün qədər daha çox mal-qara, yun, dəri və sairə almaq və burada ehtiyac olan vacib malları yüksək qiymətə satmaqdan ibarət idi. Belə ticarət əməliyyatı feo-dal zülmünün daha da şidətlənməsinə səbəb olurdu, feodallar isə özlərindən asılı olan aratlar qarşısında getdikcə daha çox tələblər qoyurdular.

Ölkədə ticarət-sələmçi kompaniyalar tərəfindən istifadə edilən "ellik zəmanət" sistemi var idi. Bu sistemin mahiyyəti ondan ibarət idi ki, vergi və mükəlləfiyyətlər üçün xoşun məsulliyət daşıyırdı. Knyaz və ya ayrı-ayrı şəxslər borclarını və ya vergilərini ödəmədikdə, onların əvəzinə bunu bütün xoşunun əhalisi verməli idi ki, bu da olduqca ədalətsiz qayda idi.

Monqol feodalları və lama kilsəsi tərəfindən monqol xalq kütlələrinin istismar edilməsi ilə yanaşı, onların ticarətçi və sələmçilər tərəfindən də istismarı, yadelli mancur işğalçılarının zülmü, bütün bunlar monqolların təsərrüfatının tamamilə tənəzzül etməsinə səbəb oldu. Avropa və Amerika kapitalının zorla Çinə və onun ucqarlarına, o cümlədən Monqolustana soxulması bu prosesi daha da sürətləndirdi. XIX əsrin 30-40-cı illərində Çin öz limanlarını xarici dövlətlər üçün açmağa məcbur oldu. Bu vaxtdan etibarən Monqolustan da kapitalist bazarı dairəsinə cəlb olunmağa başlayır. Çinin ən nəhəng kapitalist dövlətlərin yarımmüstəmləkəsinə çevrilməsi Monqolustanın da vəziyyətinə təsir göstərdi.

Monqolustanın xammalı və mal-qarası təkcə Çinə deyil, başqa ölkələrə də ixrac edilməyə başlandı. Monqolustanın maldarlıq təsərrüfatı məhsulları ABŞ, Almaniya, İngiltərə və Yaponiyaya aparılırdı. Xarici şirkətlər ticarət əməliyyatını, əsasən kredit üsulu ilə aparırdı. Bəzən knyaz və zadəganların borclarını aratlar ödəməli olurdu. Bu da xalqın vəziyyətinə olduqca pis təsir edirdi ki, nəticədə monqol aratlarının vəziyyəti olduqca pisləşməyə başladı.

Müstəmləkə zülmü, talançılıq və quldurluq monqol xalqının dərin qəzəbinə səbəb olurdu ki, bu da zülmkarlara qarşı aratların bir sıra çıxışlarında özünü göstərirdi. Monqolustanda mancur zülmünə və xüsusilə ticarət-sələmçi kapitalı-

nın fəaliyyətinə qarşı çevrilmiş xalq-azadlıq hərəkatı artıq yetişməkdə idi.

## Müstəmləkəçilərin və feodal zülmünə qarşı aratların mübarizəsi

Tarixi faktlardan məlumdur ki, monqol zəhmətkeşləri iki əsrdən artıq bir müddət ərzində mancur sülaləsinin əsarəti altında olmuşlar. Lakin azadlıqsevən monqol xalqı bununla barışmayaraq yadelli və daxili zülmkarlara qarşı mübarizəsini dayandırmamış, dəfələrlə silahlı mübarizəyə qalxmışdır.

XVIII əsrin ortalarında Amursana başda olmaqla aratların qəhrəmanlıqla üsyanından sonra, mancur hökumət orqanlarının cəza tədbirlərinə və terroruna baxmayaraq, Xalxada xalq çıxışlarının arası kəsilmirdi. Amma bu da danılmaz fakt idi ki, öz sinfi mənafe və imtiyazları xatirinə xəyanət yolunu seçən monqol feodalları da mancurlara qarşı çevrilmiş üsyanların yatırılmasında iştirak edir, varlanmaq naminə xalqa xəyanət yolunu tuturdular.

Xalqın ictimai zülmə qarşı protesti isə müxtəlif formalarda özünü göstərirdi. Aratlar ayrı-ayrı xoşun hakimlərindən elliklə ərizə verib şikayət edir, feodalların hakimiyyəti altında olan yerlərdən kütləvi surətdə köçüb gedirdilər. Nəhayət, onlar silahlı çıxışlar təşkil edərək, feodal mükəlləfiyyətlərinin azaldılmasını tələb edirdilər. Həm qohumluq əlaqələri, həm də iqtisadi cəhətdən zəhmətkeş aratlarla sıx bağlı olan sıravi lamalar çox zaman aratların çıxışlarında fəal iştirak edirdilər. Bu zaman dözülməz həyat şəraiti üzündən doğma yerlərini tərk edən aratlar hər yerdə kiçik dəstələr düzəldirdilər. Onlar Çin tacirləri və sələmçilərinin faktoriyalarını dağıdır, knyazların iqamətgahına hücum edir, onların mal-qarasını sürüb aparır və aratlara paylayırdılar. Aratların bu dəstələrə yardım göstərməsi, mancur hökumət idarələrinin onlara qarşı mübarizəsini çətinləşdirirdi. Belə yürüşlər mövcud ictimai sistemi sarsıda bilməsə də, hər halda onu zəiflədir, gələcək ədalət tufanının yaxınlaşmasını göstərirdi.

Çində feodalizm quruluşuna və mancurlara qarşı genişlənən hərəkat, xüsusilə 1850-1864-cü illərdəki Taypin üsyanı aratların azadlıq hərəkatına və onun fəallaşmasına böyük təsir göstərdi. Monqolustanda yaşayan çinlilər, hakim yuxarı təbəqələrin səylərinin əksinə olaraq aratlara bilavasitə inqilabi təsir göstərirdilər. Monqollar təkcə rəsmi Çinlə, təkcə tacir və sələmçilərlə deyil, həmçinin Çin zəhmətkeşləri ilə ünsiyyət qururdular. Monqolustan təsərrüfatının məhdud tələbatını ödəyən sənətkarların böyük əksəriyyəti çinlilərdən ibarət idi. Çin əkinçilərinin Monqolustanda məskunlaşması, sonralar bu diyara digər əməksevər Çin kəndlilərinin də gəlib çıxmasına səbəb olmuşdur. Mancurların hakimiyyətinə hədsiz nifrət bəsləyən Çin zəhmətkeşləri var-yoxdan çıxmış aratlarla birlikdə dəfələrlə çıxış etmiş və həmrəylik nümayiş etdirmişdilər.

Ölkədə baş qaldırmış narazılıqlar nəhayət xalqın kütləvi narazılığı ifadəsini doquylan hərəkatında tapdı. Bu hərəkat, Xalxaya nisbətən əhalisi daha çox sıx məskunlaşdırılan Daxili Monqolustanın Ordos rayonunda 1858-ci ildə meydana çıxmışdı. Doquylanlar aratların kütləvi yığıncaqlarını təmsil edən geniş demokratik təşkilatlar idi. Həmin yığıncaqlar feodalların zülmünə qarşı mübarizə aparmaq və mancur-Çin hökumət dairələri tərəfindən yadellilərin Monqolustanda məskunlaşdırılmasına müqavimət göstərmək üçün çağırılırdı. Hərəkatın antifeodal meyllərindən qorxan monqol feodallarının köməyilə mancur hökumət orqanları bu hərəkatı yatırmaq üçün böyük səy gösərirdi.

Lakin Daxili Monqolustandakı doquylan hərəkatı genişlənməkdə və ətraf əyalətlərə də yayılmaqda idi. İnqilabi aratların bu mübarizə forması sonralar Xarici Monqolustan xoşunlarına da təsir edərək, orada da kütləvi milli azadlıq hərəkatı xarakterni alırdı.

## Rusiya Monqolustan münasibətləri

XVII əsrin əvvəllərindən etibarən rusların Sibirə gəlməsi ilə əlaqədar monqol-rus münasibətləri yeni mərhələyə daxil oldu. Buraya gələn ruslar ilk dəfə burada monqol köçəriləri

ilə tanış olmuşdular. Bu vaxtdan etibarən monqol knyazlıqları ilə Rusiya arasında müntəzəm əlaqə yaranmağa başlayır. Hər iki xalqın sonrakı tarixi inkişafı onlar arasındakı dostluq əlaqələrinin möhkəmlənməsinə kömək edirdi. Çin və Monqolustan ilə dinc iqtisadi əməkdaşlıq etməyə çalışan Rusiya bu sahədə xeyli müvəffəqiyyət əldə etdi. Zaman keçdikcə Rusiya ilə Mancur imperiyası arasındakı bir çox mübahisəli məsələlər nizama salındı və sərhədlər dürüstləşdirildi. 1689-cu ildə Nerçinskdə Rusiya ilə Çin arasında müqavilə imzalandı ki, bu da Rusiya ilə Çin və Monqolustan arasında normal ticarətin başlanğıcını qoydu. Rusiya Çinin hüquq bərabərliyi əsasında müqavilə münasibətləri yaratmağa müvəffəq olduğu ilk dövlət idi. Ticarət məsələləri və Monqolustan rayonlarında sərhəd məsələləri haqqında 1727-ci ildə Çin ilə Rusiya arasında Kyaxta və Burin müqavilələri imzalandı. Karvan ticarətinin genişləndirilməsi sayəsində bu ölkələr arasında iqtisadi əlaqələr gücləndi. Rusiya-Çin ticarəti başlıca olaraq Kyaxta, Kalqan və Pekində aparılırdı.

XIX əsrin ortalarına qədər Rusiya-Çin və Rusiya-Monqolustan münasibətləri həmin müqavilələr əsasında inkişaf edirdi. İkinci "tiryək" müharibəsində Çinin məğlubiyyətindən sonra yaranmış əlverişli vəziyyətdən istifadə edərək, çar hökuməti 1860-cı il Pekin müqaviləsinə əsasən Monqolustanda gömrüksüz ticarət hüququ əldə etdi. 1861-ci ildə Urqada ilk dəfə Rusiya konsulluğu açıldı. XIX əsrin 60-cı illərində rus ticarət kapitalı Monqolustana soxuldu. Beləliklə, XIX əsrin 60-cı illərindən etibarən Monqolustan uğrunda Rusiya-Çin və Rusiya-Yaponiya, sonra isə ABŞ, Avropa dövlətlərinin rəqabəti gücləndi. Bununla yanaşı ABŞ və Avropa tacirlərindən fərqli olaraq Rusiya tacirləri həmçinin Monqolustanda çox incə diplomatiya işlədirdilər, sadə xalqla çox mehriban davranırdılar.

Bunun nəticəsi olaraq Rusiya tacirləri Monqolustanda kiçik faktoriyalar düzəldir və yerli əhali ilə ticarət edirdilər. Urqada, sonra da Ulyasutayda və Kobdoda olan rus konsulluqları tacirlərin fəaliyyətinə kömək edirdilər. Monqolustan Rusiyadan parça, mahud, un, baqqaliyyə malları və s alır,

Rusiyaya isə iri və xırda buynuzlu mal-qara, xəz, gön, yun ixrac edirdi. Rusiya faktoriyaları ölkənin müxtəlif məntəqələrində yaranırdı və Çin ticarət kapitalının şiddətli rəqabətinə baxmayaraq, rus-monqol ticarətinin həcmi ildən-ilə artırdı.

Rusiya tacirləri monqol aratlarını çox ustalıqla, incitmədən, siyasətlə istismar edirdilər. Lakin ölkədə rus əhalisinin olmasının müəyyən müsbət əhəmiyyəti də var idi. Monqolustanla Rusiya arasında işgüzar və mədəni əlaqələr yaranırdı. Misal üçün, ilk vaxtlarda zəif də olsa, rus xalqının mədəniyyəti ilə əlaqə və tanışlıq yaranırdı. Sərhəd boyu yaşayan əhali bu mənada böyük rol oynadı. XIX-XX əsrlərin böyük tədqiqatçıları N.Y.Miçurin, N.M.Prjevalski, Q.N.Potanin, A.M.Pozdnyeyev, B.Y.Vladimirtsobun Monqolustana səyahətlərinin monqollarla ruslar arasındakı dostluq əlaqələri üçün böyük əhəmiyyəti olmuşdu.

Çarizmin irticaçı siyasətinə baxmayaraq, monqolların rus xalqı ilə, onun mədəniyyəti ilə əlaqəsinin Monqolustanın gələcək inkişafı üçün mütərəqqi əhəmiyyəti danılmazdır.

## Mədəniyyət

Monqolların erkən dövrünün mədəniyyəti haqqında ilk və çox qısa məlumata "Qəlbdən gələn dastanda" rast gəlmək olur. XIII ərsə aid olan bu xronika monqol ədəbiyyatının dövrümüzə qədər gəlib çıxan ən qədim abidəsidir. Monqol imperiyasının parçalanmasından sonra baş verən daxili çəkişmələr elmin, təhsilin və mədəniyyətin inkişafına imkan vermirdi. XIV-XVI əsrlər tarixinə aid yazılı monqol məxəzləri, demək olar ki, yox dərəcəsindədir. Halbuki, artıq bu zaman monqollar ksiloqraf üsulu ilə kitab çap etməyi bilirdilər. Xalq ədəbiyyatı (folklor) mövcud idi. Monqollar ağac, sümük və metal üzərində naxışla işləməyi bacarırdılar və bədii metaltökmə işinə yaxşı bələd idilər. Bütün bunlar monqolların özlərinə məxsus orijinal mədəniyyətə malik olduğunu inandırıcı surətdə sübut edir.

Mancur işğalçıları lamaizmdən özlərinin bir ideoloji silahı kimi istifadə edirdi. "Elm və maarifin" yeganə mərkəzi monastırlar idi ki, burada da lama gəncləri Tibet yazısını öyrənir və lamalar Tibet dilində olan "müqəddəs" mətnləri illər boyu mexaniki olaraq əzbərləyirdilər. Mancurlar monqol xalqı içərisində maarifin inkişaf etdirilməsi və milli yazının yayılması qayğısına qalmırdılar. Ölkədə məktəb yox idi və əhali, demək olar, başdan-başa savadsız idi.

Din xadimləri xalqın savad almasına və maariflənməsinə mane olurdu.

Lakin istismarçı feodallardan, hakim sinfin nümayəndələrindən fərqli olaraq xalq ziyalıları, şairlər, ölkənin mütərəqqi fikirli adamları dünyəvi mədəniyyəti inkişaf etdirməyə, orijinal əsərlər yaratmağa, Çin və Tibet dilində olan dünyəvi ədəbiyyat əsərlərini tərcümə etməyə, monqol əlifbasını inkişaf etdirməyə və dürüstləşdirməyə çalışırdılar. Monqol tarixşünaslığı da inkişaf etməkdə idi. Monqol müəllifləri XVII əsr ərzində bir sıra tarix əsərləri yaratmışdılar. Bunlar içərisində Lübsan Danzanın "Altan tobçi", Saqan Setsenin "Şara Tuci", "Monqolların tarixi" adlı əsərlərini göstərmək olar. Mancur hökmranlığı dövründə yazılmış monqol tarix əsərləri içərisində, müəllifi bəlli olmayan və XIX əsrin 20-ci illərinə aid olan "Bolor Toli" əsərini və həmin əsrin 50-ci illərində Qaldantaycı tərəfindən tərtib edilmiş "Erdeniyi Erixe" salnaməsini də göstərmək olar. Bütün bu xronikalarda buddizmin təsiri hiss olunur. XIX əsrin monqol tarixinə aid bu ədəbiyyatın xüsusiyyəti ondan ibarətdir ki, həmin əsərlərdə Tibet məxəzləri ilə yanaşı, Çin və mancur məxəzlərindən də istifadə edilmişdir.

# YAPONİYA

Sakit Okeanın Şərqi Asiya sahilləri yaxınlığında yerləşən Yaponiyanın ərazisi təxminən 4 min adadan ibarətdir. Ən böyük adaları Hokkaydo, Honsü, Sikoku və Küsu adalarıdır. Burada məsgunlaşma paleolit dörünə aid edilir. E.ə. təqribən 7500-300-cü illərdə burada Neolit mədəniyyətinin təşəkkül tapması haqqında məlumatlar vardır. Əhali əkinçilik, balıqçılıq, ovçuluq və heyvandarlıqla məşğul olmuşdur. Yaponiyada III əsrin ikinci yarısı, IV əsrin ortalarındaYamota tayfa ittifaqı yarandı və tədricən Yapon dövləti təşəkkül tapdı. Bu ölkədə V əsrin ortalarından etibarən Çin heroqlifi işlənməyə başladı və V-VI əsrlərdə ibtidai icma quruluşunun dağılmağa başlaması ilə sinifli cəmiyyətin yəni feodalizm cəmiyyətinin ilkin əlamətləri meydana çıxdı. VI əsrin ortalarından buddizm yayılaraq VII əsrin ikinci yarısında isə artıq mərkəzləşdirilmiş erkən feodal dövləti meydana gəldi. 1192-ci ildə hərbi-feodal hakimlərin, yəni syequnların hakimiyyətə keçmələri nəticəsində hərbi-feodal sistemi yaradıldı. Syequnların dayağı olan hərbi-feodal təbəqənin (busi) başında şəxsi vassallar (Qokenin), nisbətən aşağıda isə xırda hərbi zadəganlar – samuraylar dururdu. XIV-XVI əsrlərdə orta feodal torpaq sahibliyindən iri knyazlıqlara keçildi. XV-XVI əsrlərdə Yaponiyada fasiləsiz feodal çəkişmələri və kəndli üsyanları (yamasiro üsyanı) mərkəzləşdirilmiş vahid hakimiyyətin yaradılması zərurətini irəli sürdü. Çünki, feodal dağınıqlığı, hakimiyyətin pərakəndəliyi Yaponiyaya qarşı xarici müdaxiləyə zəmin hazırlayırdı. Ən düzgün siyasət mərkəzləşdirilmiş dövlət yaratmaq idi.

XVII əsrin əvvəllərində 18 milyonluq Yaponiyada nəhayət uzun sürən daxili feodal çəkişmələri XVII əsrin birinci yarısında sona çatdı. Hələ XVI əsrin son rübündə Oda Nobunaqa və Toyotominin Yaponiyanı birləşdirmək uğrunda başladığı işi Tokuqava sülaləsindən olan iri feodallar İyeyasu və İyemitsu başa çatdırdılar. Ölkənin birləşdirilməsi, kəndli üsyanlarını yatıra biləcək güclü dövlət hakimiyyəti yaratmaq lüzumundan və iqtisadi tələblərdən, yəni vahid daxili bazar yaratmaq zərurətindən irəli gəlirdi.

Syoqun[1] feodal mütləqiyyətinin başında şiddətli mübarizədə öz rəqiblərini məğlub etmiş olan Tokuqava sülaləsi dururdu.

Yaponiyada başqa knyazlar içərisində ən varlısı Tokuqava ailəsi idi. Onun torpaqları Yaponiya ərazisinin dörddə birini təşkil edərək, ölkənin 68 əyalətindən 47-sində yerləşmişdi.

Feodal mübarizəsinə son qoyulması və ölkənin birləşdirilməsi məhsuldar qüvvələrin müəyyən dərəcədə artması üçün şərait yaradırdı. XVII əsr ərzində əkin sahələri genişləndi. Əkin sahələri XVI əsrin axırındakı 1,5 milyon tyodan[2] XVII əsrin axırlarında təxminən 3 milyon tyoya çatmışdı. Yenə də bu müddətdə kənd təsərrüfatı bitkiləri məhsulu (başlıca olaraq düyü) 18,5 milyon kokudan[3] təxminən 25,8 milyon kokuya çatmış, yəni 28,3 faiz artmışdı.

## Yaponiya kəndlilərinin vəziyyəti

Tokuqava ailəsinin hərbi diktaturası dövründə əhalinin çox hissəsi kəndlərdə yaşayır və kənd təsərrüfatı işləri ilə məşğul olurdu. Bu zaman kənddə son dərəcə geridə qalmış natural təsərrüfat hakim idi. Yaponiya cəmiyyətinin iqtisadi əsasını, iri torpaq sahiblərinin əlindəki torpaq üzərində feodal mülkiyyəti ilə bərabər, kəndlilərin xırda torpaqlardan istifadə formaları mövcud idi. Marks Yaponiyanın klassik feodal ölkə nümunəsi olduğunu göstərərək 1867-ci ildə yazırdı: "Torpaq sahibliyi xalis feodalizim üsulu ilə qurulub xırda kəndli təsərrüfatları geniş ölçüdə inkişaf etmiş olan Yaponiya Avropanın orta əsrlərdəki mənzərəsinin çox qismi yanlış burjua fikirləri

[1] Syoqunun hərfi mənası "sərkərdə" deməkdir. İlk dəfə Minamoto Eri-tomo tərəfindən 1192-ci ildə tətbiq edilən soyqunat sistemi ən qüdrətli feodal ailəsinin hərbi-feodal diktaturası idi. Əslində Yaponiyanı bu ailə idarə edirdi. İlk syoqunata Minamoto Xodzyo (1192-1333), ikinci syoqunata Asikaqa (1335-1572), üçüncü syoqunata isə Tokuqava (1603-1867) başçılıq etmişdir.

[2] Tyo- təxminən bir hektardır

[3] 1 koku = 160 kiloqrama və 180-ə litrə bərabərdir.

ilə dolu olan tarix kitablarımızdan daha düzgün məlumat verir"[1].

Yaponiyada torpağın çox hissəsi feodallar tərəfindən pay torpağı şəklində kəndlilərə paylanmışdı. Kəndlilərin istifadəsinə ən çoxu bir tyo (ildə orta hesabla 10 koku məhsul verən) torpaq sahəsi nəsli "daimi icarə" hüququ ilə verilirdi. Yəni bu torpaqlar onların tam mülküyyətinə keçmirdi. Torpaqdan istifadə etmək hüququ almış kəndlilər bunun müqabilində feodal üçün işləməli idilər və digər mükəlləfiyyətləri də yerinə yetirirdilər.

Yaponiya feodal cəmiyyətinin xarakterik xüsusiyyəti təhkimçilik sisteminin olmasında idi ki , bunun da özünə xas olan bir sıra cəhətləri var idi[2]. Yaponiya kəndlisi sahibkar feodaldan şəxsi asılılıqda idi, lakin feodal onu alıb-sata bilməzdi. Kəndlilər torpağa təhkim edilmişdilər, onların bir yerdən başqa yerə köçməsi qadağan edilmiş, bir feodalın hakimiyyətindən başqa bir feodalın hakimiyyətinə keçməsi də qadağan olunmuşdu. Ən varlı kəndlinin başçılıq etdiyi "beşhəyətliklər" (qoninqumi) deyilən birləşmələrə bölünməsi bu vəziyyəti daha da möhkəmləndirirdi.

"Beşhəyətlilik " sisteminin tətbiq edilməsi iqtisadi və siyasi məqsədi ellik zəmanətlə əlaqədar olaraq kəndli həyətlərindən müntəzəm surətdə və ən çox vergi alınmasını təmin etmək, polis nəzarəti təşkil etmək, kəndli çıxışları və üsyanlarının qarşısını almaq idi.

Yaponiyada təhkimçiliyin bir xüsusiyyəti də biyarın az tətbiq edilməsində idi. Lakin bu cəhət təsərrüfatın təhkimçi xarakterini dəyişmirdi. Yaponiyada biyar feodal üçün bilavasitə kənd təsərrüfatı məhsulları istehsalı forması olmayıb, yardımçı rol oynayırdı. Qanuna görə kəndlilər feodal knyazın nəfinə işləyib ödəmədə (odun hazırlamaq, binaların, məbədlərin təmiri, tikinti və dəmirçi işləri və i.a.) iştirak etməli və dövlət mükəlləfiyyətlərini yerinə yetirərək, yol çəkməli və

---

[1] 1 koku = 160 kiloqrama və 180-ə litrə bərabərdir.

[2] Kəndlilərin torpaq sahəsinə təhkim edilməsi Xidoyesi tərəfindən həyata keçirilmişdir. 1589-1595-ci illərdə onun düzəltdiyi torpaq siyahıları əslində Yaponiyada təhkimçiliyin bərpa edilməsi tədbiri idi.

təmir etməli, kanallar qazmalı və bunları təmir etməli idilər. Yəni kəndli mükəlləfiyyətləri qanuniləşmişdi.

Yaponiyada bilavasitə istehsalçı və icraçı sinif olan kəndlilər şiddətli feodal istismarı altında idi. Tokuqava ailəsi hərbi diktaturası zamanı feodal təbəqəsinin bütün ağırlığı onların, yəni kəndlilərin üzərinə düşürdü. O qədər də geniş yayılmayan işləyib ödəmə mükəlləfiyyətindən başqa, istismarın əsas forması natura ilə alınan (başlıca olaraq düyü ilə) ərzaq rentasından ibarət idi. Kəndli, rəsmən öz təsərrüfatı hesab edilən kiçik torpaq sahəsini primitiv kənd təsərüffatı alətləri ilə öz əməyi sayəsində becərib, əldə etdiyi izafi məhsulu, dözülməz bir yük olaraq üzərinə düşən çoxlu vergi və tədiyyələr şəklində dövlətə və feodala verməli idi. Onlar rəsmən "dörd hissə knyazın, altı hissə xalqın" formulası əsasında məhsulun 40 faizini əsas vergi üçün verirdilər. Əslində isə əlavə vergi və rüsumlar da nəzərə alınarsa, kəndlilər becərdiyi topladıqlardan məhsulun 70 faizini vergi verirdilər. Əsas vergidən başqa, kəndlilər qarışıq və ya xırda vergi adlanan vergilər də verməli idilər, bu vergi kəndlilərin balıqçılıq və ovçuluq kimi əlavə məşğuliyyətindən alınırdı. Bunlardan əlavə kəndlinin uşağı doğulduqda, bir kimsəsi vəfat edəndə də vergi verməli idi. Bununla bərabər kəndlinin evindəki hər bir pəncərə və qapı üçün vergi alınırdı, feodalın meşəsindən saralıb tökülmüş yarpağı gübrə üçün topladıqda haqq verməli idi və müxtəlif münasibətlə ara-sıra hədiyyələr verməli idi. Ən çətini o idi ki, çox zaman vergilər bir neçə il irəlicədən alınırdı. Bu vergi siyasəti xalqı əzən, ən çox incidən vergi siyasəti idi və bənzəri yox idi.

Müxtəlif mükəlliyyətlər, yol çəkilməsi və təmir edilməsi, körpü salınması knyazlar və məbədlər üçün suvarma şəbəkələri düzəltmək, həmçinin qasid və ya poçt xidməti üçün at vermək və kəcavə daşımaq vermək kimi ağır işlər yapon kəndlilərinin vəziyyətini daha da ağırlaşdırırdı ki, bu da haqlı olaraq xalq həyəcanlarına zəmin hazırlayırdı.

Kəndlilərin bütün məişəti müəyyən məcburi qaydalara tabe etdirilmişdi. Onun mənzilinin böyük-kiçikliyini, qidalanmasını, geyim təchizatını feodal qanunvericiliyi müəyyən edirdi. Kəndlilərə yalnız kobud dənli bitkilər yeməyə icazə verilirdi, düyü yeyilməsi məhdudlaşdırılmışdı. Kəndlilər yal-

nız kətandan və ya çitdən paltar geyə bilərdilər. Tokuqava hökümət orqanları kəndlilərə "qayğı" göstərmək adı ilə 1643-cü ildə torpağın alıb-satılmasını, 1673-cü ildə isə torpaq sahələrinin parçalanmasını qadağan edən qanunlar verdi. Əslində isə bu qanunlar feodal qaydalarını qoruyub-saxlamaq, kəndlilərdən müntəzəm surətdə vergi-renta toplanmasını təmin etmək və düyü istehsalını artırmaq məqsədi güdürdü. Güman edildiyi kimi bu qanunlar kəndlilər üzərindəki feodal istismarı zülmünün qüvvətlənməsinə səbəb oldu. Kəndlinin imkanlarını məhdudlaşdıran bu qanunlara baxmayaraq kəndlilər torpağı əsarətli şərtlərlə sələmçilərə girova qoymağa məcbur olurdular.

XVII əsrdə və XVIII əsrin birinci yarısında genişlənən kəndli çıxışlarının əsas səbəbi də, kəndlilər üzərində olan və sələmçilik zülmü ilə birləşən feodal istismarının qüvvətlənməsində idi. Elə bu səbəbdən Tokuqava diktaturasının yalnız ilk yüz ili ərzində yəni 1603-1702-ci illərdə Yaponiyada 163 antifeodal kəndli çıxışı və üsyanları olmuşdu.

Yaponiyada irticaçı feodal höküməti üsyançı kəndlilərə şiddətli divan tuturdu. Hətta şikayət ərizəsi verilməsi ən ağır cinayət kimi qiymətləndirilirdi, belə adamlara işgəncə ilə yanaşı hətta edam cəzası verilirdi və kəndli yığıncaqları qanundan kənar elan edilmişdi.

XVII əsrin sonu, XVIII birinci yarısında baş verən kəndli çıxışları pərakəndə xarakter daşıyırdı. Bu çıxışlar ayrı-ayrı kəndləri əhatə edir və bir qayda olaraq bu və ya digər knyazlıq və ya əyalət hüdudundan kənara çıxmırdı. Bununla bərabər, kəndlilər feodal qaydalarına qarşı qəhrəmancasına müqavimət göstərmək, onların başçıları isə kəndlilərin mənafeyi naminə hər cür fədakarlıq etmək bacarığına malik olduqlarını nümayiş etdirdilər.

## Tokuqava sülaləsinin hakimiyyəti dövründə hakim sinif və siyasi rejim

XVII əsrin birinci yarısı ərzində Tokuqava ailəsindən olan syoqunlar – İyeyasu, Xidetada və İyemitsu mərkəzləşmiş dövlət yaratmağa çalışırdılar. Yeni hökumətin daxili və xarici siyasət sahəsində bir sıra tədbirləri bu məqsədi güdürdü.

Lakin Yaponiyada protosionizm əlamətləri azalmaq əvəzinə gündən-günə güclənirdi.

Belə bir şəraitdə ölkədə bir sıra hadisələr, o cümlədən daxili ziddiyyətlər nəticəsində biri hakim feodal sinfinin birinin yəni, 258 feodal ailəsinin iki qrupa bölünməsi oldu. Birinci qrupa bütün torpaq sahələrinin yarısını əllərində cəmləşdirən və Tokuqava ailəsindən olan nəsli feodallar, onların tərəfdarları "fudai daymyo" adlanırdı və bu qrupa daxil idi. Tokuqava ailəsinə qarşı düşmən əhval-ruhiyyədə olan və mərkəzi hakimiyyət uğrunda mübarizədə məğlubiyyətə uğrayan feodal ailələri "todzama daymyo" adlanırdı və ikinci qrupa daxil idi. Feodal ailələri öz malikanələrinin böyük-kiçikliyi və illik gəlirlərinin az və çoxluğu cəhətdən də bir-birindən fərqlənirdi.

Tokuqava rejiminin hərbi dayağı samuraylar idi[1]. Samuraylar əsasən iki qrupa bölünürdü. 1) syoqunun bilavasitə tərəfdarları, şəxsi vassalı olub, ildə 500-dən 10000 kokuya qədər gəlir götürən samuraylar; 2) Müxtəlif iri feodalların vassalı olub, ildə 500 kokuya qədər gəlir götürən samuraylar. Bunlardan başqa sinfi simasını və samuraylığını itirən kiçik samuraylar da (ronin) var idi. Tokuqava hakimləri özlərinin yaratmış olduğu siyasi rejimin hərbi dayağını hər vasitə ilə möhkəmlətməyə çalışırdılar və samuraylar bu işdə böyük rol oynayırdılar.

Samuraylar arasında ayrı-seçkilik salınsa da, feodal qanunvericiliyi samurayları hər vasitə ilə qoruyurdu. Samuray kəndlini və ya sənətkarı öldürə bilərdi və buna görə cəzalandırılmırdı. Tokuqava inzibati qanun məcəlləsində "qılınc təzələmək" adlanan qayda təsbit olunmuşdu ki, bu da samuraya öz yeni qılıncını rəiyyətdən olan hər hansı bir adamın boynunda sınaqdan keçirmək hüququ verirdi.

Tokuqava tayfası diktaturasının möhkəmlənməsində "zaminlik" sisteminin də böyük əhəmiyyəti var idi. Bu sistem iki yüz ildən artıq bir müddətdə mövcud olmuşdur. Həmin sistemin mahiyyəti ondan ibarət idi ki, hər bir daymyo bir il öz knyazlığında, o biri il isə syoqunun paytaxtı Edo şəhərində

[1] XIX əsrin ortalarında ümumi sayı 2 milyon nəfərə şatan 400 min samuray ailəsi var idi.

yaşamalı, özü paytaxtda olmadığı vaxt isə ailəsini burada zamin qoymalı idi.

Hakim Tokuqava sülaləsi öz düşmənlərini zəiflətmək məqsədilə "zaminlik" sistemindən başqa, açıq üsullardan da istifadə edirdi. Öz hərbi-iqtisadi gücünə arxalanan Tokuqava syoqunları "itaətkarlıq göstərməyənlərə" qarşı mübarizə bəhanəsilə bir sıra hallarda "todzamların" torpaqlarını müsadirə edib bunları ya özləri mənimsəyir, ya da öz vassalları arasında bölüşdürürdülər.

Yaponiyada feodal dövlət aparatının quruluşu da Tokuqavanın qeyri-məhdud hakimiyyətini təmin etmək məqsədi güdürdü. Mərkəzi hökumətə ("bakufu") başda "Böyük ağsaqqalın" durduğu "Ağsaqqallar şurası" rəhbərlik edirdi. "Böyük ağsaqqal" hakim syoqun nəzdində baş nazir vəzifəsini daşıyır və ya syoqun hələ həddi-buluğa çatmadığı halda regent olurdu. Bütün dövlət aparatı, gəlirli sahələr, ümumiyyətlə bütün idarəçilik sisteminin məmurları Tokuqavaya ən yaxın feodal ailələri nümayəndələrindən ibarət idi. Yəni ailəyə yaxın olmadan hakimiyyətə yaxın düşmək, vəzifə tutmaq qeyri-mümkün idi. Tokuqava sülaləsi kənar adamı hakimiyyətə yaxın buraxmırdı.

Yaponiyada "Metsuke" sistemi (hərfi mənası "təhkim olunmuş göz" və ya "xəfiyyəçilik ") xüsusi əhəmiyyət kəsb edirdi. Mərkəzi hökumətin təyin etdiyi xüsusi məmurlardan ibarət olan bu idarə yerlərdə feodalların və məmurların fəaliyyəti üzərində polis nəzarətini həyata keçirirdi, həmçinin hakimiyyət üçün təhlükəli adamlara göz qoyurdu.

Tokuqava feodal ailəsinin 1603-1868-ci illərdə mövcud olmuş hakimiyyəti dövründə syoqunun və imperatorun ikihakimiyyətliliyi, əslində isə syoqunun təkbaşına hakimiyyətilə xarakterikdir. İmperator Yaponiyanın idarə olunmasına real təsir göstərmirdi. O, iqtisadi cəhətdən hakim olan Tokuqava ailəsindən asılı idi. Kiotoda imperator sarayı nəzdindəki saray zadəganlarının da elə bir siyasi qüvvəsi yox idi. Saray zadəganları yalnız varlanmağı, bir də karyerasını qoruyub saxlamağı düşünürdü və ona verilən payla qənaətlənirdi, başqa çarəsi də yox idi.

Tokuqava sülaləsinin mürəkkəb mərkəzi idarə aparatı, həmçinin ilk üç syoqunun qanunvericiliyi hərbi-feodal polis dövlətinin varlığını ümumiyyətlə mövcudluğunu təmin edirdi. Bütün bu tədbirlər ölkənin idarə olunmasını Tokuqava ailəsinin qeyri-məhdud hakimiyyəti altında mərkəzləşdirmək, ona qarşı düşmən əhvali-ruhiyyədə olan feodal ailələrinin çıxışlarının qarşısını almaq, feodal qaydalarının maksimum dərəcədə sabitliyini təmin etmək, kəndli üsyanlarını yatırmaq və təhkimçilik qaydalarını möhkəmləndirmək, yapon cəmiyyəti, ümumiyyətlə, bütün sahələr üzərində ən ciddi nəzarəti həyata keçirmək məqsədi güdürdü.

## Tokuqava syoqunatının xarici siyasəti

Tokuqava hökuməti feodal qaydalarını möhkəmləndirmək üçün müxtəlif daxili tədbirlərdən başqa xarici siyasət sahəsində də müəyyən tədbirlər həyata keçirirdi ki, bunların içərisində də ən mühümü və dünyaya səs salmışı özünütəkləmə tədbiri idi ki, bu da kompaniya xarakteri daşıyırdı. Özünütəkləmə dünyadan təcrid olma demək idi.

Tokuqava sülaləsinin banisi İyeyasu və onun oğlu Xidetada ilk vaxtlar ispanlar, portuqaliyalılar, hollandlar və ingilislərlə xarici ticarət əlaqələrini genişlətməyə səy göstərirdilər. Lakin bir az sonra hökümət antixristian siyasətə keçib, xristianlığı "imperiyanın düşməni" elan etdi və bunun Yaponiyada yayılmasını qadağan elədi. Xatırladaq ki, Avropadan dəstə-dəstə katolik missionerləri Yaponiyada xristianlığı yayırdılar. Avropadan gəlmiş missionerlərin əksəriyyəti yerli qadınlarla evlənirdilər. Ölkədə gizli yollarla xristian missionerlərə maddi cəhətdən kömək göstərilirdi. Xristianlara vəsait ödəyən məmurlar və feodalların əksəriyyəti qarışıq nigahdan olanlar idi.

Nəhayət, Yaponiyanın özünü təkləməsi siyasəti 1639-cu ildə başa çatdırıldı. Lakin Yaponiyanın Hollandiya və Çinlə ticarəti davam edirdi və buna görə Yaponiyanın təklənməsi nisbi xarakter daşıyırdı.

Mərkəzləşdirilmiş feodal dövləti yaratmağa çalışan - "todzama" qrupunu hakimiyyətə müxaliflər qəti surətdə zəiflətməyə çalışırdı.Yaponiyanın varlı cənub-qərb zadəganları öz iqtisadi qüdrətini artırmaq və beləliklə, mərkəzi hökumətdən asılı olmamaq üçün xarici ticarət əlaqələrini genişlətməyə can atırdı. Onların bu vasitə ilə qüvvətlənməsini Tokuqava rejimi üçün ciddi təhlükə hesab edən syoqunlar "todzama" ilə Avropa dövlətləri arasında heç bir əlaqəyə yol verməmək fikrində idi. Əmtəə-pul münasibətləri inkişaf etdikcə və ölkənin daha əlverilişli cənub-qərb limanları vasitəsilə xarici ticarət genişləndikcə, iqtisadiyyatda möhkəm mövqelər tutan cənub-qərb ticarət – sələmçi burjuaziyasının qüvvətlənməsinə təcridolunma mane olurdu.

Xristian missionerləri və onların ardınca gələn ispan və portuqaliyalı tacirlər Yaponiya dövlətinin müstəqilliyi üçün təhlükə törədirdilər. Missionerlər xristianlığı qəbul etdirdiyi yaponlara arxalanaraq Avropa dövlətləri tərəfindən, xüsusilə İspanya və Portuqaliya tərəfindən Yaponiyanın kolonizasiyası üçün yol açmaq niyyətində idi. Odur ki, ispanların Filippini işğal etməsi hadisəsi yaponlar üçün ciddi xəbərdarlıq oldu və buna görə yaponlar ispanları, portuqaliyalıları ölkədən qovmaq yolu ilə Avropa dövlətlərinin Yaponiyaya soxulmaq təhlükəsinin qarşısını almağa çalışırdılar.

Tokuqava ailəsi syoqunlarının Yaponiyanı təklənmək, dünyadan təcrid olunmaq siyasəti obyektiv olaraq mürtəce xarakter daşıyırdı. Eyni zamanda Tokuqava sülaləsinin bu siyasəti feodal əlaqələrinin saxlanılıb möhkəmləndirilməsinə səbəb olurdu. Yaponiyanı genişlənməkdə olan dünya bazarı ilə əlaqələrdən süni surətdə məhrum etmək, onu feodal avtarkiyası (avtarkiya - başqa rayonlar və ya ölkələrdə iqtisadi və siyasi ayrılıq, qapalılıq deməkdir) halında saxlamağa çalışan Tokuqava syoqunatı ölkədə natural və yarımnatural təsərrüfatın hökmranlığını mühafizə etmək istəyirdi. Nəticə etibarilə Yaponiyada kapitalist münasibətlərinin formalaşması və mütərəqqi tarixi inkişafı ləngiyirdi. Dünyadan təcrid siyasətinin digər mürtəce xüsusiyyəti ondan ibarət idi ki, Tokuqava

sülaləsi ölkə daxilində despotik rejim yaratmaqla zülm və istibdadı gizlətmək məqsədi güdürdü.

## Yaponiyada feodal münasibətlərinin tənəzzülü və kapitalist münasibətlərinin formalaşması

Feodalizm qurluşunun toxunulmaz saxlanılması üçün Tokuqava syoqunatının gördüyü bütün tədbirlərə baxmayaraq XVIII əsrin ortalarından etibarən feodalizm qurluşu daxilində bu münasibətlərin dağılması və yeni kapitalist əlaqələrinin meydana gəlməsi prosesi sürətlə inkişaf etməyə başladı. Bu prosesin əsasının məhsuldar qüvvələrin artması təşkil edirdi ki, bu da XVII əsrin axırları, XVIII əsrin əvvəllərindən xüsusilə nəzərə çarpırdı. Natural təsərrüfat dağılır, əmtəə-pul münasibətləri inkişaf edir, daxili bazarın hüdüdları genişlənir və "Üçüncü silk" sürətlə təşəkkül tapırdı.

Edo, Osaka, Naqasaki, Sakai, Xakata kimi iri şəhərlər, tədricən kənd təsərrüfatından və ticarətdən ayrılan sənətkarlığın inkişaf mərkəzinə çevrilirdi. Məhsuldar qüvvələrin daha da inkişafı üçün mərkəzi şəhərlərin əhalisi sürətlə artırdı. XIX əsrin əvvəllərində Edonun əhalisi 2 milyona çatmışdı və XVIII əsrin əvvəllərində Osakada 352 min adam yaşayırdı. Ticarət şəhərləri ərazisində yerləşdikləri knyazlıqların hakimiyyəti altından çıxarılmışdı, bu isə şəhərlərin iqtisadi qüdrətinin xeyli artdığını göstərirdi. Bundan başqa, ölkədə 200-ə qədər orta əsr tipli qala şəhərləri var idi ki, bunlarda da varlı knyazlar və samuraylar, habelə sənətkarlar və tacirlər yaşayırdılar.

Sənətkarlar sexlərdə, tacirlər isə ticarət ittifaqları və ya gildiyalarda birləşmişdilər. XVIII əsrin ortalarında Osaka şəhərində tacirlərin topdan satışla məşğul olan düyü gildiyasında 1351 adam, şərab satan tacirlər gildiyasında 1706 nəfər var idi. XIX əsrin əvvəllərində Edoda 68 ticarət birləşməsi var idi ki, bunlara da 2 minədək tacir daxil idi.

Müxtəlif sahələrdə yaradılmış ticarət birləşmələri o cümlədən dəniz nəqliyyatı, şərabçılıq, ağ neft, dərman satışı və s. birləşmələr feodal hökumətinə müəyyən qədər rüşvət verib bazarda müxtəlif mallar satmağa ondan inhisar hüququ alırdılar. Ticarət birləşmələri feodalların təzyiqindən qorunmaq, ticarətdə inhisarçı mövqe tutmaq və birləşməyə daxil olmayan

tacirlərin rəqabətinə üstün gəlmək məqsədi güdürdü. Ticarət gildiyaları tacirlərin pul vəsaitinin təmərküzləşməsinə, yəni kapital yığımına kömək edir, burjuaziyanın möhkəmlənməsinə səbəb olur, onun sinfi həmrəyliyinin artması üçün şərait yaradırdı.

Tacirlər və sələmçilər başlıca olaraq düyü ilə müamilə edirdilər. Əvvəllər onlar knyazların nümayəndəsi kimi fəaliyyət göstərir, lakin sonralar iri tacirlər kimi müstəqil çıxış etməyə başlayır, daymyoların özlərinin, hətta syoqun hökumətinin kreditoruna çevrilirdilər.

Ticarət kapitalistlərinin müxtəlif təbəqələri içərisində "kuramoto", yəni topdan satışla düyü möhtəkirləri xüsusi qaydaya uyğun seçilirdilər. Onların varlanması ölkənin "düyü birjasına" çevrilən Osakadakı fəaliyyətləri ilə, böyük düyü anbarları olan iri ticarət firmalarının fəaliyyəti ilə bağlı idi. Düyünün qiymətini ən böyük tacirlər müəyyən edirdi və bu tacirlər öz əllərində çoxlu pul, sərvət toplamışdılar. Misal üçün, Yodoya tacir ailəsinin 1 milyon kokuluq əmlakı var idi.

XVIII əsrin ortalarında Yaponiyada, hər birinin çoxlu pul vəsaiti olan 70-ə qədər milyonçu var idi.

Digər Şərq ölkələrində olduğu kimi Yaponiyada da tacirlər böyük hüquq və imtiyazlara malik idilər. Onlar hökumətə istədikləri zaman təzyiq göstərmək imkanlarına malik idilər. Nəticə etibarilə Mitsui, Konoike,Yodoya ailələrindən olan yapon tacirləri ölkənin iqtisadiyyatında öz mövqelərini o qədər möhkəmlətmişdi ki, adətən onların haqqında belə deyirdilər: "Osaka tacirləri acıqlananda, ölkənin bütün knyazları qorxudan titrəyir".

Yaponiyada ticarət kapitalı ilə yanaşı, sələmçi kapital da güclənirdi. Sələmçilər adətən sahibkar-feodallara, sənətkarlara və xüsusilə, kəndlilərə borc verirdilər, özü də ağır şərtlərlə.

Yaponiyada feodalizm quruluşu daxilində kapitalist münasibətlərinin qeyri-bərabər surətdə inkişafı və bu prosesin, xüsusilə XVIII əsrin ikinci yarısından etibarən qüvvətlənməsi şəhər sənətkarlığına pozucu təsir göstərirdi. Odur ki, XIII əsrin sonu, XIX əsrin əvvəllərində Yaponiyada 130 müxtəlif sənət sahəsi var idi. Acınacaqlı hallardan biri də o idi ki, sex-

lər dağılır, sənətkarlar öz müstəqil vəziyyətini itirib, sələmçilərin əsarətli asılılığına düşürdülər. İstehsalçı funksiyasını itirən sənətkarlar əvvəlcə manufaktura müəssisələrində, sonralar isə fabriklərdə muzdlu fəhlələr sırasına qoşulmağa məcbur olurdu. Bu proses məhsuldar qüvvələrin və əmtəə-pul münasibətlərinin inkişafı şəraitində baş verirdi.

Əmtəə-pul münasibətlərinin artması təkcə syoqun hökuməti tərəfindən deyil, iri feodal knyazlar tərəfindən də çoxlu pul buraxılmasında özünü təzahür etdirirdi. XIX əsrin birinci yarısında feodal knyazların çox hissəsi öz ərazisində yerli kağız pul buraxırdı. İnqilab ərəfəsində Yaponiyada 1694 növ kağız pul var idi ki, bu da olduqca anormal hal idi.

Yaponiyada əmtəə-pul münasibətlərinin inkişafı ilə yanaşı, ayrı-ayrı rayonların ixtisaslaşması prosesi gedirdi ki, bu da ticarət kapitalının rolunu artırırdı. Əkinçiliklə ev sənətkarlığı arasında feodalizm quruluşu üçün xarakterik olan əlaqə pozulurdu. Ayrı-ayrı sahələr tədricən kənd təsərrüfatından ayrılır, müstəqil sahələrə çevrilirdi. Misal üçün, Satsuma feodal knyazlığında toxuculuq, Tosa knyazlığında kağız istehsalı, Asikaqa və Kiriuda toxuculuq, Exime prefekturasında (Sanuki rayonunda) şəkər istehsalı, Kioto və onun ətrafında, Qumma və Naqanoda ipək istehsalı, Ovari, Kaqa və İsedə saxsı və çini qablar istehsalı, Aydzuda şam istehsalı ayrıca müstəqil sahələrə çevrilmişdi.

Müxtəlif rayonların ayrı-ayrı sahələr üzrə ixtisaslaşması ictimai əmək bölgüsünün daha da inkişafının göstəricisi olub, kapitalist təsərrüfatına keçidin rüşeymi idi. Belə bir ixtisaslaşma müxtəlif əyalətlər arasında əmtəə mübadiləsinə kömək edir və bununla da Yaponiyada vahid daxili bazarın təşəkkülü prosesini əks etdirirdi.

Yaponiyada XVIII əsrin ikinci yarısından etibarən evdə kapitalist üçün işləmə, ev istehsalı geniş yayılır. Evdə kapitalist üçün işləmənin geniş yayılması və əmtəə-pul münasibətlərinin inkişafı şəraitində XVIII əsrin axırlarından etibarən manufaktura müəssisələri meydana çıxır.

Ölkədə manufakturanın təşkilatçıları təkcə tacirlər deyil, başlıca olaraq cənub-qərb knyazları və syoqun hökumətinin özü idi. Tacirlər isə sənaye müəssisələrinə nisbətən daha çox gəlir gətirən ticarət və sələmçilik əməliyyatını qeyri-qanuni və möhtəkirçi torpaq alverini özləri üçün daha münasib və əlverişli gəlir mənbəyi hesab edirdilər.

Elə bu zaman hakimiyyət milli sərvətin talanması üçün yeni metodlara əl atdı. İlk dövlət manufakturaları dağ-mədən işi sahəsində, o cümlədən qızıl, gümüş, mis çıxarılmasının qarşısını almaq üçün çevik birliklər yaradıldı və kapitalist istehsalının özəyi də ən əvvəl burada meydana çıxmışdı. Sonralar, XVIII-XIX əsrin birinci yarısında mərkəzi və cənubi Yaponiyada pambıq və kətan toxuma mallar istehsalında, sap istehsalında toxuculuq manufakturaları, ipək toxuculuq manufakturaları, farfor istehsalında, şərab (sake) istehsalı sahəsində və şəkər istehsalında, dəmir məmulatı sənayesində manufakturalar meydana çıxdı. XIX əsrin 50-60-cı illərində dəmir və polad əridən ocaqlar və domna peçləri meydana çıxdı. Bunların sahibləri ölkənin cənub-qərb feodal knyazları (Satsuma və başqaları) və syoqun hökuməti idi.

Yaponiyada qeyri-bərabərhüquqlu müqavilələr bağlandıqdan sonra hökumət və bir sıra knyazlıqlar gəmi inşaatı müəssisələri və gəmi təmiri tərsanələri yaratmağa başladılar.

Əvvəllər Yaponiyada pərakəndə manufaktura inkişaf edirdi. Belə halda istehsalçılar öz evlərində işləyir və bütöv məhsulu əvvəldən axıradək özləri hazırlayırdılar. Sonralar sənətkarlar istehsalatda müəyyən əməliyyat sahəsində ixtisaslaşdıqca XVIII əsrin axırlarından sifarişçi-kapitalist onları bir binaya topladı. Bu isə sənətkarlar içərisində əlverişli əmək bölgüsü üçün imkan yaradırdı.

Yaponiyada manufakturaların texnikası, istehsal alətləri hələlik primitiv idi və bunlarda əl əməyi tətbiq edilirdi. Yalnız XIX əsrin birinci yarısından bəzi müəssisələrdə xüsusilə əyirici müəssisələrdə ilk dəfə su mühərrikləri tətbiq edilməyə başlayır.

Beləliklə, XIX əsrin ortalarında Yaponiyada 420 manufaktura müəssisəsi var idi ki, bunların da 217-si 1803-1867-ci illərdə yaradılmışdı. İnqilab ərəfəsində xüsusi mülkiyyətdə

olan kapitalist manufakturasının nisbətən zəif inkişaf etməsinə baxmayaraq, fabrik-zavod sənayesinə keçmək üçün şərait yaranmaqda idi. Məhsuldar qüvvələr inkişaf etdikcə və bunun sayəsində iri istehsal artdıqca muzdlu fəhlə sinfi və burjuaziya təşəkkül tapırdı ki, bu da olduqca mütərəqqi hal idi. Çünki, nəticədə fəhlə sinfinin formalaşması Yaponiya cəmiyyətini fəallaşdırırdı.

Kapitalizmin feodalizmi sıxışdırması nəticəsində əmtəə-pul münasibətlərinin inkişafı və natural rentanın pul rentasına çevrilməsi nəticəsində yapon kəndində təbəqələşmə prosesi güclənirdi. Eyni zamanda təbəqələşmə yeni ziddiyyətləri də formalaşdırırdı.

Kənd təsərrüfatının ixrac məhsulunun artdığı bir şəraitdə kəndlilər töycünü qismən pul şəklində də verirdilər. Bu da kəndliləri sələmçilərdən borc almağa məcbur edirdi. Sələmçilər isə bir qayda olaraq əsarətli şərtlərlə borc verirdilər. Borcu vaxtında ödəmək imkanı olmayan kəndlilər öz torpaq sahələrini itirirdi. 1 tyoya qədər torpaq sahəsinin parçalanmasının, torpağın satılması və ya gizli girov qoyulmasının qadağan edilməsi haqqında 1721-ci ildə yeni qanun verilməsinə baxmayaraq, həqiqətdə isə məcburiyyət qarşısında qalan kəndlilər öz torpaq sahələrini satırdılar. Torpağın satılması daima gizli şəraitdə baş versə də bu proses gedirdi və hakimiyyət orqanları ondan xəbərdar idi.

Bununla da Yaponiyada əsas icarə forması yardarlıq hələ də qalmaqda idi. İcarə sisteminin geniş yayılması torpaqdan istifadə etməyin son dərəcə parçalanmasına, kəndlilərin daha da yoxsullaşıb müflisləşməsinə səbəb olurdu. Kəndli özünün ata və babasının uzun illərdən bəri istifadə etdikləri torpağın icarədarına çevrilirdi.

Yaponiyada müxtəlif formada yayılmış olan icarə sistemi kəndlilərin torpaqsızlaşması və torpaqdan məhrum olunması üçün xüsusi bir vasitəyə çevrilmişdi. İlkin kapital yığımı prosesinin nəticəsi olaraq XVIII əsrin ortalarından etibarən kəndlilərin kənddən qaçması daha da geniş xarakter alırdı.

Bu dövrdə ölkədə kütləvi yoxsullaşma prosesi baş verirdi. Yapon kəndlilərinin son dərəcə yoxsullaşıb müflisləşməsinə səbəb, təkcə məhsulun 70-80 faiz həddində yüksək ərzaq

rentası, habelə geniş yayılmış icarə sistemi idi. Kəndlilərin icbari surətdə yolların və körpülərin təmirinə, feodalın və yerli hakimiyyət orqanları binalarının təmirinə, yanacaq hazırlığına cəlb olunması da bu prosesi sürətləndirirdi. Ölkədə işləyib ödəmə rentasının ən ağır forması da mövcud idi ki, bura hətta nəqliyyat mükəlləfiyyəti də daxil idi.

Tez-tez qıtlıq, quraqlıq, aclıq, təbii fəlakətlər və yoluxucu xəstəliklərin baş verməsi də kəndlilərin vəziyyətini ağırlaşdırırdı.

XVIII əsrin ortalarından etibarən Yaponiyada əmtəə-pul münasibətlərinin geniş inkişaf etməsi pul rentasının meydana çıxmasına səbəb oldu. Lakin pul rentası hələ kapitalist rentasına çevilməmişdi. Öz torpaq sahələrini itirən kəndlilərin bir hissəsi nə vasitə ilə olursa olsun, şəhərlərə getməyi daha münasib bilir və onlardan çoxu şəhərdə muzdlu fəhləyə, ya da kustar sənətkara çevrilirdi.

Feodalizm quruluşunun böhranı və əmtəə-pul münasibətlərinin inkişafı şəraitində hakim feodal və samuraylar sinfi parçalanırdı. Feodal knyazlar ticarət-sələmçi burjuaziyanın iqtisadi asılılığı altına düşürdü. Bununla bərabər, onlardan çoxu başlıca olaraq Yaponiyanın cənub-qərb feodal knyazları ticarətlə məşğul olmağa və manufaktura müəssisələri açmağa başlayır, yeni şəraitə uyğunlaşaraq getdikcə kapitalist fəaliyyətinə cəlb olunurdular.

Bu dövrdə samurayların hərbi-feodal silkində də xeyli dəyişikliklər baş vermişdi. Feodal knyazlar daha samuray dəstələri saxlamaq və öz vassallarına haqq vermək iqtidarında olmadığına görə, əvvəl bu dəstələri xeyli ixtisar edir, sonralar isə tamamilə buraxırdılar. Hərbi peşəsindən istifadə etmək imkanını itirən samuraylar öz samuray dərəcələrini satmağa və ya dolanmaq üçün başqa bir gəlir mənbəyi axtarıb tapmağa məcbur olurdular. Onlardan bir çoxu feodal-samuray məcəlləsinin ("busido") samuray üçün yaramaz peşə hesab etdiyi ticarətlə məşğul olmağa başlayır[1], başqa bir hissəsi isə ma-

---

[1] Əvvəllər samuraylar arasında belə bir məğrur zərb-məsəl var idi: "Samuray yeməsə də, dişini təmizlər". Bu o deməkdir ki, samuraya yoxsulluq üz versə də, o ac qalıb özünü tox göstərər, lakin pul üçün tacirə və sələmçiyə müraciət etməz. Əlbəttə, bu zərb-məsəl artıq keçmişdə qalmışdı.

nufaktura və fabrik müəssisələrində işləyən muzdlular sıralarına düşür və beləliklə, yapon proletaritının təşəkkülü üçün fiziki qüvvələrdən birinə çevrilirdi. Hakimiyyət özü də bilmədən özü üçün barışmaz rəqib hazırlayırdı. Çünki, hər şeydən məhrum olmuşların itirəcəyi bir şey qalmırdı. Belə bir şəraitdə tənəzzül bütün sahələri bürüdü.

Dağılma prosesi sənətkarları da əhatə edirdi, onların vəziyyəti getdikcə ağırlaşırdı. Sex quruluşu dağılırdı, usta köməkçiləri və şagirdlər öz işçi qüvvəsini satmağa məcbur olurdular. Kapitalistlər üçün ucuz işçi qüvvəsi meydana gəlirdi. Beləliklə,Tokuqava diktaturasının birinci dövründə mövcud olan silki hədlər feodalizm münasibətlərinin tənəzzülü prosesi gedişində dağılır, burjua təbəqəsi təşəkkül tapırdı. Bu prosesdə fəal iştirakçılar şəhər sakinləri və samuraylar idi. Maaşla işləyən qulluqçular, sənət müəssisələri müdirləri, nəzarətçilər, hər cür prikazçiklər, sərbəst peşə sahibləri onların içərisindən çıxırdı. Yaranmaqda olan burjuaziyanın bir mənbəyi də kəndlilərin yuxarı təbəqəsi idi. Burjua sinfi ilə yanaşı, proletariat sinfi də təşəkkül tapırdı ki, bu prosesdə kəndlilər, sənətkarlar və xırda samuraylar da böyük rol oynayırdı.

Feodal münasibətlərinin hökmranlğı nəticəsində feodal və sələmçilik istismarının güclənməsi kənddə və şəhərdə istismar olunan kütlələrin müqavimətinin artmasına səbəb oldu. Yaponiyada bu amil ictimai ziddiyyətləri daha da artırdı. Hakimiyyətlə xalq arasında ziddiyyətlərin daha da kəsginləşməsi prosesi müşahidə olunmaqda idi.

## Kəndlilərin və digər yoxsullarının antifeodal üsyanları

XVIII əsrin ikinci yarısı XIX əsrin əvvəllərində Yaponiyanın müxtəlif yerlərində antifeodal kəndli çıxışları baş verdi. Yaponiyada səlnaməçilərin yazdığına görə Tokuqava sülaləsi diktaturası dövründə (1603-1867-ci illər) 1600 kəndli çıxışı və üsyanı olmuşdu ki, bunlar da feodal və sələmçilik istismarına qarşı çevrilmişdi və bu çıxışlar əslində sülalə hakimiyyətinə xəbərdarlıq idi. Bu üsyanlar gedişində həm kəndin yuxarı

təbəqələrinin, həm də kənd yoxsullarının mənafeyini əks etdirən tələblər irəli sürülürdü. Bunlar içərisində vergilərin azaldılması və yeni yığımların ləğv edilməsi, nəqliyyat mükəlləfiyyətinin ləğv edilməsi, icarə haqqının azaldılması, düyü və pambıq alverində inhisar qiymətlərinin ləğv edilməsi, iltizam (otkun) sistemi[1] və feodal inhisarlarının ləğv edilməsi, kəndlilərə müstəqil surətdə bazara çıxıb kənd təsərrüfatı məhsullarını sərbəst satmaq hüququ verilməsi, syoqunatın qəza məmurlarının daha ədalətlilərlə əvəz edilməsi və seçkili olması, samurayların özbaşınalığının aradan qaldırılması və s. tələblərini göstərmək olar.

Yaponiyada cərəyan edən hadisələr, o cümlədən baş verən kəndli üsyanları zahirən dini pərdə altında gedirdi və bu üsyanlara din xadimləri ideya verirdi. Din xadimlərinin cəmiyyətdə təsir gücünü hiss edən hökumət bəzən onlarla gizli sövdələşmə aparırdı və nəticədə hərəkat məğlubiyyətə uğrayırdı.

Üsyançılar adətən bambuk nizələr, şüvül, daş, dəryaz, paya, bel, kərki, balta, qarmaqla, bir sıra hallarda isə atəşli silahla silahlanırdılar. Üsyanın xüsusi simvolu var idi ki, bu da saman bayraqdan ibarət idi. Kəndlilər bu bayrağı qabaqda aparırdılar. Üsyançıları ərzaqla təmin etməkdə bir qayda olaraq bütün kənd iştirak edirdi. Üsyan zamanı kəndlilər düyü möhtəkirlərini və sake tacirlərinin dükan və anbarlarını dağıdır, yerli məmurların və knyazların evlərini yandırırdılar. Üsyançılarda ruh yüksəkliyi yaratmaq üçün xüsusi musiqiçi dəstələri var idi. Onlar tütəklərdə çalır, təbil vurur və fədakarlıq göstərirdilər.

Kəndli üsyanlarının ildən-ilə artmasına baxmayaraq, hökumətin və yerli feodal knyazların qoşunları bu üsyanları amansızlıqla yatırırdı. Belə hallar da olurdu ki, feodallar üsyanı hərbi qüvvə ilə yatıra bilmədikdə, hiyləyə əl ataraq üsyançıların tələblərini ödəməyi vəd verir, sonra da üsyançıları aldadaraq onlara və rəhbərlərinə görünməmiş vəhşiliklə divan tuturdular.

[1] Bu sistem xam və ya dincə qoyulmuş torpaqları, kəndli peşələrini və vergi toplanmasını təşkil etmək hüququnu iltizama vermək şəklində olurdu.

Üsyançıların məğlubiyyəti onların kortəbiiliyi, ümumi çıxış hazırlamaq imkanını çətinləşdirən dağınıqlığı (bunlardan çoxu bir əyalət və ya feodal knyazlıq çərçivəsindən kənara çıxmırdı və aralarında əlaqə olmurdu) aydın məqsəd və lazımi mübarizə vasitələrinə sahib olmadıqları ilə izah edilir. Proletariatın olmaması və kəndlilərə başçılıq burjuaziyanın zəifliyi kəndlilərin mübarizəsinin genişlənərək kəndli müharibəsinə çevrilməsinə imkan vermirdi və dağınıq kəndli çıxışlarının yatırılmasını asanlaşdırdı.

Yaponiyadakı kəndli üsyanlarının məhəlli xarakter daşımasına baxmayaraq, arası kəsilməyən bu üsyanlar eyni ilə antifeodal mahiyyət daşıyan şəhər yoxsullarının çıxışlarına da təsir göstərdi. Bu çıxışlarda xırda sənətkarlar və tacirlər, müflisləşmiş samuraylar və şəhər yoxsulları iştirak edirdi. 1712-1866-cı illərdə (yapon tədqiqatçısı Kuronasa İvaonun hesablamasına görə) Yaponiyada şəhər aclarının 117 qiyamı olmuşdu. Bunlardan ən mühümü – 1837-ci ildə Osakada syoqunatı və mövcud feodal qaydalarını ləğv etməyə çağıran məmur-samuray Osio Xeyxatironun rəhbərliyi altında baş verən üsyan idi. Xeyxatiro feodal məmurların və Osaka varlılarının qəddarlığını və onların özbaşınalığını tənqid edirdi. Osio, yeganə məhsuldar sinif və cəmiyyətin dayağı hesab etdiyi kəndlilərə həqiqi yardım göstərilməsini tələb edirdi.

Osakada aclıq başlandığı və düyünün qiyməti son dərəcə bahalaşdığı bir şəraitdə Osio və onun tərəfdarları 1837-ci il fevralın 19-da şəhərə od vurub düyü anbarlarını ələ keçirdilər və ehtiyacı olanlara, aclara düyü paylamağa başladılar. Lakin üsyan yatırıldı.

Çıxışın məhəlli xarakter daşıması, onun kifayət qədər hazırlanmaması, üsyan rəhbərlərinin qətiyyətsiz hərəkət etməsi şəhər yoxsullarının bu çıxışının məğlubiyyətinə səbəb oldu. Lakin bu çıxış məğlubiyyətlə nəticələnsə də, onun sədası ölkənin digər ərazilərinə də yayıldı. Yaponiyanın müxtəlif yerlərində şəhər və kənd yoxsullarının yeni üsyanları başlandı ki, bunların da iştirakçıları özlərini "Osionun ardıcılları" elan edirdilər.

Kəndlilərin və şəhər yoxsullarının mübarizəsinin güclənməsi, xüsusilə Osionun üsyanı, feodal hökumətini bəzi isla-

hatlar keçirməyə məcbur etdi. Hökumət başçısı Midzuno Tadakuninin təşəbbüsü ilə samurayların borclarının çox hissəsi ləğv edildi, ticarət korporasiyalarını qadağan edən qanun qəbul olundu və onların inhisar hüquqları xeyli məhdudlaşdırıldı. Bu islahatlar samuray silkinin dağılması prosesini dayandırmaq, ticarət-sələmçi burjuaziyaya zərbə vurmaq və beləliklə feodalizm quruluşunu möhkəmlətmək məqsədi güdürdü.

Kəndlilərin və şəhər yoxsullarının antifeodal üsyanları 1867-1868-ci illər çevrilişi zamanı yeni mərhələyə daxil olmaqda idi.

Yaponiyada kəndli üsyanları və şəhər yoxsulları çıxışlarının məğlubiyyətlə qurtarmasına baxmayaraq, ölkənin gələcək müqəddəratı üçün bunların böyük tarixi əhəmiyyəti vardı. Nəticədə feodalizmin "dağılması" prosesini sürətləndirmək və bununla da Yaponiyanın yeni ictimai quruluşa siyasi formasiyaya, yəni kapitalizm formasiyasına keçməsi üçün şərait hazırladı.

## İnqilabın ilkin şərtləri. Nisbi təklənmə siyasətinin dayandırlması və qeyri-bərabərhüquqlu müqavilələrin bağlanması

Feodal münasibətlərinin dağılması və kapitalist münasibətlərinin yaranması prosesi Yaponiyada feodal sistemi böhranının son dərəcəyə çatdığını göstərirdi. Yaponiyanın kapitalizm cəmiyyətinə keçməsi üçün lazım olan ilkin daxili şərtlər artıq yetişmişdi. Bu şərtlərin daha da yetkinləşməsi xarici amil, əcnəbi dövlətlərlə əlaqə saxlamaq üçün Yaponiyanın qapılarının xaricilər üçün zorla "açılması" nəticəsində sürətləndi. XVIII əsrin ikinci yarısı və XIX əsrin əvvəllərində xarici dövlətlər o cümlədən İngiltərə, Fransa, Rusiya, ABŞ Yaponiyanı özünütəkləmə siyasətinə son qoymağa dəfələrlə təhrik etməyə təşəbbüs göstərirdilərsə də, daim Tokuqava syoqunatının müqavimətinə rast gəlirdilər. Bu işdə ABŞ xüsusən inadlı olub, Yaponiya ilə ticarət əlaqəsi yaratmaq məqsədilə özünün "Ledi Vaşinqton" (1791), "Eliza" (1797 və 1803), "Eklips" (1807), "Morrison" (1837) gəmilərini Yaponiya sahillərinə göndərmişdi. 1846-cı ilin yayında Biddinin rəhbərliyi altında iki hərbi gəmidən ibarət yeni Amerika eks-

pedisiyası Yaponiyaya göndərildi. Lakin Yaponiya hökumət orqanları öz xarici siyasət xəttini dəyişmədiyinə görə Amerika eskadrası öz məqsədinə çatmadan geri qayıtdı. Bu dövrdə ABŞ-ın Yaponiyaya qarşı təcavüzü və Yaponiyanın içərilərinə daxil olmaq taktikası Rusiyanı narahat edirdi.

Yaponiya təklənmə siyasətini həyata keçirdiyi bir vaxtda və bu siyasətdən əsla əl çəkmək istəmədiyini bəyan etdiyinə görə Rusiya da başqa Qərb dövlətləri kimi Yaponiya ilə əlaqə yaratmağa çalışırdı və XVIII əsrin axırlarından etibarən bu sahədə daha tez-tez təşəbbüs göstərilirdi. Yaponiya ilə səmərəli əməkdaşlığa, həmçinin Laksmanın səfirliyinə böyük əhəmiyyət verilirdi. Odur ki, 1792-ci ildə "Yekaterina" gəmisi Nemuro limanına (Edzonun şərq hissəsində) gəldikdə Laksman xeyirxahlıqla qarşılandı və hətta syoqun hökuməti gəminin Naqasakiyə gəlməsinə icazə verdi. Lakin Yaponiya özünütəkləmə siyasətini dəyişdirmək istəmirdi və buna görə Laksman Yaponiya ilə müqavilə bağlaya bilmədi. 1803-cü ildə Yaponiyaya Rezanovun başçılığı altında yeni səfirlik göndərildi. I Aleksandr ona tapşırıq vermişdi ki, rus gəmilərinin Naqasakidə ticarət aparmasına və ya Edzo adasında ticarət işi təşkil olunmasına icazə alsın. Yaponlar bu missiyaya da rədd cavabı verdikdə Xvostov və Davıdov adlı iki zabit 1806-cı ildə Yaponiyanın sahil kəndlərini quldurcasına qarət etdilər. Xvostov və Davıdov qayıtdıqda onlar "qanunsuz və özbaşına hərəkət etməkdə" ittiham olunub Oxotskda həbsə alındılar.

Xvostov və Davıdovun hərəkətləri üzündən baş verən narazılıq buna səbəb oldu ki, 1811-ci ildə "Diana" şlyupunda (orta su tutumlu gəmidir) Qolovninin ekspedisiyası zamanı o əsir alındı və iki il əsir saxlanıldı. Qolovin yalnız onun köməkçisi kapitan Rikord Yaponiyaya gəldikdən sonra azad edildi. Rusiya hökumət orqanlarının tapşırığı ilə kapitan Rikord əsirləri azad etmək xahişi ilə Yaponiyaya gəlmişdi.

1842-ci ildə şturman Lindenberqin komandası altında "Knyaz Menşikov" adlı rus gəmisi yeddi nəfər yaponiyalı ilə birlikdə yola düşərək onların vasitəsilə Yaponiya ilə ticarət müqaviləsi bağlamaq üçün Simoda limanı məmurları ilə əlaqə yaratmağa təşəbbüs göstərdi, lakin bu təşəbbüs də müvəffəqqiyyətsizliklə nəticələndi.

Rusiyanın və başqa dövlətlərin təcrübəsini nəzərə alaraq, ABŞ hökuməti Yaponiyanı təcrid olunma siyasətindən zorla əl çəkməyə məcbur etməyə və başqa dövlətlərdən qabaq Yaponiya-Amerika ticarət müqaviləsi bağlamağa getdikcə daha artıq cəhd göstərirdi. 1852-ci ildə ABŞ Uzaq Şərqdə geniş təcavüzkarlıq siyasəti tərəfdarı olan Perrinin rəhbərliyi altında Yaponiyaya güclü hərbi-dəniz eskadrası göndərmək qərarına gəldi. Perri Ryukyu, Bonin, öz rəhbərliyinə Tayvan adalarını, həmçinin Koxinxina, Kamboca, Borneonun bir hissəsini və Sumatranı tutmağı təklif edirdi.

Perrinin başçılıq etdiyi eskadranın tərkibində 12 gəmi var idi. Eskadra 1852-ci ilin axırlarında Birləşmiş Ştatlardan çıxıb, 1853-cü ilin iyulunda Yaponiya sahillərinə, Uraqa limanına (Edo körfəzində) gəlib çatdı. Amerika prezidenti Filmorun məktubunu Yaponiya hökumətinə çatdırmaq tapşırığı alan Perri şantaja əl ataraq Yaponiyanı hədələməyə başladı ki, ölkənin qapılarını "açmaq" haqqındakı təklif qəbul edilməzsə, Yaponiya buna zor gücü ilə məcbur etdiriləcəkdir. Lakin o, ABŞ-ın Çindəki təcavüzkarlıq məqsədini nəzərə alaraq dərhal cavab verilməsinə təkid və zor göstərmədi. Gəmilər Çinə getmək və cavab üçün 1854-cü ilin yazında qayıtmaq əmrini verdi.

Perrinin güclü hərbi eskadrasının Yaponiyaya gəlməsi və onun syoqun hökuməti nümayəndələri ilə ultimatum tərzində danışıq aparması Yaponiyada siyasi vəziyyəti kəskinləşdirdi. İqtisadi və siyasi cəhətdən xeyli zəifləmiş olan syoqun hökuməti ABŞ-ın təklifini qəbul etmək məsuliyyətini öz üzərinə götürmək istəmədi və hiylə işlətmək yolu seçdi. Hökumətin başçısı Abe Masaxiro feodal knyazlara öz fikirlərini bildirməyi təklif etdi. Lakin 258 daymyodan yalnız 58-i cavab verdi və onların çoxu Yaponiyanın Birləşmiş Ştatlara silahlı müqavimət göstərməyə hərbi cəhətdən əsla hazır olmadığını nəzərə almağı məsləhət gördülər.

250 topla silahlanmış və göyərtələrində 1600 dənizçi və zabit olan eskadra başda Perri olmaqla 1854-cü il fevralın 11-də cavab üçün Yaponiyaya qayıtdı. Yenidən davam etdirilən da-

nışıqlar zamanı Perri onun təklifi rədd ediləcəyi təqdirdə yenə də Yaponiyaya qarşı müharibəyə başlayacağı ilə hədələyirdi. Qətiyyətsizlik və tərəddüd göstərən syoqun hökuməti nəticə etibarilə 1854-cü il martın 31-də "Sülh və dostluq haqqında" Yaponiya Amerika ilə (Perri-Xayasi) müqaviləsi imzalamağa məcbur oldu. Bu birinci müqavilə nəticəsində Yaponiyanın iki limanı Simoda və Xakodate Amerika gəmiləri üçün açıldı. Yaponiyanın 215 ildən bəri davam edən nisbi təklənmə siyasətinə son qoyuldu.

Yaponiya ilə Amerika arasındakı birinci sazişdən sonra başqa dövlətlərlə də bir sıra müqavilələr imzalandı. Bunlardan İngiltərə-Yaponiya müqaviləsini (1854), admiral Putyatinin eskadrası gəldikdən sonra (yazıçı İ. A. Qonçarov da həmin eskadraya daxil olan "Pallada" gəmisində idi) Rusiya-Yaponiya müqaviləsini (1855), Yaponiya-Hollandiya (1856), Yaponiya-Fransa (1858) müqavilələrini və başqalarını göstərmək olar. Bu müqavilələrin hamısının şərtləri demək olar ki, bir-birinin eyni idi. Bunlar yaponiyanın ən mühüm limanlarını (Simoda, Naqasaki, Xakodate) xarici dövlətlərlə ticarət üçün açırdı.

ABŞ-ın baş konsulu Qarris Yaponiyaya gəldikdən sonra 1857-ci il iyunun 17-də Yaponiya ilə Amerika arasında yeni saziş, 1858-ci il iyulun 29-da isə Yaponiya-Amerika ticarət müqaviləsi imzalandı. Yaponiyada ABŞ-ın mövqeyini möhkəmlədən bu müqavilələr qeyri-bərabərhüquqlu müqavilələr idi. Bu müqavilələr ABŞ-a eksterritoriallıq hüququ verir və Yaponiyaya gətirilən mallar üçün aşağı gömrük müəyyən edilirdi. Bu müqavilələr əsasında, Yaponiya-Amerika ticarəti üçün açılmış limanların sayı beşə çatırdı.

1858-ci ilin avqust-oktyabr aylarında Hollandiya, Rusiya, İngiltərə və Fransa ilə, 1860-cı ildə isə Portuqaliya ilə də belə müqavilələr imzalandı.

## İki əsas cəbhə arasında siyasi mübarizənin kəskinləşməsi

Syoqun hökumətinin 1854-1858-ci illərdə bağladığı qeyri-bərabər hüquqlu müqavilələr və bunun ardınca xarici kapitalın Yaponiyaya soxulması ölkədə siyasi böhranın yenidən kəskinləşməsinə səbəb oldu ki, bu mübarizədə əsas iki cəbhə iştirak edirdi. Xüsusilə, Perrinin ekspedisiyası Yaponiyaya gəldikdən sonra burada iki cəbhə yarandı ki, bunlar arasında da mübarizə kəskin şəkil aldı. Xarici dövlətlərlə müqavilələr bağlamaq tərəfdarları "ölkənin açılması dəstəsində" birləşdilər. Bu dəstəyə hökumətin başçısı İi Naoske rəhbərlik edirdi. İkinci cəbhə isə "barbarları qovmaq" adlanan dəstədə birləşmişdi. Bu dəstəyə feodal knyaz Miti Nariaki başçılıq edirdi. Beləliklə, ənənəvi təklənmə siyasətinin davam və ya ləğv edilməsi məsələsi, xarici dövlətlərə və onların Yaponiyaya zorla qəbul etdirmiş olduqları müqavilələrə münasibət məsələsi siyasi mübarizənin əsas motivini təşkil edirdi. Bu mübarizənin müəmmalı cəhətlərindən biri də bunda idi ki, təkcə samuraylar içərisində[1] deyil, cəmiyyətin daha geniş təbəqələri içərisində də xaricilərə qarşı nifrət əhvali-ruhiyyəsi geniş yayılmışdı. Çünki Yaponiyanın apardığı təklənmə siyasətinin davam etdirilməsi, onun müstəqilliyinin qorunması ilə əlaqələndirilirdi. Kiotodakı imperator sarayı da syoqunata qarşı mübarizə taktikası nöqteyi-nəzərindən "rədd olsun barbarlar" şüarını müdafiə edirdi və ölkənin yadellilərdən təmizlənməsi işi vicdan və namus məsələsi olduğunu bildirirdilər.

1857-1858-ci il müqavilələri imzalandıqdan və müqavilələrə yenidən baxılması ilə əlaqədar 1860-cı ilin fevralında Yaponiyanın ABŞ-a göndərdiyi səfirliyin müvəffəqiyyətsizliyindən sonra, Yaponiyada siyasi mübarizə son dərəcə gərginləşdi. Müxalifət cəbhəsi İi Naoskenin qətlini hazırladı və 1860-

---

[1] Samuray məfkurəçilərinin (Yesida, Syoin, Xasimoto, Sakai və başqaları) xaricilərə qarşı əhvali-ruhiyyəsinin əsil səbəbi XIX əsrin ortalarında Kamçatka, Ryukyu, Koreya, Mancuriya, Tayvan, Filippinin işğal edilməsi, Yaponiya ilə qonşu olan kiçik" millətlərin əsarət" altına alınması idi.

cı ildə qətl baş tutdu. Odur ki, 1860-cı ilin martında bir qrup samuray tərəfindən Naoskenin öldürülməsi vəziyyəti xeyli gərginləşdirdi və xaricilərə qarşı hərəkatın daha artıq miqyasda güclənməsinə təkan verdi. Cənub-qərb knyazlıqlarının antitokuqava blokunun başçılıq etdiyi bu hərəkatın əsas zərbəsi indi xarici dövətlərin nümayəndələrinə qarşı çevrilmişdi.

Beləliklə, Yaponiyada xarici müdaxiləçilərə qarşı nifrətlə qəzəb birləşərək onlara qarşı hücumlar başlandı. 1860-cı ilin yanvarında ingilis konsulluğunun tərcüməçisi, 1861-cilin yanvarında isə Amerika səfirliyinin tərcüməçisi öldürüldü. 1862-ci ilin iyununda ingilis səfirliyinə basqın edilmiş, həmin ilin sentyabrında isə Edodan Satsumaya qayıdan knyaz Simadzunun təşrifatına "hörmətsizlik" göstərdiyinə görə ingilis taciri Riçardson öldürülmüşdü. Bütün bu sui-qəsdlər xarici dövlətlərin nümayəndələrinə Yaponiyanı tərk etdirmək və qeyri-bərabərhüquqlu müqavilələri həyata keçirməkdən imtina etmək məqsədi güdürdü.

Xaricilər əleyhinə qəsdlərin çox hissəsi İngiltərəyə qarşı çevrildiyindən İngiltərə hökuməti cəza ekspedisiyası düzəltmək təşəbbüsünü öz üzərinə götürmək qərarına gəldi və İngiltərə beynəlxalq jandarma rolunu oynamağa başladı. Eyni zamanda Riçardsonun öldürülməsi Yaponiya İngiltərə münaqişəsinə bəhanə oldu. İngiltərə Riçardsonun öldürülməsi müqabilində syoqun hökumətinin 100 min f. st. və Satsuma knyazının 25 min f. st. ödəməsini tələb etdi. Bundan başqa, Yaponiya hökumət orqanlarına təklif edilirdi ki, Riçardsonun öldürülməsində müqəssir olanları məhkəməyə təqdim etsin.

Yaponiyaya qarşı zor gücünə əl atacağı ilə hədələyən İngiltərənin ultimatum xarakterli tələbləri, həmçinin iki zidd cəbhə qüvvələrinin bir-birilə rəqabət aparan syoqunat və imperator sarayı müvəqqəti olaraq barışdılar. Nəticə etibarilə syoqun saray zadəganları və syoqun əleyhinə müxalifətçilər arasında "syoqun və imperatorun birliyi" adı ilə məşhur olan saziş imzalandı. Bundan sonra başlıca olaraq ölkənin cənub-qərb knyazlarının iqtisadi qüvvələrini sarsıdan "zaminlik" sistemi 1862-ci ildə ləğv edildi. Syoqun İyemoti "barbarları

qovmağa" başlamaq və xarici dövlətlərlə hər cür ticarəti dayandırmaq haqqında müxalifətin təklifini 1863-cü ildə qəbul etməklə ciddi güzəştə getdi. Buna müvafiq olaraq Tyosyu knyazlığı 1863-cü il iyunun axırlarında Simonoseki körfəzində Amerika, Fransa və Hollandiya gəmilərini atəşə tutdu. Buna cavab olaraq, Amerikanın "Vayominq" hərbi gəmisi onunla döyüşə girən yapon gəmilərini, həmçinin sahil batareyalarını top atəşinə tutdu. Eyni zamanda bir neçə gündən sonra Simonoseki körfəzindəki yapon istehkamçıları Fransanın iki gəmisini yenidən atəşə tutdu. Bütün bunlar dövlətlərin Yaponiyaya qarşı cəza ekspedisiyası göndərməsini sürətləndirdi. Bunların içərisində ən böyüyü ingilis cəza ekspedişiyası idi. Admiral Kuperin başçılığı altında 7 gəmidən ibarət olan ingilis eskadrası 1863-cü il avqustun 11-də Satsuma knyazlığının paytaxt şəhəri Krasimanı top atəşinə tutdu və xeyli təlәfat oldu.

Simonoseki körfəzində xarici gəmilərin atəşə tutulması halları davam etdiyindən bir sıra dövlətlər birgə cəza ekspedisiyası təşkil etmək qərarına gəldilər ki, bu da əslində ABŞ başda olmaqla Avropa dövlətlərinin Yaponiyaya qarşı hərbi koalisiyası idi.

Beləliklə, admiral Kuperin komandası altında 290 topla silahlanmış və 5014 nəfərlik canlı qüvvəsi olan 17 gəmidən ibarət birləşmiş ingilis, fransız, holland və ABŞ eskadrası 1864-cü il sentyabrın əvvəllərində Simonoseki körfəzindəki Tyosyu knyazlığının sahillərini atəşə tutdular. Bundan sonra, 1864-cü ilin oktyabrında xarici səfirlərlə hökumət nümayəndəsi arasında saziş imzalandı. Saziş Tyosyu knyazının Simonoseki körfəzi sahillərində istehkamlar tikməsini qadağan etməyi nəzərdə tutur və xarici gəmilərin körfəzdən keçməsinə tam sərbəstlik verirdi. Syoqun hökuməti müəyyən edilmiş müddətlərdə 3 milyon dollar təzminatı verməyi öhdəsinə götürdü. Bu sazişin bağlanması syoqunatın hərbi-iqtisadi qüvvələrini daha da sarsıtdı.

Xarici hərbi müdaxilə Yaponiyada əsas siyasi qrupların mübarizəsinin kəskinləşməsinə böyük təsir göstərdi. Bu hadisə

Tyosyu, Satsuma, Tosa və Xidzen knyazlıqlarının daxil olduğu antitokuqava ittifaqının təbliğ etdiyi "rədd olsun barbarlar" şüarının daha geniş yayılmasına səbəb oldu. Mərkəz və Şimal knyazlıqlarına nisbətən iqtisadi cəhətdən daha çox inkişaf etmiş olan cənub-qərb knyazlıqlarına ticarət burjuaziyası, xüsusilə varlı Mitsui və Konoike ailələri yardım göstərirdilər. Öz müstəmləkəçilik məqsədlərinə və Yaponiyada üstün nüfuz qazanmaq uğrunda rəqabət mübarizəsi mənafeyinə görə Avropa dövlətləri müxtəlif qruplara kömək edirdi. Fransa və ABŞ syoqunatın tərəfində, İngiltərə isə 1864-cü ildən etibarən imperator ailəsi və cənub-qərb knyazlıqlarının antisyoqun ittifaqı tərəfində dururdular. Bununla bərabər, xarici dövlətlərin hamısı bakufunun xaricilərlə bağlamış olduğu qeyri-bərabərhüquqlu müqavilələrin imperator tərəfindən təsdiq edilməsinə çalışır və Yaponiyanın daxili həyatına daha dərindən sirayət etməyə can atırdılar. Bu məqsədlə də ingilis vitse-admiralı Kinqin komandası altında 9 gəmidən ibarət birləşmiş ingilis, fransız və holland eskadrası Osaka körfəzində hədələyici manevrlər etdi. Syoqun hökuməti qarşısında yeni tələblər qoyuldu. Bunların içərisində, əlavə olaraq Osaka, Xioqo, Niiqata limanlarının da xarici ticarət üçün açılması və Yaponiyaya gətirilən bütün mallardan alınan gömrük haqqının azaldılması və həmin malların qiymətinin 5 faizinədək endirilməsi tələbləri də var idi. Nəticə etibarilə bakufu və imperator sarayı xarici koalisiya qüvvələri qarşısında təslim oldular. 1865-ci ilin noyabrında imperator bütün müqavilələrin təsdiq olunduğunu elan etdi. 1866-cı ilin yayında isə, idxal olunan mallar üzərinə qoyulan gömrük haqqına dair yeni saziş imzalandı ki, bu da Yaponiya iqtisadiyyatının vəziyyətini daha da pisləşdirdi.

Dövlətlərin müdaxiləsi şəraitində Yaponiyada bir tərəfdən dövləti iflic vəziyyətinə salan vətəndaş müharibəsi, digər tərəfdən isə antitokuqava ittifaqı daxilində mübarizə, çevrilişdən sonra yaranacaq hökumətdə nüfuz qazanmaq uğrunda mübarizə başlandı. 1863-cü ilin sentyabrında bir tərəfdən syoqun qoşunları və Satsuma knyazının qoşunları, o biri

tərəfdən də Tyosyu knyazlığı qoşunları və Ronin dəstələri arasında qanlı toqquşma baş verdi. Tyosyu knyazlığı qoşunları və Ronin dəstələri məğlub oldular. Nəhayət, təxminən bir il sonra, yəni 1864-cü ilin avqustunda Tyosyu qoşunları və Roninlərin Kiotoda qisas almaq səyləri onların yeni məğlubiyyətilə nəticələndi. Tyosyu knyazlığı syoqunatı devirmək üçün qüvvə toplamaq işini davam etdirdiyindən, bakufu onu qiyamçı elan etdi və 1865-ci ilin iyulunda ona qarşı yürüşə başladı. Lakin bu yürüş dayandırıldı. Yürüşün dayandırılmasının zahiri səbəbi 1866-cı ildə syoqun İyemoti və imperator Komenin, demək olar, eyni vaxtda vəfat etmələri idi. Bu isə cənub-qərb knyazlıqlarının zadəgan-burjua müxalifətçi qüvvələrinin sıx birləşməsinə və əlverişli şəraitdə onların hücuma keçməsinə kömək etdi. Tyosyu knyazlığının başçısı Yamanouti antitokuqava ittifaqı adından syoqun Keykiyə memorandum təqdim edərək hakimiyyəti imperatora qaytarmağı məsləhət gördü. İmperator Mutsuxito (Meydzi) oktyabrın 14-də Satsuma və Tyosyuya syoqun hökumətinə qarşı hərbi əməliyyata başlamaq əmri verdi. Qüvvələr nisbətinin əlverişli olmadığını nəzərə alıb silahlı mübarizəyə hazırlaşmaq üçün vaxt əldə etməkdən ötrü Keyki 1867-ci il oktyabrın 28-də istefaya çıxmaq təklifini qəbul etdi. İmperator Mutsuxito (Meydzi) 1868-ci il yanvarın 3-də şahzadə Arisuqava başda olmaqla yeni hökumət təşkil olunduğunu elan etdi.

Lakin yeni hökumətdə öz nüfuzunu və mövqeyini saxlamağa ümid bağlayan Keyki yenidən hərbi mübarizəyə yolunu tutdu və müqavimət göstərmək qərarına gəldi. Uzun müddətdən bəri ölkədə təkbaşına hökmran olan feodal sinfinin mənafeyini təmsil edən Keyki ona sadiq qalan qoşunları ilə Osakadan Kioto üzərinə hərəkət etdi. Fusimi və Toba yaxınlığındakı vuruşmalarda Keykinin qoşunları məğlub edildi, o özü isə Edoya qaçdı. Cənub-qərb knyazlıqlarının üstün qüvvələrinin müvəfəqiyyətli hücumu nəticəsində syoqunatın qoşunları təslim olmağa məcbur oldu. Aydzu başda olmaqla şimal-şərq knyazlıqlarının müqaviməti davam etdirmək təşəbbüsü 1868-ci ilin noyabrında onların

məğlubiyyətilə qurtardı. Yeni rejimə qarşı mübarizəni davam etdirmək üçün Edzo adasında (Xokkaydo) möhkəmlənməyə çalışan syoqun donanmasının axırıncı təşəbbüsü də 1869-cu il iyunun axırlarında eyni məğlubiyyətlə qurtardı. Adanın paytaxtı Xakodate şəhərində hətta "zadəgan respublikası" elan edilmişdi. Lakin bu müvəffəqiyyətsizlik nəticəsində həmin "zadəgan respublikası" öz prinsiplərini və həyata keçiriləcək hərbi-siyasi tədbirlərini reallaşdırmağa imkan tapmadı.

## 1867-1868-ci illər inqilabının xarakteri və hərəkətverici qüvvələri

1867-1868-ci illər inqilabı və çevrilişi nəticəsində Yaponiya feodalizm quruluşundan kapitalizm quruluşuna keçdi. Bu çevriliş yeni ictimai münasibətlərin yetişməsi xüsusiyyətləri ilə əlaqədar olaraq özünəxas olan burjua inqilabı xarakteri daşıyırdı.

Bir çox klassiklər haqlı olaraq bu hadisəni inqilab kimi qiymətləndirmişdir. Yaponiyada baş verən çevrilişdə ideoloji hazırlıq böyük rol oynadı. Çevrilişin ən mühüm şüarları: "bakufunu devirmək", "imperator hakimiyyətini bərpa etmək" və "barbarları qovmaq" şüarları idi. Bu şüarlar cənub-qərb knyazlıqlarının və yaranmaqda olan burjuaziyanın müxalifətçi antisyoqun tərəfdarlarını birləşdirdi. Syoqunat sisteminə nifrət edən və imperatorun syoqundan yaxşı olacağına sadəlövlüklə ümid bəsləyən kəndlilər və şəhər yoxsulları da bu şüarlar ardınca gedirdi. Kəndli kütlələri və şəhər yoxsulları bu və ya digər dərəcədə başa düşürdülər ki, qeyri-bərabər müqavilələrin ləğv edilməsi, Amerika və Avropa müstəmləkəçilərinin ölkədən qovulması Yaponiyanın daxilində stabilliyi saxlaya bilər.

1867-1868-ci illər inqilabının əsas hərəkətverici qüvvəsi kəndlilər və şəhər yoxsulları idi, samurayların aşağı təbəqələri də onlara kömək edirdi. Könüllü "qeyri-adi döyüşçü dəstələri" də mühüm rol oynamışdı. Bu dəstələrdə kəndlilər, şəhərlərin aşağı təbəqələri və sinfi simasından və imtiyazlarından məhrum edilmiş samuraylar xüsusi fəallıqla iştirak edirdilər.

Feodal-burjua bloku, yəni cənub-qərb feodallarının mütərəqqi syoqunat rejimi əleyhinə çıxan müxalifətçi hissəsi ilə yeni meydana gəlmiş burjuaziyanın ittifaqı çevrilişdə əsas rol oynayırdı ki, bu ittifaq da uzun müşahidələrdən sonra baş tutmuşdu.

Burjuaziya hələ iqtisadi cəhətdən zəif olsa da, köhnə syoqun sisteminə qarşı siyasi mübarizəni davam etdirmək üçün maliyyə vəsaiti ilə təmin olunmaqla yanaşı özünün də kifayət qədər kapitalı var idi. Bununla yanaşı Mitsui, Konoike, Ono və Simada ailələrindən olan varlı tacirlər də antisyoqun cəbhəsinə borc verir və çoxlu vəsait sərf edirdilər.

Belə bir şəraitdə feodal-burjua bloku isə inqilabın islahat yolu ilə getməsini və birinci növbədə kəndlilərin və şəhər yoxsullarının mübarizəsinin yatırılmasını istəyirdi. Feodal-burjua təbəqələrinin inqilabdan qorxmaları onunla bağlı idi ki, inqilab təhlükəsi hər bir xüsusi mülkiyyətçini xoflandırırdı. Çünki, inqilab dalğası istismarçıların uzun illər xalqı istismar edərək topladığı sərvətini əldən çıxara bilərdi.

Məhz bu xüsusiyyətlərinə görə Yaponiyadakı 1867-1868-ci illər inqilabı natamam xarakter daşıyırdı. Bunun yarımçıqlığı feodalizm quruluşu daxilində kapitalist münasibətlərinin hələ tam yetişməməsi xüsusiyyətlərindən irəli gəlmişdi. Bu xüsusiyyətlər aşağıdakılardan ibarət idi: uzun zaman (1639-1854) Yaponiyanın xarici aləmdən təklənməsi və bunun nəticəsində feodal münasibətlərinin dağılmasının və kapitalist əlaqələrinin yetişməsinin ləngiməsi, şəhərlərin, manufakturaların və burjuaziaynın nisbətən zəif inkişaf etməsi, ilkin kapital yığımının kifayət qədər olmaması, feodal dairələrinin bir hissəsilə ticarət burjuaziyasının (başlıca olaraq Osakanın iri tacirlərinin) iqtisadi mənafeyinin bir-birilə sıx bağlı olması və bunun nəticəsində mənafeli kəndli üsyanları və şəhər yoxsullarının çıxışlarının yatırılmasını tələb edən feodal-burjua blokunun əmələ gəlməsi üçün şəraitin yaranması, daxili feodalizm sisteminin böhranı ilə Qərb dövlətləri təzyiqinin bir vaxta təsadüf etməsi, feodalizm cəmiyyətinin bütün ziddiyyətləri kəskinləşdirməsi və kapitalist quruluşunun qələbəsini

sürətləndirməsi[1], saray çevrilişi ilə (imperator hakimiyyətinin bərpa edilməsi) kəndlilərin və şəhər yoxsullarının inqilabi çıxışlarının birləşməsi və siyasi hakimiyyəti ələ almaq üçün feodal-burjua ittifaqının bu çıxışlardan istifadə etməsi və s. həmin problemlərin əlamətlərindən idi.

Qeyd edilən iqtisadi, siyasi amillərlə yanaşı Yaponiyadakı 1867-1868-ci illər inqilabının daha bir mühüm xüsusiyyəti də var idi. belə ki, inqilab müəyyən dərəcədə azadlıq ideyaları xarakteri daşıyırdı və inqilabın bir vəzifəsi də Yaponiyanın müstəqil, azad inkişafını təmin edə biləcək mərkəzləşmiş burjua dövləti yaratmaqdan ibarət idi. Kəndlilərin və şəhər yoxsullarının antifeodal mübarizəsi milli hərəkatla birləşirdi. Yəni bu inqilab qarşısına bir çox problemin həllini qoymuşdu.

Təəssuf ki, qeyri-obyektiv nəzəriyyələr əsasında yazılan tarixşünaslıqda 1867-1868-ci illər inqilabının xarakteri təhrif edilir. Tarixçilərin bir qismi xarici ekspedisiyaların, xüsusilə Perrinin ekspedisiyasının yardımı ilə Yaponiyaya kapitalizm idxal edilməsi kimi elmə zidd nəzəriyyə irəli sürürlər. Tarixçilərin digər qismi isə çevrilişin mahiyyətini yalnız imperator hakimiyyətinin bərpa edilməsi ilə məhdudlaşdırırdılar. Halbuki, imperator hakimiyyətinin bərpa edilməsi, imperator bayrağından öz mənafeyi üçün istifadə etməyə çalışan antitokuqava ittifaqı özü də bilmədən buna xidmət etmişdi.

Bütün bu təhriflər 1867-1868-ci il hadisələrinin inqilabi məzmununu rədd edir. Halbuki, Yaponiyadakı burjua çevrilişinin natamamlığı heç də onun inqilabi məzmununu azaltmır. Çünki bu hadisə məzmununa görə inqilabdan da yüksək idi.

---

[1] "Marksın təbirincə desək, hər bir köhnə cəmiyyət yeni cəmiyyətə hamilə olduqda zorakılıq ona mamaça olur". (F.Engels. "Anti-Dürinq". Bakı, 1953-cü il, səh 173).

## 1868-1873-cü illərdəki inqilab nəticəsində burjua dəyişiklikləri

Yaponiyada 1867-1868-ci illər hadisəsi mahiyyətinə görə köhnəliklə yeniliyin mübarizəsi idi. Hakim təbəqə yenə də bu hadisələrdən səmərəli şəkildə bəhrələnmişdi. Tarixi obyektivlik isə bundan ibarətdir ki, feodal Yaponiyası Şərqin başqa ölkələrindən yarım əsr tez, Rusiya, Almaniya və İtaliya ilə bir vaxtda, lakin İngiltərə, Farnsa və ABŞ kimi ölkələrdən sonra kapitalist inkişafı yoluna keçmişdir. Yuxarıda deyilənlərdən başqa, bu hal bir də onunla izah olunur ki, Yaponiyanın ətrafında olan ölkələr iqtisadi cəhətdən zəif dövlətlər idi və Yaponiya kapitalizmin ilk mərkəzi olan Avropadan uzaq Asiya ölkəsi idi. İnqilab dövründə Yaponiyanın geriliyi, onun xarici kapitalist ölkələrinin müstəmləkəçisinə çevrilməsi təhlükəsi yaratmışdı. Odur ki, Yaponiyanın düşdüyü vəziyyətdən, müstəmləkə əsarətinə alınması təhlükəsindən xilas olması, gerilik vəziyyətindən obyektiv çıxış yolu, Yaponiyanın müstəqil olması üçün möhkəm baza yarada biləcək sürətli iqtisadi inkişaf ola bilərdi.

İnqilab nəticəsində hakimiyyətə keçən Arisuqavanın yeni hökuməti ölkədə bir sıra dəyişikliklər həyata keçirməyə başladı. Mülkədar-burjua blokunun mənafeyini əks etdirən bu dəyişikliklərin məqsədi ölkənin iqtisadi asılılığını ləğv etmək və onun kapitalist inkişafı yolundakı maneələri aradan qaldırmaq idi. Ən əvvəl və ən vacib şərtlərdən biri də o idi ki 1868-ci ildə, xaricilərə qarşı çevrilmiş köhnə siyasət avropalaşma siyasəti ilə əvəz olundu, sənət sexləri və ticarət gildiyaları inhisarının ləğvi qanunla rəsmiləşdirildi, ayrı-ayrı knyazlıqlar arasındakı daxili gömrük sədləri və qaçan kəndliləri tutmaq üçün yollardakı qaravulxanalar ləğv edildi. Bununla da vahid daxili milli bazar və azad işçi qüvvəsinin əmələ gəlməsi üçün şərait yarandı. Sonra yəni 1869-ci ildə, "dörd silk haqqındakı" qanun ləğv edildi və bütün silklər hüquqca bərabərləşdirildi. 1869-1870-ci illərdə maarif islahatı keçirildi. Ən mühüm isla-

hatlar 1871-ci ildə keçirildi. Toxunulmazlar kastası rəsmi surətdə ləğv edildi. Əhalinin bütün təbəqələrinə, o cümlədən samuraylara azad surətdə özünə peşə seçmək və istədiyi müamilə fəaliyyətilə məşğul olmaq ixtiyarı verildi. Ölkənin knyazlıqlara bölünməsinə son qoyan və bunu prefektura sistemi ilə əvəz edən inzibati idarəçilik sisteminə dair islahat keçirildi. Bu islahatın keçirilməsi mərkəzləşmiş burjua dövlət aparatı yaradılmasına kömək etdi. Hökumətdən başqa heç kimə pul buraxmaq ixtiyarı verilməməsi də buna kömək etdi və vahid pul sistemi yaratmağa imkan verdi. 1872-ci ildə ümumi hərbi mükəlləfiyyət qoyulması haqqındakı tədbirlər nizami ordu təşkil etmək üçün qanunla tənzimləndi.

Ən başlıcası isə ölkədə həyata keçirilən dəyişikliklərin yekunu aqrar islahatla nəticələndi. Bu islahat 1871-1873-cü illərdə hökumətin bir sıra qanunlarında öz ifadəsini tapdı. 1871-ci ildə "samuray torpaqları" adlanan yerlər və "şəhərlilərin torpaqları" adlanan torpaqlar ləğv edildi, istənilən ərzaq və texniki bitkilər yetişdirilməsinə ixtiyar verən və kəndlilərin kənd təsərrüfatı bitkiləri yetişdirməkdən başqa, digər peşələrlə məşğul olmasına icazə verən qanun nəşr olundu və xalq hökumətin islahatı haqqında məlumatlandırıldı. Qanun xalqa aydın şəkildə təqdim edilməyə başladı. Bununla yanaşı əvvəllər feodal qaydaları ilə müəyyən edilmiş torpaq müamilləri qanuna salındı və azad bir surətdə torpağı alıb-satmağa icazə verildi. Torpaq sahiblərinə xüsusi torpaq biletləri deyilən ("tiken") kağız verilirdi ki, bu da müəyyən torpaq sahəsinə, yəni sahibkarlığa hüquq verirdi. Bununla da torpaq üzərində mülkiyyət hüququ təsdiq edilirdi. Bundan başqa, natural vergi pul vergisi ilə əvəz olunurdu və torpağın bazar qiymətinin 3 faizi miqdarında vahid vergi norması qoyulurdu. 1873-cü ildə torpaq mülkiyyətinin girova qoyulmasını nizama salan qanunun verilməsi mütərəqqi hal idi.

Amma mülkədar-burjua blokunun həyata keçirdiyi aqrar islahat yalnız yapon kəndinin varlı təbəqələrinin mənafeyinə uyğun idi. Təssüfedici hal idi ki, bu islahat yarımfeodal mülkədar torpaq sahibliyini və əsarətli icarə formasını saxladı.

İslahat kəndlilərin yalnız vergi yükünü bir qədər yüngülləşdirdi. Əlbəttə, bütün məhdudiyyətlərə baxmayaraq aqrar islahat kənd təsərrüfatında kapitalizmin inkişafı üçün imkan yaradırdı, kəndin təbəqələşməsi prosesini isə sürətləndirirdi. Nəticədə gələcəkdə sinfi mübarizəyə yol açırdı.

Əlbəttə, etiraf olunmalıdır ki, Yaponiyada sənaye müəssisələri inkişaf etsə də yaponiyalı proletariat hələ tam formalaşmamışdı. Yaponiya proletariatı zəif olduğuna görə əvvəlki kimi yenə də hökumətə qarşı çıxışların təşəbbüsçüsü yeni hökumət tərəfindən soyulub qarət edilən kəndlilər idi. 1868-1873-cü illərdəki üsyanlarda kəndlilərin bütün təbəqələri, o cümlədən kəndin yuxarı təbəqələri də iştirak edirdi. Lakin aqrar islahata başlanması ilə əlaqədar olaraq kəndin yuxarı təbəqələri mübarizədən uzaqlaşır və 90-cı illərdə mübarizənin rəhbərliyi kənd yoxsullarının əlinə keçirməyə başlamışdı. Üsyanlar mülkədarların və kənd burjuaziyasının zülmünə qarşı, vergilərin yığılmasında, vergi qoyulmasında və aqrar islahatın keçirilməsində hökumət məmurları ilə birlikdə qanunsuzluq və özbaşınalıq edən kəndxudalara qarşı, yüksək icarə haqqına qarşı çevrilmişdi. Kəndlilər kəndxudaların seçkili olmasını, vergi alınmasında sabit norma qoyulmasını və vergilərin azaldılmasını, düyünün qiymətinin qaydaya salınmasını tələb edirdilər. Bir sıra hallarda onlar hökumətin bəzi yeni tədbirlərinə qarşı o cümlədən ümumi hərbi mükəlləfiyyət, yeni təqvim və sair qanunlara qarşı protest edirdilər. Əslində dərk edilməsi o qədər də çətin olmayan bir proses baş verirdi. Yəni, haqlı olaraq Yaponiyada gələcək naminə ədalətli cəmiyyət uğrunda mübarizə aparılırdı. Yaponiyada gedən bu proses cəmiyyətin saflaşmasına, vətəndaş cəmiyyətinin qurulmasına, ideal cəmiyyət quruculuğuna, hər şey xalq üçün prinsiplərinə yönəlmişdi. Ən başlıcası seçimi xalq sərbəst şəkildə özü edirdi. Xalq kütlələri sərbəst toplaşmaq hüququnu əldə etmək üçün mübarizəni kütləviləşdirirdi. Bu məqsədlə 1868-1873-cü illərdə 172 kəndli üsyanı baş vermişdi.

1868-1873-cü illərdəki üsyanlar, inqilabın yarımçıq xarakterinə qarşı idi və yapon kəndlilərinin narazılığının ümumi ifadəsini göstərirdi. Bu üsyanları tez yatırmaq üçün yarımfeo-

dal mülkədarlar və burjuaziya aqrar islahatın həyata keçirilməsini daha da sürətləndirdilər ki, xalq kütlələrinin müqavimətini tamamilə məhdudlaşdıraraq hakim irticaçı blokun strateji mövqeyini möhkəmlətsinlər.

## Mədəniyyət

Tokuqava ailə hakimiyyətinin birinci dövründə olduğu kimi, XVIII əsrin ikinci yarısı və XIX əsrin əvvəllərində, əsrlərdən bəri Yaponiyada yayılmış olan buddizm ilə konfusiçilik məfkurələrinin şiddətli mübarizəsi müşahidə edilmişdi. Kəndli üsyanlarının artması, ölkənin iqtisadi vəziyyətinin pisləşməsi və Tokuqava syoqunlarının buddist monastırlarına vurduğu zərbələrlə əlaqədar olaraq, XVIII əsrin ortalarından etibarən buddist kilsəsinin nüfuzu aşağı düşür. Yeni şəraitdə buddizm, feodalizm quruluşunu möhkəmlətmək, ölkənin mərkəzləşdirilməsini təmin etmək üçün yararsız ideoloji alətə çevrilmişdi. İndi əxlaqi-siyasi təlim olan konfusiçilik ön plana keçirdi.

Tokuqava syoqunat rejiminin rəsmi dövlət ideologiyası buddizm və daosizmin təsiri altında meydana çıxmış olan Çjusian konfusiçilik oldu. Bu ideologiyanın tərəfdarları syoqunat rejiminin müqəddəs, qanuni və əbədi olduğunu sübut edirdilər. Onlar səbr etməyə çağırır və qüdrətli yaradıcı zəka, hər şeyin əsası hesab etdikləri syoqunat rejimi ilə və qismətlə barışmağı tələb edirdilər.

Tokuqava ailəsinin hakim ideologiyası olan Çjusian fəlsəfəsinə qarşı "milli alimlərin" ideoloji sistemi irəli çıxdı. "Milli alimlər" məsləkinə mənsub olan yapon alimləri və filosofları yabançı nəzəriyyələrə (buddizmə, Çin və Hollandiya təsirinə) qarşı mübarizə aparmaq və Yaponiyanın özünə xas olan spesifik xüsusiyyətləri (sintoizm, mədəni müstəqillik, yapon dilinin təmizliyi) dirçəltmək üçün yapon əfsanəsinin ən qədim abidələrini ("Kodziki" və "Nixonqi" əfsanələrini) tərifləyib göylərə qaldırırdılar. Yaponiyanın məşhur tarixçisi və filoloqu Motoori Norinaqanın (1730-1801) tərəfdarları, Yaponiyanın yeganə qanuni hökmdarı elan edilmiş "müqəddəs" imperatora danışıqsız itaət etməyə çağırırdılar.

"Milli alimlərin" təlimi antisyoqun blokunun royalist (monarxist) hərəkatının ideoloji əsası oldu, 1867-1868-ci illər burjua çevrilişinin hazırlanması və həyata keçirilməsində böyük rol oynadı. Motoori Norinaqanın şagirdi olan Xirata Atsutane (1776-1843) həmin ideologiyanın görkəmli təbliğatçısı idi. O, imperator hakimiyyətinin bərpa edilməsinin zəruriliyi uğrunda fəal çıxış edirdi.

"Çin elminin" tərəfdarları olan başqa alimlər Tokuqava syoqunatının son dövründə xüsusilə 1853-1867-ci illərdə onun təklənmə xarici siyasətinə qarşı çıxırdılar.

Nisbi təklənmə siyasətinə baxmayaraq ölkədə elmi-təbii biliklər yayılırdı. Bir sıra alimlər öz əsərlərini Kopernik və Kant-Laplas nəzəriyyələrinə həsr edirdi. Yaponlar astronomiyadan başqa, geologiya və riyazi elmləri də öyrənir, hollandiyalıların köməyi ilə hərb elmlərini də öyrənməyə başlamışdılar. Holland alimlərinin təsiri altında Yaponiyada tibb elmlərinin yayılmasına da xeyli diqqət verilirdi. Təbiət elmlərinin inkişafı dini-fəlsəfi cərəyanlara zərbə vurur və materialist ideyaların yayılmasına kömək edirdi.

XVIII əsrdə və XIX əsrin birinci yarısında dilşünaslıq da inkişaf etməkdə idi. Bu məqsədlə yapon dilinin qrammatik quruluşu, sözlərin hecalara bölünməsi və dəyişmə nəzəriyyəsi elmi cəhətdən işlənilirdi.

XVIII əsrin axırlarından etibarən holland dilinin öyrənilməsinə xüsusilə diqqət verilirdi. 1856-cı ilə Edoda (Tokio) "barbarların yazılarını öyrənmək üçün məktəblər" yaradılır və bunlarda holland dili ilə yanaşı, Avropanın başqa dilləri də öyrədilirdi. Amma yapon ziyalıları və yapon vətənpərvər alimləri tövsiyyə edirdilər ki, "yad dilləri öyrənək, lakin ana dilimizi unutmayaq".

Yaponların coğrafiya sahəsindəki bilikləri də genişlənirdi. 1782-ci ildə Koreyanın, Edzo və Ryukyu adalarının coğrafiyasına dair böyük əsər yazıldı. Bununla yanaşı 1844-cü ildə Yaponiyanın xəritəsinin tərtib olunması başa çatdırıldı ki, bu da coğrafiyaşünaslıqda yenilik idi.

Ölkənin təklənmə siyasətini inadla davam etdirən hökumət Avropa maarifinin Yaponiyada yayılmaması üçün sərt tədbirlər görürdü. Amma bu sahədə ölkə daxilində müxtəlif fikirlər və mövqelər də mövcud idi.

Bununla yanaşı XVIII əsrin ikinci yarısı və XIX əsrin əvvəllərində feodalizm dövrü ədəbiyyatının güclü inkişafı ilə xarakterikdir. Bu ədəbiyyat feodalizmin son dövrünə xas olan ən mühüm prosesləri, ilk növbədə isə şəhərlərin inkişafını, ölkənin iqtisadi və ictimai həyatında tacir və sənətkar silklərinin nüfuzunun artmasını əks etdirirdi, yəni baxmayaraq sinfi mahiyyət kəsb edirdi.

Romantik novella janrı və bu növdən olan əsərlər XVIII əsrin sonu və XIX əsrin birinci rübündə, xüsusilə geniş şöhrət tapmışdı.

"Şəkilli kitabçalar" (qırmızı, göy və sarı rəngli) yayılmışdı. Bu ədəbiyyat burjuaziyanın rasionalistik (şüura və məntiqə əsaslanan) ideologiyasını əks etdirir və neokonfutsiançılıq, buddizm və sintoizm əlamətlərini özündə birləşdirirdi. Bunların içərisində qısa hekayələr janrı, hakim feodal sinfinə qarşı çevrilmiş satirik "sarı kitabçalar" xüsusi yer tuturdu. Syoqun hökumətinin cəza tədbirləri satirik əsərlərin qadağan edilməsinə səbəb olduğundan müəlliflər didaktik ədəbiyyata daha çox üstünlük verirdilər. "Seriya-roman" tipli əsərlərdə qısa hekayələr forması mürəkkəb rəvayət üslubu ilə birləşirdi. Bu janrın ən görkəmli nümayəndələri "Camaat hamamı" və "Camaat bərbərxanası" əsərlərinin müəllifi Sikitey Samba (1797-1844), "Yalançı Murasaki, kəndli Qendzi" əsərinin müəllifi Ryutey Tanexiko (1783-1842) idi. Dzippensya İkku da (1765-1831) XVIII əsrin son rübü və XIX əsrin əvvəllərində şəhərlilərin və sənətkarların həyatını əks etdirən novellalar yazırdı. Onun məşhur romanı olan "Böyük Tokaydo yolu ilə piyada" əsəri (1802) iki nəfər savadsız gəncin pulları olmadığına görə Tokaydo və bir sıra başqa iri şəhərləri piyada gəzdiyini realist ruhda əks etdirir.

Bütün dünyada şöhrət qazanmış yazıçı Bakin Kyokutey 1767-1848-ci illərdə feodal, samuray ədəbiyyatının ən böyük klassiki olmuşdur. Bu söz ustadının ən parlaq əsərindən biri də "Səkkiz köpəyin tarixi" adlı alleqorik romanıdır.

Bu dövrdə banisi Tikamatsu Mondzaemon hesab olunan yapon dramaturgiyası və teatrının çiçəklənməsilə xarakterikdir.

Çoxpərdəli pyeslər janrının yaranması dramaturq Namiki Syodzonun (1730-1773) adı ilə bağlıdır. Köhnə feodal dramaturgiyası əlamətləri həmin janrda saxlanılmışdı. Bu pyeslər Tikamatsunun və kukla teatrının banisi Takemoto Qidayyunun yaradıcılığı üçün xarakterik olan şifahi xalq dastanlarının daha da inkişaf etdirilməsi idi.

Nəsrlə yanaşı yapon poeziyası da, xüsusən yüksək bədii lirika nümunəsi olub, dərin məzmunlu, qısa (5-7-5 hecalı) ekspromt-epiqramlar ("xokku") xeyli inkişaf etmişdi.

Öz gələcəyinə, yəni feodal zadəganlar, onların siyasi rejimi olan syoqunat, feodal ideologiyası üzərində qələbə çalacağına inanan burjuaziyanın realizmi və optimizmi yeni ədəbiyyatda, həmçinin teatrda öz əksini tapdı.

Yapon incəsənəti də xeyli inkişaf etmişdi. Rəssamlıqda XVII əsrin ikinci yarısında İvasa Mataxey (1578-1650) tərəfindən əsası qoyulmuş olan realizm istiqaməti üstün yer tuturdu. Oqata Korin (1661-1716) tərəfindən yaradılmış olan "Korin məktəbi" rəssamlığı çox geniş yayılmışdı. Korin yapon impressionizminin banisi və lakla şəkil çəkməyin misilsiz ustası hesab olunur. XVIII əsrin axırı –XIX əsrin əvvəllərində bu məktəbin ən görkəmli nümayəndəsi Sakai Xoitsu (1761-1828) olmuşdur.

Yaponiyada çoxlarına məlum olmayan "Ukiyoe"[1] adlanan başqa bir realist cərəyan da inkişaf edirdi. Bu cərəyanın

[1] "Ukiyoe" üslubunun banisi, yapon nəqqaşlıq janrının görkəmli ustası Xisikava Moronobu (1618-1694) hesab olunur. Xromoksiloqrafiyanın (rəngli çap) bəddi təkmilliyi və qara rəngdən dekorativ məqsədlə istifadə edilməsi onun adı ilə əlaqələndirirlər. "Ukiyoe" məktəbinin məşhur rəssamlarından biri də İvasa Mataxey olmuşdur.

nümayəndələri olan rəssamlar (Kiyonobu, Utamaro, Xokusoy və başqaları) gül şəkli çəkir, buddist rəsmləri məsxərəyə qoyan təsvirlər verir, üçüncü silkin həyatından götürülmüş müxtəlif mövzulara rəsmlər həsr edirdilər.

XVIII əsrin ikinci yarısı, XIX əsrin əvvəllərində ağac üzərində qara, sonra da rəngli qravyura, habelə fil sumuyündən bədii miniatür heykəllər hazırlanması da geniş yer tuturdu ki, bunlar da əsasən burjuaziyanın zövqünü əks etdirirdi.

Rəssam Okyo Maruyama (1738-1795) realist "Okyo məktəbinin" və ya "Maruyama məktəbinin" banisi idi. Okyo və onun şagirdləri, o cümlədən Matsumura Qosyun (1752-1811) və Sosen (1747-1821) olduqca realistcəsinə və məharətlə işlənilmiş təbiət mənzərələri və şəkillər yaratmışlar.

Əvvəllər olduğu kimi, XVIII əsrin ikinci yarısı və XIX əsrin birinci yarısında da memarlığın inkişafı ruhanilərə və feodal zadəganlara mənsub olan məbəd, məqbərə, saray və qalalar tikintisi ilə əlaqədar idi. Məişətdə istifadə olunan kiçik plastik əsərlər (kiçik heykəllər), həmçinin saxsı qab sənəti olduqca təkmilləşmişdi.

Nəhayət, 1867-1868-ci illər inqilabından sonra Yaponiyada burjua mədəniyyətinin inkişafı gücləndi, burada Avropa elmi və incəsənəti geniş yayılmağa başladı. 1871-ci ildən etibarən gündəlik qəzet çıxmağa başladı[1]. 1872-ci ildə ümumi ibtidai təhsil haqqında qanun verildi, Tokio imperator universiteti və Tokioda kütləvi imperator kitabxanası təsis olundu. 1873-cü il yanvarın 1-dən Yaponiyada Avropa təqvimi qəbul edildi. 1877-ci ildə Tokio univeristeti açıldı və 1879-cu ildə imperator elmlər Akademiyası yaradıldı ki, bu da Yaponiyada xalqın sürətli inkişaf strategiyasını daha da zənginləşdirən mütərəqqi amillərdən biri idi. Bu işdə yapon xalqının prinsipiallığı, dəqiqliyi, zəhmətkeşliyi, ulu tanrını sevmələri, dostluqda sədaqətliliyi və milli həmrəyliyi əvəzolunmazdır.

[1] Yaponiyada ilk qəzet 1864-cü ildə təsis olunmuşdur.

# KOREYA

Koreya ölkəsinin adı X-XIV əsrlərdə burada hökmranlıq etmiş Korye sülaləsinin adı ilə bağlıdır. Koreyalıların özləri öz ölkəsini "Çason", yəni "sübh mehi ölkəsi" və ya "sübh dincliyi" ölkəsi, bəzən də "Səhər təravəti" ölkəsi adlandırırdılar.

Koreya ərazisində ilk məsgunlaşma üst paleolit dövrünə aid edilir. Koreyada aşkar olunmuş tısbağa təsvirlərindən bəlli olur ki, koreyalılar tısbağanı totemləşdirmişdilər və tısbağa koreyalılar üçün müqəddəs heyvan hesab edilir.

E.ə. 1-ci minillikdə Koreyada Çoson, Duye, Maxan və s. dövlətlər meydana gəlmişdi. Çinlə gərgin mübarizə şəraitində sonralar, yəni e.ə. I əsrdə erkən feodal dövlətləri – Koquryo, Pekçe, Silla dövlətləri yarandı. VIII əsrdə Silla Koreyanın bütün ərazisini ələ keçirdi. IX əsrdə ölkədə feodal zülmü son həddə çatdığına görə xalq ayağa qalxaraq Silla dövlətini süquta uğratdı və Koreyada xırda feodal dövlətləri yaradıldı. Amma çox keçmədi ki, sərkərdə Van Koryö 918-ci ildə yeni dövlətin əsasını qoydu və X əsrin sonunda Koryö dövləti mərkəzləşdirilmiş feodal dövlətinə çevrildi. X-XI əsrlərdə Koreyaya qarşı kudanların, 1231-ci ildə isə monqolların basqını zamanı Koreya xalqı öz azadlığı uğrunda inadlı mübarizə aparmışdır. Amma Koreya hakimləri dönük çıxaraq 1259-cu ildə monqol xanlarının hakimiyyətini tanımalı oldular və vassala çevrildilər. XIV əsrin ortalarında monqol xanlarının yaratdıqları Yuan imperiyası ilə münasibətlər gərginləşdi. 1359-1362-ci illərdə Koreya çinlilərin aramsız hücumlarını dəf etməli oldu. 1392-ci ildə Koryö sərkərdəsi Li Sonye çevriliş edərək hakimiyyəti ələ aldı və Koreyada 1392-1910-cu illəri əhatə edən Le sülaləsinin hakimiyyət dövrü başlandı. Le sülaləsi bu ölkəni Çoson adlandırdı və XV əsrin birinci yarısında Koreya xeyli inkişaf etdi. Amma XVI əsrin sonunda Koreyaya qarşı yapon istilası gücləndi. Koreyada ara müharibələrindən istifadə edən yaponlar Pusan, Xanson (Seul) və Pxenyanı işğal etdilər. Yalnız 1592-1598-ci illər də xalq azadlıq mübarizəsi nəticəsində işğal olunmuş ərazilər yapon istilasından azad edildi.

Koreya xalqı bir istilaçıdan xilas olduqdan sonra, digər işğalçı dövlətin, Çinin təcavüzünə məruz qaldı və uzun müddətli müqavimət hərəkatına baxmayaraq, 1637-ci ildə Çinin vassalına çevrildi. Koreyanı əsarət altına almağa cəhd göstərən monqollara, çinlilərə, yaponlara xitabən xalq ziyalısı, görkəmli tarixçi, dövlət xadimi, Koreya dövlətinin əfsanəvi banisi Kuyçjan ölkəsinə edilən xarici müdaxilədən bəhs edərək demişdir ki, sərkərdəni də, hökmdarı da, alimi-loğmanı da xalq yetişdirir, xalq həm də qüdrətli zəka sahibi olan müəllimdir. Əgər vətəni, torpağı qorumaq üçün oğul və qız doğulmayıbsa onda xalq günahkardır. Amma tam əminəm ki, xalq öz müdrikliyində qalmaqdadır, sadəcə olaraq mühitin korladığı vətəndaşlar və korlaya bilmədiyi vətənpərvərlər vardır. Dövlət sonuncuların "çiyni üzərində" dayanır.

Koreya 1644-cü ildə Çini istila etmiş mancurlara tabe edildikdən sonra, Koreya kralı ölkəni tərk etməyi qadağan edən fərman verdi. Buna görə də həmin qanunu pozanlar edam olunurdu. Xaricilərlə əlaqə saxlamaq qadağan idi. Bu qanunu pozan xaricilərə ölüm və ya ömürlük həbs cəzası verilirdi.

İctimai-iqtisadi cəhətdən Koreya feodal ölkəsi idi. Feodal torpaq sahibliyinin torpaq üzərində feodal mülkiyyəti təşkil edirdi. Rəsmən bütün torpaqlar dövlət torpaqları hesab edilirdi.

Əslində isə torpaq sahibliyinin dörd növü var idi ki, birinci bunlar da saray torpaqlarından ibarət idi. Saray torpaqlarını becərən kəndlilər torpaq vergisini ümumdövlət xəzinəsinə deyil, saray idarəsinə verirdilər. Beləliklə, dövlət torpaqlarının çox hissəsindən vergiləri kral öz xeyrinə toplayırdı. Bu torpaqlardan alınan gəlirlər kral ailəsinə sərf olunurdu; ikinci gəlirləri dövlət və əyalət idarələrinə xərclənən, həmçinin məmurlara maaş verilməsinə sərf olunan torpaqlar. Torpaq sahələri bunlarda yaşayan kəndlilərlə birlikdə məmurların ixtiyarına verilirdi; üçüncü monastır torpaqları; dördüncü feodalların xüsusi torpaqlarından ibarət idi.

Koreyada kəndlilər iki qrupa bölünürdü. Mülkədar torpaqlarında işləyən və yaşayan icarədar kəndlilər və ya saray torpaqlarında yaşamayan icarədar kəndlilər. Əsas vergi torpaq vergisi idi.

## Əmtəə-pul münasibətlərinin inkişafı

XVIII əsrin axırlarından XIX əsrin ortalarına qədər olan dövrdə aqrar münasibətlər üçün xarakterik cəhət feodal zadəganların, məmurların, mülkədarların və txoxo (kənd varlılarının) xüsusi torpaq sahibliyinin çoxalması idi. Torpağı alıb-satmaq hüququ torpaq siyahıları kitabında təsdiq edilmişdi. Feodal rentasının pul forması inkişaf edir və natural torpaq vergisi getgedə daha çox pul vergisi ilə əvəz edilirdi. Nəticədə Koreyada bazarın pulla tənzimlənməsi prosesi sürətləndi.

Bununla yanaşı Koreyada sənətkarlığın inkişafı köhnə primitiv sənət-sex birləşmələrinin dağılmasına səbəb oldu. XVIII əsrin axırlarında Koreyada əmtəə-pul münasibətlərinin inkişafı üçün əlverişli şərait yarandı. 1785-ci ildəki "Böyük qanun külliyatı" dövlət ustaları siyahısının ləğv edilməsini və ya onların şəxsən təhkimçilikdən azad olunmasını nəzərdə tuturdu. Bu qanun birinci növbədə əyalət sənətkarlarına aid edilirdi. Müxtəlif sənət işləri görmək üçün dövlət müstəqil ustaları işə cəlb edir və iş müqabilində onları natura və ya pulla ödəməyə başlamışdı. Bununla bərabər, ustalar bazarda əmtəə kimi satmaq üçün sənaye şeyləri istehsal etmək imkanı qazandı və bununla da xırda əmtəə istehsalçılarına çevrilməyə başladılar.

Lakin, sənətkarların şəxsən təhkimçilikdən azad edilməsi onları feodal dövlətinin ağır istismarından heç də xilas etmədi. Eyni zamanda sənətkarlar üzərinə müxtəlif vergilər qoyulmuşdu, onlardan pulsuz işlər görülməsi üçün də istifadə edilirdi. Bununla belə, heç də sənətkarların hamısına şəxsi azadlıq verilməmişdi. Silah istehsalında, saray və yuxarı zadəganlar üçün məişət şeyləri hazırlanmasında əvvəlki kimi yenə də dövlət sənətkarlığı sistemi qalmışdı. Bütün bunlar sənayenin inkişafına, azad sənətin manufaktura tipli sənayeyə keçməsinə hələlik mane olurdu.

Sənətkarlığın inkişafı istehsalın bu və ya digər sahəsi daxilində təbəqələşməyə, paytaxt və əyalət birləşmələri başçılarından ibarət varlı yuxarı təbəqə yaranmasına səbəb olurdu.

Sənətkarlığın texniki səviyyəsi yüksəlir, müəyyən məmulatlar istehsalında ixtisaslaşan rayonlar yaranırdı. Yenbyon və Sonçxon öz ipək parçaları ilə Xveryon və Kyonçjon nazik kətan, Kvançju ağ və rəngli farfor hazırlamaq da bütün ölkədə şöhrət qazanmışdı və istehsal edilən məmulatlar xaricə də ixrac olunurdu.

Koreyada sənətkarlıq sahəsindəki dəyişikliklər ticarətə də xeyli təsir göstərirdi. 1800-cü ildə 1,6 minə qədər yerli bazarla yanaşı, Seul, Keson, Tequ, Çinçju, Vonçju, Pxenyan kimi ümumkoreya ticarət mərkəzləri də yaranmışdı. Həmin mərkəzlərdə ümumkoreya miqyasında əhəmiyyətli olan ticarət birləşmələri əmələ gəlirdi.

Ticarət birləşmələrində vasitəçi ticarət, kredit və sələmçilik sistemi geniş tətbiq edilirdi. Xırda alverçilər və istehsalçılar iri ticarət birləşmələrinə tabe idi. Bu tacirlərin ticarət kapitalı təkcə onların öz kapitalından deyil, həmçinin ticarət əməliyyatına kapital qoyan feodal məmurlarının da vəsaitindən ibarət idi.

Bu dövrdə Koreyada həm varlanma, həm də müflisləşmə sürətlə gedirdi. Bu onunla əlaqədar idi ki, imperator başda olmaqla xüsusi mülkiyyətçilər heç bir çətinlik çəkmədən torpaq mülkiyyəti, digər mülkiyyətləri çox asanlıqla əldə edirdilər. İmperator özü baş mülkiyyətçi idi. Adi camaat isə mülkiyyətə sahib olmaq iqtidarında deyildi, buna imkan verilmirdi. Koreyada hakimiyyət istehsal sahələrində cüzi dəyişikliklər etmişdi. Amma bu dəyişikliklər mövcud problemi həll etmək iqtidarında deyildi.

## İctimai ziddiyyətlərin artması və kəndli üsyanları

Aqrar münasibətlərdəki dəyişikliklər, əmtəə-pul münasibətlərinin inkişafı bilavasitə istehsalçı olan kəndlilər üzərindəki feodal istismarını dəyişdirmədi, əksinə, qara camaat üzərində daha da qüvvətlənməsinə səbəb oldu. Əmtəə-pul münasibətlərinin inkişafı ilə bərabər xüsusi torpaq sahibliyinin artması kəndlilərin təkcə xüsusi torpaq sahibləri (saçjon) tərəfin-

dən deyil, həmçinin feodal dövlətinin özü tərəfindən də istismarının daha da genişlənməsinə səbəb oldu. Torpaq vergisi gəlirlərinin azalması nəticəsində dövlət yeni vergilər qoymağa başladı. Bu dövrdə məhsul zəif olan zaman kəndli 1 kyol torpaqdan[1] 400 tu[2] məhsul, bol olanda isə 800 tuya qədər taxıl götürə bilərdi. Kəndli payızda məhsulun yarısını mülkədara və borca (toxum, yemək, başqa kiçik xərclər) verməli idi. Nəticə etibarilə bir illik güccatmaz ağır əməkdən sonra kəndliyə 100 tudan da az taxıl qalırdı ki, bu da qətiyyən kəndlinin ehtiyacını ödəmirdi.

Kəndlilər iqtisadi zülmün qüvvətlənməsinə siyasi mübarizə və üsyanlar qaldırmaqla cavab verirdilər. 1808-ci ildə Xamqyondo əyalətinin Çunçxon və Pukçxon qəzalarında kəndlilər üsyan qaldırdı. 1811-ci ildə isə Xvanxedo əyalətinin Koksan qəzasında kəndlilərin üsyanı baş verdi. Üsyançılar kəndliləri soyan mənfur qəza rəisinə divan tutdular. Onlar hökumət idarələrini zəbt edərək, həbsxanaların qapılarını açıb məhbusları azad etdilər. Ənənəvi olaraq yenə də, hökumət üsyançılara şiddətli divan tutdu, 37 nəfər öldürüldü, 130 nəfər həbsə alınmış kəndliyə isə ağır işgəncə verildi.

1811-ci ilin dekabrı – 1812-ci ilin aprelində Pxenyan əyalətində Xon Qyon Nenin rəhbərliyi altında çox böyük kəndli üsyanı baş verdi. Kasan qəzasının Tabak kəndində çıxışa başlayan Xon Qyon Nenin dəstəsində min nəfərdən çox üsyançı toplaşmışdı. Kəndli ordusunun bu cənub qrupu ilə bir vaxtda, Kim Çan Si başda olmaqla şimal dəstəsi də üsyana başladı. Birinci həftədə üsyançılar Pxenyan əyalətinin 8 qəza mərkəzini tutdular. Kəndlilər hər tərəfdən axışıb üsyançılar ordusuna qoşulurdu. Hətta kral mədənlərinin fəhlələri də onlara qoşuldular. Üsyanın ilk vaxtlarında üsyançıların ordu sıralarında 5 min nəfər adam var idi. Onlar zadəganların və istismarçı feodalların malikanələrini və evlərini dağıdır, ələ keçirdikləri

[1] Kyol – orta hesabla 102 pud düyü məhsulu götürülən sahə ölçüsüdür. Kyol – müxtəlif keyfiyyətli tarla üçün sabit ölçü vahidi deyildir.
[2] Tu – səpələnən maddələr üçün ölçü vahididir. 1 sokda 10 tu vardır (sok = 180 litrə) bərabərdir.

əmlakı öz aralarında bölüşdürür, zülmkarları cəzalandırırdılar. Üsyançılar demək olar Çençenqan çayından şimaldakı bütün rayonları tutub Ançju qalasına (Pxenyanın yaxınlığındadır) yaxınlaşdılar. Lakin Ançju qalasını hücumla almaq fürsəti əldən verilmişdi. Xon Qyon Ne şimala çəkilməyə məcbur oldu və Dendyu qalasında dörd ay müdafiə mövqeyi tutdu. 1812-ci il aprelin 19-da hökumət qoşunları qalanı alıb, 2 min nəfər kəndlini edam etdilər. Xon Qyon Ne vuruşmada həlak oldu.

1811-1812-ci illərdəki kəndli üsyanının təsiri altında 1813-1819-cu illərdə bütün ölkədə kəndli üsyanları baş verdi. Bu üsyanların rəhbərləri özlərini Xon Qyon Nenin tərəfdarı hesab edirdilər.

1834-cü ildə bütün ölkədə aclıqla, istismarla əlaqədar olan bir sıra qiyamlar baş verdi. Ən böyük kəndli çıxışları 1862-ci ildə olmuşdu. Ona görə də həmin ili kəndli üsyanı ili adlandırırlar, çünki bu illərdə Koreyada kəndlilərlə yanaşı sənətkarlar, hərbi xidmətçilər də üsyan qaldırdı. Dəyənək və nizə ilə silahlanmış üsyançılar şəhərə girib, rüşvətxor və istismarçı dövlət məmurlarını öldürdülər, məmurların evlərini dağıtdılar, mülkədarlara hücum etdilər. Bu üsyan az vaxt ərzində 21 kəndi əhatə etmişdi. Bunun ardınca 1862-ci ilin fevralında Çinçjuda 3 min kəndli hakimiyyətə və feodal istismarına qarşı üsyan qaldırdı. Dəyənək və nizə ilə silahlanmış üsyançılar şəhərə daxil olub, buranın hakimini qətlə yetirdilər, məmurların evlərini dağıtdılar, mülkədarlara hücum etdilər. Bu üsyan rəmzi olaraq "Çinçju şimşəyi" adı ilə məşhurlaşdı. "Çinçju şimşəyi" üsyanından sonra bütün ölkədə iri kəndli üsyanları baş verdi və üsyanlar 1862-ci ilin axırlarına qədər davam etdi. Koreyada 1864, 1869, 1871-ci illərdə də belə kəndli üsyanları qeydə alınmışdı. Şəhər yoxsulları da üsyan etmiş kəndlilərə qoşulurdu. Koreyada kəndli üsyanlarının bir-birini əvəz etdiyi dövrdə müəllimlər kəndlilər üçün belə bir şüar hazırlamışdılar: "Xalqdan oğurladığınızı xalqa qaytarın! ".

Düzdür, kəndli üsyanları və şəhər yoxsullarının çıxışları o qədər də mütəşəkkil xarakter daşımırdı, lakin bütövlükdə onlar feodal istismarına qarşı çevrilən və feodal cəmiyyətinin əsaslarını sarsıdan, xalqda mübarizlik ruhu formalaşdıran hadisələr idi.

## Koreyanın daxili və xarici siyasəti

XVIII əsrin axırları – XIX əsrin əvvəllərində Avropanın kapitalist ölkələri və ABŞ Koreyanı qapılarını xaricilər üçün "açmağa" təhrik edirdilər. Bu siyasətin mahiyyəti Koreyanı təsir dairəsinə və asılı vəziyyətə salmaq idi.

Koreyaya soxulan xarici dövlətlər öz məqsədlərini xristianlığı ölkədə yaymaq pərdəsi altında gizlətməyə çalışırdı. Koreya hökumətinin müqavimətinə baxmayaraq, katolik kilsəsi ölkəyə öz missionerlərini göndərmək işini getdikcə gücləndirirdi. Fransız missionerləri xüsusilə çox çevik fəaliyyət göstərirdilər. Onlar gizli surətdə ölkəyə soxulub, narazı zadəganlar və dövlət idarələri məmurları ilə əlaqə yaradır və kapitalistlərin Koreyaya soxulması üçün yol açır və buna şərait yaradırdılar.

Onlar xristianlığı yaymaqla bərabər digər bir vasitədən, Koreya hökumətinə eyni zamanda silahlı təzyiq göstərməyə və Koreya hökumətini ölkənin qapılarını xaricilər üçün açmağa məcbur etməyə çalışırdılar. XIX əsrin əvvəllərində Koreyaya qarşı yeni bir istila, ingilis istilası da gücləndi. 1816-cı ildə Çxunçxon əyaləti sahillərinə ingilis gəmiləri gəldi. 1846-cı ildə isə Fransa hökuməti Koreyanı fransız ticarəti üçün açmaq məqsədilə iki hərbi gəmi göndərdi. Yəni ticarət adı altında hərbi gəmi göndərilməsi açıqdan-açığa təzyiq idi.

Koreya ərazisinə daxil olan fransızlara qarşı "Dənizdə partizan hərəkatı" adlı əməliyyat keçirildi. Bu əməliyyatı həyata keçirən əsasən gənclər idi. Bu əməliyyat çox faydalı və uğurlu oldu. Bununla yanaşı fransız missionerlərinə qarşı tədbirlər görüldü, amma nəticədə bir neçə fransız missionerinin öldürülməsi Koreya haqqında öz təcavüzkarlıq planlarını həyata keçirmək üçün Fransanın əlinə bəhanə verilmiş oldu. Fransız təbəələrinin öldürülməsində müqəssir olanları cəzalandırmaq bəhanəsilə 1866-cı ildə admiral Roz başda olmaqla 7 gəmidən ibarət hərbi gəmi birləşməsi Koreyaya göndərildi, fransızlar Kanxva adasına hücum etdi. Lakin koreyalılar inadlı müqavimət göstərdi və fransız hərbi ekspedisiyasının hücumu tam müvəffəqiyyətsizliklə nəticələndi.

Elə bu zaman, yəni 1866-cı ildə amerikalılar zorla Koreyanın qapılarını xaricilərin üzünə "açmaq" üçün müxtəlif təşəbbüs göstərdi və Amerikanın "General Şerman" gəmisi Koreyanın sahil sularına daxil oldu, Pxenyan yaxınlığında lövbər saldı. Qubernator başda olmaqla Pxenyan əhalisi balıqçı qayıqlarında üzərək Amerika gəmisini yaxaladılar. XIX əsrin 60-cı illərinin ortalarında Amerikanının Koreya sahillərinə göndərdiyi üç hərbi ekspedisiya da Koreya xalqının coşğun vətənpərvərliyi nəticəsində müvəffəqiyyətsizliklə nəticələndi.

Nəhayət, 1871-ci ilin mayında amerikalılar yeni hərbi ekspedisiya hazırladılar. 85 topla silahlanmış 6 hərbi gəmidən ibarət olan Amerikan eskadrası Kanxva adası yanında lövbər saldı. Amerikalılar Kvansonçjin istehkamını top atəşinə tutdu. Onlar Koreyanı Amerika ticarəti üçün açmağı tələb edərək, əks halda Koreyanı tamamilə məhv edəcəkləri ilə hədələyirdilər. Burada, yəni Kanxva adasında Amerika və Koreya qoşunları arasında şiddətli vuruşma oldu. Amerikalılar Koreya qoşunları tərəfindən ağır məğlubiyyətə uğradılar və amerikalılar qaçmağa məcbur oldular. Koreyalılar arasında sonralar belə bir məsəl yarandı  ki, "döyüşmək üçün cəsur döyüşçü ürəyi hər bir döyüşün taleyini həll edərmiş".

Ölkəyə zorla daxil olmaq səyləri və missionerlərin ölkəyə soxulmasının qüvvətlənməsi bununla nəticələndi ki, Koreya hökuməti ölkəni qapalı saxlamaq siyasətini daha inadla və möhkəm bir surətdə həyata keçirməyə başladı, düşmənin işğal siyasəti baş tutmadı.

1864-cü ildə 12 yaşlı kral Koçjon taxta çıxarıldı. Əslində isə onun əvəzinə atası Li Xa In 1864-1874-cü illərdə tevonqun olmuşdur[1] hökmranlıq edirdi. Tevonqun "barbarları qovmaq və ölkəni qapalı saxlamaq" siyasəti elan edərək, ölkənin müdafiəsini möhkəmlətmək üçün bir sıra tədbirlər həyata keçirdi. Katolik təbliğatına qarşı tədbirlər görüldü. 1866-cı ildə elan edildi ki, "mürtəd din xarici düşmənlərin casusudur" və sonra çoxlu missioner və daxili satqınlar edam olundu. Əcnəbilərin ölkəyə soxulmasından qorxuya düşən hakim yuxarı

---

[1] Tevonqun – Avropadakı "regent" ("qəyyum") rütbəsinə bərabərdir.

təbəqələr kapitalist dövlətlərin təzyiqinə ayağa qalxan xalqın vətənpərvər əhvali-ruhiyyəsindən istifadə etməyə başlasalar da amma onlar həmişə olduğu kimi yenə də ikili siyasət yeridirdilər.

## Mədəniyyət

Koreya qədim mədəniyyət ölkəsidir. Bu dövrdə konfusiçilik feodal-aristokrat ədəbiyyatı ilə yanaşı, demokratik xalq ədəbiyyatı da geniş yayılmışdı. Xalq ədəbiyyatı şifahi xalq yaradıcılığında və bədii ədəbiyyatda geniş təmsil edilmişdi. Koreya ədəbiyyatının xarakterik xüsusiyyəti isə onun xalq yaradıcılığı ilə sıx əlaqədar olmasındadır. "Sim Çen haqqında dastan", "Xın Bu haqqında dastan", "Dovşan haqqında dastan" kimi dastanlar Koreya folklorunun ən yaxşı nümunələrindən hesab olunan əfsanədə Sim Çen adlı qızın öz kor atasına fədakar məhəbbətindən danışılır. Atasına olan böyük məhəbbəti, bütün fəlakətlərə üstün gəlməkdə və atasının gözünü açmaqda qıza kömək edir. Burada övlad-ata məhəbbətinin tərbiyəvi əhəmiyyəti böyükdür.

"Xın Bu haqqında dastan"da isə XVIII əsrin axırı və XIX əsrin əvvəllərində Koreya cəmiyyətinin bütün təbəqələrinin həyatı əks etdirilmişdir. Əfsanənin mərkəzində iki qardaşın, yoxsul, əmək sevən Xın Bunun və varlı, qəddar Nol. Bunun müqəddəratı obrazlı şəkildə təsvir edilir. Dastanda feodalların acgözlüyü və iyrəncliyi ifşa olunur, məzlum xalqa rəğbət ifadə edilir, yaxşılıq tariflənir, təbliğ olunur.

Çox geniş yayılmış nəsr əsərlərindən Xe Qyunun "Xon Qil Don" povestini (XVII) və XVIII əsrdə naməlum müəllif tərəfindən yazılmış "Çun Xyan" romanını göstərmək olar. Romanın qəhrəmanı Xon Qil Don yoxsulları müdafiə etmək üçün mübarizə aparır. O, feodalların, məmurların, monastırların malikanələrinə hücum edib, varlılardan ələ keçirdiyi əmlakı yoxsullar arasında bölüşdürür. Nəticədə o, yoxsullarla birlikdə ideal bir cəmiyyət qurur, bu ədalətli cəmiyyətin ədalətlə idarə olunan dövlətini də yaradır və xalq onu həmin dövlətin kralı seçir. Belə romanlar xalqı xoşbəxt gələcək uğrunda mübarizəyə çağırırdı.

"Çun Xyan" romanı sadəcə olaraq sevgi dastanı deyildi, burada feodalizm quruluşu çox cəsarətlə qamçılanır, istismarçılar pislənir və lənətlənirdi. Romanın qəhrəmanı gənc zadəgan Ri Do Ryon qubernatorun ziyafətində, varlıların dəbdəbəsi və tüfeyliliyi, xalqın yoxsulluğu və iztirabları haqqında qoşduğu pamfleti oxuyur. Maarifpərvər yazıçı Pak Çji Von (1735-1805) yaratdığı bir sıra satirik romanlarda Koreya feodalizm cəmiyyətinin böhranını təsvir etmişdir. Müəllifin "Jexey gündəliyi" adlı monumental əsəri xüsusilə maraqlıdır.

Koreya poeziyası öz janr müxtəlifliyi ilə fərqlənir. Poemada lirik şeirlər (kasa), epik poemalar (sonqa) və müqəddəslər (sidye) xalq içərisində geniş yayılmışdı. Şairlər öz şeirlərində mütərəqqi fəlsəfi ideyaları ifadə edir, humanizm və vətənpərvərlik, insana məhəbbət, xoşbəxtlik uğrunda mübarizə ideyaları təbliğ edirdilər. XVII əsr şairi Pak İn No "İnsan haqqında" şeirində deyirdi: Dünyada minlərcə qiymətli şey vardır, lakin təkcə insanın qiyməti yoxdur". XVIII əsr şairi Kim Din Txe "Mən nə istəyirəm" şeirində yazırdı: "Ölməmişdən qabaq bir şey istəyirəm: doğma vətənə, insanlara xidmət etmək". Satirik şair Kim Sakadi (1807-1864) "İt və müftəxor" şeirini bu sözlərlə qurtarırdı. "İtdən də yüz dəfə pisdir, işləməyib dişləyən".

Poeziya, nəsr və digər bədii yaradıcılıqla yanaşı rəssamlıq sahəsində də görkəmli boya ustaları meydana çıxmışdı. Təbiət mənzərələri çəkən rəssam Kyom Dya (1676-1759) öz ölkəsinin təbiəti haqqında çoxlu gözəl əsərlər yaratmışdı. Onun çəkdiyi "Seul ətrafı" və "Kimqansan dağları" mənzərələri öz müstəsna gözəlliyi ilə şöhrət qazanmışdır. Kyom Dya (Ten Syan) təsviri incəsənətdə realist ənənələrin banisi olmuşdur. XVIII əsrin ikinci yarısında coşğunluqla rəsm əsərləri yaradan realist rəssam Kim Xon Do (Tan Von) o dövrdə Koreya xalqının həyatından çəkdiyi şəkillərlə çox məşhur idi. Pen San Bey, Nam Qe U da realist rəssamlar sırasındandır.

Koreya mədəniyyətinin ən çoxlu abidələri Pxenyan, Seul, Kyonçju (Silla dövlətinin paytaxtı), Keson (Koreya dövlətinin paytaxtı – keçmiş Sondo) şəhərlərində toplanmışdır.

Seulda kralın Kyanbokkun adlanan Yeni və ya Yay sarayı yerləşir, bunun şərqində Şərq sarayı və ya Köhnə saray yerləşir ki, bunun özü də iki saraydan ibarətdir. Seul özünün məbədləri, o cümlədən konfusi məbədi, kral nəsillərinin məbədi ilə də məşhurdur. Kımqansan dağlarındakı buddist məbədləri və monastırları (Almaz abidələr) özünün qədim tarixə malik olması və bədii gözəlliyi ilə diqqətəlayiqdir. Ən qədim memarlıq abidələri Pxenyanda, onun qədim hissəsindədir. Kıyçjanın (ilk Koreya dövlətinin banisi) məqbərəsi, Tanqunun (Koreya dövlətinin əfsanəvi banisi) məbədi də buradadır.

Beləliklə, xalq ustaları gözəl tətbiqi incəsənət nümunələri yaratmışlar. Qiymətli mebel, sədəflə işlənmiş laklı mebel istehsalı, parça, saman və dəridən istehsal olunan mallar, bədii tikiş işləri, metaldan incə şeylər düzəltmiş və digər incə sənətkarlıq çox inkişaf etmişdi. Koreya kağızı xüsusilə şöhrət qazanmışdı. Koreya çini qabları öz yüksək keyfiyyətilə fərqlənirdi. Hələ VII əsrdə Koreyada qum saatı, addım ölçən, su saatı yaradılmışdır ki, bu da xalqın elmi təfəkkürünün erkən inkişafından xəbər verirdi. Ən başlıcası ictimai-siyasi quruluşdan, dövründən asılı olmayaraq yaradılan hər bir əsər, heykəltəraşlıq nümunəsi tarixi əsər kimi tarixi xatırlatmaq üçün saxlanılır.

# FİLİPPİN

Cənub-Şərqi Asiyada, Sakit Okeanın qərbində yerləşən Filippinin tarixi zəif öyrənilmişdir. Əhalinin 90%-dən çoxu yerli xalqlardır. Onlardan vissaylar, taqalar, iloklar, morolar, luson, neqros, aetalar yerli xalqlardan hesab olunur. Filippində dindarların əksəriyyəti, yəni 90%-dən çoxu xristianlardır.

Lakin sonralar, yəni ərəb istilasından sonra Filippində yalnız XIV-XV əsrlərdə islam dini yayılmağa başlamışdı. Luson və Sebu adalarında, o cümlədən Sulu arxipelaqında kiçik knyazlıqlar yaranmışdı. Dəniz yollarının açılması, yeni coğrafi kəşflər nəticəsində avropalılar Cənub-Şərqi Asiyada işğalçılıq yürüşünə başlayanda Filippin də bu işğala məruz qaldı. XVI əsrin ikinci yarısında ispanlar Filippini işğal etdilər. İspan müstəmləkəçilərinin işğalından sonra Filippində milli azadlıq hərəkatı formalaşmağa və təşkilatlanmağa başladı. XVII əsrdə Filippin xalqları fasilələrlə ispan qəsbkarlarına, hərbi ekspansionistlərə və digər Avropa dövlətlərinin erkən müstəmləkəçilərinə qarşı silahlı mübarizə aparmalı olmuşdur. 1639, 1649-1650-ci illər, 1660-1661-ci illər silahlı müqavimət hərəkatı Filippin xalqlarının milli azadlıq hərəkatı tarixində mühüm mərhələni təşkil edir. Bu məqsədlə Filippində 1774-cü ildə ispan müstəmləkəçilərinə qarşı başlanan üsyan 85 il davam etmişdir.

1892-ci ildə A.Bonifasionun yaratdığı "Katipunan" gizli cəmiyyəti Filippin xalqlarının antimüstəmləkəçilik mübarizəsində böyük rol oynamışdı.

Filippinə qarşı ABŞ-ın, İspaniyanın, həmçinin Yaponiyanın istilaçılıq siyasəti yeritməsi adalardan ibarət olan bu ölkədə coğrafi şərait, xalqların və etnik qrupların çoxluğu və onların vətəndaş həmrəyliyinə nail ola bilməmələri, siyasi, iqtisadi pərakəndəlik və digər amillər mühüm rol oynamışdı. Filippində Avropa dövlətlərinin, xüsusilə İspaniyanın qismən asan müstəmləkəçiliyə nail olmasını etnik qrupların ispanlar tərəfindən asanlıqla ələ alınmasında görürdülər.

Filippin ispanlar tərəfindən çox erkən, hələ XVI əsrin axırlarında işğal edilmişdi ki, bu dövrdə arxipelaqın adaların-

da yaşayan çoxlu qəbilələr və xalqlar müxtəlif iqtisadi və mədəni inkişaf mərhələsində idilər. Dəniz sahilləri boyunca, habelə Luson adası və Visay adalarındakı çayların vadilərində yaşayan xalqlar içərisində artıq inkişaf etmiş feodal münasibətləri hökm sürürdü. Lusonun dağlıq rayonlarında, Mindanao, Palavan adalarında və bir sıra başqa yerlərdə yaşayan qəbilələr və xalqlar hələ də ibtidai-icma quruluşu mərhələsində idilər. İspanların işğalından bir qədər əvvəl arxipelaqın cənub hissəsində və Lusonun sahil rayonlarında islam dini yayılmışdı. Ölkənin qalan hissələrində yerli ibtidai dini ayinlər, o cümlədən totemizim üstün yer tuturdu.

Amma oldquca maraqlıdır ki, XVI əsrin axırlarından başlanan müstəmləkəçiliyə baxmayaraq XVIII əsrin axırlarında ölkə hələ də bütünlüklə İspaniya taxt-tacının hakimiyyəti altında deyildi. İspaniya hələ Şimali Lusonun dağ rayonlarını və Batan adalarını zəbt edə bilməmişdi. Sulu arxipelaqında və Mindanaonun çox hissəsində müsəlman qəbilə rəhbərləri hökmranlıq edirdilər. Bu qəbilələrin hamısını ispanlar ümumi "moro" adı ilə adlandırırdı. Burada yaşayan müsəlmanlar arasında ənənəvi olaraq çoxarvadlılıq yayılmışdı.

İspaniyanın əsasən XVI əsrin axırı və XVII əsrin əvvəllərində təşəkkül tapmış müstəmləkəçilik rejiminin xarakterik xüsusiyyəti İspaniya istilaçıları tərəfindən torpaq üzərində feodal hüquqlarının mənimsənilməsində özünü daha çox büruzə verirdi. Adaların istilası gedişində yerli feodalların yuxarı təbəqələri əsasən vətənpərvər feodallar məhv edilirdi. Böyük ərazilər və burada yaşayan əhali ilə birlikdə enkomiend ("qəyyumluq") şəklində dini və dünyəvi ispan konkistadorların idarəsinə verilirdi. Enkomiend sistemi XVII əsrin ortalarında ləğv edildi, lakin torpaqların böyük əksəriyyəti ispanlar tərəfindən artıq işğal edilmişdi.

Adaları işğal etmək işində ispan müstəmləkəçilərinin əsas alətlərindən biri Filippin əhalisini xristianlaşdırmaq idi. Bu ona görə idi ki, katolik kilsəsi və xüsusilə monax ordenləri ölkənin iqtisadi və siyasi həyatında son dərəcə mühüm rol oynayırdı. Adalarda iri torpaq mülkiyyətçisi monastırlar idi. Kilsə idarəçiliyin əksəriyyətini öz əllərinə almışdı və monax-

lar öz mövqelərindən istifadə edərək, Filippin kəndlilərini hədsiz qarətə məruz qoyurdular. İspaniya mütləqiyyəti kilsələr və monastırlara himayəçilik göstərərək, onlara müxtəlif imtiyazlar verir, monastır torpaqlarını vergidən azad edirdi. Çünki, İspaniya hökuməti kilsələrə və monax ordenlərinə öz müstəmləkə ağalığının dayağı kimi baxırdı. Hökumətlə kilsə arasında çoxlu sirlər və yazılmamış qanunlar mövcud idi.

İspaniyanın hakim dairələri özlərinin bütün müstəmləkələrində olduğu kimi Filippində də iqtisadi qapalılıq siyasəti aparırdılar. XVI əsrin axırı və XVII əsrin əvvəllərində Manila Şərqi Asiyada tranzit ticarətinin ən böyük mərkəzlərindən idi. İspaniya hökumət orqanları Manila ticarətini o dərəcə məhdudlaşdırmışdılar ki, əslində bu məhdudiyyətlər Manila ticarətini xeyli zəiflətmişdi. Halbu ki, bir vaxt çiçəklənən həmin şəhərin tənəzzülünə səbəb olmuşdu. İldə yalnız bir ticarət gəmisi Maniladan Akapulko (Meksikada) limanına göndərilirdi. Əhali ağır istismar şəraitində olduğuna görə nikbin deyildi.

İstilaçıların yaratmış olduğu iqtisadi sistem daxili ticarətin inkişafına mane olurdu. Əyalətlərdə daxili ticarət müstəsna olaraq əyalət qubernatorlarının ixtiyarına verilmişdi. Bu hal təkcə daxili ticarəti məhdudlaşdırmaq deyil, həmçinin misilsiz satqınlıq və rüşvətxorluqla yanaşı qubernatorların ölkədəki zülmkarlığı həddini aşmışdı. Müstəmləkə inzibati orqanlarının aşağı aparatı Filippin aristokratları təbəqəsindən ibarət idi. Onlar torpaq üzərindəki hüquqdan məhrum edilsələr də, adaların zəhmətkeş əhalisinin istismarında iştirak etmək imkanına malik idilər. Bu işdə yerli din xadimləri də fəal rol oynayırdılar.

Filippin xalqları isə onların ölkəsinin istila edilməsi ilə heç də razılaşmırdı. Arxipelaqda İspaniya hökmranlığının ilk iki əsrinin tarixi müstəmləkəçilərə qarşı xalq çıxışları ilə yadda qalır. Əvvəllər bu çıxışlar yerli feodalların rəhbərliyi altında keçirdi. Lakin yerli yuxarı təbəqələr qismən ləğv olunduqdan, qismən də İspaniya müstəmləkəçilərinə xidmət etməyə keçdikdən sonra, Filippin kəndliləri öz içərisindən rəhbərlər irəli sürməyə başlayır. Kəndli üsyanları güccatmaz ağır vergilərə, icbari əməyə və kəndlilərin digər şiddətli formalar-

da istismar edilməsinə qarşı yönəldilmişdi. Bir çox üsyanların əsas məqsədi torpaq uğrunda mübarizə idi. Bir sıra kəndli çıxışları, adalarda ən iri torpaq sahibkarları olan monax ordenlərinə qarşı çevrilmişdi. Xalq çıxışları kortəbii və dağınıq xarakter daşıyırdı. Bu çıxışlar çox vaxt bir-iki əyalət çərçivəsindən kənara çıxmırdı. Əyalət çərçivəsində baş verən üsyanlar ümumfilippin azadlıq hərəkatına çevrilmədiyinə görə məğlub olurdu. Siyasi, iqtisadi və digər mübarizə prosesində ümumxalq birliyinə və vətəndaş həmrəyliyinə malik ola bilməyən xalqın köləliyi, hüquqsuzluğu və məğlubiyyəti labüd idi.

## Filippinin ictimai-iqtisadi quruluşu

XVIII əsrin axırı – XIX əsrin əvvəlləri Filippin tarixində dönüş dövrü hesab edilir. Həmin illərdə Filippinin süni qapalılığına son qoyuldu. İspaniya öz müstəmləkəsini yeni üsullarla idarə və istismar etməyə başladı. Burada əlverişli bazar şəraiti yaratdı. Bu dəyişikliklər ondan irəli gəlirdi ki, kapitalist inkişafı yoluna çıxan Avropa dövlətlərinin müstəmləkə mallarına olan tələbatı xeyli artmışdı və Filippin Avropa bazarını bunlarla təmin edə bilən, ucuz xammal və işçi qüvvəsinə malik olan müstəmləkə, istilanın ən çox tətbiq edildiyi ölkə idi.

Filippinin bütün xarici ticarətini inhisara almaq məqsədilə İspaniya hökuməti 1785-ci ildə Filippin krallıq kompaniyası yaratdı. Həmin dövrdə tütün, şərab inhisarları və başqa inhisarlar yaradılır, tənbəki, şəkər qamışı, hind qozu ağacı, qəhvə, indiqo və başqa bitkilərin sahələri olduqca genişləndirilirdi. Tədricən Filippin xaricə ixrac etmək üçün yalnız bir neçə növ kənd təsərrüfatı bitkiləri istehsalı sahəsində ixtisaslaşan və sənaye malları idxal edən bir ölkəyə çevrilir. Filippin məhsullarının ispanlar tərəfindən dünya bazarlarına çıxarılması tarixən mərhələ-mərhələ həyata keçirilmişdi. İlk əvvəllər ekspansiya siyasəti başa çatdırılmışdı. Həmin kənd təsərrüfatı məhsulları, birinci növbədə, müstəmləkə hökumət orqanları tərəfindən Filippin kəndlilərinin kapitalizmdən əvvəlki üsullarla istismar edilməsi nəticəsində istehsal edilirdi.

Halbuki, belə istehsal üsulu heç yerdə yox idi və Avropada istehsaldan çoxdan çıxarılmışdı.

Filippində ticarəti inhisara almış İspaniya hökuməti hər vasitə ilə çalışırdı ki, özündən başqa digər Avropa dövlətinə kapitalının adalara soxulmasına yol verməsin, yəni hər bir şey onun monopoliyasında qalsın. Bu siyasət nəticəsində haqlı olaraq İspaniya ilə digər Avropa dövlətləri arasında çoxdan gözlənilən rəqabət başlanırdı. Lakin digər Avropa dövlətləri ilə müqayisədə hələlik iqtisadi cəhətdən zəif olan İspaniya, ondan qüdrətli kapitalist dövlətlərinin təzyiqinə davam gətirə bilmirdi. Digər Avropa tacirləri isə müxtəlif bəhanələrlə Filippinə soxulurdular və Manila bazarı qaçaqçılıqla gətirilən mallarla dolu idi. İspaniya hökuməti rəqabətin genişləndiyi bir şəraitdə yəni, 1814-cü ildə xarici tacirlərə və kapitalistlərə Filippində məskən salmağa icazə verməyə məcbur oldu. 1837-ci ildə Manila limanı xarici ticarət üçün açıq elan edildi. Sonrakı illərdə daha bir neçə liman xarici ticarət üçün açıldı. Lakin bundan sonra da İspaniya hökuməti yüksək gömrük haqqı qoymaqla və bir sıra inzibati tədbirlərlə xarici kapitalın və xarici malların Filippinə soxulmasını məhdudlaşdırmağa çalışırdı. Xatırladaq ki, gömrük ən çox gəlir gətirən sahə idi.

Əsasən ingilislərdən ibarət olan xarici tacirlər və kapitalistlər öz mənafelərini qorumaq üçün çox zaman İspaniya və Filippin şirkətləri adı altında fəaliyyət göstərirdi. Bəzi filippinlilər və qarışıq nigahlılar (avropalılarla yerli əhali arasında nigah nəticəsində meydana gəlmiş təbəqə) özləri də banklar açır, kiçik sənaye müəssisələri yaradırdılar. Lakin Filippin milli burjuaziyası son dərəcədə zəif idi və buna görə də xarici firma və şirkətlərin agentləri kimi fəaliyyət göstərərək, əsas etibarilə vasitəçi rol oynamaqla kifayətlənirdilər. Onlar faktiki olaraq öz vətənlərində buyruq qulu edilmişdi.

Nəhayət, Filippində istilaçılığın, müxtəlif embarqoların istismar üsullarındakı dəyişikliklər mülkədarların güclənməsinə səbəb oldu. İxrac üçün kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasında mənafeyi olan ispan hökumət orqanlarının nümayəndələri Filippin mülkədarlarına plantasiyalar təşkil etməyə icazə verdi. Xırda torpaq sahibkarlarının torpaq

üzərində mülkiyyət hüquqlarının heç bir yerdə təsbit olunmadığından istifadə edərək, mülkədarlar onların torpaq sahələrini tuturdular. Lakin müstəmləkəçi ispan hökumət orqanlarının qoyduqları bir sıra məhdudiyyətlər həm yerli mülkədarların, həm də kapitalistlərin fəaliyyətinin genişlənməsinə imkan vermirdi.

Mülkədar təsərrüfatlarında kəndlilər kapitalizmdən əvvəlki qaydada, yəni hələ də feodal üsulları ilə istismar edilirdi. Bir qayda olraq kəndlinin öz torpağı olmurdu, kəndli torpağı mülkədardan icarəyə götürürdü. Rentanın müxtəlif növləri mövcud idi. Məsələn, məhsul rentası, işləyib ödəmə, pul rentası və başqaları mövcud idi. Köhnə, düyüçülük rayonlarında yardarlıq, şəkər qamışı əkilən rayonlarda isə biyar daha çox yayılmışdı. XIX əsrdə muzdlu fəhlə qüvvəsi işlədən təsərrüfatlar da meydana çıxaraq, kapitalizmin Filippinə soxulmasının gücləndiyini göstərirdi. Lakin arxipelaqda muzdlu fəhlə qüvvəsindən istifadə edən plantasiya təsərrüfatı o qədər çox inkişaf etməmişdi. İspan müstəmləkəçiləri Filippin torpaq maqnatlarına çevrilmişdilər, onlar borclu köləyə çevrilən əsarətli icarədar kəndli əməyinə daha geniş yer verirdilər.

Kəndlilərlə yerli mülkədarlar arasında kəskin ziddiyyətlər olmasına baxmayaraq, o zaman bu ziddiyyətlər həlledici rol oynamırdı. Kəndlilərin başlıca istismarçıları becərilən torpaqların çox hissəsini əlində saxlayan ispan hökumət orqanları və monax ordenləri idi. Buna görə də XIX əsrdə güclənən milli-azadlıq hərəkatı birinci növbədə ispan müstəmləkəçilərinə və monax ordenlərinə qarşı çevrilmişdi və beləliklə də, labüd olaraq İspaniyaya qarşı azadlıq mübarizəsi kəskin xarakter daşıyırdı. Eyni zamanda İspaniya müstəmləkə rejiminin mürtəce xarakteri təkcə əhalinin məzlum təbəqələrini deyil, habelə yerli mülkədar-burjua cəmiyyətinin yuxarı təbəqələrini də bu rejimin əleyhdarları cəbhəsinə qoşulmağa vadar edirdi. Ölkədə irqi ayrı-seçkilik, siyasi hüquqsuzluq hökm sürürdü. Yerli camaatın, həmçinin mülkədarların torpaq hüququ üçün heç bir təminatı yox idi. Ən nüfuzlu filippinlilər belə tamamilə ispan məmurlarının özbaşınalığından asılı və narazı idilər. Bütün bu amillər ümumiyyətlə, ağır müstəmləkə

sisteminin çətinlikləri ölkədə əhalinin bütün təbəqələrinin, hətta mülkədarların və kapitalistlərin şiddətli narazılığına səbəb olmuşdu. Odur ki, təbii olaraq bütün təbəqələrin anti-imperialist həmrəyliyi formalaşır, ümumxalq narazılığı təşkilatlanırdı.

## Azadlıq hərəkatının formalaşması

Filippində azadlıq hərəkatının ilkin formalaşması XIX əsrin əvvəllərinə aiddir. Bu zaman İspaniyada 1808-1812-ci illər inqilabının təsiri altında adalarda ilk islahat tələbləri irəli sürülür. Lakin ilk vaxtlar bu tələbləri filippinlilər özləri deyil, filippinli ispanlar və qarışıq nigahdan olanlar irəli sürürdülər. Onlar metropoliyada yaşayan ispanlarla bərabər hüquqa malik olmağa, Filippinin iqtisadiyyatının azad inkişafı üçün şərait yaradılmasına çalışırdılar. Sinfi mahiyyət etibarilə bu hərəkat liberal burjuaziyanın hərəkatı idi. Amma hərəkat adaların İspaniyadan ayrılması məsələsini irəli sürmürdü. Yəni iqtisadi tələblər irəli sürülsə də, siyasi tələblər yox idi. Amma İspaniyada inqilabın müvəqqəti qələbəsi, İspaniya parlamentinə Filippin nümayəndələrinin göndərilməsinə imkan yaratdı. Bu nümayəndələrin İspaniya parlamentində iştirakı Filippin burjuaziyasına heçnə verməsə də, onun bütün sonrakı çıxışları İspaniya parlamentində Filippin nümayəndəliyinin bərpa edilməsi şüarı altında keçirdi.

Eyni zamanda mütərəqqi hal idi ki, bu dövrdə istiqlal mübarizəsi sahəsində cüzi oyanış müşahidə edilirdi. Bu sahədə milli mətbuatın rolu böyük idi. Filippinin varlı siniflərinin dünyagörüşünün təşəkkülündə Filippin mətbuatı da az rol oynamamışdı. Arxipelaqda ilk qəzetin çap olunmasının əsası 1822-ci ildə qoyulmuşdu. Bu mənada, varlı siniflərdən olan gənclərin xaricə göndərilməsinin və 1863-cü ildə demək olar hər bir bələdiyyədə ibtidai məktəblər açılmasının daha böyük əhəmiyyəti olmuşdu. Filippində bütün təhsil sistemi, gənclərdə İspaniyaya itaətkarlıq və katolik dininə sədaqət əhvali-ruhiyyəsi tərbiyə etməyə çalışan kilsənin ciddi nəzarətinə tabe edilmişdi.

Bununla yanaşı XIX əsrin 60-cı illərində ölkədə irqi ayrı-seçkiliyə qarşı geniş hərəkat başlanır. Hərəkat prixodların (xristianların aşağı kilsə təşkilatları və bu təşkilat üzvlərinin yaşadığı məhəllələr – Ş.N) müsadirə edilməsi, yəni bunların yerli ruhanilərə verilməsi uğrunda mübarizə geniş şəkli aldı. XIX əsrin ortalarında Filippindəki 792 prixoddan yalnız 181 prixodda keşişlər ispan monaxları deyil, Filippin ruhaniləri və qarışıq nigahdan olanlar idi. Filippin ruhaniləri prixodları almaq hüququ tələb etdikdə, yalnız öz mənafelərini müdafiə etmirdilər, istər-istəməz onların mübarizəsi monax ordenlərinə qarşı mübarizəyə çevrilirdi. Yerli ruhanilər gəlmə xristianların təsirindən xilas olmaq istəyirdilər.

Amma Filippində müsadirə uğrunda hərəkat o qədər də uğurlu nəticələr vermədi. Filippin prixodlarının çoxunda əvvəlki kimi yenə də ispan monaxları ağalıq edirdilər. Buna baxmayaraq hər halda bu hərəkat filippinlilərin milli şüurunun oyanmasında böyük rol oynadı. Bu haqda səlnaməçilərin təsvir etdikləri siyasi mənzərədən bir daha məlum olurdu ki, Filippinin zəhmətkeş kütlələri prixodların müsadirə edilməsi uğrunda hərəkat qədər hələ heç bir hərəkata bu qədər yardım göstərməmişdilər.

## XIX əsrin birinci yarısında xalq üsyanları

XIX əsrin əvvəllərindən etibarən Filippində milli oyanış, xalqın özünüdərk prosesi güclənməkdə idi. Ölkədə vətəndaş həmrəyliyinin zəruriliyi nəhayət ki, dərk edilməyə başlanmışdı. Eyni zamanda müsadirə uğrunda hərəkat kəndlilərin çoxlu iğtişaşları və narazılığı ilə əlaqədar deyildi, XIX əsrdə tez-tez baş verən kəndli həyəcanları kəndlilər üzərindəki istismarın güclənməsilə əlaqədar idi. Bu da Filippinin beynəlxalq ticarət dairəsinə cəlb edilməsindən və mülkədarların xaricə ixrac edilən məhsul istehsalını artırmaq səylərindən irəli gəlirdi. Əvvəlki kimi, kəndli hərəkatının əsasını və səbəblərindən birini yenə də torpaq uğrunda mübarizə, həmçinin istər mülkədarlar, istərsə də müstəmləkəçi ağaları tərəfindən kəndlilərin amansız istismarının yumşaldılması tələbi təşkil edirdi. Əvvəllər olduğu kimi, XIX əsrdəki xalq üsyanları da kortəbii və

qeyri-mütəşəkkil xarakter daşıyır və İspaniya müstəmləkəçiləri tərəfindən asanlıqla yatırıldı.

Bununla bərabər, XIX əsrin birinci yarısında baş verən kəndli hərəkatlarında bəzi yeni xüsusiyyətlər də nəzərə çarpırdı. Misal üçün, bir sıra hallarda kəndlilər təkcə İspaniya hökumət orqanlarına və monastırlara qarşı deyil, yerli feodal-bürokratik aparata, xalqın istismar edilməsində vasitəçilərə, yuxarı təbəqələrə qarşı da çıxış edirdilər. 1814-cü ildə İlokosoda baş verən üsyan buna misaldır. Bu kimi faktlar Filippin zəhmətkeşləri ilə yerli istismarçı sinif arasındakı ziddiyyətlərin kəskinləşdiyini göstərirdi. Bu dövrdə kəndli hərəkatlarının başqa bir xarakterik cəhəti bunda idi ki, həmin hərəkatlar bəzən dini-təriqətçilik şəkli alırdı (1841-1842-ci illərdə Tayyabasda Apolinario de la Krusın üsyanı, Samar adasında "pulaan" hərəkatı). Təriqətçilik hərəkatının meydana çıxması, kəndliləri ən amansız bir surətdə istismar edən monax ordenlərinə qarşı Filippin xalqının nifrətinin gücləndiyini əks etdirirdi. XIX əsrdə kəndli hərəkatlarının qüvvətlənməsi Filippin inqilabının ən mühüm ilkin şərtlərindən biri oldu.

1892-ci ildən başalanan milli-azadlıq hərəkatı nəticədə 1896-1898-ci illər Filippin Milli Azadlıq inqilabı ilə başa çatdı və Filippin müstəqil respublika elan edildi. Lakin Filippinin işğalı uğrunda ABŞ-İspaniya rəqabəti hələ də davam edirdi. 1899-cu ildə ABŞ Filippinə qarşı istilaçılıq siyasətini daha da fəallaşdıraraq Filippin ərazisinə ordu yeritdi və 1898-1901-ci illər Amerika-Filippin müharibəsindən sonra Filippin ABŞ-ın müstəmləkəsinə çevrildi və bu müstəmləkəçilik sistemi xeyli davam etdi. Filippində başlanan milli-azadlıq hərəkatının məğlubiyyətə uğramasında bir neçə səbəblər var idi. Bu səbəb beynəlxalq miqyasda mövcud olan və bir çox xalqlara şamil edilən milli birliyin olmaması səbəbi idi. Digər səbəblərdən biri də beynəlxalq aləmdə Filippin xalqlarının milli tənhalığı, beynəlxalq miqyasda Filippinə qarşı həmrəyliyin zəif olmasında idi. Tarixin bütün mərhələlərində sadalanan amillər əsas amillərdən olmuş bu gün də öz mahiyyətini saxlamaqdadır.

# İNDONEZİYA

Cənub-Şərqi Asiyada yerləşən İndoneziya ərazisində Böyük Zond adaları, Kalimantan, Sumatra, Sulavesi, Yava və Madura, Kiçik Zond adaları, Bali Lombok, Sumbava, Filores, Timor, Moluk adaları, həmçinin Yeni Qvineya adaları müasir insan tipini o cümlədən pitekantrop, yavantrop, sonralar vad-yak adamının formalaşdığı mərkəzlərindəndir. Bu ölkədə aşağı, yuxarı paleolit və mezolit dövrlərinə aid abidələr aşkar edilmişdir. Bu ölkənin ərazisində üç mindən artıq ada vardır ki, bu nəhəng adalar yaşayış məsgənləridir.

İndoneziyada II-V əsrlərdə məhsuldar qüvvələrin inkişafı nəticəsində ilk sinifli cəmiyyət təşəkkül tapmışdır ki, bunun da nəticəsində Tarum, Kalinq, Malayya, Şirivicayya kimi erkən dövlətlər meydana gəlmişdi.

XIII əsrin sonunda Yavada yaranan Maccapaxit imperiyası 1295-1520-ci illərdə ölkə ərazisindəki xırda dövlətləri də özünə birləşdirdi. XIV əsrdə Hindistan və Malakkadan müsəlman missionerləri, o cümlədən miqrasiya etmiş müsəlmanlar İndoneziyada islamı yaymağa nail olmuşdular. Bu hadisə ölkə daxilində siyasi ziddiyyətləri daha da qabartdı və siyasi pərakəndəliklə nəticələndi. Bundan istifadə edən gəlmələr, yəni kütləvi miqrasiyalar nəticəsində sonradan İndoneziyanın xırda dövlətlərə parçalanmasına səbəb oldu. XVI əsrdə müsəlmanların xırda dövlətlərinin yaradılması və bu xırda dövlətlər arasında fasiləsiz müharibələr avropalıların İndoneziyaya gəlmələrinə və müstəmləkəçilik siyasəti yeritmələrinə şərait yaratdı. Beləliklə, XVI əsrdə avropalılar, xüsusilə hollandlar, portuqaliyalılar İndoneziyaya gəlməklə özlərinin ilk koloniyalarını yaratdılar. Ən başlıcası isə XVIII əsrin ortalarından başlayaraq hollandlar Yavanı, XIX-XX əsrlərdə isə avropalılar, İndoneziyanın bütün ərazisini tamamilə işğal etdilər.

Müasir İndoneziyanın sahəsi 1 milyon 904 min kv. Kilometrdir. XIX əsrin əvvəllərində ölkənin təxminən 5 milyon əhalisi var idi ki, bunun da çox hissəsi Yavada toplaşmışdı. Amma avropalıların bura gəlişindən sonra vəziyyət tamamilə dəyişdi.

Odur ki, Asiya və Avstraliyanı birləşdirən yollar ayrıcında yerləşən İndoneziya hələ XVI əsrin əvvəllərində avropalıların müstəmləkəçilik təcavüzünün hədəfi olmuşdu. Avropalıları İndoneziyaya cəlb edən Avropada yüksək qiymətə gedən bol-bol ədviyyat və digər zinət əşyaları idi. Hələ XV əsrin sonunda İndoneziyaya birinci portuqaliyalılar, sonra ingilislər, ispanlar və nəhayət, öz rəqiblərini sıxışdırıb çıxaran hollandlar gəlmişdilər.

Hollandlar ilk koloniyalarını yaratdıqdan sonra 1602-ci ildə yaradılmış Hollandiya Ost-Hind kompaniyası vasitəsilə Yavanın xeyli hissəsini, Moluk adalarını və bir sıra başqa yerləri zorla və xaincəsinə özünə tabe edə bilmişdi. Ən şiddətli inhisara malik olan bu kompaniya ixracat üçün bitkiləri (leveransiya) zorla əkdirib bütün məhsulu özünə götürmək, icbari əmək sistemi tətbiq etmək (xerendinst) və hər il müəyyən məhsullar tədarük etmək (kontinqentlər) yolu ilə çox böyük mənfəət götürürdü. Nəticədə arasıkəsilməyən qarətlər nəticəsində bu regionlar müflisləşdi, bir çox vilayətlər boş qaldı, bir çox yerlər tam səfalətli vəziyyətə düşdü. Marks "Kapital" əsərində yazırdı ki, "XVII əsrin nümunəvi kapitalist ölkəsi olan Hollandiyanın müstəmləkə təsərrüfatının tarixini misilsiz xəyanət, aldatmaq, qətl və əclaflıqlar mənzərəsi təşkil edir"[1].

## İndoneziya XVIII əsrin axırı – XIX əsrin əvvəllərində

XVIII əsrin axırlarında İndoneziyanın xeyli hissəsi müstəmləkə ərazisi idi. Ölkədə feodal münasibətləri hökm sürürdü. Arxipelaqın bir çox hissələrində hələ də ibtidai-icma quruluşu qalmaqda idi. Yavada Bataviya[2] ətrafında və Bataviyanın cənubunda olan yerlər, Preanger regentliyi deyilən yerlər bilavasitə kompaniyanın idarəsi altında idi. Qalan ərazidə[3]

---

[1] K.Marks. Kapital. I cild, Bakı, 1949, səh 659.

[2] Hollandlar 1618-ci ildə Cakartada ticarət məntəqəsi yaratmış, 1619-cu ildə bunu Bataviya adlandırmışdır. Bataviya, Hollandiya hakimiyyətinin genişlənmiş mərkəzi olmuşdu.

[3]Hollandlar Yavadan başqa bütün qalan yerlərə Xarici ərazilər deyirdilər. Sonralar, XIX əsrin axırlarında Xarici ərazilər istilahı əvəzinə Xarici əyalətlər istilahı işlədliməyə başlandı.

hollandlar yerli zadəganlar vasitəsilə fəaliyyət göstərərək, feodal istehsal üsulunu və feodal silsiləsini mühafizə edib saxlayırdılar. Ən şiddətli istismarın mövcud olması və kapitalizmdən əvvəlki münasibətlərin mühafizə edilib saxlanılması, ölkənin məhsuldar qüvvələrinin inkişafını ləngidirdi. Kompaniyanın iki yüz illik ağalığının yekunu bundan ibarət idi.

Ölkənin amansız surətdə istismar edilməsinə baxmayaraq, kompaniya XVIII əsrin axırlarında iqtisadi böhran vəziyyətinə düşmüşdü. Bunun başlıca səbəbləri – İngiltərə-Hollandiya rəqabəti, bu rəqabətin XVII və XVIII əsrlərdə Hollandiya üçün doğurduğu müvəffəqiyyətsiz müharibələr, İndoneziyada baş verən üsyanlar, qaçaqçılıq ticarətinin güclənməsi nəticəsində inhisarın güclənməsi, kompaniya məmurları içərisində satqınlıq və rüşvətxorluğun artması ilə nəticələnmişdi.

1799-cu il dekabrın 31-də Hollandiya kompaniyasının səlahiyyət müddəti sona çatdı. Kompaniya ləğv edildi, onun bütün əmlakı və bütün borcları isə Niderland hökumətinə keçdi. Niderland hökuməti 134 milyon quldenə satın alaraq bütöv bir müstəmləkə ərazisinə sahib oldu. Lakin ölkənin daxili vəziyyəti heç də yaxşılaşmadı. Köləlik və istismar ləğv edilmədi. Ona görə ki, müstəmləkəçilik aparatı "bir istismarçıdan digər istismarçının əlinə keçmişdi".

İndoneziya uğrunda İngiltərə-Niderland rəqabətinin gərgin dövründə beynəlxalq vəziyyət dəyişdi, yəni Niderland 1795-ci ildən etibarən Fransanın vassalı olaraq ondan asılı vəziyyətə düşdü, xarici siyasəti də Fransa hökuməti tərəfindən müəyyən edilməyə başladı. Şərqdə, birinci növbədə isə Hindistanda İngiltərə burjuaziyasına qarşı mübarizə üçün İndoneziyanın bir hərbi meydan kimi əhəmiyyətini başa düşən Napoleon 1807-ci ildə Dandelsi İndoneziyaya general-qubernator təyin etdi və bir vəzifə olaraq ona tapşırdı ki, İngiltərənin təcavüzkarlığına qarşı ilk növbədə Yavanın müdafiəsini təşkil etsin.

Yava feodallarının müstəqilliyini tamamilə məhv etməyə çalışan Dandels regentlərin Bataviya hökumətindən maaş alan adi məmurlara çevrildiyini elan etdi. Yavanın müdafiəsini təşkil etmək üçün ən başlıcası ordu, pul, hərbi tikintilər

lazım idi. Dandels qızğın fəallıqla yollar çəkdirir, istehkamlar və sahil batareyaları yaradırdı. Bir il ərzində Yavanın qərbindən şərqinə yol çəkildi. Bu tikintilərdə işləmək üçün on minlərlə kəndli zorla səfərbər edilmişdi ki, bunlardan minlərlə adam aclıq və xəstəliklərdən məhv olmuşdu. Bundan başqa, Dandels yerli feodallardan orduya əsgər verməyi tələb etdi və onların qarşısında yeni şərtlər qoydu.

Dandels icbari əmək sistemini genişləndirdi, icbari surətdə əkdirilən qəhvə bitkisi sahələrini çoxaltdı. Pul əldə etmək üçün Dandels Yavada xaricilərə torpaq satmağa başladı, həm də torpaq kəndlilərlə birlikdə satılırdı. Təhkimli kəndlilər üzərində torpaq sahiblərinə geniş hüquqlar, o cümlədən döymək və cəzalandırmaq ixtiyarı da verildi.

Dandelsin tədbirləri çoxlu iğtişaşlara səbəb oldu. Bantam (Qərbi Yava) kəndliləri silahlı üsyan qaldırdılar. Amma üsyan yatırıldı və sultanlığın sahil rayonları Niderland torpaqlarına bitişdirildi. Lakin başqa yerlərdə də üsyanlar yetişməkdə idi və bunlar hollandları tamamilə ölkədən süpürüb atmaq əzmində idilər.

Bütün bu tədbirlərə baxmayaraq Dandels Yavanın mühafizə vəziyyətini möhkəmlədə bilmədi. Dandelsin soyğunçuluq fəaliyyəti İndoneziya kəndlilərində daha da güclü nifrət və qəzəbin oyanmasına səbəb oldu, hətta zadəganları da özünə qarşı qaldırdı. Ümumi narazılıq o qədər güclü idi ki, bunun nəticəsində 1810-cu ilin yazında Dandels geri çağırıldı. O, ölkəni gizli olaraq tərk etdi.

## İndoneziya İngiltərənin hökmranlığı altında

"Napoleon işğallarına" qarşı müharibə elan edən İngiltərə burjuaziyası müstəmləkə bazarlarını ələ keçirmək və tam ticarət hegemonluğu qazanmaq istəyirdi. İngilislər çoxdan bəri Yavanı işğal etməyə çalışırdılar. Hələ 1810-cu ildən arxipelaqın böyük bir hissəsi ingilislərin əlinə keçmişdi. 1811-ci ilin avqustunda İngiltərənin 12 min nəfərlik hərbi silahlı dəstəsi Bataviyanı işğal etdi. Semaranq yanındakı həlledici vuruşmada hollandlar qəti surətdə məğlub edildilər.

Yerli cammat hollandlara qarşı o qədər nifrət edirdi ki, bir sıra məntəqələrdə yerli feodallar ingilis ordularının gəlib

çıxmasını gözləmədən hollandları ölkədən qovdu. Palembanqda (Cənubi Sumatrada) hollandların xeyli hərbi qüvvəsi məhv edildi. Sentyabrın 18-də təslim haqqında sənəd imzalandı. Nəticədə İndoneziya, başqa bir Avropa müstəmləkəçisinin, yəni İngiltərənin əlinə keçdi.

İngiltərədə böyük nüfuz sahibi olan, Asiya qitəsində yeni müstəmləkələrin əldə edilməsində görkəmli mütəxəssis kimi tanınan və müstəmləkəçilik üzrə mahir mütəxəssis hesab edilən Refflz əhalinin 60 faizinin yaşadığı Yavaya qubernator təyin edildi. Refflz İndoneziyanı öz malları üçün satış bazarı və xammal mənbəyinə çevirməyə çalışan adam idi ki, bu da İngiltərə ticarət və sənaye burjuaziyasının geniş dairələrinin mənafeyinə tamamilə uyğun siyasət idi.

Refflz general-qubernator təyin edildikdən sonra İngiltərənin hakimiyyəti altında olan yerlərdə feodalların hüquqlarını daha da məhdudlaşdırdı. Nəsli rəhbərlər vasitəsilə idarə etmək əvəzinə, keçmiş regentlərdən təyin olunan və hökumətdən maaş alan məmurlar vasitəsilə idarə sistemi yaradıldı. Refflzin bu idarəçilik sistemi mahiyyətcə ondan ibarət idi ki, yeni məmur komandası ilə istədiyi işi görə bilsin. Refflz Bantam və Çeriban sultanlıqlarını ləğv edib, bu yerləri ingilis torpaqları ilə birləşdirdi. Cokyakarta sultanı hakimiyyətdən devrildi və onun 750 min dollar qiymətində sərvəti qarət olundu. Cokyakarta və Surakarta sultanlıqlarının torpaqlarının bir hissəsi əllərindən alındı, hər iki sultan ordu saxlamaq hüququndan məhrum edildi. İngilislərin müttəfiqi olan və qalay alınmasını ingilislərə inhisara verməkdən boyun qaçırdığına görə Palembanq sultanı da cəzalandırıldı. Refflzin özünün təhrikilə burada "öldürülmüş hollandların intiqamını" almaq üçün təəsübkeşlik göstərərək 1811-ci ildə Palembanqa hərbi dəstə göndərildi. Sultan qaçdı, zəngin qalay yataqlarına malik olan Banka və Billiton adaları isə ingilislərin hakimiyyəti altına keçdi. 1811-ci ildə keçirilmiş hərbi əməliyyatı əslində əvvəlcədən planlaşdırılmışdı və Banka, Billiton adalarının işğalı əvvəlcədən planlaşdırılmışdı.

Refflzin ən mühüm tədbirlərindən biri də torpaq islahatı oldu. Bütün torpaqlar, Cokyakarta və Surakarta sultanlıqlarının ərazisi istisna olmaqla, Bataviya hökumətinin mülkiyyəti, yəni nəticə etibarilə İngiltərənin mülkiyyəti elan edildi. Tor-

paqlar kəndlilərə icarəyə verilirdi, bunun üçün kəndlilər məhsulun dəyərinin dörddə birindən yarısına qədəri həcmində pul rentası verməli idilər. Belə torpaq - vergi sistemi sonralar Hindistanda rəiyyətvari sistemi adı ilə tətbiq edildi.

Dənizçiliyi və ticarəti inkişaf etdirmək məqsədilə Refflz xarici ticarət inhisarını ləğv etdi və İndoneziyanın limanlarını açdı, çünki İngiltərə öz sənaye və ticarət qüdrətinə arxayın idi və rəqabətdən qorxmurdu. Refflz plantasiyalar salmaq məqsədilə hökumət torpaqlarını xaricilərə də satırdı. Torpaqlarını hələlik mühafizə edib saxlamış olan sultanlar və onların tabeliyində olan feodallar pul əldə etmək məqsədilə özləri öz torpaqlarını plantasiya üçün satmağa məcbur edilirdilər.

Bütün bu "islahatlar" əmtəə-pul münasibətlərinin inkişafına kömək etməli, ingilis kapitalının İndoneziyaya soxulmasını asanlaşdırmalı, əldə edilən mənfəəti artırmalı idi. Lakin təbii olaraq ölkənin əsas istehsalçı qüvvəsi olan kəndlilərin vəziyyəti yaxşılaşmadı, əksinə, daha da ağırlaşdı. Torpaq islahatı nəticəsində ingilislər bütün icma torpaqlarını, meşələri və yeraltı sərvətləri quldurcasına mənimsədilər. Kəndliləri torpaq ehtiyatından məhrum edib, onları torpaqsızlığa və dilənçiliyə məhkum etdilər. Renta-vergini ödəməyə pulu olmayan kəndlilər sələmçilərə və ya öz kəndinin varlı təbəqələrinə müraciət etməli olurdular. Əvvəlki kimi kəndlilər yenə də regentlərin nəfinə müxtəlif mükəlləfiyyətlər daşımalı idilər. Bir sözlə İndoneziya kəndlisi istismarın bir formasından digər formasına yəni yadellilərin də istismarına düçar oldu.

## Hollandların İndoneziyaya qayıtması və yeni mürtəce istismar üsullarının tətbiq edilməsi

Napoleon imperiyasının süqutu nəticəsində Niderland krallığı müstəqil krallıq kimi yenidən bərpa edildi. Niderlandın arxipelaqda olan müstəmləkələrinin niderlandlara qaytarılması haqqında 1814-cü ilin avqustunda İngiltərə ilə müqavilə imzalandı. Lakin ingilislər Hind okeanından Sakit okeana gedən yollar üzərində nəzarəti öz əllərində saxlamağa çalışaraq hollandların İndoneziyaya qayıtmasına var qüvvə ilə mane olurdular. Benkulenə qubernator təyin edilən Refflz Sumatranı Niderlandın əlindən almaq üçün bir neçə təşəbbüs

göstərdi. O, bu işdə müvəffəqiyyətsizliyə uğradıqdan sonra Cohor sultanından Sinqapur adasını satın almağa müvəffəq oldu və 1819-cu il yanvarın 29-da burada Britaniya bayrağı qaldırıldı. Sinqapur Cənub-Şərqi Asiyada ingilis müstəmləkəçiliyinin ən mühüm strateji dayağına çevrildi. İngilislər Sinqapuru ələ keçirməklə gəmiçiliyi inkişaf etdirmək, Cənub Şərqi Asiyada digər Avropa dövlətlərinə qarşı hegemonluğu ələ almaq məqsədi güdürdü.

İndoneziyada müstəmləkəçilik rəqabəti İngiltərə ilə Hollandiya arasında 1819-cu ildən 1824-cü ilə qədər çox ziddiyyətli mərhələlərdən keçməli oldu. Nəhayət razılaşdılar və İngiltərə-Hollandiya ixtilafı 1824-cü il martın 17-də bağlanan London müqaviləsilə nəticələndi. İngiltərə Sumatra adasına iddialarından əl çəkdi, Benkuleni və Biliton adasını hollandlara qaytardı (Banka adası Niderlanda 1814-cü ildə qaytarılmışdı). Əvəzində hollandlar Hindistandakı son torpaqlarından məhrum edildi, Malakka üzərindəki hər cür hüquqlarından əl çəkdilər, Sumatranın şimal qurtaracağında yerləşən Açe sultanlığının müstəqilliyini, habelə burada İngiltərənin xüsusi mənafeyini tanımağa məcbur oldular. İndoneziyada İngiltərə-Hollandiya alış-verişi əslində müstəmləkə ərazilərinin dəyişdirilməsi idi.

Hollandiya burjuaziyası İndoneziyanı daha şiddətli istismar etmək hesabına öz vəziyyətini yaxşılaşdırmaq qərarına gəldi. Yəni Holland kapitalistləri var-dövlətini, sərvətini daha da artırmaq üçün həqiqi simalarını gizlədərək mövqelərini dəyişdilər. Lakin Ost-Hind kompaniyasının tətbiq etdiyi köhnə üsullara qayıtmaq artıq mümkün deyildi. İngilislərin gətirdiyi əsas yenilik torpaq rentası saxlanıldı. Lakin hollandlar renta toplayan zaman bunun əvəzini məhsulla da alırdılar ki, bu zaman pulu məhsula, məhsulu isə hesablayıb pula çevirdikdə müxtəlif maliyyə fırıldaqları üçün geniş imkanlar yaranırdı. Həmçinin köhnə ellik zəmanət sistemi də yenidən bərpa edildi ki, buna görə də vergilərin ödənilməsinə bütün icma cavabdeh oldu. Dünya bazarında qəhvə qiymətlərinin artması ilə əlaqədar olaraq, hollandlar icbari yolla qəhvə bitkisi yetişdirilməsini genişləndirdilər. İltizam sistemi kəndlilər üçün əsil

bir bəla idi. Bu haqda xalq arasında belə bir məsəl formalaşmışdı: “iltizamçılar, qucağında uşaq, yol gedən analardan da yol rüsumu alırdılar ki, "yük" daşıyır”.

Hökumətin bütün vergi və mükəlləfiyyətlərinin ağırlığını öz üzərində daşıyan kəndlilər Dandels və Refflzin hakimiyyəti dövründə müflisləşmiş feodalların qəzəbli zülmünə məruz qalmışdılar. Arxipelaqın müxtəlif hissələrində baş verən kəndli üsyanları çoxalmaqda idi. Feodalların əksəriyyəti hollandların sadiq nökərləri idi. Yalnız müstəsna hal olaraq öz keçmiş müstəqilliyinin bəzi qaydalarını saxlamış olan Surakarta və Cokyakarta knyazlıqlarında zadəganlar hollandlara qarşı daha barışmaz əhvali-ruhiyyədə idilər. Çünki hollandlar onları bir çox imtiyazlardan məhrum etmiş və malikanələrinin müəyyən hissəsini əllərindən almışdı. Ona görə də belə regionlarda üsyan üçün daha əlverişli zəmin hazırlanmışdı. Hollandların və digər Avropa dövlətlərinin İndoneziyada müstəmləkəçilik siyasəti yerli xalqda avropalılara qarşı pataloji nifrət formalaşdırmışdı. Bu səbəbdən uzun müddət idi ki, xalq bu mübarizəyə hazırlaşırdı.

## 1825-1830-cu illər Yava müharibəsi

Uzun müddət idi ki, İndoneziyada xalq daxili və xarici zülümkarlara qarşı mübarizəyə hazırlaşırdı. Nəhayət gözlənilən üsyan 1825-ci ilin iyulunda baş verdi. Üsyanın başında, Cokyakartadan şahzadə Dipaneqara (1785-1855) dururdu. Dipaneqara vəliəhd idi, lakin hollandlar onu hər cür imtiyazlardan mərhum etmişdilər. Dipaneqara istismarçı sinfin nümayəndəsi olsa da xalqını sevirdi. Hollandlar onun torpaqlarını əlindən almış, bütün imtiyazlarını ləğv etmişdilər. Odur ki, Dipaneqara sarayı tərk edərək dağlara çəkilmişdi. Ölkənin və xalqın istismar edilməsini görərək, o, Hollandiya əsarətinə son qoymaq qərarına gəlmişdi. Xalq içərisində onun şöhrəti gündən-günə artırdı. Onu, Yavanın qədim əfsanələrində, zühur edəcəyi irəlicədən xəbər verilən xilaskar-knyaz hesab edirdilər.

Hollandlar Dipaneqaranı ələ keçirmək üçün bir neçə dəfə cəhd göstərdilər, amma hollandların cəhdi uğursuz oldu. Bu

da üsyana səbəb oldu və üsyan Yavanın mərkəz hissəsini, eləcə də cənub hissəsinin bir qismini bürüdü. Üsyanın hərəkətverici qüvvəsi hər tərəfdən axışıb Dipaneqaranın yanına gələn kəndli dəstələri idi. Bəzi feodallar da üsyana kömək edirdi. Kəndlilər mənfur holland məmurlarını, sələmçiləri, iltizamçıları öldürür, gömrükxanaları və anbarları yandırırdılar. Kəndli ordusu Cokyakarta knyazlığının paytaxtını da tutaraq daha da genişlənməkdə davam edirdi.

Dipaneqara adi müharibə qaydası ilə vuruşmaqdan çəkinirdi, çünki sayca üstün olan və xeyli yaxşı silahlanan hollandlar belə vuruşmalarda onu məğlub edə bilərdilər. Dipaneqara özünü partizan müharibəsi ustası kimi göstərdi. O, sürətlə hərəkət edə bilən çevik qruplar yaratdı ki, bu qrupların bəzilərində isə min nəfərə qədər adam var idi.

Üsyançılara qarşı mübarizə aparmaq üçün hollandlar bütün arxipelaqdan əskər toplayır, üsyandan qorxuya düşən feodalları müxtəlif vədlərlə və rüşvətlə öz tərəfinə çəkir, Yavaya başqa adalardan qarnizonlar gətirir, Hollandiyadan köməyə əlavə qüvvə göndərirdilər. Hollandlar onların tabeliyində olan rayonların zadəganlarını, həmçinin Surakarta və Madura feodallarını Dipaneqaraya qarşı qaldırmağa müvəffəq oldular. Üsyançıların öz cəbhəsində də satqın feodallar xəyanət etməyə başladılar. Hollandlar 1827-ci ildən etibarən üsyançıları bir-birilə birləşdirilmiş istehkamlar sistemi ilə mühasirəyə almaq taktikası tətbiq etməyə başladılar. Beləliklə, hollandlar mühasirə halqasını tədricən daraltmaqla və ən mənfur taktika tətbiq etməklə milli azadlıq hərəkatını boğmağa çalışırdılar.

Hollandlar Dipaneqaranı bir neçə dəfə danışıq aparmağa dəvət etmişdilər ki, onu aldadıb tutsunlar. Amma buna nail ola bilməmişdilər. Nəhayət, 1830-cu il martın 28-də danışıq aparıldığı zaman hollandlar Dipaneqaranı xəyanət nəticəsində ələ keçirə bildilər. Dipaneqara Sulavesidə[1] həbs edilərək Makassara sürgün edildi və ömrünün sonunadək ağır şəraitdə həbsdə qaldı və 1855-ci ildə orada vəfat etdi.

Bir az sonra üsyanın son ocaqları da söndürüldü və bu üsyan Yava xalqlarının müstəmləkəçilərə qarşı ən güclü çı-

[1] İndoneziyalılar Sulavesiyə Selebes deyirlər.

xışlarından və müstəmləkələrdə baş verən ən böyük üsyanlardan biri idi. Hollandlar üsyanı yatırdıqdan sonra Surakarta və Cokyakarta knyazlıqları ərazisinin xeyli hissəsini öz torpaqlarına qatdılar. Bu knyazlıqların kiçildilmiş sərhədləri daxilində Pakualam və Manqkuneqara adlı iki oyuncaq knyazlıq yaratdılar. Bu knyazlıqların rəhbərləri də hollandların əlaltıları idilər.

## İndoneziyada icbari bitkilər sisteminin tətbiqi

Hollandlar İndoneziyada daha mənfəətli istismar üsulları axtarıb tapmağa çalışırdılar və nəhayət onu tapmağa nail oldular. 1830-cu ildə İndoneziyaya general-qubernator təyin olunan Fan der Bosx Yavada icbari bitki sistemi ("kulturstelsel") deyilən sistem tətbiq olunmasını təklif etdi. Bu sistemə görə kəndlilər ya renta verməli (adətən məhsulun beşdə iki hissəsi həcmində), ya da inzibati orqanların göstərişi ilə öz çəltik tarlalarının beşdə birində ixracat bitkiləri əkməli idilər. İxracat bitki məhsullarının (çay, qənd, qəhvə, indiqo və s.) ilk emalı üçün istehsal müəssisələrində yenicə formalaşan fabriklərdə məcburi işləmək formasında icbari əmək saxlanıldı. Bu fabriklər hökumət tərəfindən yaradılır və avropalılara, çinlilərə icarəyə verilirdi. Emal olunan məhsul tamamilə hökumət anbarlarına təhvil verilirdi. Məhsulun daşınmasına da əsasən kəndlilər cəlb edilirdi. Bu tədbir ən ağır mükəlləfiyyətlərdən biri hesab olunurdu.

İcbari bitki sisteminin tətbiq edilməsi köhnə icbari üsullara əsaslanan təsərrüfatın saxlanılması demək idi. Bu sistemlə Ost-Hind kompaniyası üsulları arasındakı fərq ondan ibarətdir ki, kompaniya ona nə qədər və hansı məhsul lazım olduğunu göstərdiyi halda, istehsalın özünün təşkili ilə maraqlanmırdı, indi isə bu işi də müstəmləkə orqanları öz üzərinə götürmüşdü və Yava böyük bir plantasiyaya çevrilmişdi.

Yeni sistemi səmərəli surətdə həyata keçirmək üçün Bosx idarəçilik sistemin də islahat apardı. Regentlərin imtiyazları özlərinə qaytarıldı, regent vəzifəsi yenidən nəsli vəzifə oldu. Məmurların bütün təbəqələrini istehsalı genişləndirməkdə maraqlandırmaq üçün Bosx mədaxilin müəyyən faizini hökumət nəzarətçilərinin və regentlərin nəfinə ayırırdı.

Bütün məmurlara vergilərdən azad olan torpaq sahələri verildi. Həmin sahələri də kəndlilər becərməli idilər. Bu əslində biyar işi idi, "xerendinst" adlanırdı. Kəndliləri istismar etmək hesabına, onların onsuz da cüzi haqqını verərkən açıqdan-açığa aldatmaq hesabına (regentlərə yalnız məhsulu toplamaq deyil, habelə bunu pul haqq-hesabına keçirmək hüququ da verilmişdi) hökumət idarələri xeyli pul vəsaiti toplayırdılar ki, bu da onlara kəndlini sələmçi-borc əsarətinə salıb kəndli torpaqlarını gizli satın almaq imkanı verirdi.

Yeni sistemin bütün ağırlığı yenə də əzabkeş kəndlilərin üzərinə düşürdü. Ən yaxşı torpaqlar ixracat bitkiləri üçün ayrılırdı, əsas ərzaq bitkisi çəltik əkinləri azalırdı, bu isə aclığa, müflisləşməyə səbəb olurdu. İxracat bitki əkinlərində məhsulsuzluq baş verdiyi hallarda bunun zərərinin bütün məsuliyyəti kəndlinin üzərinə qoyulurdu. İlkin layihədə nəzərdə tutulduğu kimi torpaqların beşdə bir hissəsi deyil, xeyli hissəsi bəzən kəndin bütün torpağı ixracat bitki üçün ayrılırdı. Bəzi bitkilərin (misal üçün indiqo) yetişdirilməsi kəndliləri aylarla plantasiyalarda saxlayır və onları öz təsərrüfatları ilə məşğul olmaq imkanından məhrum edirdi. Xammalın ilk emalı ilə məşğul olan fabriklərdə fəhlələrin əməyi üzücü idi. Bundan başqa, haqq-hesab zamanı fəhlələri insafsızcasına aldadırdılar. Qəhvə plantasiyalarında işləyən kəndli gündə 4-5 sent[1] pul alırdı, halbuki onun yaşayışı üçün və gündəlik tələbat üçün ən azı 30 sent pul lazım idi. Kəndlilərin hökumət plantasiyalarında işləyib rentanı ödəmələrinə baxmayaraq, çox zaman onlardan torpaq rentası da tələb olunurdu. Limanların və qalaların təmirində icbari iş üçün ildə 3 milyona qədər adam işə cəlb olunurdu. Bu ağır işlərdə minlərlə yavalı ölür və şikəst edilirdi.

Hollandlar həmçinin kənd icmasının dağılmasının süni surətdə qarşısını alırdılar. Lakin icmalar daxili işlər sahəsində öz müstəqilliyini itirmiş və Hollandiya müstəmləkəçilərinin nəfinə daha çox mənfəət əldə etmək idarəçiliyinə çevrilmişdi. Yəni icmalar lüzumsuz orqan kimi əhəmiyyətsiz bir qurum idi.

[1] [1]Sent – Hollandiye pulu olub, 0,01 quldenə bərabərdir.

Kəndlilər icbari bitki sisteminə qarşı dəfələrlə kütləvi şəkildə üsyan edir, mükəlləfiyyətləri yerinə yetirməkdən boyun qaçırır, ixracat bitki əkinlərini yandırırdı. Əks təqdirdə dözülməz həyat şəraitinə görə minlərlə ailə öz kəndlilərini tərk edib başqa yerlərə köçürdü. Kortəbii və qeyri-mütəşəkkil xarakter daşıyan çıxışlar amansızlıqla yatırılırdı.

Nəticə etibarilə Hollandiya hökuməti yeni sistemdən çoxlu mənfəət götürürdü. Hökumət anbarlarına daxil olan məhsul satılmaq üçün "Niderland ticarət şirkətinə"[1] verilirdi. Bu dövrdə Niderlandın ticarət donanması dünyada üçüncü yeri tuturdu (İngiltərədən və Fransadan sonra). 40 il ərzində (1840-cı ildən 1880-ci ilədək) Niderlandın büdcəsinin üçdə bir hissəsi bəzi illərdə daha çox hissəsi İndoneziyadan əldə edilən gəlir hesabına ödənilirdi. İndoneziyadan təxmini hesablamaya görə bir ildə 850 milyon quldendən çox xalis mənfəət götürülmüşdü.

Bütün bnlara baxmayaraq, İndoneziyada tədricən hollandların öz aralarında hakimlik və despotik idarəçilik uğrunda mübarizə daha da gücləndi. Bununla bərabər Hollandiyanın möhkəmlənmiş sənaye burjuaziyası İndoneziyanın idarə olunmasında iştirak etmək hüququ uğrunda ticarət-maliyyə oliqarxiyasına qarşı mübarizəyə başladı. Hollandiya burjuaziyası hökumət inhisarının ləğv edilməsinə, ticarətin azad olmasına, icbari bitki sisteminin ləğv edilməsinə, plantasiyalar təşkil etməyin azad olmasına çalışırdı. Bu mübarizə nəticəsində 1864-cü ildə qəbul edilmiş "Hesabat haqqında qanun", kralın İndoneziya üzərində təkbaşına hakimiyyətinə son qoydu. Bundan sonra, Ost-İndiya şirkətinin də büdcəsini parlament təsdiq etməyə başladı. Yəni, İndoneziyada Hollandiyanın hakimiyyəti parçalandı.

Niderlandın İndoneziyadakı müstəmləkə siyasətinin ifşa edilməsində Eduard Daues Dekkerin "Maks Xavellaar və ya Niderlandiya ticarət şirkətinin açıq Qəhvə satışı" romanı bö-

---

[1] 1824-cü ildə təsis olunmuş bu şirkət İndoneziya ilə aparılan bütün ticarəti öz əlində toplamışdı.

yük rol oynadı. Roman Multatuli ("Çoxlu əzab çəkən") təxəllüsü ilə yazılıb və 1860-cı ilin mayında nəşr edilmişdi. Müəllif uzun illər İndoneziyada qulluq etdiyinə və hadisələri şəxsən müşahidə etdiyinə görə öz romanında ölkənin yırtıcı şəkildə istismar edilməsinə qarşı nifrətini ifadə edir və indoneziyalılara qızğın rəğbət bəsləyirdi. Romanın İndoneziyada yeni, antimüstəmləkəçilik təfəkkürün formalaşmasında olduqca böyük təsiri olmuşdu.

Mütərəqqi hadisələrdən biri də 1860-cı ildə İndoneziyada köləliyin ləğv edilməsi idi. Bir qədər sonra, bəzi icbari bitkilər, (ən mənfəətli qəhvə və şəkər bitkilərindən başqa) həmçinin narazılıqlara səbəb olan inhisarlar ləğv edildi. Bu islahatlar İndoneziyada istismarın yeni fərmanlarının tətbiqi üçün hazırlıq oldu.

## Hollandiya hökmranlığının daha da genişlənməsi

İndoneziya uğrunda İngiltərə-Hollandiya rəqabəti 1824-cü il müqaviləsilə nəticələnsə də, bu müqavilə İngiltərənin bundan sonra da arxipelaqa soxulması təhlükəsini aradan qaldırmadı.

İngilislər Şimali Kalimantanda[1] daha çevik taktika işlədərək böyük müvəffəqiyyət qazandılar. Burada fırıldaqçı Con Bruk, Bruney sultanlığını tamamilə özünə tabe edə bildi və 1841-ci ildə Saravak ərazisini sultandan aldı. Bruk 1846-cı ildə Labuan adasını da ingilis hökuməti üçün satın aldı və bu ada Cənub-Şərqi Asiyada İngiltərənin mühüm strateji bazasına çevrildi.

Bu illərdə amerikanlar da İndoneziya sularında sərbəst hərəkət edir, müstəmləkəçilik uğrunda qızğın fəaliyyət göstərirdilər. Nəhayət, 1847-ci ildə ABŞ da Bruney ilə müqavilə

[1] İndoneziyalılar Borneo adasına Kalimantan deyirlər.

bağladı, ABŞ-ın Bruneydəki baş konsulu Torri isə 1867-ci ildə sultandan çoxlu ərazi aldı[1].

Bu illərdə İndoneziya uğrunda rəqabət daha da canlanır, xammala ehtiyacları təmin etmək məqsədilə heç bir beynəlxalq etika gözlənilmirdi. Ən başlıcası isə hansı yollarla olursa-olsun varlanmağı əsas götürürdülər. Odur ki, Hollandiya hökuməti öz səylərini Xarici malikanələrdə mövqeyini möhkəmlətməyə yönəldirdi və buna hələlik nail olmuşdu. Bundan başqa Hollandiyanın buxarla işləyən donanması üçün arxipelaqda kömür axtarıb tapmaq zərurəti meydana çıxmışdı. Bu məqsədlə hollandlar Kalimantanın qərb sahillərinə hərbi ekspedisiya göndərdilər, burada güclü və yarımmüstəqil çinli icmaları var idi. Bu icmalar gizli cəmiyyətlə ("Triada" və başqa cəmiyyətlərlə) əlaqə saxlayırdı. Ekspedisiya 1855-ci ildə həmin icmaların da tamamilə tabe edilməsinə nail oldu.

XIX əsrin 60-cı illərində ölkədə silahlı münaqişələr baş verdi və Kalimantandan Bancermasinin sultanı ilə müharibə 1860-cı ildə sultanlığın qəti surətdə Hollandiyanın müstəmləkə torpaqlarına ilhaq edilməsilə nəticələndi. Lakin daha bir neçə il ərzində burada müqavimət hərəkatı və mübarizə davam etdi. Sulavesidə buqlarla baş verən müharibə 1860-cı ildə ölkənin bu hissəsinin də tabe edilməsilə qurtardı. 1839-1869-cu illərdə Bali adasının knyazları tabe edildi və adanın bir hissəsi Hollandiya torpaqları ilə birləşdirirldi. Lombok feodallarının torpaqları da işğal edilərək müstəmləkə ərazisinə qatıldı.

Amma Sumatrada gedən antiholland mübarizəsi uzun sürdü. Burada hollandlar batakların torpaqlarının bir hissəsini, adanın cənubunda olan bəzi əyalətləri də tutdular. Riy arxipelaqında baş verən üsyanı yatırdılar. Sumatranın qərb sahillərində minankabau əleyhinə mübarizə 1824-cü ildən 1837-ci ilədək davam etdi və bu münaqişə hollandlara böyük tələfat bahasına başa gəldi. Sumatrada Hollandiyanın başlıca düşməni Açe sultanlığı idi. Hollandlar tədricən sultanlığın sərhədlə-

---

[1] Sonralar Bruney ingilislərin nüfuz dairəsi altına keçdi və 1888-ci ildə İngiltərənin protektoratına çevrildi.

rinin lap yaxınlığına çataraq sultanlığı işğal etməyə hazırlaşdılar və bu ərazi də hollandlar tərəfindən işğal edildi.

Beləliklə, XIX əsrin 70-ci illərində arxipelaqın xeyli hissəsi Niderlandın bilavasitə hakimiyyəti altına düşdü. Nəticədə İndoneziya avropalıların, xüsusilə Niderlandın müstəmləkəsinə çevrildi.

## Mədəniyyət

Ölkəni amansızlıqla istismar edən və feodal münasibətlərini süni surətdə mühafizə edib saxlayan hollandların gəlməsi İndoneziya mədəniyyətinə, xalqın təhsilinə və digər inkişafına son dərəcə mənfi təsir göstərdi, sarsıdıcı zərbələr vurdu.

Düzdür, əslində XIX əsrin əvvəllərində İndoneziyada xalq maarifi yox idi. Xarici müdaxiləçilərə satılmış hakimiyyətin özü də xalqın maariflənməsilə maraqlanmırdı. Yalnız Bataviyada bir neçə məktəb var idi ki, burada da əsasən avropalıların balaları oxuyurdular. Müsəlman məktəblərinə gəlincə qeyd etmək lazımdır ki, bu məktəblərdə yeganə bir fəndən dərs keçirilirdi ki, dərsin mənası dərk edilmədən əzbərlənilirdi, bu da quran dərsi idi. Həm də quran dərsi İndoneziya dilində deyil, xalqın başa düşmədiyi ərəb dilində tədris olunurdu.

Bu dövrdə İndoneziyada əhalinin böyük əksəriyyəti (90 faizdən çoxu) islam dininə etiqad edirdi, əhalinin qalanı isə xristianlar, hindular, bütpərəstlərdən ibarət idi. Bununla bərabər, bu və ya digər etiqad edən əhali içərisində mövhumat, animist təsəvvürlər (sehrbazlıq, cinlərə etiqad, əcdadlara etiqad) olduqca geniş yayılmışdı.

Belə bir şəraitdə İndoneziya xalqının həyatında ədəbiyyat mühüm rol oynayırdı. İndoneziya dastanlarında olan qəhrəmanlar, şərin qara qüvvələrinə qarşı mübarizələri haqqındakı qədim əfsanələri dastançılar, hədisçilər, nağılçılar, qiraətçilər böyük şöhrət qazanmışdılar. Bu dövrdə təmsillər də çox geniş yayılmışdı. Adətən, təmsilin əsas qəhrəmanı olan

və ədaləti müdafiə edən əfsanəvi heyvan kançil (kiçik bir maral) olurdu. Çox zaman nağılların mövzusu mühüm hadisələrə və həqiqi şəxslərə həsr olunurdu.

Feodal ədəbiyyatının məzmunu saray həyatını təsvir və racələri mədh etməkdən, tərifnamələrdən başqa bir şey deyildi.

Abdulla ibn Əbdülqədir Münşi (1796-1854) İndoneziya ədəbiyyatında yeni bir janrın əsasını qoymuşdu. Onun iki böyük xidməti olmuşdur. Birincisi, o öz əsərlərində ictimai problemlərə toxunmuşdur, ikincisi isə, onun əsərləri sadə dildə yazılmışdır. Onun əsas əsəri "Abdullanın tarixi" adlı avtobioqrafik romanıdır. Roman təkcə bir adamın həyatını əhatə etmir, onun ətrafında baş verən bir çox hadisələri təsvir edir. Onun səyahətinin təsviri də maraqlıdır. Lakin Münşinin nə şagirdləri, nə də ardıcılları olmamışdır. Yazıçılar canlı xalq dilindən uzaq olan və çoxlu ərəb sözləri ilə dolu, qəliz ifadəli klassik Malayya nəsrinin köhnə üsullarına riayət edirdilər. Ədalət və obyektivlik naminə demək lazımdır ki, Münşi də öz şeirlərində köhnə formaların əsiri olaraq qalmışdır.

Ölkədə maariflənmə işinə az fikir verilirdi. Yadellilər bu haqda çox az düşünürdülər. Amma mətbuat tərəqqi yollarında idi. Bu məqsədlə mətbuat, ədəbi dilin yeniləşməsinə kömək etdi. İndoneziya dilində ilk qəzet XIX əsrin ortalarında Yavada çap olundu. İlk qəzetlərin dili arxaik, məzmunu isə yalnız rəsmi məlumat və xəbərlərdən ibarət idi. Lakin mətbuatda xalq dili və xalq mövzuları tədricən özünə yol açırdı. Bir də bu həqiqətdir ki, azadlığı, müstəqilliyi, müstəqil düşüncəsi olmayan xalqın elminin, təhsilinin, qüdrətli zəkalarının inkişaf etməsi də təbii olaraq qeyri-mümkün idi.

Avropa dövlətləri, eləcə də Hollandiya tərəfindən ölkənin işğal olunması bütün sahələrə, o cümlədən təsviri incəsənətə və memarlığa da böyük zərbə vururdu. Ölkədə, keçmişin əzəmətli tikintilərini xatırladan, tarixini əyani şəkildə nümayiş etdirən abidələr yaradılmamışdı.

Amma müstəsna hal kimi teatr sənəti yüksək dərəcədə inkişaf etmiş və hind rəqslərinin təsiri altında olan rəqs sənətindən ibarət idi. Teatr sənəti faktiki olaraq Mahabharata və Ramayana mövzusunda səhnələşdirilmiş tamaşalardan ibarət idi. Dörd növ teatr (vayyanq) var idi. Maska, kölgə, kukla teatrları və nəhayət dördüncü xüsusi növ teatr idi ki, bunda da aktyor üzərində şəkillər çəkilmiş uzun kağızı açaraq bunları izah edirdi.

Müsəlman dünyasına xas olan ənənələrin qorunub saxlanması xarakterik hal idi. Belə ki, musiqi, rəqs, teatr – bütün bunlar xalqın sevimli əyləncəsi idi və elə bir kənd və ya ailə bayramı olmazdı ki, burada toplaşanların iştirak etdiyi bir növ konsert, pantomim-rəqs və ya bütöv bir teatr tamaşası göstərilməsin.

Hollandların İndoneziyanı işğal etməsi nəticəsində ölkənin yüksək inkişaf etmiş bədii sənətinə də böyük zərər dəydi. Bədii sənətin bəzi növləri tənəzzül etdi, bəzi növləri isə ekzotik sənətlə maraqlanan gəlmələrin zövqünə uyğunlaşdırılmalı oldu. Lakin bütövlükdə götürsək İndoneziya əvvəllər olduğu kimi, yenə də ağac üzərində naxışların, toxuma və tikmə işlərinin, metaldan düzəldilən bədii şeylərin, qrafikanın və digər məmulatların üzərində xüsusi güllər çəkilmiş parçaların, xoş rəngli, son dərəcə zəngin haşiyələrlə hazırlanmış parçaların ən gözəl nümunələrini verirdi. İndoneziya ustalarının hazırladıqları bu nümunələr bir çox Avropa muzeylərini bəzəsə də, özünün misgin həyat tərzindən qurtuluşu hələlik mümkün deyildi. Xalqın birləşmək imkanları məhdud idi ki, bunun da səbəbləri çox dərinliklərə gedib çıxır. Qismət olsa xronoloji ardıcıllıq qaydalarına riayət edilməklə gələcəkdə dərsliyin növbəti hissəsində o səbəblər daha obyektivcəsinə müqayisəli şəkildə izah olunacaqdır.

# VYETNAM

Hindçindəki və digər regionlarda olan bir çox xalqlar Avropa dövlətlərinin, xüsusilə Fransanın ən çox müstəmləkəçilik siyasətinə və hərbi təcavüzünə məruz qalmışdır. Belə xalqlardan biri də Vyetnam xalqı idi. Lakin Vyetnam xalqı Avropa dövlətlərinin müstəmləkəçilik siyasətinə məruz qalsa da, bu xalq dünyada özünü təsdiq etmiş xalq kimi tanıtmışdır. Qədim dövlətçilik ənənələrinə malik olan Vyetnam ərazisində Vanlanq dövləti hələ e.ə. 1-ci minillikdə tayfa birliklərinə əsasən yaranmışdı. E.ə. 257-ci ildə ölkənin şimalında Aulak, e.ə. III əsrin ikinci yarısında isə Hamveyt adlı dövlət meydana gəlmişdi. Lakin qonşu dövlətlər, o cümlədən Çin dövləti ərazisində e.ə. 111-ci ildə meydana gəlmiş Qərbi Xan imperiyası Vyetnam ərazisində də işğalçılıq planlarını həyata keçirirdi. Uzun müddət Çin əsarətindən qurtulmaq üçün milli-azadlıq hərəkatı başlamışdı və X əsrdə bu mübarizə Vyetnam xalqının istiqlaliyyəti ilə nəticələndi. Vyetnamda hakim feodal istehsal üsulunun hökmranlıq etdiyi bir vaxtda 1069-cu ildə Dayvet dövləti formalaşaraq güclü imperiyaya çevrildi. Dayvet dövlətinin çiçəkləndiyi bir dövrdə bu dövlət üç dəfə monqol hücumlarına məruz qalmışdı. Hətta 1257-ci ildən 1288-ci ilə qədər Dayvet monqol istilasının qarşısını almağa müvəffəq olmuşdu. 1471-ci ildə Dayvetə qarşı yenidən Çin işğalları başlandı. Dayvet dövləti öz istiqlaliyyətini qoruyub saxlamaq üçün ölkədə bütün xalqları Çin istilasının qarşısını almağa səfərbər etdi və çinlilər güclü müqavimətə rast gələrək ölkədən qovuldular. Bununla yanaşı 1471-ci ildən etibarən Dayvetdə vətəndaşların hüquq bərabərliyinə nail olundu. Ədalət prinsiplərinə əsaslanan cəmiyyət quruldu. Bu islahat tipli tədbir nəticəsində dövlət torpaq mülkiyyəti qanunla tənzimlənərək daha da möhkəmləndirildi. Suvarma sistemi təkmilləşdirildi. Ən başlıcası isə vətəndaşları narahat edən problem, ticarətdə dövlət nəzarəti gücləndirildi. Tacirlər tərəfindən xalqın hüquqlarının pozulması aradan qaldırıldı. Dayvet dövlətində qanunun aliliyi təmin olunduqdan sonra qonşu Tyampa dövləti də Dayvetə birləşdirildi. Tarixi mənbələrdə qeyd olunurdu ki, Dayvetdəki əmin-amanlıq, ədalətli idarəçi-

lik sistemi, insanın şəxsiyyətinə hörmət haqqında mütərəqqi qanunların bəyan edilməsi Tyampa dövlətinin Dayvetə birləşdirilməsini asanlaşdırmışdı. XVIII əsrin axırlarında Vyetnam dövlətinin ərazisi əsasən indiki sərhədləri daxilində təşəkkül tapmışdı. Amma Vyetnamda hələ də siyasi qütbləşmə mövcud idi. Sülalələr arasında hakimiyyət uğrunda mübarizə qalmaqda idi.

Veytnamda ziddiyyətli məqamlar mövcud olsa da, XVIII əsrin axırlarında Vyetnamı rəsmi olaraq Le sülaləsi (1428-1789) idarə edirdi. Əslində isə ölkədə hakimiyyət iki ən böyük feodal ailəsinin Şimalda Çin ailəsinin, Cənubda isə Nquen feodal ailəsinin əlində idi. Ölkənin iqtisadiyyatında şəriksiz olaraq feodal istehsal üsulu hökm sürürdü. Ölkədə əhalinin əsas kütləsini təşkil edən kəndlilər şiddətli surətdə istismar olunurdu. Biyar işləri ildə altı aya qədər davam edirdi. Can və torpaq vergilərindən başqa kəndlilərdən müxtəlif yollarla vergilər də alınırdı. Kəndlilər bəndlərin, sədlərin, yolların və sarayların bərpa edilməsi və tikilməsində zəhmət haqqı ödənilmədən işləyirdilər. İri feodalların öz silahlı dəstələri olurdu ki, bunların da xərcləri zəhmətkeş kəndlilərin üzərinə düşürdü. Ölkədə ziddiyyətlər mərhələ-mərhələ artmaqda idi.

## Tayşenlər üsyanı (1771-1802) və Fransanın Vyetnama qarşı təcavüzkarlıq siyasəti

Sinifli cəmiyyətin, yəni hakim-məhkum təbəqələrin meydana gəlməsilə insanlar arasında mövcud olan ziddiyyətlərin mahiyyətini mülkiyyət uğrunda və hakimiyyət uğrunda mübarizə təşkil etmişdir. Bu baxımdan təbii olaraq XVIII əsrin axırlarında Vyetnamda istismara qarşı şüurlu müqavimət hərəkatı formalaşmaqda idi. Ölkədə daha da təkmilləşmiş formada üsyana hazırlıq işləri gedirdi və nəhayət,1771-ci ildə güclü xalq üsyanı baş verdi. Bu üsyan tayşenlər üsyanı adı ilə məşhurdur (Tay-şen - "Qərb dağları" mərkəzi Vyetnamda, Kontum şəhərinin yaxınlığında yerləşən kəndin adıdır). 1771-ci ilin ortalarında başlanan bu üsyan uzun müddət idi ki, hazırlanırdı. Xalq elçiləri, xüsusilə xalqın dərd-sərini bilən ziyalılar "Xalqın səsi" adlanan klublarda izahat işləri aparırıdılar.

Üsyan demək olar bütün ölkəni bürüdü və 30 il davam etdi. Öz xarakteri etibarilə bu üsyan antifeodal hərəkatı xarakteri daşıyırdı. Əsas hərəkətverici qüvvə isə kəndlilər idi. Şəhər sakinləri, sənətkarlar və bəzi müflisləşmiş tacirlər də üsyana qoşulmuşdular. Çünki onların düşdüyü acınacaqlı həyat tərzi, sənətin, istehsalın və ticarətin sərbəst inkişafına mane olan feodal dağınıqlığı və istismarının məhv edilməsi zamanın tələblərindən irəli gəlirdi.

Üsyanın ilk dövründə tayşenlər kortəbii olaraq bərabərlik yaradılmasına çalışırdılar. Onlar torpaqların bərabər bölüşdürülməsi siyasəti yeridir, varlıların əmlakını alıb yoxsullar arasında bölüşdürürdülər. Bu hadisədən sonra ağır şəraitdə yaşayan xalq dərhal öz xilaskarlarının sıralarına qoşuldu, nəticədə üsyançılar uzun müddət xalqı soyan, ölkəni talan edən Çin və Nquen ailələrinin hakimiyyətini devirdilər və Le sülaləsi nümayəndələrini ölkədən qovdular.

Lakin kəndlilərin siyasi cəhətdən yetkin olmaması, onların yerli tələblərdən yüksəyə qalxa bilməməsi, "qanuni" hökumət, "ədalətli" padşah tələblərində ifadə olunan məhdudluğu, ən başlıcası isə ölkədə daha mütərəqqi ictimai quruluşun qələbəsi üçün şəraitin olmaması bütün bunlar üsyan rəhbərlərinin varlanaraq əqidəsinin dəyişməsinə, özlərinin də istismarçıya çevrilməsi nəticə etibarilə üsyanın məğlubiyyətinə səbəb oldu.

Tayşen rəhbərlərindən biri olan Nxak 1778-ci ildə özünü imperator elan etdi. Tayşenlərin yuxarı rəhbər təbəqəsinin hakimiyyət başına gəldikdən sonra həyata keçirməyə başladığı siyasəti, devrilmiş feodalların keçmiş siyasətindən az fərqlənirdi. Xalq kütlələri get-gedə tayşenlərdən uzaqlaşmağa başladı və aldadıldığını dərk etdi.

Belə bir şəraitdə Nquen feodallarından biri Nquen Fuk An xalqın narazılığından məharətlə istifadə etdi. O, öz hakimiyyətini bərpa etmək üçün böyük bir ordu toplayaraq tayşenlərə qarşı mübarizəyə başladı.

Üsyanın yatırılmasında imperialist Fransa da az rol oynamadı. Nquen Fuk Anın ağır vəziyyətə düşməsindən istifadə edən Fransa hökuməti Vyetnamda olan öz missioneri, Adran

yepiskopu Pino de Bexem vasitəsilə ona hərbi yardım təklif etdi. Danışıqlar nəticəsində 1787-ci il noyabrın 28-də Versalda Vyetnamla Fransa arasında ilk əsarətli müqavilə imzalandı. Müqaviləyə görə Fransa Nquen Fuk Anın yardımına hərbi korpus göndərməyi vəd etdi. Nquen Fuk An isə Turan limanını və Pulo-Kondor adasını Fransaya güzəştə gedərək fransız tacirlərinə imtiyazlı ticarət hüququ verdi və vergi cəhətdən onları yerli tacirlərlə bərabərləşdirdi. Fransada inqilab baş verməsi Vyetnama fransız qoşunlarının göndərilməsi planını pozdu, lakin təlimatçılar və silah-sursat hər halda gəlib çıxdı. Nquen Fuk An Fransadan yardım alaraq, üsyançılara qarşı qəti hücuma keçdi ki, bu irticaçı hücum idi.

1802-ci ilin əvvəllərində Nquen feodallarının keçmiş torpaqları demək olar tamamilə Nquen Fuk Anın ordusunun nəzarəti altında idi. Nquen Fuk An 1802-ci il iyunun 1-də özünü Jia Lonq adı ilə imperator (1802-1820) elan etdi. O, eyni zamanda quru və dəniz qüvvələrinə Qırmızı çayın deltasını da tutmaq əmri verdi. Tayşenlər ciddi müqavimət göstərə bilmədilər və 1802-ci il iyulun 20-də Jia Lonqun ordusu tayşenlərin son dayağı olan Xanoyu da tutdu.

Beləliklə, xalqın ümid bəslədiyi, inandığı bu üsyan da məğlubiyyətə uğradı. Lakin məğlubiyyətə baxmayaraq üsyan Vyetnamın tarixi inkişafında mütərəqqi rol oynadı. Qüdrətli xalq hərəkatı feodalizmə ciddi zərbə vurdu və iki yüz illik feodal dağınıqlığını ləğv etmək üçün şərait yaratdı. Amma xalq yenə də aldadıldı. Xalqın adından istifadə edənlər əslində yadellilərlə ittifaqa girərək hakimiyyəti zəbt etdilər. Şirin vədlər arxada qaldı və o vədlərin heç birinə əməl edilmədi.

## Tayşen üsyanından sonra ölkədə ictimai-siyasi vəziyyət

Nquenlər Fransanın hərbi yardımı nəticəsində hakimiyyətə gəldikdən sonra təkcə əvvəlki sülaləyə qarşı deyil, daima əzilən xalqa qarşı da mürtəce mövqe tutdular. Onlar hakimiyyət başına gələn kimi kütləvi cəza tədbirlərinə, kəndliləri torpaqlarından qovmağa, vergiləri və biyar mükəlləfiyyətlərini artırmağa başladılar. Daxili feodal müharibələri zamanı dağıl-

mış suvarma tikintiləri bərpa edilmirdi və buna görə minlərlə may[1] torpaqlar kənd təsərrüfatı istehsalı üçün yararsız hala düşmüşdü. Ölkədə becərilən torpaqların sahəsi xeyli azaldı. Müflisləşərək acından ölmək dərəcəsinə çatmış əhali çörək əldə etmək üçün öz doğma yurdlarını kütləvi surətdə tərk edir və səfillərə çevrilirdilər. Odur ki, ölkədə başlanan iqtisadi böhran səbəbindən yalnız 1802-ci ildən 1806-cı ilədək Şimali Vyetnamda 370 kənd xaraba qalmışdı və bu kəndlərdə həyat əlaməti görünmürdü.

Aqrar böhrandan çıxmaq və feodalları müftə işçi qüvvəsi ilə təmin etmək üçün 1828-ci ildə imperator iri feodallara bağışlanmış boş yerlərdə torpaqsız kəndlilərin zorla işləməyə göndərilməsi haqqında fərman verdi. Zorakılığa əsaslanan fərman elə zorla da həyata keçirilməyə başlandı.

Lakin imperatorun bu səriştəsiz siyasəti, torpağın bağışlanması, xəzinənin torpaq vergilərindən toplandığı gəlirlərin hesabına dolduğu halda, bu səhv siyasət nəticəsində gəlirlərin olduqca azalmasına səbəb oldu. İcma torpaqlarına nisbətən xüsusi mülkiyyət torpaqlarından az vergi alındığına görə Nquenlər xüsusi mülkiyyətdə olan torpaq sahələrini bir qədər məhdudlaşdırmalı və torpaqların bir hissəsini icmaların istifadəsinə verməli oldular. Nquenlərin bu tədbiri feodal istehsal üsulunun əsaslarına toxunmadı, eyni zamanda bu siyasət kəndlilərin də vəziyyətini yüngülləşdirə bilməzdi. Zaman keçdikcə, icma torpaqlarının çox hissəsi yenidən kəndin varlı təbəqəsinin əlinə keçdi və mərkəzi hökumət icma torpaqlarının alınıb-satılmasını qanuniləşdirməyə məcbur oldu.

Nquenlərin vergi siyasəti sənətkarların və tacirlərin vəziyyətinə də pis təsir göstərdi. Sink, qalay və gümüş mədənlərində istehsal olunan məhsuldan natura ilə alınan verginin həcmi o qədər çox idi ki, həmin mədənlərin sahibləri müflisləşir və istehsalı dayandırırdılar. Daxili gömrük tədiyyələri azad ticarətin inkişafını ləngidir və qapalı natural təsərrüfatın saxlanılmasına kömək edirdi.

[1] May – sahə ölçüsü olub, təqribən 0,3 hektara bərabərdir (Vyetnam müxtəlif rayonlarında bu ölçü müxtəlif idi).

İstismarçı cəmiyyətin xarakterinə uyğun olaraq feodal ağalığı despotik xarakter daşıyırdı və nəticədə feodal istismarının güclənməsi xalq kütlələrinin şiddətli müqavimətinə rast gəlirdi. Kəndli hərəkatı ölkənin şimalında xüsusilə genişlənməkdə idi. 1807-1809-cu illərdə Şen-nam əyalətində bir-birinin ardınca üsyanlar baş verirdi. Kəndlilər əyalətin mərkəz şəhəri Txien-çıenqi tutub qubernatoru və qarnizon rəisini öldürdülər. XIX əsrin birinci yarısında ən böyük kəndli üsyanı 1825-ci ildə baş verdi. Üsyançılar hökumət qoşunlarını döyüşdə məğlub edərək, Şen-nam və Xay-zıenq əyalətləri üzərində nəzarəti uzun müddət öz əllərində saxladılar. 12700 may əkin yeri mülkədarlardan alınıb yoxsul kəndlilər arasında bölüşdürüldü. Eyni zamanda 1833 və 1854-cü illərdə Şimali Vyetnamın dağ rayonları əhalisinin də iştirak etdiyi kəndli çıxışları baş verdi.

İmperator Jia Lonq hakimiyyət başına gələn kimi feodal-mütləqiyyət monarxiyasını möhkəmləndirmək məqsədi daşıyan bir sıra islahatlar keçirdi.

Onun ilk tədbiri ölkənin inzibati bölgüsünü dəyişməkdən, mərkəzi və yerli idarə apartını yenidən təşkil etməkdən ibarət oldu. 1804-cü ildən ölkə Vyetnam adlandırılmağa başlandı (əvvəllər isə Day-vyet adlanırdı). Ölkənin bütün ərazisi üç böyük hissəyə - şimal, mərkəz və cənub hissələrə parçalandı ki, öz növbəsində bunlar da əyalətlərə bölünürdü. Yerli hakimlərin separatizminə yol verməməsi üçün və irəlicədən bunun qarşısını almaq məqsədilə senzorlar tribunalı yaradılırdı. Bu tribunallar hədsiz səlahiyyət və imtiyazlara malik idi.

### XIX əsrin birinci yarısında Nquenlərin xarici siyasəti

XIX əsrin brinci yarsından etibarən Vyetnama qarşı sistemli şəkildə davam edən xarici müdaxilələr nəticəsində ölkə yadellilərin təsir dairəsinə düşmüşdü. Eyni zamanda XIX əsrin birinci yarısında Vyetnam hələ də Çinin vassalı olaraq qalırdı. Həmçinin bu asılılıq xarici əlaqələrin məhdudlaşdırılması xarakter daşıyırdı. Nquenlər öz hakimiyyətini möhkəmlətdikcə Çin imperatoru qarşısında hüquqsuzluq və asılılıqdan get-gedə daha çox özlərini azad edirdilər. Bunun nəticəsi idi

ki, Vyetnam axırıncı dəfə 1845-ci ildə Çinə bac-xərac vermişdi və müstəqil iqtisadi siyasət yeridirdi.

Bununla bərabər, Nquenlər öz qərb qonşuları olan Kamboca və Laos haqqında daha fəal siyasət yeritməyə başlamışdılar. Tayşenlər üsyanı dövründə Vyetnamın asılılığından azad olmuş Kamboca 1805-ci ildə yenidən onun vassallığını qəbul etməyə məcbur olmuşdu. Yəni Vyetnam özü vassal ola-ola qonşu dövlətlərə qarşı hegemonluq edirdi.

Laosda istilaçılıq və hakimiyyət uğrunda 1827-ci ildə Vyetnam ilə Siam arasında gedən müharibə nəticəsində Vyetnam feodalları qalib gəldilər və Laosu da dərhal öz hakimiyyətinə tabe etdilər.

Bu dövrdə, yəni XIX əsrin birinci rübündə Şərqi Hindçində olan bütün dövlətlərin hamısından çox Vyetnamın böyük insan qüvvəsi və maddi ehtiyatları var idi. Bunun ən böyük strateji üstünlüyü, həmçinin ölkənin Avropadan Şərqi Asiyaya gedən ən mühüm dəniz yolunda tutduğu əlverişli strateji mövqeyi ilə ölçülürdü ki, bu da Avropa burjuaziyasının, xüsusilə Fransa burjuaziyasının diqqətini cəlb edirdi. 1789-cu il burjua inqilabından sonra sənaye istehsalının sürətlə artması, gənc fransız burjuaziyası qarşısında öz mallarını satmaq və ucuz xammal əldə etmək problemini qoymuşdu.

Kapitalist inkişafı yoluna daha tez daxil olmuş İngiltərə artıq, yer kürəsinin xeyli hissəsində çoxlu ərazi ələ keçirə bilmişdi. Buna görə də XIX əsrin əvvəllərindən etibarən Fransadan çoxlu ekspedisiyalar göndərilirdi ki, bunlar hələ "tutulmamış" torpaqların və onların istismar edilməsi imkanını öyrənsinlər.

Bu məqsədlə Fransadan uzaqlarda müstəmləkə əraziləri axtaran Fransa ekspedisiyası 1817-ci ildə "Lya Pe" adlanan gəmi ilə Vyetnam sahillərinə gəldi. Bunun ardınca Avropa ölkələrinin gəmiləri Vyetnam limanlarına daha tez-tez yan almağa başladı. Fransanın və başqa ölkələrin missiyaları Vyetnam hakimləri ilə görüşüb, ticarət hüquqlarının genişləndirilməsi haqqında razılığa gəlməyə çalışırdılar. Lakin Vyetnam hökuməti hələlik onların bu səylərini rədd edirdi. Fransız

missionerləri bəzi amilləri bəhanə edərək öz həmyerliləri olan fransız tacirlərinin köməyinə gəlirdi. Missionerlər Vyetnam kəndlilərinin ağır vəziyyətindən istifadə edərək yeni din qəbul edənləri öz təbliğatı vasitəsilə hökumətə qarşı qalxmağa çağırırdılar. Buna görə də 1825-ci ildə bəzi kilsələr bağlandı, onların din xadimləri isə məhkum edildi. Katolik kilsəsinin yardım göstərdiyi feodal Le Van Xoyun hökumətə qarşı üsyanı yatırıldıqdan sonra xristianların təqib edilməsi daha da sürətləndi.

1840-cı ildə Min Men (1820-1841) bir sıra ölkələrə, o cümlədən Fransaya səfirliklər göndərdi. Nquenlər Qərb ölkələri ilə normal dinc ticarət əlaqələri yaratmaq və bununla da Qərbin təcavüzkar hərəkətlərinin qarşısını almaq ümidində idilər. Lakin Lui Filipp hökuməti Vyetnam nümayəndəsini dinləmək belə istəmədi, elçilərə qarşı hörmətsizlik etdi.

Əlacsız qalan Vyetnamın yeni imperatoru Txeu Çi (1841-1847) Qərb dövlətlərinin tələblərini ödəmək yolunu seçdi və missonerləri, eləcə də xristianlığı yeni qəbul edənləri təqib etməyi dayandırmaq əmri verdi. Buna baxmayaraq Fransanın hakim dairələri 1847-ci ildə Vyetnama nümayəndəlik göndərərək katolik monaxların maneəsiz surətdə ölkəyə buraxılmasını və onlara azad fəaliyyət göstərməyə icazə verilməsini tələb etdi.

Hələ danışıqlar getdiyi bir vaxtda fransız hərb gəmiləri Turan limanına quldurcasına basqın etdilər.

Bu təcavüzkar hərəkətə cavab olaraq Vyetnam hökuməti fransız nümayəndəliyinə ölkəni dərhal tərk etmək bəyənatı verdi. Vyetnam Fransa ilə müharibə şəraitinə düşdü.

## Fransanın Cənubi Vyetnamı işğal etməsi

Uzun müddət idi ki, Fransa hökuməti Vyetnamın işğal edilməsi üçün bəhanə axtarır və bu mürtəce siyasəti həyata keçirmək üçün məqam gözləyirdi. Nəhayət, digər imperialist dövlətlərin ənənəsindən istifadə edən Fransa missionerlərin həyat və əmlakını müdafiə etmək bəhanəsilə 1858-ci ildə birləşmiş fransız-ispan hərbi gəmiləri Turan limanına girib oranı

atəşə tutaraq Turan limanına desant çıxartdılar. Bu limandan ölkənin daxilinə soxulmağın mümkün olmadığını görən baş komandan eskadrasını Sayqon rayonuna apardı. Lakin 1859-cu ilin martında o, Turanda mühasirəyə düşmüş qoşunlarına yardım etmək üçün geri qayıtmağa məcbur oldu. Vuruşmalar yeni qüvvə ilə başlandı. Fransız qoşununun vəziyyəti çox ağır idi. Sülh müqaviləsi bağlamaq haqqında danışıqlara başlamağa məcbur idilər. Lakin danışıqlar başlansa da müvəffəqiyyətsizliklə nəticələndi. 1860-cı ilin martında fransızlar Turanı tərk etdilər. Fransızların bu geri çəkilməsi İngiltərə və Fransanın Çinə qarşı müharibəyə başlamaları ilə əlaqədar idi.

Çinlə zorla qeyri-bərabərhüquqlu Pekin müqaviləsini bağlatdırdıqdan sonra Fransa Cənubi Vyetnam sahillərinə 70 gəmidən ibarət böyük hərbi qüvvə göndərdi. 1861-ci ildə fransız qoşunları Vyetnam sahillərinə çıxarılaraq Mi-txo, Jia-din və Byenxoa əyalətlərini tutdular. Fransız missionerlərinin əlaltısı feodal Ta Van Funqun, keçmiş Le sülaləsi hakimiyyətini bərpa etmək üçün ölkənin şimalında üsyan qaldırması fransızların müvəffəqiyyətinə kömək etdi. Üsyanı yatırmaq və öz hakimiyyətini saxlamaq naminə imperator Tı Dık (1847-1884) fransız komandanlığı ilə danışıq aparmağa məcbur oldu.

1862-ci il iyunun 5-də bağlanmış müqaviləyə əsasən Vyetnam Pulo-Kondor adasını və üç əyaləti Fransaya güzəştə getməli oldu. Fransanın ticarət və hərbi gəmilərinə Mekonq çayı və onun qollarında azad gəmiçilik hüququ verildi. Fransız və ispan tacirləri Turan, Balat və Kuanq-yen limanlarında maneəsiz ticarət etmək hüququ və imtiyazı aldılar. Katolik missionerlərin maneəsiz olaraq ölkəyə soxulması üçün geniş yol açılmış oldu və onların dini fəaliyyət göstərməsi üçün bütün imkanlar yaradıldı. Müqavilənin xüsusi maddəsi nəzərdə tuturdu ki, Fransanın razılığı olmadan Vyetnam öz ərazisinin heç bir hissəsini hər hansı bir dövlətə icarəyə və istifadəyə verə bilməz. Bundan başqa, Vyetnam 10 il müddətində Fransaya və İspaniyaya 2,8 milyon tael (1 tael = 37,8 qram) miqdarında gümüş pulla təzminat verməyi öhdəsinə götürdü.

Fransız müstəmləkəçiləri iğtişaşları ləğv etmək bəhanəsilə 1867-ci ildə Cənub-Şərqi Vyetnamın daha üç əyalətini, Vin-

lonq, An-jianq və Xa-tyen əyalətlərini də işğal etdilər. Fransa eyni zamanda Kambocanı da öz protektoratına çevirdi.

Fransa burjuaziyasının bu təcavüzkar hərəkətləri, bütün Şərqi Hindçində öz hökmranlığını yaratmaq sahəsindəki geniş planının həyata keçirilməsində ilk mərhələ idi.

## Mədəniyyət

XIX əsrin birinci yarısında Vyetnamın mədəni həyatı, onun qədim milli mədəniyyətinin Çin mədəni təsir ənənələri ilə birləşmiş olsa da bu xalqın mədəniyyəti mürəkkəb şəraitdə inkişaf edirdi.

Təhsil sahəsində Nquenlər canlı ünsiyyətə açıq demokratiyaya və aşkarlığa çox böyük üstünlük verirdilər və orta əsr ənənələrindən olan müsabiqəli ədəbi imtahanları davam etdirirdilər. Belə imtahanlar həmçinin mərkəzi və yerli hökumət aparatına məmurları seçmək məqsədilə keçirilirdi.

Qədim tarix sənədlərini toplayıb öyrənmək üçün Səlnaməçilər Bürosu yaradılmışdı. Büronun fəaliyyəti nəticəsində bir sıra əsərlər meydana çıxdı ki, bunlardan ən görkəmlisi "Day Nam txuk lık" - "Nquenlər sülaləsinin tarixi" və "Day Nam lyet çıenq" - "Vyetnamın görkəmli adamlarının tərcümeyi-halı" əsərləridir. Alim Le Kuanq Din "Vyetnamın ümumi coğrafiyasını" tərtib etdi. 10 clddən ibarət olan bu əsərdə müəllif Vyetnamın bütün vilayətlərinin rabitə yollarını, sərhədlərini, əhalisinin məşğuliyyət və adətlərini müfəssəl təsvir etmişdir. Bu rəsmi sənədlərdən başqa, tarixə, coğrafiyaya və hüquq məsələlərinə həsr olunmuş bir çox başqa əsərlər də meydana çıxdı. Bu əsərlər içərisində Fan Xyun Tyunun yazdığı "Bütün sülalələrin idarələri haqqında monoqrafiya" xüsusi yer tutur. 49 kitabdan ibarət olan bu əsər 10 hissəyə bölünür. Əsər o zamankı Vyetnamın bir növ ensiklopediyası hesab olunurdu. İctimai-siyasi mahiyyətdən çox tarixiliyə diqqət yetirilirdi. Təsvir olmadığına görə sinfi ziddiyyətlər milli mənafelərə xələl gətirmirdi.

Bununla yanaşı ədəbiyyatda lirik poeziya əsas yer tuturdu.

Müəlliflərin əksəriyyəti nisbətən yaxınlarda baş vermiş Tayşen üsyanının təsiri altında olan, öz əvvəlki sərvətlərini və

müstəqilliyini itirmiş feodal-alimlər sinfinə mənsub olduqları üçün onların şeirləri əsas etibarilə keçmişə, mistikaya aid idi. Onlar bütpərəstliyin dünyaya gətirəcəyi səadəti mədh edir, röya kimi yox olan xəyallardan danışır, taleyin faniliyindən şikayətlənirdilər. Qeyd etmək zəruri olardı ki, Vyetnamda hakimiyyət tarixini yazanlar hakim təbəqənin nümayəndələri olduğuna görə iki cür tarix yazılırdı, birinci sülalə hakimiyyətinin mədhindən danışan, ikinci xalqın real vəziyyətindən bəhs edən tarix əsərlərindən ibarət idi.

Məşhur şair Nquen Zunun yazmış olduğu "Kim Van kyeu" romanı o zamankı Vyetnam ədəbiyyatının ən gözəl nümunəsidir. Dərin humanizm duyğuları ilə zəngin olan bu əsər feodal Vyetnamın ən mühüm ictimai problemlərinə toxunurdu. Xalqın istismar edilməsi, hakimlərin xalqın sərvətini talayaraq yadellilərə ötürməsi, xarabalıqların gündən-günə artması, insanların öz ölülərini dəfn edə bilməmələri, hətta qəbir yerlərinin də satılması xalq yazarlarının həyatı bahasına nəşr üzü görmüşdü. İstismarın, səfalətin davam etdiyi ölkədə mövzu bolluğu olduğuna görə bundan başqa daha bir sıra görkəmli əsərlər yaradılmışdı. Bunlar içərisində, müəllifləri məlum olmayan "Bit Kaunun möcüzəli görüşü", "Ərik ağacının ikinci dəfə çiçək açması", "Fan Çan" əsərlərini göstərmək olar. Sülalə hakimiyyəti bir-birini əvəz etdikdən sonra xalq ona lazım olan tarixi mənimsəyir və qəbul edirdi ki, bu da min illər boyu davam edən ənənə idi.

Elm və ədəbiyyat sahəsində başlıca olaraq feodal sinfi nümayəndələri yaradıcı fəaliyyət göstərirdilərsə, incəsənət və bədii sənətdə daha çox xalq nümayəndələri çoxluq təşkil edirdi. XIX əsrin əvvəllərində teatr, xalq içərisində ən geniş yayılmış sevimli əyləncə mərkəzlərindən biri idi.

O zamanın memarlıq sənəti nümunəsi əsasən öz ifadəsini Xyuedə imperator iqamətgahının tikintisində tapmış oldu. Vyetnamın minlərlə ustası on illər boyu saraylardan, məbədlərdən, bağlardan və süni göllərdən ibarət mənzərəli bir ansambl yaratmaq üzərində çalışmışdır ki, bütün bu tikinti kompleksi zəngin bəzəkləri və gözəlliyi ilə Şərqin tikinti sənətinin ən yaxşı nümunələri ilə müqayisə edilə bilər.

# BİRMA

Cənub-Şərqi Asiyada, Hind-Çin yarımadasının şimal-qərbində yerləşən Birma Andaman dənizi ilə əhatələnir. Birmada 70-dən çox xalq, tayfa və etnik qrup yaşayır. Birmada birmalılarla yanaşı karenlər, şanlar, hindlilər, renlər, çinlilər, monlar, kaçinlər və başqa xalqlar və etnik qruplar yaşayırlar. Birmanın ən qədim arxeoliji abidələri Aşağı paleolitə aiddir. Tarixi məlumatlardan bir daha bəlli olur ki, Birma ərazisində Neolit dövründə indiki monların sələfləri olan monkxmer tayfaları yaşamışlar. Bizim eranın əvvəllərində qəbilə-tayfa quruluşunun dağılması nəticəsində ilk dövlətlər meydana gəlmişdir. VII-IX əsrlərdə indiki birmalıların əcdadları mranma və myanma tayfaları olmuşlar. Ehtimala görə bu tayfalar Çinin şimal-qərb və cənub-qərb əyalətlərindən köçüb Birmaya gəlmişlər.

Çin ərazisindən və digər ərazilərdən Birmaya məcburi və qeyri-məcburi miqrasiya edən tayfalar tədricən yerli xalqları sıxışdırmağa başladılar. Beləliklə, uzun müddət Birmada tayfalar arasında hakimlik uğrunda mübarizə aparılmışdır. 1044-cü ildə Paqon dövlətinin yaradıcısı Anorat bu mübarizədə qalib çıxdı. Anoratın hakimiyyəti dövründə (1044-1071) Paqon dövləti bütün Birmanı öz hakimiyyəti altında birləşdirərək Cənub-Şərqi Asiyada ən qüdrətli dövlətə çevrilmişdi. Lakin XIII əsrdə Birma-Mon ziddiyyətləri baş qaldırdı. Dağlı tayfaları tez-tez basqınlar təşkil etdi. Əyanlarla ruhanilər arasında mübarizə daha da gərginləşdi. Buddizmə qarşı çıxışlar təşkil edildi. 1283-cü ildə monqolların dağıdıcı yürüşləri bu dövlətin süqutunu tezləşdirdi və ölkədə feodal pərakəndəliyi baş verdi. 1287-ci ildə Birmanın cənubunda Pequ dövləti yaradıldı. XIV-XV əsrlərdə Birmada Ava və Pequ knyazlıqları arasında hakimiyyət uğrunda mübarizə başlandı. Uzun müddətli mübarizədən sonra Taunqu knyazlığı bu hərbi-siyasi mübarizədə qalib çıxdılar və Birmanı birləşdirdilər. Lakin bu birlik uzun müddət davam etmədi və ölkə feodal mülklərinə

parçalandı. Nəticədə XVIII əsrin ortalarında Birmada vahid dövlətin əsası qoyuldu və feodalizm cəmiyyəti inkişaf etməyə başladı.

1752-ci ildə Konbaunlar sülaləsinin banisi Alaunpaya monlara qarşı üsyan qaldırdı və birmalılarla çoxəsrlik münaqişə monların hərbi məğlubiyyətilə nəticələndi.

Birmada ticarətlə məşğul olan avropalılar ölkənin siyasi işlərinə qarışır, süni şəkildə vətəndaş həmrəyliyini pozurdular. Odur ki, Alaunpaya avropalıların ticarət faktoriyalarını, dəbdəbəli malikanələrini dağıdaraq müstəmləkəçilərin Birmanın daxili işlərinə qarışmasına bir müddət son qoydu. Bütün bu cəhdlər Birmanın müstəqilliyinin möhkəmləndirilməsinə yönəlsə də ayrı-ayrı səltənət və knyazlıqların hakimləri xarici himayədarları vasitəsilə ölkənin müstəqilliyinə zərbə vurur, zəhmətkeş əhalinin istismarını daha da gücləndirirdilər.

Bu dövrdə Birmada aparılan birləşdirmə siyasəti müvəqqəti xarakter daşıdığına görə hələ də pərakəndəlik hökm sürürdü. XVIII əsrin birinci yarısında Birma hələ də vahid dövlət olmayıb bir sıra səltənət və knyazlıqlara bölünmüş halda qalmaqda idi. Bu dövlətlərin başında duran sülalələrin daim bir-birilə apardığı müharibələr, hakimiyyət uğrunda tayfa müharibəsi öz ağırlığı baxımından zəhmətkeş əhali üzərinə düşür və ölkənin məhsuldar qüvvələrinin inkişafını ləngidirdi. XVIII əsrin ortalarından etibarən pərakəndəliyə son qoymağa və mərkəzləşdirilmiş dövlətin yaradılmasına başlandı. Amma bu çox çətin proses idi.

Ölkədəki siyasi pərakəndəlikdən, tayfalar arasında davam edən düşmənçilikdən, xüsusilə portuqaliyalılar, hollandlar, sonra da ingilislər və fransızlar öz mənafeləri üçün istifadə etməyə çalışırdı. Birma, müstəmləkə qarəti obyekti kimi, Çinə və Hindistana gedən yollarda əlverişli strateji məkan kimi xaricilərin diqqətini daha çox cəlb edirdi. Lakin müstəmləkəçilərin bir çox illərdən bəri orada möhkəmlənmək səyləri hələlik baş tutmurdu. Bunun səbəblərindən biri Birmanın Çin dövləti ilə münasibətləri ilə əlaqədar idi. Belə ki, bu zaman

Birma rəsmi olaraq Çinin vassalı hesab edilsə də, əslində müstəqil idi. Bu müstəqillik Birmanın sərbəst fəaliyyətində özünü göstərirdi.

## Birmanın ictimai-iqtisadi quruluşu

Birmanın ictimai-iqtisadi quruluşunun xarakter xüsusiyyətləri feodal münasibətlərinin hökmran olmasında idi. Torpaq mülkiyyətinin əsas formaları aşağıdakılardan ibarət idi. 1) kral torpaqları 2) xidmətə görə verilən və ya bağışlanan torpaqlar 3) xüsusi mülkiyyətdə olan torpaqlar 4) kilsə torpaqları.

Birmanın ən məhsuldar və münbit torpaqları krala məxsus idi. Bu geniş torpaq sahələrini təhkimli kəndlilər becərirdilər. Kral eyni zamanda Birmanın bütün torpaqlarının baş mülkiyyətçisi hesab olunurdu və ən varlı adam idi.

Xidmətə görə torpaq kateqoriyasına feodal zadəganlara verilmiş torpaqlar daxil idi ki, bunun da müqabilində onlar hərbi xidmət etməyə borclu idilər.

Xüsusi mülkiyyət torpaqlarına satın alınmış, meşələri təmizləmək və başqa vasitələrlə əldə edilən torpaqlardan ibarət idi. Bu torpaq hüquqi cəhətdən mübahisəli torpaq hesab olunurdu. Amma müstəsna hal idi ki, torpaq sahibi öz torpağını həmişə geri ala bilərdi. Eyni zamanda bu torpaq sahibliyi hərbi mükəlləfiyət daşımaqla əlaqədar deyildi.

Budda məbədləri və monastırları bəxşiş olaraq nəsli torpaq sahələri alırdılar ki, bunlarda isə mübahisəsiz torpaq sahələri idi.

Ölkənin hər yerində kəndli icmaları var idi. Bunların başında kəndxudalar dururdu. Bütün torpaqlarda kəndlilər mülkədarın və dövlətin nəfinə ağır vergilər verir və mükəlləfiyyət daşıyırdılar. Onlar can vergisi, adətən məhsulun 10 faizi miqdarında müxtəlif torpaq vergiləri verməli və əmək mükəlləfiyyətlərini yerinə yetirməkdə idilər. Bir çox istehlak şeylərindən, məsələn, duzdan və ev istehsalı şeylərindən də vergi alınırdı. Kralın əyalət və mahal hakimlərinin şəxsində feodalların yu-

xarı təbəqəsi kəndlilər üzərinə istədikləri vaxt hər cür əlavə vergilər qoyur və bu sahədə hər cür sui-istifadə edirdilər.

Birmada feodal münasibətləri əsil hərbi-feodal rejimi xarakteri daşıyırdı. Aşağı inzibati vahidlərin daha iri inzibati vahidlərdə birləşməsi kəndlilərin mülkədarlardan hərbi-feodal asılılığı prinsipinə əsaslanırdı. Belə ki, bir neçə kəndin, bəzən bir-birindən xeyli aralı olan kəndlərin əhalisi bir hərbi hissə təşkil edirdi. Onlar feodal rentası verir, müxtəlif feodal mükəlləfiyyəti daşıyır və müharibə dövründə hərbi hissəyə komandanlıq edən mülkədarın tabeliyində olurdular.

Dövlət aparatının rəhbərləri, ölkənin müxtəlif inzibati vahidlərinin hakimləri feodal sinfi içərisindən çıxırdı. Onlar məhkəmə hüququna malik olub, vergi toplayır, müharibə dövründə qoşunlara komandanlıq edirdilər.

Feodal münasibətlərinin hökmranlığı çoxlu köləlik qalıqları ilə çulğalaşmışdı. Hərbi əsirlərin köləliyə verilməsi davam edirdi. Misal üçün, məbədlərdə xidmət edən nəsli kölələr var idi. O zamankı Birma üçün xarakterik hallardan biri də borcluların köləliyə çevrilməsi idi. Padşahın torpaqlarında, xüsusi feodal malikanələrində, suvarma şəbəkələri, məbəd və saray inşaatında və sair işlərdə qul əməyindən istifadə edilirdi. Qul alveri geniş yayılmışdı. Birmanın ən geridə qalmış ucqar rayonlarında bir çox dağlı qəbilələr hələ də tayfa münasibətləri mərhələsində idilər.

Ölkənin iqtisadiyyatında başlıca olaraq natural xarakter daşıyan kənd təsərrüfatı əsas yeri tuturdu. Birma sənayesinin əsasını isə əkinçiliklə sıx bağlı olan ev sənayesi təşkil edirdi. Bununla yanaşı, sənətkarlıq da xeyli inkişaf etmişdi. Pambıq və ipək parça istehsalı, gəmiqayırma, dulusçuluq geniş yayılmışdı. Qızıldan, gümüşdən, fil sümüyündən mahiranə şeylər düzəldilirdi. Birmada istehsal olunan zinət əşyaları, fil sümüyündən hazırlanmış məmulatlar, lak çox qiymətli hesab olunurdu və bu əşyalar Avropa bazarında yüksək qiymətə satılırdı.

Amma faktiki olaraq Birmada ticarət ləng inkişaf edirdi. Böyük şəhərlərdən başqa, bütün ölkədə mübadilə ticarəti üstün yer tuturdu. Pul tədavülü Birmada yalnız 1861-ci ildən tətbiq edilməyə başlamışdı, bundan əvvəl alver müamiləsi

qanza vasitəsilə (qızıl və gümüş külçə) edilirdi. Ölkənin feodal dağınıqlığı, kəndlilərin yoxsulluğu, icma təsərrüfatının natural xarakter daşıması və daxili gömrük sədləri xeyli müddət vahid daxili bazar yaranmasına mane olurdu. Ayrı-ayrı malların dövlət ticarət inhisarında olması, ticarətin inkişafını olduqca ləngidirdi.

Eyni zamanda Birmanın xarici ticarəti xeyli geniş inkişaf etmişdi. Birma ən çox Çinlə qızğın ticarət aparırdı. Qədim Bamo-Momeyi karvan yolu ilə birmalılar Çinə pambıq, lak, kəhrəba, qiymətli daşlar (nefrit, yaqut) və başqa şeylər aparır, Çindən isə ətriyyat, dəri məmulatları, şirniyyat, kətan parçalar, çini qablar, kağız və çay gətirirdilər. Birmanın Avropa ölkələrilə də ticarəti xeyli geniş idi. Lakin Avropa tacirlərinin qarətkar hərəkətləri nəticəsində Birma hökuməti XVII əsrin axırlarında bu ticarəti olduqca məhdudlaşdırmışdı. Bunun səbəbi ondan ibarət idi ki, avropalılar Birmaya gəlir mənbəyi kimi baxırdılar. Avropa tacirləri Birmada keyfiyyətsiz məhsulu yerli xalqa çox baha qiymətə satırdılar. Əslində avropalılar Birmanı talayırdılar. XVII əsrin axırlarında xarici ticarətlə əlaqədar qanun qəbul edildi və bu qanunla da avropalıların ticarət fəaliyyətinə nəzarət qoyuldu.

## Vahid feodal dövlətin yaranması

Uzun müddət idi ki, Birmada mərkəzləşdirilmiş dövlətin yaradılması problem olaraq qalırdı. Feodal pərakəndəliyi mərkəzləşdirilmiş dövlətin yaradılmasına maneçilik törədirdi. Odur ki, XVII əsrin ikinci yarısınadək Birma feodal dağınıqlığı vəziyyətində qalmaqda idi. Pequ səltənətində yaşayan monlar (talainqlər) Birma hökmdarlarının mər-kəzi hökumətinin son dərəcə zəif olmasından istifadə edərək, 1740-cı ildə onlara qarşı çıxış etdilər. Monlar Birma qoşunlarını məğlub edərək tədricən ölkənin bütün hissəsini tutdular və bir neçə il sonra hətta Birmanın paytaxtı Ava şəhərini də ələ keçirdilər.

Lakin monların yuxarı feodal təbəqələri hakimiyyəti uzun müddət öz əllərində saxlaya bilmədi. 1752-ci ildə onların hakimiyyətinə qarşı birmalılar içərisində azadlıq hərəkatı

başlandı. Şvebo mahalının Montxobo kəndinin kəndxudası Alaun-Pay (Alompra) hərəkatın başında duraraq özünü Birma kralı elan etdi. Bir az sonra Ava və ölkənin cənubundakı əsas rayonlar monlardan geri alındı. Monlar üzərində qələbə şərəfinə Alaun-Pay 1753-cü ildə Ranqun ("nifaqın sonu") şəhərinin əsasını qoydu. Lakin birmalılarla monlar arasında siyasi hakimiyyət uğrunda mübarizə daha bir neçə il davam etdi. Birmada vətəndaş müharibəsi, sülalələr arasındakı ziddiyyətlərin uzunmüddətli olması fransız və ingilis müstəmləkəçilərinin ölkənin daxili və siyasi həyatına fəal müdaxiləsi ilə izah olunur. Belə ki, həm ingilislər, həm də fransızlar Birma uğrunda rəqabət aparmaqla yanaşı Birmaya öz müstəmləkəsi kimi baxırdılar.

Birma ərazisində ticarət faktoriyalarına sahib olan ingilis və fransız Ost-Hind kompaniyaları ölkədəki daxili müharibələrdən öz mənafeyi üçün istifadə edirdilər. Onlar yerli xalqların avropalılara qarşı müqavimətini zəiflətmək məqsədilə birmalılarla monlar arasındakı düşmənçiliyi hər vəchlə qızışdırdılar. İngilislər bu işdə birmalılara, fransızlar isə monlara kömək edirdilər. Haşiyə: - Tarixin bütün mərhələlərində xristian-islam qarşıdurması mövcud olmuşdur. Bu faktordan beynəlxalq imperializm daima bəhrələnmişdir. Belə ki, müstəmləkə ərazilərində vətəndaş həmrəyliyinin pozulması vətənin, müdafiəsiz qalmış ölkənin işğalını asanlaşdırırdı. Birmada digər amillər də müşahidə olunurdu. Belə ki, bəzən, vəziyyətdən asılı olaraq, onlar eyni zamanda düşmən tərəfə də yardım göstərirdi. Bununla yanaşı, onlar Birmada öz mövqelərini müntəzəm olaraq möhkəmləndirirdi. Misal üçün, özünü birmalıların dostu kimi göstərməyə çalışan Ost-Hind kompaniyası Basseyn çayı mənsəbindəki Neqrays adasını çox ucuz qiymətə satın aldı və iri liman şəhəri olan Basseyndə yeni faktoriya təsis etdi. Ost-Hind kompaniyası bu yerlərdə istehkamlar düzəldərək, Birmaya daha da soxulmaq üçün bunları dayaq məntəqələrinə çevirməyə başladı. Fransız Ost-Hind kompaniyası isə Siriamda möhkəmlənməyə nail oldu.

Monlara qarşı mübarizə gedişində birmalılar daha bir uğur əldə edərək 1756-cı ildə Siriamı tutdular. Siriamın süqu-

tundan sonra monlar fransızların silahlı yardımından məhrum edildi. Fransızlar təkcə Siriamdan deyil, ölkənin digər rayonlarından da qovuldu. Öz rəqibindən yaxa qurtaran ingilis Ost-Hind kompaniyası işğalçılıq fəaliyyətini gücləndirərək Birmada mərkəzləşdirilmiş dövlətin yaranmasına var qüvvəsilə mane olurdu. İngilis Ost-Hind kompaniyası eyni zamanda monları yeni üsyan qaldırmağa təhrik edirdi. Buna cavab olaraq, birmalılar 1759-cu ildə Neqrays adasında və digər rayonlarda ingilis faktoriyalarını dağıdıb ingilisləri Birmadan qovdular.

Fransız və ingilis işğalçılarını qovduqdan sonra, birmalılar monların və digər tabe olmayan feodal knyazların müqavimətini tamamilə qırıb, bütün ölkəni feodal dövlətində birləşdirə bildilər. Öz birliyi uğrunda uzun müddət mübarizə aparan Birma dövləti heç bir zaman Alaun-Payın hakimiyyəti dövründəki qədər vahid olmamışdı. Ava şəhəri yenidən Birmanın paytaxtı elan edildi. Paytaxtın adı ilə bütün imperiya Ava dövləti adlanırdı.

Birmada vahid feodal dövləti burada millətlərin təşəkkülündən qabaq yaranmışdı. Ölkənin sayca ən çox və ən qabaqcıl xalqı olan birmalılar bütün məmləkət üzərində öz hegemonluğunu bərpa etdi. Daxili feodal müharibələrinə son qoyulması Birmanın xarici işğalçılara müqavimət göstərmək imkanlarını artırdı və onun müstəmləkə əsarəti altına alınmasına on illər boyu imkan verilmədi.

Bu amillərlə yanaşı Birmada daxili ziddiyyətlər nəticəsində hələ də problemlər çoxluq təşkil edirdi. Eyni zamanda Birmanın idarəçilik sistemi olduqca mücərrəd idi. Kral özünü müstəqil idarəçi kimi göstərirdi. Odur ki, dövlət başında qeyri-məhdud hakimiyyətə malik kral dururdu. O özünü: "Ağ fillərin ağası. Dənizlərin və torpaqların hökmdarı"[1] adlandırırdı. Hökumət vəzifəsini icra edən və ali qanunverici və məhkəmə orqanı hesab olunan Dövlət şurası kralın verdiyi qanun və ya

[1] K.Marks. Hindistan tarixinə dair xronoliji çıxarışlar (1664-1858-ci illər). Dövlət siyasi ədəbiyyat nəşriyyatı, 1947, səh 125.

sərəncamın yerinə yetirilməsini yalnız müvəqqəti olaraq dayandıra bilərdi. Lakin bunları tamamilə ləğv edə bilməzdi. İri feodal dövləti ölkə əhalisinin əsas hissəsini təşkil edən kəndliləri istismar etmək aləti idi. Ən başlıcası kəndlilərin torpağa təhkim edilməsi prosesi güclənirdi. Bu, sinfi mübarizənin kəskinləşməsinə və tez-tez kəndli üsyanlarının baş verməsinə səbəb olurdu. Ava hakimləri qonşu dövlətlərlə, o cümlədən Çin, Siam və başqaları ilə müharibələr aparırdı. Fasilələrlə 1765-ci ildən 1769-cu ilədək Çinə qarşı müharibədə birmalılar Çinin, Bamodan şimal-şərqdə olan sərhəd rayonunu tutmuşdular. Birmalılar hind knyazlıqları Manipuru, Assamı və başqa yerləri də işğal edə bilmişdilər. Lakin daima istilaçılıq amalı ilə yaşayan imperiyaların, qəsbkarlığa meylli olan dövlətlərin, qaniçən hökmdarların aqibəti eyni faciə ilə bitir. Bu tarixi prosesdir. Birmanı da belə aqibət gözləyirdi.

## Birinci ingilis - Birma müharibəsi (1824-1826)

İmperiya ənənlərini unutmayan və daima belə ideallarla düşünən ingilis müstəmləkəçiləri Birmadan qovulduqdan sonra da onu əsarət altına almaq ümidlərindən əl çəkməmişdilər və buna hazırlaşırdılar.

XVIII əsrin axırı və XIX əsrin əvvəllərində Birmada ingilislərin təcavüzkarlığı daha da gücləndi. İngilis hökumət orqanları Birmaya qonşu olan hind feodal knyazlıqları ilə Birma əleyhinə "müdafiə və hücum sazişləri" bağlayaraq, onları silahla təchiz edir, Birmaya qarşı basqın etməyə qaldırırdılar. İngilislər eyni zamanda Birmaya əsarətli sazişlər qəbul etdirmək yolu ilə burada öz mövqelərini möhkəmlətmək istəyirdilər. Lakin Birma hökumətinin göstərdiyi müqavimət nəticəsində, Birmaya göndərilən bütün diplomatik nümayəndəliklərin səyləri uğursuzluqla nəticələndi və ingilis təxribatları baş tutmadı.

XIX əsrin 20-ci illərinin əvvəllərində İngiltərənin daimi müttəfiqi ABŞ Birmaya soxulmağa səy edirdi. Amerika hökuməti dini baptist cəmiyyətinin missionerləri vasitəsilə Birma

kralından müxtəlif güzəştlər, o cümlədən öz tacirləri üçün müxtəlif imtiyazları almaq, Birmada amerikalıların yaşaması üçün orada torpaq satın almaq hüququ və bu kimi güzəştlər əldə etməyə çalışırdı. Bir sıra cəhdlərə baxmayaraq Birma hökumətinə qeyri-bərabər saziş qəbul etdirmək mümkün olmadı. Milli qüvvələr haqlı olaraq xariciləri ölkəyə buraxmadılar.

Nəhayət ki, ABŞ-ın təcavüz cəhdləri ingilis burjuaziyasının Birmaya qarşı işğalçılıq müharibəsinə başlamaq niyyətinə təkan verdi. Bu zaman İngiltərə üçün əlverişli vəziyyət yaranmışdı. İngilislərin bütün qüvvələrinin Hindistanı əsarət altına almağa yönəltməsi nəticəsində, XIX əsrin 20-ci illərinə yaxın Hindistan əsasən istila edilmişdi. Hindistanda olan ingilis hökumət orqanları növbəti sərhəd münaqişəsi salaraq 1824-cü ilin martında Birmaya müharibə elan etdilər. Həm də ingilislər Birmaya qarşı bu xaincəsinə hücumu özlərinin müstəmləkəsi olan Hindistan torpaqlarını guya Birmanın təcavüzündən müdafiə etmək kimi qələmə verirdilər.

Ost-Hind kompaniyası tərəfindən aparılan birinci ingilis-Birma müharibəsi Hindistanın maddi və insan ehtiyat qüvvələri hesabına aparılırdı. Ost-Hind kompaniyası ordusunun böyük bir hissəsini muzdlu hind əsgərləri olan sipahilər təşkil edirdi ki, onların sayı 200 mindən çox idi.

İngilis-hind ordusunun hissələri birmalıların şiddətli müqavimətini qıraraq tədricən ölkənin cənubundakı sahil rayonlarını işğal etdilər. 1825-ci ilin əvvəllərində isə Birmanın şimal-şərq rayonları işğal edildi. Bu rayonlar İngiltərənin Hindistandakı müstəmləkə torpaqları ilə həmsərhəd olduğuna görə ingilislər işğal prosesində o qədər də çətinlik çəkmədilər.

ABŞ və İngiltərənin hərbi koalisiya qüvvələri tərəfindən Birmanın işğalı ərəfəsində dövlətin ordu quruculuğu olduqca ləng aparılırdı. Bu onunla əlaqədar idi ki, Avropa dövlətləri, o cümlədən qonşu dövlətlər Birmanın hərbi-iqtisadi cəhətdən güclənməsini istəmirdilər və buna ciddi maneələr törədilirdi. Birma qoşunlarının yalnız yarısı odlu silahla, qalanı isə nizə və qılıncla silahlanmışdı. Buna baxmayaraq Birma əsgərləri öz vətənini qəhrəmanlıqla müdafiə edərək düşmənə qarşı inamla vuruşurdular.

Beləliklə, Birma ərazisinə soxulan ingilis işğalçıları yalnız Birma ordusunun deyil, həmçinin öz istiqlaliyyətini müdafiə etməyə qalxmış olan bütün xalqın müqavimətinə rast gəldilər. Bu müharibə ingilislərlə Birma xalqının müharibəsi xarakterini aldı.

Düşmən yaxınlaşdıqca əhali öz yaşayış yerlərini tərk edərək digər rayonlara qaçır və ya cəngəlliklərdə gizlənirdi. Qaçan əhali əvvəlcədən bütün ərzağı, nəqliyyat vasitələrini və işğalçıların azacıq da olsa istifadə edə biləcəyi hər şeyi məhv edirdi. Onlar ingilislərin yükdaşıyan arabalarına hücum edir, düşmən qoşunlarının ayrı-ayrı hissələri arasında rabitəni kəsirdilər. Bu müharibəyə bütün xalq qoşulmuşdu. Hamı əsgər, hamı döyüşçü, hamı partizan, hamı fədakar vətənpərvər idi.

Beləliklə, bu xalq müharibəsi ingilis müstəmləkəçilərinin tez və tam qələbə əldə etmək ümidlərini puça çıxardı. Ərzağın çatışmaması və əlverişli iqlim şəraitinin olmaması Britaniya qoşunlarında yoluxucu xəstəliklərin geniş yayılmasına və bunun nəticəsində kütləvi tələfatlara səbəb oldu. Bütün bu xüsusiyyətlərə baxmayaraq ingilis işğalçıları çox böyük qurbanlar bahasına müvəffəqiyyət qazanmalı olurdular.

Ost-Hind kompaniyasının qüvvələrinin Birmaya qarşı müharibəni yarımçıq dayandırmasının ən başlıca səbəb xalq müqavimət hərəkatı idi. Bundan başqa, birmalılara qarşı ədalətsiz müharibəyə yabançı olan hind hərbi hissələri içərisində ingilis komandanlığına tabe olmamaq halları da artıq baş verirdi. Məhz bu hal müharibənin müvəffəqiyyətlə qurtara biləcəyinə ingilis komandanlığında böyük şübhə oyadır və onları narahat edirdi.

Odur ki, qismən hərbi uğurlarla kifayətlənən ingilislər belə şəraitdə müharibənin davamını əhəmiyyətsiz bilib 1826-cı ilin fevralında paytaxt Avanın yaxınlığında olan İandabo qəsəbəsində sülh müqaviləsi imzaladı. İandabo müqaviləsinə görə ölkənin şimalında Assam, Kaçar, Manipur əyalətləri, habelə ən mühüm dəniz sahili əyalətləri olan Arakan və Tenasserim Birmadan alındı. Birma 1 milyon funt sterlinq məbləğində təzminat verməli oldu. Bu müqavilə, Birma dövlətinə

zorla qəbul etdirilən ilk qeyri-bərabərhüquqlu və qarətkar müqavilə idi. Beləliklə 1824-1826-cı illəri əhatə edən 1-ci Birma-İngiltərə müharibəsi nəticəsində Birma İngiltərənin xeyrinə bir sıra güzəştlərə getməyə məcbur oldu. Birma, bu müharibədə geri çəkilsə də ingilislər bununla kifayətlənmədi.

## İkinci ingilis - Birma müharibəsi

İngiltərənin hakim dairələri bütünlüklə Birmanı zəbt etmək və onu öz müstəmləkəsinə çevirmək səylərindən əl çəkməmişdilər. 1852-ci ilin aprelində İngiltərə ilə Birma arasında ikinci müharibə başlandı. Bu müharibəni Birmada Britaniya tacirləri ilə pis rəftar edilməsi bəhanəsilə ingilis Ost-Hind kompaniyası başladı.

Aprel-iyun aylarında Britaniya müstəmləkəçiləri Aşağı Birmanın Martaban, Ranqun, Basseyi və başqa ən mühüm məntəqələrini tuta bildilər. Düşmənə qəhrəmancasına müqavimət göstərməsinə baxmayaraq Birma qoşunları geri çəkilməyə məcbur oldu.

İngilis müstəmləkəçiləri ölkənin içərilərinə soxulduqca işğal edilmiş ərazidə yerli əhalinin partizan müharibəsi genişlənməyə başladı. İngilislərin Birma xalqına qarşı müharibəsi Birmanın nizami hissələri ilə müharibədən daha təhlükəli idi. Vuruşmalar uzun sürən müharibə xarakteri aldı, böyük maddi və insan itkisinə səbəb oldu. İkinci ingilis-Birma müharibəsi bütün Birmanın işğalının başa çatdırılmasında həlledici amillərdən biri oldu. Amma bu dəfə də xalqın fədakar müqaviməti ingilis hakim dairələrinin çox planlarını pozdu. Nəhayət, Hindistanın ingilis general-qubernatoru 1852-ci ilin dekabrında Pequ əyalətinin ilhaq olduğunu elan etdi və 1853-cü il iyunun 30-da isə hərbi əməliyyatın qurtarması haqqında intibahnamə nəşr edildi. Britaniya hökumət orqanlarının təklif etdiyi sülh müqaviləsi layihəsi dörd maddədən ibarət idi: 1) əbədi sülh qoyulması; 2) Pequ əyaləti Böyük Britaniyaya verilməsidi; 3) ticarət azadlığı; 4) Birma hökuməti tərəfindən müqavilənin

dərhal imzalanması və təsdiq edilməsi. Əks təqdirdə Birma krallığı tamamilə istila olunanadək müharibənin davam etdiriləcəyi şərti irəli sürülürdü.

İngilislərin müxtəlif hədələrinə məhəl qoymayan Birma kralı Mondon (1853-1878) təklif edilən müqaviləni imzalamaqdan və Pequ əyalətinin işğalını tanımaqdan imtina etdi. İngilis burjuaziyasının qarətkar hərəkətlərinə qarşı xalq kütlələrinin hiddəti yeni mərhələyə daxil olmaqda idi. Hətta, İngiltərə Birma kralını yenidən hərbi əməliyyata başlayacağı ilə hədələsə də, lakin o zaman əməli olaraq bu işə girişməyə cürət etmədi.

## 1852-1860-cı illərdə Pequda partizan müharibəsi

Pequ əyalətinin əsasən monlardan və ya talainqlərdən ibarət olan yerli əhalisi ingilis işğalçılarını öz vətənindən qovmaq qətiyyətində idi. Amma buna nail olmaq mümkün olmurdu. Səbəb? Səbəb ondan ibarət idi ki, müstəmləkəçilər Birmada işğalçı müharibə aparanda digər tayfalar sadəcə olaraq bunu müşahidə edirdilər, həmrəylik göstərmirdilər. Daha dərk etmirdilər ki, bu istila bir gün onlar üçün də olacaqdır. Bu dövrdə yalnız ingilis qarnizonları olan məntəqələrdə Britaniyanın hakimiyyəti yaradılmışdı. İngilislərin bütün əyaləti öz hakimiyyətinə tabe etmək səyləri hər dəfə xalqın silahlı müqavimətinə rast gəlirdi. Bunun nəticəsi idi ki, ingilislər 1861-ci ilədək əhalini hələ də özlərinə tabe edə bilməmişdilər. Əgər ümumi birlik olsaydı işğalçılar heç sərhədə də yaxınlaşa bilməzdi. Təəsüf ki, o milli həmrəylik hələ yox idi.

Hökumətin özü də mövcud şəraitdə qapalı siyasət yeridirdi. Amma xalqın inadkar mübarizəsi 1853-1854-cü illərdə yenidən gücləndi. Həmin illərdə hətta ingilis hakim dairələrinin özü də Pequda vəziyyətin son dərəcə ağır olduğunu etiraf edirdilər. Onlar etiraf edirdilər ki, bütün ölkəni başdan-başa "qiyam və həyəcanlar" bürümüşdür. Bu zaman Pequda

ingilis nizami qoşunlarının sayı 18-19 minə çatırdı, halbuki ikinci ingilis-Birma müharibəsində 8100 nəfər istirak etmişdi.

İngilis işğalçıları özgə torpağında həyasızcasına ağalıq etdiklərindən, misilsiz qarətkarlığa əl atdıqlarından və əhalini şiddətli surətdə istismar etdiklərinə görə ingilis zalımlarına qarşı Birma xalqının nifrəti, qəzəbi, intiqam hissi, getdikcə güclənirdi. Britaniya hökumət orqanları Pequnu işğal etdiyi birinci ildən başlayaraq müharibə nəticəsində müflisləşmiş əhali üzərinə öz xeyrinə güccatmaz ağır vergilər, can vergisi və başqa vergilər qoymuşdu. Balıqçılar üzərinə isə xüsusi vergi qoyulmuşdu. Təsərrüfatında balıqçılığın mühüm yer tutduğu dəniz sahili əyalətinin əhalisi bu vergidən xüsusilə bezmişdi. Ölkədə mütamadi olaraq vergilərin artırılması kütləvi aclığa səbəb oldu və Pequ əyalətinin bir çox rayonları xarabazarlığa  çevrildi. Əhali kütləvi surətdə acından ölürdü. Təəccüblü deyildir ki, işğal edilmiş vilayətlərin əhalisi qaçıb cəngəllərdə partizanlara qoşulur, ya da ingilis ağalığına qarşı üsyan qaldırırdı.

Yerli əhalidən, həmçinin nizami ordunun Pequda qalmış əsgərlərindən partizan dəstələri yaradılırdı. Bu dəstələr kəndlilərdən, balıqçılardan və dilənçilərdən ibarət idi. Öz hakimiyyətini və imtiyazlarını xarici işğalçılarla bölüşdürmək istəməyən feodalların və budda ruhanilərinin bir hissəsi də xalq müqaviməti hərəkatına qoşulmuşdu. Vətənpərvərlərin baçlıca məqsədi öz vətənindən ingilis müstəmləkəçilərini qovmaq və bütün əyaləti xaricilərin ağalığından azad etmək idi.

Belə bir şəraitdə Britaniya qoşunları partizan dəstələrilə şiddətli vuruş-malar aparmalı oldular. Bilin, Pequ kimi ayrı-ayrı şəhərlər dəfələrlə əldən-ələ keçdi. Birma partizanları çox zaman açıq döyüş meydanında vuruşmayaraq ingilis düşərgələri üzərinə meşələrdən və pusqulardan hücum edirdilər. Yerli əhali partizanlara geniş yardım göstərirdi. Yerli əhalidən olan "bələdçilər" adətən ingilisləri cəngəlliklərdə azdırır və burada partizanlar onları mühasirəyə alır və məhv edirdilər.

İngilis işğalçılarına qarşı müharibədə bir çox partizan dəstələrinin rəhbərləri bacarıqlı sərkərdə kimi formalaşmışdı[1]. Partizan dəstəsi rəhbərləri içərisində Mia-Tun xüsusilə məşhur idi. İngilislər ona ən təhlükəli partizan rəhbəri, Birmanın Əbdülqədiri deyirdilər. Onun başı üçün 1000 rupilik böyük mükafat vəd verilmişdi və sonralar bu mükafat iki qat artırılmışdı. Maunq Qaunq-Qi və bir sıra başqa vətənpərvərlər də partizan müharibəsinin məşhur qəhrəmanları idi. Partizan müharibəsi Basseyn mahalında xüsusilə geniş yayılmışdı, burada partizan müharibəsilə yanaşı yerli əhali 1854-cü ildə ümumi üsyan qaldırdı. Demək olar ki, bütün mahal üsyançıların əlinə keçmişdi və partizan dəstələri strateji məkanları tutmuşdular. Amma hökumət daha çevik hərəkət edərək buraya çoxlu nizami qoşun gətirildikdən sonra, üsyan yatırıldı. Lakin Basseyndə partizanlar əməliyyatı davam etməkdə idi. İşğal edilmiş digər rayonlarda da, o cümlədən Ranqunda, Martabanda və başqa yerlərdə iğtişaşlar davam edir, xalq kütləsi məğlubiyyətlə barışmırdı.

Bu səbəbdən Pequda xalq müqaviməti 9 ilədək davam etdi. Birləşmiş xalq müqavimət hərəkatı məğlubiyyətlə nəticələnəndən sonra da qalın meşələrdə gizlənmiş davam Birma partizanlarının ayrı-ayrı çıxışları yenə də davam etməkdə idi.

İngilis işğalçılarına qarşı müharibələrdə birmalıların məğlubiyyətini təhlil edərkən bunun başlıca səbəbini Birmanın ictimai-iqtisadi geriliyində və bundan irəli gələn hərbi zəifliyində görmək olar.

Pequ partizanlarının fədakar mübarizəsi XIX əsrin ortalarında Şərq ölkələrində feodal istismarının güclənməsi və İngiltərə-Amerika-Fransa işğalçılarının bu ölkələrə soxulması nəticəsində baş verən xalq çıxışları milli-azadlıq hərəkatı tarixində mübarizə silsiləsinin bir hissəsi idi. Odur ki, 1852-1860-cı illərdəki partizan müharibəsi ölkənin işğal edilmiş hissəsində Britaniya ağalığının möhkəmlənməsinə təhlükə tö-

---

[1]Əbdülqədir (1808-1883) Əlcəzair xalqının milli-azadlıq hərəkatının rəhbəri olmuşdu.

rədən xalq müqavimətinin gücünü göstərdi. Bu xalq müqaviməti Yuxarı Birmanın müstəmləkə əsarətinə tabe edilməsini bir müddət təxirə saldı, onu ləngitdi.

## Birma XIX əsrin 60-cı illərində

İkinci İngiltərə Birma müharibəsi nəticəsində İngiltərə mühüm strateji mövqelər tutmuşdu. Bunlar Birmanın tamamilə işğal edilməsini asanlaşdırırdı. İngiltərə ildə üç dəfə məhsul verən, iqtisadi cəhətdən zəngin və inkişaf etmiş Pequ əyalətini artıq Birmadan qoparmışdı. Yuxarı Birma limanlardan, ümumiyyətlə dənizdən tamamilə aralı düşmüşdü və Britaniyanın mühasirə zonasına qatılmışdı.

Pequda partizan hərəkatı məğlubiyyətə uğradıldıqdan sonra İngiltərənin hakim dairələri var qüvvəsi ilə Yuxarı Birmaya soxularaq onun iqtisadiyyatını öz mənafeyinə tabe etdirməyə başlamışdı. Nəhayət, ingilislər 1862 və 1867-ci illərdə Birma hökumətini qeyri-bərabərhüquqlu müqavilələr bağlamağa məcbur etdilər. Bu müqavilələr ölkəni əsarət altına almaq üçün ən güclü bir vasitə oldu.

Müqavilələrə əsasən ingilis tacirləri ölkənin hər hansı bir hissəsində maneəsiz ticarət edə bilərdilər, həm də onların mallarından alınan gömrük haqqı azaldılaraq beş faizə endirilmişdi. Bununla yanaşı inzibati idarəçilik sistemində despotik idarə üsulu tətbiq etmək məqsədilə Birmanın paytaxtı Mandalaya öz hərbi dəstəsi olan ingilis rezidenti göndərildi. Bamo şəhərində rezidentin xüsusi nümayəndəsi siyasi agent yerləşirdi. O, da öz hərbi dəstəsini saxlamaq hüququna malik idi. Çinin Yunnan əyaləti ilə əsas ticarətin Bamo şəhərindən keçdiyini nəzərə alaraq, ingilislər Çinə soxulmaq üçün bu şəhəri öz dayaq məntəqəsinə çevirmək istəyirdilər. Birma hökuməti Yuxarı Birma vasitəsilə ingilis-Çin ticarətinin inkişaf etdirilməsinə hər cür kömək göstərməyi öhdəsinə götürməli idi.

İngiltərənin Yuxarı Birmaya soxulması buranın işğalının başlanğıcı oldu. Lakin Birma xalqının silahlı müqavimətini qırmaq üçün ingilis burjuaziyası çox vaxt və qüvvə sərf etməli oldu. Milli tənhalıq Birma xalqını müstəmləkə əsarətinə düşməsi üçün zəmin hazırladı.

# ƏFQANISTAN

Əfqanıstan ölkəsi çoxlu xalqların, etnik qrupların məsgunlaşdığı ölkədir. Burada əfqanlar, taciklər, özbəklər, türkmənlər, xəzarilər, bəluclar, qırğızlar, qazaxlar, qaraqalpaqlar, azərlər və başqa xalqlar tarixin müxtəlif mərhələlərində məcburi və yaxud mövcud şəraitlə əlaqədar miqrasiya etmiş və aborigen xalqlarla qaynayıb qarışmışlar. Sonrakı mərhələlərdə tayfalar arasında gah könüllü və yaxud məcburi birləşmə prosesi baş vermişdir. Beləliklə, arxeoloji məlumatlara istinadən demək olar ki, Mərkəzi Asiyanın Cənub-Qərbində yerləşən Əfqanıstanın şimal hissəsində daş dövründə, cənub hissəsində isə tunc dövründə məsgunlaşma prosesi baş vermişdir. Dövlətçilik baxımından isə, e.ə. 1-ci minilliyin 1-ci yarısında Bəlx dövlətinin yaranması ehtimal olunur. Lakin e.ə. VI əsrin 30-cu illərində Əhəmənilər dövlətinin tərkibinə qatılmış, 330-329-cu ildə Makedoniyalı İsgəndər tərəfindən işğal edilmiş, sonra isə Selevkilərin bu ərazilərdə hökmranlığı nəticəsində işğal təsir altına düşmüşdü.

Bu tarixi proseslərdən sonra isə Əfqanıstan VI əsrin 60-cı illərindən etibarən Türk xaqanlığının və Sasanilərin əsarəti altına düşdü. Ərəb işğallarının başlanması və genişlənməsi nəticəsində VII-VIII əsrlərdə ərəblər Əfqanıstanın xeyli hissəsini işğal edib islam dinini zorla yaymağa başladılar və Əfqanıstanda ərəb xilafəti əsarəti dövrü başlandı. Əfqanıstanda ərəb zülmünə qarşı qənimətçilik, xaricilik və başqa təriqətlər mübarizə aparmalı olmuş və fasilələrlə davam etmiş, islamın yayılması zorla reallaşmışdı.

Əfqanıstan X əsrin 60-cı illəri və XII əsrin 30-cu illərində Qəznəvilər dövlətinin, sonralar isə Əfqanıstanın böyük bir hissəsi Qurilər dövlətinin (1148-1206) işğalına məruz qalmışdır. 1206-cı ildə çağrılmış Onon qurultayından sonra Monqol istilasına zəmin hazırlandı və XIII əsrdə bir çox ölkələr kimi Əfqanıstan da monqollar tərəfindən işğal edildi.

XIV əsrin axırlarında Teymurilərin əsarəti altına düşən Əfqanıstan XVI əsrdə Böyük Moğollar imperiyasının (1526-1761) və Səfəvilər dövlətinin tərkibinə qatıldı.

XVIII əsrin 30-cu illərində Nadir şahın istilaları ilə əlaqədar Hindistanla yanaşı Əfqanıstan da bu istilaya məruz qaldı və 1747-ci ilə qədər, yəni Nadir şahın Xabuşanda qətlə yetirilməsinə qədər bu imperiyanın tərkibində qaldı.

Nadir şahın öldürülməsindən bəhrələnən Nadir şahın sərkərdələrindən biri olmuş Əhməd xan qoşunu, silah-sursatı ilə birlikdə İran ərazisini tərk edərək 1747-ci ildə Əfqanıstana qayıtdı və Əfqanıstan dövlətini tayfalar ittifaqı əsasında yaratmağa başladı.

1747-ci ildə Əfqan dövləti yaranana qədər "Əfqanıstan" haqqında (XIII-XIV əsr məxəzlərində tez-tez təsadüf edilir) və bu ölkənin etnik-coğrafi mənada əfqanlar ölkəsini, yəni qədimdən əfqan qəbilələrinin yaşadığı Süleymani dağlarını və bunlara bilavasitə qonşu olan yerləri bildirirdi. Eyni zamanda Əfqanıstan haqqında yunan mənbələrində, o cümlədən Heredot, Plibi və digər klassiklərin məlumatlarında rast gəlinir.

XVIII əsrin ortalarınadək əfqanlar indiki Əfqanıstanın əsasən cənub hissəsində yaşayırdılar. Ölkənin digər yerlərinin əsas əhalisi taciklərdən, həzarilərdən, başqa kiçik xalqlardan və qəbilələrdən ibarət idi.

Əfqanıstan dağlıq ölkədir, onun ərazisinin beşdə dörd hissəsi dağ və dağ yaylalarından ibarətdir. Əfqanıstanın Hindistandan İrana və Orta Asiyaya gedən ticarət yolları üzərində yerləşməsi qonşu ölkələr və xalqlarla əfqanların təsərrüfat və mədəni əlaqələrinin inkişafına kömək etmişdir. Digər tərəfdən isə, Hindistana bir növ qapı olan Kabil, Qəndəhar və Süleymani dağlarının strateji və iqtisadi əhəmiyyəti əfqan torpaqlarının müxtəlif istilaçılar arasında dəfələrlə mübarizə meydanına çevrilməsinə səbəb olmuşdur.

## Əfqan dövlətinin təşəkkülü

XVI əsrdə Əfqanıstanın ərazisi Moğollar və Səfəvilər tərəfindən işğal edildi. Bunlara qarşı uzun sürən mübarizədə əfqan xalqının milli şüuru möhkəmlənir, onun vətənpərvərlik ənənləri yaranır və bu xalqda antimüstəmləkəçilik psixologiyası formalaşırdı. Əfqan qəbilələri moğol əsarətinin devrilməsi uğrunda uzun müddət silahlı mübarizə aparmışlar. Uzun sürən mübarizədən sonra nəhayət tayfalar arasında qan düşmənçiliyinə bir qədər fasilə verildi. Tayfa ağsaqqalları ara müharibələrinə son qoymağa nail oldular. Nəhayət, öz dövrünün görkəmli mütəfəkkiri Bəyazid Ənsari tərəfindən (1585-ci ildə vəfat etmişdir) rövşəni dini təriqəti yaradılmış və bu təriqət uzun müddət azadlıq uğrunda mübarizəyə başçılıq etmişdi. Həmin dövrdə əfqanların azadlıq mübarizəsi eyni zamanda sinfi mübarizə ilə birləşirdi. Eyni zamanda XVI-XVII əsrlərdəki rövşəni hərəkatı, əsasən kəndli hərəkatı olub, əfqan qəbilələrinin, icma torpaqlarını zəbt edən yuxarı təbəqələrə qarşı çevrilmişdi.

Hind çayının sağ sahilində xəttəklərin yaşadığı yerlərdə XVI-XVII əsrlərdə, ən iri əfqan qəbilələri olan gilzayların yaşadığı Qəndəharda və abdalilərin yaşadığı Heratda isə XVIII əsrin əvvəllərində yerli sülalələrdən çıxmış xanların rəhbərliyi altında müstəqil feodal xanlıqları yarandı. Bu zaman əfqan qəbilələrinin dövlət halında birləşməsi üçün ilkin şərtlər yaranmışdı, lakin 1729-1738-ci illərdə Əfqanıstan Nadir şah tərəfindən işğal edildi. Nadir şah öldürüləndən sonra Əfqan dövlətinin yaradılması imkanları meydana çıxdı. İranda əmələ gəlmiş hakimiyyətsizlik şəraitində əfqan qəbilələri müstəqil oldular və onların siyasi mütəşəkkillik səyləri müstəqil dövlətin yaranması ilə nəticələndi.

Yəni, 1747-ci il iyunun 19-da gecə Nadir şah Xabuşanda (Xorasandadır) öz düşərgəsində öldürülən kimi onun müxtəlif qəbilələrdən ibarət olan qoşunları içərisində toqquşmalar

baş verdi. Əfqan əsgərlərinin sərkərdəsi Əhməd xan öz döyüşçülərini yaranmış təhlükəli vəziyyətdən qurtara bildi. Əhməd xan baş verən qarışıqlıqdan istifadə edərək Nadir şahın toplarını, digər silah və sursatını və onun sərvətlərinin bir hissəsini də özü ilə Əfqanıstana apardı. Bu hadisələr nəticəsində Əhməd xan Xorasandan vətənə qayıdan əfqan dəstələrinin başında durmaqla döyüşlərdə sınaqdan çıxmış dəstəni 1747-ci ilin payızında Qəndəhara gətirdi. Tezliklə həmin dəstə yeni əfqan qoşunlarının özəyini təşkil etdi. 1747-ci ilin oktyabrında Nadirabadda (Qəndəharın yaxınlığında) Əfqanıstanın şahını seçmək üçün nüfuzlu əfqan xanlarından corgə[1] toplandı. Corgəyə gələnlər Əhməd xanı tərəddüd etmədən Əfqanıstanın şahı seçdilər. Tarixi rəvayətə görə bir nəfər dərviş ilk əfqan hökmdarının başına tac əvəzinə buğda sünbüllərindən hörülmüş çələng qoydu. O vaxtdan indiyə qədər Əfqanıstan dövlət gerbində taxıl sünbüllərindən hörülmüş çələngin təsviri vardır.

Əhməd xanın şah seçilməsi onun təkcə hərbi sərkərdə kimi qazandığı şöhrətlə, ələ keçirdiyi sərvətlərlə və s. deyil, həm də onun adlı-sanlı sədozay tayfasına mənsubiyyətilə də izah olunur. Bu tayfa həmçinin abdali qəbiləsi içərisində imtiyazlı xan tayfası mövqeyini tuturdu və abdalilərin ali rəhbərləri həmin tayfa nümayəndələrindən döyüşkənliyinə və maddi imkanına görə seçilirdi. Əhməd xan ən güclü abdali tayfaları və qəbilələrinin başçıları üçün əlverişli bir namizəd idi. Əfqan tayfalarının rəhbərləri həmçinin inanırdılar ki, Əhməd xan yenicə yaradılmış bu dövləti nüfuzlu dövlətə çevirəcəkdir. Eyni zamanda onlar əmin idilər ki, Əhməd xan həmişə bütün tayfa başçıları ilə onlarla hesablaşmalı olacaqdır. Doğrudan da belə oldu və abdali xanları Əfqanıstan dövlətində birinci dərəcəli yer tutdular. Abdalilərin imtiyazlı mövqelərini möhkəmləndirmək üçün Əhməd şah onların

[1] Əfqanlarda "Corgə"- "dairə", yığıncaq, ağsaqqallar şurası və s. deməkdir.

adını dəyişirdi və bundan sonra bütün abdalilərə şərəfli qəbilə adı olan "dürrani" ("dürr" – mirvari sözündəndir) deyilməyə başlandı. Ən güclü dürrani qəbilələrinin başçılarına sarayda ən mühüm vəzifələr verildi və bu vəzifələr onların nəsli vəzifələrinə çevrildi.

Əfqan dövlətinə Səfəvilərdən və Moğollardan feodal inzibati aparatı və şəriətə əsaslanan məhkəmə sistemi irs qalmışdı. İslamın sünni təriqəti əfqan dövlətində hakim dini mövqe tuturdu. Amma təəsüflər olsun ki, islamın parçalanmasına xidmət edən sünni-şiə təriqəti yenicə yaranmış Əfqan dövlətinin də idarəçiliyinə şamil edilmişdi. Əfqan qəbilələrinin və ölkənin tacik əhalisinin çoxu bu dini təriqətə etiqad edirdi. Əfqan dövlətinin yaranması əfqanlar içərisində feodal münasibətlərinin inkişafının qanunauyğun nəticəsi idi. Bu inkişaf prosesində zəhmətkeşlərlə yanaşı tədricən feodallaşan qəbilə zadəganları arasında kəskinləşən sinfi ziddiyyətlər də formalaşmaqda davam edirdi. Feodallaşan qəbilə zadəganları dövləti, onun zorakılıq və cəbr orqanlarını ələ alıb, başqa qəbilələr və tabe edilmiş xalqlar üzərində hökmranlıq aləti kimi bundan istifadə etməyə çalışırdı. Öz sinfi xarakteri etibarilə Əfqan dövləti feodal dövlət idi. Bununla bərabər əfqanların tayfa-qəbilə ittifaqı və patriarxal-tayfa qalıqlarını saxlamış olan ictimai inkişaf xüsusiyyətləri bu dövlət quruluşunun bəzi mühüm cəhətlərinə mənfi təsir göstərirdi. Əfqan qəbilələrinin və xanların hərbi dəstələri bu dövlətin hərbi qüvvələrinin yalnız bir hissəsini təmsil edirdi. Amma qəbilə hərbi dəstələri öz rəhbərlərinin komandası altında xidmət göstərirdi. Əfqan qəbilələrinin yaşadığı əyalətlər inzibati cəhətdən xüsusi vəziyyətdə idi. Bunlar xeyli dərəcədə öz daxili müstəqilliyini saxlayaraq, öz adətləri əsasında idarə olunurdu. Əfqan qəbilələrinin çoxu vergidən azad edilmişdi. Bunun əvəzində onlar şaha qoşun verməli, hərbi mükəlləfiyyətləri yerinə yetirməli idilər. Bu amil, yəni hərbiçilik ənənələri müasir əfqan xalqının döyüşgənliyinin formalaşmasına müsbət təsir etmiş və hərbiçilik ənənələrinin yaranmasına kömək etmişdi.

## XVIII əsin ikinci yarısı və XIX əsrin əvvəllərində əfqan qəbilələrinin vəziyyəti

XVII əsrin sonu, XVII əsrin birinci yarsında Əfqanıstanda hələ də siyasi pərakəndəlik mövcud idi. Amma Əfqan qəbilələrinin yaşadığı ən mühüm əyalətlər Əhməd şah dövlətinin tərkibinə daxil olmuşdu. Əfqan sülaləsinin başçılığı altında bu qəbilələrin vahid dövlətdə birləşdirilməsinin əfqan xalqının milli birliyinin möhkəmlənməsində və milli şüurun inkişafında böyük əhəmiyyəti var idi. Ümumiyyətlə Dürranilər dövlətinin təşəkkülü ərəfəsində əfqanlarda bir neçə yüz qəbilə var idi. Bunlar içərisində ən iri qəbilələr dürranilər, gilzaylar və yusifzaylar idi. Bunların hər biri öz növbəsində bir sıra bölmələrə ayrılırdı. Həmin bölmələr isə əslində qonşuluqda yaşayan, bir-birilə mənşə, dialekt, tarixi həyat və ənənə bağlılığı olan böyük müstəqil qəbilələr idi, yəni hərbi, iqtisadi, siyasi birliyə malik idilər və iri təsərrüfatları var idi.

Dürranilər əsasən Qəndəhar əyalətində və Qəndəhardan şimalda Herata qədər olan yerlərdə yaşayırdı. O zaman dürranilərin (abdalilərin) tərkibinə 10 qəbilə daxil idi. Bunlardan ən böyüyü barakzaylar idi (təxminən 30 min ailə). XIX əsrin əvvəllərində dürrani qəbilələrinin ərazisində yaşayan əhalinin sayı təxminən 100 min ailə və ya 800 min nəfər idi. Qəznə əyalətində və buna bitişik Süleymani dağları rayonlarında (həmçinin Qəndəharın bir hissəsində) yaşayan gilzaylar sayca dürranilərdən bir qədər az idi. Yusifzaylar Peşavər vadisinin bir hissəsində və onun şimalındakı yerlərdə yaşayırdı. XIX əsrin əvvəllərində yusifzayların əyalətində yaşayan əhalinin ümumi sayı bir neçə yüz min nəfərə çatırdı. Bunların xeyli hissəsi başqa əfqan qəbilələrinin torpaqlarında da yaşayıb əkinçilik, sənətkarlıq və ticarətlə məşğul olan qeyri-əfqan asılı əhalidən ibarət idi ki, bunları da "həmsayə" adlandırırdılar. Əkinçi "həmsayələr" əfqanların onlara verdiyi sahələri becərir və bunun müqabilində məhsulun müəyyən hissəsini torpaq sahibinə vegi formasında qaytarırdılar. Bundan başqa, onlar sahibkarlar üçün müxtəlif iş görməyə və əlavə olaraq əfqan

xanlarına vergi verməyə, onların nəfinə mükəlləfiyyət daşımağa borclu idilər. Amma təhkimli deyildilər.

Belə şəraitdə müxtəlif əfqan qəbilələri içərisində feodal münasibətləri qeyri-bərabər inkişaf edirdi. Tayfa-qəbilə zadəganlarının hakimiyyəti heç də hər yerdə eyni dərəcədə güclü deyildi və XIX əsrin əvvəllərində qəbilə rəhbəri vəzifəsi hər yerdə tam nəsli xarakteri daşıyırdı. XVIII əsrin ikinci yarısında dürranilər içərisində artıq iri feodal torpaq sahibliyi yaranmaqda idi və bir çox xanlar həm də, mülkədarlara çevrilmişdi. Bu, dürranilərə bir sıra imtiyazlar verən və əfqan olmayan əhalidən vergi toplanmasını dürrani xanlarının ixtiyarına verən sədozay şahlarının siyasətilə əlaqədar idi. Əfqanıstanda bərabərlik prinsipi əsasında yaradılmış Dürrani dövlətinin daxilində tədricən bərabərsizlik formalaşırdı. Belə ki, XVIII əsrin axırlarında Qəndəhar əyalətində və bunun qonşuluğunda olan rayonlarda torpaqların çox hissəsi dürrani xanlarının əlinə keçmişdi. Bu proses hakim tayfa arasında təbəqələşməni sürətləndirdikcə, ziddiyyəti də artırırdı. Nəticədə, Dürrani qəbilə üzvlərinin bir hissəsi yoxsullaşaraq yoxsul kəndlilərə çevrilir, öz xanlarından asılı vəziyyətə düşür və qeyri-əfqan rəiyyətlə birlikdə vergi verməyə və mükəlləfiyyət daşımağa məcbur olurdu. Yusifzay kimi qəbilələrin xanları asılı əhali olan "həmsayələr" üzərində geniş hüquqa və imtiyazlara malik idilər. Lakin həmin xanlar öz həmqəbilə üzvləri üzərində tam hakimiyyət hüququna malik deyildi, onların həyatı və azadlığı üzərində ağalıq edə bilmir və onlardan vergi də ala bilmirdilər. Bu xüsusiyyət yuxarıdan istiqamətləndirilirdi.

Amma, Yusifzay qəbiləsinin sıravi üzvləri kimi, bir çox xanlar da qəbilədən pay torpağı alırdılar, həm də yusifzayların torpaq sahələri və yaşayış mənzilləri püşk atmaq yolu ilə vaxtaşırı dəyişdirilməli idi. Hind çayının sağ sahillərində yaşayan və suvarılmayan torpaqlarda əkinçiliklə məşğul olan bir sıra başqa əfqan qəbilələri içərisində də torpaqların vaxtaşırı yenidən bölüşdürülməsi qaydası var idi. Bu qaydaya "veş" deyirdilər. "Veş" keçirildikdə təkcə bir kəndin adamları

başqa bir kəndin adamları ilə deyil, hətta onlarla kənddən ibarət olan bütöv bir rayonun əhalisi başqa bir rayonun əhalisi ilə öz yaşayış yerlərini dəyişdirirdi. Yüzlər və minlərlə, bəzən isə on minlərlə əhali öz yurdlarından ayrılır və öz əmlakı ilə yeni yerə - püşk ilə onlara düşən yerə köçür və növbəti "veşədək" bu yerlərdə yaşamlı olurdular. Bu qayda istər ayrı-ayrı ailələrin, istərsə də tayfa-qəbilə birləşmələrinin müxtəlif keyfiyyətli torpaqlardan növbə ilə istifadə edilməsini təmin edirdi. Qəbilə qəbilə ilə, qəbilənin bir bölməsi başqa bir bölmə ilə, tayfa tayfa ilə, nəhayət ailə ailə ilə öz yerlərini dəyişdirirdi. Əfqanıstanda belə yerdəyişmələrin həyata keçirilməsi ola bilsin ki, münbit torpaqlardan bərabərhüquqlu istifadə baxımından ədalətli idi, amma bu yerdəyişmələr köçəri həyat tərzinə bənzəyirdi, oturaq həyat mədəniyyətinin formalaşmasına mənfi təsir edirdi.

Əfqan qəbilələri öz təsərrüfat fəaliyyətinin xarakteri ilə bir-birindən fərqlənirdi. Yerli xüsusiyyətlər həyat tərzi və adətlərdə də özünü göstərirdi. Qəbilələrin bir hissəsi əkinçiliklə, digər hissəsi isə maldarlıq ilə məşğul olub köçəri həyat tərzi keçirirdi. Bunların içərisində yarım köçərilər də var idi. Onlar həm əkinçiliklə məşğul olur, həm də mal-qaranı otlaqlara köçürürdülər. Ticarətlə əlaqədar olan əfqan qəbilələrinin həyatında pulun rolunun artması, hind sələmçilərinin fəaliyyəti və i.a. nəticəsində əfqanlar içərisində əmlak bərabərsizliyi artır, sinfi ziddiyyətlər kəskinləşir, qəbilələrin yoxsullaşmış üzvləri torpaqlarını itirir və torpaqlar xanların əlinə keçirdi. Lakin nisbətən uzaq dağlıq vilayətlərdə yaşayan əfqan qəbilələri içərisində bu proses xeyli zəif şəkildə idi. Vaxtaşırı torpaq bölgüsü, torpaq üzərində kollektiv mülkiyyət və digər patriarxal-tayfa qalıqlarını saxlamış olan əfqan qəbilələri içərisində hələ XIX əsrdə də feodalizm quruluşu tam təşəkkül tapmamışdı. Həmin qəbilələr üzərində əfqan şahlarının hakimiyyəti hələlik zəif idi, bunlardan bəziləri isə, misal üçün cəngavər vəzirlər qəbiləsi, əslində öz müstəqilliyini saxlamışdı və heç kimə tabe olmaq istəmirdi. Bununla yanaşı məsgənlərin növbəti

dəyişdirilmə vaxtınadək mövcud olması mövsümi, müvəqqəti xarakter daşıdığı üçün vahid dilin, mədəniyyətin formalaşmasına imkan vermirdi. Qəbilələr, tayfalar arasında mədəni münasibətlər zəif olduğuna görə hər bir qəbilənin primitiv həyat tərzi dəyişmir və onlar ətraf aləmdən təcrid olunduqlarına görə olduqları kimi də qalırdılar.

## Əhməd şahın istilaları

Əfqan xanlarının mənafeyini təmsil edən Əhməd şah öz hakimiyyətinin ilk günlərindən qonşu ölkələrə işğalçı yürüşlərə başladı və işğalçılıq mövqeyi tutdu. O, Sindi, Pəncabı, Kəşmiri və Cammanı işğal etdi. Tabe edilən əhali üzərinə vergilər qoyuldu ki, bunlar da şah xəzinəsi gəlirlərinin əsas hissəsini təşkil edirdi. Əfqan işğalçıları Hindistanın zəngin şəhərlərini qarət edir, hind knyazlıqlarından milyonlarla təzminat alır, bu təzminat ödənilmədikdə isə bütöv vilayətləri xarabazara çevirirdilər. Minlərlə hərbi əsirlər köləyə çevrilirdi. Lakin Şimali Hindistan üzərində əfqan feodallarının hakimiyyəti möhkəmlənə bilmədi və tezliklə onlara qarşı xalq üsyanları baş verdi. Pəncabda sənətkarlar və kəndlilər siqxlərin silahlı çıxışlarına yardım göstərdilər. Əhməd şahın bir sıra hərbi yürüşlərinə baxmayaraq o, siqxlərin bu silahlı çıxışlarını yatıra bilmədi.

50-ci illərin axırlarında Şimali Hindistan əfqanlarla maratxalar arasında mübarizə meydanına çevrildi. Bu mübarizə 1761-ci il yanvarın 14-də baş vermiş Panipat vuruşmasında Əhməd şahın və onun müttəfiqi olan müsəlman knyazlarının qələbəsilə qurtardı. Hindistanın ən güclü knyazlığına ağır zərbə vuruldu və bu zərbə ingilis müstəmləkə qəsbkarlarının Hindistanı özlərinə tabe etməsini asanlaşdırdı. Lakin Panipat vuruşması nəticəsində əfqan feodalları yeni torpaqlar tuta bilmədi. Əhməd şah çoxlu hərbi qənimət ələ keçirdikdən sonra təcili surətdə Əfqanıstana geri qayıtmağa məcbur oldu. Çünki feodal qəsdləri və qiyamları nəticəsində Əfqanıstanın özündə onun hakimiyyəti üçün təhlükə yaranmışdı. Amma Əhməd

şah hələ 1750-1751-ci illərdə İran ərazisinə hərbi yürüşlər edərək Məşhəd və Nişapur şəhərlərini işğal etmiş və bunların hakimləri Əhməd şahın vassallığını qəbul etmişdilər.Əhməd şah Amu-Dəryanın sol sahillərindəki kiçik özbək xanlıqlarını da özünə tabe edərək həmin xanlıqlar və yerli hakimlər Əhməd şahın vassallığını qəbul etmişdilər. Beləliklə, 20 illik hakimiyyəti dövründə Əhməd şah Dürrani istilalar nəticəsində ölkənin qüdrətini artırmağa nail oldu.

## Daxili ziddiyyətlər, Əfqan dövlətinin zəifləməsi və Sədozay sülaləsinin hakimiyyətdən devrilməsi

Hələ 1747-ci ildə tayfa ittifaqına əsaslanaraq yaradılan bu dövlətdə Əfqan qəbilələri mərkəzi hakimiyyətə möhkəm surətdə tabe edilməmişdi və buna görə də Sədozay şahlarının mövqeyi zəif, idarəçilik sistemi isə səbatsız idi. Əsarət altına alınmış xalqların üsyanları, dürrani xanlarının və digər əfqan qəbilə başçılarının qiyamları Sədozay şahlarının hakimiyyətini zəiflədir və sarsıdırdı. Qüdrətli dürrani xanlarının hərbi qüdrətindən və yaxın qonşuluğundan ehtiyat edən və 1773-cü ildə hakimiyyətə gələn Teymur şah (1773-1793) strateji əhəmiyyəti nəzərə alaraq paytaxtı Qəndəhardan Kabilə köçürdü. Çünki Dürranilər son 20 il ərzində həm çoxlu varlanmış, həm də geniş sosial baza yaratmışdılar. Teymur şah müxtəlif tədbirlər görsə də, ehtiyat etdiyi xanların imtiyazlarına toxunmadı və ən mühüm dövlət vəzifələrində onları saxladı. Teymur şahın yürüşlərinin çoxu keçmişdə işğal edilmiş əyalətlər üzərində hakimiyyəti saxlamaq və bərpa etmək məqsədi güdürdü. Teymur şah Kəşmiri əfqanların hakimiyyəti altında saxlaya bilsə də Pəncab demək olar tamamilə tabelikdən çıxdı, Sind isə əslində müstəqil oldu. Teymur şah çox çətinliklə Xorasanın bir hissəsini əlində saxlaya bildi. Amu-Dəryanın sol sahilindəki özbək torpaqlarında isə onun hakimiyyətinin yalnız adı qalmış, bu torpaqlar hakimiyyətin təsir dairəsindən demək olar ki, tamamilə çıxmışdı.

1793-cü ildə hakimiyyətə gələn Zaman şah özünün bəzi xüsusiyyətlərinə görə fərqlənirdi. Teymur şahdan fərqli olaraq Zaman şah (1793-1801) itaətdən çıxan bəzi dürrani xanlarını özünə tabe etməyə çalışır, xoşuna gəlməyən xanları nəsli dövlət vəzifələrindən məhrum edir və torpaqlarını əllərindən alırdı. Lakin o, da şah hakimiyyətini möhkəmlədə bilmədi, əksinə, dürrani zadəganlarının xeyli hissəsini özündən narazı saldı. O, Hindistana yürüşlər təşkil etdi, lakin müvəffəqiyyət qazana bilmədi. Çünki hər dəfə Əfqanıstanın özündə baş verən qiyamları yatırmaq üçün Qacarların Herat və Bəlx üzərinə hücumunu dəf etmək üçün Əfqanistana qayıtmağa məcbur olurdu.

XIX əsrin əvvəllərində Əfqanıstanda Sədozay sülaləsindən olan son hakimlər arasında taxt-tac uğrunda uzun sürən mübarizə və çoxlu feodal dəstələri arasında daxili müharibələr başlandı. Dövlətin paytaxtında tez-tez xalq üsyanları baş verirdi. Gilzaylar dürranilərin imtiyazlı vəziyyətinə qarşı silahlı çıxış edirdilər. Xalq Mahmud şahı (1801-1803) Qacarların əlaltısı hesab edirdi. Beləliklə, onun kiçik qardaşı Şüca əhalinin narazılığından istifadə edərək hakimiyyətə keçdi (1803-1809). Şüca feodal hərc-mərcliyinin qarşısını ala bilmədi və barakzayların rəhbəri Fəth xan Mamudu yenidən hakimiyyət başına keçirə bildi (1809-1818). Şüca Hindistana qaçdı və nəticə etibarilə Ost-Hind kompaniyasından maaş alaraq təqaüdçüyə çevrildi. İngilislər Şücanı Əfqanıstanın işlərinə müdaxilə etmək naminə saxlayırdılar. Mahmudun padşahlığı illərində hakimiyyət əslində onun vəziri barakzay Fəth xanın əlində idi. Fəth xana nifrət edən və ondan qorxan şahzadə Kamran qüdrətli vəzirə divan tutmaq üçün gizlicə olaraq şahın razılığını aldı. Əvvəlcə Fəth xanın gözləri çıxarılıb kor edildi (1815), sonra isə vəhşicəsinə öldürüldü. Fəth xanın qohumları qüdrətli barakzay feodalları Mahmuda və Kamrana qarşı mübarizəyə qalxdılar. Mahmud şahın qoşunları itaətdən çıxdı. Nəticədə 1818-ci ildə Sədozay sülaləsi devrildi. Mahmud və onun oğlu Kamran Herata qaçdılar və beləliklə yalnız Herat on illər boyu Sədozayların hakimiyyəti altında qalmış iqamətgaha çevrildi.

Uzun müddətli daxili ziddiyyətlər və çəkişmələr, hakimiyyət uğrunda mübarizə nəticəsində Əfqanıstan bir sıra feodal xanlıqlarına parçalandı. Bunlardan ən irisi Kabil, Qəndəhar, Peşavər və Herat xanlıqları idi. Əfqanıstanın siyasi dağınıqlığından istifadə edən siqxlər 1819-1823-cü illərdə Hind çayının sağ sahillərində əfqanların yaşadığı yerləri tutdular. Rəncit Sinq 1823-cü ilin martında Nauşer yaxınlığındakı qanlı vuruşmada yusufzaylara qalib gəlib Peşavəri özünə tabe etdi. Əfqanların bu mühüm təsərrüfat və mədəni mərkəzi o zamandan etibarən Əfqanıstan dövlətinin tərkibindən çıxarıldı. Britaniya müstəmləkəçilərinin yardımı da siqxlərin hərbi müvəffəqiyyətinə kömək etdi. Britaniya müstəmləkəçiləri gələcəkdə həm siqxləri, həm də əfqanları özünə tabe edib əsarət altına almaq ümidində idi. Xalqları, qonşu dövlətləri bir-birilə vuruşdurmaqda böyük təcrübəyə malik olan ingilislər gələcəkdə həm Hindistanı, həm də Əfqanıstanı işğal etmək məqsədi güdürdü.

### Dost Məhəmmədin hakimiyyətinin başlanması

Əfqanıstanda tayfalar arasında hakimiyyət uğrunda mübarizə son həddə çatdı və sərdar Dost Məhəmməd hərbi cəhətdən daha da güclənərək Qəznəni, Cəlalabadı və Kabili ələ keçirə bildi. Paytaxtı da işğal edən Dost Məhəmməd sonralar özünü əmir adlandırdı və Barakzay sülaləsinin hakimiyyətinin əsasını qoydu. Dost Məhəmməd feodal dağınıqlığının qarşısını almaq uğrunda mübarizəyə başladı. Lakin beynəlxalq vəziyyət ölkənin birləşdirilməsini çətinləşdirirdi. İngilislər öz əlaltısı olan keçmiş əfqan şahı Şücadan və işğalçılığa təhrik etdikləri siqxlərdən istifadə edərək Əfqanıstanın daxili işlərinə qarışır və kobud müdaxilələr edirdilər. Lakin siqxlərlə əfqanlar arasında düşmənçilik hələ də davam edirdi. Odur ki, siqxlər Xeybər keçidində qala tikərək buradan Əfqanıstana soxulmaq istəyirdilər. Dost Məhəmməd başa düşürdü ki, Əfqanıstan üçün əsas təhlükə Şücanın və siqxlərin arxasından iş görən ingilislər tərəfindəndir və profilaktik tədbirlər görmək məqsədilə Dost Məhəmməd Rusiyadan yardım almaq üçün Peterburqa elçilər göndərdi. Lakin, 1837-ci ildə Herat

üstündə ixtilaf baş verdi. İngilislər Heratı tutub onun zəif Sədozay hakimlərini öz nəzarətinə tabe etməyə cəhd göstərdilər. İngiltərə ilə rəqabət aparan çar Rusiyası ingilisləri Orta Asiyanın yaxınlıqlarına buraxmaq istəmədiyindən, yaxın münasibətdə olduğu Qacarların işğalçılıq planlarına kömək edirdi. 1837-ci ilin payızında qacarlar Heratı mühasirəyə aldılar. Dost Məhəmməd və onun Qəndəharda hökmranlıq edən qardaşları Qacarlarla dostluq müqaviləsi imzaladılar. Bu müqavilə Rusiyanın nümayəndəsi poruçik (zabit rütbəsi) Vitkeviçin vasitəçiliyi ilə bağlanmışdı. Amma müqaviləyə Rusiya təminat verməli olduğu halda ingilis diplomatiyasının təzyiqi altında çar hökuməti bu müqaviləni təsdiq etməkdən boyun qaçırdı. Çar hökumətinin Əfqanıstana qarşı mövqeyinin dəyişməsi onunla əlaqədar idi ki, İngiltərə Əfqanıstana strateji region kimi baxırdı. Eyni zamanda bu regiona ruslardan tez gəlmişdi. Bununla yanaşı, İngiltərənin müstəmləkəçilik təcrübəsi Rusiyadan qədim idi.

## Birinci ingilis-əfqan müharibəsi (1838-1842)

Rusiyanın diplomatik cəhətdən geri çəkilməsinə müvəffəq olmuş və 1838-ci ilin sentyabrında İran qoşunlarını Herat əyalətindən çıxarmağa məcbur edə bilmiş çevik siyasət yeridən, müstəmləkəçilik ənənlərinə yiyələnmiş İngiltərə Əfqanıstanın istilasına başlayaraq Ost-Hind kampaniyasının 22 minlik ordusunu buraya göndərdi. İşğalçılar öz əllərində oyuncaq olan Şücanın hakimiyyətini bərpa etmək bəhanəsilə çıxış edirdilər. Feodallar arasındakı daxili mübarizədən istifadə edən və satqın feodalları ələ almaq üçün pullarını əsirgəməyən ingilislər 1839-cu ilin aprelində Qəndəharı işğal etdi, iyulda isə Qəznəni aldılar və bundan sonra Kabil üzərinə hərəkət etdilər. İngilislər tərəfindən rüşvətlə ələ alınmış əyanlar və sərkərdələr Dost Məhəmmədə xain çıxdılar. Dost Məhəmməd öz ailəsi ilə birlikdə Bəlxə, sonra da Buxaraya qaçdı. Otuzillik fasilədən sonra Şüca əcnəbi qoşunlarının müdafiəsi altında Kabilə daxil oldu və beləliklə ingilislərə verilmiş qızıl bəxşişlərin və ingilis süngülərinin gücü ilə

hakimiyyətə gəldi. Eyni zamanda asanlıqla qələbə qazanmağa adət etmiş Kabildəki Britaniya məmurları və zabitləri işğal edilmiş ölkədə öz mövqelərinin möhkəm olduğuna əmin edildilər. Bu zaman Əfqanıstanda yadellilərə qarşı geniş müqavimət hərəkatı başlanmışdı. Lakin şiddətli cəza tədbirlərinə baxmayaraq, işğalçılar Əfqan xalqının partizan mübarizəsini yatıra bilmədilər.

Dost Məhəmmədə Buxarada sığınacaq vəd verilmişdisə də, o, əslində burada əsir vəziyyətində idi. Bir sıra təhlükəli macəralardan sonra Dost Məhəmməd Buxara əmirliyinin ərazisindən qaçıb Əfqanıstana gələ bildi və burada ingilislərə qarşı mübarizəyə başladı. İşğalçılar təşvişə düşərək, Hindistandakı ingilis hökumət orqanlarından əlavə yardımçı qüvvə göndərilməsini xahiş etdilər. Məlum olmayan səbəbdən (ingilislər üçün gözlənilmədən) Dost Məhəmməd 1840-cı ilin noyabrında mübarizəni dayandırıb özünü ingilislərə təslim etdi və mühafizə altında Hindistana göndərildi. İngilislərin fikrincə, onların Əfqanıstan üzərindəki ağalığı üçün təhlükə aradan qaldırıldı. Çünki Şücanın hakimiyyətinə düşmən olan rəqib meydandan çıxarılmışdı. Lakin sonrakı hadisələr onların nə qədər səhv etdiyini göstərdi.

1841-ci ilin yazında və yayında xalq müharibəsi yenidən alovlandı. İngilislərə qarşı bu mübarizədə əfqanlarla birlikdə tacik əhalisi də iştirak edirdi. 1841-ci il noyabrın 2-si gecə Kabildə baş verən xalq üsyanı müstəmləkəçi işğalçılara güclü zərbə vurdu. Şəhər sakinləri paytaxtı ələ keçirərək ingilis zabitlərinə divan tutdu. Əfqan qəbilələrinin dəstələri tezliklə üsyançıların köməyinə gəldi. Şerpurdakı (Kabilin yaxınlığında) ingilis düşərgəsi mühasirəyə alındı. Təslim olmağa məcbur edilən ingilis işğalçıları toplarının bir hissəsini əfqanlara verib, adamlarının bir hissəsini zamin qoyaraq tələsik halda geri çəkilməyə məcbur oldular. Lakin şaxtalı hava şəraitində əfqan partizanlarının sistemli hücumları nəticəsində məhv oldular. Bu məğlubiyyətdən sonra Ost-Hind kompaniyası qisas almaq və "nüfuzunu bərpa etmək" məqsədilə Kabilə

yeni yürüş təşkil etdi. İngilis qoşunları şəhəri alıb vəhşicəsinə qarət etdilər, öz gözəlliyi ilə məşhur olan qədim, üstüörtülü bazarı partlatdılar və şəhərin minlərlə sakinini edam etdilər. Lakin arasıkəsilməyən xalq müharibəsi tez bir zamanda ingilisləri Əfqanıstan ərazisindən tamamilə çıxıb getməyə və əsirlikdə olan Dost Məhəmmədi Kabil taxtına qaytarmağa məcbur etdi.

Əfqan xalqının yadellilərə qarşı mütəşəkkillə apardığı istiqlal savaşı, ölkənin bütün taqfalarının və xalqlarının birlikdə çıxışı, əfqanların qəhrəman mübarizəsi güclü və qorxulu düşmən üzərində qələbə ilə nəticələndi. Belə bir cəhətin də böyük əhəmiyyəti oldu ki, əfqan kəndlilərinin çox hissəsi feodallar tərəfindən hələ tamamilə təhkim edilməmişdi və onlar şəxsən azad silahlılar idi. Əfqan qəbilələrinin cəsur döyüşçüləri partizan müharibəsi aparmaqda təcrübəli idi. Onlar öz dağlıq ölkəsinin şəraitindən yaxşı istifadə edirdilər. 1838-1842-ci illər birinci ingilis-əfqan müharibəsində silaha sarılmış xalqın göstərdiyi igidliklər əfqanların vətənpərvərlik ənənələrindən irəli gəlirdi. Əfqan xalqının müstəmləkəçilik əleyhinə mübarizəsi haqqında hətta, İngiltərə mətbuatı geniş yazılar verirdi.

Hakimiyyətə qayıdan Dost Məhəmməd bərpa etdiyi daimi orduya arxalanaraq ölkəni birləşdirmək siyasətini davam etdirirdi. Müharibədəki müvəffəqiyyətsizliklərinə baxmayaraq Britaniya müstəmləkəçiləri Əfqanıstanı yaxın gələcəkdə ələ keçirəcəklərini hələ də ümid edirdilər. Buna görə də onlar siqxlər tərəfindən işğal edilmiş əyalətlərin Əfqanıstanla birləşməsinə mane olur, lakin Şimalda Dost Məhəmmədin torpaqlarını genişləndirməsinə tərəfdar idilər. Bununla yanaşı ingilislər Əfqanıstanı itaətə gətirmək üçün Hindistandakı yarımçıq qalmış müstəmləkəçilik siyasətini davam etdirmək siyasətini ön plana çəkdilər. İngiltərə 1849-cu ildə Pəncabı tamamilə işğal etdi və Hind çayının sağ sahilində vaxtilə siqxlərin işğal etmiş olduğu yerlərin əfqan əhalisi ingilis müstəmləkəçilərinin əsarəti altına düşdü. Dost Məhəmməd həmin

əfqan əyalətlərini ingilislərdən geri almaq üçün cəhdlər göstərsə də, amma buna nail ola bilmədi və özünün bütün səylərini Qəndəharı və Heratı öz torpaqlarına birləşdirməyə, həmçinin Hindiquşla Amu-Dərya arasında yerləşən kiçik özbək və tacik xanlıqlarını özünə tabe etməyə yönəltdi. 1850-1855-ci illərdə bu xanlıqların çoxunu özünə tabe etdikdən sonra Dost Məhəmməd 1855-ci ildə Qəndəharı öz torpaqlarına bitişdirdi. 1863-cü ildə isə ingilis-əfqan müharibəsinədək Kabil əmirinin hakimiyyətinə tabe olmayan Heratı tutdu.

1863-cü ildə Dost Məhəmmədin vəfatı Əfqanıstanda stabilliyə təsir etmədi, əksinə hakimiyyətə gələn Əmir Şirəli (1863-1879) Amudəryanın sol sahillərinin Əfqanıstana tabe etdirilməsinə nail oldu. Bununla yanaşı Bədəşxan zəbt olundu, hakimiyyət qüvvətləndirilidi, ordunun sayı artırıldı. Həmçinin dövlət quruculuğu prosesində çatışmayan atributlar bərpa edildi, poçt xidməti yaradıldı. Amma Əmir Şirəlinin quruculuq işlərinə yenə də ingilislər mane oldu. Hətta 1878-1880-ci illərdə ingilislərlə müharibə əfqan xalqının inadını qıra bilmədi. 1880-ci ildə hakimiyyətə keçən Əbd ür-Rəhman ingilis qoşunlarını Əfqanıstandan çıxarmağa nail olsa da, 1893-cü ildə ingilislər yenidən Əfqanıstana qarşı müharibə hədəqorxusu gələrək əfqan tayfalarına məxsus sərhəd torpaqlarını Hindistandakı müstəmləkə torpaqlarına birləşdirdilər. Yalnız XIX əsrin sonu – XX əsrin əvvəllərində Əfqanıstanda mərkəzləşdirilmiş feodal dövləti yaranmağa başlandı. Əfqan xalqının uzunmüddətli məşəqqətlərə düçar olmasının bir çox səbəbləri var idi. Bunlar ölkədə təriqət başçılarının həddindən artıq varlanmağa meyilli olmaları və tayfaların birləşməsinə imkan verməmələri idi. Digər bir vacib amillərdən biri də, İngiltərə ilə Rusiya arasında Əfqanıstanın işğal edilməsi maraqlarının toqquşması idi. Ən vacib amillərdən biri də Əfqan xalqlarının birləşə bilməmələri idi. Buna mane olan amillər isə qan düşmənçiliyi, qohumbazlıq, tayfabazlıq və proteksionizmin idarəçilik sistemində ənənəyə çevrilməsi idi.

# İRAN

Uzun sürən daxili feodal müharibələrindən sonra XVI-XVII əsrlərdə qüdrətli Azərbaycan Səfəvilər dövlətinin hakimiyyəti bərqərar oldu. Səfəvilər bütün İran ərazisini və ona qonşu olan bəzi vilayətləri özlərinə tabe etdilər. Lakin XVIII əsrdə İran yenidən dağıdıcı feodal vuruşmaları və müharibələri meydanına çevrilir. 1722-ci ildə əfqanlar İranı işğal etdikdən sonra XVIII əsrin axırlarınadək bu feodal müharibələri ölkədə mütəmado olaraq davam edirdi. Nadir şahın (1736-1747) Əfqanıstana, Hindistana, Orta Asiyaya, Qafqaza istilaçı yürüşləri, Türkiyə ilə Cənubi Qafqaz, əsasən də Azərbaycan uğrunda müharibələr İranın istilası uğrunda Rusiya-İngiltərə rəqabəti ölkənin iqtisadi qüdrətini və onun məhsuldar qüvvələrini sarsıdırdı. Kərim xan Zəndin hakimiyyəti dövründə (1760-1779-cu illərdə) daxili feodal müharibələrində əmələ gələn qısa fasilədən sonra, Zəndlər və Qacarlar sülalələrinin yuxarı feodal təbəqələri arasında hakimiyyət üstündə yenidən daxili mübarizə başlandı. 1779-cu ildə Çəxrik qalasından həbsdən qaçan Ağa Məhəmməd xan Zəndlərə qarşı yeni qüvvə ilə mübarizəyə başladı. Beləliklə, XVIII əsrin axırlarında Ağa Məhəmməd xan başda olmaqla Qacarlar bu mübarizədə qalib gəldi. 1791-ci ilədək Astrabad, Mazandaran, Tehran, Qum, Kaşan və Cənubi Azərbaycan Qacarların hakimiyyəti altına keçdi. 1794-cü ildə Qacarlar Zəndlərin axırıncı nümayəndəsi Lütfəli xanın dəstələrinin Kirmanda darmadağın etdilər. 1795-ci ildə Gürcüstanı və onun paytaxtı Tiflis şəhərini talayan dağıdıcı yürüşdən sonra, Ağa Məhəmməd xan 1796-cı ildə özünü İran şahı elan etdi. İranda yeni sülalənin – Qacarlar sülaləsinin hakimiyyəti bərqərar edildi və Tehran İranın paytaxtı elan edildi. Qacarlar sülaləsini banisi Ağa Məhəmməd şah narazı xanların sui-qəsdi nəticəsində 1797-ci ildə Qarabağda öldürüldükdən sonra, həmin dövrdə, yəni, 1797-ci ildə Ağa Məhəmməd şahın qardaşı oğlu Fətəli şah (1797-1834) hakimiyyətə keçdi. Dəfələrlə təkrar olan dağıdıcı əcnəbi işğallar İranda yaşayan çoxlu köçəri qəbilələrin oturaq rayonlara viranedici yürüşləri, müxtəlif feodal qrupları arasında baş verən daxili feodal müharibələri və çəkişmələri,

bütün bunlar ölkənin aqrar sisteminin dağılmasına, kənd və şəhər əhalisinin müflisləşməsinə səbəb olur, ölkənin iqtisadi və ictimai inkişafını ləngidirdi. Qədimdə öz dövrünün inkişaf etmiş və qabaqcıl bir ölkəsi olan İranın XVIII əsrin axırlarında artıq, kapitalist münasibətlərinin inkişaf edib qalib gəldiyi Avropa dövlətlərinə nisbətən geridə qalmış bir ölkəyə çevrilməsinin başlıca səbəbi də təqribən bunlar idi. Orta əsrlərdə olduğu kimi yenə də İran istər iqtisadiyyatında, istərsə də siyasi quruluşunda feodal, bəzi yerlərdə isə yarımfeodal, yarımpatriarxal münasibətlərin tam hökm sürdüyü geridə qalmış aqrar, orta əsir səviyyəsində qalmaqda idi.

Feodal zülmü, ağır vergilər feodalların özbaşınalığı orta əsrlərdə və XVII-XVIII əsrlərdə ölkənin müxtəlif rayonlarında, xüsusilə şimal vilayətlərində Azərbaycanda və Xəzərsahili rayonlarında dəfələrlə kəndlilərin, sənətkərların və şəhər yoxsullarının xalq üsyanlarına səbəb olmuşdu. Nadir şahın müharibələri və yürüşləri ilə əlaqədər olaraq xalqın ağır vəziyyəti daha da pisləşdiyi bir vaxtda, XVIII əsrin 30-40-cı illərində bu üsyanlar xüsusilə geniş meydan almışdı. Adətən belə xalq üsyanlarının, üsyançıların sinfi mənafeyinə uyğun olan və aydın ifadə edilmiş məqsəd və proqramları yox idi. Eyni zamanda bir qayda olaraq bu üsyanlarda xalq mənafeyi uğrunda ardıcıl müarizə aparan rəhbərlər də az idi. Bunlar qeyri-mütəşəkkil, kortəbii və əlahiddə üsyan olub, bir çox hallarda hakimiyyət uğrunda bir-birinə qarşı daxili mübarizə aparan ayrı-ayrı feodallar tərəfindən idarə olunurdu.

XVII-XVIII əsrlərdə, xüsusən XVIII əsrin əvvəllərində və ortalarında kəndlilərin, sənətkarların və yoxsulların üsyanlarından başqa digər köçəri həyat tərzi keçirən tərəkəmələrin də üsyanları geniş yayılmışdı.

Kəndli, sənətkar və şəhər yoxsullarının antifeodal üsyanları, əsarət altına alınmış xalqların üsyanları Səfəvilər dövlətinin və Nadir şah imperiyasının tənəzzülünün başlıca səbəblərindən biri oldu. Ən başlıcası isə milli birlik kimi vacib amillər nəzərdən qaçırılmışdı.

XVIII əsrdə İranın ictimai-iqtisadi geriliyi mədəniyyətin ümumi tənəzzülündə də özünü göstərirdi. Orta əsrlərdə İran xalqlarının mədəniyyəti yüksək inkişaf səviyyəsinə çatdığı və

adları bütün dünyada məşhur olan Firdovsi, Rəşidəddin, Sədi, Hafiz və bir çox görkəmli simalar yetişdirdiyi halda, artıq XVIII əsrdə ədəbiyyat, poeziya, fəlsəfə və incəsənət sahəsində görkəmli simalara az rast gəlmək olurdu.

İqtisadiyyatın və siyasi quruluşun geridə qalmasına, mədəniyyətin isə tənəzzül etməsinə baxmayaraq, XVIII əsrin axırlarında İran nə müstəmləkə, nə də Qərbi Avropa dövlətlərindən asılı bir ölkə idi. Səfəvilərin axırıncı hökumdarı Sultan Hüseyn şah 1708 və 1715-ci illərdə Fransa ilə bağladığı qeyri-bərabər hüquqları ticarət müqavilələrinə əsasən İranda fransızlara kapitulyasiya hüquqları vermişdisə də, 1763-cü ildə isə Kərim xan Zənd ingilislərə bir sıra imtiyaz və güzəştlər, o cümlədən ingilislərin İranda məhkəməyə cəlb edilməməsi və Buşirdə istehkamlı faktoriya yaratmaq şəraiti yaradılsa da İranda Avropa dövlətlərinin mövqeyi hələ çox zəif idi. İranda avropalılar başlıca olaraq ticarətlə maraqlanırdılar. XVIII əsrin ikinci yarısında yalnız Fars körfəzi adalarında və onun sahillərində hollandların və ingilislərin ticarət faktoriyaları var idi. O zaman Avropa dövlətləri İranın daxili və xarici siyasətinə elə bir təsir göstərmirdi. İran hələ Avropa dövlətlərinin siyasəti və təsir dairəsinə zəif cəlb edilmişdi. Lakin İranın ictimai-iqtisadi geriliyi Avropa kapitalı və dövlətlərinin müvəffəqiyyətlə İrana soxulması üçün zəmin hazırlayırdı və onlar artıq XVIII əsrdə bu sahədə ilk addımlarını atmaqda idilər.

## İranın ictimai-iqtisadi və siyasi quruluşu

XVIII əsrin axırı – XIX əsrin əvvəllərində İranın iqtisadi və siyasi quruluşunda feodal münasibətləri hələ də hökm sürürdü. Bu münasibətlərin əsasını şahın, dünyəvi və dini feodalların torpaq üzərində feodal mülkiyyəti təşkil edirdi. Hərbi-len sistemi hələ də qalmışdı. Torpaqların baş mülkiyyətçisi hesab olunan şah torpaqları tiyul (müvəqqəti və ya ömürlük olaraq) və soyurqal (nəsli olaraq) şəklində xanlara, onların xidməti müqabilində bəxş edirdi. Torpaq mülkiyyətinin aşağıdakı əsas formaları var idi: xalisə - dövlət torpaqları;

feodal xanların torpaqları və ya şah tərəfindən onlara tiyul və soyurqal şəklində bəxş edilən torpaqlar; vəqf torpaqları – məscidlərin, əslində isə iri ruhanilərin ixtiyarında olan torpaqlar; qəbilə torpaqları – bunlar əslində feodal xanlara çevrilmiş qəbilə başçılarının ixtiyarında idi. Bunlardan başqa öz həcmi etibarilə çox olmayan ərbabi və ya mülk adlanan (bu torpaq sahibliyi dövlətə xidmət etməklə əlaqədar deyildi) xüsusi sahibkar mülkədar torpaqları; otlaqlardan və çəmənlərdən ibarət olub ümumi adlanan icma torpaqları həmçinin xordemalek adlanan xırda torpaq sahibliyi var idi.

Cüzi istisna ilə kəndlilərin öz torpağı yox idi. Onlar feodalların torpaqlarını becərir və ağır feodal istismarı altında əzab çəkirdilər. Kəndlilərlə feodallar, yəni torpaq sahibkarları arasında məhsul orta əsrlərdən qalma beş istehsal əlamətinə - torpaq, su, toxum, qoşqu vasitəsi və işçi qüvvəsinə görə bölünürdü. Kəndli bütün məhsulun təxminən $^{4}/_{5}$ hissəsini feodala verməli və bundan əlavə, bir sıra başqa natural vergi ilə yanaşı, digər mükəlləfiyyətlər də daşımalı, feodallara yağ, yun, toyuq, yumurta, odun-ocaq, çırpı verməli, həmçinin mal-qara və müxtəlif fövqəladə vergilər ödəyirdi. Vergiləri adətən xanın müvəkkili olan mübaşir toplayırdı. Bu işdə mübaşirə, xan tərəfindən təyin olunan və kənd icmasına başçılıq edən kəndxuda kömək edirdi. Vergi toplanılması və hərbi mükəlləfiyyətlərin yerinə yetirilməsində icmada ellik zəmanət qaydası var idi. Kənddə xanların qeyri-məhdud özbaşınalığı hökm sürürdü. Onlar orta əsr qaydası ilə kəndliləri öz istədikləri kimi mühakimə edir və onlara qəddar cəza verirdilər.

Şiddətli feodal çəkişmələri nəticəsində kəndlilər kütləvi surətdə müflisləşir, həyat şəraiti pisləşir və ölkədə tez-tez aclıqlar, taun və vəba epidemiyaları baş verirdi.

Rəiyyət adlanan oturaq kəndlilərdən başqa İranda elat deyilən çoxlu köçərilər, o cümlədən kürdlər, lurlar, bəxtiyarilər, bəluclar, qaşqaylar, şahsevənlər və başqaları var idi ki, bunlar da əhalinin dörddə bir hissəsindən üçdə bir hissəsinə qədərini təşkil edirdi. Köçərilər başlıca olaraq maldarlıqla məşğul olurdular. Köçəri qəbilə başçılarının əksəriyyəti var-

lanaraq feodal xanlara çevrilmişdi və onlar sıravi elatları feodal qaydası ilə istismar edirdilər. Bəzi elatlar özləri də mal-qarasının və heyvandarlıq məhsulunun bir hissəsini xanlara verməli, xanların mal-qarasını otarmalı idilər. Belə feodal münasibətləri qəbilə başçılarının öz hakimiyyətini möhkəmlətmək üçün istifadə etdiyi yarımpatriarxal forma və qalıqlarla pərdələnirdi.

İran kəndində natural təsərrüfat hökm sürdüyü bir vaxtda kəndlilər və köçərilər əkinçilik və maldarlıqla yanaşı ev sexləri, kustar sənaye, toxuculuq, xalça toxumaq, ipəkçilik və sairə ilə də məşğul olurdular.

Şəhərlərdə orta əsrlərə məxsus sex quruluşunun saxlanılmış olan formaları, sənətkarlıq geniş inkişaf etmişdi. Başlıca olaraq parça istehsalında sadə, primitiv manufakturalar var idi.

Sənətkarlar ev sənayesi və manufakturalarda pambıq, ipək və yun parça, xalça, dəmirdən, misdən və zinət əşyalarından digər məmulatlar hazırlayırdılar. Bunların çox hissəsi İranda işlədilir, bəzisi isə, misal üçün xalça və parçalar xaricə, Rusiyaya və Qərbi Avropaya ixrac edilirdi. İran şəhərlərində bu malların daxili ticarəti geniş inkişaf etmişdi. Daxili müharibələr və ölkənin dağılması nəticəsində XIX əsrin əvvəllərində xarici ticarət əhəmiyyətsiz olub, ölkənin iqtisadiyyatında ikinci dərəcəli rol oynamağa başladı.

İranın siyasi quruluşu şah başda olmaqla qeyri-məhdud feodal monarxiyası idi. Çox nadir hallarda şah feodal zadəganların və ali ruhanilərin məşvərətçi şurasını çağırırdı. Dövlətin idarə işləri sədr-əzəm adlanan baş vəzirin əlində idi. Bundan başqa daha üç nazir – hərbi vəzir, maliyyə vəziri – mostoufiəl məmalek və xarici dövlətlərlə əlaqə işlərinə baxan, şah dəftərxanasının vəziri – monşiəl məmalek var idi. Çoxlu müxtəlif saray vəzifələri, təşrifat məmuru, fərraşbaşı (polis rəisi), hərəmağası, mehtərbaşı və başqa bu kimi vəzifələr də var idi. Bu adamlar şah sarayını idarə edirdisə də, lakin dövlət işlərinin həllində çox zaman şah vəzirləri mühüm rol oynayırdılar. Əhalidən alınan vəsaitin xeyli hissəsi çoxlu saray qulluqçularına və şah hərəmxanasına sərf olunurdu.

Dünyanın bir çox regionlarından şah hərəmxanasına gözəl xanımlar gətirilirdi ki, bu da çox xərc tələb edirdi. Bir sözlə büdcə talan edilir, xalqın sosial problemlərinin həlli tamamilə unudulmuşdu. Bu haqda Fransa səyyahları obrazlı şəkildə hələ XIX əsrin ortalarında deyirdilər: "Şah saraylarında qurulan kef məclislərində ucalan musiqi sədalarından və gözəllərin qəhqəhəsindən məzlim xalqın ah-naləsi eşidilmirdi".

İran ictimai-siyasi və inzibati quruluşuna görə vilayətlərə və əyalətlərə bölünmüşdü. Vilayətləri şah tərəfindən təyin olunan qubernatorlar (hakimlər), əyalətləri, yəni daha böyük vilayətləri isə qubernatorlarla nisbətən daha geniş hüquq və səlahiyyətə malik olan general-qubernatorlar, şah canişinləri idarə edirdi. Adətən əyalətlərə şahın oğlanları (şahzadələr) və ya onun ən yaxın qohumları və yaxın adamları canişin təyin olunurdu. Qacarlar dövründə Azərbaycanın hakimi vəzifəsinə bir qayda olaraq şahın böyük oğlu, vəliəhdi təyin olunurdu. XIX əsrin birinci yarısında Azərbaycanın hakimi Fətəli şahın oğlu Abbas Mirzə idi. Vilayət və əyalət hakimləri əslində müstəqil feodal knyazlar idi. Onlar pul kəsir, özləri qoşun saxlayır, gömrük haqqını və vergiləri yığır, mühakimə edib iş kəsir, hətta istədiyi adama ölüm cəzası verirdilər. Bəzi feodal xanlar və vilayət hakimləri bir sıra hallarda şaha tabe olmaqdan boyun qaçırır və hətta şah taxtını ələ keçirmək uğrunda mübarizə aparırdı. XVIII əsrin axırı və XIX əsrin birinci yarısında İran şahları Xorasanda, Kirmanda və İranın başqa vilayətlərində itaətdən çıxan belə feodalları tabe etmək üçün çox tez-tez daxili müharibələr aparmalı olmuşdular.

Şahın və vilayət hakimlərinin piyada qoşunu, başlıca olaraq qeyri-nizami feodal dəstələrindən, süvari qoşun isə köçəri qəbilə dəstələrindən ibarət idi.

Vergilərin və gömrük haqqının toplanması hər yerdə iltizama verilirdi. Rütbələr, vəzifələr, fəxri adlar şah tərəfindən satılırdı. Peşkəş və hədiyyə adı ilə geniş yayılmış olan rüşvətxorluq rəsmi hal almışdı. Peşkəş toplamaq üçün şahın hətta xüsusi idarəsi var idi. Bu idarənin işçiləri şahın həmyerliləri və qohum-əqrəbalarından ibarət yaxın adamları idi.

Ölkənin ictimai-siyasi həyatında müsəlman, şiə ruhaniləri çox mühüm rol oynayırdı. Mövcud ictimai quruluşun hüquqi əsası olan quran və şəriəti yalnız ruhanilər şərh edə bilərdi. Quranı tərcümə etmək, mahiyyətini soruşmaq qanunla qadağan idi. Vəqf torpaqları və digər malikanələr iri ruhanilərin ixtiyarında olduğundan onlar iqtisadi sahədə də mühüm mövqe tuturdu. Bundan başqa xalq maarifi (bütün məktəblər onların nəzarəti altında idi), mülki məhkəmə işləri (şəriət məhkəmələri) və dini hakimiyyət də onların təsiri altında olmaqla bilavasitə onlara məxsus idi.

Ruhanilərin aşağı təbəqəsinin vəziyyəti böyük ruhanilərin vəziyyətindən xeyli fərqlənirdi. Xırda ruhanilər vəqf torpaqlarının gəlirlərindən istifadə etmirdi, onlar məhkəmə işlərindən də bir o qədər gəlir əldə edə bilmirdilər. Xırda ruhanilərin bir çox nümayəndələri özlərini dolandırmaq üçün hər hansı bir sənətlə, ticarətlə və hətta əkinçiliklə məşğul olmağa məcbur idilər.

XVIII əsrin axırı və XIX əsrin əvvəllərində İranın iqtisadi və ictimai-siyasi vəziyyətinin ümumi cəhətləri təxminən belə idi.

## XIX əsrin əvvəllərində Avropa dövlətlərinin İranın istilası uğrunda rəqabəti

İngiltərədə sənaye çevrilişindən və Fransada XVIII əsrin axırlarında burjua inqilabından sonra həmin dövlətlərin müstəmləkə işğalları, habelə Avropa və Asiyada iqtisadi və siyasi üstünlük uğrunda mübarizəsi daha da qüvvətlənərək yeni mərhələyə daxil oldu. İngiltərə və Fransa XIX əsrin əvvəllərində İranın işlərinə fəal surətdə müdaxilə etməyə başlayaraq İran ərazisini Yaxın Şərqdə öz təcavüzkarlıq məqsədləri üçün əməliyyat meydanına çevirməyə çalışırdılar. Hələ 1796-cı ildə iki nəfər fransız nümayəndəsi (Olivye və Brüqyer) Tehrana gələrək şahı Rusiyaya qarşı müharibəyə təhrik etmək istəmişdilər. Napoleon İngiltərəyə qarşı mübarizədə də İrandan istifadə etməyə çalışırdı. Hindistana gedən dəniz yolla-

rında möhkəm mövqe tutmaq məqsədilə Napoleonun 1798-ci ildə Misirə yürüşü müvəffəqiyyətsizliyə uğradıqdan sonra Hindistana qurudan yürüş təşkil etmək planı irəli sürüldü. 1800-cü ildə Napoleon Rusiya imperatoru Paveli Fransa və Rusiya qoşunlarının İran vasitəsilə Hindistana birgə yürüşünü təşkil etmək haqqında müqavilə bağlamağa razı sala bildi. Lakin bilavasitə ingilislərin də əli olan sui-qəsd nəticəsində 1801-ci il martın 11-də Pavel öldürüldü və Hindistanın işğalına yönəlmiş Fransa-Rusiya planı baş tutmadı.

İranı özünə tabe etmək və Fransanın İran vasitəsilə Hindistana hücum etmək planına mane olmaq məqsədilə ingilislər 1800-cü ildə öz nümayəndəsi kapitan Malkolmu İrana göndərdi. Malkolm bəxşişlər və rüşvət vasitəsilə 1800-cü ilin axırlarında şahla siyasi və ticarət müqaviləsi bağlamağa müvəffəq oldu. Həmin müqaviləyə görə şah əfqan hakimi Hindistana hücum etdikdə öz qoşunlarını Əfqanıstana qarşı göndərməyi və fransızları İrana buraxmamağı öhdəsinə götürdü. İranı öz siyasəti alətinə çevirməyə çalışan İngiltərə müharibə baş verdikdə İranı silah və döyüş sursatı ilə təchiz etməyə vəd verdi. Bundan başqa, müqaviləyə əsasən ingilis və hind tacirləri vergidən azad edilir və İranın bütün limanlarında sərbəst məskən salmaq, gömrük vermədən İrana ingilis mahudu və başqa mallar gətirmək ixtiyarı aldılar. İranın İngiltərədən asılılığının başlanğıcını qoyan həmin müqavilə eyni zamanda Rusiyaya qarşı çevrilmişdi.

XVIII əsrin axırlarında İran feodalları və şah Zaqafqaziyanı zəbt edib əsarət altına almaq yolunda Rusiyanı başlıca maneə hesab edir və buna görə də Rusiyaya qarşı mübarizədə müttəfiq axtarırdılar. İran şahları və xanlarının, həmçinin Türkiyə sultanları və paşalarının dəhşətli dağıdıcı basqınlarından xilas olmağa çalışan Zaqafqaziya xalqları Rusiyadan kömək almağa və onun himayədarlığını qəbul etməyə çalışırdılar. Gürcü çarının kömək üçün müraciətinə cavab olaraq 1801-ci ildə Şərqi Gürcüstan Rusiya imperiyasının tərkibinə daxil edildi. Çar hökuməti Rusiya imperiyasının başqa ucqar-

ları kimi Gürcüstana da öz müstəmləkəsi nəzərilə baxsa da hər halda Gürcüstanın Rusiyaya birləşdirilməsi onu geridə qalmış şah İranı və sultan Türkiyəsi tərəfindən tamamilə işğal olunmaqdan xilas etdi. İran və Türkiyə basqınçılarının dağıdıcı hücumlarından qurtulan Gürcüstan öz məhsuldar qüvvələrini və mədəniyyətini daha da inkişaf etdirmək imkanı əldə etdi. Türkiyə və İrana nisbətən qabaqcıl, hərbi cəhətdən güclü Rusiya ilə iqtisadi və mədəni əlaqələr qurmağa şərait yarandı.

Zaqafqaziya xanlıqları Azərbaycan istisna olmaqla İran iqtisadiyyatı və mədəniyyəti ilə üzvi surətdə bağlı deyildi, dil və din cəhətdən ona yabançı idilər, bu yerlərin əhalisi onları amansızcasına qarət və zülm edən İran xanları və şahlarına nifrət bəsləyirdi. Gürcüstan Rusiya ilə birləşdikdən sonra Zaqafqaziya xanlıqları içərisində də Rusiyanın himayəsi altına keçmək meylləri gücləndi. Zaqafqaziyada öz torpaqlarını genişlətməyə çalışan çar hökumət orqanları isə belə əlverişli məqamlardan səmərli istifadə edirdilər.

Nəhayət, Rusiyanın Cənubi Qafqaza olan maraq dairəsi və tez-tez hücuma məruz qalan xalqların Rusiyaya xilaskar kimi baxmaları və bütün bunlar birinci rus-İran müharibəsilə nəticələndi. Müharibə rus qoşunlarının 1804-cü ildə Gəncəni tutması ilə başlandı. Sonra Eçmiadzin yanındakı vuruşmada rus qoşunları vəliəhd şahzadə Abbas Mirzənin (1789-1833) komandanlığı altında olan sayca üstün İran qoşununu məğlubiyyətə uğradı. 1805-ci ildə Şəki, Şirvan və Qarabağ xanlıqları Rusiya tərəfinə keçdi və rus qoşunları bu yerləri işğal edərək Rusiyanın təsir dairəsinə keçirdi.

Rusiyaya qarşı müharibə aparmaqla yanaşı, şah əslində İngiltərəninköməyinə ümid bəsləyirdi. Lakin həmişə olduğu kimi 1805-ci ildə İngiltərə mövqeyini dəyişərək Napoleona qarşı dövlətlərin ittifaqında Rusiyanın müttəfiqi oldu və bununla əlaqədar olaraq 1801-ci il müqaviləsi əsasında İrana açıq kömək imtina etdi.

Bu da İngiltərə-İran münasibətlərinin pisləşməsinə səbəb oldu və Napoleon bu məqamdan istifadə etdi. 1806-cı ildə Napoleonun Tehrana göndərdiyi nümayəndəsi Jober Rusiyaya və İngiltərəyə qarşı Fransa ilə hərbi ittifaq bağlamağı şaha təklif etdi. Rusiya ilə müharibədə şah qoşunlarının müvəffəqiyyətsizliyi və rus qoşunlarının 1806-cı ildə Dərbənd, Bakı, Muğanı və Zaqafqaziyanın başqa şəhər və rayonlarını tutması, şahı Napoleonla ittifaq bağlamağa sövq etdi. Fransa tərəfindən aldadıldığını bəlkə də hələlik dərk etməyən şah 1807-ci il mayın 4-də Finkenşteyn şəhəri yaxınlığında Napoleonun qərargahında Fransa ilə İran arasında müdafiə və hücum müqaviləsi imzalandı. Bu müqaviləyə əsasən şah İngiltərə ilə bütün əlaqələri kəsməyi, İngiltərəyə müharibə elan etməyi, Fransa ordusunu Əfqanıstan ərazisindən Hindistana buraxmağa əfqanları məcbur etməyi və fransız orduları Hindistanı istila etmək üçün hərəkət etdikdə İran qoşunlarını fransız ordusuna birləşdirməyi öhdəsinə götürdü. Bununla İran İngiltərə müstəmləkəsi olan Hindistanın parçalanmasında bilavasitə iştirak edirdi. Bunlardan əlavə şah Fars körfəzinin bütün limanlarını fransız eskadrası üçün açmağı və fransızlar üçün əlverişli şərait yaradılacağına vəd verirdi. Eyni zamanda İranı Rusiya ilə müharibəni davam etdirməyə təhrik edən Napoleon Rusiyanı Gürcüstan və digər Zaqafqaziya xanlıqlarını İrana qaytarmağa məcbur etməyi, habelə şah qoşunlarını silah və döyüş sursatı ilə təchiz etməyi, İran ordusunun yenidən təşkili üçün özünün hərbi təlimatçılarını İrana göndərməyi öhdəsinə götürürdü.

Bu müqavilə bağlandıqdan sonra, 1807-ci ildə general Qordan başda olmaqla İrana böyük heyətdən ibarət fransız missiyası gəldi və Avropa qaydasında nizami qoşun, piyada və topçu hərbi hissələri təşkil etməyə başladı. Bununla yanaşı, Qordan Fransa-İran ticarət müqaviləsi bağladı. Həmin müqavilə 1708-ci və 1715-ci illər Fransa-İran müqavilələri əsasında fransızların əldə etmiş olduğu kapitulyasiya hüquqlarını

təsdiq edib genişləndirdi. Müqavilə, İranın iqtisadi və siyasi cəhətdən əsarət altına alınması məqsədini güdürdü.

Lakin tezliklə beynəlxalq vəziyyətdə əsaslı dəyişikliklər baş verdi. 1807-ci il iyulun 7-də Tilzitdə Fransa ilə Rusiya arasında sülh müqaviləsi imzalandı. Bundan sonra ingilislər şahla yenidən danışıq aparmağa başladı. 1808-ci ildə rus qoşunları Naxçıvanı tutmuş və İrəvanı mühasirəyə almışdı. İngilislər şaha təzyiq göstərmək üçün Fars körfəzinə çoxlu hərbi gəmi gətirdilər. Şahı və onun yaxın adamlarını ələ almaq üçün çoxlu vəsait sərf etdilər. Bütün bunlarla əlaqədar olaraq şah və saray adamları ingilislərlə yenidən yaxınlaşdı. Çevik ingilis diplomatiyası qalib gəldi və şahın tələbilə Qordan 1809-cu ilin fevralında İranı tərk etməyə məcbur oldu. Uzun müddət idi ki, Britaniya hökuməti İrana qarşı müxtəlif təzyiq vasitələrindən istifadə edirdi. Nəhayət, İngiltərə digər rəqiblərini aradan çıxardı və Tehrana gələn ingilis nümayəndəsi Harford Cons 1809-cu ilin martında İngiltərə ilə İran arasında müqavilə bağlamağa müvəffəq oldu. Həmin müqaviləyə əsasən şah Fransa ilə və İngiltərəyə düşmən olan başqa dövlətlərlə bütün əlaqələrini kəsməyi öhdəsinə götürdü. İngiltərə İranı Rusiya ilə müharibəni davam etdirməyə təhrik edərək, Rusiya ilə müharibə aparıldığı müddətdə şaha çoxlu pul yardımı göstərməyi (bu pulun miqdarı sonralar ildə 200 min tümənə qədər çatdırılmışdı), habelə şah qoşunlarına hərbi təlimatçılar və silah göndərməyi öhdəsinə götürdü. Sonra isə, yəni 1810-cu və 1811-ci illərdə ingilislər şah qoşunları üçün top və hərbi təlimatçılar, habelə üçillik maddi yardım olaraq 600 min tümən pul göndərdilər.

Lakin Fransa və İngiltərənin şaha yardım göstərməsinə baxmayaraq, İrana nisbətən güclü olan Rusiya ilə müharibədə və müharibənin gedişində İran müvəffəqiyyətsizliyə uğramaqda davam edirdi. Basqınlara və dinc əhalini soymağa daha çox adət edən, yalnız öz feodal xanlarına tabe olan dağınıq feodal dəstələri və qoşunları o zaman Avropada ən yaxşı qoşunlardan biri hesab olunan nizami rus ordusuna müqavimət

göstərməyə qadir deyildi. İran xanları və şahlarının əsarətindən xilas olmağa çalışan xalqlar, o cümlədən Zaqafqaziyanın xalqları və qəbilələri, feodalların cüzi bir hissəsi istisna olmaqla, onların torpaqlarını qarət edən İran xanlarına və qoşunlarına düşmən münasibət bəsləyir və İrana qarşı müharibədə rus qoşunlarına kömək edirdilər. İran feodalları içərisində birlik olmaması İran şahının qüvvələrini zəifədirdi. Bəzi xanlar çox zaman öz dəstələri ilə birlikdə rus ordusu tərəfinə keçirdi. Müharibə dövründə İranda hərcmərclik, feodal istismarının həddini aşması, proteksionizmin eybəcər formalarının saxlanılması ölkədə ictimai-siyasi gərginliklərin daha da artmasına səbəb olmuşdu. Xorasanda və İranın bəzi başqa vilayətlərində şah hakimiyyətinə qarşı, demək olar, arasıkəsilməyən üsyan və qiyamlar baş verməsinin başlıca səbəbləri bunlar idi.

Rusiyanın eyni zamanda Türkiyə ilə müharibə aparmasından istifadə edərək şahın 1810-cu ildə Türkiyə ilə bağladığı hərbi ittifaq da İrana kömək edə bilmədi. Hətta 1812-ci ildə Napoleonun Rusiyaya hücumu da İran qoşunlarının vəziyyətini yaxşılaşdırmadı. Rus qoşunları 1812-ci ilin oktyabrında Aslandüz vuruşmasında Abbas Mirzənin qoşunlarını darmadağın etdi. Bundan sonra sülh danışıqları başlandı. Nəticədə 1813-cü il oktyabrın 12-də müasir Goranboy rayonunun Gülüstan kəndində sülh müqaviləsi imzalandı.

Gülüstan müqaviləsi İranın Dağıstana, Gürcüstana və Şimali Azərbaycana iddialarından əl çəkməsini və bu ölkələrin Rusiyanın tərkibinə daxil olmasını rəsmiləşdirdi. Müqavilədə nəzərdə tutulmuşdu ki, Xəzər dənizində yalnız Rusiya hərbi donanma saxlaya bilər. Müqavilənin bu şərti İrana qarşı olmaqdan daha çox, İranın köməyilə İngiltərə və ya Fransanın Rusiyaya hücum üçün Xəzər dənizindən istifadə edə bilmək səylərinə qarşı çevrilmişdi. Müqaviləyə əsasən Rusiya tacirlərinə sərbəst surətdə İrana getmək, İran tacirlərinə isə Rusiyaya gəlmək və ticarət etmək hüququ verilirdi. Gətirilən malla-

rın qiymətinin 5 faizi həcmində gömrük haqqı alınması müəyyən edilirdi.

Rus-İran müharibəsinin nəticəsi, İranın məğlubiyyəti və Gülüstan müqaviləsinin bağlanması, eyni zamanda İranı özünə tabe etməyə çalışan İngiltərənin planlarına ciddi zərbə vururdu. İngilislər İranda Rusiya təsirinin güclənməsindən qorxurdular. Onlar qorxurdular ki, İranda Rusiya təsirinin güclənməsi gələcəkdə İrandan ingilis siyasətinin bir aləti kimi istifadə edilməsinə mane olsun. Buna görə də onlar bu zaman Rusiyadan qisas almaq üçün yeni müharibə aparmaq fikrinə düşən və Gülüstan müqaviləsinin əvəzini şıxmaq üçün İn-giltərədən kömək almaq istəyən şah ilə 1814-cü il noyabrın 25-də Tehranda yeni ingilis-İran müqaviləsi imzaladı ki, bu da əslində İranın təcridinə istiqamətlənmişdi.

Əlbəttə, İngiltərənin antirusiya tədbirləri Rusiyanı o qədər də narahat etmirdi. Ona görə ki, Rusiya nəzərdə tutduğu məqsədin birinci mərhələsinə nail olmuşdu, ikinci mərhələnin reallaşdırılması üçün beynəlxalq müşahidələr aparır, istila ediləcək region xalqları arasında profilaktik tədbirlər görürdü. Odur ki, ideoloji təbliğat, yerli xalqlara humanist münasibət öz bəhrəsini vermişdi. İran və Osmanlı istilalarından qurtulmaq üçün çar hökumətinə 1806-cı ildən 1813-cü ilə qədər təkcə Cənubi Qafqazdan 400 mindən çox isitsmar olunan və incidilən adamın müraciəti olmuşdu.

1814-cü il ingilis-İran müqaviləsi şahın İngiltərəyə düşmən olan dövlətlərlə bağlamış olduğu bütün müqavilə və ittifaqları ləğv etməsi haqqında 1809-cu ildəki ilkin müqavilənin şərtlərini təsdiq edirdi. Bundan başqa ingilislərlə Əfqanıstan arasında müharibə baş verdikdə şah öz qoşunlarını ingilislərin köməyinə göndərmək zərurəti meydana çıxdıqda yalnız İngiltərədən və ya onunla dost olan ölkələrdən hərbi təlimatçılar çağırmağı öhdəsinə götürdü. İran hər hansı bir Avropa dövləti ilə müharibə etdikdə İngiltərə İrana ildə 200 min tümən maddi yardım göstərməyi və Gülüstan müqaviləsilə müəyyən edilmiş rus-İran sərhədinə yenidən baxılmasına nail olmağı

vəd etdi. Bu müqavilə İranı Rusiyaya qarşı yeni müharibəyə təhrik etmək məqsədi güdürdü. Fransa kimi İngiltərə də İranın feodal dairələrini Zaqafqaziya haqqındakı qəsbkar niyyətlərindən istifadə edərək, İranı Rusiyaya qarşı öz təcavüzkarlıq siyasəti alətinə çevirdi. 1814-cü il ingilis-İran müqaviləsini imzalamaqla İran öz beynəlxalq əlaqələrini ingilislərin nəzarətinə tabe etdi və siyasi müstəqilliyini xeyli dərəcədə itirmiş oldu.

Həmin müqavilənin imzalanması şah saray dairələrində Rusiyadan qisas almaq əhvali-ruhiyyəsini qızışdırdı. Rusiyaya qarşı müharibəyə hazırlaşan Abbas Mirzə ingilis təlimatçılarının köməyilə İran qoşunlarını səfərbərlik üçün yenidən təşkil etdi. İran ilə Türkiyə arasında sərhədlərin dürüst müəyyən edilməməsi ilə əlaqədar olaraq baş verən sərhəd münaqişələri, habelə Məkkəyə, Kərbəlaya və Nəcəfə gedən İran zəvvarlarının Türkiyə hökumət idarələrinin zorakılığından şikayətləri 1821-1823-cü illərdə İranla Türkiyə arasında müharibəyə səbəb oldu. Bu müharibə İran üçün müvəffəqiyyətli oldu. Müharibə gedişində İran qoşunları Bəyazid, Süleymaniyə, Kirkuk, Mosul şəhərlərini və Türkiyənin başqa şəhərlərini tutdu. 1823-cü ilin martında imzalanan Ərzurum sülh müqaviləsi yalnız müharibədən əvvəlki vəziyyəti təsdiq etdi. Yəni, eyni vaxtda İran həm Rusiya, həm də Türkiyə ilə müharibə aparmaq iqtidarında olmadığına görə İran Ərzurumda Türkiyəyə güzəştə getməyə məcbur oldu. Sülh müqaviləsi bağlandıqda şahın belə mövqe tutması bununla izah olunurdu ki, Rusiyaya qarşı müharibəyə hazırlaşdığı bir vaxtda Türkiyə ilə münasibətlərini kəskinləşdirmək istəmədiyinə görə belə bir şəraitdə qonşu Türkiyə ilə münaqişə İran üçün də əlverişli deyildi.

Türk-İran müharibəsindən sonra şah saray dairələri, ingilislər və səlahiyyətli ruhanilər Rusiyaya qarşı müharibə təbliğatı və hazırlığını artırdılar. 1826-cı ilin iyulunda şah ordusu qəflətən rus qoşunlarının mövqelərinə hücum etdi. Rus qoşunları əvvəlcə geri çəkilməyə məcbur oldu. Lakin artıq 1826-cı ilin sentyabrında hərbi-strateji vəziyyət dəyişdi və rus

qoşunları iranlıları bir neçə dəfə məğlubiyyətə uğratdı. Şah qoşunları Araz çayından cənuba doğru qaçmağa məcbur oldu. İngilis hərbi təlimatçılarının köməyilə Abbas Mirzənin təşkil etdiyi ordu əslində pərakəndə hala düşdü. 1827-ci ilin oktyabrında rus qoşunları İrəvanı, sonra da Təbriz, Xoy, Mərənd və başqa şəhərləri və yaşayış ərazilərini tutdular.

1828-ci il fevralın 10-da Təbriz yaxınlığındakı Türkmənçay kəndində sülh müqaviləsi imzalandı. Həmin müqaviləyə görə müasir Ermənistan adlandırılan ərazinin şərq əyalətləri Rusiyanın tərkibinə daxil oldu və rus-İran sərhədi əsasən Araz çayı boyunca müəyyən edildi. İran Rusiyaya 20 milyon manat təzminat verməyi öhdəsinə götürdü. Gülüstan müqaviləsinə görə Xəzər dənizində müstəsna olaraq Rusiyanın hərbi donanma saxlamaq hüququ və rus ticarətinə verilən ticarət üstünlükləri haqqındakı şərtlər bir daha təsdiq edildi. Türkmənçay sülh müqaviləsinə və bununla eyni vaxtda imzalanmış ticarət haqqındakı xüsusi müahidənaməyə əsasən rus təbəələrinə eksterritoriallıq hüququ (İranda olan rus təbəələrinin yerli qanunlara deyil, ancaq öz dövlətinin qanunlarına tabe olması) və bir sıra digər iqtisadi, siyasi üstünlüklər verilirdi ki, bunlar da İran tacirlərinə nisbətən rus tacirlərinə geniş şərait yaradırdı. Bununla yanaşı Türkiyədən 84 min, İrandan 40 min erməni Azərbaycanın Qarabağ, Şirvan, Quba, Gəncə və Gəncəbasar regionlarına köçürüldü. Bu problemə bir qədər ciddi münasibət bildirəndə və hərtərəfli təhlil edildikdə bir daha belə bir qənaətə gəlmək olur ki, Türkmənçay müqaviləsindən sonra ermənilərin və kürdlərin Cənubi Qafqaza köçürülmələri planlı şəkildə baş vermişdi.

Beləliklə, XIX əsrin əvvəllərində rus-İran müharibələri planlı şəkildə düşünülərək Gülüstan və Türkmənçay sülh müqavilələri uzun müddət hazırlanmış strategiyanın məntiqi nəticəsi idi. Odur ki, nəticə etibarı ilə bu müqavilələr İranın Cənubi Qafqazda hərbi-strateji, iqtisadi və siyasi mövqelərini sarsıtdı. Zaqafqaziyanı işğal edib onu müstəmləkə istismarı altına almağa çalışan çar hökumətinin öz qarşısına qoyduğu

məqsəddən asılı olmayaraq müharibələrin obyektiv nəticələri Zaqafqaziyanın xalqları üçün azadlıq xarakteri daşıyırdı. Bu müharibələr Zaqafqaziya xalqlarını geridə qalmış feodal İranın və feodal Türkiyənin əsarətindən azad etməklə yanaşı bir-biri ilə müstəmləkə və soyğunçu rəqabətt aparan qonşuların mübahisəsinə son qoydu. Obyektivlik naminə qeyd olunmalıdır ki, çarizmin müstəmləkə siyasətinə baxmayaraq Gürcüstanın, ermənilərin Rusiya qəyyumluğuna keçməsi və Şimali Azərbaycanın Rusiya ilə birləşməsinin həmin yerlərin xalqları üçün tarixən mütərəqqi əhəmiyyəti var idi. Bu yerlərin Rusiya ilə birləşməsi dağıdıcı xarici basqınlara son qoydu, xanlıqları və feodal dağınıqlığını aradan qaldırdı, Rusiya ilə sıx iqtisadi əlaqələr yaradılmasını və qabaqcıl rus mədəniyyətilə geniş ünsiyyət yaradılmasını təmin etdi. Çar hökuməti və rus kapitalistləri Rusiyanın başqa ucqarlarında olduğu kimi Zaqafqaziyada da müstəmləkə siyasəti yeridib cəhalət və nadanlığı mühafizə edib saxlamağa çalışırdısa da, bu siyasət Zaqafqaziya xalqlarının iqtisadi və mədəni inkişafını ləngitsə də, hər halda çarizmin və rus kapitalistlərinin məqsəd və səylərindən asılı olmayaraq, Zaqafqaziya xalqlarının Rusiyanın tərkibinə daxil olması, Rusiyada kapitalizm əlaqələrinin genişlənməsi nəticəsində Zaqafqaziyanın iqtisadi həyatının canlanmasına, onun daha sürətli iqtisadi, ictimai və mədəni inkişafına səbəb oldu. Bu tarixi prosesin uğurları və çətinlikləri fakt olaraq qalır, bunu inkar etmək tarixi inkişafı, tarixi mövcudluğu inkar etmək kimi qəbul edilirdi. Dünya poeziyasının korifeylərindən biri olan böyük səməd Vurğun haqlı olaraq demişdi: "Kiçik xalqın böyük şairi olmaqdansa, böyük xalqın kiçik şairi olmaq yaxşıdır". Böyük şair bu fikirlə inperiyaların kiçik xalqlar üzərində qəddar ağalığına işarə edirdi.

Zaqafqaziyanın Rusiyaya birləşdirilməsi yalnız geridə qalmış feodal İranı üzərində Rusiyanın qələbəsi olmayıb, həm də o zaman Yaxın Şərqdə öz müstəmləkəçilik siyasətini fəallaşdırıb, İranı və Zaqafqaziyanı özünə tabe etməyə və burada Rusiya təsirinin yayılmasına yol verməməyə çalışan

fransız, xüsusilə ingilis, osmanlı müstəmləkəçilərinin yeni talanlarının və soyğunçuluqlarının qarşısını almış oldu.

Hərbi-strateji, eləcə də beynəlxalq vəziyyəti düzgün qiymətləndirə bilməyən İran XIX əsrin birinci yarısındakı məğlubiyyətləri hələ də obyektivcəsinə təhlil etmək istəmirdi. Şah tərəfindən Rusiyaya qarşı aparılan müharibənin xərcləri və Türkmənçay müqaviləsi üzrə verilmiş olan təzminat fövqəladə vergilər və tədiyələr hesabına ödənilirdi. Bütün bunlar onsuz da ağır zülm altında olan və rus-İran müharibələrinin bütün ağırlıqlarını öz çiyinlərində daşıyan xalqın narazılıq və hiddətini daha da gücləndirdi. Şahın saray adamları və ruhanilər xalqın qəzəbini şahdan, saraydan və xanlardan yayındırıb Rusiyaya qarşı, Türkmənçay müqaviləsi imzalandıqdan sonra İrana təyin edilmiş olan Rus səfiri A.S.Qriboyedova qarşı yönəltməyə çalışırdılar. Rusiya ilə müharibədəki müvəffəqiyyətsizliyə görə sədr-əzəm (baş vəzir) vəzifəsindən kənar edilmiş, şahın qohumu Allahyar xan başda olmaqla bir qrup saray əyanları Rusiyaya və A.S.Qriboyedova qarşı nifrət qızışdırmaqda canfəşanlıq edirdi. İngilislər Allahyar xanın tərəfdarlarını və ruhaniləri hər vasitə ilə Rusiyaya və onun nümayəndəsi A.S.Qriboyedova qarşı qaldırmağa çalışırdılar. Ona görə ki, A.S.Qriboyedovun diplomatik fəaliyyəti İranda Rusiyanın nüfuzunun möhkəmlənməsinə və İngiltərənin mövqeyinin zəifləməsinə səbəb olurdu. Eyni zamanda A.S. Qriboyedov Rusiyanın yuxarı dairələri üçün arzuolunmaz şəxs idi. Allahyar xanın casusları və ruhanilər 1829-cu il fevralın 11-də mövhumatçı camaatın rus səfirliyinə basqınını təşkil etdilər. Səfirliyin binası dağıdıldı, A.S.Qriboyedov və onun demək olar bütün əməkdaşları vəhşicəsinə qətlə yetirildi. Rusiya diplomatlarının başı kəsildi, cəsədləri təhqir edildi.

İnqilabi ideyaları müdafiə edən, çarizmin ədalətsizliyini tənqid edən və dekabristlərə rəğbət bəsləyən A.S.Qriboyedovu İrana sürgünə göndərmiş çar I Nikolay böyük rus yazıçısının həlak olmasına qəlbən sevinirdi. Buna görə də çar səfirliyin faciəli surətdə məhv edilməsi haqqında şah sarayı tərəfindən uydurulan və çar məmurları üçün göydəndüşmə bir bəhanə olan izahata inandığını bildirdi. Bu uydurma izahatın

mənası ondan ibarət idi ki, guya A.S.Qriboyedov ehtiyatsız və İran mühitinə zidd hərəkətləri ilə rus səfirliyinin məhvinə özü səbəb olmuşdur. Çar hökuməti Rusiyanın rəsmi nümayəndəsinin öldürülməsinə qarşı qəti tədbir görmədi. Çar hökuməti qorxurdu ki, İrana yeni təzyiq göstərilməsi orada üsyana səbəb olar və bu üsyan da genişlənərək Zaqafqaziyaya da keçə bilər. Çar hökumətinin bu cür mövqe tutması bir də ondan irəli gəlirdi ki, Rusiya bu zaman Türkiyə ilə müharibə aparırdı və buna görə də İranla münasibətlərini kəskinləşdirmək istəmir, iki dövlətlə müharibə aparmaqdan ehtiyatlanırdı.

## Herat problemi və xarici kapitalın İrana istiqamətləndirilməsi

XIX əsrin birinci rübü ərzində Xorasanda və İranın bəzi başqa vilayətlərində yerli xanlıqların ərazisində istismar olunan xalqların arasıkəsilməyən üsyan və çıxışları baş verirdi. Onlar şah hakimiyyətinə və şahın canişinlərinə tabe olmaq istəmirdilər.

İngilislər də Xorasan xanlarını şaha qarşı çıxışa təhrik edirdilər. İngilislər Xorasanı öz təsir dairəsinə salmaq, sonra özünə tabe etmək üçün zəmin yaratmaq, Hindistana gedən şimal-qərb keçidlərini nəzarət altında saxlamağa imkan verən və ingilislərin strateji məhəmiyyət kəsb edən Heratda şah hakimiyyətinin möhkəmlənməsinə yol verməmək məqsədilə Xorasanda iğtişaşlar yaratmağa çalışırdılar. Herat hakimləri şahın ali hakimiyyətini rəsmən tanıyırdı, lakin reallıq ondan ibarət idi ki, Herat İrandan asılı deyildi və müstəqil siyasət yeridirdi.

Türkmənçay müqaviləsi bağlandıqdan sonra Abbas Mirzə Xorasan xanlarını itaətə gətirə bildi. Bundan sonra, 1833-cü ildə Heratı da İrana tabe etmək üçün təşəbbüs göstərildi və şah qoşunları Herat şəhərini mühasirəyə aldı, lakin Abbas Mirzənin vəfatından sonra (1833) qoşun geri çəkildi. Çünki, Abbas Mirzənin hərbi strategiya və taktikasını davam etdirən yox idi.

Şah saray dairələrində öz nüfuzunu möhkəmlətməyə çalışan ingilislər 1834-cü ildə Fətəli şahın vəfatında sonra şah

taxtını tutmaq uğrunda gedən mübarizəni daha da qızışdırdılar. Nəhayət, ingilislərin köməyilə şah taxtına Abbas Mirzənin oğlu Məhəmməd Mirzə çıxarıldı. İngilislər Təbrizdən Tehrana yürüş etmək üçün Məhəmməd Mirzəni pul vəsaiti və ingilis hərbi təlimatçıları ilə təmin etdilər. Məhəmməd şah (1834-1848) hakimiyyətə keçəndən bir az sonra İrana ingilis hərbi missiyası gəldi, şaha "hədiyyə" olaraq silah və döyüş sursatı göndərildi. Lakin ingilislər bu tədbirlərlə şah sarayını öz təsiri altına ala bilmədilər və çar Rusiyasının İranda artan nüfuzunu zəiflətməyə çalışsalar da onların bu cəhdi baş tutmadı. Eyni zamanda ingilislərin Türkmənçay müqaviləsi əsasında Rusiyaya verilən imtiyaz və üstünlüklərə oxşar üstünlükləri İngitərəyə də verməyə şahı məcbur etmək səyləri müvəffəqiyyətsiz oldu. Şaha təzyiq göstərmək məqsədilə ingilislər Heratın, Qəndəharın və Kabilin əfqan hakimləri arasında nifaq salır və onları İrana qarşı qaldırırdılar. İngilislər Heratı tamamilə özlərinə tabe etmək üçün tədbirlər görür və şah saray dairələrini Rusiyaya qarşı qızışdırırdılar. İngiltərənin bu siyasəti Orta Asiyada və Xəzər dənizi hövzəsində ingilis mövqeyinin möhkəmlənməsinə yol verməməyə və həmin rayonlarda öz mövqeyini möhkəmlətməyə çalışan çar Rusiyasının ciddi müqavimətinə rast gəlməkdə idi.

Heratı öz hakimiyyəti altına almağa, həmçinin İranın şərq sərhədlərində ingilislərin təxribatlarına son qoymağa, Heratın ingilislər tərəfindən işğalına yol verməməyə və həmin rayonda ingilislərin təcavüzkarlığını dayandırmağa çalışan Məhəmməd şah İranda olan çar nümayəndələrinin təhriki ilə 1837-ci ildə Herata yürüşə başladı və oranı mühasirəyə aldı. Buna cavab olaraq ingilis hərbi eskadrası 1838-ci ildə Fars körfəzinə soxulub Buşirin şimal-qərbində olan Xərək adasını işğal etdi. İngilislər İranı müharibə ilə hədələyərək tələb edirdilər ki, şah Heratın mühasirəsindən əl çəksin və Türkmənçay müqaviləsinin şərtlərinə oxşar şərtlərlə İngiltərə ilə ticarət müqaviləsi imzalasın. 1838-ci ilin avqustunda şah Heratın mühasirəsindən əl çəkməyə məcbur oldu. Lakin İran İngiltərənin qeyri-bərabərhüquqlu ticarət müqaviləsi bağla-

maq və Herat xanlığı tərkibinə daxil olan Qorian, Fərəh və Səbzəvər sərhəd rayonlarına İran qoşunlarını çıxarmaq haqqındakı tələbləri rədd etdiyindən İngiltərə 1838-ci ilin noyabrında İranla diplomatik əlaqəsini kəsdiyini bildirdi.

Bundan sonra başlanan danışıqlar gedişində ingilislər hədə və təzyiqlə şahı məcbur edirdilər ki, onların tələbini qəbul etsin. Nəhayət, 1841-ci oktyabrında İngiltərə ilə İran arasında diplomatik münasibətlər bərpa olundu. Eyni zamanda İngiltərə ilə İran arasında yeni ticarət müqaviləsi də imzalandı. Bu müqaviləyə əsasən ingilislər İranda eksteritoriallıq hüququ almış oldu və onlar daxili gömrük haqqı verməkdən azad edilirdi. İrana gətirilən ingilis mallarından bunların qiymətinin 5 faizi həcmində gömrük alınması müəyyən edildi. 1845-ci ildə Fransa, sonra isə Avstriya və başqa dövlətlər də İrandan eyni imtiyazlar qoparmağa müvəffəq oldu və 1856-cı ildə ABŞ da İranla müqavilə bağladı. Rəsmiyyətdə bu müqavilə "Dostluq və ticarət haqqında müqavilə" adlanırdı, əslində isə bu da eyni şərtlərlə olan qeyri-bərabərhüquqlu müqavilə idi və ABŞ-ın İranda müstəmləkəçilik siyasəti üçün zəmin hazırlayan ilk vasitələrdən biri idi. Bununla yanaşı ABŞ-ın müxtəlif tapşırıqlarla İrana gətirilmiş missionerləri, o cümlədən presviterian missionerləri geniş fəaliyyətə başladılar (presviterianlar – protestant məzhəblərindən birinin tərəfdarları). Onlar hələ XIX əsrin 30-cu illərində Urmiyədə (Rzaiyyə) məskən salaraq buradan öz fəaliyyətini Azərbaycana və Mərkəzi İrana yaymağa başlamışdılar. Böyük pul vəsaitinə malik olan Amerika missionerləri dini fəaliyyət, məktəb təşkil etmək və tibbi xidmət göstərmək pərdəsi altında İranda ABŞ-ın nəfinə təbliğat aparır və müxtəlif gizli qruplar əslində kəşfiyyat xarakterli məlumat toplamaqla məşğul olurdular.

İranla Avropa dövlətləri arasında qeyri-bərabərhüquqlu müqavilələr bağlanması və İranda kapitulyasiyalar rejiminin yaradılması ölkədə xarici dövlətlərin təsirinin qüvvətlənməsinə səbəb oldu. Avropa dövlətlərinin və onların təbəələrinin almış olduğu imtiyazlardan Qərbi Avropa kapitalı, başlıca

olaraq ingilis kapitalı İranı öz sənaye mallarının satış bazarına çevirmək üçün istifadə etdi.

XIX əsrin ikinci rübündə İrana ingilis toxuma mallarının idxalı sürətlə artdı və İranın bütün idxalatının təxminən 90 faizini təşkil etdi. İngilislərin İrana idxalatı 1827-ci ildən 1834-cü ilədək 2,5 dəfə, 1833-cü ildən 1837-ci ilədək təxminən 3 dəfə artdı. Kapitulyasiyalar rejimi nəticəsində xarici tacirlər və ticarət firmaları İran tacirlərini xarici və qismən də daxili ticarətdən sıxışdırıb çıxarırdılar. İrana soxulan xarici kapital sənətkarlığı, ev sənayesini zəiflədirdi. Çünki bunlar Qərbi Avropanın fabrik istehsalı mallarının rəqabətinə davam gətirə bilmirdi. Şah hökumət orqanları milli istehsalı xarici kapitalın rəqabətindən müdafiə etmək əvəzinə, xarici tacirlər və firmalar üçün əlverişli şərait yaradaraq xarici kapitalın ölkəyə soxulmasına yol açırdılar. Nəticədə artıq XIX əsrin ortalarında İranda kapitalist manufakturası və fabriklərinin ilk rüşeymlərinin inkişafı yolu bağlanmış oldu. Xarici kapitalın İrana soxulması ilə əlaqədar olaraq əmtəə-pul münasibətlərinin inkişafı qüvvətlənirdi. Bu isə feodal İranının iqtisadiyyatını sarsıdır, len torpaq sahibliyinin böhranını dərinləşdirir və feodal hüququna deyil, xüsusi mülkiyyətə əsaslanan torpaq sahibliyinin artmasına səbəb olurdu. Yeni torpaq sahiblərinin meydana gəlməsi ilə kəndlilərin istismarı qüvvətlənir, biyar işi daha çox yayılırdı. Əmtəə-pul münasibətlərinin inkişafı pul vergilərinin artmasına və mülkədarların kəndlilərdən aldığı məhsul payının çoxalmasına səbəb olurdu. Bunun nəticəsində kəndlilər üzərində sələmçilərin əsarəti artdı. Kəndli təsərrüfatının mühüm dayaqlarından biri olan ev sənayesi ingilis mallarının rəqabəti nəticəsində pozulurdu və beləliklə, kəndlilərə də zərbə vurulurdu, kəndlilərin vəziyyəti pisləşirdi. Ölkənin bir çox yerlərində aclıq ənənəvi hal almışdı, tez-tez taun və vəba epidemiyaları baş verirdi (misal üçün 1830, 1831 və 1835-ci illərdə Azərbaycanda vəba xəstəliyi baş vermişdi). Bir çox kəndlilər öz kəndlərini tərk edərək şəhərlərə qaçır və şəhər yoxsullarına qoşulurdular. Ölkədəki narazılıqlar təkcə kəndlilər, şəhər yoxsulları və müflisləşən sənət-

karlar içərisində deyil, xarici kapitalın İrana soxulmasından zərəz çəkən xırda ruhanilər və tacirlər arasında da baş qaldırmaqda idi.

## XIX əsrin axırlarında İranda ictimai siyasi vəziyyət

Artıq XIX əsrin ortalarında İranda təkcə kəndlilər, sənətkarlar deyil, əksər təbəqələr hakimiyyətə qarşı nifrət hissi ilə yaşayır, xalq arasında qəzəb kütləviləşməkdə idi. Orduya güc tətbiq etməklə xalq çıxışlarını yatırmaqda məşhur olan cəza dəstələrinə arxalanan despotik rejim öz hakimiyyətini əbədi hesab edərək zülmü gündən-günə artırırdı. Xalqın narazılığı şahın və xanların hakimiyyətinə qarşı hələlik kortəbii çıxışlar şəklini alırdı. Bu çıxışlar XIX əsrin 40-cı illərinin axırlarında İranın müxtəlif vilayət və şəhərlərində, o cümlədən Zəncanda, İsfəhanda, Təbrizdə, Yəzddə və başqa yerlərdə getdikcə daha tez-tez baş verirdi. XIX əsrin ortalarında bu çıxışların başında babi müsəlman şiə təriqəti və onun banisi Bab dururdu.

Babın əsil adı Əli Məhəmməd idi. O, 1820-ci ildə bəzzazlıqla məşğul olan seyid ailəsində anadan olmuş və həddibüluğa çatandan sonra özü də beş il ticarətlə məşğul olmuşdu. O, Kərbala və Nəcəfdə ziyarətdə olan vaxt şeyxilər təriqətinə qoşulmuşdu. Bu təriqətin tərəfdarları müsəlmanlara nicat verəcək 12-ci imam Mehdinin tezliklə zühur edəcəyi ideyasını yayırdılar. İranda mövcud istibdad rejimindən təngə gəlmiş xalq şah rejimindən ümidini üzdüyünə görə Babizm cərəyanına inanmaq məcburiyyətində qalmışdı. Ona görə də Babın ideyaları sürətlə yayılmağa başladı. Rəvayətə görə təxminən min il bundan əvvəl qeyb olmuş imam Mehdi guya yer üzündə ədalətsizliyi aradan qaldırmaq və yeni, ədalətli qaydalar yaratmaq üçün zühur etməli, xalqı əzab və əziyyətlərdən xilas etməli idi.

1844-cü ildə seyid Əli Məhəmməd özünün Bab – zühuru gözlənilən imam Mehdinin öz iradəsini xalqa ötürəcəyini və tezliklə bu hadisənin qapı vasitəsilə reallaşacağını elan etdi.

Nəhayət, 1847-ci ildə o, özünü əsil Mehdi peyğəmbər elan edir və yazdığı "Bəyan" kitabında öz nəzəriyyəsinin əsas müddəalarını şərh edir və çoxlu tərəfdarlar tapmağa nail oldu.

Bab öyrədirdi ki, "Məhəmməd tərəfindən quranda qoyulmuş qanunlar və qaydalar artıq köhnəldiyindən, bunlar yeni peyğəmbərin, yəni Babın öz müqəddəs "Bəyan" kitabında insanlara gətirdiyi yeni qanunlarla əvəz edilməlidir". Bab bütün insanların bərabər olmasını və İranın beş əsas vilayətində - Azərbaycanda, Mazandaranda, Ərakda (Mərkəzi İran), Farsda və Xorasanda müqəddəs səltənət yaradılmasını irəli sürürdü. O, göstərirdi ki, "Bəyanı" və onun göstərişlərini qəbul etməyənlərin hamısı, o cümlədən xaricilər də babilərin müqəddəs ölkəsindən qovulacaq, onların əmlakı isə müsadirə edilib babilər arasında bölüşdürüləcəkdir. "Bəyanda" şəxsiyyət və mülkiyyət hüquqlarının müdafiə edilməsi haqqında maddələr də var idi. Feodal zülmündən azad olmaq haqqında və bütün insanların bərabər və xoşbəxt yaşayacağı bir quruluş haqqında geniş xalq kütlələrinin arzularını əks etdirən bu kimi ümumi müddəalardan başqa, Bab tacirlərin mənafeyinə uyğun olan bir sıra çox konkret tələblər də irəli sürürdü. O, borcların hökmən ödənilməsi, sələm faizlərinin qanuniləşdirilməsi, ticarət haqqındakı yazışmanın gizli olması, tacirlər üçün müxtəlif güzəşt və üstünlüklərlə yanaşı digər təkliflər də irəli sürürdü. Əlbəttə, Babın nəzəriyyəsi zəhmətkeş kütlələrin, kəndlilərin və sənətkarların mənafeyini ardıcıl surətdə ifadə etmirdi. O, özü tacir olduğuna görə əsasən tacirlərin mənafeyini güdür və imkanlı tacir təbəqlərin imtiyazlarının artırılması üçün çalışırdı ki, bu da onun bərabərlik ideyasını inkar edirdi.

Bab mövcud quruluşun və dinin əleyhinə təbliğat apardığına görə 1847-ci ildə həbs edilib əvvəlcə Maku qalasına, sonra da Çəhrik qalasın salındı.

Babın bəzi şagirdləri, o cümlədən, molla Məhəmmədəli Bərfruşi, babilərin məşhur təbliğatçısı qadın Qürrətüleyn və başqaları öz müəllimindən daha da irəli gedərək, onun nəzəriyyəsinin demokratik müddəalarını inkişaf etdirdilər. 1848-ci

ilin yayında Şahrud şəhəri yaxınlığındakı Bədəşt kəndində babilərin yığıncağında onlar köhnə qanun və qaydaların, bütün vergilərin, mükəlləfiyyətlərin və xüsusi mülkiyyətin ləğv olunduğu və qadınların kişilərlə bərabərliyini elan etdilər, həmçinin, başqa tələblər də irəli sürdülər. Hökumət orqanları babilərin Bədəşt kəndindəki yığıncağını dağıtdı. Babilər Bədəştdən ölkənin müxtəlif vilayətlərinə dağılaraq öz ideyalarını daha fəal şəkildə təbliğ etməyə başladılar.

Məhəmməd şahın vəfatı ilə əlaqədar olaraq 1848-ci ildə şah və hökumət dairələri içərisində baş verən qarışıqlıqdan istifadə edən babilər 1848-ci ilin sentyabrında Mazandaranda üsyan qaldırdılar. Bir neçə yüz babi Bərfruş şəhərindən cənub-şərqdə Talar çayı sahilində olan meşə rayonunda şeyx Təbəri məqbərəsi ətrafına toplaşdılar. Onlar məqbərənin yanında çiy kərpicdən qala tikib, ətraf kəndlərdə kəndlilər arasında geniş təbliğat aparmağa başladılar. Tez bir zamanda babilərin ətrafına 2 mindən artıq adam toplandı ki, bunların da əksəriyyəti kəndlilər və sənətkarlar idi. Kəndlilər babilərə ərzaq gətirir, sənətkarlar isə silah hazırlayırdılar.

Babilərin rəhbərləri, molla Məhəmmədəli Bərfruşi və molla Hüseyn Boşruye babilərin düşərgəsində xüsusi mülkiyyəti ləğv etməyə, əmlak ümumiliyini və insanların bərabərliyini həyata keçirməyə çalışırdı. Əldə edilmiş mülkiyyət babilərin ümumi mülkiyyəti elan edilirdi. Əmlak bölgüsü ilə, bu iş üçün ayrılmış xüsusi babilər məşğul olurdular. Babilər ümumi qazandan yeyirdilər. Onlar üçün fərdi qayğı yox, ümumi qayğı qanunu var idi.

Bu zaman xalqa zülm etmiş mülkədarlar, soyğunçu əyanlar iri torpaq sahibləri və qorxuya düşmüş məmurlar, Mazandaranın bir çox xanları və ruhaniləri şəhərlərdən öz mülklərini qoyub dağlara qaçırdılar. Onlar babilərin guya əhalini soyub, qarət etməsi, qadınları ümumiləşdirməsi haqqında və i.a. yalan şaiələr yayırdılar.

Nəhayət, varlı təbəqələr, yerli xanların dəstələri və topla silahlanmış şah qoşunları üsyançı babilərə qarşı göndərildi. Lakin səkkiz ay ərzində babilər şah qoşunlarının həmlələrini

müvəffəqiyyətlə dəf etdilər. Yalnız 1849-cu ilin mayında şah hökumət orqanları fitnə və riyakarlıqla üsyanı yatırdılar. Babilərin həyatına toxunmayacağı və azad buraxılacağı vəd olunsa da lakin, onlar silahı yerə qoyduqda, şah qoşunları onların hamısını xaincəsinə qırdılar. Bu hadisə babilərin qəzəbini daha da artırdı.

1850-ci ilin mayında molla Məhəmmədəli Zəncaninin rəhbərliyi altında Zəncanda babilərin yeni üsyanı baş verdi. Babilərin bütün üsyanlarından ən mütəşəkkili və güclüsü Zəncan üsyanı oldu. Üsyançıların əsas kütləsini sənətkarlar və Zəncan ətrafındakı kəndlərin kəndliləri təşkil edirdi. Bunlardan başqa, üsyanda çoxlu xırda tacir və ruhanilər də iştirak edirdi. Üsyanda qadınlar da fəallıq göstərir və kişilərlə yanaşı barrikadalarda vuruşurdular. Xırda ruhanilərin nümayəndələri, sənətkarlar və tacirlər üsyanda rəhbər rol oynayırdı. Babilərin rəhbərləri elan etdilər ki, onlar ədalətli qaydalara əsaslanan yeni səadət səltənəti yaratmışlar və bu səltənət əbədi yaşayacaqdır. Zəncan üsyanı da babilərin Mazandaran üsyanı zamanı irəli sürülən şüarlar altında (əmlak ümumliyi və i.a.) keçdi.

Zəncan üsyançılarına qarşı topla silahlanmış iri hərbi hissələr göndərilmişdi və bunlar şəhərin babilər tərəfindən tutulmuş şərq hissəsini bombardman etdilər.

İranın başqa şəhərlərində və vilayətlərində də babilərin sayı və nüfuzu getdikcə artmaqda idi. Yenicə hakimiyyətə keçmiş Nəsrəddin şahın (1848-1896) baş vəziri Mirzə Tağı xan etiraf edirdi ki, 1858-ci ilin ortalarına yaxın İranda babilərin ümumi sayı, təxminən 100 min nəfərə çatmışdı. Onlar ədalətsizliyə qarşı mübarizəyə qalxdıqlarına görə onların tərəfdarları artırdı. Babilər hərəkatının daha da artmasının qarşısını almaq məqsədilə Mirzə Tağı xan şaha məsləhət gördü ki, Bab edam edilsin. 1850-ci il iyulun əvvəllərində Bab Təbrizə gətirildi və şəhər meydanında güllələndi. Bu qətl hadisəsi əksinə Bab tərəfdarlarının sayının artmasına səbəb oldu. Babın güllələnməsi əslində hakimiyyətin zəifliyi idi və bu çıxış yolu deyildi.

Odur ki, Babın edam olunması babilər hərəkatını dayandıra bilmədi, Zəncandakı üsyan 1850-ci ilin axırınadək davam etdi. Şiddətli bombardman, aclıq və çoxlu tələfat babilərin müqavimətini qıra bilmirdi. Lakin Mazandaran üsyanı kimi, Zəncan üsyanı da yalnız hiylə ilə 1850-ci ilin dekabrında yatırıldı. Babilər şah hökuməti orqanlarının verdiyi vədə, onların həyat və azadlığını saxlamaq vədinə inanıb silahı yerə qoyduqdan sonra əsgərlər xaincəsinə babiləri qırdılar və hərəkat silah gücü ilə pərakəndə hala salındı.

Amma 1850-ci iyununda Neyrizdə babilərin üçüncü üsyanı baş versə də bu üsyan da tezliklə yatırıldı. Lakin şah qoşunlarının babilərə qanlı divan tutmasına cavab olaraq Neyrizin və onun ətrafındakı kəndlərin əhalisi ikinci dəfə üsyan qaldırdı. Onlar öz ailələri ilə birlikdə Neyriz yaxınlığındakı dağlara çəkilərək təxminən 10000 nəfərə çatan şah qoşunlarının həmlələrini uzun müddət dəf etdilər. Babilərin Neyriz hərəkatı bir növ partizan hərəkatını xatırladırdı. Təəssüflər olsun ki, xalq hərəkatına qarşı kürd və dağlı qəbilələrinin silahlı dəstələri babilərə qarşı göndəriləndən sonra üsyan amansızcasına yatırıldı. Neyrizdə babilərə Mazandaran və Zəncanda olduğundan daha şiddətli divan tutdular. Ağır işgəncədən sonra onları arvad və uşaqları ilə birlikdə diri-diri yandırır, top ağzına bağlayaraq atırdılar və s.

Neyriz üsyanı yatırıldıqdan sonra babilər hərəkatı öz kütləvi xarakterini itirməyə başladı. Öz təsərrüfatlarından və işlərindən uzaqlaşdıqlarına görə irtica nəticəsində kəndli və sənətkarlar tədriclə hərəkatdan uzaqlaşdılar. Kiçik ruhani və tacir nümayəndələrindən ibarət olan Babi təbliğatçıları kəndlilərin və sənətkarların yardımından məhrum olduqdan sonra sui-qəsdçiliyə başladılar. 1852-ci ilin avqustunda onlar Nəsrəddin şahın həyatına qəsd düzəltdilər. Lakin qəsd baş tutmadı və şah yalnız yüngülcə yaralandı. Sui-qəsdçilər yerindəcə tutuldu. Bu hadisədən sonra Tehranda, sonra da bütün ölkədə babilər kütləvi surətdə həbs, təqib və edam edilməyə başlandı.

Babilərin üsyanları demokratik, antifeodal üsyan olub obyektiv surətdə eyni zamanda xarici kapitalın İranı əsarət altına almasına qarşı çevrilmişdi. Bu üsyanların əsas hərəkətverici qüvvəsi kəndlilər, sənətkarlar və xırda tacirlər idi. Üsyançıların başında aşağı təbəqəyə malik ruhanilərin və tacirlərin nümayəndələri dururdu. Xüsusi mülkiyyətin ləğv edilməsi və əmlak ümumiliyi qoyulması tələbləri o zamankı tarixi şəraitdə utopik tələb idi, lakin bu tələblər torpaqları və başqa istehsal vasitələrini bərabər bölüşdürməyi nəzərdə tutan inqilabi-demokratik arzuları ifadə edirdi. Babilər üsyanlarının mütərəqqi əhəmiyyəti bir də bunda idi ki, onlar feodalizm quruluşunun əsaslarını sarsıdır və beləliklə də burjua münasibətlərinin inkişafı üçün yol açırdılar. İranın ictimai-siyasi geriliyi nəticəsində orta əsrlərin hərəkatlarına xas olan xarakter cəhətlərin bir çoxu, misal üçün hərəkatın dini pərdə altında getməsi, əmlak ümumiliyi şüarı, əbədi səadət səltənəti yaratmaq arzuları və s. babilər hərəkatında da təcəssüm tapmışdır və bu tələblərin mövcud şəraitdə qeyri-mümkünlüyü bəlkə də dərk edilmirdi.

Babilər üsyançılarının əsas məğlubiyyət səbəbləri ondan ibarət idi ki, bunların kortəbii olması, zəif mütəşəkkilliyi, yerli xarakter daşıması, hərəkatın məqsəd və vəzifələrinin aydın başa düşülməməsi və mübarizəyə düzgün istiqamət verə bilən rəhbər özəyin olmaması idi. Babilərin məğlub olmasında digər amillər də rol oynamışdı ki, bura qarətçilik, şəxsi varlanma, hərəkatı sona çatdırmamış hakimlik iddiasının güclənməsi, daxili xəyanət və digərini əlavə etmək olar.

## Əmir Nizamın islahatları

Babilər hərəkatı İranda ictimai ziddiyyətlərin hədsiz kəskinləşdiyini göstərdi. Hakim sinfin nisbətən üzaqgörən nümayəndələri yaranmış vəziyyətdən çıxış yolunu islahatda görürdülər. İslahatlar keçirməyi birinci növbədə mülkədarların, feodalların bazarla və ticarət əkinçiliyi ilə əlaqədar olan torpaq sahiblərinin mənafeyi tələb edirdi.

Hakim sinfin bu hissəsinin mənafeyini Nəsrəddin şahın baş vəziri Mirzə Tağı xan ifadə edirdi. Mirzə Tağı xan eyni zamanda şah qoşunlarının komandanı olduğundan Əmir Nizam ləqəbi daşıyırdı. O, dövlətin hakimiyyətini möhkəmlətməyə, ordunu və maliyyə sistemini yenidən təşkil etməyə çalışırdı. O, dövlət malını oğurlayanlara qarşı, rüşvətxorluğa və xəyanətkarlığa qarşı, habelə əyalət hakimlərinin özbaşınalığına və dövlət işlərinə iri ruhanilərin hədsiz dərəcə müdaxiləsinə qarşı mübarizə aparırdı. Bilavasitə Mirzə Tağı xanın təşəbbüsü ilə bir çox şahzadələr bilavasitə əyalətlərdən əldə etdikləri gəlirlərdən məhrum edildi. Məmurların sayı və aldıqları maaş azaldıldı. Əmir Nizam İranın milli müstəqilliyini möhkəmlətməyə, xarici dövlətlərin, xüsusilə İngiltərənin İranın daxili işlərinə müdaxiləsinin qarşısını almağa çalışırdı.

Lakin Əmir Nizamın siyasəti bir çoxlarının şəxsi maraqlarına qarşı olduğuna görə iri ruhaniləri, şaha yaxın adamları, feodal zadəganları və ingilisləri ona qarşı qaldırmış oldu. İngilislərin təhriki ilə şahın anası və Tehran ruhanilərinin rəhbəri Əmir Nizam əleyhinə müxalifətçilərin başında durmuşdu. Onlar, əvvəllər islahatlara müsbət münasibət bəsləyən gənc Nəsrəddin şahı da öz tərəfinə çəkə bildilər. Beləliklə, xalqın mənafeyinə xidmət edən islahat dayandırıldı. 1851-ci ilin axırlarında Mirzə Tağı xan baş vəzir vəsifəsindən kənar edildi və sonra da edam olundu, onun islahatlar layihəsi isə ləğv edildi.

Babi üsyanlarının yatırılması və Əmir Nizamın islahatlarının süquta uğraması İranı daha da zəiflətdi və xarici kapital tərəfindən ölkənin daha da əsarət altına alınmasını asanlaşdırdı.

## 1856-1857-ci illərdə İran-İngiltərə müharibəsi

XIX əsrin ortalarında Asiyada ingilis-rus ziddiyyətləri olduqca kəskin şəkil aldı. Süni şəkildə hazırladıqları Şərq problemi nəticəsində 1853-1856-cı illərdə Krım müharibəsi baş verdi. Bu müharibəyə başlayarkən İngiltərə həm də Rusi-

yanı Qafqazdan, Zaqafqaziyadan və Zakaspi vilayətlərindən sıxışdırıb çıxarmağı planlaşdırmışdı. Əslində heç kəs Hindistana qarşı təhlükə törətmədiyi halda, İngilətərə Hindistanın müdafiəsi lüzumu haqqında hay-küy qaldıraraq bu pərdə altında İranı, Xivəni və Buxaranı işğal etməyə can atırdı. İngilislər öz təcavüzkar planlarında İran və Orta Asiya üzərinə hücum etmək üçün Herata strateji hərbi meydan kimi böyük əhəmiyyət verirdilər. Onlar bu sahədə təkcə özləri fəaliyyət göstərməklə kifayətlənməyib, əfqan əmiri Dost Məhəmməddən istifadə edirdilər. Dost Məhəmməd isə 1855-ci ildə İngiltərə ilə dostluq müqaviləsi bağlayıb Qəndəharı tutmuşdu.

Krım müharibəsi zamanı ingilislərin diqqətinin Sevastopolun mühasirəsinə cəlb olmasından istifadə edərək, İran şahı Heratı tutmaq qərarına gəldi ki, Dost Məhəmməd və ingilislər tərəfindən zəbt edilməsin, onları qabaqlasın. Bu məqsədlə 1856-cı ildə İran qoşunları Heratı mühasirəyə aldı və həmin ilin oktyabrında oranı tutdular.

Bunun ardınca ingilislər İrana qarşı təcavüzkar müharibəyə başladılar. Müharibə 1856-cı il noyabrın 1-də elan edildi. Dekabrın 4-də ingilis eskadrası Xərək adasını işğal etdi, dekabrın 10-da isə ingilis desantı Buşir limanını tutdu və Şiraz istiqamətində irəliləmək təşəbbüsü göstərdi. Lakin bu cəhd uğursuzluqla nəticələndi. 1857-ci il martın axırlarında ingilislər Məhəmmərəni (indiki Xorrəmşəhr) işğal etdilər və Harun çayı ilə yuxarıya doğru irəliləyərək, aprelin 1-də Əhvaz şəhərini işğal etdilər.

Lakin 1857-ci ilin əvvəllərində Hindistanda ingilislərə qarşı çıxışlar və milli üsyan başlanmışdı. Bu çıxışlar ingilislər əleyhinə böyük milli üsyanın ilk xəbədarlıqları idi. Buna görə də ingilislər İranda müharibəni təcili dayandırmağa məcbur oldu.

Hələ müharibə davam edərkən 1857-ci il martın 4-də Parisdə ingilis-İran sülh müqaviləsi bağlanmışdı. Müqaviləyə əsasən şah İran qoşunlarını Heratdan və Əfqanıstandan çıxarmağı, bu yerlərə daha heç bir vaxt iddia etməyəcəyini, Hera-

tın və Əfqanıstanın istiqlaliyyətini tanımağı, Herat və Əfqanıstanla İranın ixtilafı baş verdikdə İngiltərənin vastəçiliyindən istifadə etməyi öhdəsinə götürməli oldu. Öz növbəsində İngiltərə də qoşunlarını İrandan geri çıxarmağa razılıq verirdi. Qarşılıqlı razılaşma əsasında 1857-ci ildə İranla İngiltərə arasında diplomatik əlaqələr bərpa edildi.

İngiltərə ilə müharibədə feodal İranının məğlubiyyəti onun iqtisadi, ictimai-siyasi və hərbi geriliyinin nəticəsi idi. Bu məğlubiyyət İranın yarımmüstəmləkəyə çevrilməsi üçün şərait yaradılmasına kömək etdi və XIX əsrin 60-70-ci illərindən etibarən İranda sürətlə yarımmüstəmləkəyə çevrilməyə prosesi başlandı.

## Mədəniyyət

XVIII əsrin sonundan etibarən İranda ictimai-siyasi vəziyyətlə əlaqədar mədəniyyət sahəsində də böhran dərinləşdi. XIX əsrin birinci yarısında isə İran mədəniyyətinin tənəzzülünün səbəbi İranın iqtisadi və siyasi geriliyində, ölkənin ictimai-siyasi quruluşunda orta əsr feodalizm qalıqlarının hökm sürməsində idi. O zaman İranın nə ədəbiyyatında, nə incəsənətində, nə də ictimai fikir inkişafında heç bir əhəmiyyətli orijinal yenilik müşahidə edilməmişdir. Amma Azərbaycanın mütəfəkkirləri, o cümlədən N.Gəncəvi, M.Fizuli, Ə.Xaqani, İ.Nəsimi, X.Təbrizi İranda və bütün Şərq dünyasında söz fikir tarixinin formalaşdırılmasında məşhur idilər. XIX əsrin birinci yarısında daxili çəkişmələrin nisbətən azalması, ziddiyyət və münaqişələrin aradan qaldırılması nəticəsində, İranda xeyli şair, yazıçı və digər yaradıcılıq sahəsində mütəfəkkirlərin yetişməsinə şərait yaratdı (Rzaqulu xan öz antologiyasında 350 şairin adını çəkir). Belə mütəfəkkirlər içərisində Səba, Qaani, Yəğma, Şeybani və başqa görkəmli şairlər olmasına baxmayaraq, bu dövrün təqlidçilik xarakteri daşıyan poeziyası heç bir yeni ideya irəli sürməyərək, orta əsrlər poeziyasının ənənlərini davam etdirirdi. O dövrün şairlərinin əsərləri baş-

lıca olaraq ya saray mədhiyyə ədəbiyyatı, ya da yuxarı hakim dairələrin bəzi nümayəndələrinə və şairlərin düşmənlərinə yazılan satira və həcvlər idi. Bunlar nə məzmun, nə də forma etibarilə orta əsr şairlərinin əsərlərindən fərqlənmirdi. Digər sahələrdə olduğu kimi memarlıq və incəsənət də düşgün vəziyyətdə idi. Rəssamlıq sahəsində Avropa nümunəsində portret rəsmlərinin meydana çıxmasını qeyd etmək lazımdır. Rəssamlığın bu sahəsinin ən görkəmli nümayəndəsi "nəqqaş başı" Əbülhəsən xan Qəffari idi.

XIX əsrin ortalarında ölkədə maarifin yayılmasına kömək edən Mirzə Tağı xanın islahatları ilə əlaqədar olaraq, İranın mədəni həyatında bəzi irəliləmələr baş vermişdi. Mirzə Tağı xanın təşəbbüsü ilə Tehranda ali politexniki məktəb, darülfünun yaradılmışdı. Darülfünunun müəllimləri xarici dillərdən fars dilinə tərcümələr etmiş və elmi-populyar və başqa ədəbiyyat tərcümə edirdilər. Bununla bərabər İranda "Təsadüfi hadisələrin gündəliyi" adlı ilk qəzet nəşr edilməyə başlamışdı. Gənc iranlılar xaricə, xüsusilə Rusiyaya oxumağa göndərilir, İrana xarici professorlar və müəllimlər dəvət edilməyə başlamışdı. Mirzə Tağı xanın islahatları müvəffəqiyyətsizliyə uğrasa da, hər halda onun təşəbbüsü ilə maarif sahəsində görülən tədbirlər müəyyən bir dərəcəyə qədər ictimai fikrin inkişafına kömək etdi. Qeyd etmək yerinə düşərdi ki, 1000 il, yəni 925-ci ildən 1925-ci ilədək İran adlanan regionu idarə edən azərbaycanlılar (Azərilər) bu dövlətin elm, mədəniyyət, incəsənətinin intibahında, inkişafında misilsiz rol oynamışlar. Təəssüflər olsun ki, uzun müddət fars şovinizmi Azəri mütəfəkkirlərinin yaratdığı klassik poeziya nümunələrini farslaşdırmağa, onlara siyasi rəy verməyə cəhd göstərmişdilər.

# TÜRKİYƏ

Türkiyə dövlətinin yarandığı Kiçik Asiya Anadolu yunanca Anatole sözündən götürülmüş, mənası Şərq deməkdir. Ərazisi qədim zamanlarda və erkən orta əsrlərdə bir sıra dövlətlərin, o cümlədən Hest, Lidiya, Midiya, Əhəmənilər, İsgəndərin imperiyasının, Selevkilərin, Pont və Perqam padşahlığının, Qədim Roma və Bizansın tərkibində olmuşdur. Roma, Bizans, Çin, Ərəb və İran mənbələrinə görə qədim türk tayfalarının ilk dəstələrinin Altay dağları ətəklərindən köçüb Kiçik Asiyaya gəlməsi III-IV əsrlərə təsadüf edir. Bu tayfalar hunlar, uzlar, peçeneqlər, xəzərlər, suvarlar və başqa tayfalardan ibarət idi. Türklərin Kiçik Asiyaya yalnız İran və Qafqaz tərəfdən deyil, həmçinin Şimaldan, Qara dəniz yolu ilə də gəlmələri haqqında məlumatlar vardır. Beləliklə, türklərin Kiçik Asiyada kütləvi məskunlaşmaları XI əsrin 70-ci illərinə təsadüf edir ki, elə bu zaman Anadolunun şimal-şərqində səlcuq-oğuz və türkmən tayfalarının ilk dövləti təşəkkül tapır. Xatırlatmaq zəruridir ki, Səlcuqlar oğuzların qanıq qoluna mənsub olub əvvəllər Buxara ilə Səmərqənd arasındakı Zərəfşan çayı vadisində yaşamışlar. Səlcuq özü isə tayfa başçısı olmuşdur.

VIII əsrdə ərəblər Orta Asiyanı işğal edəndə köçərimaldar Səlcuqlar islamı qəbul etmişdilər. Səlcuqlar artıq XI əsrdə, yəni 1040-1055-ci illərdə İranı, daha sonra İraqı, Suriyanı, Azərbaycanı, Qərbi Azərbaycanın bir hissəsini işğal edərək yaxın Şərqdə qüdrətli Səlcuq dövlətini yaratdılar.

Səlcuqlar 1071-ci ildə Malazgirt döyüşündə Bizans imperatoru IV Roman Diogeni məğlub etdikdən sonra daha 10 il müharibə apararaq Nikeyanı (İznik), 1085-ci ildə Simirnanı (İznik) tutdular. Nikeya şəhəri "Böyük Səlcuq" sultanlığının paytaxtı oldu. Səlcuqilər bir neçə dəfə Bizansa qarşı müharibəyə cəhd göstərsələr də, bu cəhd uğursuzluqla nəticələndi. Çünki, 1096-1204-cü illəri əhatə edən səlibçilərin Şərqə hərbi yürüşləri buna mane oldu. Eyni zamanda Avropa cəngavərləri Nikeyanı tutub özlərinə paytaxt edəndən sonra 1116-cı ildə Səlcuqilər Koniyanı özlərinə yeni paytaxt seçdilər və bun-

dan sonra sultanlıq Koniya sultanlığı adlandırıldı. Səlcuqilər Kiçik Asiyada paytaxtı Sivas olan digər türk dövləti Danişiməndiləri 1180-ci ildə özlərinə tabe etdilər. Beləliklə, XIII əsrin əvvəllərində səlcuqilər bütün Kiçik Asiyada hökmranlığa nail oldular. Lakin 1243-cü ildə Kosadağ vuruşmasında türklər monqollar tərəfindən məğlubiyyətə uğradıldı və 230 il mövcud olmuş vahid Səlcuqilər dövləti ayrı-ayrı feodal bəyliklərinə parçalandı. Osmanlı bəyliyinin banisi Osman bəy 1299-cu ildə monqolların zəifləməsindən istifadə edərək Osmanlı dövlətini yaratdı və bundan sonra Səlcuqilər dövlətinin bazası əsasında yaradılan dövlət onun banisinin adı ilə Osmanlı türkləri və dövləti Osmanlı adlanmağa başladı. Beləliklə, orta əsrlərin feodal monarxiyalarından ən qüdrətlisi olan Osmanlı dövləti 150 il ərzində Balkan xalqlarını, o cümlədən bolqarlar, serblər, makedoniyalılar, frakiyalılar və başqa xalqları özünə tabe etdilər. Osmanlılar 1396-cı ildə Nikopol vuruşmasında Avropa cəngavərlərinin birləşmiş qüvvələrini məğlub edib Konstantinopola yaxınlaşsalar da, Teymurla İldırım Bayazidin (1389-1402) arasında olan düşmənçilik və 1402-ci il Ankara vuruşması türklərin Bizans üzərində qələbə çalmasına imkan vermədi. Eyni zamanda türklərin Avropaya irəliləməsini 40 il ləngitdi. Nəhayət, II Muradın oğlu II Mehmet (1451-1481) 1453-cü il mayın 29-da Bizansın paytaxtı Konstantinopolu tutaraq Bizansı süquta uğratdı, Konstantinopol İstanbul adlandırılaraq Osmanlı imperiyasının paytaxtına çevrildi. Eyni zamanda türklər işğallarını daha da genişləndirərək XV əsrin 50-70-ci illərində Bosniya, Hersoqovina, Valaxiya, Çernoqoriya, Albaniya, Moreya, Krım, Kiçik Asiyada isə Trabzon imperiyasını və Qaraman bəyliyini zəbt etdilər.

I Səlim Yavuz (1512-1520) və I Süleyman Qanuninin (1520-1566) hakimiyyəti dövründə Osmanlı imperiyasının ərazisi xeyli genişləndi. Lakin təəssüfedici hal odur ki, Avropa dövlətlərinin düşmənçilik toxumu səpmək kimi mürtəce siyasəti Səfəvi-Osmanlı dövlətlərindən də yan keçmədi. Qüdrətli Azərbaycan dövləti olan Səfəvilər imperiyasına qarşı

hazırlanan yeni təhlükə ilə I Sultan Səlim 1514-cü il avqustun 23-də Şah İsmayıl Xətaini Çaldıran döyüşündə məğlubiyyətə uğratmaqla hər ikisi tarixi səhvə yol verdilər. Qüdrətli Azərbaycan Səfəvilər dövlətinin banisi Şah İsmayıl Xətainin şəxsiyyətinə, idarəçilik qabiliyyətinə çox böyük qiymət verən və Azərbaycan Səfəvi imperiyası haqqında bəhs edən K.Marks yazırdı ki, "Şah İsmayıl Xətai yeganə hökmdardı ki, 14 il ərzində 14 dövlət zəbt etmişdir". Belə qüdrətli dövləti sarsıtmaq avropalılara lazım idi. Odur ki, Türkiyənin Azərbaycana qarşı işğalçılıq yürüşləri nəticəsində ölkə iqtisadiyyatı pozuldu, xalq kütləsi müflisləşdi və dövlətçilik ənənələri xeyli zəiflədi. Bu iki qardaş arasında süni şəkildə formalaşdırılmış faciə idi.

Osmanlıların Azərbaycana qarşı basqınları XVIII əsrin sonu XIX əsrin əvvəllərinədək davam etdi. Osmanlı işğalı 1514-1517-ci illərdə daha da sürətlənərək yeni mərhələyə daxil oldu. Zaqafqaziya, Şimali Mesopotamiya, Suriya, Fələstin, Misir, Hicaz (Qərbi Ərəbistan Məkkə və Mədinə şəhərləri ilə birlikdə) işğal edildi. Yalnız 1683-cü ildə Polşa kralı III Yan Sobeski türk ordusunu məğlub etdi. Bu məğlubiyyət Osmanlı imperiyasının tənəzzülünün başlanğıcı oldu. Nəhayət, Karlovisi konqresində (1698-1699) təklənən Türkiyə Avropadakı torpaqlarının xeyli hissəsini itirdi. Avropa dövlətlərilə yanaşı Rusiya-Türkiyə ziddiyyətlərinin də dərinləşdirilməsi qəsdən qızışdırıldı.

Amma orta əsrlər dövründən fərqli olaraq Türkiyənin ordusu başdan-başa silahlanma əsasında qurulurdu və bu ordu o zamanın ən güclü ordularından biri idi. Türk ordusunun əsasını feodal süvariləri təşkil edirdi. Türklər Balkanlarda istilaçılıqla məşğul olan zaman əsir aldıqları qadınları və uşaqları ordu hissələrində təsərrüfat işlərinə cəlb edirdilər, dünyaya gələn uşaqlar isə gələcəyin əsgərləri olurdu. Orduda nizami piyadalar xristian uşaqlarından icbari surətdə toplanan yeniçərilər böyük rol oynayırdı. Onları müsəlman mövhumatı və sultana sədaqət ruhunda tərbiyə edirdilər. Amma Osmanlı dövlətinin hərbi dairələrindən rəhbərlər unudurdular ki, əsirlik həyatı zamanı

dünyaya gələn mənşəyi məlum olmayan gələcək hərbiçilərin günindəki əlamətlər nə vaxtsa özünü büruzə verəcək. Tarix gələcəkdə bunu sübut etdi. Ordu möhkəm mərkəziyyəti ilə fərqlənirdi. Bu isə orta əsrlərdə Avropa orduları müqayisədə türk ordusunun böyük üstünlüklərindən xəbər verirdi.

XV əsrin axırları XVI əsrin birinci yarısında türk xalqının artıq təşəkkül tapması və formalaşması başa çatmışdı, onun öz ərazisi, dili və müəyyən dərəcədə mədəniyyəti formalaşmışdı.

## Sinfi və etnik ziddiyyətlər

Osmanlı istilasının əsarət altına alınmış xalqlara, xüsusilə əksəriyyəti slavyanlardan ibarət olan xalqlara misilsiz fəlakət və iztirablar gətirməsi haqqında çoxlu obyektiv və subyaktiv slavyan mənbələri vardır. Əsarət altına alınmış xalqların torpaqları sultanın şəxsində Türkiyə dövlətinin mülkiyyətinə çevrilmiş və feodallara paylanmışdı. Yerli əhali ikiqat zülm – ictimai və milli zülm altında idi. Balkanlara çoxlu əkinçi və maldar türklər axışıb gəlmiş və xeyli hissəsi zorla köçürülmüşdü. Yerli əhalinin torpaqları yeni gəlmələrə verilmişdi. Balkan yarımadasının yüz minlərlə əhalisinə zorla islam qəbul etdirilir və onlar zorla türkləşdirilirdi. Beləliklə, Osmanlı imperiyasında əsarət altına alınmış xalqlarla onları əsarət altına alanlar arasında kəskin ziddiyyətlər meydana gəlmişdi. Feodallar türk, onların istismar etdikləri yerli əhalinin əksəriyyəti isə slavyan olduğundan, Balkanlardakı milli ziddiyyətlər ictimai ziddiyyətlərlə birləşirdi.

Türklərin öz daxilində də sinfi ziddiyyətlər var idi və bunlar getdikcə daha da kəskinləşirdi. Osmanlı imperiyasında hərbi-len torpaq sahibliyi sistemi yaranmışdı. Torpaqlar sultanın şəxsində dövlət mülkiyyəti hesab olunurdu. Sultan bu torpaqları feodallara, ruhanilərə paylayır, torpağın xeyli hissəsini isə öz şəxsi istifadəsində saxlayır və ya sultan ailəsi üzvlərinə verirdi. Təbəqələşmə prosesi getdiyinə görə iri, orta və kiçik feodallar var idi. İri və orta feodalların əraziləri ziyamət, kiçik feodal malikanələri isə timar adlanırdı. Bunlardan başqa, bir də mühüm vəzifə daşımaqla əlaqədar olan və xassə

adlanan iri torpaq sahibliyi var idi. Ziyamət və timar sahibləri müharibə vaxtı sultanın tələbi ilə müharibəyə getməli və öz torpaq malikanələrinin gəlirinə uyğun olaraq müəyyən sayda hazırlıqlı və silahlı əsgər də gətirməli idilər. Feodal malikanəsinin böyüklüyü həmin malikanələrin dövlət vergi siyahılarında göstərilmiş gəlirin miqdarı ilə müəyyən edilirdi, lakin əslində dövlət vergi siyahılarındakı qeydlərlə malikanələrin həqiqi gəliri arasında bu və ya başqa cəhətdən böyük fərq olurdu. Feodalın gəlirini kəndlilərin torpaqdan istifadə üçün məhsulun müəyyən hissəsi şəklində verdikləri vergi təşkil edirdi. Əsas vergi əşar vergisi (şərti olaraq onda bir) idi. XVII əsrin əvvəllərində Osmanlı imperiyasında 2.672 ziyamət və 39.378 timar var idi. Torpaqların xeyli hissəsi ruhanilərin əlində olan vəqf torpaqları, xüsusi mülkiyyətdə olan isə mülk torpaqları var idi.

Bütün feodal torpaqlarında istismarın əsas forması olan yardarlıq mövcud idi (Balkanlarda, biyarın üstün yer tutduğu ayrı-ayrı vilayətlərdən başqa). Yardarlıq sistemində məhsulun bir hissəsi feodala, əsasən əşar şəklində verilirdi. Beləliklə, renta vergi ilə qovuşurdu. Başlıca olaraq kəndlilərdən alınan çoxlu digər vergilər də var idi. Müsəlman olmayan kəndlilərdən əlavə vergi alınırdı ki, bu da onların hüquqca bərabər olmadıqlarını göstərirdi. Bununla türklər ərəblərin islamı yaydıqları ilk dövrlərdəki "imtiyazlar" siyasətini yeridirdilər. Vergi verən bütün əhali milliyyətindən asılı olmayaraq XVIII əsrin axırlarına qədər rəiyyət adlanırdı. Sonralar bu qanun yalnız xristianlara, həm kəndli, həm də şəhərli xristianlara aid edilmişdi.

Zaman keçdikcə kəndlilərin istismarı artır, vergilər daha da ağırlaşır, feodalların özbaşınalığı qüvvətlənirdi. Bütün bunlar üsyanlara, həmçinin kəndlilərin kəndlərdən dağlara və şəhərlərə qaçmasına səbəb olurdu. Kəndlilərin istismardan qaçmasının qarşısını almaq üçün sultan hökumət idarələri XVI əsrin əvvəllərində kəndliləri feodal malikanələrinə təhkim etdi. Lakin Qərbdə və Rusiyadakı təhkimçilikdən fərqli olaraq Türkiyədə kəndlilər heç bir vaxt şəxsən feodala təhkim olmamışdı. Feodalın öz kəndlilərini satmaq, başqasına bağışlamaq və ya dəyişmək ixtiyarı yox idi. Torpağa təhkim edilmək bundan ibarət idi ki, torpağı buraxıb gedən kəndli feoda-

lın xeyrinə torpağı, həmçinin öz əmlakını itirmiş olurdu və bunlar feodalın ixtiyarına keçirdi. Feodal qaçan kəndliləri 15 il ərzində qaytarmaq hüququna malik idi. Belə ki, əgər kəndli 15 il müddətinə təhkim olunduğu torpağı tərk edibsə, o yenidən qayıtmaq hüququnu saxlayırdı. Amma bu qayda mahiyyət etibarilə digər ölkələrdəki təhkimçilik sistemlərindən daha dəhşətli idi. Ona görə ki, hər şeyini itirəcəyini dərk edən kəndli hara gedə bilərdi?

## XVII-XVIII əsrlərdə Türkiyədə tənəzzül və böhran, Avropa dövlətləri tərəfindən "Şərq probleminin" hazırlanması

Avropa dövlətləri artıq kapitalist inkişafı yoluna keçdiyi bir vaxtda Osmanlı imperiyasında feodal münasibətləri hökm sürürdü. Ölkə durğunluq vəziyyətində idi. İmperiyanın Avropa ölkələrindən geridə qalması buna səbəb oldu ki, türklər hərbi məğlubiyyətlərə uğramağa başladılar, zəngin hərbi qənimət mənbəyi tükəndi, feodalların müharibəyə marağı itdi. Bunun müqabilində isə onlar kəndlilər üzərindəki istismarı daha da gücləndirdilər.

XVII-XVIII əsrlərdə şəhər sənətkarları və tacirlərinin də vəziyyəti xeyli pisləşdi. Ödənilməsi heç də mümkün olmayan vergilər qoyulması, qəlp pul kəsilməsi, əhalinin həmin təbəqələrinin əmlakının müsadirə edilməsi, insan həyatının və mülkiyyətinin valilərin özbaşınalığından qorunmaması onların narazılığına səbəb olurdu. Bu narazılıqlar getdikcə artır və bəzən də üsyanlara gətirib çıxarırdı.

Kəndlilərin, sənətkarların və tacirlərin müflisləşməsi, kənd təsərrüfatı, sənaye və ticarətin inkişafı yolunda feodalizm rejiminin yaratmış olduğu maneələr Türkiyəni Avropa ölkələrindən ayıran məsafəni getkidcə daha çox artırır və onun tənəzzülünə, ölkədə uzun sürən iqtisadi böhrana, bir qədər sonra isə siyasi böhranın baş verməsinə səbəb oldu.

Türkiyənin tənəzzülü onun başqa ölkələrlə əlaqələrində də özünü göstərdi. Bu məhdudiyyətlər xüsusilə Avropa dövlətləri ilə münasibətlərdə özünü büruzə verirdi. XVII əsrin axırlarında Türkiyənin Avropada olan torpaqlarının bir hissə-

si (1699-cu il Karlovitsi sülh müqaviləsi əsasında) ilk dəfə bölüşdürüldü. Avropa dövlətlərinin təzyiqi altında Türkiyə sultanları XVIII əsrin ikinci yarısının axırlarından etibarən öz ölkəsinin ticarət və sənayesinin zərərinə olaraq xarici tacirlərə birtərəfli iqtisadi və siyasi imtiyazlar verməyə başladılar. Xatırladaq ki, onlar bu güzəştləri keçmişdə öz xoşları ilə verirdilər və qismən könüllülük prinsipi gözlənilirdi. Kapitulyasiyalar adlanan bu birtərəfli imtiyazlar Türkiyənin müstəmləkə əsarəti altına düşməsinin ən mühüm formalarından birinə çevrildi. Kapitulyasiyalara əsasən xarici tacirlər Türkiyə qanunlarına tabe olmayaraq, Türkiyə hökumət idarələrinin səlahiyyətindən və təsir vasitələrindən kənarda qalırdı. Onların Türkiyəyə gətirdikləri mallara Türkiyə tacirlərinin verdiyindən bir neçə dəfə az gömrük qoyulurdu.

Bunula yanaşı, hələ 1664-cü və 1683-cü illərdə Osmanlı imperatorluğuna qarşı Sentqozxarda (Macarıstan) və Vyanada uğurlu döyüşlər keçirmişdilər. Zaman keçdikcə Avropa dövlətlərinin, xüsusilə Fransa, İngiltərə, bəzən də Rusiyanın səfirləri Türkiyə hökumətinin xarici və daxili siyasətinə daha artıq təsir göstərirdilər. Avropa dövlətləri hətta Türkiyənin torpaqlarını bölüşdürmək planlarını hazırlamağa başlamışdılar. Bu planlar ətrafında dövlətlər arasında kəskin mübarizə gedirdi. Həmin mübarizə tarixi ədəbiyyatda "Şərq məsələsi" adlanır. Türkiyənin cəlb olunduğu bu problem XVIII əsrin axırlarında xüsusilə kəskinləşdi.

## XVIII əsrin axırlarında böhranın kəskinləşməsi

Türkiyənin artıq uzun illərdən bəri məruz qaldığı iqtisadi və siyasi böhran XVIII əsrin axırları və XIX əsrin əvvəllərində daha da kəskinləşdi. Daxili səbəblərdən başqa, o zaman Avropanın iki qabaqcıl ölkəsində baş vermiş hadisələr – Fransadakı 1789-cu il burjua inqilabı və İngiltərədəki sənaye çevrilişi də buna təsir göstərmişdi.

Əsasən Fransa inqilabı Osmanlı imperiyasının hərbi, siyasi və iqtisadi vəziyyətinə böyük təsir göstərmişdi. İnqilabın demokratik ideyaları birinci növbədə imperiyanın əsarət

altında olan xalqları arasında içərisində milli-azadlıq hərəkatını bir qədər də coşdurmuşdu. Tədricən fəallaşan xalqların bütün əvvəlki ictimai-iqtisadi və siyasi dünyagörüşünün istiqlal savaşına istiqamətləndirilməsi nəticəsində baş verirdi və XVIII əsrin axırlarında həmin ideyalara yiyələnməyə daha əlverişli şərait yaranmışdı. Bundan başqa, burjuaziyanı hakimiyyət başına gətirən Fransa inqilabı nəticəsində Fransa ilə İngiltərə arasında müstəmləkələr uğrunda, o cümlədən Osmanlı imperiyasının tərkibinə daxil olan ərazilər uğrunda mübarizə özünün daha gərgin mərhələsinə daxil olmuşdu. İngiltərədəki sənaye inqilabı da (bunu bəzən də sənaye çevrilişi adlandırırdılar) İngiltərədə yeni tələblərin meydana çıxmasına səbəb olmuşdu.

Fransa burjua inqilabı və İngiltərədə sənaye çevrilişi həmin ölkələrin, həmçinin bütün kapitalizm dünyasının ictimai-iqtisadi tərəqqisi yolunda ən mühüm mərhələ hesab edilirdi. Belə bir mühitdə Osmanlı imperiyasının geriliyi, mərhələ-mərhələ tənəzzülü xüsusilə nəzərə çarpırdı.

Türkiyə iqtisadiyyatının əsas istehsal sahəsi olan kənd təsərrüfatı dərin böhran içərisində idi. Öz dövrünü keçirib dağılmaqda olan timar torpaq sahibliyi sistemi hələ də hökm sürürdü. Hələlik bundan mütərəqqi üsul tapılmırdı. Amma XVIII əsrin axırlarında Osmanlı imperiyasında istehsal edilən kənd təsərrüfatı məhsullarına Avropa dövlətlərinin tələbatı artmışdı. Bu isə kəndlilər üzərindəki feodal istismarının, xüsusilə Kiçik Asiyanın sahil rayonlarında və Balkanlarda feodal istismarının güclənməsinə səbəb olmuşdu. Bununla bərabər, Türkiyədə yardarlıq sistemi çox yayılmış olduğundan istismarın güclənməsi başlıca olaraq özünü kəndlilərin istehsal etdiyi məhsulun bilavasitə feodal tərəfindən ələ keçirilməsində və soyğunçuluqda özünü göstərirdi.

Şəhərlərdə sənətkarlar və tacirlər üzərində tətbiq edilən vergi siyasəti o qədər də ürək açan deyildi. Başqa təbəqələr kimi əhalinin bu təbəqələrinin, hətta iri əyanların belə həyatı və əmlakı heç bir qanunla qorunmurdu. Paşaların özbaşınalı-

ğının həddi yox idi. Vergilər və cərimələr əhalinin qazancı ilə uzlaşmır və daima ağırlaşdırılırdı. Qəlp pul buraxılması isə dövlət büdcəsinə böyük ziyan vururdu. Dövlət xəzinəsi boşalmışdı. Amma sultanın şəxsi xəzinəsi və paşaların sandıqları qızıl və cəvahiratla dolu idi. Türkiyə tarixində ilk dəfə idi ki, hökumət xaricdən borc almaq istəyirdi. Lakin bu da böhrandan çıxış yolu deyildi.

Həmin dövrdə Türkiyənin keçirdiyi iqtisadi və siyasi böhranın təzahürlərindən biri də iri feodallarda separatizm təmayüllərinin artması idi. Bütün imperiyada feodalların separatçı çıxışları gözlənilirdi. Separatçı feodallar içərisində Vidin paşası (Vidin, Dunayda bolqar şəhəri) Pəzvənd oğlu, Albaniyada Yaninalı Əli paşa, Ankara rayonunda Çapan oğlu və başqalarını xüsusilə qeyd etmək olar. Bu feodalların öz xüsusi qoşunları var idi. Onlar öz xeyirlərinə vergi toplayır və bəzən də müstəqil xarici siyasət yeridirdilər. Lakin İstanbul hökuməti üçün əsas təhlükə onlar deyildi. Əksinə, onların hamısını eyni mənafe ümumilyi birləşdirirdi. Onlar Türkiyənin xalq kütlələrindən, xüsusilə kəndli təbəqələrindən eyni dərəcədə qorxurdular, hakim qüvvələr Balkanlarda və Ərəb ölkələrində güclənən milli-azadlıq hərəkatlarına qarşı birgə mübarizə aparmalı olur və təhlükə qarşısında əlbir çıxış edirdilər. Osmanlı hökumətinin qarşı ən böyük təhlükə  ərəb ölkələrində və balkanlarda hazırlanırdı.

## Balkanlarda osmanlılara qarşı milli-azadlıq hərəkatı

Acınacaqlı fakt olsa da qeyd olunmalıdır ki, Balkanlarda despotik idarəçilik sisteminə qarşı XVIII əsrin axırıncı ili Balkan xalqlarının mübarizəsi tarixində dönüş dövrü oldu. Bu ən əvvəl rus qoşunlarının Balkanlara gəlməsi,1768-1774-cü illər və 1787-1791-ci illər müharibələri gedişində quruda və dənizdə rus ordularının Türkiyə üzərində çaldığı qələbələrlə əlaqədar idi. Mənbələrdə göstərilirdi ki, Balkanların məzlum əhalisi rus ordularını öz xilaskarı kimi qarşılayırdı. Bu haqda Marks və Engels göstərmişlər ki, yunanlar və Balkan yarım-

adasının slavyan xalqları Rusiyanın timsalında "özünün yeganə dayağını, özünün xilaskarını, özünün nicatverənini"[1] görürdülər. Əlbəttə, çar hökuməti və onun arxalandığı siniflər də Balkanlarda işğalçı məqsəd güdürdülər və orada yaşayan "məzlum" xalqların Türkiyə əsarətindən azad olması haqqında heç də az düşünmürdülər. Buna baxmayaraq o zamankı Rusiyanın hakim dairələrinin subyektiv səylərinin əksinə olaraq, Balkan xalqlarına münasibətdə Rusiya obyektiv olaraq həm istilaçı, həm də xilaskar rolunu oynayırdı.

XVIII əsrin axırlarını Balkan xalqlarının milli-azadlıq hərəkatında dönüş dövrü kimi təsvir edilirdi. Eyni zamanda xristian təəssübkeşliyi "din qardaşlığı" ideyası təbliğatının daima gündəmdə olması da slavyan birliyinin kütləviləşməsinə təkan verən amillərdən idi. XVIII əsrin axırı və XIX əsrin əvvəllərində bu xalqların ictimai-iqtisadi inkişafı onların öz milli burjuaziyasının, başlıca olaraq ticarət-sənaye burjuaziyasının yaranmasına və formalaşmasına səbəb olmuşdu. Milli-azadlıq hərəkatında yenə də kəndlilər əsas hərəkətverici qüvvə olaraq qalmaqda davam edirdisə də, bu zamandan etibarən milli-azadlıq hərəkatına rəhbərliyi burjuaziya öz əlinə alır və hərəkata lazımi istiqamət verməyə başlayır. Lakin mübarizənin müvəffəqiyyətli olması üçün ümumxalq birliyinin yaranması üçün şəraitin yetişməsi lazım idi. Xaricdən isə bu yardımı yenə də Rusiya göstərdi.

III Səlimin padşahlığı dövründə (1789-1807) demək olar bütün məzlum xalqlar öz zülmkarlarına qarşı mübarizə aparırdı. Balkanlarda yunanların, bolqarların, qaradağlıların, serblərin, rumınların, Misirdə və Ərəbistan yarımadasında ərəblərin antitürk hərəkatı başlanmışdı. Məcburiyyət qarşısında qalan III Səlim 1792-1796-cı illərdə hərbi xidmətlərə görə len sisteminə daxil olan mülkləri ləğv etdi.

Bu dövrdə müstəmləkələrlə yanaşı, Yunanıstanı da 1770-ci ildə güclü milli-azadlıq hərəkatı bürümüşdü. Lakin bu hərəkat türk qoşunları tərəfindən yatırılmışdı. Sonralar da

---

[1]K.Marks və F.Engels. Əsərləri, 9-cu cild, səh 32.

bu hərəkat pərakəndə şəkildə davam etmişdi. Hərəkatı əsasən partizanlar, davam etdirirdi. Fransa burjua inqilabı, həmçinin XVIII əsrin axırlarında, 1787-1791-ci illər rus-türk müharibəsi Yunanıstanda milli-azadlıq hərəkatının yeni yüksəlişinə səbəb oldu. Hərəkata gizli fəaliyyət göstərən vətənpərvər ittifaqlar, geteriyalar (yunanca – cəmiyyət deməkdir) rəhbərlik edirdi. İlk geteriya yunan şairi və vətənpərvəri Konstantin Riqas tərəfindən təşkil edilmişdi.

XVI əsrdən etibarən sultan-Xəlifə dünya müsəlmanlarının dini lideri rolunu oynayırdı. Sonralar dünya müsəlmanlarının birliyi "Ottaman" fransızcadan çevrilmiş ("Ottomans" "la porte" qapı sözləri ilə əvəzləndi). Avropa dövlətləri Osmanlı dövlətinin müstəmləkəşiliyə başlaması ilə əlaqədar bu dövləti "Ottoman liman" adlandırırdılar. XVIII əsrin axırlarında bolqarlar müstəmləkə əsarətindən azad olmaq uğrunda mübarizəni daha da qüvvətləndirdi. Bolqar şəhərlərinin artması, bu şəhərlərin getgedə türklərin inzibati mərkəzlərindən bolqarların ticarət və sənaye mərkəzlərinə çevrilməsi azadlıq uğrunda mübarizəyə başçılıq edən bolqar ticarət və sənət burjuaziyasının yaranması ilə nəticələndi.

Bu dövrdə qaradağlılar III Səlimə ciddi çətinlik törətdi. Sultan Qaradağın rəsmi asılılığını həqiqi asılılığa çevirmək təşəbbüsü etmişdi və bunun nəticəsində baş verən 1792-1796-cı illər müharibəsində türk qoşunları bir sıra böyük məğlubiyyətlərə uğradı. Nəticədə Sultan Qaradağın rəsmi istiqlaliyyətini tanımağa məcbur oldu.

Balkanlarda başlanan milli-azadlıq hərəkatı demək olar ki, bütün xalqları əhatə etmişdi. Bu məqsədlə başlanan serb xalqının milli-azadlıq mübarizəsi ən güclü hərəkatlardan hesab olunurdu. Serbiyada türk paşaları və feodallarının, yeniçərilərin çıxışı, yeniçəri başçıları olan daxilərin zülmü misilsiz dərəcəyə çatmışdı. İş o yerə çatdı ki, serblərin kütləvi üsyanı baş verəcəyindən təşvişə düşən yeniçərilər 1804-cü ilin yanvarında bütün serb knezlərini (kəndxudalarını; türk caninşinləri paşaları nəzdindəki mahal valilərinə baş knez deyirdilər), keşişləri və monaxları məhv etmək qərarına gəldilər. Bu

qanlı qəsd müəyyən dərəcədə həyata keçirildi. Bu hadisə serblərin səbr kasasını doldurub daşdırdı. Nəticədə ümumxalq üsyanı baş verdi. Üsyanın başında qayduk (partizan), donuz alveri ilə məşğul olan iri tacir Qara Georgi dururdu. Əvvəl üsyan yeniçərilərin özbaşınalığına qarşı çevrilmişdi. Lakin bir az sonra üsyan türk əsarətinə qarşı milli-azadlıq müharibəsinə çevrildi. Üsyançı serblərə qarşı mübarizədə sultan III Səlim feodal qoşunlarına və yeniçərilərə arxalanırdı. Serblər dəfələrlə türk qoşunlarını məğlub etmişdi. Nəhayət, 1806-cı ildə serblər türkləri Belqraddan qovdular. Müəyyən müddət bir qədər zəifləyən bu mübarizə sonralar yeni qüvvə ilə fəallaşdı və beləliklə, Balkan xalqlarının antimüstəmləkəçi mübarizəsi 1818-ci ilə qədər davam etdi.

## İlk burjua islahatı təşəbbüsləri

Bir tərəfdən daxili çətinliklər, hakimiyyət uğrunda güzəştsiz mübarizə, feodalların separatçı əməlləri, milli-azadlıq hərəkatının yeni mərhələyə daxil olması, digər tərəfdən Türkiyənin beynəlxalq vəziyyətinin pisləşməsi Osmanlı imperiyasının hakim dairələri üçün qorxulu bir vəziyyət yaratmış oldu. Belə bir şəraitdə döyüş bacarığına malik olan güclü orduya çox böyük ehtiyacı var idi. Lakin belə bir ordu yox idi. 1677-ci ildə türklərin Ukraynaya hərbi yürüşlərinin uğursuzluğu, 1768-ci illər müharibəsində türklərin yeni məğlubiyyətini təsdiq edən Kiçik Qaynarca müqaviləsi 1783-cü ildə Krımın Rusiyaya birləşdirilməsi dövlətin hərbi qüdrətini zəiflətdiyinə görə Osmanlı imperiyasının hakim dairələri bu ordunun olmamasına ən böyük təhlükə kimi baxırdılar və ordusu zəif olan dövlət üçün daima təhlükə gözlənilirdi.

Əlbəttə, bu dövrdə Türkiyədə yaxşı ordu ola da bilməzdi. Adətən ordunun vəziyyəti ölkənin ümumi vəziyyətini əks etdirir. Düzdür, türk ordusu yeni qaydada qurulmuşdu. Amma bu ordunun özülünü yenə də feodal süvarisi və yeniçərilər təşkil edirdi ki, bu təbəqələrin də özlərinin maddi maraqları

var idi. Deməli türk ordusunun taleyi belə maddi maraq güdən təbəqələrdən asılı idi ki, bu da mövsümi xarakter daşıyırdı. Bununla yanaşı len-timar sahibləri artıq uzun müddət idi ki, hərbi xidmətdən boyun qaçırırdılar. Yeniçərilər isə bu zaman sənətkarlıq və ticarətlə, bəzən də qarət və quldurluqla daha çox məşğul olurdular və onlar döyüş qabiliyyətini itirmişdilər. Orduda intizam aşağı düşmüşdü. Əsgərlərin döyüş meydanından kütləvi surətdə fərariliyi adi hal almışdı. Ordunun belə bir vəziyyətdə olması hakim dairələri son dərəcə narahat edirdi və buna görə də onlar belə bir fikrə gəldilər ki, ordunu əsaslı surətdə Avropa qaydasında yenidən qurmaq lazımdır.

Ordunun yenidən qurulması üçün vəsait lazım idi, bu iş feodalları da narahat etməli idi. Mövcud böhrandan xilas olmaq üçün ordu islahatı vacib idi. Axır ki, islahat səyləri öz ifadəsini sultanın bir sıra fərmanlarında tapmış oldu. Bu fərmanlar ümumilikdə "nizami cədid", yəni yeni quruluş və ya yeni qayda adı ilə tarixə düşdü. Bu islahatlar sultan III Səlimin padşahlığı dövründə keçirildiyindən tarixi ədəbiyyatda onun adı ilə Sultan Səlim islahatları kimi tarixə daxil oldu.

Beləliklə, 1791-ci ildə sultan ali dünyəvi və dini əyanlara sərəncam verdi ki, keçirilməsi lazım olan islahatlar haqqında öz mülahizələrini bildirsinlər. Təqdim edilən layihələrin çoxunda əsas diqqət ordunun Avropa qaydasında qurulmasına yetirilirdi. III Sultan Səlim 1792-1793-cü illərdə əməli olaraq islahatlara başladı. Onun verdiyi fərmana görə hərbi vəzifəsini yerinə yetirməyən len sahiblərindən timar və ziyamətlər geri alınmalı, Avropa nümunəsində hərbi korpus yaradılmalı, islahatların həyata keçirilməsini vəsaitlə təmin etmək üçün xüsusi xəzinə təsis edilməli və bu məqsədlə bir sıra vergilərin toplanması həmin xəzinənin ixtiyarına verilməlidir. Hərbi islahatlar fransız hərbi missiyasının rəhbərliyi altında həyata keçirilirdi. Lakin yeni hərbi korpus çox ləng yaradılırdı. Həmin korpusda 1798-ci ildə hələlik 3-4 min əsgər toplamışdı, 1804-cü ildə isə korpusda 12 min əsgər var idi. Bundan baş-

qa, mütərəqqi hal idi ki, ilk növbədə hərbi-mühəndislər məktəbi açıldı və donanmanın yenidən təşkil edilməsi üçün tədbirlər görülməyə başlandı.

Lakin mühafizəkar qüvvələr islahatlara şiddətli müqavimət göstərirdilər. Həmin islahat əleyhdarları əsasən yeniçərilərə arxalanırdı. III Sultan Səlim yeniçərilərin bir hissəsini yeni orduya göndərmək istədikdə bu əmrə etiraz olaraq yeniçərilər 1805-ci ildə qiyam qaldırdılar. Qiyam Avropa ilə sərhədlədə yerləşdirilmiş hərbi hissələrdə başlandı və sonra İstanbula da yayıldı. Türkiyə üçün reallaşan qorxulu vəziyyət dövlətin mövcudluğuna təhlükə yaratmışdı. Belə bir şəraitdə III Sultan Səlim qətiyyətsizlik göstərdi. O, hərbi islahatlar haqqındakı fərmanı ləğv etdi, yeni korpusu buraxdı. Lakin o bununla özünü xilas edə bilmədi. Nəticədə müxalif qüvvələr onu (1807-ci il mayın 29-da) taxtdan saldılar. III Səlimin tərəfdarı, Ruşşuk paşası Mustafa Bayraqdar İstanbulu tutaraq Səlimi hakimiyyətə qaytarmaq və onun islahatlarını həyata keçirmək təşəbbüsü göstərdi. Lakin Sultan III Səlimi taxtda əvəz edən irticaçı və cəhalətpərəst sultan IV Mustafanın əmri ilə III Səlimi yatağında boğub öldürdülər. Nəticədə qan tökməklə hakimiyyəti ələ keçirmiş IV Mustafanın özü qətlə yetirildi. Bayraqdar və onun tərəfdarları (1808-ci il iyulun 28-də) II Mahmudu taxta çıxardılar. Bayraqdarın da Səlimin islahatlarını həyata keçirmək səyləri müvəffəqiyyətsiz oldu. 1808-ci il noyabrın ortalarında yeniçərilərin təzədən qiyamı baş verdi və qiyam zamanı Bayraqdar da öldürüldü.

III Səlimin başladığı islahatların müvəffəqiyyətsizliyinin əsas səbəbi bunda idi ki, o, Avropa dövlətləri nümunəsilə ordu yaratmağa çalışdığı halda eyni zamanda Osmanlı imperiyasının feodal əsaslarını saxlamaq istəyirdi. Əlbəttə, bu islahatların özündə çoxlu mütərəqqi əlamətlər var idi. Çünki bunlar labüd olaraq hərbi-len sisteminin ləğv edilməsi ilə nəticələnməli idi. Lakin III Səlim və onun tərəfdarları feodal-sultan idarə rejimini dağıtmaq deyil, onu möhkəmlətmək və Osmanlı imperiyasının əsarəti altında olan xalqlar üzərindəki zülmü

saxlamağa çalışırdılar. Beynəlxalq vəziyyət gərginləşməkdə idi. Balkan xalqlarının antiosmanlı mübarizəsi yenidən baş qaldırmış, Fransanın qoşunları Misir istiqamətində irəliləyirdi. İngilis donanması Əbukir yaxınlığında (İsgəndəriyyənin şərqində Fransa donanmasını məğlub etdi. Türkiyə həm Rusiya, həm də İngiltərə ilə yaxınlaşmağa başladı. Lakin Türkiyə ilə Rusiya arasındakı müttəfiqlik uzun sürmədi)

## XVIII əsrin axırı və XIX əsrin əvvəllərində Türkiyənin beynəlxaq vəziyyəti

XVIII əsrin axırlarında İngiltərə ilə Fransa arasında rəqabətin daha da gərgin hal alması o zaman, xüsusilə Napoleon müharibələri dövründə bütün beynəlxalq vəziyyətin, o cümlədən "Şərq məsələsinin" də kəskinləşməsinə səbəb oldu. İlk vaxtlar Napoleonla III Səlim arasında düşmən münasibətlər mövcud idi. Yaxın və Orta Şərqdə İngiltərənin mövqeyini zəiflətməyə çalışan Napoleon 1798-ci ildə Misirə hərbi yürüş təşkil etdi. Bu səbəbə görə Türkiyə Fransaya müharibə elan etdi. Napoleonun Misirə yürüşü müvəffəqiyyətsizliklə nəticələndi. İngilis donanması Əbukir vuruşmasında (İsgəndəriyyənin şərqində) fransız donanmasını darmadağın etdi. Suriyada isə fransız orduları III Səlimin fransız təlimatçılarından təlim almış nizami hissələri tərəfindən Əkkə şəhəri ətrafında dayandırıldı və Misirə qayıtmağa məcbur edildi.

Napoleonun Türkiyə əleyhinə siyasəti buna səbəb oldu ki, Türkiyə Napoleonun düşmənləri ilə, o cümlədən Rusiya ilə yaxınlaşmağa başladı. İonik adalarını tutmuş olan fransızlara qarşı birgə əməliyyat keçirmək üçün III Səlimin xahişi ilə rus çarı I Pavel eskadra göndərdi. 1799-cu il yanvarın 3-də İstanbulda Rusiya ilə Türkiyə arasında Fransaya qarşı müttəfiqlik müqaviləsi imzalandı. İki gün sonra isə Türkiyə ilə İngiltərə arasında eyni məzmunlu qarşılıqlı anlaşma müqaviləsi imzaladı. Beləliklə, Türkiyə münaqişəyə cəlb olunmuş dövlətlərin Fransaya qarşı ittifaqına daxil oldu.

Birləşmiş rus-türk eskadrası fransızları İonik adalarından qaçmağa məcbur etdi. Həmin döyüşdə isə vitse-admiral Uşakovun komandanlığı altındakı rus donanması həlledici rol oynadı. 1800-cü il martın 21-də Rusiya ilə Türkiyə arasında yeni müqavilə imzalandı ki, buna görə də yeddi İonik adalarında Türkiyənin səlahiyyətlərinin hüquqi cəhətdən əsaslandırılması ilə və Rusiyanın himayəsi altında "Yeddi Birləşmiş Ada Respublikası" yaradıldı. Hər iki ölkə arasında imzalanmış başqa bir sazişə əsasən sultan 1802-ci ildə yeni bir fərman verdi. Bu fərmana görə Moldaviya və Valaxiya knyazlıqlarının qospodarları (hakimləri) sultan tərəfindən təyin edilir və işdən azad edilirdi. Lakin buna Rusiyanın da razılığı olmalı idi. Həmin saziş nəticəsində hər iki knyazlığa Rusiyanın istədiyi qospodarlar təyin olunurdu.

1802-ci ildə Türkiyə ilə Fransa arasında sülh müqaviləsi bağlanmasına baxmayaraq Napoleona qarşı mübarizədə mənafe ümumiliyi zəminində Rusiya ilə Türkiyə arasında müttəfiqlik əlaqələri hələ də inkişaf edirdi. 1805-ci il sentyabrın 24-də hər iki dövlət arasında yenidən ittifaq müqaviləsi imzalandı. Bu müqavilə İonik Respublikasını müdafiə etmək üçün rus hərbi gəmilərinin boğazlardan keçmək hüququ təsdiq edildi.

Lakin Rusiya ilə Türkiyə arasındakı müttəfiqlik əlaqələri təbii xarakter daşımırdı. Rusiyanın Moldaviya ilə Valaxiyada ağalıq etməsi Türkiyədə narahatçılıq və qəzəb oyatdı. Misirdə və Suriyada isə İngiltərənin buna oxsar hərəkət etməsi də beynəlxalq münasibətlər sistemində gərginliyi artırdı. III Sultan Səlimi öz tərəfinə çəkmək məqsədilə Napoleon vəziyyətdən istifadə etmək qərarına gəldi. Austerlits yaxınlığında rus-Avstriya orduları üzərində Napoleonun qələbəsindən sonra III Sultan Səlim Rusiyanın darmadağın olunduğunu təsəvvür edərək özünün Napoleona qarşı əvvəlki düşmən münasibətini dəyişdi. Türkiyə ilə Fransa arasında dostluq əlaqələrinin yaranması ilə bərabər Rusiya ilə Türkiyənin münasibətləri pisləşməyə başladı və onların arasındakı bu ziddiyyətlər müharibə ilə nəticələndi.

## 1806-1812-ci illərdə rus-türk müharibəsi, Buxarest sülhü

1802-1805-ci illərdə Türkiyə ilə Rusiya arasında bağlanmış müqavilə və digər Türkiyə tərəfindən razılaşmaların pozulması müharibə üçün bəhanə oldu. Sultanın Rusiya ilə bağlanmış müqavilələrə zidd sərəncamlarının ləğv olunmasını tələb edən rus ultimatiumunu Türkiyə rədd etdikdən sonra rus qoşunları Moldaviya və Valaxiyanı tutdular. Buna cavab olaraq 1806-cı il dekabrın 27-də Türkiyə Rusiyaya müharibə elan etdi. Sultan müharibəyə girməklə Fransanın yardımına inanaraq Krımı geri almaq ümidində idi.

Bu zaman Rusiya artıq Fransa ilə müharibə aparırdı və ikinci bir cəbhədə vuruşmaq heç də onun mənafeyinə uyğun deyildi. İlk vaxtlarda Rusiyaya yardım göstərməyə çalışan, lakin müvəffəqiyyətsizliyə uğrayan İngiltərə demək olar müharibədə iştirak etmədi. Bütün səylərini Napoleona qarşı müharibə cəbhəsinə yönəltmək lüzumu Rusiyadan tələb edirdi ki, Türkiyə ilə müharibəyə son qoysun.

Lakin Napoleonun xarici siyasətində gözlənilməz bir dönüş bütün vəziyyəti dəyişdi. Dənizdə İngiltərəni məğlub etmək iqtidarında olmayan Napoleon İngiltərəni kontinental blokada ilə əzmək istədi. Lakin Rusiyanın iştirakı olmadan blokada mümkün deyildi. Məhz buna görə də Napoleon Rusiya ilə yaxınlaşmaq qərarına gəldi. Onun bu niyyəti I Aleksandr tərəfindən rəğbətlə qarşılandı. Napoleon özünün dünənki müttəfiqinə xəyanət edərək rus imperatorunun Türkiyəni bölüşdürmək haqqındakı təklifini qəbul etdi. Doğrudur fransız imperatoru I Aleksandrın təklifinə yalnız 1807-ci ilin iyulunda Tilzit və 1808-ci ilin sentyabr-oktyabrında Erfurt görüşləri zamanı qeyri-səmimi söz vermişdi. Napoleon eyni zamanda İstanbuldakı fransız səfiri vasitəsilə sultanı müqavimət göstərməyə təhrik edirdi. Bunun nəticəsində Rusiya ilə Türkiyə arasındakı sülh danışıqları iki dəfə 1807-ci ilin avqustunda Dunaydakı Rumın qalası Slobodzeydə və 1809-cu ilin fevralında Yassıda pozuldu. Kutuzovun komandanlığı

altında rus qoşunları 1811-ci ilin iyun-oktyabr aylarında türk ordusunu məğlubiyyətə uğratdılar. Napoleon bundan çox mütəəssir oldu. Türkiyənin yenidən sülh danışıqlarına razı olmaqdan başqa heç bir əlacı qalmadı. Buxarestdə aparılan sülh danışıqları 1812-ci il mayın 28-də sülh müqaviləsinin imzalanması ilə nəticələndi.

Müqaviləyə əsasən Bessarabiya Rusiyaya verildi, Zaqafqaziyada isə Arpa çaya, Acar dağlarına və Qara dənizə qədər olan bütün yerlər Rusiyanın təsir dairəsinə keçdi. Maldoviya və Valaxiya Türkiyəyə qaytarıldı və eyni zamanda onlara 1791-ci il Yassı müqaviləsində göstərilən imtiyazlar verilirdi.

Müqavilə serb xalqının Türkiyə əsarətindən tamamilə azad olmaq ümidlərini doğrultmadısa da, bununla belə Serbiya üçün böyük əhəmiyyəti var idi. Yəni, Serbiya müəyyən daxili muxtariyyət əldə etmiş oldu.

## 1814-1829-cu illərdə Balkanlarda yeni milli-azadlıq hərəkatı

Rusiya ilə müharibəni qurtarmağa macal tapmış Türkiyənin hakim dairələri Balkanlarda milli-azadlıq hərəkatının yeni dalğası ilə üz-üzə gəlməli oldular. 1814-cü ildə serblər yenidən üsyan qaldırdı. II Mahmud Rusiyanın Napoleonla müharibəyə başı qarışmasından istifadə edərək Buxarest sülhünün şərtlərini pozub serbiyada əvvəlki hakimiyyətini bərpa etmək üçün 1813-cü ildə böyük bir ordu ilə Serbiyaya hücum etdi. Əhaliyə divan tutulmaqla yanaşı, şəhər və kəndlər dağılırdı. Buna cavab olaraq serblərin kütləvi üsyanı baş verdi və Rusiya serblərə diplomatik yardım göstərdi. Rusiyanın təzyiqi nəticəsində Sultan güzəştə gedib serblərə öz daxili işlərində muxtariyyət verməyə məcbur oldu.

1820-ci ildə Moldaviya və Valaxiyada kəndlilər sultanın əlaltıları olan qospodarlara və mülkədarlara qarşı üsyan qaldırdılar. 1821-ci ildə üsyana valax vətənpərvəri Todor Vladimiresku başçılıq etdiyi zaman hərəkat, xüsusilə geniş vüsət almış oldu. Üsyan eyni zamanda Avropa müstəmləkəçilərinə və Türkiyəyə qarşı da çevrilmişdi.

## 1821-1829-cu illərdə yunanların üsyanı

XIX əsrin 20-ci illərində milli-azadlıq hərəkatlarından ən böyüyü 1821-ci ildə baş verən yunan üsyanı idi. Bu üsyan yunan xalqına istiqlaliyyət verməklə bərabər beynəlxalq münasibətlərdə də dərin iz buraxdı.

Bu zaman yunan xalqı iqtisadi və mədəni sahədə xeyli inkişaf etmişdi. Əlbəttə, yunan xalqının bəşər sivilizasiyasına töhfələr verməsi hər bir kəsə məlumdur. Onların müstəmləkə əsarətində qalmaları dünya dövlətləri tərəfindən birmənalı qarşılanmırdı.

Balkanlarda antiosmanlı hərəkətına keteriyalar (yunanca cəmiyyətlər) rəhbərlik edirdi. Yunan geteriyaları bu üsyanı çoxdan hazırlayırdı. İlk dəfə 1821-ci ilin martında Moreyada başlanan bu üsyan tez bir zamanda bütün Yunanıstanı, Egey və Adriatik dənizlərində yunan əhalisinin yaşadığı adaların çox hisəsini bürüdü. Eyni zamanda 1821-ci ildə baş verən üsyanda bolqar könüllüləri də iştirak edirdi. Üsyana yunan ticarət burjuaziyası başçılıq edirdi. Lakin əsas hərəkətverici qüvvə kəndlilər idi. Nəhayət, gərgin mübarizədən sonra 1822-ci ildə milli yunan hökuməti təşkil olundu.

Yunan üsyanı demokratiya tərəfdarları olan Avropa ölkələrinin əhalisi tərəfindən rəğbətlə qarşılandı. Böyük mütəfəkkir Bayron üsyanda iştirak etmiş, Puşkin üsyana bir sıra şeirlər həsr etmişdi. Avropanın əsas ölkələrinin hökumətləri isə əksinə hərəkət edirdi. Onlar "qanuni hökmdarın" hakimiyyətini qəsdlərdən qorumaq məqsədi ilə 1815-ci ildə Vyana konqresində "Müqəddəs ittifaq" yaratmış və hər hansı bir inqilabi hərəkata nifrətlə yanaşırdılar. "Müqəddəs ittifaqın" ehkamları Türkiyə sultanını da qoruyurdu. II Mahmud özü də üsyançı yunanlara qarşı mübarizəsində bu əhkamlardan ilham alırdı. Avstriya hökumətinin başçısı "Müqəddəs ittifaqın" yaradıcısı Metternix yunanlara yardım göstərilməsinə xüsusilə müqavimət göstərirdi. Metternix ona görə buna müqavimət göstərirdi ki, Avstriyanın məzlum slavyan əhalisinə də üsyanın təsir edəcəyindən, habelə Rusiyanın fəal iştirakı ilə yu-

nanlara yardım göstərildiyi halda, Balkanlarda Rusiyanın mövqeyinin qüvvətlənəcəyindən qorxurdu.

Əlbəttə, Yunan üsyanını yatırmaq Sultan üçün olduqca çətin idi. Çünki, beynəlxalq əks-səda güclü idi. Bu zaman itaətdən çıxan iri feodallar Yunanıstana qoşun göndərməkdən imtina etdilər, yeniçərilər isə əsas etibarilə dinc əhalini qırmaq və qarət etməklə məşğul olub, vuruşma qabiliyyətinə əsla malik olmadıqlarını nümayiş etdirdilər. II Mahmud öz vassalı əslində isə Misirin müstəqil canişini Məhəmmədəliyə yardım haqqında müraciət etdi. Məhəmmədəli Misirdə Avropa qaydası ilə təşkil olunmuş nizami ordu yaratmışdı. Misirin göstərəcəyi yardım müqabilində sultan Suriyanı və Krit adasını Məhəmmədəlinin ixtiyarına verməyi vəd etdi (Məhəmmədəli əslində 1823-cü ildə Krit adasına yiyələnmişdi). Məhəmmədəlinin oğlu İbrahim paşanın komandanlığı altında 1824-cü ildə Moreyaya böyük bir ordu göndərildi. Bu ordu öz sayı, xüsusilə silahı və hərbi təlimi cəhətdən yunanların qüvvələrindən üstün idi. Misir ordusu 1825-ci ildə Moreyaya çıxarıldı və üsyançıların müqavimətini qırmaq üçün misilsiz vəhşiliklərə başladı. Yunanlar inadla vuruşurdular, lakin onların qüvvələri az idi. 1826-cı ildə Misir ordusu demək olar ki, bütün Moreyanı işğal etdi. Yunanlar hələ müqavimət göstərməkdə idilər. Lakin onların müqaviməti əvvəlki qüvvə və vüsətini itirmişdi. Sultan qısa vaxt ərzində qələbə əldə ediləcəyinə əmin idi. Lakin sultan irəlicədən əbəs yerə sevinirdi. Ona görə ki, Rusiya Türkiyənin Balkanlar siyasəti ilə barışmır və Avropa dövlətləri ilə Türkiyəyə qarşı gizli danışıqlar aparmışdı.

Nəhayət, Rusiya sultana güclü təzyiq göstərərək 1826-cı il martın 17-də ona ultimatum şəklində belə bir tələb verdi ki, Moldaviya və Valaxiyanın muxtariyyəti bərpa edilsin. Demək olar ki, elə bu zaman (1826-cı il aprelin 4-də) Rusiyanın təşəbbüsü ilə Rusiya və İngiltərə arasında Peterburqda saziş imzalandı. İngiltərə hələ 1823-cü ildə Yunanıstanı və Türkiyəni müharibə edən tərəflər kimi tanımışdı, yəni yunanların üsyanını qanuni elan etmişdi. Peterburq sazişinə əsasən hər iki dövlət sultandan tələb etdilər ki, yunanlara qarşı mühari-

bəni dayandırsın və Yunanıstana muxtariyyət versin. Lakin nə İngiltərə, nə də Rusiya sultanı bu tələbləri qəbul etməyə məcbur etmək üçün qəti tədbir görmədilər. Bundan başqa Avstriya, yuxarıda göstərilən səbəblərə görə, Rusiya və İngiltərənin tələbləri ilə razı olmadığını bildirdi. Buradan belə məntiqi nəticəyə gəlmək olur ki, İngiltərə, Rusiya və Avstriya arasında həmrəylik baş tutmadı.

## Yeniçərilərin məhv edilməsi və orduda yeni islahatlar

Yunan məsələsi haqqında hələ danışıqlar aparıldığı bir vaxtda Türkiyədə çox böyük əhəmiyyəti olan bir hadisə baş verdi və hakimiyyətə qarşı üsyan qaldırdılar. Sultan üsyançı gənclərə qarşı qəddar tədbirlər həyata keçirdi və yeniçərilər məhv edildi. Yunanıstandakı müharibə, Məhəmmədəliyə yardım üçün müraciət etmək məcburiyyəti, ordunun döyüş bacarığının aşağı olması III Səlimin islahatlarının bir çox əleyhdarlarına göstərdi ki, Türkiyənin yeni qaydada təşkil edilmiş nizami orduya nə qədər böyük ehtiyacı vardır. Sultan yeniçərilərdən xüsusilə narazı və onlara qarşı qəzəbli idi. Yeniçərilər daha ordu deyil, yalnız qiyam, qətl və qarətlə məşğul olan quldurlar dəstəsinə çevrilmişdi. Bundan başqa yeniçərilərin çoxu ev-eşik və ailə sahibi olub sənətkarlıq və ticarətlə məşğul olmaqla yanaşı, kazarmalarda qalanlar isə dələduzluq edir, tüfeyli həyat tərzi keçirirdilər.

Odur ki, zaman göstərdi ki, təkcə yeniçərilər deyil, bütün türk qoşunu yararsız vəziyyətdədir. Belə hesab olunurdu ki, müharibə dövründə türk ordusu sıralarında 400 min canlı qüvvə olmalıdır. Əslində isə orduda 170 mindən artıq əsgər yox idi, çünki timar və ziyamət sahiblərinin əksəriyyəti hərbi xidmətdən boyun qaçırırdı. Eyni zamanda bu 170 min nəfərdən yalnız 60 min nəfəri silahlı əsgər idi, qalanını köməkçi heyət o cümlədən mehtərlər, sudaşıyanlar, yerqazanlar, müxtəlif ustalar və sairə təşkil edirdi.

Ordunun yenidən qurulması məqsədilə 1826-cı il mayın 28-də sultan nizami ordu yaradılması haqqında ali fərman (xətti-şərif) imzaladı. Fərmanda tələb olunurdu ki, hər bir yeniçəri polkundan yeni orduya 150 adam göndərilsin.

Yeniçərilər başa düşdülər ki, bu tədbir onların korpusunun fəaliyyətinə son qoyur və əsgər həmrəyliyi qəsdən pozulur, buna görə də onlar açıq şəkildə öz narazılığını bildirməyə başladılar. Bunun üstündə onların bəzilərinin boynu vuruldu və yeniçərilərin edam edilməsi qiyama səbəb oldu. Xatırladaq ki, Osmanlı ordusu Avropanın Şərqində, xüsusilə Balkan yarımadasında hərbi yürüşlərdə olan zaman xristian mənşəli çoxlu qadın və uşağı əsir kimi Türkiyəyə gətirmiş, hərbi hissələrdə, kazarmalarda yerləşdirmişdilər. Həmin uşaqlar indi üsyan edirdi. İyunun 15-i gecəsi 10 min yeniçər İstanbul meydanlarından birinə toplaşaraq sultandan öz fərmanını ləğv etməyi tələb etdilər. Lakin II Mahmud yəniçəriləri aldatmağa nail oldu. O, üsyançıları nizami hissələr və toplarla mühasirəyə alıb, onların məhv edilməsi haqqında əmr verdi. Yeniçərilərlə üzbəüz durmuş toplar, onları yaxın məsafədən atəşə tutdu. Sultanın əmri ilə yeniçərilərin kazarmaları, burada gizlənmiş qiyamçılarla birlikdə yandırıldı. Müxtəlif məlumata görə, bir neçə gün ərzində 7 mindən 16 minə qədər yeniçəri məhv edildi. Yeniçərilərin qalan hissəsini isə paytaxtdan qovdular və sürgün etdilər, başqa hissələrə göndərdilər.

Eyni zmanada hiddətlənmiş sultan II Mahmud yeniçərilərlə sıx bağlı olan bektaşi müsəlman təriqətinə, yanğınsöndürənlərə, yeniçərilərə həmrəylik göstərənlərə də divan tutdu. Sonra o, hərbi xidmətdən boyun qaçıran len sahiblərindən timar və ziyamət torpaqlarının geri alınmasına əmr etdi. Beləliklə, III Səlimdən fərqli olaraq, II Mahmud nizami ordu yaradılması üçün qılınc və qanla lazım olan hər cür əməllərə əl atmalı oldu. Lakin nizami ordu yaradılması, təxminən 30 il keçəndən sonra nəzərə çarpacaq nəticələr verdi. Bu vaxt ərzində isə Türkiyə hərbi cəhətdən hələ də geri qalmaqda idi. Bu da danılmaz faktlardan idi ki,  Avropa dövlətləri Türkiyəyə qarşı açıqca düşmən münasibət bəsləyirdilər. III Sultan Mahmud Misir hakimi İbrahim paşanın qoşunlarına və Yunanıstan məsələsində dövlətlər arasındakı ixtilaflara ümid bağlayaraq Yunanıstanda müharibəni davam etdirirdi. Lakin onun layihələşdirdiyi mülahizələr düz çıxmadı və özünü doğrultmadı. Yunanıstandakı müharibə Balkanlardakı mövcud vəziyyət tezliklə Rusiya ilə müharibəyə səbəb oldu.

## 1828-1829-cu illərdə Rusiya-Türkiyə müharibəsi

Rusiya 1826-cı il martın 17-də Türkiyəyə ultimatium verdikdə, təkcə yunanların xeyrinə sultana təzyiq göstərmək deyil, həmçinin yaranmış vəziyyətdən öz mənafeyi üçün də istifadə etməyi nəzərdə tutmuşdu. Nəticə etibarilə Akkerman-da keçirilən rus-türk konfransı 1826-cı il oktyabrın 7-də saziş imzalanması ilə sona çatdı. Həmin saziş əvvəlki müqavilələr əsasında müəyyən edilmiş rus-türk sərhədlərini təsbit etdi və Buxarest sülh müqaviləsinin Moldaviya, Valaxiya və Serbi-yaya vermiş olduğu hüquqları bərpa etdi. Beləliklə, Rusiya-nın uzun müddət apardığı Balkan siyasəti Rusiyanın və Bal-kan xalqlarının xeyirinə həll edildi. Yeni sazişə əsasən Rusiya Balkanlarda əvvəlki illərə nisbətən öz mövqeyini daha da möhkəmləndirdi.

Bu dövrdə isə Misir qoşunları öz istiqlaliyyəti uğrunda mübarizə aparan yunanlara qarşı qırğını davam etdirirdi. Mi-sir qoşunları 1827-ci ilin iyununda yunan vətənpərvərlərinin dayağı olan Afinanı işğal etdilər. Belə bir vəziyyətdə Rusiya 1827-ci il iyulun 6-da üç dövlət arasında imzalanan sazişin təşəbbüsçüsü oldu. Bu saziş əsasında sultandan tələb edilirdi ki, Yunanıstana muxtariyyət versin. Eyni zamanda sazişdə nəzərdə tutulurdu ki, sultan bu tələbi rədd etsə, ona qarşı güc tətbiq edilsin.

Avstriya tərəfindən qızışdırılan II Mahmud ümid edirdi ki, dövlətlər arasında Yunanıstan məsələsi üstündəki ixtilaf onların imzaladığı sazişin əhəmiyyətini itirəcək. Buna görədə II Mah-mud ona verilmiş tələbləri rədd etdi. Bunun nəticəsində birləş-miş ingilis-fransız eskadrası 1827-ci il oktyabrın 20-də Navarin limanında (Peloponnes yarımadasının cənub-qərb sahili) Tür-kiyə-Misir eskadrası ilə döyüşə başladı. Müttəfiqlərin, yəni av-ropalıların eskadrasında 26 gəmi, Türkiyə-Misir eskadrasında isə 94 gəmi var idi. Bu texniki üstünlüyə baxmayaraq, türk-Mi-sir eskadrası demək olar ki, tamamilə darmadağın edildi. İbra-him paşa Misirə çəkilməyə məcbur oldu. Lakin Avstriyanın

təhriki ilə sultan öz donanmasının darmadağın edilməsinə baxmayaraq Akkerman sazişini ləğv etdi və 1827-ci il dekabrın 20-də Rusiyaya qarşı "cihad müharibəsi" elan etdi. Öz növbəsində Rusiya da 1828-ci il aprelin 26-da Türkiyəyə müharibə elan etdi. Rusiyanın 150 minlik ordusu Prut çayını keçdi. Rumınlar və bolqarlar rus ordusunu rəğbətlə qarşılayır, ona öz xilaskarı kimi baxırdılar. Rus ordusunun sürətli hücumu yunan xalqında yenidən antiosmalı ruh yüksəkliyini oyatdı. Rumınlar, serblər, bolqarlar, yunanlar könüllü dəstələr təşkil edərək Rusiya tərəfində çıxış etdilər. Müharibə eyni zamanda həm Balkanlarda, həm də Qafqaz-Türkiyə sərhədində gedirdi. Rus ordusu əvvəl Qafqaz cəbhəsində mühüm qələbələr qazandı. General Dibiçin komandası altında rus ordusu 1829-cu ilin iyununda Balkan cəbhəsində də türk ordusunu böyük məğlubiyyətə uğratdı. Rus ordusu Balkan dağlarını keçərək sürətlə Ədirnəyə yaxınlaşdı və Ədirnəni işğal etdi. Rus qoşunlarının hücumunu dayandırmağa qadir olmayan türk qoşunları intizamsız halda geri çəkilirdi. İstanbula gedən yol açıq idi. Paytaxt təşviş içində olmaqla yanaşı, ölkədə hakimiyyətə qarşı siyasi gərginlik artırdı. Belə ki, Türkiyənin fasiləsiz müharibələr aparması, ordunun yorğun düşməsi və əsgər ailələrinin sultana ünvanladıqları məktublar ondan xəbər verirdi ki, ölkədə hakimiyyətə qarşı qınaqlar çoxalmaqdadır.

Bununla yanaşı, rus ordusunun hərbi müvəffəqiyyətləri İngiltərə, Fransa və Avstriyanı çox narahat edirdi. Yunan məsələsinin təklikdə həll edilməsinə yol verməmək üçün İngiltərə və Fransa hökumətləri hələ 1829-cu il martın 27-də, yəni türklərin Balkan ordularını məğlub edilməmişdən əvvəl, Londonda saziş imzalanmasına nail olmuşdular ki, bu da Türkiyə ilə Rusiya arasındakı sülhün əsas şərtlərini müəyyən edirdi. Bu müqavilənin qapalı tərəfləri də mövcud idi.

Odur ki, həmişə olduğu kimi İngiltərənin müəmmalı siyasəti nəticəsində Rusiya Ədirnə istiqamətində uğurlu hərbi əməliyyat apardı, eyni zamanda rus ordusu Ədirnəni tutduqdan sonra Türkiyə məcburiyyət qarşısında qalaraq sülh müqa-

viləsinin bağlanmasını təklif etdi. Rusiya hərbi uğurları ilə yanaşı, incə diplomatiya nümayiş etdirdi. Rusiya İstanbulu və boğazları tutmaq fikrində deyildi, çünki Rusiya diplomatiyası bilirdi ki, belə bir addım Avropa dövlətlərinin hərbi ittifaqı ilə müharibəyə səbəb ola bilər. Odur ki, Türkiyənin sülh haqqındakı təklifi qəbul edildi. Türkiyə hökuməti 1829-cu il sentyabrın 14-də öz nümayəndələrini Ədirnəyə, Dibiçin qərargahına göndərdi. Danışıqların yekunu olaraq sülh müqaviləsinin imzalanması ilə nəticələndi, müqavilə London protokolu əsasında tərtib edilmişdi.

## 1829-cu il Ədirnə sülhü Yunanıstanın istiqlaliyyət əldə etməsi

Ədirnədə bağlanan müqavilənin əsas bəndləri Londonda hazırlanmışdı. Ədirnə sülhünün şərtlərinə görə son müharibədə Rusiya tərəfindən azad edilmiş Cənubi Qafqaz torpaqları və Qara dənizin şimal-şərq sahilləri Rusiyaya birləşdirilməli idi.Türkiyə öhdəsinə götürürdü ki, Yunanıstana və Serbiyaya muxtariyyət verilir, Moldaviya və Valaxiyada türklərin məskən salması və mülkə sahib olması qadağan edilirdi. Eyni zamanda nəzərdə tutulmuş vaxtda müşahidə altında türklər buradan öz qarnizonlarını çıxarırdılar. Bundan sonra Rusiya bu knyazlıqların işlərinə və buraya qospodarların təyin edilməsinə güclü təsir göstərmək imkanı əldə edirdi. Türkiyə Qara dənizdə və boğazlarda ticarət gəmiçiliyinə mane olmamağı və 1,5 milyon holland çervonu təzminat verməyi öhdəsinə götürdü. Təzminat ödənilincəyə qədər (18 ay müddətində) rus qoşunları Moldaviya və Valaxiyada qalmalı idilər.

1830-cu il fevralın 3-də Rusiya, İngiltərə və Fransa Londonda yeni saziş imzaladılar. London sazişi Yunanıstana tam istiqlaliyyət verilməsini nəzərdə tuturdu. Lakin, bu qərar yunan vətənpərvərlərinin bütün arzularını təmin etmədi. Yunanıstanın sazişlə müəyyən edilən sərhədlər yunanların yaşadığı bütün əraziləri əhatə etmirdi. Bu dövrdə həmçinin yunan xal-

qına məcburi qaydada mütləqiyyət quruluşu qəbul etdirilmişdi.

London sazişini imzalayan dövlətlər 1830-cu il aprelin 8-də sultana ultimatum göndərib, Yunanıstanın istiqlaliyyətini tanımağı tələb etdilər. Aprelin 24-də sultan Yunanıstanın istiqlaliyyyətini tanıması haqqında öz razılığını bildirməyə məcbur oldu. Həmin il avqustun 29-da sultan xüsusi fərmanla Serbiyaya da muxtariyyət verilməsini elan etdi. Beləliklə, 1828-1829-cu illər müharibəsində rus ordusu yunan xalqını tamamilə, serb və rumın, eləcə də Cənubi Qafqaz xalqlarını isə Osmanlı basqın və qarətlərindən qismən azad etdi. K. Marks yazmırdı ki, "Bəs yunan üsyanı zamanı mübarizənin nəticəsini kim həll etdi? Bütün qəsdləri və qiyamları ilə yaninalı Əli paşa deyil, Navarin yaxın-lığındakı vuruşma deyil, Moreyadakı fransız ordusu deyil, London sazişləri və protokolları deyil, Balkanları keçib Marista vadisinə daxil olan Dibiçin rus ordusu həll etdi"[1]. K.Marks bununla demək istəyirdi ki, XIX əsrin əvvəllərindən etibarən başlanan sürətli beynəlxalq imperializm düşərgəsində Rusiya jandarm rolunu oynayırdı. Bunun obyektiv və subyektiv səbəblərinin tarixin sonrakı mərhələsində baş verən hadisələr bir daha sübut etdi.

### 1831-1833-cü illər Türkiyə - Misir münaqişəsi, Şərq məsələsinin yenidən kəskinləşməsi

Əvvəla qeyd olunması zərurdir ki, Avropa dövlətləri süni şəkildə beynəlxalq miqyaslı münaqişə ocaqları yaradaraq gələcək müharibələrə zəmin hazırlayırdılar. 1829-cu il Ədirnə sülh müqaviləsindən sonra güman etmək olardı ki, Türkiyə ilə Avropa dövlətləri arasında əbədi sülh bərqərar ediləcəkdir. Amma belə olmadı. Çünki dünyanın bölüşdürülməsi məsələsi qarşıda dururdu. Odur ki, sülh müqaviləsi imzalandıqdan iki il sonra Türkiyə yenidən müharibəyə cəlb olundu. Bu dəfə münaqişə Türkiyədən uzaq olan Misirdə formalaşmaqda idi.

[1]K. Marks və F.Engels. Əsərləri, 9-cu cild, səh 32.

Münaqişəni Misir canişini Məhəmmədəli başladı. K.Marksın dediyinə görə "Məhəmmədəlinin dövründə Misir Osmanlı imperiyasının o zaman həyat qabiliyyəti olan yeganə hissəsi idi"[1].

Məhəmmədəli rəsmən yalnız canişin hesab olunsa da o, əslində Misirin müstəqil hakimi idi. Lakin o böyük bir imperiya, yəni böyük ərəb imperiyası yaratmaq, Misiri bütün Yaxın Şərqin ticarət mərkəzinə çevirmək haqqında düşünürdü. 1831-ci ildə Məhəmmədəli sultana qarşı açıq çıxış etdi. Başlanmış olan bu müharibədə sultan qoşunları məğlub edildi. Misir qoşunları Anadolunun içərilərinə soxuldu və 1832-ci ilin dekabrında Konya yaxınlığında sultan qoşunlarını darmadağın edərək İstanbula yürüş etməyə hazırlaşdı. Sultan II Mahmudun və bütün Osmanlı sülaləsinin hakimiyyətdən devrilməsi təhlükəsi meydana çıxdı. Sultanla Məhəmmədəlinin münaqişəsi Şərq məsələsinin də son dərəcə kəskinləşməsinə səbəb oldu. Türkiyə ilə münaqişə zamanı Məhəmmədəliyə Fransa qəyyumluq edirdi. Buna görə də Misir canişininin hərbi müvəffəqiyyəti eyni zamanda Yaxın Şərqdə Fransa təsirinin güclənməsi demək idi. Təbiidir ki, İngiltərə və Rusiya buna düşməncəsinə yanaşır və Fransanın Misirdə möhkəmlənməsilə əsla barışmırdılar.

Belə mövcud problemlə əlaqədar yaranmış vəziyyət II Mahmudu Fransa və İngiltərədən yardım istəməyə məcbur etdi. Fransa həmişəki kimi ikili oyun oynadı və Türkiyəyə rədd cavabı verdi. İngiltərənin isə Sultan Mahmuda Avstriyanın vasitəçiliyi ilə kömək etmək istəyi məlum oldu. Lakin Avstriya qəflətən öz mövqeyini dəyişdi və Məhəmmədəliyə qarşı müharibəyə başlamaqdan boyun qaçırdı. Heç də gözlənilməyən tərəfdən, yəni I Nikolaydan Türkiyəyə kömək gəldi. Çar öz qonşuluğunda zəif Türkiyənin olmasını daha münasib bilərək ehtiyat edirdi ki, bacarıqlı Məhəmmədəli Türkiyəni hərbi-strateji cəhətdən zəiflədib, onu Yaxın Şərqdə Fransanın dayağına və Rusiyanın müsəlman təbəələrinə arzu olunmaz təsir

[1]K.Marks və F.Engels. Əsərləri, 9-cu cild, səh 201.

mərkəzinə çevirə bilər. Odur ki, I Nikolay II Mahmuda təcili yardım göstərdi. Onun tələbilə Məhəmmədəli hücumu dayandırdı. 1833-cü ilin fevral-aprelində Bosforun Asiya sahilindəki Xunkar yaxınlığında 14 min rus əsgəri quruya çıxarıldı.

Rusiyanın münaqişəyə fəal müdaxilə etməsi İngiltərə və Fransanı məcbur etdi ki, sultan ilə Məhəmmədəli arasında müharibənin qurtarması üçün tədbirlər görsünlər. Nəticə etibarilə 1833-cü il mayın 9-da sultan ilə onun rəsmi vassalı Məhəmmədəli paşa arasında Kütəhyədə müqavilə imzalandı. Müqaviləyə əsasən Misir, Suriya, Livan, Fələstin və Kilikiya Məhəmmədəlinin hakimiyyəti altına keçdi. Beynəlxalq jandarm rolunu oynayan Rusiya Türkiyə-Misir ziddiyyətlərini öz istədiyi kimi həll etdi. Eyni zamanda daha rus qoşunlarının Türkiyədə saxlanılmasına ehtiyac qalmadı. Yalnız 1833-cü il iyulun 8-də, II Mahmud Rusiya ilə 8 il müddətinə Xunkar müdafiə müqaviləsini imzaladıqdan sonra rus qoşunları Türkiyədən çıxarıldı.

Müqaviləyə əsasən hər iki tərəf razılaşdırılmış siyasət yeritməyi, "tərəflərin əmin-amanlıq və təhlükəsizliyini təmin etməyə" ehtiyac olduqda bir-birinə kömək etməyi öhdələrinə götürürdülər. Xüsusilə Rusiya Türkiyəyə həm xarici, həm də daxili düşmənlərə qarşı mübarizədə silahlı yardım göstərmək haqqında razılığa gəldilər. Müqavilənin bir neçə gizli maddələri var idi ki, onlar sirr olaraq qalırdı. Bircə o aydınlaşdı ki, Türkiyəni Rusiyaya yardım göstərmək öhdəçiliyindən azad edirdi, lakin bunun müqabilində Rusiyanın tələbilə Türkiyə Rusiya ilə münaqişədə olan dövlətlərin xarici hərbi gəmilərin Dardanel boğazından keçməsinə yol verməməli idi. Əvvəlcədən razılaşdırılmış şərtlərə görə müqavilə imzalandıqdan üç gün sonra rus qoşunları Türkiyəni tərk edirdi.

Lakin bir az sonra, Rusiya Avstriya ilə saziş bağlamağa məcbur oldu. Belə ki, 1833-cü il sentyabrın 18-də imzalanmış Münxenqrets sazişinə əsasən Avstriya Türkiyədə mövcud rejimi qorumağı öhdəsinə götürən dövlət oldu. Bu isə həm ölkə, həm də beynəlxalq aləmdə Türkiyənin nüfuzuna xələl gətirən saziş idi.

## Türkiyənin ictimai-iqtisadi inkişafı

Türkiyə-Misir münaqişəsinin nəticələri Türkiyənin siyasi və hərbi vəziyyətinin nə qədər ağır olduğunu və Avropa dövlətlərindən asılılığının nə dərəcədə qüvvətləndiyini yenidən əyani şəkildə nümayiş etdirməli oldu. Onun iqtisadi vəziyyəti də eyni dərəcədə ağır idi. Türkiyənin Avropa dövlətlərindən siyasi asılılığının artması, onun iri kapitalist ölkələrindən iqtisadi asılılığının sürətlənməsi prosesi ilə yanaşı gedirdi.

Ölkədə milli zülm, feodalların ağır istismarı, saysız-hesabsız vergilər, müharibələr, əhalini xüsusilə kəndliləri müflisləşdirməkdə idi. Bütün imperiyada tez-tez baş verən vəba xəstəliyi çoxlu insan tələfatına səbəb olurdu. Misal üçün 1833-1836-cı illərdə baş verən epidemiya zamanı kütləvi insan bu xəstəliyin qurban olmuşdu.

Ölkənin kənd təsərrüfatı son dərəcə ağır vəziyyətdə idi. Lakin kənd təsərrüfatında, xüsusilə Avropa Türkiyəsində yeni cəhət, timar və ziyamətlər hesabına iri xüsusi torpaq mülkiyyətinin artması getdikcə daha çox nəzərə çarpırdı. Bu əmtəə-pul münasibətlərinin kənd təsərrüfatına soxulmasının nəticəsi idi. Bir çox hallarda timar torpaq sahibliyinin tənəzzülü o qədər dərinləşmişdi ki, timar sahibinin ixtiyarında yalnız bir neçə kəndli həyəti, yəni təsərrüfatı qalırdı.

Digər mülkiyyətlərdə kəndlilərin vəziyyəti timar torpaqlarındakı kəndlilərinkindən daha ağır idi. Çünki onlar torpaq sahibinə məhsulun yarısını, bundan başqa əşar və başqa vergilər də verməli idilər. Kəndli məhsulunun dövlət və paşalar tərəfindən icbari qiymətlə satın alınması da kənd təsərrüfatına məhvedici təsir göstərir və kəndliləri müflisləşdirirdi. Taxılın və yunun satın alınması dövlət inhisarında idi. Bu məhsullar strateji əhəmiyyət kəsb edirdi.

Bütün bunlara baxmayaraq hər halda sultan feodal rejimi şəraitində Türkiyənin təsərrüfatında yeni istehsal münasibətlərinin rüşeymləri meydana çıxırdı ki, bunlar gələcəkdə inkişaf edib kapitalist münasibətlərinə çevrilə bilərdi ki, bu da

inkarı-inkar qanunauyğunluqlarına tamamilə uyğun gəlirdi. Təbii qanunauyğunluq idi ki, kənddə kapitalizmin təşəkkülü şəhərdə kapitalist münasibətlərinin inkişafından asılı idi. Bu zaman belə bir sual meydana çıxır, bəs o zaman Osmanlı imperiyasında şəhərlərin vəziyyəti necə idi?

XIX əsrin birinci yarısında Türkiyədə çoxlu iri şəhərlər var idi. 1816-cı ilin məlumatına görə təkcə 20 mindən artıq əhalisi olan 47 şəhər var idi. Bunlardan səkkizinin hərəsində 100 mindən çox əhali yaşayırdı və o cümlədən İstanbulda – 400 min, Qahirədə - 400 min, İzmirdə - 120 min, Tokat və Ədirnədə, hərəsində 100 min əhali yaşayırdı. XVIII əsrin axırlarından şəhərlərdə bəzi sənaye sahələri, o cümlədən toxuculuq, gön-dəri, keramika sənayesi, silah istehsalı inkişaf etməyə başladı. Yerli sənaye məhsullarının ən iri istehlakçısı nizami ordu idi. Sənayenin özündə də mütərəqqi proseslər nəzərə çarpmağa başlayırdı. Bu cəhətlər, əmək bölgüsünün artmasında, manufakturaların və hətta fabriklərin yaranmasında özünü göstərirdi. XIX əsrin 30-cu illərində bir nəfər bolqar kapitalisti hökumətdən borc almaqla ilk mahud fabriki açmışdı. Sexlərin dağılması prosesi daha da sürətlənmişdi. Bir çox sexlər, bunların istehsal etdiyi malları satın alan tacirlərdən asılı idi. Belə tacirlər çox vaxt sex rəhbərlərinin özlərindən olurdu. Beləliklə, XIX əsrin 30-cu illərində Türkiyə sənayesində kapitalist münasibətləri tədricən yaranmaqda idi. Bu hal ölkənin Avropa hissəsində xüsusilə aydın görünürdü.

Daxili və xüsusilə, xarici ticarət də xeyli canlanmışdı. Bu isə liman şəhərlərinin və ölkə daxilindəki mühüm ticarət yollarında yerləşən şəhərlərin artmasına kömək edirdi.

Beləliklə, Türkiyədə sənaye və ticarətin müəyyən dərəcədə inkişafı, sənaye burjuaziyasının yaranmasına və ticarət burjuaziyasının formalaşmasına səbəb oldu. Həmin burjuaziyanın mühüm xüsusiyyəti və müəmmalı amili bundan ibarət idi ki, onun əksəriyyətini türk olmayan millətlərin nümayəndələri yunanlar, ermənilər, bolqarlar və başqaları təşkil edirdi. Yəni xristianlar bu gəlirli sahədə çoxluq təşkil edirdilər.

Yerli camaatın həddindən artıq yoxsullaşması və yadellilərin sürətlə varlanması vətəndaşların əmlak, xüsusi mülkiyyətin bəzi növlərinin balansını pozurdu. Öz vətənində vətənsizlər ordusu çoxalmaqda idi. Bu xüsusiyyət də artıq o zamandan başlayaraq xarici kapitalın, türk ticarət və sənaye burjuaziyasının inkişafı yolunu kəsmişdi. Çünki çox sərt monopoliya var idi. Xarici monopoliyalar hökumət məmurları ilə əlaqəli idi.

Xarici kapitalistlər öz iqtisadi üstünlüyü və kapitulyasiya hüquqlarından istifadə edərək hazır sənaye mallarının idxalını və Türkiyədən kənd təsərrüfatı xammalı ixracını getdikcə artırırdılar. İngilis və fransız toxuma mallarının idxalı yerli toxuculuq sənayesinə mənfi təsir göstərirdi. Bu onunla əlaqədar idi ki, XIX əsrin birinci yarısında Türkiyənin ictimai-iqtisadi inkişafı onun aqrar münasibətlərində və dövlət quruluşunda mütləq islahat keçirilməsini tələb edirdi. Bunu yaranmaqda olan türk burjuaziyasının mənafeyi də tələb edirdi. Əlbəttə, bir sıra sahələrdə, misal üçün dövlətin mərkəzləşdirilməsini qüvvətləndirməkdə, feodal separatizminin aradan qaldırılmasında, inzibati idarə və maliyyə işlərinin qaydaya salınmasında, yaxşı nizami ordu yaradılmasında burjuaziya ilə mərkəzi hökumətin mənafeyi uyğun gəlirdi.

## Sultan II Mahmudun islahatları

Avropada sürətli inkişaf, kapitalizmin yeni xətt üzrə inkişafı, elmin, texnikanın tərəqqisi diktə edirdi ki, Türkiyə də bu prosesdən geri qalmasın. Odur ki, Türkiyə hakim dairələrinin nisbətən uzaqgörən və mütərəqqi fikirli nümayəndələri başa düşürdülər ki, Türkiyə öz mövcudluğunu mühafizə etmək üçün bir sıra islahatlar keçirməlidir. Çünki, beynəlxalq münasibətlər sistemindəki gərginliklər, Osmanlı imperiyasına qarşı hazırlanan təxribatlar bunu tələb edirdi. Odur ki, dövrün, zamanın tələblərinə uyğun olaraq nəhayət. Türkiyədə 1834-1839-cu illərdə belə islahatlar keçirildi və bu islahatlar

mahiyyətinə görə Türkiyə inkişaf tarixində yeni mərhələ oldu.

Bununla yanaşı XIX əsrin 30-40-cı illərində hərbi-len torpaq sahibliyi sistemi tamamilə ləğv edildi. Len sahiblərinin ixtiyarında bu vaxtadək qalmış olan timar və ziyamət torpaqları alınıb dövlət torpaq fonduna qatıldı. Len sahibliyi hüququ haqqında sultandan bəratı (fərmanı) olanlara alınan torpaq əvəzində dövlət qiymətilə pul təyin edildi. Qalan len sahiblərinin torpaqları isə əllərindən alındı. Bu torpaqların çox böyük hissəsi xırda torpaq malikanələri (timar), qismən də orta malikanələr (ziyamət) idi. Türk feodallarının xeyli hissəsi öz lenlərini irəlicədən mülkiyyətə (ciftliyə) çevirə bilmişdi. Misal üçün bolqar rayonlarında bütün len sahiblərinin təxminən 30 faizi belə etmişdi. Alınan torpaqlar çoxdan bəri bu yerləri becərən kəndlilərin istifadəsində saxlanıldı. Müsadirə edilən boş yerlərin xeyli hissəsi isə hərraca çıxarılmışdı və həmin torpaqlar şəhər varlıları, sultanın məmurları və qohumları tərəfindən dəyər-dəyməzinə pulla alınırdı.

Türkiyədə başlanan və çox əhəmiyyəti olan bu islahat bu dövrdə bir çox sahələri əhatə edirdi. Ən başlıcası hərbi-len sisteminin qəti surətdə ləğv olunması idi və bu tədbiri aqrar islahatın ən vacib və zəruri tərəfi hesab etmək olardı. Eyni zamanda bu islahat feodal münasibətlərinin yarımfeodal əlaqələrlə əvəz edilməsinə səbəb oldu. Bununla da kənd təsərrüfatının inkişafı üçün bəzi imkanlar yaradıldı. Lakin bu, islahatın müəyyən mütərəqqi əhəmiyyəti olsa da islahat kəndlilər üzərindəki əsas istismar üsulunu dəyişdirmədi. Hərbi-len sistemi dövründəki yardarlıq sistemi islahatdan sonra da qalırdı. Yəni, bu tədbir xalq üçün o qədər də ideal və xeyirverən tədbir deyildi, xüsusiyyətinə görə də ola bilməzdi.

Hərbi-len sisteminin ləğv edilməsi inzibati sahədə də islahat keçirilməsinə səbəb oldu. Çünki Osmanlı imperiyasında inzibati quruluşun əsasını da hərbi-len sisemi təşkil edirdi və uzun illər bu sistemin mövcudluğu ənənəyə çevrilmişdi. 1834-cü ildəki yeni inzibati islahata görə bütün ərazi əyalətlərə və sancaqlara (mahallara) bölündü. Lakin bu islahat yerli rəislərin

özbaşınalığını aradan qaldıra bilmədi. Vəzifələrin satılması kimi neqativ hallar bu özbaşınalığı daha da dərinləşdirirdi.

Başqa islahatlar içərisində 1836-cı ildə gömrük sisteminin vahid şəkilə salınmasını, taxıl və yun satın almaq sahəsində dövlət inhisarının 1838-ci ildə ləğv edilməsini, 1836-1837-ci illərdə xarici işlər və daxili işlər nazirliklərinin, hərbi nazirliyin yaradılmasını, Paris, Vyana, London və Berlində səfirliklər açılmasını da göstərmək lazımdır. Məhz bu islahatdan sonra Türkiyənin beynəlxalq münasibətlər sistemi ilə daxili idarəçilik sistemi arasında qismən uyğunluq yaradılmış oldu. Hətta məmurların zahiri görünüşünü müəyyən edən fərmanlar verildi. Misal üçün, 1837-ci il fərmanı bığların uzunluğu ilə qaşların uzunluğu arasında nisbət olmasını tələb edirdi. Yəni, insanın zahiri görünüşü dövləti maraqlandırırdı və bunun çox böyük əhəmiyyəti var idi.

Səlnaməçilərin təsvirinə görə Türkiyədə küçələrdə qışqıra-qışqıra danışanların siması çox iyrənc görünürdü. II Mahmud öz fərmanı ilə beləlרini mədəniləşdirdi. Bu fərmandan sonra ilk növbədə şəhər əhalisinin xarici görünüşündə Avropa təsiri özünü göstərməyə başladı. Müasirlərdən birinin dediyinə görə, alabəzək Şərq geyimi əvəzinə indi kişilər qara, avropasayağı pencək və dar şalvar geyir, çalma əvəzinə fəs qoymağa başlamışdı. Uzun saqqal qoyanlar azalmışdı. "Türklərin yuxarı təbəqələrinin indiki gəncləri daha əvvəlki kimi bir-birilə qışqıra-qışqıra danışmır, hay-küy salmırlar, fransızca laqqırtı vurur, naz-əda ilə söhbət edir, sarı rəngli qədim çəkmə əvəzinə laklı tufli geyirdilər. Keçmişdə ayaqyalın gəzən varlı qadınlar isə indi ayaqlarında tarım geyilmiş corabla gəzir və hətta bəziləri bellərinə korset də taxırdı. Uzun yaylı, avropasayağı faytonlar da dəbə düşmüşdü..."

İslahatın digər bir tərəfi də diqqətəlayiqdir ki, II Mahmud özünü dini mənsubiyyətindən asılı olmayaraq bütün təbəələrin bərabər olması tərəfdarı kimi qələmə verməyə çalışırdı. O, Türkiyə sultanları içərisində birinci olaraq 1837-ci ildə imperiyanın Avropa hissəsini gəzdi, orada müsəlman olmayan əhalinin nümayəndələrini qəbul etdi, onlara müraciətlə

söylədiyi nitqlərində dini etiqadından asılı olmayaraq imperiyanın bütün təbəələrinin bərabər olmasından danışdı. Padşahın xalq içərisinə getməsi, hətta müstəmləkələrdə yerli əhali ilə ünsiyyətdə olması, onların problemləri ilə maraqlanması onun nüfuzunu artırdı. Bu olduqca böyük siyasət idi. Fransız səyyahı, etnoqrafı A.Buni XIX əsrin ortalarında Türkiyə mədəniyyəti və xalqların adət-ənənələrindən bəhs edərək yazırdı: "İqdırda bir toy mərasiminə dəvət edilməmiş iştirak edirdim. Süfrələri çox kasıb idi, amma o qədər oynayırdılar ki, oyun yerinin tozu insanların çöhrəsini tanınmaz etmişdi. Oynayanların arasında hətta ürəkləri gedən də oldu. Bu adamlar o qədər şənlənmişdilər ki, səfalətlərini və kasıblıqlarını toy müddətində unutmuşdular". Mən türk musiqisini başa düşməsəm də, yəqin edirdim ki, oynayanların əksəriyyəti musiqinin məzmununu dərk etmədən oynayırdılar.

Öz hakimiyyətini möhkəmlətmək məqsədilə II Mahmudun yuxarıdan həyata keçirdiyi islahatlar geniş zəhmətkeş kütlələrin vəziyyətini yüngülləşdirməyə yönəldilmişdi. Amma aparılan islahat reallaşandan sonra xalq kütləsi əsl həqiqəti gec də olsa dərk etdi. Onlar dərk etdilər ki, sultanın bütün cəhdləri yalnız hakimiyyətini möhkəmlətmək imiş. Xalq kütləri, xüsusilə kəndlilər vergilərin artmasından və hərbi mükəlləfiyyətdən daha çox şikayət edirdilər. Doğrudan da yeni inzibati rəislər hökumətin göstərişi əsasında vergilərin yükünü daha da ağırlaşdıraraq toplanılan vergilərin xeyli hissəsini özləri mənimsəyirdi. Orduda 15 il qulluq etməyi nəzərdə tutan hərbi mükəlləfiyyət səfərbərlik zamanı kəndliləri uzun zaman öz ailə və təsərrüfatından ayırırdı. Halbuki əvvəllər öz feodalı tərəfindən hərbi qulluğa çağırılan kəndli adətən yayda müharibədə iştirak edir, qışda isə evinə qayıdırdı. Bu amildən, yəni əhalinin narazılığından istifadə edərək islahatları pozmağa çalışan qüvvələr də var idi. Onlar bəzən də buna müvəffəq olurdular. Lakin II Mahmud heç bir müxalifətçiyə güzəşt etmir, öz düşmənlərinə, hətta ruhanilərdən olan düşmənlərinə də şiddətli divan tuturdu.

Türkiyədə islahatın davamı kimi, hətta II Mahmud yeni islahatlar da hazırlayırdı. Bunların işlənib hazırlanması ilə xüsusi komissiya məşğul olurdu. Bu komissiyaya görkəmli dövlət xadimi, diplomat, qərbpərəst Mustafa Rəşid paşa başçılıq edirdi. Lakin Məhəmmədəli ilə yeni münaqişə baş verməsi yeni islahatlardan ayrıldı və sultanın diqqətini özünün hakimiyyətinin qorunub saxlanılmasına cəlb etdi.

## Misir hakimi Məhəmmədəli ilə Türkiyə arasında 1839-1840-cı illərdə ikinci münaqişə

Özünü müstəqil hakim hesab edən Məhəmmədəli uzun müddət idi ki, Osmanlı imperatorluğuna xərac vermir, hətta Avropa dövlətləri ilə müstəqil əlaqələr qurmağa səy göstərirdi. Bu səbəbdən Məhəmmədəli ilə ikinci münaqişə 1838-ci ildə baş verdi. Sultan II Mahmud vassalı Məhəmmədəlini özünə tabe etmək üçün yenidən müharibə variantını 1839-cu ildə sultanla onun rəsmi vassalı arasında açıq müharibə başlandı. Həmişə olduğu kimi bu dəfə də münaqişənin müharibəyə çevrilməsində İngiltərə mühüm rol oynadı. Məhəmmədəli ərəb Şərqində İngiltərənin öz mövqeyini genişlədib möhkəmlətmək səylərinə mane olurdu. O, 1836-cı ildə imzalanmış ingilis-türk ticarət müqaviləsinə görə taxıl və yun almaq sahəsində dövlət inhisarının ləğv edilməsi ilə razı olmamışdı. Türklərin əli ilə Məhəmmədəlini rədd etməyə çalışan İngiltərə Misir canişininin bu hərəkətindən istifadə edib, onunla sultan arasında münaqişə hazırlamışdı. Bununla İngiltərə eyni zamanda Misirdə Fransanın da mövqeyini son dərəcə zəiflədə bilərdi. Lakin İngiltərə türk sultanının vədlərinə əbəs yerə ümid bəsləyirdi. 1839-cu il iyunun 24-də Suriyanın şimalında Nəzib yaxınlığında sultan ordusu ilə Misir qoşunları arasındakı vuruşmada türklər darmadağın edildi. II Mahmuda bundan 6 gün sonra məğlubiyyət haqqındakı xəbər çatmışdı. Onun xələfi sultan Əbdülməcidin o zaman 16 yaşı var idi və buna görə də təbiidir ki, o, imperiyanın idarə olunmasında elə bir rol oynaya bilməzdi, idarəçilik zəif idi.

Odur ki, türk ordusunun darmadağın edilməsi sultan hökumətini çox pis vəziyyətə saldı. Üstəlik türk donanması da misirlilərə təslim oldu. Yaranmış vəziyyətdə Türkiyə hökuməti necə olursa olsun, Məhəmmədəli ilə barışmaq üçün yol tapmalı idi. Lakin 1839-cu il iyulun 27-də İngiltərə, Rusiya, Fransa və Avstriya Türkiyəyə kollektiv nota göndərərək, təklif etdilər ki, bu dövlətlər tərəfindən qərar qəbul edilincəyə qədər Məhəmmədəli ilə sülh danışıqları aparmasın. Sultan dünya dövlətlərinin bu kollektiv əmrinə tabe olmaya bilməzdi.

Türkiyəyə qarşı formalaşan Avropa dövlətlərinin koalisiyası yeni hücum taktikası hazırlamaqda idilər.

## 1839-cu il Gülxana xəttişərifi

Belə bir mürəkkəb şəraitdə hakim dairələrin qabaqcıl nümayəndələri təcili surətdə yeni islahatlara başlamağın zəruri olması fikrinə gəldilər. Onlar bu tədbirlə Avropa dövlətlərinin etimadını qazanmaq, Türkiyənin daxili işlərinə onların müdaxiləsinin qarşısını almaq və daxili siyasi böhranı zəiflətmək istəyirdilər. Mustafa Rəşid paşanın komissiyası tərəfindən sultanın ali fərmanı (xətt-şərif) şəklində tərtib edilmiş bəyannamə 1839-cu il noyabrın 3-də sultanın Gülxana sarayında elan olundu. Buna görə də həmin fərman "Gülxana xətt-şərifi" adı ilə tarixə daxil olmuşdu.

Fərmanda Osmanlı imperiyasının bütün təbəələrinin həyat, şərəf və əmlak təhlükəsizliyinin təmin edilməsi, vergilərin düzgün təqdim olunması və toplanması, iltizam sisteminin ləğv edilməsi, orduya çağırışın qaydaya salınması və hərbi qulluq müddətinin azaldılması nəzərdə tutulurdu.

Gülxana fərmanında həmçinin o da vəd olunmuşdu ki, yeni qanunlar əsasında Osmanlı imperiyasının bütün əyalətlərinin yaxşı və ədalətli idarə olunması təmin ediləcəkdir. Fərmanda misal üçün deyilirdi:- "bundan sonra məhkəmə işləri açıq aparılacaq, məhkəmə məsuliyyətinə cəlb edilənlərin əmlakı müsadirə olunmayacaq, vərəsələr öz qanuni hüquqlarından məhrum edilməyəcəkdir". Fərman dini etiqadından asılı

olmayaraq imperiyanın bütün təbəələrinə hüquq və vəzifə cəhətdən tam bərabərlik vəd edirdi. Yuxarıda göstərilənlərdən aydın görünür ki, Gülxana fərmanı Türkiyədə uzun illər mövcud olan problemləri və II Mahmud dövründəki islahat və ideyaları ümumiləşdirib inkişaf etdirirdi. Bu fərman Mustafa Rəşid paşa başda olmaqla 1838-ci ildə yaradılmış "İctimai fayda şurası" adlanan şuranın mütərəqqi fəaliyyətinin nəticəsi idi. Şuranın işində xaricilər, xüsusilə fransızlar da iştirak edirdilər ki, bununla Avropaya yaxınlaşma, daha doğrusu avropalaşma meylləri aydınca hiss olunurdu. Eyni zamanda bu amil demokratikliyinə görə fərmanın məzmununa öz təsirini göstərmişdi.

"İslahata" türkcə "tənzimat" deyirlər. "Tənzimat" dedikdə tarix ədəbiyyatında adətən Gülxana fərmanında vəd verilən islahatların sonrakı bir neçə onillik ərzində həyata keçirildiyi dövr nəzərdə tutulsa da, əslində islahatlar 1826-cı ildən başlanmışdı. Beləliklə, Gülxana fərmanı bir tərəfdən II Mahmudun islahatlarının davamı, digər tərəfdən də bir sıra yeni islahatların başlanğıcı oldu. Özünün bəzi məhdudluğuna baxmayaraq bu islahatlar burjua xarakteri daşıyırdı və həyata keçirilə bilsəydi müəyyən dərəcədə ölkənin tərəqqisinə kömək edə bilərdi.

### Türkiyə üzərində dövlətlərin qəyyumluğu, boğazlar haqqında 1841-ci il sazişi

Gülxana fərmanının elan olunması Türkiyəni Avropa dövlətlərinin "qəyyumluq" siyasətindən xilas etmədi. Nəticədə Türkiyə, İngiltərə, Rusiya, Avstriya və Prussiya arasında razılaşmaya görə 1840-cı il iyulun 15-də Londonda saziş imzalandı. Bu saziş "Osmanlı imperiyasının bütövlüyü və istiqlaliyyətini təmin etmək üzərində nəzarət" pərdəsi adı altında Avropa dövlətlərinin Türkiyə üzərində "qəyyumluğunu" yaratdı. Saziş Rusiya da daxil olmaqla bütün dövlətlərin hərbi gəmilərinin Bosfor və Dardanelə gəlməsinin qadağan olunmasını nəzərdə tuturdu. Nəhayət, Məhəmmədəliyə verilməli olan tələblər də sazişdə ifadə olunmuşdu. Bunlar rədd edilə-

cəyi halda saziş bağlamış dövlətlər silahlı müdaxiləyə əl atacaqlarını öhdələrinə götürmüşdülər. Məhəmmədəlinin tərəfini saxlayan Fransa sazişi imzalamaqdan imtina etdi. Məhəmmədəli ona verilən ultimatumu əvvəl rədd etdi. Lakin ingilis donanması Beyrutu və Suriyanın başqa limanlarını bombardman etdikdən sonra İsgəndəriyyəni bombardman etmək təhlükəsi yaranmışdı. İbrahim paşa Suriyada məğlub edildikdən sonra əlacsız və köməksiz qalan Məhəmmədəli tabe olmağa məcbur oldu və yalnız Misirin nəsli hakimi olaraq qaldı. Məhəmmədəli sultana bac xərac verməyi 200 minlik ordusunu 18 min nəfərədək azaltmağı, müsadirə edilmiş donanmanı sultana qaytarmağı öhdəsinə götürdü və 1838-ci il ingilis-türk ticarət müqaviləsinin şərtləri ilə razılaşmağa məcbur edildi.

1840-cı il sazişinin davamı olmaq etibarilə, 1841-ci il iyulun 13-də Londonda boğazlar haqqında xüsusi saziş bağlandı. 1840-cı il sazişini qəbul etmiş dövlətlər, həmçinin 1840-cı il sazişini imzalamamış Fransa da bu sazişi imzaladı. Bu saziş mahiyyətinə görə bütün dövlətlərin hərbi gəmilərinin boğazlardan keçməsini qadağan edirdi. Bununla da ilk növbədə Rusiyanın Qara dəniz donanması buradakı imkanından məhrum oldu. Bundan sonra boğazlar rejimi keçmişdə olduğu kimi ikitərəfli sazişlərlə deyil, beynəlxalq sazişlə müəyyən edilirdi. Bu saziş əslində boğazları Türkiyənin səlahiyyətindən kənarlaşdırırdı.

Beləliklə, həmişə olduğu kimi Türkiyə-Misir münaqişəsindən ən çox İngiltərə qazandı. İngiltərə Məhəmmədəlini öz yolu üzərindən kənar etdi, Yaxın Şərqdə Fransanın və boğazlarda Rusiyanın mövqeyini zəiflətdi və Osmanlı imperiyasının siyasətinə ən çox təsir göstərən dövlətə çevrildi.

Avropa dövlətlərin Türkiyə-Misir münaqişəsinə müdaxiləsi, onların Türkiyə üzərindəki qəyyumluğunun yeganə timsalı deyildi. Suriya və Livandakı münaqişələr, həmçinin 40-cı illərdə Türkiyə-İran sərhəd ixtilafları da onların yaxından iştirakı ilə "həll edilmişdi". Bununla yanaşı koalisiya qüvvələri bundan sonra Türkiyədəki ermənilərin "vəziyyətindən" də müdaxilə üçün bəhanə kimi istifadə etməyə başladılar. 1848-

ci ildə Moldaviya və Valaxiyada xalq üsyanının yatırılmasında türk qoşunları ilə birlikdə rus orduları da iştirak etdi. Beləliklə, XIX əsrin 30-40-cı illərində Türkiyənin Avropa dövlətlərinin yarımmüstəmləkəsinə çevrilməsi ticarət əlaqələri qurmaq üçün ilkin siyasi zəmin hazırladı. Eyni zamanda müvafiq ilkin iqtisadi əlaqələr yaranmaqda idi.

## Osmanlı dövlətində Krım müharibəsi ərəfəsində islahatlar, ölkənin iqtisadi vəziyyəti

Gülxanə fərmanından sonra Osmanlı imperiyası ərazisində fərmanın davamı olaraq yeni islahatlar haqqında təkliflər verildi. Türkiyənin rəsmi tarixşünaslığında bu islahatlara "tənzimati-xeyriyyə" deyilirdi.

Əlavə olaraq 1840-cı ildə vergi alınması islah edildi və bundan sonra vergi alınması tənzimləndi. Eyni zamanda vergiləri xüsusi agentlər vasitəsilə dövlət özü topamalı oldu. Həmin il cinayət məcəlləsinə yeni maddələr də daxil edildi və mülki-qanun məcəlləsi də hazırlanmağa başlandı. Bununla yanaşı 1843-cü il fərmanı orudunun yeni quruluşunu müəyyən etdi. Kadr qoşunlarında xidmət müddəti 15 ildən 5 ilə endirildi. Ehtiyatda qalmaq müddəti 7 il müəyyən olundu. Elə həmin il islam dini mürtədlərinə edam cəzası verilməsi ləğv olundu. 1847-ci ildə ticarət məhkəmələri təşkil edildi ki, bunlarda da ilk dəfə olaraq müsəlman olmayanların şəhadəti müsəlmanların şəhadətinə bərabər tutulurdu. Yenə də həmin ildə maarif nazirliyi yaradıldı. 1850-ci ildə fransız ticarət məcəlləsi nümunəsi ilə türk ticarət qanun məcəlləsi qəbul edildi. Qanun layihələrinə baxmaq üçün dövlət şurası, qubernator-paşalar nəzdində isə məsləhət şuraları-məclisləri yaradıldı ki, bunlara da zadəgan və varlıların, o cümlədən müsəlman olmayanların nümayəndələri də daxil edildi.

Lakin paşalar, iltizamçılar, sələmçilər, ruhanilər və başqa imtiyaz sahibləri, qeyri-mütərəqqi qüvvələr əyalətlərdə islahatların həyata keçirilməsini qəsdən pozurdular. Bir sıra hal-

larda əhalini məcbur edirdilər ki, həm keçmişdə olduğu kimi iltizamçılara, həm də hökumət agentlərinə vergi versinlər. Bunun nəticəsində ölkənin müxtəlif regionlarında üsyanlar baş verirdi. Lakin müsəlman olmayan əhaliyə, hələ də əziyyət verilməsi mövcud idi. İrticaçılar müsəlmanlarla "kafirlərin" hüquqca bərabər olmasını təsəvvürünə belə gətirmək istəmirdilər. Mühafizəkarların belə pozucu fəaliyyəti Balkanlarda və bir sıra digər yerlərdə üsyanların baş verməsinə səbəb oldu. Bu üsyanlar sultanın Gülxanə islahatlarını həyata keçirmək zəruriliyi şüarı altında gedirdi. Belə üsyanlar Bolqarıstanda 1841-ci ildə məşhur Niş üsyanı, Makedoniyada, Kritdə və Kipirdə də baş vermişdi.

Osmanlı imperatorluğunda yuxarıdan keçirilən islahatlar zəhmətkeş kütlələrin vəziyyətini əsla yaxşılaşdırmadısa da burjuaziyanın, o cümlədən milliyətcə türk olmayan burjuaziyanın artmasına kömək edirdi. Lakin islahatlar paralel olaraq eyni zamanda xarici kapitalın da mövqeyinin möhkəmlənməsinə kömək edirdi. Bunlar bir-birinə zidd olan iki təmayül idi. Lakin bu zaman xarici kapital Türkiyədə artıq elə üstünlüklər qazanmışdı ki, geridə qalmış və zəif Türkiyə burjuaziyası xaricilərlə rəqabətdə geridə qalır, həm də idxalat getdikcə ixracatı ötüb keçirdi. XIX əsrin 50-ci illərinin əvvəllərində imperiyanın xarici ticarətində kəsir baş verdiyi aşkara çıxır və bu kəsir daimi hal alırdı. Həmin ildə 11.820 min lirəlik mal gətirilmişdirsə, 10.640 lirəlik mal çıxarılmışdı. Xarici malların idxalının təsiri altında sənayenin fəaliyyəti zəifləyirdi. Misal üçün, 1812-ci ildə Skutari və Tırnovoda 2000 toxucu dəzgahı olduğu halda, 1841-ci ildə yalnız 200 dəzgah fəaliyyət göstərirdi. Eyni zamanda Türkiyənin kapitalist dövlətləri üçün aqrar-xammal bazasına çevrilməsi prosesi qüvvətlənirdi. Misal üçün, 1839-cu ildə imperiyanın Qara dəniz limanları vasitəsilə 1,8 milyon kiloqram taxıl ixrac edildiyi halda, 1841-ci ildə təxminən 11 milyon kiloqram taxıl ixrac edilmişdi. Başqa kənd təsərrüfatı məhsullarının ixracı da bir neçə dəfə artmışdı. Türkiyənin iqtisadiyyatı getdikcə daha çox birtərəfli və şəxsi mənafelərə xidmət edən iqtisadiyyata çevrilirdi.

Beləliklə, XIX əsrin 30-50-ci illərində Türkiyənin həm siyasi, həm də iqtisadi sahədə Avropa kapitalist dövlətlərinin başlıca olaraq İngiltərə və Fransanın yarımmüstəmləkəsinə çevrilməsi üçün ilkin zəmin hazırlandı. Həmin dövlətlərin təsiri altına düşən Türkiyə, getdikcə daha artıq dərəcədə bu dövlətlərin öz düşmənlərinə qarşı mübarizə alətinə çevrilirdi. Türkiyənin bu asılı vəziyyəti Rusiya-Osmanlı münasibətlərinə xələl gətirirdi. Belə mövcud vəziyyət nə Rusiyanın, nə də Türkiyəni razı salmırdı. Qarşılıqlı narazılıqlar təbii olaraq yeni müharibə üçün şərait yaratmaqda idi.

## 1853-1856-cı illər Şərq (Krım) müharibəsi

Şərq və ya Krım müharibəsi adlanan müharibə Türkiyəni müharibə meydanına çəkmək məqsədilə hələ XIX əsrin əvvəllərində Avropa dövlətləri tərəfindən hazırlanmışdı. Bu müharibə İngiltərə ilə Rusiyanın birinci növbədə "Şərq məsələsində" mövqelərinin tamamilə əksliyindən irəli gələn ziddiyyətlərin kəskinləşməsi nəticəsində baş verdi. Osmanlı imperiyasını bütünlüklə özünə tabe etməyə çalışan İngiltərə, imperiyanın vəziyyətini olduğu kimi ("status kvo") saxlamağa tərəfdar idisə, Rusiya Osmanlı imperiyasının Balkanlarda və Yaxın Şərqdəki torpaqlarının dövlətlər arasında bölüşdürülməsi siyasətini yeridirdi. Bu dövrdə Türkiyəyə qarşı iddialı olan Rusiya əsasən boğazları və İstanbulu tutmaq istəyirdi. Fransa və Avstriya, habelə Avropanın başqa dövlətləri, hər biri öz mənafeyi nöqteyi-nəzərindən İngiltərənin tərəfində dururdu. Aydındır ki, Balkan torpaqlarını öz hakimiyyəti altında saxlamağa çalışan Türkiyə İngiltərəyə və Rusiyanın digər düşmənlərinə arxalanırdı.

"Şərq məsələsində" Rusiyanın rəqibi olan dövlətlərlə Rusiya arasında münasibətlər o dərəcədə kəskinləşmişdi ki, kiçicik bir bəhanə müharibəyə səbə ola bilərdi. Belə bir bəhanə, Qüds və Vifleyemdə xristianların "müqəddəs yerləri" üstündə pravoslav və katolik kilsələri arasındakı mübahisə oldu. Pravoslav kilsəsinin arxasında Rusiya, katolik kilsəsinin arxa-

sında isə Fransa və onun müttəfiqləri dururdu. I Nikolay ultimatum şəklində sultandan tələb etdi ki, "müqəddəs yerlərin" ixtiyarı pravoslav kilsəsinə, sultanın bütün pravoslav təbəələri üzərində himayəçilik hüququ isə onun özünə verilsin. Belə bir müqavilə pravoslav əhali olan yerlərdə sultanın suveren hakimiyyətini sarsıda bilərdi. Eyni zamanda bu müqaviləni Türkiyənin bölüşdürülməsinin başlanğıcı hesab etmək olardı. İngiltərə və Fransaya arxalanan sultan I Nikolayın tələbini rədd etdi. Buna cavab olaraq müharibə elan edilmədən əvvəl rus qoşunları 1853-cü il iyunun 21-də Moldaviyaya girdilər. Bundan sonra həmin il oktyabrın 4-də Türkiyə Rusiyaya müharibə elan etdi.

1853-cü il noyabrın 30-da admiral Naximov Sinop limanında türk donanmasını məğlubiyyətə uğratdı. Buna cavab olaraq İngiltərə və Fransa öz donanmalarını Qara dənizə gətirdilər. 1854-cü il martın 12-də onlar Rusiyaya qarşı Türkiyə ilə ittifaq haqqında müqavilə bağladılar və martın 27-28-də isə Rusiyaya müharibə elan etdilər. Beləliklə, Rusiya təklənmiş şəraitdə müharibəni davam etdirdi.

Rusiyanın məğlubiyyəti ilə qurtaran "Şərq müharibəsi", eyni zamanda Rusiyada hakim feodal idarə üsulunun çürüklüyünü və dağılması ehtimalı özünü doğrultdu. Rusiya Avropanın qabaqcıl dövlətlərinin ittifaqı ilə nə iqtisadi, nə də hərbi cəhətdən müharibə aparmağa hazır deyildi

Əslində Türkiyə də bu müharibəyə hazır deyildi. Rusiyanın məğlub olması aydınlaşdıqda Qara dənizdə heç də İngiltərənin mövqeyini möhkəmlətmək istəməyən Fransa və Avstriya sülh söhbətini ortaya atdılar. Müharibəni davam etdirmək istəyən İngiltərə güzəştə getməyə məcbur oldu. Avstriya 1855-ci ilin axırlarında İngiltərə və Fransa ilə birlikdə hazırlanmış sülh şərtlərini Rusiyaya təqdim etdi. Rusiya hökuməti bu şərtlərə özünün ilkin razılığını verdi və 1856-cı il fevralın 25-də Parisdə sülh konfransı açıldı. Lakin hələ konfrans açılmamışdan əvvəl Türkiyə Rusiyanın mövqeyini zəiflətmək üçün İngiltərə və Fransanın məsləhəti ilə daxili bir tədbir keçirdi. Bu tədbir Balkanlara, Qara dəniz regionuna və digər ərazilərə aid idi.

## Türkiyədə 1856-cı ildəki xətt-humayunun mahiyyəti

1856-cı il fevralın 25-də açılan Paris sülh konfransının gündəliyindən bir daha məlum olurdu ki, bu konfransda imperialist dövlətlər Türkiyəyə qarşı heç də səmimi deyillər. O da məlum idi ki, sülh konfransında Rusiya Türkiyənin fakt qarşısında qoymağa cəhd göstəriləcəkdir. Odur ki, Rusiyaya özünü Türkiyədəki "məzlum" milliyyətlərin müdafiəçisi kimi çıxış etmək imkanı verməmək üçün İngiltərə və Fransa hələ müharibə illərində sultanı bəzi fərmanlar verməyə məcbur etmişdilər ki, bunlar da müsəlman olmayan əhalinin vəziyyətinin yaxşılaşdırılmasını və bərabərhüquqlu vətəndaş olmalarını sübut etməli idi. Odur ki, misal üçün, müsəlmanların cinayət işlərinə müsəlman olmayanların şəhadət verməyə buraxılması haqqında 1854-cü ildə fərman nəşr edildi. Əsrlərdən bəri müsəlman olmayanlardan alınan xüsusi şəxsi vergi "xəracın" ləğv edilməsi haqqında hələ 1855-ci il mayın 10-da fərman verilmişdi. Lakin, əslində "xərac" ləğv edilməmiş, müsəlman olmayanların hərbi mükəlləfiyyətdən azad edilməsi üçün alınan vergi ilə əvəz edilmişdi. Bütün bu fərmanlar az səmərəli tədbirlər idi. Qeyri müsəlman əhalinin ziyalıları Paris sülh konfransına göndərdikləri müraciətlərdə göstərirdilər ki, "Müharibə zamanı Osmanlı imperiyasının xristian əhalisinə qarşı Türkiyə hökumət idarələrinin özbaşınalığı misli görünməmiş bir şəkil alıb". Belə ki, xristianlar iddia edirdilər ki, "guya milli ayrı seçkiliklə yanaşı Rusiyaya rəğbət bəsləyən xristianlardan qisas alırlar", bu da Avropa ictimaiyyatının qınağına çevrilirdi.

Məzlum xalqların Türkiyə əsarətindən azad edilməsi məsələsinin müzakirəsi Rusiyanın rəqibləri üçün əlverişli deyildi və buna yol verməmək üçün İngiltərə və Fransa hələ 1856-cı ilin yanvarında Türkiyəyə memorandum vermişdilər. Sultanın 1856-cı il fevralın 18-də nəşr etdiyi ali fərmanının (xətt-humayunun) əsas prinsipləri həmin memorandumdan götürülmüşdü. Fərman, Gülxanə xətt-şərifinin elan etdiyi hüquq bərabərliyinin müsəlmanlarla müsəlman olmayanların hüquq bərabərliyini, dini etiqadından asılı olmayaraq bütün

təbəələrin şəxsiyyət, şərəf və mülkiyyət təhlükəsizliyinin təmin olunmasını təsdiq edirdi. Yəni fərman müsəlman olmayanların müsəlmanlarla bərabər əsasda dövlət qulluğuna və hərbi məktəblərə buraxılmasını bəyan edirdi. Fərman dinindən asılı olmayaraq bütün təbəələr üzərinə bərabər vergi qoyulmasını, vergi toplanışında iltizam sisteminin tədriclə ləğv olunacağını vəd edirdi. Dövlət büdcəsi tərtib olunacağı, yollar çəkiləcəyi, banklar açılması, xaricilərə mülk sahibliyi hüququ verilməsi, Avropa dövlətlərinin kapitalından, həmçinin elm və incəsənət nailiyyətlərindən istifadə edilməsi də fərmanda nəzərdə tutulmuşdu ki, bu da Türkiyədə xristianlara çox böyük hüquq və imtiyazlar verirdi.

Rusiyanın rəqibləri sülh şərtlərinin müzakirəsi zamanı bu fərmandan istifadə edərək, “Osmanlı imperiyasında xristian əhalinin vəziyyəti kimi” kəskin bir məsələ ətrafında uzun-uzadı müzakirə və mübahisələrə yol verməməyə müvəffəq oldular. Həmin fərman eyni zamanda Türkiyənin avropalaşması dəlili kimi qələmə verilirdi və buna əsasən Türkiyə sırasında olan dövlət kimi tə qdim edildiyinə görə sənədləşmədə Avropa dövlətləri tərkibinə qəbul edildi.

## 1856-cı il Paris sülh müqaviləsi

1856-cı il martın 30-da bir tərəfdən Rusiya, digər tərəfdən də Avstriya, Fransa, Böyük Britaniya, Prussiya, Sardiniya və Türkiyə arasında sülh müqaviləsi imzalandı. Müqaviləyə əsasən Rusiya Cənubi Bessarabiyanı itirmiş oldu. Bununla yanaşı Rusiya Dunay mənsəbini öz nəzarəti altında saxlamaq imkanından məhrum edildi. Müqavilə Qara dənizdə Rusiyanın hərbi-dəniz donanmasını ton su tutumu hesabı ilə məhdudlaşdırır, Qara dəniz sahillərində cəbbəxana, tərsanə və gəmi-təmir edən müəssisələr tikməyi qadağan edirdi. Bu haqda rus klassikləri haqlı olaraq yazırdılar ki, Krım müharibəsində Rusiyanın məğlubiyyəti "Çarizmin çürüklüyünü göstərdi". Maraqlı burasıdır ki, "qalib gəlmiş" Türkiyə də öz üzərinə bu cür öhdəliklər götürdü. Həmçinin Serbiya, Moldaviya və Va-

laxiya üzərində Türkiyənin suverenliyi saxlanılırdı. Müqaviləyə əlavə olaraq boğazlar haqqında müqaviləyə ayrıca bənd qəbul edildi və bu da bütün ölkələrin hərbi gəmilərinin boğazlardan keçməsinin qadağan olunduğunu təsdiq etdi. İngiltərə, Fransa və Avstriya 1856-cı il aprelin 15-də imzaladıqları sazişlə "Paris müqaviləsi məzmunu daxilində Osmanlı imperiyasının istiqlaliyyəti və bütövlüyünə təminat verməyi" və bu müqavilənin hər hansı bir şəkildə pozulmasına müharibəyə səbəb kimi baxmağı öhdələrinə götürdülər.

Bu müharibədə Avropa dövlətlərinin yardımı ilə Türkiyənin qalib gəlməsinə baxmayaraq Krım müharibəsi Türkiyə üçün də olduqca ağır nəticələr verdi. İngilis-fransız kapitalı tərəfindən Türkiyənin maliyyə əsarətinə alınması məhz müharibə illərində başlandı. Böyük hərbi xərclər Türkiyəni 1854-1855-ci illərdə olduqca ağır şərtlərlə ingilis və fransız banklarından ilk borclar almağa məcbur etdi. İngilis kapitalistləri Türkiyəni təsir altında saxlamaq üçün 1856-cı ildə Osmanlı bankının əsasını qoydular. Bu bank Türkiyədə xarici kapitalın əsas dayağı oldu. Elə həmin il yenə də ingilis kapitalistləri İzmir rayonunda dəmir yolu çəkmək üçün Türkiyəyə qətiyyən xeyirli olmayan şərtlərlə ilk konsessiya aldılar. Türkiyə hərbi cəhətdən tamamilə zəifləşmiş, onun ordusu ruhdan düşmüşdü. Türkiyə demək olar bütün donanmasını itirmişdi. Heç bir dövlətə nüfuz gətirməyən süni şəkildə törədilmiş müharibə Türkiyəni İngiltərə və Fransanın kollektiv protektoratı altına düşməyə məcbur etdi.

## XIX əsrin 50-60-cı illərində Türkiyədə iqtisadi vəziyyət, Yeni islahatlar

1853-1856-cı illərdə baş vermiş Krım müharibəsi Türkiyənin iqtisadi qüdrətini xeyli zəiflətdi. Müharibə kəndlilərin vəziyyətinə xüsususilə ağır təsir göstərdi. Lakin müharibədən sonra da hakim dairələr kəndlilərin vəziyyətini yüngülləşdirmək üçün nəinki tədbir görmədilər, hətta onların üzərindəki vergi yükünü daha da ağırlaşdırdılar və 1850-ci

ildə illik yığım 2,5 milyona çatdığı halda, 1856-cı ildə vergi yığımı təxminən 7 dəfə artırılmışdı. Amma müharibənin baç verməsinin bəzi təbəqələrə çox xeyri olmuşdu. Belə ki, müharibə ordu üçün ərzaq satan iri torpaq sahiblərinin varlanmasında əsas mənbə olmuşdu.

XIX əsrin 30-40-cı illərində len sistemi ləğv edildikdən sonra torpaq sahibliyində yaranmaqda olan yeni münasibtlər aqrar sahədə yeni qanunlar verilməsini tələb edirdi. 1858-ci ildə qəbul olunan torpaq qanunu mövcud aqrar münasibətləri təsbit etdi. Yeni qanuna görə torpaqların böyük bir hissəsini dövlət və vəqf torpaqları təşkil edirdi. Bu torpaqlar icarəyə verilirdi. Bunları satmaq, girov qoymaq, bağışlamaq olmazdı. Bu torpaqların çox cüzi hissəsi nəsli prinsiplərə əsasən nəslin davamçılarına keçə bilərdi. Təəssüf ki, yeni torpaq qanunu aqrar hüquq sahəsində bir çox feodal istismarı xüsusiyyətlərini yenə də saxladı. Dövlət və məscid torpaqlarından istifadə edən icarədarların tələbini yerinə yetirərək hökumət 1867-ci ildə verdiyi qanunla bu iki qrup torpaqların nəsli surətdə keçməsi imkanını xeyli artırdı. Yenə də həmin ildə xaricilərə Türkiyədə daşınmaz əmlak satın almaq hüququ verildi. Xaricilər başlıca olaraq yeraltı sərvət yataqlarını ələ keçirmək, müəssisə və ev tikmək üçün sahə almaq imkanı əldə etmək məqsədi ilə buna nail olmağa çalışırdılar. Türkiyədə nəsli prinsiplərə əsasən keçən torpaqların varislərə çatması narazılıq yaradırdı. Məsələn, 50 il əvvəl birinin babası hansı yollasa xeyli torpaq əldə edib. Həmin varis heç bir əziyyət çəkmədən torpaq sahibi olur, başqalarını da istismar edirdi. Nəticədə narazılıq artırdı.

Amma, hələlik sənayedə durğunluq hökm sürürdü. Sənət sənayesi, yəni kustar sənətkarlıq və xırda əmtəə istehsalı üstün yer tuturdu. Doğrudur, 1861-ci ildə sex reqlamenti (sənətkarların müstəqil fəaliyyətini məhdudlaşdıran qaydalar) ləğv edilmişdi. Lakin bazarda xarici malların hökmranlığı şəraitində bu tədbir sənayenin inkişaf etdirilməsi üçün daha ciddi müsbət nəticələr verə bilməzdi.

Xarici ticarət on illərdən bəri müəyyənləşmiş istiqamətdə, yəni köhnə qayda ilə inkişaf edirdi. Bu isə xarici kapitaldan Türkiyənin asılılığını artırırdı. Xarici kapitalistlər yeni dəmiryol konsessiyaları alırdılar. Hökumət, çəkilən hər bir kilometr yol üçün onlara gəlir təminatı verirdi və beləliklə, nəticədə kəndlilərdən alınan bir sıra vergi gəlirləri konsessiya sahiblərinin ixtiyarına keçirdi.

Ölkənin maliyyə vəziyyəti getdikcə pisləşirdi. Dövlətin məxarici mədaxilindən çox idi. Büdcə gəlirlərinin böyük bir hissəsi ordu saxlanılmasına və saray xərclərinə sərf olunur, borcların ödənilməsinə sərf edilirdi. Odur ki, daxili xərcləri ödəmək üçün hökumət xaricdən tez-tez borc almağa başladı. 1854-cü ildən 1869-cu ilədək olan qısa müddətdə Türkiyənin borcu böyük məbləğə - 2 milyard 391 milyon franka çatmışdı. Bu məbləğdən yalnız 1.533 milyon frank Türkiyə dövlətinin ehtiyat fonduna daxil olmuşdu. Türk tarixçilərinin dediyi kimi "Xalqın soyulması hesabına müəmmalı maliyyə fırıldaqları var idi".

Türkiyənin maliyyə çətinliklərindən istifadə edən xarici kapitalistlər onu getdikcə daha çox özlərinə tabe edir və Türkiyədən yeni-yeni imtiyazlar qoparırdılar. Bu imtiyazlardan biri xüsusi Osmanlı bankının 1863-cü ildə dövlət bankı hüququna malik olan maliyyə orqanına çevrilməsi idi. Osmanlı bankına kağız pul buraxmaq, dövlət adından borclar almaq və s. hüquqlar verilmişdi. Bununla yanaşı 1864-1868-ci illərdə Türkiyədə yeni xarici banklar açıldı ki, bu da ölkənin daha da böhrana sürüklənməsinə xidmət edirdi. Nəticədə bank oliqarxiyası ilə maliyyə oliqarxiyasının birləşməsi prosesi yaxınlaşmaqda idi ki, bu da təhlükəli iş idi.

Əlbəttə, yeni təfəkkürlü burjua və mülkədar təbəqələri, həmçinin xarici kapitalistlər Türkiyədə inzibati idarə işlərinin qaydaya salınmasına, özbaşınalığın aradan qaldırılmasına, ticarət və digər kapitalist fəaliyyəti üçün əlverişli şərait yaradılmasına ehtiyacı bəyan etsələr də, hakimiyyət irəli sürülən təklifləri sanki eşitmirdi. Bu da ölkəni gələcək fəlakətlərə sürükləyirdi. Bu səbəbdən sultan hökuməti özünü yeni şəraitə uyğunlaşdıraraq 1860-cı ildə ticarət məhkəmələri yara-

dılması haqqında fərman verdi və bu işləri ruhanilərin səlahiyyətindən kənarlaşdırdı. Eyni zamanda 1864, 1867 və 1871-ci illərdə Fransa inzibati idarəçiliyinə oxşar inzibati islahatlar keçirildi.

Əslində bütün bu islahatların olduqca az əhəmiyyəti var idi. Yalnız adı dəyişmiş satraplar (hakimlər və valilər) əvvəlki kimi özbaşınalıq edirdilər, müsəlmanlarla müsəlman olmayanlar arasında məzlumlarla dilənçilər arasında heç bir bərabərlik yox idi. İslahatlardan isə xarici kapitalistlər və yerli burjuaziya ən çox xeyir görür və daha geniş imtiyazlara sahib olurdular.

## Ölkədə daxili zidiyyətlərin artması, Krım müharibəsindən sonra müstəmləkə ərazilərində milli azadlıq hərəkatı

Krım müharibəsindən sonra ölkədə narazılıq qüvvətlənirdi. Xalq kütlələri öz vəziyyətinin pisləşməsindən narazı idilər. 50-60-cı illərin yarımçıq, həm də çox pis həyata keçirilən islahatları hətta mülkədar-burjua təbəqələrini də qane etmirdi. Bir sıra yerlərdə ağır vergilərə qarşı pərakəndə kəndli üsyanları baş verirdi. Türkiyənin tarixindən bəhs edən tarixi ədəbiyyatlarda məzlum xalqlar ifadəsi tez-tez işlədilir. Ən başlıcası isə sultan hakimiyyətinə müxalif olan qüvvələr "məzlum xalqlar" adlandırılan xalqların adlarından istifadə edirdilər. Rusiyada nəşr olunan kitablar da məhz belə mənbələrdən bəhrələnirdilər. Türk tarixçisi Bilge Ç. məzlum xalqlar ifadəsinə münasibət bildirərək deyirdi ki, bu diyarda məzlum xalq deyəndə qeyri müsəımanlar nəzərdə tutulur. Daha başa düşmürlər ki, Sultanın ailəsindən və qohumlarından başqa hamı məzlumdur.

Əlbəttə, hakimiyyətin təbəqələr arasında fərq qoyması, imtiyazlı şəxslərin hədsiz səlahiyyətlərə malik olmaları, əhalinin yoxsul təbəqələrinin hüquqsuzluğu və daha da yoxsullaşması məzlum xalqların və təbəqələrin mübarizəsini xüsusilə genişləndirirdi. Xüsusilə xristianların azad cəmiyyət mübarizəsi hərəkata çevrilməkdə idi. Bu hərəkat Türkiyənin əsarətindən tamamilə azad olmaq və öz milli hökumətlərini yaratmaq uğrunda ümummilli mübarizə səviyyəsinə yüksəldi. Bu mübarizənin hegemonu milli, başlıca olaraq ticarət bur-

juaziyası, ideoloji rəhbəri milli ziyalılar, əsas hərəkətverici qüvvəsi kəndlilər, habelə şəhər zəhmətkeşləri və başlıca olaraq sənətkarlar idi. "Məzlum" xalqların mübarizəsində iki cərəyan, Türkiyə əsarətinə qarşı milli-azadlıq uğrunda mübarizə və türk mülkədarlarının - feodal və yarımfeodalların zülmündən azad olmaq uğrunda kəndlilərin ictimai mübarizəsi birləşirdi ki, bu da gələcəkdə ümumölkə miqyasına çevrilə bilərdi.

Türkiyədə milli-azadlıq hərəkatının və istismara qarşı mübarizənin bir səbəbi də, Krım müharibəsindən sonra Balkan xalqları ilə Avropa ölkələrinin iqtisadi və ideoloji əlaqələrinin artması idi. Balkan xalqları içərisində Avropanın qabaqcıl ideyalarının, o cümlədən Gertsen və Çernışevski ideyalarının böyük təsiri var idi və bu təsir sultan hökumətini narahat edirdi.

Balkanlarda türk ağalarının vəziyyəti getdikcə çətinləşirdi. Balkan ölkələrinin ümumi əhalisi içərisində türklərin sayı dönmədən azalmaq istiqamətində dəyişirdi, yəni türklər bu yerləri məcburən tərk edirdilər.

Krım müharibəsindən sonra Balkanlarda baş verən proseslərə münasibət bildirən K.Marks göstərirdi ki: "On iki milyon slavyan, yunan, valax, arnaut (alban-red) bir milyon türkün tabeliyindədir", "türklərin Avropada olması Frakiya-İlliriya yarımadasının malik olduğu bütün ehtiyatların inkişaf etdirilməsi üçün ciddi maneədir"[1]. K.Marksın antitürk mövqeyi başa düşüləndir. Ona görə ki, o da avropalılar mövqeyindən çıxış edən yəhudi ziyalısı idi, amma onun irəli sürdüyü fikirlər faktlara söykəndiyinə görə obyektivliyinə də yaxın idi.

Bununla yanaşı, türklərin Balkanlarda hakim mövqe tutmasından qeyzlənən Marks Avropa dövlətlərinin, Rusiyanın Balkanlardakı siyasətinə obyektiv münasibət bəsləməməsi aydındır. Bu qapalı fikrin açıqlaması isə ondan ibarətdie ki, Avropa dövlətlərinin, həmçinin Rusiyanın Balkanlardakı maraqları heç də Türkiyənin maraqlarından az deyildi. Balkan yarımadasının xalqları getdikcə daha artıq qətiyyətlə Türkiyə əsarətini həmişəlik olaraq öz üzərindən atmağa çalışırdı. Serblər 1862-ci ildə yenidən mübarizəyə qalxdı və 1867-ci ildə türkləri serb torpaqlarından çıxıb getməyə məcbur etdi-

[1] [1] K.Marks və F.Engels. Əsərləri, 9-cu cild, səh 5,6.

lər. Bosniya və Hertsoqovina kəndliləri təhkimçilik zülmünə qarşı 1860-1862-ci illərdə yenidən üsyan qaldırdılar. Moldaviya və Valaxiya knyazlıqlarından 1861-ci ildə Rumınya dövləti yarandı. 1866-cı ildə Krit adasında yunanların böyük bir üsyanı baş verdi. Üsyançılar Yunanıstanla birləşməyə çalışırdılar.

XIX əsrin 60-cı illərində bolqar xalqının milli azadlıq hərəkatı yeni yüksəliş dövrü keçirirdi. Bu hərəkat gedişində Xristo Botev, Qriqori Rakovski, Vasil Levski kimi görkəmli rəhbərlər formalaşdılar.

Dunay vilayətinin (Dunay vilayəti "Bolqarıstan" adının özünü yer üzərindən silmək məqsədilə quraşdırılmışdı) valisi (qubernatoru) Midhət paşa bolqar milli-azadlıq hərəkatına qarşı şiddətli mübarizə aparırdı. Bununla bərabər o başa düşürdü ki, köhnə, açıq zorakılıq vasitəsilə türklərin hakimiyyətini burada möhkəmləndirmək mümkün deyil. Buna görə də o, əhalinin rəğbətini qazanmağa çalışırdı. O, yollar çəkdirir, sənayeyə, ticarətə, təhsil işinə himayəçilik edir, bolqar varlılarını inzibati idarə işinə cəlb edir, kənd təsərrüfatı kredit xəzinələri yaradırdı. Lakin Midhət paşanın ikili siyasəti milli-azadlıq hərəkatının qanunauyğun inkişafını dayandıra bilmədi.

Türkiyə əsarətinə qarşı mübarizə imperiyanın şərqindəki bir çox məzlum xalqları da bürüdü. 1858-ci ildə Livanda üsyan baş verdi və xarici müdaxilə ilə nəticələndi (1861-ci il). Nəticə etibarilə Livanın idarə olunmasına dair xüsusi qaydalar qəbul edildi ki, qaydalara əsasən Livana qismən muxtariyyət verirdi. 1862-ci ildə Zeytun şəhəri rayonunda ermənilər üsyan etdi. Ermənilərin bu üsyanı imperiyanın erməni əhalisi içərisində və imperiyadan xaricdə özünə dayaq tapmadı. Ermənilər isitisna olmaq şərtilə "Məzlum" xalqlar içərisində azadlıq hərəkatının və türk xalqının öz içərisində narazılığın artması Osmanlı imperiyasının yeni siyasi böhran mərhələsinə daxil olduğunu göstərirdi.

## Konstitusiyaçılıq hərəkatının formalaşması

İmperiya ərazisində baş qaldırmış narazılıqlar onsuz da beynəlxalq münasibətlər sistemində təklənməkdə olan Tür-

kiyə üçün əlavə problemlər yaradırdı. Odur ki, belə bir vəziyyət o dövrdəki Türkiyə ictimai dairələrində dərin həyəcan doğurdu. İctimaiyyətin müxtəlif təbəqələri bu hadisələrə müxtəlif münasibət bəsləyirdi. İrticaçı mühafizəkarlar bütün fəlakətlərin əsas səbəblərini islahatlarda görürdü. Çünki bu islahatlar onların fikrincə "kafir-xristianları" fəallaşdırmaqdan təqlid etməkdən başqa bir şey deyildi. Bunun əksinə olaraq radikal-liberal təbəqələr qəbul edilmiş islahatları olduqca məhdud və imperiyanın dağılmasının qarşısını almaq üçün qeyri-kafi hesab edirdilər. Bir qədər sonra radikal-liberallar içərisindən bir cərəyan yetişdi ki, bu da yeganə nicat yolunu konstitusiyalı-parlamentar monarxiya yaradılması tələbini irəli sürürdü. Bu cərəyanın tərəfdarları zabitlərdən, yeni yetişmiş gənclərdən, məmurlar içərisindən çıxmış demokratik fikirli şəxslərdən, müxtəlif aşağı təbəqələrin nümayəndələrindən və hətta bəzi əyanlar içərisindən çıxmış vətəndaşlardan ibarət idi. Bu cərəyanın əsas nümayəndələri burjuaziya sinfinə mənsub deyildisə də, hər halda həmin cərəyan yetişməkdə olan türk burjuaziyasının mənafeyini ifadə edirdi. Yəni bu cərəyanın fəaliyyəti sinfi xarakter daşıyırdı.

Bu cərəyanın fəaliyyətində əvvəllər mütərəqqilik, yəni maarifçilik ideyaları güclü idi. Hərəkatın əsas nümayəndələri eyni zamanda istedadlı yazıçılar idi. Onlar milli türk ədəbiyyatı yaradılması, türk dilinin təmizliyi, ölkədə elmi biliklərin yayılması uğrunda mübarizə aparırdılar. İlk vaxtlarda bu cərəyanın nümayəndələri 1860-cı ildə təsis olunmuş "Tərcüma-ni-əhval" qəzeti ətrafında birləşmişdilər. Qəzetin ilhamçısı və yeni cərəyanın ən görkəmli nümayəndəsi ədib və alim İbrahim Şinasi idi. Sıravi bir zabit oğlu olan İbrahim Şinasi Fransada 1848-ci il inqilabında iştirak etmiş Mustafa Rəşid paşanın qəzetinin əməkdaşı olmuşdu.

Bir qədər sonra Şinasi "Təsviri əfkar" adlı öz xüsusi qəzetini yaratdı. Qəzet redaksiyası İstanbulun ən mütərəqqi nümayəndələrini, vətənpərvər ziyalıları öz ətrafında birləşdirərək mütərəqqi amalları reallaşdıran bir mərkəzə çevrilmişdi. Əski türklər adlanan mühafizkarlardan fərqli olaraq, islahat tərəfdarları özlərini gənc türklər və ya yeni osmanlılar adlandırırdı.

Yeni osmanlıların ən görkəmli nümayəndəsi, məmur ailəsində anadan olmuş Namiq Kamal idi. O, şair, dramaturq, publisist və siyasi xadim idi. Çox keçmədən yeni osmanlıların maarifçilik fəaliyyəti böyüyüb mövcud rejimi tənqid etmək, sarayın özbaşınalığına, istibdada, israfçılığa qarşı, bu bəlaların müqəssirləri və təşkilatçılarına qarşı mübarizəyə çevrildi. Yeniliyi, elmi tərəqqini qəbul etmək istəməyən istismarçıların və tacirlərin keçmiş mürtəce ruhlu qalıqlar bu gənclərə qarşı çıxdılar və yeni osmanlıları təqib etməyə başladılar. Buna görə də yeni osmanlılar gizli cəmiyyət yaratdılar. Bu gizli cəmiyyətin təşkilatçıları içərisində İbrahim Şinasi və Namiq Kamaldan başqa iri məmur və ədib Ziya bəyi, Krım müharibəsi zamanı ordunun baş komandanı olmuş Ömər paşanı və başqalarını göstərmək olar. Gizli cəmiyyətin 245 üzvü var idi.

Cəmiyyətin əsas tələbi konstitusiyalı monarxiya yaratmaq idi. Cəmiyyətin rəhbərləri öz tələblərini Qurana istinadla əsaslandırırdılar. Yeni osmanlılar hətta sultan Əbdüləzizə qarşı sui-qəsd də hazırlamışdılar. Lakin xəyanət nəticəsində bu qəsdin üstü açıldı. Yeni osmanlıların rəhbərləri Parisə və Londona qaçdılar. Onlar mühacirətdə "Hürriyyət" ("Azadlıq"), "Müxbir" və başqa qəzetləri dərc etməklə özlərinin məcburi mühacirətlərinin mahiyyətini, Türkiyənin demokratik bir ölkə olmasının vacibliyini, Avropaya inteqrasiya yolları və onun vacibliyini yazırdılar. Həmin qəzetlər gizli surətdə Türkiyəyə gətirilir və burada geniş yayılırdı. Xalq hökumət qəzetlərindən çox onlara nicat vermək istəyən bu gənclərin qəzetlərini oxuyurdu.

Nəhayət, yeni osmanlılar hərəkatı Türkiyənin həyatında mütərəqqi hadisə və onun siyasi inkişafı yolunda diqqətəlayiq bir mərhələ oldu. Lakin hər bir milli hərəkatda olduğu kimi "Yeni Osmanlıların"da çatışmazlıqları çox idi. Məsələn, həmin hərəkat kütlələrdən və onların mənafeyindən uzaq idi ki, bu amil də onların ən böyük nöqsanlarından idi. Yeni osmanlılar aşağı təbəqədən, yoxsullardan uzaq olduğuna görə yeni osmanlılar hərəkatı imperiyanın məzlum xalqlarının milli-azadlıq hərəkatına yabançı idi. Yeni osmanlılar hərəkatındakı bu irticaçı cəhət onu məzlum xalqların və əzilən təbəqələrin

güclü hərəkatından uzaqlaşdırıb, zəifledirdi. Bütün bunların hamısı təkcə hərəkatın özünə deyil, həmçinin Türkiyənin müqəddəratına da mənfi təsir göstərirdi. Amma Türkiyənin vətənpərvər övladlarının tənqidi çıxışları mütərəqqi hadisə idi. Onların bu çıxışları vətənpərvərlikdən irəli gəlirdi və təbii xarakter daşıyırdı. ən başlıcası isə "Gənc Osmanlılar" öz xalqını cəhalətdən, istismardan, təhkimçilik əzablarından qurtuluşa çıxarmağa gəlmişdilər.

## Mədəniyyət

Orta əsrlərdə islam dininin təsiri Türkiyənin mədəni inkişafını olduqca ləngidirdi. Türkiyə yalnız feodal dövləti deyil, həm də feodal-teokratik dövlət olduğundan islam dini ölkədə həyatın bütün sahələrinə böyük təsir göstərirdi. Bütün dini ehkamlar dövlət qanunu hesab edilirdi. Dövlət qanunları Osmanlı imperiyasında ən yüksək dini başçı hesab olunan yalnız şeyxülislamın təsvibindən sonra qüvvəyə minirdi, yəni hakimiyyətdən də güclü molla hökmranlığı mövcud idi.

İdeologiya sahəsində təhrif olunmuş islam ayinləri əzilən təbəqələrə xüsusilə mənfi təsir göstərirdi. Maarif işi, bütünlüklə ruhanilərin ixtiyarında idi. Savadlı adamların sayı çox az idi. Elm yox dərəcəsində idi. Yalnız şəriət qanunları hökm sürürdü. Tarix, başlıca olaraq rəsmi tarixçilərin əsərlərindən ibarət idi. İslam, canlı aləmin rəsmi təsvirini qadağan etdiyindən təsviri incəsənətin inkişafı ləngiyirdi. İslam Osmanlı imperiyasını Qərb ölkələrinin mədəni təsirindən uzaqlaşdırırdı, çünki islam dininə görə bütün xristian dövlətlər düşmən hesab olunur və bu ölkələrdən müəyyən bir şeyin iqtibas edilməsi fikri belə mürtədli sayılırdı.

XIX əsrdə islam dini və müsəlman ruhanilərinin Türkiyədə böyük nüfuzu qalmaqda idi. Türkiyə teokratik dövlət olaraq qalırdı. Lakin Türkiyədə yaranmış olan yeni şəraitdə mədəniyyət sahəsində müəyyən tərəqqi də var idi. Mədəni tərəqqi yolundakı hər bir addım fanatizm ideyaları ilə silahlanmış ruhanilərə qarşı şiddətli mübarizə bahasına başa gəlirdi. Ruhanilər daim hər bir yeniliyə qarşı çıxır, elm və mədəniyyət adamlarına qarşı qəsdlər düzəldilirdi.

Müxtəlif məhdudiyyətlərə və antimaarifçiliyə baxmayaraq Türkiyədə ilk yenilik maarif sahəsində oldu. Hələ sultan III Səlimin dövründə əsası qoyulmuş, lakin II Mahmudun dövründə həyata keçirilən hərbi islahatlar təhsil almış zabit, həkim, mühəndislər və digər mütəxəssislərin olmasını tələb edirdi. Bu tələbat ilk növbədə bir sıra ali hərbi məktəblər açılmasına səbəb oldu. 1826-cı ildə ali tibb məktəbi yaradıldı. Avropa ölkələri ilə əlaqələrin möhkəmlənməsi həmin ölkələrin Türkiyəyə mədəni təsirinin artmasına səbəb oldu.

Nəhayət, XIX əsrin 40-cı illərində məktəb islahatı keçirildi. İslahat dünyəvi ibtidai, orta və ali məktəblər açılmasını nəzərdə tuturdu. Dünyəvi məktəblərə rəhbərlik işi, bu məqsədlə təşkil olunmuş maarif nazirliyinə tapşırıldı. Beləliklə, Türkiyədə maarif islahatı müsbət nəticələrini verdi. 1861-ci ildə Türkiyədə 15 mindən artıq ibtidai məktəb var idi. Orta məktəblər tək-tək idi. Paralel olaraq məscidlər yanındakı bütün məktəblər saxlanılmışdı və təəssüf ki, xalq maarifi əslində əvvəlki kimi yenə də ruhanilərin əlində idi. Çünki cəmiyyətin ideoloqu olan xalqı cəhalətdən, fanatizmdən qurtarmağa qadir olan alim, müəllim çatışmırdı.

Türkiyədə xurafata qarşı mübarizə aparan xalqa əsl həqiqəti söyləyən ziyalılar təqib olunurdu. Bu dövrdə ərəb ölkələrindən gəlmiş missionerlər maarifçiliyə qarşı mübariəyə çoxlu vəsait sərf edirdilər. Amma, ölkədə mətbuat tədricən mədəni inkişafın mühüm amilinə çevrilirdi. İlk qəzet 1825-ci ildə İzmirdə, lakin fransız dilində çıxmağa başladı. Türk dilində isə ilk qəzet 1832-ci ildə çıxdı ("Təqvimi vəqai" "Hadisələr jurnalı"). Bu qəzet rəsmi orqan olub, əsas etibarilə hökumət sərəncamlarını çap edirdi. Lakin zaman keçdikcə qəzetlərin sayı çoxalırdı və XIX əsrin 70-ci illərinin əvvəlində Türkiyədə artıq 47 qəzet və jurnal nəşr olunurdu ki, bunlardan 13-ü türk dilində, qalanları isə yunan, erməni, ərəb, bolqar, fransız və başqa dillərdə buraxılırdı. Qəzetlər beynəlxalq və daxili hadisələri işıqlandırır və müxtəlif ictimai mövzularda məqalələr, həmçinin ədəbi əsərlər də dərc edirdi. Yeni osmanlıların qəzetləri siyasi və mədəni-maarif sahəsində xüsusilə böyük rol oynayırdı. Kitab nəşri inkişaf edirdi və türk dilində ilk kitab Türkiyədə hələ 1728-ci ildə çap edilmişdi.

Nəzərdən keçirilən dövrdə yeni bədii ədəbiyyat keçmişdə demək olar ki, əsla inkişaf etməmişdi. Şərq poeziyasının klassik nümunələrindən bəhrələnərək nəzm, dramaturgiya və digər bədii yaradıcılıq növü yaranırdı. Yeni roman və pyeslər bir çox hallarda məzmunca vətənpərvərlik ruhunda yazılırdı. Humanizm prinsiplərinə əsaslanan əsərlər cəmiyyətin bütün üzvlərinin azad olması, konstitusiya hüququna malik olması bədii şəkildə öz əksini tapırdı və bunlar həmçinin ölkədə bərabərlik ideyalarını təbliğ edən əsərlər idi. O dövrün ədəbiyyatına yenilik gətirən ən görkəmli türk yazıçıları İbrahim Şinasi, Namiq Kamal, Ziya paşa və başqaları idi. Belə mütəfəkkirlərin əsərləri tərbiyəvi əhəmiyyətə malik idi.

Yeni ədəbiyyata Qərb, xüsusilə fransız ədəbiyyatı böyük təsir göstərirdi. Türkiyədə fransız klassikləri Molyer, Russo, V.Hüqo və başqalarının əsərləri tərcümə edilib yayılırdı. Eyni zamanda fransız dilindən boş əyləncəli romanlar da tərcümə edilir və təbliğ olunurdu.

İctimai-siyasi həyatın inkişafı, dövri mətbuatın, yeni ədəbiyyatın yaranması ədəbi dilin inkişaf etdirilməsini, onun danışıq dilinə yaxınlaşdırılmasını tələb edirdi. Türk dilinin islahatçıları içərisində də İbrahim Şinasi və Namiq Kamal aparıcı mövqe tuturdular.

Teatr sənəti sahəsində də yenilik nümunələri meydana çıxmağa başlayırdı. 1859-cu ildə ilk daimi dram teatrı açıldı. Burada türk müəlliflərinin və xarici müəlliflərin mütərəqqi pyesləri tamaşaya qoyulurdu. Qadın rollarını erməni aktrisaları oynayırdılar. Əlbəttə, ölkədə mövcud olan idarəçilik sistemi feodal-teokratik rejim, bütün qalan sahələr kimi mədəniyyətin əksər sahəsinin də inkişafını ləngidirdi.

Bu dövrdə dünya poeziyasının korifeyi Nizami Gəncəvi, Ə.Xaqani, İ.Nəsimi, M.Füzuli, M.Ş.Vazeh. M.Ə.Sabir, M.F.Axundzadə kimi klassiklər türk xalqı tərəfindən sevilərək oxunurdu. Azərbaycanın görkəmli mütəfəkkirləri dünya səviyyəli klassiklər kimi qəbul olunduqlarına görə, həmçinin türk dünyasının klassikləri rolunu oynamış, Azəri xalqının dünyaya bəxş etdiyi dühalar kimi qəbul edilmişdi.

# ƏRƏBLƏR VƏ ƏRƏB İSTİLALARI

Ərəblər əsasən Qərbi Asiya və Şimali Afrikanın Ərəb ölkələrində məsgunlaşmışlar. Ərəblər Suriya, Livan, İraq, İordaniya, Səudiyyə Ərəbistanı, Yəmən Ərəb Respublikası, Yəmən Xalq Demokratik Respublikası, Oman, Küveyt, Bəhreyn, Qətər, MƏR, Liviya, Tunis, Əlcəzair, Mərakeş, Birləşmiş Ərəb Əmirlikləri, Mavritaniya, eləcə də Sudan və Fələstin vətəndaşı olduqları ölkələrdə əhalinin əksəriyyətini təşkil etməklə iqtisadi, siyasi və ərazi birliyinə nail olmaqla beynəlxalq hüququn subyektinə çevrilmişlər.

Ərəblər yuxarıda sadalanan ölkələrlə yanaşı İran, Türkiyə, Əfqanıstan, İsrail, İndoneziya, Efiopiya, Somali, ÇAD Respublikası, Tanzaniya, Şərqi Afrikanın digər ölkələrində, həmçinin Şimali və Cənubi Amerikada, Fransada və başqa dövlətlərin ərazilərində yaşayırlar.

Ehtimala görə ərəb xalqının təşəkkülündə qədim sami tayfaları əsas rol oynamışdır. Sami tayfaları hələ e.ə. 2-ci minillikdə Ərəbistan yarımadasında yaşayırdılar. Nəhayət, 1-ci minillikdə Palmira (Tadmor) dövlətləri təşəkkül tapdı. Eramızın V-VI əsrlərində isə Şimali Ərəbistanda Hasan Ləhm, Mərkəzi Ərəbistanda isə Kinda və başqa ərəb dövlətləri meydana gəldi. Həmçinin bu dövrdə vahid ərəb xalqının formalaşması prosesi də davam edirdi və tayfa quruluşu dağılma mərhələsində olsa da, qədim patriarxal qəbilə münasibətləri və tayfa əlaqələri uzun müddət davam etməkdə idi. Bu xüsusiyyət köçəri və yarımoturaq əhali arasında daha çox müşahidə olunurdu.

VII əsrin birinci yarısında islam dininin yaranması və ərəb işğallarının başlanması nəticəsində ərəblərin qonşu ölkələrə axını sürətləndi.

Ərəblərin dövlətinin yaradılmasında bütün Ərəb dünyası Məhəmmədə (570-632) borcludur. Ona görə ki, səhra həyat şəraitində köçəri bədəvi ərəbləri islam bayrağı altında birləşdirərək dövlətin ideya əsasının qoyulması Məhəmmədə məx-

susdur. İlk xəlifə Əbu Bəkr (632-634) bilavasitə kürəkəni Məhəmmədin xeyir-duası ilə xəlifə olmuşdu. Məhəmmədin qayınatası Əbu Bəkr 572-ci ildə Məkkədə anadan olmuş və tacir idi. O, qureyşlər tayfasından olmaqla islam dinini ilk qəbul edənlərdən idi. İlk xəlifə olan Əbu Bəkr (572-634) zəkat verməк istəməyən bədəvilərin, yalançı peyğəmbərlərin üsyanlarını yatırmaqla Ərəbistanda separatçılığa son qoydu. O, 633-cü ildə Sasanilərə, 634-cü ildə Bizansa qarşı qoşun göndərmişdi. Bəhreyn,Ümman, Hadramaut, Yəmən, Suriya və İran bilavasitə Əbu Bəkrin istila layihəsinə əsasən tutulmuşdu. O, 23 avqust 634-cü ildə vəfat edərək Məhəmmədin yanında dəfn edilmişdir. Ərəb istilaları Yaxın və Orta Şərqdə, Şimali Afrikada və Cənub-qərbi Avropa ərazilərinin zorla xilafətə birləşdirilməsi və islam bayrağı altında aparılan bu ekspansiya Ömərin (634-644), Osmanın (644-656) hakimiyyətləri dövrünə təsadüf edir. 633-cü ildə Xalid ibn Əl-Validin qoşunları şimal-şərqi Ərəbistanın bədəviləri ilə birlikdə Cənubi İraqı işğal etdilər. Bu dövrdə Bizans bir qədər zəifləmişdi. Bundan istifadə edən ərəblər Ölü dənizinin cənubunda, Vadi əl-Ərəbdə, 634-cü ilin fevralında isə Dasində Bizans hərbi qüvvələrini darmadağın etdilər. 634-640-cı illərdə ərəblər bütün Suriya və Fələstini işğal edərək Xilafətin tərkibinə qatdılar. 640-641-ci illərdə ərəblər ciddi müqavimətə rast gəlmədən Misiri işğal etdilər. Ərəblər 641-ci ildə Yuxarı Mesopotamiya, 642-ci ildə Nəhavənd yaxınlığında İran qoşunları üzərində qələbədən sonra İranı işğal edərək Sasanilərin bütün ərazisi (Amudərya çayınadək) xilafətin tərkibinə qatıldı. Bununla yanaşı 642-ci ildə döyüşsüz, yəni müqavilə əsasında İsgəndəriyyənin, Kirenaika, 643-cü ildə Liviya zəbt edildi. Ərəblər 644-645-ci illərdə Hindistan sərhədlərinə yaxınlaşdılar. 647-ci ildə ərəblər Afrikadakı Bizans torpaqlarını, o cümlədən Məğrib ölkələrini, indiki Tunisi, Əlcəzairi və Mərakeşi işğal etdilər. Bu işğallar nəticəsində Bizansın Asiya və Afrikadakı torpaqlarının $^2/_3$ hissəsi ərəblərin əlinə keçdi.

Ərəb işğalçılarına qarşı Cənubi Qafqazda xalq azadlıq hərəkatı yeni mərhələyə daxil oldu. 650-ci ildə Azərbaycanın

cənubunda ərəblərə qarşı mübarizə geniş və əhatəli oldu. Üsyanın yatırılması üçün 654-cü ildə ərəblərin ən qəddar sərkədələrindən biri olan Salman ibn Kəbiənin komandanlığı altında ərəb ordusu xalqın müqavimətini qıraraq Təbriz, Bərdə, Beyləqan əhalisini qılıncdan keçirsələr də, Azəristanı ərəblər tamamilə işğal edə bilmədilər. VII əsrin sonu, VIII əsrin əvvəllərində ərəblərin işğalının ikinci mərhələsi başlandı. Bu dövrdə ərəblərin əsas dayaq məntəqəsi Qaruvan idi. Nəhayət, VIII əsrin 30-cu illərində ərəblər Zaqafqaziya, Orta Asiya, Şərqi İran, Şimali Afrika və Kiçik Asiyada istilalarını davam etdirərək Avropaya çatdılar. 709-cu ildə ərəblər Atlantik okeanı sahillərinə çıxdılar. Eyni zamanda 711-ci ildə 7300 nəfərlik ərəb ordusu Priney yarımadasını, 712-ci ildə isə ərəblər Mədinə Sideniyanı, Kormonanı, Seviliyanı, Meridi işğal etdilər.

Digər ölkələrdə olduğu kimi ərəblər Azəristanda da vəhşiliklər törətmiş, alçaldıcı vergi siyasəti tətbiq etmişdilər. Ərəblər siyahıyaalma kompaniyası başa çatdıqdan sonra vergini verə bilməyən əhaliyə qarşı amansız tədbirlər görürdülər. Belə tədbirlərdən biri 9-13 yaşında sarışın, ağbəniz, uzun kiprikli azəri qızlarının zorla Ərəbistana aparılması idi. Akademik Ziya Bünyadovun və tarixçi alim Mahmud İsmayılovun məlumatlarına istinad edərək nəzərə çatdırırıq ki, bu məqsədlə ərəblər Azəristandan ildə 2 min nəfər azyaşlı qız uşaqlarını zorla Ərəbistana aparırlarmış.

Əlbəttə, xalqımız heç də ərəb işğallarını və zülmünü sükunətlə qarşılamamışdır. Özünün milli qəhrəmanları olan Cavidan, Babək və başqa vətənpərvər oğullarının rəhbərliyi altında inadlı mübarizə aparmışdır. Nəhayət, dünyada baş verən hadisələr, yeni istilaçıların peyda olması və fasiləsiz azadlıq mübarizəsi nəticəsində Orta Asiyada, İranda, Zaqafqaziyada, Priney yarımadasında ərəb hökmranlığına son qoyuldu.

Ərəb istilasına və zülmünə qarşı 807-ci ildə Azərbaycanda başlanmış Xürrəmilər hərəkatı məşhur sərkərdə Cavidanın adı ilə bağlıdır. O, 816-cı ildə qonşu feodal Əbu İmranla döyüşdə hlak oldu.

816-838-ci illəri əhatə edən Babək hərəkatı zamanı, Xürrəmilər hərəkatı dövründə Bizansla müharibələrdə şöhrət

qazanmış Afşin heydən ibn Kavuş Babəkə qarşı göndərildi. Cəfər Xəyyat və İtax Təbbax kimi məşhur ərəb sərkərdələri xeyli canlı qüvvə və 30 milyon dirhəm pulla Afşinin köməyinə gəldilər. Bütün bunlara baxmayaraq, Babək Xilafətin 6 ordusunu darmadağın etdi, 500 min əsgərini və 6 məşhur sərkərdəsini məhv etmişdi. Nəhayət, xəyanət nəticəsində 838-ci ilin yanvarında əsir gtürüldü və 838-ci il martın 14-də Samirə şəhərində xəlifə Mötəsimin əmri ilə edam edildi.

Xatırladılması zərurdir ki, ərəb işğallarının ilk mərhələlərində ərəblər siyasi cəhətdən yetgin olmayan, məhdud dünyagörüşlü adamları maddi cəhətdən həvəsləndirə bilirdilər. Avesta kitabını evlərdən yığaraq onu yandırır, məhv edirdilər. Bəzən Avesta kitabı dəvə və köşəklə dəyişdirilirdi. Bununla da 2500 illik tarixə malik olan ideya mənbəyi məhv edilirdi. Odur ki, xalqların milli sərvətini məhv edən ərəblərin özlərinin mənəvi sərvətləri də pərakəndə halına düşdü.

Beləliklə, silah gücünə yaradılmış Xilafət X əsrdə parçalandı. XVI əsrdə Ön Asiyanın (Ərəbistan yarımadasının bir hissəsindən başqa) və Şimali Afrikanın (Mərakeşdən başqa) ərəb ölkələri Osmanlı imperiyasının tərkibinə qatıldı. Xatırladaq ki, XV əsrdən başlayaraq ərəb ölkələrinin istilası uğrunda Osmanlı imperiyası ilə Avropa dövlətləri arasında rəqabət başlamışdı. XV əsrin sonu XVI əsrin əvvəllərində Mərakeşin bir hissəsi Portuqaliya tərəfindən işğal edilmişdi. Daha sonra ərəb ölkələrinə qarşı İngiltərənin, Fransanın, İtaliyanın, İspaniyanın və digər müstəmləkəçi dövlətlərin ekspansiya siyasəti gücləndi. Vaxtilə öz istilaları ilə dünyaya səs salan ərəblər və ərəb ölkələri Avropa dövlətlərinin, eləcə də Osmanlı imperiyasının müstəmləkə obyektinə çevrildi. Yeni dövrün başlanğıcında dünyanın nəhəng imperiyalarının geniş müstəmləkə əraziləri ərəb ölkələrinə məxsus idi. Lakin qan və rəzalət üzərində qurulmuş imperiyaların süqutunun labüdlüyünü dərk edən hər bir insan tam yəqinliyi ilə dərk edirdi ki, zaman yetişəndə Ərəb imperiyası da süqut edəcəkdir.

## ƏRƏB ÖLKƏLƏRİ

Eramızın VII əsrinə qədər ərəblərin yaşadığı ərazi əsasən Ərəbistan yarımadası ilə məhdud idi. İslam dini yarandıqdan sonra ərəb istilaları dövrü başlandı. Ərəb istilaları demək olar ki, bütün Yaxın Şərqi birləşdirən ərəb xilafətinin yaranmasına səbəb oldu. İstila edilən xalqlardan bir çoxu zorla ərəbləşdirildi. Ərəbləşmə prosesi Atlantik okeanından Hind okeanına qədər ərazini bürüdü.

Əvvəlki səhifədə qeyd edildiyi kimi sonralar ərəb ölkələri parçalanıb əsarət altına alındı və dövlət müstəqilliyini itirdi. XV əsrdən başlanan istilalar nəticəsində XIX-XX əsrlərdə ərəb ölkələri kapitalist dövlətlərinin müstəmləkə siyasəti obyekti olub, imperialistlər arasında bölüşdürüldü.

Hazırda ərəb ölkələrinin azad olması və birləşməsi prosesi getməkdədir.

İndi ərəb ölkələrinin ümumi ərazisi, təxminən 12 milyon kvadrat kilometr, əhalisi isə 300 milyondan çoxdur. Fələstin muxtariyyatının da beynəlxalq hüququn subyektinə çevrildiyini nəzərə alsaq, dünyada 21 ərəb dövləti var. Bi faktdır. Amma danılmaz bir fakt da vardır ki, 300 milyonluq xalqın hələ də birləşə bilməməsi və pərakəndəliyi də fakt olaraq qalır.

## MİSİR

Bəşər sivilizasiyasının erkən formalaşdığı və dünya mədəniyyətinin ilk məsgənlərindən olan qədim Afrikanın şimali-şərqində, Nil çayının aşağı axarında yerləşən Misirdə hələ Paleolit dövründə məsgunlaşma prosesi baş vermişdir. E.ə. 4-cü minillikdə efiopialıların, liviyalıların, samilərin qaynayıb-qarışması nəticəsində misir xalqı yarandı. E.ə. 5-4-cü minilliklərdə isə Fəyyum gölü ətrafında Badari, Amra, Gerze və s. mədəniyyətlər formalaşdı.

Misirdə erkən padşahlıq e.ə. təqribən 3000- 2800 illərdə ilk sülalə hökmranlıq etmişdi. Misirin birinci fironu Harmer (Qədim Misir tarixçisi kahin Manefonun məlumatına görə adı Mina idi) olmuşdur. Orta padşahlıq e.ə. 2050-1750-ci illərə, Yeni padşahlıq e.ə. təq. 1580-1070-ci illərə təsadüf edir. Bununla yanaşı son Liviya və İran dövrü e.ə. təq. 1070-332-ci illər, Yunan-Roma dövrü e.ə. 332 – eramızın 395-ci illəri, 619-cu ildə İran istilası, 639-642-ci illərdə ərəblər tərəfindən işğal edilərək ərəbləşdirildi. Misirdə islamlaşma bir neçə yüz il davam etdi və dünya mədəniyyətinin beşiyi olan bu ölkə zəiflədi, misir mədəniyyəti ərəblər tərəfindən assimilyasiyaya uğradıldı.

## Misir Osmanlı hökmranlığı altında

Türk sultanı I Səlim 1517-ci ildə Misiri zəbt edib, Osmanlı imperiyası tərkibinə daxil etdi. Misiri türk paşası idarə edirdi. Onun hakimiyyətinin əsas dayağı Misirdə yerləşən türk qoşunu idi. Türklər burada geniş inzibati aparat yaratmışdılar və misirlilərin daxili həyatına o qədər də çox qarışmırdılar. Onlar əsasən ölkədən bac-xərac alınması ilə maraqlanırdı. Türk istilaçıları fəth edilmiş ölkədə ictimai münasibətlərə toxunmadılar. XIII əsrin ortalarından Misirdə hökmranlıq edən məmlük feodalları öz torpaqlarını və Misir kəndlilərini, fəllahları hələ də istismar etmək imkanlarını əllərində saxlamışdılar. Osmanlıların hökmranlığı dövründə məmlüklər iki əsas qrupa, bəylərə və sıravi məmlüklərə bölünürdülər. Bəylərin başında şeyx əl-bələd (ölkənin kattası) dururdu. Hər bir bəyin sıravi məmlüklərdən qoşun dəstəsi var idi ki, bunları da onlar çox vaxt Şimali Qafqaz qəbilələrindən və başqa qafqazlılardan təşkil edirdilər və ümumi bir ad "çərkəz" adı ilə deyilən həmin adamları məmlük bəyləri qul kimi satın alırdı. Məmlüklərdə nəsli zadəganlar yox idi. Məmlük bəyləri bacarıqlı sıravi döyüşçülər içərisindən çıxırdı. Bəyin nüfuzu və gücü onun dəstəsinin böyük-kiçikliyindən asılı idi. Adətən hər dəstədə 150-200 məmlük olurdu. Ayrı-ayrı bəylərin dəstələ-

rində minlərlə adam olurdu. XVIII əsrin axırlarında 10-12 min məmlük var idi.

XVIII əsrin birinci yarısında Türkiyənin ümumi tənəzzülü ilə əlaqədar olaraq Misirdəki hakimiyyəti də olduqca zəifləmişdi. Məmlüklər Misirdə hələ 1250-ci ildə hakimiyyəti ələ keçirmiş məmlüklər yenə də bundan istifadə edərək XVIII əsrin ortalarında yenidən öz siyasi hakimiyyətini bərpa etdilər. Lakin onlar 1768-ci ilə qədər açıq şəkildə Türkiyəyə qarşı çıxmağa cürət etmirdilər. Nəhayət, şeyx əl-bələd vəzifəsini ələ keçirən Əli bəy Türkiyəyə bac-xərac verilməsini dayandırdı və mərkəzi Misirdə olmaqla müstəqil dövlət yaratmaq hazırlığına başladı. Türkiyə qarşısında öz mövqeyini möhkəmlətmək üçün Əli bəy Rusiya ilə daha doğrusu, Aralıq dənizindəki rus donanmasının komandanlığı ilə və Cənubi Suriyadakı ərəblərlə əlaqələr yaratdı və gələcək üsyançılarla ittifaqa girdi. Əli bəyin istəkli sərkərdəsi Əbu Dəhabın komandanı olduğu məmlük ordusu 1771-ci ildə Suriyaya daxil oldu. Ərəb üsyançıları ilə birlikdə məmlüklər Dəməşq ətrafında türklərə qalib gəldi və şəhəri tutdular. Bu əsnada bəylər-sərkərdələrə gözlənilmədən əmr verdilər ki, ordu Misirə geri qayıtsın. Bu onunla izah edilir ki, Əbu Dəhab başda olmaqla məmlük feodalları, əsasən ərəb kəndlilərindən ibarət olan Suriya üsyançıları ilə ittifaqdan narazı idilər. Eyni zamanda sərkərdə Əbu Dəhab Əli bəyə qarşı dönük çıxmışdı və Əbu Dəhab 1772-ci ildə Əli bəyi hakimiyyətdən devirdi və onu Misirdən qaçmağa məcbur etdi. Öz hakimiyyətini bərpa etmək təşəbbüsü edən Əli bəy 1773-cü ildə öldürüldü. Üsyanın zəif və müvəffəqiyyətsiz olmasının səbəbi bunda idi ki, Əli bəy yalnız məmlüklərə arxalanırdı. Misirin yerli əhalisi isə hadisələrdə iştirak etmirdi, bunları yalnız kənardan müşahidə edirdilər.

Əbu Dəhab 1775-ci ilin yayına qədər hökmranlıq etdi. O, sultanın ali hakimiyyətini qəbul edib Türkiyəyə yenidən bac-xərac verməyə başladı və daxili məsələlərdə Misirin müstəqilliyini saxladı. Əbu Dəhab vəfat etdikdən sonra məmlük bəyləri içərisində Murad və İbrahim, xüsusilə nüfuzlu idi.

Türkiyə 1786-1787-ci illərdə Misirdə özünün bilavasitə hakimiyyətini bərpa etmək təşəbbüsü göstərdi. Türkiyənin bu səyləri müvəffəqiyyətsizliklə nəticələndi. 1791-ci ildə Murad və İbrahim hakimiyyətə qayıtdılar. Onlar artıq öz aralarında mübarizə aparmayaraq bütün səylərini yerli əhalini soyub qarət etməyə istiqamətləndirmişdilər. Amma ölkədə xarici istila daima güclənməkdə idi və müstəmləkə rejimi bərpa olduqdan sonra xalqın vəziyyəti daha da pisləşdi.

1798-ci ildən etibarən Fransa Misiri işğal etməyə başladı. Amma 1801-ci ildə vəziyyət dəyişdi və Osmanlı hökmranlığı Misirdə yenidən bərpa olundu.

XVIII əsrin axırlarında Misir hələ də iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edirdi. Suvarma sistemi son dərəcə tənəzzül etmişdi. 2-2,5 milyon fəddandan (fəddan 0,42 hektardır) artıq torpaq becərilmirdi. Yayda Nil çayında su azaldıqda Nil vadisinin xeyli hissəsi yarımsəhraya çevrilirdi. Misirdə buğda, arpa, darı və bir az da düyü yetişdirilirdi. Türkiyənin hakimiyyəti dövründə qarğıdalı bitkisi də yayılmağa başlamışdı.

Mülkiyyət növlərinə görə torpaqlar bir neçə kateqoriyaya bölünürdü. Xass torpaqları Türkiyə sultanının mülkiyyəti hesab olunur, paşa və onun məmurları tərəfindən idarə edilirdi. Xass torpaqlarından sonra məmlük bəylərinin çoxlu malikanələri gəlirdi. Misal üçün, 1720-ci ildə İsmayıl bəyin 400 kəndi var idi. Daim hakimiyyət uğrunda mübarizəyə başı qarışan bəylər demək olar ki, heç bir vaxt öz malikanələrində yaşamırdılar. Onlar bu yerləri icarəyə verirdilər. İcarədarlar iltizamçılardan, mültəzimlərdən olurdu. Türkiyənin hökumət orqanları bütün vergilərin yığılmasını iltizama həvalə etmişdi. Mültəzimlərin öz inzibati idarəsi, katibləri, vergi yığan agentləri, keşikçiləri var idi. Əslində onlar yerlərdə imtiyazlı hökumət nümayəndələri idi. Eyni zamanda onlar bəylərin də torpaqlarını icarəyə götürür və zaman keçdikcə nəsli icarədarlara çevrilirdi. Onların nəsli malikanələri olurdu və buradakı torpaqları biyar əməyi ilə becərilirdi, qalan torpaqları isə fəllahlara icarəyə verirdilər. Həm mülkədarlar, həm də iltizamçılar

kəndlilər üzərində böyük hüquqa malik idilər. XVIII əsrin axırlarında 5-6 min mültəzim var idi. Məscidlərin və digər müsəlman dini idarələrin torpaqları vəqf adlanırdı. Bu yerlərin idarəçilərini müsəlman ruhaniləri təyin edirdi. Nəhayət, xüsusi mülkiyyətdə olan mülk yerləri var idi, amma bunlar o qədər də çox deyildi. Belə torpaqların sahibləri isə çoxlu vergi və tədiyələrdən yaxa qurtarmaq üçün öz torpaqlarını vəqfə keçirirdilər.

Misir əhalisinin böyük əksəriyyətini təşkil edən kəndlilər tamamilə hüquqsuz idi. Fəllahın nə torpağa, nə də bunun məhsuluna qarışmaq hüququ yox idi. Kəndlinin istismar dərəcəsi feodalın özbaşınalığından asılı idi. Kəndli rəsmən azad olsa da, əslində feodalların hakimiyyəti altında idi və kəndlilərin hüquqları haqqında qanuna məhəl qoyulmurdu.

Fəllahlarda icma quruluşu qalmaqda idi. Kəndin idarə edilməsi feodal tərəfindən təsdiq edilən kəndxudaya tapşırılmışdı. Kənd, mülkədardan torpağı icarəyə götürür, bunu birlikdə əkib becərirdi. Kənd vergiləri ellik zəmanət sistemi ilə ödəyirdi ki, bu da ədalətsiz sistem idi.

Şəhər idarəçilik sistemi, inzibati quruluşu araşdırılarkən bir daha aydın olur ki, ölkədə inkişaf edən yeganə iri şəhəri Qahirə idi, burada təxminən 250 min əhali yaşayırdı. Vaxtilə Aralıq dənizi hövzəsində ən böyük mərkəz olan İsgəndəriyyədə cəmi 6-8 min əhali qalmışdı. Əhali istismardan, ağır vergi siyasətindən bezərək məcburi mühacirət edirdi.

Şəhərlərdə sənətkarlıq, parça, həsir, kirəmit hazırlanması, ərzaq malları istehsalı olduqca ləng gedirdi. Sənətkarlar başda şeyxlərə məxsus olan sexlərdə, əsnaflarda birləşmişdilər. Şeyxlər hazırlanan mallara qiymət qoyur, sənətkarlardan vergi yığır, sifarişləri sənətkarlar arasında bölüşdürürdülər. Tədricən Misirdə ilk şəkər istehsal edən sexlər və başqa xırda istehsal müəssisələri yaranırdı.

Misirdə həm daxili, həm də xarici ticarətlə məşğul olan nüfuzlu tacir təbəqəsi də var idi. Misir Avropa ilə, daxili Afrika və Ərəbistanla ticarət edirdi.

Şəhərin varlı sakinləri türk-məmlük hökumət orqanlarının özbaşınalıq və zorakılığı qarşısında tam aciz idi və onlar

özlərinin varlı olduğunu gizlətməyə məcbur olurdular. Varlı hesab olunan şəxsləri bəylər çox zaman həbs edir və onlardan pul qoparmaq üçün döyür, işgəncə verirdilər. Arasıkəsilməyən feodal müharibələri və bunlarla əlaqədar olan siyasi səbatsızlıq, çoxlu daxili gömrüklər, xarici və daxili nəqliyyatın maneələrə rast gəlməsi də ticarət və sənayenin inkişafını ləngidirdi. Türk-müsəlman feodalizm rejimi Misirin iqtisadi inkişafı yolunda başlıca maneə idi.

Türkiyənin və məmlük feodallarının uzun sürən ağalığı ölkənin tənəzzülünə və əhalinin azalmasına səbəb oldu. 1800-cü ilin əvvəllərində Misirdə təqribən 2,5 milyon əhali qalmışdı. Odur ki, az-çox mötəbər məlumata malik olduğumuz bütün Misir tarixində bu dövr, Misir üçün ən aşağı səviyyə və daim dərinləşdiyi dövr hesab olunur.

## 1798-1801-ci illərdə Misirə qarşı Fransız ekspedisiyası

XVIII əsrin axırları və XIX əsrin əvvəllərində Misir Avropanın qabaqcıl kapitalist dövlətləri olan Fransa ilə İngiltərə arasında müstəmləkəçilik uğrunda mübarizə regionuna çevrildi.

1798-ci il iyunun 30-da Napoleon başda olmaqla 35 minlik fransız ordusu İsgəndəriyyənin yaxınlığına quruya çıxarıldı. İyulun 21-də ehramlar yaxınlığındakı vuruşmada fransızlar Muradın və İbrahimin məmlüklərini darmadağın etdilər, sonra isə fransızlar Qahirəni tutdular. Lakin ingilis admiralı Nelson avqustun 1-də Əbukir yaxınlığında fransız donanmasını məhv etdi və fransızların Misirdəki ordusu arxa cəbhədən təcrid edilmiş oldu. Türkiyə sultanı III Səlim Fransanın Misirə soxulmasına cavab olaraq sentyabrın 2-də Fransaya müharibə elan etdi. Bu dövrdə yerli əhali də fransızlara qarşı üsyana qalxdı. Fransızlar yerli əhali ilə də mübarizə aparmalı oldular və bir sıra dəyişikliklər etdilər.

Amma üsyanlar yatırıldıqdan sonra onlar Misirdə köhnə ictimai quruluşu və köhnə inzibati aparatın aşağı orqanlarını olduğu kimi saxladılar. Bütün vergilər əvvəlki miqdarda toplanırdı. Daha bu vergi gəlirləri bəylərin deyil, fransızların

hər-bi xəzinəsinə daxil edilirdi. Bunlara əlavə olaraq ölkədə yeni vergilər qoyuldu və özbaşına qanunsuz müsadirələr başlandı.

Xarici işğalçıların ölkəyə soxulması və onların quldurluq siyasəti Misir xalqının ayağa qalxmasına səbəb oldu. Misir xalqı xarici işğalçılara qarşı mübarizəyə başladı. 1798-ci il oktyrabrın 21-də Qahirədə fransızlara qarşı böyük üsyan baş verdi. Üsyanın mərkəzi Əl-Əzhar müsəlman universiteti idi. Napoleon çətinliklə üsyanı yatırdı. Fransızlar Misirdə başlanmış antifransız hərəkatını yatırarkən 5 minədək admı öldürmüşdülər. Üsyan yatırıldıqdan sonra bədəvilər və fəllahlar işğalçılara qarşı geniş partizan müharibəsinə başladılar. Fransızlar qəddar tədbirlərlə əyalətlərdə müqaviməti boğurdular. Nil boyunca yuxarıya irəliləyən fransız qoşunları 1798-ci ilin dekabrında Misirin işğalını başa çatdırdılar.

1799-cu ilin əvvəllərində Napoleon Suriyaya yürüşə başladı. Lakin Şimali Fələstində Əkkə şəhəri yaxınlığında fransızların hücumunun qarşısı alındı. Onlar Əkkə şəhərini ala bilməyib, Misirə qayıtmağa məcbur oldular. 1799-cu ilin avqustunda Napoleon ordusunu Misirdə qoyub komandanlığı general Klebere tapşırdı və gizli surətdə Fransaya qayıtdı.

Misirdə müharibənin perspektivsiz olduğunu görən, həmçinin Türkiyədə Fransanın nüfuzunu bərpa etmək istəyən Kleber türklər və ingilislərlə danışıq aparmağa başladı. 1800-cü il yanvarın 24-də imzalanan sazişə əsasən fransız qoşunları Misirdən çıxarılmalı, ingilis gəmiləri isə onları Fransaya daşımalı idi. Fransız ordusu bu məqsədlə Qahirə ətrafında toplandı. Türkiyənin baş vəziri də Misir paytaxtına daxil olmaq üçün Qahirəyə yaxınlaşırdı. Lakin Kleber xəbər tutdu ki, ingilis admiralı sazişi təsdiq etmir, fransız əsgərlərini isə hərbi əsir elan etmək istəyir. Buna görə də Kleber sazişi ləğv etdi və türklərə qarşı çıxdı. 1800-cü il martın 20-də Heliopolis yanında vuruşma oldu. Kleber tam qələbə çaldı. Lakin bu zaman Qahirədə yeni üsyan başlandı. Yalnız aprelin 25-də Kleber Qahirədəki üsyanı yatıra bildi.

Misiri ikinci dəfə işğal etdikdən sonra ingilislərin iştirakı olmadan birbaşa Türkiyə ilə yeni danışıqlar aparmağa hazır-

laşan Kleber 1800-cü il iyulun 14-də öldürüldü. Ondan sonra komandanlıq tamamilə bacarıqsız və məhdud dünyagörüşlü bir general olan Menuya keçdi. Menu 1801-ci ilin yazında Misirə gətirilən ingilis qoşunları ilə üz-üzə gəlməli oldu. Sayca azalmış və özünü çətinliklə müdafiə edən fransız ordusu iki hissəyə parçalanmışdı. Fransızlar Qahirədən, sonra da İsgəndəriyyədən çıxmaq haqqında saziş bağlamağa məcbur oldu. Sazişə əsasən ingilislər bu ordunu Fransaya daşımağı öhdəsinə götürmüşdü. 1801-ci ilin sentyabrında axırıncı fransız əsgəri Misiri tərk etdi.

1798-1801-ci il hadisələri Misirdə milli oyanışa səbəb oldu və qapalılıq vəziyyətindən, beynəlxalq həyatdan təcrid olmaq vəziyyətindən xilas oldu. Misirdə isə başlıca irticaçı qüvvə olan məmlük feodalları son dərəcə zəifləmişdi. Fransız işğalçılarından azad olan Misir xalqı bundan sonra məmlük zülmünün saxlanılmasına razı ola bilməzdi.

Köhnəlib və öz dövrünü keçirmiş olan türk-məmlük rejiminə qayıtmaq daha mümkün deyildi. Məhz bu dövrdə Misirdə yeni islahat zərurəti meydana çıxırdı. Bu labüd idi və reallaşmasını xalq səbirsizliklə gözləyirdi.

## Məhəmmədəlinin hakimiyyətə keçməsi

Fransızlar Misiri tərk etdikdən sonra Misirdə 4 il ərzində hakimiyyət uğrunda şiddətli mübarizə davam etdi. Türkiyə ilə münaqişəyə yol verməmək üçün İngiltərə 1803-cü ildə öz ordusunu Misirdən çıxarmalı oldu. Bundan sonra ingilislər Misirdə məmlüklərin silahlı və nüfuzlu qüvvələrinə arxalanaraq Misirdə bəzi tədbirlər həyata keçirdi. Eyni zamanda Türkiyə sultanının Misrə göndərdiyi yeni paşası məmlüklərə qarşı mübarizəyə başladı. Belə bir şəraitdə 4 minlik alban nişançı korpusunun komandanı, türkləşmiş alban Məhəmmədəli Misirdə canfəşanlıq edərək türklərin rəğbətini və inamını qazandı. O, öz korpusunda da köhnə türk ordusuna nisbətən görünməmiş intizam yaratdı. Özünü misirlilərin xilaskarı kimi göstərdi və bununla da türklərin və məmlüklərin qarət və zorakılığından cana gəlmiş yerli əhalinin rəğbətini qazandı. Mə-

həmmədəli Misirdə yeni qüvvələrə, o cümlədən maddi cəhətdən zəngin adamlara, tacirlərə və ruhanilərə, başda şeyx Ömər Məkrəmin durduğu mütərəqqi qüvvələrə arxalanmağa çalışırdı. O, türk hökumət orqanları ilə məmlüklər arasındakı düşmənçilikdən məharətlə istifadə etdi. Ömər Məkrəm başda olmaqla Qahirə şeyxləri 1805-ci il mayın 14-də Məhəmmədəlini paşa elan etdilər. Türkiyə sultanı Qahirə şeyxlərinin qərarını təsdiq etməyə məcbur oldu. Məhəmmədəli 44 il, 1805-ci ildən 1849-cu ilədək hakimiyyət başında qaldı.

Məhəmmədəli mərkəzi hakimiyyəti möhkəmləndirmək və məmlük bəylərinə, digər separatçılara divan tutmaq məqsədilə Yuxarı Misirdə gizlənmiş məmlük dəstələri ilə yenidən mübarizə aparmalı oldu. 1807-ci ilin yazında ingilislər məmlüklərin köməyinə qoşun göndərməyi qərara alıb İsgəndəriyyəyə hərbi qüvvə çıxardılar. Hərbi-taktiki cəhətdən yaxşı hazırlaşmış Məhəmmədəli ingilisləri məğlubiyyətə uğratdı. İsgəndəriyyədə onları mühasirəyə aldı və 1807-ci ilin sentyabrında təslim olmağa məcbur etdi. Bu qələbə təkcə Misirdə deyil, bütün Yaxın Şərqdə onun nüfuzunu son dərəcə yüksəltdi. Məmlük bəyləri könüllü surətdə silahı yerə qoymağa razı oldular. Lakin ölkədə sui-qəsd və qiyamların daimi mənbəyi qaldıqca, Məhəmmədəli özünü rahat hiss edə bilməzdi. O, 1811-ci il martın 1-də Qahirə qalasında təntənəli ziyafət düzəltdi və bütün məmlük bəylərini onların yaxın adamları ilə bərabər buraya dəvət etdi. Məmlük bəyləri buraya toplanan kimi Məhəmmədəli öz alban nişançılarına onları dövrəyə alıb hamısını qırmağı əmr etdi. Məhəmmədəlinin oğlu İbrahim də eyni vaxtda əyalətlərdə məmlüklərə divan tutdu. Öldürülənlərin sayı 2 minə çatırdı. Misiri 560 il əsarətdə saxlayan feodal dəstəsi həm siyasi, həm də fiziki cəhətdən məhv edilidi. Məhəmmədəli Misirin şəriksiz hakimi oldu. Ona mane olanların hamısını fiziki cəhətdən məhv edəndən sonra o, islahatlara başlamağı planlaşdırdı.

## Məhəmmədəlinin islahatları və daxili siyasəti

Məhəmmədəli Misirdə tam qayda-qanun yaratdıqdan sonra Misirlə kifayətlənməyib böyük imperiya yaratmaq niyyətində idi. Ona qüdrətli, yaxşı silahlanmış və Avropa qaydası ilə təlim görmüş bir ordu lazım idi. Ona vəsait, iqtisadi müstəqillik, səlis işləyən inzibati idarə aparatı, savadlı zabit və məmurlar lazım idi. Bu vəzifələrin zəruriliyini nəzərə alaraq Məhəmmədəli Misirdə özünün şəriksiz və "əbədi" hakimiyyətinə nail olmaq üçün ölkədə islahatlar keçirməyi də planlaşdırdı ki, bu da olduqca mütərəqqi hadisə hesab olunurdu.

Amma bir müddətdən sonra məlum oldu ki, Məhəmmədəli heç də Misir xalqının həyat şəratini yaxşılaşdırmağa, onu təhkimli vəziyyətdən qurtarmağa qətiyyən çalışmır. Xalq kütləri onu yalnız işçi qüvvəsi, vergi verən kütlə və əsgər kimi maraqlandırırdı. Bundan başqa, yeni hökmdar etnik cəhətdən də misirlilərə yabançı idi. Onun özü alban mənşəli, ana dili türk dili idi və o özünü türk hesab edirdi. Məhəmmədəli belə hesab edirdi ki, ərəbləri daima asılı vəziyyətdə saxlamaq lazımdır. Amma obyektivlik naminə deyilsə onun siyasəti ərəb Misrinin yüksəlişinə səbəb oldu, lakin o özü heç də ərəblərin istiqlaliyyəti tərəfdarı deyildi. Məhəmmədəlinin əhatə dairəsi albanlar, türklər, çərkəzlər, kürdlər və lazlardan ibarət idi. Ölkədə rəsmi dövlət dili türk dili idi.

Nəhayət, bir müddətdən sonra Məhəmmədəli aqrar sahədə də islahat keçirdi. O, paşaların idarə etdiyi xass torpaqlarını ən əvvəl öz əlinə aldı. Artıq 1808-ci ildə Məhəmmədəli qiyamçı bəylərin malikanələrini müsadirə etməyə başladı. 1811-ci il qırğınından sonra məmlük feodallarının bütün torpaqları tamamilə paşanın əlinə keçdi. Sonra o, mürtəzimlərdən, onların gəlirləri haqqında hesabat tələb etdi. Mürtəzimlər güman etdilər ki, paşa yeni vergilər qoymaq istəyir və buna görə də onlar öz gəlirlərinin çox az və qəsdən azaldılmış rəqəmlərini göstərdilər. Məhəmmədəli bütün saxtakarlıqları

aşikar etdi və o, elan etdi ki, hökumət vergi yığmağı öz öhdəsinə götürür. Mürtəzimlərin bəylərdən icarəyə götürmüş olduqları torpaqlar onların əlindən alındı. Bunun əvəzində onları "ədalətlə" mükafatlandırmaq üçün paşa mürtəzimlərə, öz "gəlirləri" haqqında özlərinin verdiyi məlumata uyğun miqdarda təqaüd verilməsini əmr etdi. Məhəmmədəli vəqf torpaqları idarəçilərindən torpaq mülkiyyəti hüququ haqqında sənəd tələb etdi. O, yaxşı bilirdi ki, belə sənədlərin əksəriyyəti çoxdan itib-batmışdır. Məhəmmədəli heç bir sənəd təqdim edə bilməyən idarəçiləri dini əmlaka pis nəzarət etməkdə təqsirləndirdi və vəqf torpaqlarını öz nəzarəti altına aldı. Bununla da o, vəqf gəlirləri hesabına yaşayan müsəlman ruhanilərinə təsir göstərmək üçün əlavə vasitə və imkanlar əldə etdi. 1841-cü il üçün Məhəmmədəli, əslində, Misirdə yeganə torpaq mülkiyyətçisi o, özü idi.

Bununla yanaşı Məhəmmədəli fəllahlar üçün yeni torpaq qaydası qoydu. Paşanın əmrilə hər kənddə torpaq hər bir yaşlı işçi üçün 3-5 fəddah hesabı ilə kəndlilər arasında bölüşdürüldü. Hüquqi cəhətdən kəndli torpaq sahəsinin sahibi və onun məhsulunun mülkiyyətçisi hesab olunurdu. Əslində isə fəllahın hüquqsuz və təhkimli vəziyyəti demək olar ki, dəyişməmiş qalırdı. Paşa kəndlinin məhsulunu ya vergi hesabına əlindən alır və ya özü təyin etdiyi qiymətlə "satın alırdı". Fəllah ildə 60 gün paşa və dövlət üçün biyara getməli idi. Məhəmmədəli vergi yığılmasında ellik zəmanət sistemini saxlayıb möhkəmlətdi. Çox vaxt elə olurdu ki, bir kənddən vergi tamamilə toplanmırdısa, verginin toplanmamış hissəsi qonşu kəndin əhalisinin hesabına toplanırdı. Məhəmmədəlinin hakimiyyəti dövründə orduya səfərbərlik qaydası kəndlilər üçün yeni və ağır yük idi.

Göstərilən tədbirlərlə yanaşı, Məhəmmədəli geniş miqyasda torpaq paylamağa başlamışdı. O, öz oğlanlarından, zabit və məmurlardan qohum-əqrəbasından ibarət yeni torpaq sahibləri yaradıb, onları öz ictimai dayağına çevirdi. Bu qayda ilə Məhəmmədəli feodal sinfinin tərkibini, demək olar ta-

mamilə yeniləşdirdi. Köhnə feodallar kimi, bu yeni mülkədar-feodallar da mənşə etibarilə misirli deyildilər. Bunlar paşanın ətrafındakı türklər, albanlar, çərkəzlər və kürdlər hesabına artırdı. Torpaq paylanması və yeni mülkədarlar sinfinin təşəkkülü bir neçə onillik davam etdi.

Lakin ölkədə mövcud olan diktatura rejimi və xalqın zülm altında olmasına baxmayaraq, XIX əsrin birinci yarısında Misirin kənd təsərrüfatında xeyli irəliləyiş baş verdi və uğurlar əldə edildi. XIX əsrin əvvəllərində əkin sahələri 2 milyon fəddandan artıq olmadığı halda, artıq 1840-cı ildə 3,8 milyon fəddana, 1852-ci ildə isə 4,1 milyon fəddana çatmışdı. Ölkədə köhnə suvarma şəbəkələrinin bərpa edilməsi və yeni suvarma şəbəkələri yaradılması sahəsində böyük iş aparılırdı. 1820-ci ildən etibarən suvarma işləri il boyu aparılırdı. Bu ildə iki dəfə məhsul götürməyə və növbəti mövsüm bitkilərini su ilə təmin etməyə imkan verdi. Ölkədə məhsul istehsalı çoxalsa da köhnə qayda ilə idarəçilik sistemi olduğu kimi qalırdı.

Ölkənin idarəçilik sistemində, aqrar sahədə problemlər hələ də mövcud olsa da, nəticədə ölkədə kənd təsərrüfatı məhsulları xeyli artdı. 1820-ci ildən yetişdirilməyə başlanan pambıq məhsulu artıq 1836-cı ildə 300 min kantara (kantar 44,9 kiloqramdır) çatdı. Şəkərqamışı, xam ipək, indiqo istehsalının əvvəlki illərə nisbətən artımına nail oldu. Buğda və düyü məhsulu da çoxaldı ki, bu da xalqın maddi vəziyyətini xeyli yaxşılaşdırdı.

Misirdə nəzərə çarpan irəliləyişlə yanaşı idarəçilik sistemində despotik üsul, vergi sistemində hədsiz qarətçilik hələ də saxlanılmışdı. Belə ki, fəllahın yığılan məhsulu sərf etmək ixtiyarı yox idi. Kəndli biçindən sonra məhsulu dövlət anbarına təhvil verirdi. Məhsulun bir hissəsi vergiyə çıxılır, qalan hissəsi isə dövlət qiymətilə satın alınırdı. Bu qiymətlər Misirdə bazar qiymətindən təxminən iki dəfə, ixracat qiymətindən isə üç dəfə aşağı idi. Yəni məhsulu becərəndən çox istehlakçı qazanırdı.

Məhəmmədəli bir çox kənd təsərrüfatı məhsulları üzərində dövlət inhisarı qoymuşdu. O, özü daxili bazarda ən bö-

yük inhisarçı tacir idi. Bəzi inhisarlar yüksək qiymətlə ayrı-ayrı şəxslərə verilirdi. Bir nəfər levantlı tacir 1826-cı ildə hətta içməli Nil suyunu yüksək qiymətlə ona iltizama verilməsini təklif etmişdi. Məhəmmədəli isə az qala buna razı olmuşdu. Lakin qəzəblənən və az-çox insafı olan hərbi nazir Lazoğlu bu acgöz taciri Nildə batırmaq əmri vermişdi və bu hadisə xalq tərəfindən rəğbətlə qarşılanmışdı.

İnhisara qarşı narazılığın son dərəcə artdığını nəzərə alaraq, Məhəmmədəli 1832-ci ildə kəndlilərin buğda, qarğıdalı, arpa və paxla bitkilərini azad surətdə sərf etməsinə icazə verib, qalan məhsullar üzərində inhisarı saxladı.

Eyni zamanda bütün xarici ticarət dövlət inhisarında idi. Məhəmmədəlinin hakimiyyəti dövründə xarici ticarət 8 dəfə artmışdı. 1836-cı ildə əslində ixracatın 95 faizi, idxalatın isə 40 faizi paşanın ixtiyarında idi. Yəni ölkədə gəlir təxminən birinci şəxsin və yaxud onun tayfasının əlində cəmləşmişdi.

1816-cı ildə Məhəmmədəli ölkəyə gətirilən digər məmulatların da satışını inhisara aldı. Bu qayda ölkə daxilində istehsal edilən sənətkarların məhsullarına da şamil edildi. Sənətkarlar bütün məhsulu dövlət qiymətilə məmurlara təhvil verməli olurdular. Sənətkarların xeyli hissəsi müflisləşdi və onlar fabrik fəhlələrinə çevrildilər. 1818-ci ildə ilk toxuculuq fabrikləri yaradıldı. Nəticədə 1837-ci ildə 29 çit, ipək, yun və kətan fabriki fəaliyyət göstərməyə başladı. Bu fabriklərin nəzdində boyaqxanalar da düzəldilmişdi. Şəkər və yağ zavodları, kağız fabriki açılmışdı. Ordunun ehtiyaclarını ödəmək üçün, Qahirə qalasında köhnə silah emalatxanaları genişləndirilmiş, yeni silah, barıt, kükürd zavodları yaradılmışdı. İsgəndəriyyədə tərsanələr yaradılmış və burada hərbi gəmilər düzəldilirdi. Artıq 1831-ci ildə eskadra gəmisi (mükəmməl silahlandırılmış iri hərbi gəmi) tikilib qurtardı. Bu gəminin 136 topu və 1.000 nəfərlik şəxsi heyəti yəni, komandası var idi. Çay gəmiləri hazırlayan müəssisələr də var idi. Sənayeni təmin etmək üçün 1820-ci ildə Bulakda metaltökmə zavodu açılmışdı. Burada maşınlar, alətlər, əyirici və toxucu dəzgahlar, hətta buxar mühərrikləri hazırlanır və təmir edilirdi.

Sənaye müəssisələri demək olar bütünlüklə dövlətin əlində idi. Az miqdarda olan xüsusi kapitalistlər də adətən dövlətdən öz işlərini qurmaq üçün maddi yardım alırdı. Amma bu gənc sənayenin buraxdığı məhsulun maya dəyəri çox yüksək idi. Zavodların və fabriklərin feodal müdiriyyəti hökuməti aldadır, xəzinədən külli miqdarda vəsait mənimsənilirdi və öz ətaləti ilə istehsalın inkişafını ləngidirdi. Ümumiyyətlə sənaye mənfəət vermirdi, ona arasıkəsilmədən kömək etmək, onu xarici rəqabətdən qorumaq lazım gəlirdi. Misir sənayesi 1841-ci ilədək hələ lazımınca möhkəmlənmədiyi bir vaxtda 1838-ci il ingilis-türk ticarət sazişi Misirin hərbi-iqtisadi məğlubiyyətinə istiqamətləndirilmişdi. Bu saziş inkişaf etmiş Avropa sənayesinin ucuz malları üçün ölkənin qapılarını geniş açırdı. 40-cı illərdə müəssisələr xarici rəqabətə tab gətirməyərək bir-birinin ardınca bağlanırdı. 1844-cü ildə isə axırıncı sənaye müəssisələri bağlandı. Məhəmmədəlinin yanlış siyasətinin ona vurduğu zərbədən sonra o, özünü düzəldə bilmədi. Sənətkarlıq və kustar istehsal müəyyən dərəcədə öz mövqeyini saxlamış olsa da, 1882-ci ildə sexlər fəaliyyətini dayandırmışdı.

Halbu ki, 1840-cı ildə yeni sənaye müəssisələrində 35 mindən çox fəhlə işləyirdi. İlk vaxtlar bunlar sabiq sənətkarlardan ibarət idi. Sonralar isə kəndliləri icbari qaydada fabriklərə göndərməyə başladılar. Məhkəmə cəzası verilən adamları da buraya göndərir və islah işlərinə cəlb edirdilər. Fəhlələr fabrik nəzdindəki yataqxanalarda yaşamalı idi və onlar fabrikdən kənara çıxa bilməzdi. Fəhlələrin qaçmasına yol verməmək üçün onların bədənlərinə xüsusi nişanlar həkk etdirilirdi. Fəhlələr hərbi intizama tabe edilmişdi. Onları tez-tez döyməklə cəza verirdilər. Əmək haqqı onlara adətən natura şəklində verilirdi. Bu təhkimli fəhlələrin əmək məhsuldarlığı son dərəcə aşağı idi. Bəzi hallarda fəhlələr içərisində iğtişaşlar baş verirdi. Məsələn, 1826-cı ildə Əsyütdə 600 fəhlə maşınları sındırmış və fabriki yandırmışdılar.

İslahatların məhdud xarakter daşımasına və feodal-təhkimçilik qaydalarının qalmasına baxmayaraq, ümumiyyətlə XIX əsrin birinci yarısında Misir öz iqtisadi inkişafında

nəzəri cəlb edəcək müvəffəqiyyətlər qazanmışdı. Bu, əhalinin artmasında da özünü göstərirdi. Əvvəlki illərlə müqayisədə 1800-cü ildə Misirin əhalisi 2.460 min nəfər olduğu halda, 1847-ci ildə 4.476 min nəfərə çatmışdı. 1800-cü ildə İsgəndəriyyədə 15 min nəfər əhali olduğu halda, 1848-ci ildə 143 minə çatmışdı. Qahirədə təqribən 260 min nəfər əhali yaşayırdı.

Məhəmmədəli digər islahat xarakterli tədbirlərlə yanaşı inzibati sistemi də yenidən qurmağa nail oldu. İdarə sisteminin başında mütləq hakimiyyət hüququ olan və geniş imtiyazlara malik olan paşa dururdu. Misir əyalətlərə, mahallara və rayonlara bölünmüşdü. Yeni idarə aparatı paşa tərəfindən təyin edilən adamlardan ibarət olub, bütünlüklə ondan asılı idi və onun əmrlərini həyata keçirirdi. İdarəçilikdə mütərəqqi hal ondan ibarət idi ki, əvvəlki feodal hərc-mərcliyi əvəzinə, mərkəzləşmiş idarə sistemi yaradılmışdı. Yerlibazlığa, tayfabazlığa, qohumbazlığa ümumiyyətlə proteksionizmin bütün formaları qadağan edilmişdi. Bu haqda Misirə səyahət edən Lenu Furje yazırdı ki, "Məhəmmədəlinin islahatlarına ən dəyərlisi istedadlı gənclərə yolun açılması idi. Bunun nəticəsində Avropa təhsilli milli kadrlar yetişdi".

Məhəmmədəlinin fəaliyyətində dövlət və xalq üçün zəruri olan hərbi islahat ən mühüm yer tuturdu. Amma onun ilk qoşunları muzdla tutulan alban və türk əsgərlərindən ibarət idi. Onlar sayca çox az olub, Avropa qaydasında hər hansı bir təlim keçilməsi təşəbbüslərinə qarşı müqavimət göstərirdilər. Məhəmmədəli tədricən fəllahların orduya çağrılması fikrini reallaşdırdı. Bu fövqəladə bir yenilik idi. Çünki fəllahlar əsrlərdən bəri hərbi xidmətə cəlb olunmurdu. Onların müqavimət göstərməsinə baxmayaraq 20-ci illərin ortalarında fəllahlarından ibarət ilk nizami hərbi hissələr yaradıldı. Ordunun komanda heyəti türklərdən, albanlardan, çərkəslərdən, kürdlərdən, lazlardan ibarət idi və bunlara Napoleon ordusunun sabiq zabitləri təlim keçirdi. Bu zabitlər Məhəmmədəli tərəfindən muzdla işə götürülmüşdü. Az bir müddətdə, yəni 1839-cu ildə ordunun sayı 200 min nəfərə çatdırılmışdı. Bundan başqa, 30-dan çox hərbi gəmidən ibarət olan donanmada 20 min adam qulluq edirdi. Məhəmmədəlinin ordusundakı

daxili qaydaların tamamilə təhkimçilik qaydalarına bənzər olmasına baxmayaraq, o zaman üçün bu böyük ordu Yaxın Şərqdə ciddi döyüş qüvvəsi idi. O zaman Məhəmmədəli Fransa müxbiri ilə söhbətində əbəs yerə deməmişdir ki, "Dövlətin dayağı xalq, xalqın, vətənin, dövlətin dayağı isə ordudur".

## Məhəmmədəlinin xarici siyasəti

Misirin daxili iqtisadi, siyasi və mədəni inkişafı xarici siyasət sahəsində Məhəmmədəli üçün xeyli imkanlar yaratdı. O, yeni ərazilər işğal etməyə çalışır və bu məqsədlə də fasiləsiz istilaçı müharibələr aparırdı. Bu müharibələr Misirin mənafeyinə uyğun deyildi. Qədim dövlətçilik tarixindən artıq bəllidir ki, daxildə stabillik olmasa, xalq hakimiyyətdən narazı olsa daima hakimiyyət üçün təhlükə mövcud olacaqdır. Çünki xalqın hiddətindən və intiqam hissindən xilas olmadıq üçün daxili stabillik başlıca şərtlərdəndir. Hakimiyyət daxildə öz əhalisinə inam, etibar bəsləməsə gec-tez həmin dövlət xarici müdaxiləyə məruz qalır. Misirdə də Məhəmmədəli məmlükləri, ölkənin ziyalı təbəqələrini təqib etdiyinə, zindanlara saldırdığına görə, ən başlıcası isə mənşəcə misirli olmadığına görə sosial dayağı az idi. Hərbi-siyasi hakimiyyətini, mühafizəsini yalnız etnik qruplara etibar etmişdir ki, onlar da yerli xalqdan çox az idilər və istənilən vaxt ölkəni tərk edib ona münasib ölkədə məsgunlaşan bilərdilər. Misir qarşısında duran yeganə real vəzifə, despotik Osmanlı imperiyasının asılılığından qurtarmağa nail olmaq idi. Bu siyasət isə olduqca təhlükəli idi və buna Misir hazır deyildi. Amma sonralar istiqlaliyyət üçün məqam yetişdi və Məhəmmədəli Misiri Türkiyə imperiyasının tərkibindən qoparmağa müvəffəq oldu. Lakin hər halda tam istiqlaliyyət qazana bilmədi. O, diqqətini Misirdən xaricdəki yerləri işğal etməyə verib hərbi-iqtisadi qüvvələrini pərakəndə halına saldı.

Türkiyə sultanının tapşırığı ilə Məhəmmədəli 1811-1818-ci illərdə Ərəbistan yarımadasında ərəblərə qarşı müharibə apardı. Bu zaman ərəblər Türkiyə zülmü əleyhinə vahabi

dini-siyasi nəzəriyyəsi bayrağı altında geniş mübarizə aparırdılar. Beləliklə, Məhəmmədəli XIX əsrin əvvəllərində Osmanlıların təhriki ilə Sultan II Mahmud başda olmaqla, ərəb azadlıq hərəkatına ağır zərbələr vurdu. 1819-1823-cü illərdə Misir qoşunları Sudanın xeyli hissəsini fəth etdilər. Yenə də Sultan II Mahmudun tapşırığı ilə Məhəmmədəli 1823-1827-ci illərdə üsyan etmiş yunanlara qarşı müharibə apardı. Bu müharibə Navarində Misir donanmasının məhv edilməsi və Misir qoşunlarının Yunanıstandan çıxarılması ilə başa çatdı.

Hərbi uğurlardan sonra Məhəmmədəli xeyli arxayınlaşdı və 1831-ci ildə Məhəmmədəli Türkiyə sultanı ilə açıq mübarizəyə başladı. İki il yarımlıq vuruşmalardan sonra Məhəmmədəli Suriya və Kilikiyəni aldı. Lakin ilhaq edilən əyalətlər Məhəmmədəli üçün əbədi səadət deyil, üsyan və kütləvi itaətsizlik mənbəyi oldu. Suriya ərəbləri Məhəmmədəlinin oğlu İbrahimi əvvəllər xilaskar kimi qarşılasa da, lakin bir az sonra qoyulan yeni vergilər, orduya səfərbərlik, icbari əmək mükəlləfiyyəti, əhalinin tərksilah edilməsi xalqı Misir hakimlərindən çəkindirdi. Suriyada Misir əleyhinə üsyanlar başlandı. İngiltərə başda olmaqla Avropa dövlətlərinin yardım etdiyi Türkiyə ilə ikinci müharibə zamanı (1839-1840) suriyalıların güclü üsyanı İbrahimin ordusuna qəti zərbə vurdu və ona böyük tələfat verib Misrə geri çəkilməyə məcbur etdi. 1841-ci ildə Məhəmmədəli Sudandan başqa, işğal etdiyi bütün yerlərdə hakimiyyətini bərpa etdi. Amma onun ordusu 18 min nəfərədək azaldıldı. Məhəmmədəlinin hərbi məğlubiyyəti hərbi uğurlarından çox oldu. Məhəmmədəlinin məğlubiyyətinin ən mühüm səbəblərindən biri başqa ölkələrin ərəbləri ilə kəskin ixtilaf, yerli xalqlara etinasız yanaşma, hədsiz varlanma, tamahkarlıq və yerli xalqa yuxarıdan aşağı baxmaq idi.

Bütün bunların obyektiv nəticəsi idi ki, Məhəmmədəlinin xarici siyasəti müvəffəqiyyətsizliklə nəticələndi və yalnız bircə müsbət nəticəsi oldu ki, 1841-ci ildə Türkiyə Məhəmmədəlinin nəsli hakimiyyəti altında Misirin daxili muxtariyyətini tanıdı. Misir üzərində Türkiyənin hakimiyyəti qəti surətdə sarsıdı. Lakin Türkiyənin nəzarəti altından çıxan Misir Avropa dövlətlərinin asılılığına düşürdü. 1841-ci ildən sonra

Avropa kapitalının Misrə soxulması qüvvətləndi. Xarici kapitalın sürətlə Misrə soxulması nəticələrindən biri də Misir sənayesinin dağılması oldu. Misir yarımmüstəmləkəyə, kapitalist dövlətlərin aqrar-xammal bazarına çevrilməsi ilə tərəqqinin son mərhələsi, yəni tənəzzül mərhələsinə daxil oldu.

## Misir XIX əsrin 50-70-ci illərində

1849-cu ildə Məhəmmədəli vəfat etdi və onun vəfatından sonra onun nəvəsi hakimiyyətə gəldi və I Abbas paşa oldu. Onun hakimiyyəti dövründə islahatlardan əvvəlki qaydalara qayıtmaq təşəbbüsü edildi. Amma Abbas Məhəmmədəlinin siyasətinə zidd hərəkət edirdi. O, 1849-cu ilədək qalmış olan bütün fabrikləri və məktəbləri bağlatdırdı. I Abbas Məhəmmədəlinin dövründəki vergi və mükəlləfiyyətləri saxladı. Bu da ölkənin xalqın mənafeyi üçün və məhsuldar qüvvələrinin inkişaf etdirilməsinə deyil, öz sarayına və yaxın adamlarına əlverişli şərait yaratmaq üçün atılan addım idi. Səriştəsiz və meyxanapərəst yeni paşa, həmçinin Osmanlı imperiyasına sadiq olduğunu nümayiş etdirirdi. I Abbas 1851-ci ildə Qahirə-İsgəndəriyyə dəmir yolu çəkilməsini ingilislərə konsessiyaya verdi. Bu Misirdə ilk xarici konsessiya idi. Lakin Məhəmmədəlinin ənənələri əsasında tərbiyələnmiş hakim sinfin əksəriyyəti Abbasın siyasətinə rəğbət göstərmirdi. Onu xarici dövlətlərə satqınlıqda və rüşvət verərək hakimiyyətini möhkəmləndirməkdə günahlandırırdılar. Odur ki, 1854-cü ilin yayında I Abbas gecə vaxtı sarayda öldürüldü. Abbasdan sonra Misirin hakimləri Məhəmmədəlinin oğlu və nəvəsi Səid (1854-1863) və İsmayıl (1863-1879) oldular. Onların hakimiyyəti ölkənin iqtisadiyyatının xeyli yüksəliş dövrünə təsadüf edir. Tədriclə sarsılan feodal-təhkimçilik qaydaları kapitalist əlaqələrinin ilk rüşeymləri ilə əvəz olunurdu və eyni zamanda ümummisir bazarı da inkişaf edir və şəhərlər artırdı. İnhisarlar sistemi və ölkənin iqtisadiyyatı üzərində malikanə-təhkimçilik nəzarəti aradan qalxırdı. Səid və İsmayılın keçirdiyi islahatlar bütün bu prosesləri sürətlənirirdi. Yəni, keçirilən islahatlar şəxsi mənafe deyil, ümumxalq mənafeyi güdürdü.

1854-cü ildə Səid, torpaq siyahılarında yazılmış bütün əraziləri nəsli torpaq elan etdi. 1858-ci ildə isə o bu torpaqları girova qoymağa və satmağa icazə verdi. 1871-ci ildə İsmayılın verdiyi qanuna görə xəzinəyə torpaq vergisinin altı mislini verənlər torpaq üzərində gələcəkdə tam mülkiyyət hüququ və verginin yarısının azaldılması hüququ alırdı. "Müqabələ qanunu" adlanan bu qanun torpaq üzərində xüsusi mülkiyyətin möhkəmlənməsinə səbəb oldu ki, bunun da əsasən iki növü, yəni xırda kəndli və mülkədar mülkiyyəti yaranırdı. Öz sahəsi üzərində mülkiyyət hüququ alan fəllahlarda kənd təsərrüfatı istehsalını genişlətmək üçün müəyyən maraq oyanırdı. Amma, etiraf etmək lazımdır ki, xalqa qarşı edilən belə mütərəqqi tədbirlər heç də müsbət bəhrəsini vermirdi. Ona görə ki, bir tərəfdən ədalət bərqərar edilsə də digər bu mütərəqqi prinsiplər varlı və imtiyazlı təbəqələr tərəfindən pozulurdu. Odur ki, torpağın qiyməti sürətlə artır, torpaq əmtəəyə çevrilir, torpaq alveri başlanırdı. Kənd və şəhər varlıları müflisləşən kəndlilərin torpaq sahələrini satın alır və şəhər varlıları kənd mülkədarına çevrilirdilər. 50-70-ci illərdə mülkədar sinfinin yeni təbəqəsi meydana çıxdı. Bunlar feodal qaydası ilə deyil, pulla torpaq alan, mənşə etibarilə əsasən misirli mülkədarlar idi. Eyni zamanda Məhəmmədəlinin dövründə torpaq almış mülkədarlar da hüquq və mövqeyini möhkəmlədərək, öz malikanələrinin tam mülkiyyətçisinə çevrilirdi. Düzdür xüsusiyyətçiliyə şərait yaradılırdı, amma ədalətsizliyin bərpası naminə!

Paralel olaraq digər mütərəqqi islahat vergi islahatı idi. Səid, vergi sistemi sahəsində də islahat keçirdi. O, ellik zəmanəti ləğv etdi və hər bir torpaq sahibindən ayrılıqda vergi alınmağa başlandı. Vergisini ödəyən varlı kəndli artıq öz tavanasız qonşusu üçün vergi vermirdi. Bu tədbir fəllahların təbəqələşməsini asanlaşdırırdı, yəni zəhmət çəkən bəhrəsini görməyə başladı.

Belə ki, artıq 50-70-ci illərdə Misirin kənd təsərrüfatında böyük müvəffəqiyyətlər əldə edildi. O dövrün rəsmi məlumatına görə ümumi uzunluğu 13,5 min kilometr olan 112 kanal çəkilmişdi. Əkin sahələri 1852-ci ildəki 4,1 milyon fəddan-

dan 1877-ci ildə 4,7 fəddana çatmışdı. Suvarma il boyu geniş tətbiq edilməyə başlanmışdı. Bu dövrdə pambıqçılıq sürətlə inkişaf edirdi. 1850-ci ildə 365 min kantar pambıq məhsulu götürüldü. Ölkədə şəkər qamışı istehsalı da xeyli artmışdı.

Amma Misirdə sənaye hələ də ləng inkişaf edirdi. Çünki Avropa sənayesinin maneəsiz rəqabəti qarşısında yerli sənayenin imkanı az idi. Buna baxmayaraq onlarla şəkər zavodu açılmışdı ki, bu zavodlar da İsmayılın müəssisələri idi. Bundan başqa toxuculuq, gön və kağız fabrikləri açılmışdı. 1873-cü ildə həmin müəssisələrdə 20 min fəhlə işləyirdi.

Nəqliyyat və rabitə vasitələri tikintisi geniş vüsət almışdı. İlk dəmir yolu olan Qahirə-İsgəndəriyyə yolu 1856-cı ildə işə salınmışdı. 1880-ci il üçün 1,8 min kilometrdən artıq dəmir yolu çəkilmişdi. İsgəndəriyyə limanı genişləndirilib dərinləşdirilmişdi. Bundan başqa min kilometrlərlə teleqraf və telefon xətti çəkilmişdi.

Nəticə etibarilə xarici ticarətin həcmi olduqca artdı. 1850-ci ildən 1880-ci ilədək idxalat 1,6 milyon funtdan 6,5 milyon funta qədər, ixracat isə 2 milyondan 13 milyon funta çatmışdı.

Əhalinin artması da ölkənin iqtisadi inkişafını göstərirdi. Belə ki, Misirin əhalisi 1848-ci ildə 4.542 min olduğu halda, 1882-ci ildə 6.804 minə çatmışdı. Qahirənin əhalisi artaraq 375 minə, İsgəndəriyyənin əhalisi isə 231 minədək artmışdı.

İsmayılın hakimiyyəti dövründə Misirin Türkiyədən asılılığı xeyli azaldıldı və müstəqilliyi genişləndi. Yeni paşa 1867-ci ildə sultandan xədiv ləqəbi almışdı ki, bu da onun imperiya canişinlərindən yüksəkdə durduğunu göstərirdi. 1873-cü ildən isə Misir "əyalət" əvəzinə "dövlət" adlanmağa başladı. İsmayıla, öz ordusunu istədiyi qədər artırmağa icazə verildi. Bu fürsətdən və daxili imkanlardan səmərəli istifadə edilərək Misir ordusu artırılıb, 80 min nəfərə çatdırıldı.

60-70-ci illərdə daxili siyasi həyat bir qədər də avropalaşdırıldı. Fransız nümunəsində mülki və cinayət qanun məcəllələrinin qəbul edilməsi, dünyəvi məhkəmələrin və vəkillər idarəsi yaradılmasının böyük əhəmiyyəti var idi. Dini məhkəmələr yalnız ailə-nigah işlərinə baxırdı. Hakim türk sülaləsi

öz ərəb təbəələrinə bir sıra güzəştlərə getməli oldu. Səidin və İsmayılın hakimiyyəti illərində misirlilərin əvvəlki illərdən fərqli olaraq orduda zabit olmasına icazə verilirdi. 70-ci illərin ikinci yarısında ordunun kiçik zabitləri, əsasən ərəblərdən ibarət idi. Bunlarla yanaşı, 1866-cı ildə məşvərətçi nümayəndələr palatası yaradılmışdı ki, bu nümayəndələr də Misir cəmiyyətinin varlı, yuxarı təbəqələri tərəfindən seçilirdi. Nəhayət, 1870-ci ildə türk dili əvəzinə ərəb dili rəsmi dil elan edildi. Misirdə ərəbləşmə prosesi genişləndi.

Eyni zamanda hərbi-iqtisadi gücün artması nəticəsində İsmayıl yeni işğalçı yürüşlər təşkil etdi. 1870-ci ildə Misir qoşunları Sudanın içərilərinə doğru irəlilədi. Eyni zamanda Misir qoşunları Qırmızı dəniz sahillərindən Somali ərazisinə soxuldu. Bərbərə, Zeylə və hazırda Həbəşistana aid olan Hərər də xədivin hakimiyyəti altına keçdi. Bu sonuncu işğallar həbəşlərlə qanlı və o qədər də müvəffəqiyyətli olmayan müharibəyə səbəb oldu. Əlbəttə, Avropa dövlətləri Misirin sürətli inkişafını istəmirdi. Məhz bu səbəbdən süni münaqişələr törədilməsi Misirin iqtisadi siyasi və hərbi cəhətdən zəiflədilməsi məqsədi güdürdü.

## Avropa kapitalının Misirdə hegemonluğu

Bu dövrdə Misirin inkişafı ona görə diqqəti cəlb edirdi ki, bu inkişaf xarici kapital tərəfindən ölkənin qarət edilməsinin sürətlənməsinə baxmayaraq sistemli şəkildə baş verirdi və hakim təbəqə üçün maraqlı idi. Xarici kapitalistlər Misir xalqının olduqca böyük potensial imkanlara malik olduğunu əsas götürərək bu işə var qüvvələri ilə başlamışdılar. göstərirdi. Yəni ölkəni alban mənşəli paşalar idarə etsələr də onların Misirə, misirlilərə qayğı göstərməsi o qədər də onları maraqlandırmırdı, onların başlıca marağı varlanmaq idi. Lakin, bu da fakt idi ki, tədricən assimilyasiyaya uğrayan gəlmələr yerli xalqa yuxarıdan aşağı baxmırdılar. Müstəmləkəçilər və onların həmfikirləri Misirin tərəqqisi yolunda ən mühüm maneə olaraq qalmaqda idi. Misirin Türkiyədən asılılığı azalıb müstə-

qilliyi artsa da, ölkənin Avropa kapitalistlərinin əsarəti altına düşməsi getdikcə daha da sürətlənməkdə idi.

Nəzərə almaq lazımdır ki, 1840-cı il hərbi məğlubiyyətdən sonra Misir daim hərbi müdaxilə təhlükəsi altında idi. Buna görə də Avropa dövlətləri bir çox güzəştləri diplomatik yolla, öz konsulları vasitəsilə qoparırdılar. Məhz bu səbəbdən 1841-1876-cı illərdə Misirdə idarəçilik sisteminə "konsulluq erası" adı vermişdi.

Bununla yanaşı Misirin əsarət altına alınmasında Süveyş kanalının çəkilməsi mühüm rol oynadı. Fransız kapitalisti Lesseps Süveyş kanalını qazdırmaq və istismar etməyi 1854-cü ildə Səiddən konsessiyaya götürdü. Son dövrlərdə Səid və onun ətrafındakılar Misirin mənafeyilə az maraqlanırdı və buna görə Lesseps onlara son dərəcə əlverişsiz şərtlər qəbul etdirdi. Bu şərtlərə görə Misir pulsuz olaraq ərazi və fəhlə qüvvəsinin beşdə dörd hissəsini verir, tikinti sahəsinə şirin su kanalı çəkirdi və digər sosial təchizatları təmin edirdi. Süveyş kanalı qazıldıqdan sonra 99 il müddətinə Lessepsin yaratdığı kompaniyanın ixtiyarına keçməli idi. Kanalın istismarından əldə ediləcək gəlirin 85 faizi həmin kompaniyaya və yalnız 15 faizi Misirə çatırdı ki, bu da ən ədalətsiz bölgü idi.

Konsessiya müqaviləsinə müvafiq olaraq Lesseps 1858-ci il dekabrın 15-i üçün kompaniya səhmlərinin yayılmasını başa çatdırmalı idi. Kompaniyanın səhmləri 200 milyon frank məbləğində (8 milyon funt) müəyyən edilmişdi. Səhmlərin bir hissəsini Səid aldı. Lesseps səhmlərin 52 faizini dərhal Parisdə sata bildi. İngiltərə ümumiyyətlə bu tədbirdə iştirak etməkdən boyun qaçırdı və hətta Şərqdə Fransanın nüfuzunun artmasından ehtiyat edərək bu tədbiri hər vasitə ilə pozmağa çalışırdı. Belə bir şəraitdə konsessiyanın baş tutmaması təhlükəsi ortaya çıxdı. Bunu görən Lesseps öz "dostu" Səidin ona vermiş olduğu imzalı və möhürlə təsdiq edilmiş ağ blankları paşanın adından doldurdu və çatışmayan məbləği də onun üzərinə qoydu. Yalnız belə bir saxtakarlıqla səhmlərin yayılması başa çatdırıldı və kompaniya "qanuni" fəaliyyət göstərən müəssisə elan edildi. Bundan xəbər tutan Səid əvvəlcə tədiyyələri ödəmək istəmədi, lakin sonra bununla razılaşdı və

beləliklə, çoxlu təcili tədiyyələr Misir dövlətinin üzərinə düşdü. Nəhayət, 1859-cu ildə işə başlandı. Kanalı icabri qaydada Misir kəndliləri çəkirdilər. Zorla səfərbərliyə alınmış Misir kəndliləri susuz səhrəda nəzarətçilərin şallağı altında işlədilir, hər cür məhrumiyyətlərə məruz qalaraq ölürdülər. 10 ildən sonra, yəni 1869-cu il noyabrın 17-də kanalın açılışı elan edildi. Kanal Misirə 8 milyon funta (200 milyon frank), bütün Avropa səhmdarlarına isə cəmi 5,5 milyon funta (140 mln franka) başa gəldi. Buna baxmayaraq kanalı məhz Avropa səhmdarları idarə etməyə başladılar. Tarixi ədalətsizliyin ən böyük mənası da bunda idi.

Süveyş kanalının çox böyük beynəlxalq əhəmiyyəti var idi. Marks Süveyş kanalını Şərqə böyük yol adlandırmışdı. Lakin kanalın çəkilməsi Misir xalqına çox böyük qurbanlar bahasına başa gəldi. XIX əsrin 60-cı illərində bir Misir ziyalısı mətbuatda öz fikrini belə ifadə etmişdi: "Süveyş kanalı çəkilərkən orada minlərlə misirlinin qanı axıdılmışdır. İndi də onların narahat ruhları başımız üzərində dolaşmaqdadır. Görəsən I Abbasın ruhu xəcalət çəkirmi?"

Hələ I Abbasın hakimiyyəti dövründən və onun səmərəsiz xərcləri nəticəsində Səidə 100 milyon frank daxili borc və tamamilə boş xəzinə irs qalmışdı. Buna görə də yeni paşa ən vacib xərcləri ödəmək üçün təcili surətdə 4,5 milyon frank miqdarında daxili istiqraz buraxdı. Süveyş kompaniyası qarşısındakı öhdəlikləri yerinə yetirmək üçün Səid artıq, xaricdən borc almağa məcbur oldu. Səid ölən zaman Misirin 400 milyon frankdan çox (16 milyon funt) borcu var idi. Onun xələfi isə hələ üstəlik Süveyş kompaniyasına borclarını da verməli idi.

Süveyş kanalının çəkilməsi və başqa lüzumsuz tikinti işləri Misirin borca düşməsində həlledici rol oynadı. Lakin Misirin qarət edilməsi heç də bununla bitmirdi. Avropa işbazları konsul məhkəmələri vasitəsilə də Misirdən çoxlu qızıl, gümüş və zinət əşyaların aparırdılar. Xaricilərdən ibarət olan konsul məhkəmələri istər cinayət işi olsun, istərsə də mülki iş bir qayda olaraq qapalı şəkildə keçirildi. Məhkəmə prosesinə milli kadrlar buraxılmırdı. Ölkədə kapitulyasiya

hüquqlarından istifadə edən hər bir xarici təbəənin Misir hökuməti ilə ixtilafı baş verdikdə bu işlərə öz ölkəsinin konsul məhkəməsində və öz ölkəsinin qanunları əsasında müzakirə etdirmək ixtiyarı var idi. Konsullar həmişə öz həmvətənlərinə kömək göstərirdi və xarici təbəələr hər bir bəhanədən istifadə edərək Misirə qarşı məhkəmə iddiaları qaldırırdı. Yalnız 1863-1867-ci illərdə Misir hökuməti konsul məhkəmləri qərarlarına əsasən xaricilərə 72 milyon frank pul ödəmişdi və bu haqda heç kimə hesabat verilmirdi.

Bütün bu borclar təxirə salınmadan ödənilməli idi, bunlardan boyun qaçırılması Misirə silahlı müdaxilə qorxusu törədirdi. Büdcə gəliri çatışmırdı, hər cür ağır şərtlərlə xaricdən pul borc almaq lazım gəlirdi. Xarici borcların özü də borcun faizinin artması mənbəyinə çevrilirdi.

1875-ci ildə Misirin maliyyə vəziyyəti o qədər çıxılmaz oldu ki, İsmayıl Misirə bu qədər baha başa gələn Süveyş kanalı səhmlərinin öz payını bütün səhmlərin 44 faizini cəmi 4 milyon funta İngiltərəyə satdı. Lakin bu tədbir də xədivi xilas edə bilmədi və 1876-cı il aprelin 6-da İsmayıl borcların ödənilməsini dayandırmağa məcbur oldu. Bir qədər sonra 1880-ci ildə Misirin borcu 90 milyon funt məbləğində (2,5 milyard frank) olduğu müəyyən edildi. Bu siyasət uzunmüddətli düşünülmüş Avropa dövlətlərinin Misir üzərində hegemonluq siyasəti idi.

## İkili nəzarət

Misirin əsarət altına alınması prosesi 1876-cı ildə yeni mərhələyə daxil oldu. Avropa dövlətləri bilavasitə Misirin daxili işlərinə qarışmağa başladılar. Bunu onlar "qəyyumluq" adlandırırdılar.

1876-cı il mayın 2-də İsmayıl dövlət borcu xəzinəsi yaradılması haqqında qanun imzalamağa məcbur oldu. Həmin xəzinə İngiltərə, Fransa, İtaliya və Avstriya-Macarıstanın komissarları tərəfindən idarə edilirdi. Kreditorları təmin etmək üçün ayrılan dövlət gəlirləri həmin xəzinəyə daxil olmalı idi. Xəzinənin öz qulluqçuları var idi və bu xəzinə dövlət içərisin-

də qeyri-adi bir gücə çevrilməkdə idi. Lakin Avropa dövlətləri bunu da kifayət hesab etməyərək 1876-cı il noyabrın 18-də xədivi yeni bir qanun imzalamağa məcbur etdilər. Həmin qanuna əsasən ölkənin bütün gəlirləri üzərində nəzarət etmək üçün ingilis nəzarətçisi və ölkənin bütün xərcləri üzərində nəzarət etmək üçün fransız nəzarətçisi təyin edildi. Beləliklə, ikili nəzarət adlanan sistem (1876-1882) tədricən formalaşdırıldı. Bir nəfər misirli həmin sistemi belə bir istehzalı məsəllə qiymətləndirmişdir: "Siz heç görmüsünüzmü ki, itlə pişik birlikdə siçanı gəzməyə aparsınlar?"

"İkili nəzarət" kreditorların nəfinə fəllahlardan ən amansız bir surətdə zorla vergi toplanılmasını da öz funksiyalarına daxil etmişdilər. Misirin amansızlıqla qarət edilməsi nəticəsində 1878-ci ildə ölkədə kütləvi aclıq baş verdi. Belə bir dəhşətli aclıq çoxdan idi ki, görünməmişdi. Dövlət gəlirlərinin ⅔ hissəsindən çoxu xarici banklara gedirdi. Misirdə ictimai işlərə, məktəblərə, orduya ayrılan xərclər insafsızcasına talan edilir, mədaxil və məxaricə nəzarət yox idi.

Qərb dövlətlərinin təzyiqi altında 1878-ci ilin avqustunda Misirdə nazirlər kabinəsi yaradıldı və buraya iki nəfər də avropalı daxil edildi. İngilis Vilson maliyyə naziri vəzifəsini, fransız nümayəndəsi isə ictimai işlər naziri vəzifəsini tutdu. Onların hər ikisinin hər hansı bir məsələdə veto hüququ (hər hansı bir qanun və ya tədbiri ləğv etmək və ya dayandırmaq hüququ) var idi. Buna görə də Misirdə bu yeni hökumətə haqlı olaraq "Avropa hökuməti" deyirdilər.

Misirdəki mövcud vəziyyətdən elə görünürdü ki, İngiltərə və Fransa heç bir müqavimətə rast gəlmədən Misirə tamamilə yiyələnmişlər. Misirin hakim feodal dairələri Avropa dövlətləri qarşısında açıqdan-açığa təslim olmuşdular. Lakin ölkədə milli oyanış başlanmışdı, gənclər xalqın sərvətinin talan edilməsilə nəhayət ki, barışmırdılar. Odur ki, müstəmləkəçilər heç də özləri qətiyyən gözləmədən nəhayət, Misir xalqının müqavimətinə rast gəldilər. Bu kütləviləşməkdə olan milli-azadlıq hərəkatı və istismarçı təbəqələrə qarşı çevrilmiş xalq narazılıqları idi.

## Mədəniyyət

Qədim Misir dilinin, yazısının yaranması, tarixinin, mədəniyyətinin və arxeoloji aidələrinin kompleks şəkildə öyrənilməsi şərqşünaslığın bir sahəsidir. Qədim Misir abidələrini oxumuş, Misir dilinin qrammatikası və filologiyasının əsasını qoymuş F.Şampalyonun adı ilə bağlıdır. Ebers T, Mariyeto, U.Pikze, Flenders, F.Şampalyonun ardıcılları idi. Rusiyada Misirin tədqiqinə XIX əsrin I yarısında başlanmışdı. V.Qolonişşev, B. Turayev, İ.Volkov, V.Strevve və başqaları Misirin elm və mədəniyyətinin inkişafına böyük töhfələr vermişlər. Məhəmmədəlinin hakimiyyəti dövründə xalq maarifi sahəsində islahat keçirilmişdi. 1818-ci ildə ilk dünyəvi məktəb açılmışdı və burada Avropa təhsilinin ilk bilikləri verilirdi. Bir qədər sonra bir sıra ibtidai, orta və xüsusi məktəblər açıldı. Lakin bu məktəblərdə çox cüzi miqdarda uşaq təhsilə cəlb olunmuşdu. 1822-ci ildə Bulakda ilk mətbəə təşkil edildi və 1828-ci hökumətin rəsmi orqanı olan ilk qəzet çıxmağa başladı.

I Abbasın hakimiyyəti dövründəki fasilədən sonra 50-70-ci illərdə yenidən dünyəvi hökumət məktəbləri açıldı. Bu məktəblərdə minlərlə şagird oxuyurdu. 1873-cü ildə qızlar üçün ilk məktəb açıldı. Bir sıra ali məktəblər bərpa edildi və yeni ali məktəblər yaradıldı (politexnik, tibb, hüquq, pedaqoji, kənd təsərrüfatı məktəbləri). Eyni zamanda bir sıra hərbi məktəblər də açıldı. 60-70-ci illərdə yaradılan Qədim Misir muzeyi, ərəb incəsənəti muzeyi və Qahirədəki xədiv kitabxanası əhəmiyyətə malik olmaqla xalqın elmi-mənəvi zənginliyinin inkişafında, həmçinin mühüm mədəni rol oynadı.

Ərəb dilində xüsusi şəxslər tərəfindən ilk qəzetlər təsis olundu. İndiyədək nəşr olan ən köhnə Misir qəzetlərindən biri - "Əl-əhram" qəzeti 1875-ci ildən dərc olunmağa başladı. Abdulla Nədim və Yaqub Sənan kimi görkəmli publisistlər formalaşdı. 70-ci illərin əvvəllərində Yaqub Sənan ərəb dilində tamaşa göstərən ilk teatr dəstəsi təşkil etdi. Yaqub Sənanın özünün yazdığı pyeslər o qədər müvəffəqiyyət qazanmışdı ki, Yaqub Sənana Misirin Molyeri deyirdilər. Sənan siyasi mövzulara müraciət edir, Misirin işlərinə müdaxilə edən ingilisləri tənqid edirdi. Ən başlıcası isə milli ənənələr saxlanılmaqla ölkədə müasirləşmə prosesi gedirdi.

# SUDAN

Sudan sözünün ərəbcə mənası qaralar, zəncilər ölkəsi deməkdir. Afrikanın şimal-şərqində yerləşən bu dövlət Qırmızı dəniz sahilindədir və Misir , Liviya, Çad, Mərkəzi Afrika respublikası, Zair, Uqanda, Keniya və Efiopiya ilə həmsərhəddir.

Tarixi məlumatlara görə Sudan ərazisində məsgunlaşma daş dövrünə təsadüf edir. Bu ərazidə Xartum mədəniyyətinin əlamətləri mövcuddur.

Sudan ərazisinin xeyli hissəsi qədimdə Kuş ölkəsi e.ə. X əsrdən Nubiya, qədim misirlilərə qohum sami-hami və kuşit tayfaları ilə ittifaq yaratmışdılar. E.ə VIII əsrdə isə bu ərazidə Hapata dövləti yarandı. Amma IV əsrin əvvəllərində Sudanı Aksum padşahlığı işğal etdi və VII əsrdən etibarən xristianlıq geniş yayılmağa başladı. Digər ölkələr kimi VII əsrdən etibarən ərəb işğallarının başlanması nəticəsində Sudan da ərəb işğalına məruz qaldı. Bu ölkəyə əvvəlcədən gələn ərəb mühacirləri Sudanda yerli camaatın adət-ənənələrini, psixologiyasını öyrəndikdən sonra ərəb missionerləri islam dinini yaymağa başladılar. Ərəblərin Sudanda apardığı təbliğat öz bəhrəsini verdi. VII əsrdən XIV əsrə qədər gedən proseslər nəticəsində ərəblər Sudan xalqının nəinki dini-ideoloji dünya görüşünü, eyni zamanda ictimai-siyasi mövqeyini, həyat tərzini də dəyişdirə bildilər. XIV əsrdən başlayaraq Sudanda inzibati idarəçilik sistemi dəyişdirildi və sultanlıqlar yaradıldı. Bu proses XVI əsrdə başa çatdırıldı. Belə sultanlıqların yaradılması əslində ölkədə mərkəzləşdirilmiş dövlətin yaradılmasının qarşısını almaq məqsədi daşıyırdı. Bununla yanaşı Sudana qarşı daima işğalçılıq siyasəti yeridən qonşu dövlətlər Sudanın təsir dairəsinə salınmasında maraqlı idilər. Bu qonşu dövlətlərdən Sudana qarşı istilaçılıqda ən çox iddialı olan Misir idi. Eyni zamanda Sudanın şimalında və şərqində gedən daxili siyasi proseslər Sudanın işğalına zəmin hazırlayırdı. Nil çayının qolları hövzəsində yerləşən Sudan coğrafi şəraitinə və torpaqlarının münbitliyinə görə digər regionlardan fərqlənirdi. Qırmızı dənizdən Qvineya körfəzinə qədər ərazini Sudan (Qaralar ölkəsi) adlandıran ərəblər uzun müddət bu ölkəyə sistemli şəkildə mühacirət edərək öz təsir dairəsinə sala bilmişdilər. XIII əsrdən Sudanın istila edilməsi özünün son həddinə çatdı və bu ölkənin istilasında yenə də misirlilər daha çox fəallıq göstərdilər.

## ŞƏRQİ SUDAN

Ərəb mənbələrində hələ qədim dövrlərdən etibarən qeyd olunurdu ki, Misirdən cənubda, Qırmızı dənizdən Qvineya körfəzinə qədər olan geniş əraziyə "Sudan" ("Qaralar ölkəsi") deyirdilər. İndiki Sudan dövləti həmin ərazinin şərq hissəsində, əsasən Nil və onun qolları hövzəsində yerləşir.

1275-ci ildə Misir məmlüklərinin istilaçı yürüşləri Şimali Sudana ərəb təsiri üçün şərait yaratdı. XV əsrdə Sudanda Dərfur və Sənnar sultanlıqları meydana çıxdı. XIX əsrin əvvəllərində Dərfur Ağ Nilin qərbində, Sənnar isə Ağ Nil ilə Mavi Nil arasındakı ərazidə yerləşirdi.

1819-1823-cü illərdə Şimali Sudan Misir hökmdarı Məhəmmədəlinin qoşunları tərəfindən işğal olundu və Donqola, Sənnar, Kordofan vilayətləri də Məhəmmədəliyə tabe edildi. 1822-ci ildə Xartumun əsası qoyuldu və bu şəhər Sudanın paytaxtı elan edildi. İşğalçılar tədricən Qırmızı dəniz və Həbəşistan hüdudlarına çatdılar və yeni qaydalar tətbiq edildi.

Türk-Misir məmurları Sudana daxil olduqdan sonra əhalini amansızcasına istismar etməyə başladılar. Oturaq qəbilələrə, xüsusilə şiddətli zülm edilirdi. Bunlar üzərinə çoxlu vergilər qoyuldu. Bu vergilərin yığılması kəndlərə hərbi yürüş xarakteri daşıyır, hər cür fırıldaq, zorakılıq və özbaşınalıqla həyata keçirilirdi. Nəticədə çoxlu sudanlılar qul edildi. Qulları iri ərəb qəbiləsi baqqarlar və onların hərbi dəstələri əldə edirdi. İmtiyazlı vəziyyətdə olan baqqarlar nisbətən az vergi verirdi. Onların şeyxləri ən iri quldar idi.

Təxmini hesablamaya görə artıq 1839-cu ilədək 200 min sudanlı qul edilmişdi. Qullar Misirə göndərilir, buradan da dünya qul bazarlarına, Yaxın Şərqin başqa ölkələrinə satılırdı. Qulun qiyməti çox ucuz idi. Hətta bir qoşa lülə tüfəngə 6-8 qul almaq olurdu.

Bu misilsiz qarət və terror, hüquqsuzluq hər yerdə işğalçılara qarşı ümumi nifrət doğururdu, təsərrüfat həyatını pozurdu. Qul alverçilərindən xilas olmaq üçün qəbilələr başqa yerlərə köçüb gedirdilər.

Misir xədivi İsmayılın dövründə Sudana yeni işğalçı yürüşlər təşkil edildi. Xədivin qulluğunda olan ingilis Bekker 1869-1873-cü illərdə Cənubi Sudan vilayətlərini işğal etdi. Bəhr-əl-Qəzəl və Ekvatoriya adlanan iki yeni əyalət təşkil

edildi. Sudanın ən iri qul alverçisi və torpaq sahibi paşa rütbəsi almış Zübeyrin dəstələri 1874-cü ildə Dərfuru işğal etdi.

Avropa müstəmləkəçilərinin Sudana soxulması 70-ci illərdə daha da gücləndi. Onlar Misir məmurları sifətilə, əslində isə xədivdən və onun nazirlərindən asılı olmayaraq müstəqil hərəkət edirdilər. Xüsusilə 1876-cı ildə Misir üzərində Avropa dövlətlərinin ikili nəzarəti qoyulduqdan sonra Sudanda yüksək vəzifələrin çox hissəsi onların əlinə keçdi. İngilis Qordon 1877-ci ildə bütün Sudanın general-qubernatoru oldu. O, burada qeyri-məhdud hakimiyyətə və müstəqil büdcəyə malik idi. Avropalı məmurlar, kapitalistlər və tacirlər gündəngünə daha çox axışıb Sudana gəlirdi. 1881-ci ildə Sudanda 20 min avropalı var idi və onlar Sudanda məsgunlaşaraq böyük imtiyaz sahiblərinə çevrilirdilər.

XIX əsrin 70-ci illərin ikinci yarısında yerli qəbilə şeyxləri və qul alverçiləri ilə yeni hökumət orqanları arasında ixtilaflar baş verdi. Hökumət orqanları "köləliyə qarşı mübarizə" bayrağı altında çıxış edib Sudanın istismarını öz əlinə keçirməyə çalışırdı. Zübeyr paşa Qahirəyə gəldikdə o, ev həbsinə alındı və yalnız 1900-cü ildə Sudana qayıtdı. Zübeyrin oğlu Süleyman 1878-ci ildə üsyan qaldırdı. Ona qarşı Qordon və Qordonun köməkçisi Cessi mübarizə aparırdılar. 1879-cu ilin yayında Qordon istefaya çıxdı. 1880-ci ilin mayında Cessi üsyançıları məğlub etdi və Süleymanı ələ keçirib güllələdi.

Ölkədə cəhalət hələ də mövcud olduğu üçün Türkiyə-Misir və avropalıların hakimiyyətinə qarşı xalq kütlələrinin narazılığı dini mübarizə forması almaqda idi. Dini təbliğatçı Məhəmməd Əhməd xalq hərəkatının məfkurəçisi və rəhbəri oldu. O, 1871-ci ildə Ağ Nildəki Əbba adasını özü üçün mərkəz edib Ənsariyyə adlı yeni müsəlman təriqəti yaratdı və təbliğata başladı. Onun tərəfdarları ənsarlar, buradan bütün Sudana yayılaraq əhalini üsyana qaldırırdılar.

Misirin siyasi və iqtisadi böhranı nəticəsində 80-ci illərin əvvəllərində Qahirə hökumətinin Sudanda hakimiyyəti xeyli zəifləmişdi. Avropa müstəmləkəçiləri ilə Sudan şeyxləri və qul alverçiləri arasındakı mübarizə siyasi böhranın dərinləşməsinə səbəb oldu. Bütün bunlar ənsarların işini asanlaşdırırdı. Bununla yanaşı Sudanda istilaçıların rəqabəti gücləndikcə ölkədə istismar artırdı ki, bu da milli-azadlıq hərəkatını sürətləndirməkdə idi.

# ƏRƏBİSTAN

Ərəbistan aşağıdakı tarixi-coğrafi əyalətlərə bölünürdü: Hicaz (qərb), Yəmən (cənub-qərb), Həzrəmaut (cənub), Oman (cənub-şərq), Nəcd (mərkəz) və Həsa (şərq).

XVI əsrdə dağınıq ərəb knyazlıqları türk istilalarının təsiri altına düşdü. Həşimilər sülaləsindən olan Məkkə şərifi könüllü olaraq özünü Türkiyənin vassalı elan etdi. 1538-ci ildə Yəmənə türk donanması gəldi. Osmanlı qarnizonları orada bir neçə məntəqədə məsgən saldı və yalnız 1642-ci ildə buradan çıxarıldı. Amma Həsa əyaləti rəsmən Türkiyənin hakimiyyətini tanıdı. Bundan sonra Həsada türk idarəçilik sistemi gücləndirildi.

XVIII əsrin ikinci yarısında mərkəzi Məqsət də olmaqla Omanda müstəqil və güclü sultanlıq yarandı. Oman Şərqi Afrikada Zənzibar da daxil olmaqla, böyük bir ərazini özünə tabe etdi. Bu dövrdə Oman geniş dəniz ticarətinə malik idi və xeyli inkişaf etmişdi.

1744-cü ildən etibarən Nəcddə digər dini-siyasi cərəyan, vahabilər dini-siyasi hərəkatı inkişaf etməyə başladı. Hərəkatın məfkurəçisi Məhəmməd ibn Əbdülvahab müsəlman dininin inkişafı gedişində dinə əlavə olmuş ehkamları rədd edərək ibtidai islama qayıtmağı təbliğ edir, məişətdə sadəliyə doğru çağırırdı. Xatırlamaq zəruri olardı ki, 632-ci ildə Məhəmmədin vəfatından sonra islama dair 66 min hədis yazılmışdı. Bu hədislər içərisində təhriflər də var. Nəcdin kiçik feodallarından biri Dariya şəhərinin əmiri Məhəmməd ibn Səuid, habelə Nəcdin çoxlu azad əkinçiləri, sənətkarları və tacirləri ona tərəfdar çıxdılar. Vahabilər hərəkatı siyasi cəhətdən bir neçə mərhələ keçmişdi. Ən əvvəl onlar öz qarşılarında Nəcdi birləşdirmək vəzifəsini qoymuşdular. Vahabilər nəzəriyyəsini qəbul etməyən və Türkiyənin vassalı Həsa əmirləri ilə yaxınlaşan Nəcd feodallarına qarşı şiddətli mübarizədən sonra 1773-cü ildə Nəcdin birləşdirilməsi vəzifəsi yerinə yetirildi. Hərəkatın ikinci mərhələsində

vahabilər Ərəbistanın digər əyalətlərini də birləşdirmək uğrunda mübarizəyə keçdilər. 80-ci illərdə onlar Həsayə soxuldular. 1798-ci ildə vahabilər Bağdad paşası tərəfindən buraya göndərilmiş qoşunları məğlub etdi. Fars körfəzi sahillərində yaşayan qəbilələr də onlara qoşuldu. Vahabilər 1808-ci ildə İraqa yürüş etdi, 1802-1805-ci illərdə Məkkə və Mədinə də daxil olmaqla Hicazı işğal etdilər. Üçüncü mərhələdə vahabilər hərəkatı Türkiyəyə qarşı azadlıq üsyanı xarakterli çıxışlar etdilər. 1805-ci ildə onlar Bağdad paşasını tam məğlubiyyətə uğratdılar və 1808-ci ildə Dəməşq-Hələb-Mosul-Bağdad xəttinə çıxdılar. Suriya və İraqda Türkiyənin hakimiyyəti üçün real təhlükə yaranırdı. Bu təhlükə bir də ona görə ciddi şəkil alırdı ki, bu zaman rus qoşunları Dunayda türk qoşunlarını ağır məğlubiyyətə uğratmaqda idi. Sultan II Mahmud kömək üçün Misir canişini Məhəmmədəliyə müraciət etmişdi.

Avropa silahı ilə silahlanmış Misir qoşunları 1811-1818-ci illərdə vahabilərə qarşı müharibə apararaq, 1818-ci ildə Dariya şəhərini tutub dağıtdılar. İngiltərə, vahabi əmirliyinin məğlubiyyətindən sonra Şimali Oman sahilləri ərəblərinə divan tutmaq üçün ora hərbi təcavüz etdi. Buradakı şeyxlər 1820-ci ildə ingilislərlə onları ingilis protektoratına çevirən sazişlər bağlamağa məcbur oldu.

Bu dövrdə müxtəlif cəhdlərə baxmayaraq Məhəmmədəli Ərəbistanda öz hakimiyyətini möhkəmlədə bilmədi. Artıq 1820-ci ildə Nəcd ərəbləri Türkiyə-Misir hakimiyyətinə qarşı üsyan qaldırdı və bu üsyan 20 il davam etdi. Üsyanın gedişində vahabilər dövləti yenidən bərqərar edildi. Nəhayət, 1840-cı ildə Misir qoşunları Ərəbistanı tərk etməli oldu.

Hicazda isə Həşimilər hakimiyyətə qayıtdı. Yeni siyasi dəyişikliklər nəticəsində Nəcddə və Həsada vahabilər dövləti möhkəmləndi. 1843-1867-ci illərdə burada Səudilər sülaləsindən əmir Feysəl hökmranlıq edirdi. Əmirliyin yeni paytaxtı Riad şəhəri oldu. Feysəlin hakimiyyəti dövründə idarə işləri xeyli mərkəzləşdirildi. Vahabilər ideologiyası ən sərt

tədbirlərlə həyata keçirilirdi. Xüsusi dini komissarlar dini ehkamlara riayət edilməsinə Riad şəhərində əhalinin hətta şəxsi həyatına da nəzarət edirdilər və görünməmiş despotik idarə sistemi yaradılmışdı.

Ağır vergi sistemi, bürokratin inzibati idarəçilik sistemi yaradilsa da, amma ölkədə vahid idarəçilik sistemi yox idi. Nəcddə torpaqlar azad xırda əkinçilərin əlində idi. İri torpaq sahiblərinə az təsadüf edilirdi. Geniş xurma bağları və çoxlu mal-qara sürülərinə malik olan Feysəlin özü, onun ailəsi və ən yaxın adamları iri torpaq sahibləri idi. Bütün əkinçilik məhsulunun onda bir hissəsini hökumət əhalidən vergi şəklində alırdı. Ticarət üzərinə yüksək gömrük qoyulurdu. Lakin bəzən məhsulun üçdə birinə qədərini təşkil edən fövqəladə vergilər və zorakılıq yolu ilə alınan "peşkəşlər" əhalini ən çox ən çox narazi salır və istismara məruz qoyurdu.

Siyasi əsarət və vergi zülmü üsyanlara səbəb olurdu. Nəticədə 1862-1863-cü illərdə Əneyzə şəhərində böyük üsyan baş verdi.

Nəcdin şimal hissəsində, Cəbəl Şəmmar vilayətində Riadın vassalları olan İbn Rəşid tayfasının hakimiyyəti möhkəmləndi. 1847-1868-ci illərdə Cəbəl Şəmmara görkəmli hakim Təlal başçılıq edirdi. Onun hakimliyi dövründə Şəmmarın paytaxtı Hail böyük ticarət-sənət mərkəzinə çevrildi. Təlal ticarətə himayə edir və başqa dini cərəyanlara toxunmamaq siyasəti yürüdürdü. Nəcddə hökm sürən ağır dini və siyasi nəzarət Şəmmarda müşahidə olunmurdu. Təlal hətta Şəmmarın Türkiyə müstəmləkəçiliyindən azad olaraq ölkənin istiqlaliyyətinə müstəqilliyinə müvəffəq olmuşdu.

Feysəlin vəfatından sonra 1867-ci Nəcddə daxili müharibə başlandı və vahabilər əmirliyi olduqca zəiflədi.

Tənzimat nəticəsində bir qədər möhkəmlənən Osmanlı imperiyası XIX əsrin 70-ci illərində Ərəbistanı yenidən işğal etməyə başladı. İraq canişini Midhət 1871-ci ildə vahabilərin torpaqlarına soxulub Həsanı işğal etdi. O, indiyədək müstəqil olan Küveyt şəhərinin şeyxini, öz sultanının ali hakimiyyətini

tanımağa məcbur etdi. Lakin onun daxili muxtariyyəti saxlanıldı. XIX əsrin 80-ci illərində türklər artıq Həsada öz daimi qarnizonlarını yerləşdirib saxlayırdılar. Növbəti hücum Qətərə edildi və Qətərin işğalından sonra Qətər şeyxi Türkiyənin vassallığını qəbul etdi. Türkiyə 1872-ci ildə Süveyş kanalı vasitəsilə Yəmənə qoşun çıxartdı və onun əsas şəhərlərini işğal etdi. Hicazda Türkiyənin mövqeyi möhkəmləndi. Hətta Məkkə şəriflərini İstanbul hökuməti təyin edir və dəyişdirirdi. Artıq İstanbul hökuməti 80-ci illərin əvvəllərində Hicazda daimi türk qarnizonları saxlayırdı.

Türklər Cəbəl Şəmmarın hakimi Əmir Məhəmmədi (1872-1897) öz tərəfinə çəkdilər. Onun hakimiyyəti dövründə Rəşidilər sülaləsi əvvəlki mövqeyini dəyişərək xalqdan uzaq olan hakim feodal dəstəsinə çevrilirdi. Ərəblərin qəddar qənimi olan Osmanlı imperiyasının vassallığını Məhəmmədin qəbul etməsi də bunu aşkar göstərdi. 1885-ci ildə Məhəmməd Türkiyənin yardımı ilə Nəcdi tutub, vahabilər dövlətini süquta uğratdı.

Avropa dövlətləri, o cümlədən İngiltərə Ərəbistan uğrunda daima Osmanlı imperiyası ilə rəqabət aparırdı. Bu səbəbdən ingilis işğalçıları da arasıkəsilmədən Ərəbistana hücum edirdilər. İngiltərə Lahec sultanının qoşunları ilə vuruşmadan sonra, 1839-cu ilin yanvarında Ədəni işğal etdi. 1861-ci ildə Bəhreyn üzərində ingilis protektoratı quruldu. Süveyş kanalı çəkildikdən sonra (1859-1869-cu illər) Cənubi Ərəbistandakı dayaq məntəqələrinin əhəmiyyəti olduqca artdı. 1863-1882-ci illərdə Ədən müstəmləkəsinin ərazisi genişləndirildi. İngiltərə 1886-cı ildə Soqotra adası üzərində, 1888-ci ildə isə Həzrəmautun sahil boyunca öz protektoratını yaratdı.

Beləliklə, XIX əsrin axırlarında dünyanın, xüsusilə birləşə bilməyən xalqların dövlətlərinin bölüşdürülməsi layihəsi artıq hazır idi. Birinci dünya müharibəsinin başlanması dünyanın bölüşdürülməsi üçün beynəlxalq imperializmə əlverişli şərait yaradır.

# İRAQ

Osmanlı imperatorluğu XVI əsrin birinci yarısında Misiri və digər ölkələri işğal edəndən sonra digər Ərəb ölkələrinin də işğalını planlaşdırdılar. Nəhayət, XVI əsrin ortalarında Osmanlı imperatorluğu İraqın işğalını reallaşdırdılar. 1534-1538-ci illərdə İraq türklər tərəfindən işğal edildi və sonra da təxminən 300 il ərzində Türkiyə ilə İran arasında nifaq və münaqişə mənbəyinə çevrildi. XVIII əsrin əvvəllərində Türkiyə zəiflədiyi bir şəraitdə ucqar İraqda osmanlı canişinlərinin hakimiyyəti möhkəmləndi. Bağdad paşası Həsən 1702-1723-cü illərdə 40 minlik bir ordu yaratmışdı. Bu ordunun yarıdan çoxu yerli ərəblərdən ibarət idi. Həsən bir də gürcü kölələrdən ibarət "küləmən" qvardiyası da yaratmışdı.

XVIII əsrin ortalarından etibarən siyasi vəziyyət dəyişməyə başladı və küləmənlər əslində ölkənin imtiyazlı tayfalarına çevrildilər. 1780-1802-ci illərdə İraqda hətta mənşəcə gürcü Böyük Süleyman hökmranlıq edirdi. O, ingilis Ost-Hind kompaniyasının yardımı ilə hakimiyyət başına gəlmişdi. Süleyman mütərəqqi idarəçilik formalarına görə qüdrətli hakim oldu. XIX əsrin əvvəllərində küləmən-hakimlər 1801-ci ildə Kərbəlanı tutan və 1808-ci ildə isə Bağdadı tutmağa çalışan vahabilərə qarşı mübarizə aparmalı oldular. Vahabilər geri çəkildikdən sonra Türkiyə sultanı II Mahmud əslində İraqın əldə etmiş olduğu muxtariyyətinə son qoymağa çalışırdı. 1817-ci ildə şiddətli mübarizə şəraitində Böyük Süleymanın yeznəsi gürcü Davud hakimiyyətə keçdi. O, 1817-ci ildən 1831-ci ilə qədər Bağdadın paşası oldu.

Davudun hakimiyyəti bəzi cəhətdən Misirdə Məhəmmədəlinin fəaliyyətinə oxşayırdı. O, küləmənlərin özbaşınalığına son qoydu. Öz nizami ordusunu Avropa qaydasında yenidən qurmaq üçün Davud ingilis təlimatçılarını dəvət etdi. Sipahilər nümunəsində təlim alan və hərbi libas geyinən bir neçə min nəfərlik piyada hissə və güclü topçu dəstəsi yaradıldı. Bundan başqa, Davudun 25 min nəfərlik köhnə tipli piyada və süvari dəstələri, həmçinin müttəfiq ərəb qəbilələrindən təşkil olunan dəstələri var idi.

Davud öz əyalətinin gəlirlərini artırmağa çalışırdı. İraqın əsas kənd təsərrüfatı məhsulu olan taxıl və xurma ticarəti

inhisara alınmış, İraqın öz xüsusi çay və dəniz donanması yaradılmışdı. Misirdə olduğu kimi, İraqda da Davud pambıq və şəkərqamışı yetişdirmək istəyirdi, lakin bundan bir nəticə çıxmadı. Sonra, Kərbəla və Nəcəfə gedən şiə zəvvarlar üzərinə vergi qoyuldu. Bu siyasətin özü də dini və siyasi xarakter daşıdığına görə gələcəkdə Davud idarəçilik sisteminə qarşı yeni problemlər yarada bilərdi və bu problem gözlənilirdi.

İqtisadi və hərbi cəhətdən qüvvətlənən Davud Türkiyədən tədricən ayrılmağa çalışırdı. II Mahmud Ədirnə sülhünə görə təzminat vermək üçün İraqdan vəsait istədikdə Davud rədd cavabı verdi və 1830-cu ildə açıqdan-açığa Türkiyə ilə əlaqəsini kəsdi. Sultan buna cavab olaraq Əli Rzanın komandanlığı altında İraqa ordu göndərdi. Lakin Əli Rza Mosulu tutduqdan sonra daha irəliləməyə cürət etmədi. Davud öz yaxşı hazırlıqlı qoşunları ilə birlikdə onu cəsarətlə Bağdadda gözləyirdi. Lakin 1831-ci ilin martında İraqda dəhşətli taun xəstəliyi baş verdi və bu xəstəlik Davudun ordusunu tələf etdi. Davudun özü isə türklər tərəfindən əsir edildi. Bütün küləmənlərdən yalnız dörd nəfər, Teylorun təlim vermiş olduğu əsgərlərdən isə bir nəfər sağ qaldı. Taun xəstəliyi yalnız Əli Rzanın qoşunlarının dayandığı dağlıq və şimal rayonlarına sirayət etməmişdi. Taun xəstəliyi təhlükəsi sovuşduqdan sonra, türk sərkərdəsi asanlıqla Bağdadı işğal etdi. Davud isə 1850-ci ildə Türkiyədə əsirlikdə vəfat etdi. Onun hakimiyyətinin süqutundan sonra İraqın nisbi müstəqillik dövrü (1702-1831) başa çatdı.

Viranedici yürüşlər nəticəsində ölkə xarabazarlığa çevrilib dağılmışdı. Bağdadda 150 min əhalidən yalnız 20 min, Bəsrə də isə 80 min əhalidən 5 min adam sağ qalmışdı. Tarlalar səhraya çevrilmişdi, bellənib becərilməyən xurma bağları məhv olurdu, iqtisadiyyatda köçəri və yarımköçəri qəbilələrin ibtidai təsərrüfatının nisbəti artmışdı. İraq o dərəcədə zəifləmişdi ki, bir il sonra, yəni 1832-ci ildə Türkiyənin məğlubiyyətlərindən bəhrələnə bilmədi, yəni iqtisadi, hərbi qüdrətini bir yerə cəmləşdirmək imkanından uzaq idi.

Ölkənin müdafiə qüdrətinin bərpası zərurəti meydana çıxdığına görə 1848-ci ildə Bağdadda VI ordu korpusunun qərargahı yaradıldı. İraqlıların bir hissəsi türk ordusunda

xidmətə həvəs göstərirdi və onlar ixtisaslı zabitlər olurdular. Lakin bir müddətdən sonra ərəb mənşəli zabitlərə münasibət dəyişdi. Sonralar türk ordusundakı ərəb zabitlərinin əksəriyyəti İraqdan çıxaraq məcburi mühacirət etməli oldular.

XIX əsrin 60-cı illərində İngiltərənin Şərq siyasəti daha da fəallaşdı. Artıq 60-cı illərdə ingilis kapitalı İraqda öz mövqeyini möhkəmlədirdi və ingilis kompaniyası Dəclə çayında Bəsrə ilə Bağdad arasında gəmi nəqliyyatını təşkil etdi. Bəsrədən Hindistana müntəzəm surətdə gəmilər gedib-gəlirdi. İngilislər Ost-Hind teleqraf xəttini İraqdan keçirdilər ki, operativ idarəçilik sistemi yaransın.

1869-1872-ci illərdə İraqın canişini olmuş, Türkiyənin görkəmli dövlət xadimi Midhət paşanın fəaliyyəti və islahatları İraq tarixində görkəmli rol oynadı. Belə ki, ilk əvvəl Midhət paşa inzibati idarələri yeniləşdirdi. O, iraqlıları idarə işlərinə cəlb etmək istəyirdi. Əsas şəhərlərdə şəhər şuraları yaradıldı. Bundan başqa Midhət paşa Türkiyə hüquq islahatını İraqda da həyata keçirərək Avropa nümunəsində yeni məhkəmələr təşkil etdi.

Midhət paşa Bağdadda yun və çit fabrikləri, gön zavodu açdı. VI hərbi korpus İraqın özündə hazırlanan geyimlə təchiz edilməyə başlandı. Bağdadın yaxınlığında ilk buxar dəyirmanı işləməyə başladı, silah-sursat zavodu tikildi. Midhət paşa Süveyş kanalı vasitəsilə Bəsrə, İstanbul və London arasında müntəzəm gəmi nəqliyyatı təşkil etdi və bu məqsədlə Avropadan gəmilər satın aldı. Ticarəti genişləndirmək üçün bir sıra tədbirlər həyata keçirildi ki, iraqlılar üçün yeni iş yerlərinin açılması, xalqın həyat şəraitinin yaxşılaşması nəticəsində xalqın hakimiyyətə münasibətini dəyişdirdi, hakimiyyətə qarşı yerli xalqda əvvəllər mövcud olan antoqonist münasibətin dəyişməsinə şərait yaradıldı.

Midhət paşa daxili büdcəni zənginləşdirmək məqsədilə başqa hakimlərdən fərqli olaraq vergiləri, cərimələri artırmadı, əksinə xeyli güzəştlər etdi. O, boş qalan, əkilib-biçilməyən torpaqlar haqqında sərəncam verdi. Yeni vəsait əldə etmək və əyalətin büdcəsini artırmaq məqsədilə Midhət paşa boş qalan dövlət torpaqlarını açıq şəkildə hərraca çıxardı. Xurma məhsulunun onda bir hissəsinin alınması daimi pul vergisi ilə

əvəz edildi. Kənd təsərrüfat kreditini inkişaf etdirmək üçün Midhət paşa xüsusi xəzinələr təşkil etdi.

İraqda Avropa nümunəsində ilk mülki və hərbi məktəblər açıldı, çoxlu sənət məktəbləri yaradıldı. Bağdadda ilk qəzet çıxmağa başladı ki, bu da milli mədəniyyətə, milli şüurun formalaşmasına müsbət təsir göstərdi.

Böyük şəhərlərdə hərbi xəstəxanalar, Bağdadda isə həm də mülki vətəndaşlar üçün böyük bir xəstəxana yaradıldı və su kəməri çəkilməsinə başlandı. Bu haqda mətbuatda fasilələrlə məqalələr dərc edilirdi. Odur ki, İraqa su çəkilişi ilə əlaqədar mətbuat yazırdı ki, "Əsrlər boyu su problemi ilə yaşayan İraq xalqı Midhət paşanın xeyirxahlığı nəticəsində obrazlı şəkildə desək, cənnətə qovuşdu".

Midhət paşanın fəaliyyəti İraqda bəzi orta əsr qalıqlarının aradan qaldırılmasına və ötüb keçməsinə kömək etdi. Lakin bununla bərabər hakim türk millətçisi olan Midhət paşa Türkiyə imperiyasının əsarətdə saxladığı xalqların milli hüquqlarını tanımaq səviyyəsinə yüksəlməyə qadir deyildi. Canişinin əsas cəza zərbəsi əvvəllər vergidən və hərbi xidmətə çağırışdan azad olan qəbilələrin üzərinə düşdü. Canişin hərbi mükəlləfiyyət məsələsinə çox ciddi münasibətdə olduğuna görə onların üzərinə çoxlu vergi qoydu, fəllahlar kimi bədəviləri də türk ordusunda hərbi mükəlləfiyyət daşımağa məcbur etdi və qəbilələri tərksilah olundu. Midhət paşa bəzi despotik qaydaları tətbiq etməklə özünü nüfuzdan saldı. Bütün bunlara cavab olaraq öz istiqlaliyyəti uğrunda mübarizə aparan ərəb qəbilələrinin üsyanları baş verirdi. Midhət paşa tabe olmayanları güllələyir və sürgün edirdi. O, hətta üsyançı Şəmmar qəbilələrini darmadağın edərək onların şeyxini də edam etdirdi. Bu hadisələrdən sonra İraq ərəbləri Midhət paşaya düşməncəsinə yanaşırdılar. Bu səbəbdən İraqda Osmanlı despotik idarəçilik sisteminə qarşı ümumi narazılıq güclənməkdə və yeni mərhələyə daxil olmaqda idi. Bunula yanaşı, Midhət paşa bəlkə də dərk etmirdi ki, idarəçilik sisteminin ən mütərəqqi yolu ədalətli idarəçiliklə xalqın rəğbətini qazanmaqdı. Despotik üsul isə ölkəni tənəzzülə sürükləməsidir.

# SURİYA

Hələ XV əsrin sonu və XVI əsrin əvvəllərində bir çox xalqlar və dövlətlər imperiyaların istilasına məruz qalmışdı. İmperiyaların müstəmləkələr uğrunda qızğın rəqabət apardığı dövrdə 1516-cı ildə Suriya Osmanlı türkləri tərəfindən işğal edilmişdi. O zaman Suriya tərkibinə daxil olan Dağlıq Livan və Fələstin yerli feodal hakimlər köhnə qaydada olduğu üçün vəzifələrində qaldı və onlar türk sultanının vassalları oldu. Suriyanın qalan yerləri isə üç vilayətə bölünüb bilavasitə Osmanlı dövləti tərəfindən idarə edilirdi. Suriya ərəbləri türklərə qarşı dəfələrlə üsyan qaldırdı. XVIII əsrin ortalarında Şimali Fələstin və Cənubi Livan ərəbləri osmanlı işğalçılarına qarşı uzun sürən mübarizə apardılar. XVIII əsrin axırlarında başlanan bu üsyan nəhayət məğlub edildi. Bu mübarizəyə ərəblərin içərisindən çıxmış yerli xalqın nümayəndəsi Dahir Ömər başçılıq edirdi. Üsyana həmçinin ərəb feodalları qoşulsa da, əsas aparıcı qüvvə kəndlilər və bədəvilər idi. Türkiyə 1775-ci ildə Dahir Öməri çox çətinliklə məğlub etdi. Bundan sonra Cənubi Suriyada türk paşası Cəzzarın istibdadçı rejimi yarandı və tam 30 il sürdü. Bu dövr şiddətli feodal irticası dövrü başlandı. 1788-ci ildə Cəzzarın razılığı ilə yerli Şihabilər sülaləsinin nümayəndəsi II Bəşir Dağlıq Livanın əmiri oldu. 1799-cu ildə Cəzzar ingilis donanmasının yardımı ilə Napoleonun Fələstinə yürüşünü dəf etdi. 1804-cü ildə Cəzzar öləndən sonra onun terror və qarətə əsaslanan feodal dövləti parçalandı. 1804-1831-ci illərdə Dəməşq, Trablis və Əkkənin türk paşaları öz qoşunlarına arxalanaraq hökmranlıq etdilər. Livanda II Bəşir digər feodal tayfalarını məhv edərək, onların əmlakını əlinə keçirdi və öz hakimiyyətini möhkəmlətdi. II Bəşir 1825-ci ildə druz feodallarının hərbi koalisiyasını amansızcasına darmadağın etdi. Bundan başqa, həmin dövrdə Avropa kapitalistləri Suriyaya soxulur və burada kapitulyasiya rejimindən istifadə edərək onu öz malları üçün satış bazarına çevirməyə başlayırlar.

XIX əsrin birinci rübündə Misir hakimi Məhəmmədəlinin oğlu yenidən işğalçılıq həvəsinə düşdü. O, düşünürdü ki, Suriyanın işğalı Misir üçün xeyli mənfəət gətirə bilər. Odur ki, 1831-ci ilin payızında Misir hökmdarı Məhəmmədəlinin

oğlu İbrahim Suriyaya soxuldu. O, 1832-ci ilin mayında Əkkəni aldı, iyunun 13-də isə Dəməşqə daxil oldu. Əhali osmanlı zülmünə qarşı mübarizədə İbrahimi öz xilaskarı hesab edib, onu sevinclə və rəğbətlə qarşıladı. 1832-ci ilin iyulunda Misir ordusu türklər üzərində iki dəfə parlaq qələbə çaldı və bütün Suriyanı işğal etdi. Nəticədə 1833-cü ilin mayında Türkiyə ölkənin idarə edilməsini rəsmən Məhəmmədəliyə həvalə etdi. İbrahim isə Suriyada Məhəmmədəlinin canişini oldu.

İbrahim Suriyada ən vacib sahə olan strateji sahədə inzibati sistemi yenidən qurdu, o möhkəm mərkəzləşdirmə siyasəti yeridərək mütləq hakimlik iddiasında idi. Amma İbrahimin ideyalarının əksinə olan hadisələr baş verdi. Suriya mahallara bölündü və bunlar İbrahimin təyin etdiyi qubernatorlar tərəfindən idarə edilirdi. Eyni zamanda misirlilər tərəfinə keçən II Bəşir Dağlıq Livanda öz hakimiyyətini mühafizə edib saxladı.

Misir canişini obyektiv olaraq mütərəqqi xarakter daşıyan bir sıra tədbirlər həyata keçirdi. Feodal hərc-mərcliyi və iğtişaşlarına son qoyuldu. İbrahim türklərin hakimiyyəti dövründə xristianlar üçün qoyulmuş həqarətli məhdudiyyətləri ləğv etdi, ölkədə tolerantlığa şərait yaratdı və onların da qanunun himayəsi altında olmasını təmin etdi. O, ölkənin kənd təsərrüfatını yüksəltməyə çalışır, taxıl əkini sahələrini genişləndirirdi. İbrahim heyvandarlığı inkişaf etdirmək məqsədilə Antakya yaxınlığında böyük bir nümunəvi maldarlıq ferması təşkil etdi. Bununla yanaşı o, özbaşına cərimə və vergi alınmasına qarşı mübarizə aparırdı. Bundan başqa o, yoluxucu xəstəliklərə qarşı karantinlər düzəltdi, poçt-rabitə xidmətini qaydaya saldı. Bir çox ibtidai məktəblər, o cümlədən Dəməşqdə 600 şagird üçün, Hələbdə 400 şagird üçün məktəb və Antakyada üç orta məktəb açılmışdı. Canişin, xristian missionerlərinə də icazə verdi ki, məktəblər açsınlar. O, bu yolla xalq maarifi işini yaxşılaşdırmaq ümidində idi. Missionerlər isə Beyrutda qızlar üçün ilk məktəb açdılar və mətbəə təşkil etdilər.

Lakin bu səmərəli tədbirlərin ölkə həyatına dərin təsir göstərməsi üçün vaxt yox idi. Əhali Misir hakimiyyətinin mənfi cəhətlərini daha çox hiss etməkdə idi. Məhəmmədəli daim Türkiyə ilə yeni müharibə təhlükəsi şəraitində idi və buna görə

İbrahim öz silahlı qüvvələrini artırmalı və istehkamlar tikdirməli olurdu. Əlbəttə, bu cür hərbi işlərə çoxlu vəsait xərclənirdi. Əlavə vəsaitlər əldə etmək üçün o, yeni can vergisi qoydu, vergi yığılması işində ellik zəmanət qaydası tətbiq etdi. İnhisarlar sistemi Suriyaya da yayıldı. İpək və pambıq üçün qoyulmuş inhisar əməli surətdə həyata keçirilirdi. Əhalini yol və istehkam tikintisinə cəlb edirdilər və bu işlər mövsümi və icbari idi. Bununla yanaşı, İbrahim ordunun sıralarını artırmaq üçün hərbi xidmətə çağırışa başladı. Bütün əhalinin tərksilah edilməsi haqqında İbrahimin əmri də çox narazılıqla qarşılanırdı.

1834-cü ildə Nabulusda bunun ardınca nüsəyrilərin üsyanı baş verdi. Bu üsyanlar qəddarlıqla yatırıldı və 180 kənd yandırıldı. 1837-ci ilin axırlarında druzlar ayağa qalxdı. Onlar Hauran vilayətində hakimiyyətə qarşı bir ildən artıq mübarizə apardılar. Onlara qarşı vuruşmalarda İbrahim 15 min əsgər itirdi ki, bu da Türkiyə ilə bütün müharibə dövründəki tələfatdan çox idi. Buna baxmayaraq, İbrahim tam qələbə əldə edə bilmədi, druzların öz qanun-qaydaları əsasında yaşamaq hüquqlarını tanımağa, onları hərbi qulluğa çağırışdan azad etməyə məcbur oldu. Başqa yollarla da müqavimət göstərilirdi. Uzun müddət xalq İbrahimin qəddar rejiminə qarşı çıxdı və altı il ərzində İbrahim orduya 35 mindən artıq adam səfərbərliyə ala bilmədi. Halbuki, 100 minə qədər adam Türkiyəyə və bədəvilərin yanına qaçmış, dağlarda gizlənmişdi. Suriyanın işğalı Məhəmmədəliyə baha başa gəldi. Suriyanın gəlirlərinin olduqca artırılmasına və 70 milyon piastra çatdırılmasına baxmayaraq, hər halda bu gəlirlər azlıq edirdi və Misir xəzinəsi hər il İbrahimə 30-40 milyon piastr əlavə vəsait verməli olurdu.

1833-1840-cı illərdə Məhəmmədəli ilə Türkiyə arasında müharibə getdiyi zaman Suriyada həlledici hərbi əməliyyatlar genişləndi. 1839-cu il iyunun 26-da İbrahim Nəzib yaxınlığında türk qoşunlarını məğlub etdi. Belə bir şəraitdə ingilislər türklərin köməyinə gəldi. 1840-cı ilin payızında ingilis donanması Suriya sahillərinə yan alaraq oranı atəşə tutdular və Beyruta, Trablisə, Əkkəyə, Səydəyə ingilis desantları çıxarıldı. Suriyalılar dərhal ümumxalq üsyanına başladı. Onların zərbələri altında İbrahimin 70 minlik ordusu tamamilə dağı-

dıldı. 1840-cı ilin axırlarında misirlilər 40 mindən artıq adam tələfat verərək Suriyanı tərk etməli oldu, əvəzində isə Suriyanı türk qoşunları işğal etdi.

Bununla da Suriya geriyə, türk əsarəti və feodal hərcmərcliyi dövründəki vəziyyətə qaytarılmış oldu. Bununla yanaşı, Suriyanın daxili işlərinə İngiltərə və Fransanın qarışması yenidən açıq xarakter aldı. İngiltərə druz feodallarından, Fransa isə maronitlərdən istifadə edirdi.

Buna cavab olaraq satqınçılıqda ittiham edilən II Bəşir Türkiyə tərəfindən hakimiyyətdən kənar edildi və druz feodalları 20-ci illərin ortalarında əmirin zorla almış olduğu öz yerlərini geri qaytarmaq uğrunda mübarizəyə başladılar. Livanda şiddətli feodal müharibəsi başlandı. Türkiyə bundan istifadə edərək 1841-ci ilin axırlarında Şəhabilər sulaləsini qəti surətdə məğlub etdi və özünün despotik idarə rejimini Livana da yaymağa və tətbiq etməyə təşəbbüs göstərdi. Lakin İngiltərə və Fransanın təzyiqi altında Türkiyə hökuməti 1843-cü ildə Livanı qubernator başda olmaqla Şimali və druz qubernatoru başda olmaqla Cənubi Livana böldü. Druz feodalları öz malikanələrinə yiyələndilər. Buna cavab olaraq Cənubi Livan maronitləri onlara qarşı üsyan etdi. Bu üsyan əvvəlcədən qəsdən hazırlanmışdı və üsyançıların şüurunun zəif olması nəticəsində maronitlərin bu çıxışı maronitlərlə druzlar arasında qırğına çevrildi. Təhlükəli antifeodal hərəkatını və milli qırğını yatırmaqda Türkiyə druz feodallarına kömək etdi. Hərəkat silah gücünə yatırıldı.

1858-ci ildə Şimali Livanda yeni, daha böyük antifeodal üsyan başlandı. Burada maronit kəndlilər maronit feodallarına qarşı çıxış etdilər. Üsyanın rəhbəri istedadlı təşkilatçı, dəmirçi işləyən Tənyus Şahin idi. O, dərhal silahlı dəstələr yaratdı və onun yaratdığı silahlı dəstələr türk qoşunlarının hücumlarını dəf etdilər. Azad edilmiş vilayətdə 1859-cu ildə Şahin başda olmaqla kəndli respublikası yaradıldı və Türkiyə bunu tanımağa məcbur oldu. Üsyanın müvəffəqiyyətləri bütün feodal sinfində, habelə xarici müstəmləkəçilərdə çox böyük təşvişə səbəb oldu.

Üsyançılara qarşı mübarizə üçün sınaqdan çıxmış təxribat hazırlandı, bu təxribat dini nifaq salmaq metodu idi.

1860-cı ildə Livanda iri müsəlman feodallarının qızışdırdığı yeni maronit druz qırğını başlandı. Qırğının təşkilində Suriyanın işlərinə müdaxilə etmək üçün bəhanə axtaran fransız imperatoru III Napoleonun və Türkiyə hökumət orqanlarının da əli var idi. Öz həmdinlərinin yardımına gələn Şahin druzlar tərəfindən məğlub edildi və ağır tələfat verdi. Yayadək qırğın Suriyanın başqa rayonlarını da bürüdü. Türkiyə məmurlarının xəbərdarlığı və hətta iştirakı ilə 1860-cı il iyulun 9-da Dəməşqdə xristianların qırğını baş verdi və 5 min adam məhv edildi. Bu hadisələr hər yerdə coşqun qəzəb oyatdı. Nəhayət, ölkədə baş alıb gedən qırğınların dayandırılması məqsədilə İstanbul hökuməti işə qarışmaq qərarına gəldi. Bu problemlə əlaqədar hökumət təsirli tədbirlər gprdü, hətta silaha əl atmalı oldu və ələ keçən müqəssirləri və hətta müqəssir olmayanları da edam edərək qırğını dayandırdı. Lakin III Napoleonun da Suriyaya maraqları hələ də qalmaqda idi. O, 1860-cı ilin sentyabrında fransız qoşunlarını Livana yeritdi. Maronit feodalları fransızlardan hərtərəfli yardım aldı və 1861-ci ildə Şahini qəti surətdə məğlub edərək onun hərəkatını məğlubiyyətə uğratdılar.

Fransa Livanda möhkəmlənə bilmədi. İngiltərənin təzyiqi altında 1861-ci ilin iyununda Fransa öz qoşunlarını Livandan çıxardı. Türkiyə Livana muxtariyyət vəd etməyə məcbur oldu. 1864-cü ildə elan edilən Üzvi nizamnaməyə əsasən Dağlıq Livanda muxtar sancaq yaradıldı. Bu kiçik mahal (Beyrut buraya daxil deyildi) Türkiyənin təyin və Avropa dövlətlərinin təsdiq etdiyi xristian qubernator tərəfindən idarə olunurdu. Vergilərin yığılması və nizam-intizamın gözlənilməsi onun ixtiyarında idi. Yerli əhalidən toplanan jandarm dəstəsi onun sərəncamında idi. Qubernator nəzdində seçkili inzibati şura yaradılmışdı. Amma Livanda ciddi bir dəyişiklik baş vermədi, əksinə bununla xaricilərin Livana müdaxiləsinə əlverişli şərait yaradırdı. Eyni zamanda bu Nizamnamə Livana nüfuz etmək üçün müstəmləkəçilərə əlavə imkanlar verdi. Lakin Nizamnamə eyni zamanda livanlılar üçün müəyyən dəyişikliklərə səbə oldu və türklərin hakimiyyətini xeyli zəif-

lətdi. Antifeodal mübarizə də öz nəticələrini verdi. Sinfi mübarizənin son həddə çatması nəticəsində nizamnaməyə əsasən feodal imtiyazları və kəndlilərin təhkimli vəziyyəti ləğv edildi. Həmçinin Nizamnamə verilməsinə baxmayaraq xalq hərəkatı dayanmadı. Türkiyə xidmətində olan erməni Davud paşa ilk qubernator təyin edildi. Lakin xalq kütlələri yerli qubernator təyin olunmasını tələb edir və əcnəbiyə vergi verməkdən boyun qaçırırdılar. Maronit zadəganlarının bir hissəsinin də qoşulduğu üsyan baş versə də, lakin Davud bu üsyanı yatırdı. Ölkədə sərəncamlar, əmr və qərarlar verməklə mövcud vəziyyəti düzəltmək mümkün deyildi. Odur ki, ölkədə hələlik stabillik əldə edilməsi mümkün deyildi.

Ölkədəki gərginliyə baxmayaraq 60-70-ci illərdə Suriyanın iqtisadi həyatında bir qədər yüksəliş oldu. O zaman Suriyada 1,5 milyon əhali yaşayırdı. Kənd təsərrüfatı məhsulları istehsalı çoxalır, xarici ticarət artır, əlaqələr genişlənməkdə idi.

